ISSN 2221-8432

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Slavyan Universiteti

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

(ALİ MƏKTƏBLƏR ARASI ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ)

Актуальные проблемы изучения гуманитарных наук

Межвузовский сборник научных статей

The actual problems of study of humanities

Interuniversity collection of scientific articles

3/2017

ISSN 2221-8432

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Ali məktəblərarası elmi məqalələr məcmuəsi

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

Межвузовский сборник научных статей

THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

Interuniversity collection of scientific articles

№3

2017

Məcmuə 1997-ci ildən nəşr olunur.

İldə 4 nömrə çıxır.

Redaksiyanın ünvanı:
Bakı şəh., Rəsul Rza küç., 125
Tel.: 596 21 44; 4970625
Faks: 5962144
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Bakı – 2017

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
Rüblük elmi nəşr

Redaksiya heyəti:

Dilçilik
filol. e. d., prof. **A.M.Məmmədli**
filol. e. d., prof. **A.Ə.Həsənov**
filol. e. d., prof. **T.H.Şükürbəyli**
filol. e. d., prof. **T.H.Məmmədova**
filol. e. d., prof. **F.Y.Veysəlli**
filol. e. d., prof. **İ.H.Həmidov**
filol. e. d., prof. **F.F.Cahangirov**
filol. e. d., dos. **N.Ş.Məmmədov**
filol. f. d., dos. **E.Ə.Şükürlü**

Ədəbiyyatşünaslıq
filol. e. d., prof. **R.M.Novruzov**
filol. e. d., prof. **M.Q.Qocayev**
filol. e. d., prof. **Ş.H.Xəlilli**
filol. e. d., prof. **R.M.Qeybullayeva**
filol. e. d., prof. **N.T.Məmmədov**
filol. e. d., dos. **R.K.Rəsulov**
filol. f. d., dos. **İ.M.Carçıyeva**
filol. f. d., dos. **Ə.Ç.Ağamirzəyev**

Pedaqogika
ped. e. d., prof. **A.N.Abbasov**
ped. e. d., prof. **O.M.Rəcəbov**
ped. e. d., prof. **F.N.İbrahimov**
ped. e. d., prof. **K.A.Məmmədov**
ped. e. d., dos. **İ.H.Cəbrayılov**
ped. f. d., dos. **O.Ə.Səmədov**
ped. f. d., dos. **Y.K.Alxasov**

İctimai elmlər
tarix e.d., prof**. M.C.Qasımlı**
fəlsəfə e.d., prof. **M.A.Əliyev**
fəlsəfə e.d., prof. **C.R.Məmmədov**
tarix e.d., prof. **F.F.İbrahimli**
tarix e.d., prof. **M.İ.Əmrahov**

Buraxılışa məsul: filol.e.d., prof. **T.H.Cəfərov**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. № 3/2017. – Bakı: Mütərcim, 2017. – 334 s.

Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Сборник включен в Перечень рекомендуемых научных журналов, в которых должны быть опубликованы основные научные результаты диссертаций Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики.

© Məqalə müəllifləri, 2017
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsi redaksiyası, 2017

DİLÇİLİK - ЛИНГВИСТИКА

Y.M.ABBASOVA
filologiya üzrə fəlsəfə doktoru
e-mail: yeganahuseynova@m

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
(Bakı şəh., İstiqlaliyyət küç., 6.)

DİLÇİLİKDƏ MORFEM TƏRKİBİNİN TƏDQİQİNƏ DAİR

Açar sözlər: *morfem, sinsemantik morfem, dil vahidi, morfoloji üzvlənmə, affiksal morfem*
Ключевые слова: *морфема, синсемантические морфемы, языковая единица, морфологическое членение, аффиксальная морфема*
Key words: *morpheme, synsemantic morphemes, linguistic unit, morphologic segmentation, affixal morpheme*

Dilin morfem tərkibini öyrənən elmə morfologiya deyilir. Qeyd edək ki, bu, şərti xarakter daşıyır, çünki sözün morfem dəyişikliyinin əsl mahiyyəti sintaktik səviyyədə açılır. Bununla bağlı akad. L. V. Şerba sual verirdi: isim hallandığına görə isimdir, yoxsa isim olduğu üçün hallanır? Doğrudan da, bu suala yalnız morfologiya ilə sintaksisin qarşılıqlı əlaqəsindən çıxış edərək cavab vermək olar.

İşarələr sistemi olan dildə fonoloji səviyyədən sonra 2-ci yerdə morfoloji səviyyə gəlir. Bu səviyyənin vahidinin adı morfemdir. Fonemdən fərqli olaraq, morfem dilin ikitərəfli ən kiçik vahididir, yəni morfemin həm ifadə edəni, həm fonetik tərəfi, həm də ifadə olunanı, yəni məzmun tərəfi var. Başqa sözlə desək, morfem dilin mənaya malik ən kiçik hissələrə bölünə bilməz. Məs., alman dilində: /lo:s/ "sız, siz, suz, süz" morfemi özündən kiçik morfemlərə bölünmür. "Morfemlər dil ifadələrində ən kiçik fərdi mənası olan ünsürdür".

Qrammatik forma ilə qrammatik mənanın vəhdəti qrammatik kateqoriya yaradır. ‘’Bu və ya digər qrammatik göstəricilərlə sistematik olaraq ifadə olunan eyni cinsli qrammatik kateqoriya kimi müəyyənləşdirmək olar.’’İngilis dilində cins kateqoriyası üçüzvlü də olsa, cinsin fərqləndirilməsi yalnız 3-cü şəxsə aiddir. Məs; *he, she, it,* ya da *itself, herself*. Qalan hallarda isə cins semantik məna ilə bağlı ola bilər, başqa sözlə desək, o, qrammatik kateqoriya səviyyəsində olmur. Müq.et; *girl-boy, brother-sister*\ və s. Buradakı sıranı paradiqm də adlandırmaq olar. Məs., ingilis dilində felin indiki zamanda bircə qramemi var ki, o, da müxtəlif variantlarda *s, z, iz*\ kimi cıxış edir. Qarşılaşdırma nə qədər çox olarsa, o qədər də göstəricilərın qrammatik məna fərqləndirmək imkanı olur.

Elə kateqoriyalar var ki, bir neçə söz qrupunu əhatə edir. İngilis dilində əvəzliklər nominativ və akuzativə bölünür: */ I-me, he-him, she-her /.* Azərbaycan dilində felin məlum / məchul növləri var *(yazmaq – yazılmaq)* və s.

Morfem anlayışını ilk dəfə dilçiliyə gətirən İ. A. Boduen de Kurtene olmuşdur. O, morfemi sözün məna daşıyan ən kiçik hissəciyi kimi başa düşmüşdür.

Morfemlərin danışıq aktından ayrılması fonemlərə nisbətən çox asandır, çünki Y. S. Maslovun (1908 - 1977) dediyi kimi, morfemlərin ifadə tərəfindən başqa, həm də məna tərəfi vardır. Məs., */ bild+ər /* və */ kind+ər /* sözlərində */ bild / / kind /* morfemlərini kommutasiya (yerdəyişmə) prinsipilə bir-birinin yerində işlətməklə yeni ifadələr yarada

bilirik. Ancaq biz danışıq kontinuumunun morfemlərə parçalanmasını bu cür mexaniki yolla deyil, sırf linqvistik metodla göstərmək istərdik.

İ. A. Boduen de Kurtene sözün tərkibinə daxil olan kök, suffuks, fleksiya, prefiks kimi elementlərini bir "element"də birləşdirmiş və bu kiçik, bölünməz və mənalı "element"i morfem adlandırmışdır (2, s.181).

N. Kruşevski İ. A. Boduen de Kurtenenin dilin özündən kiçik hissələrə bölünməyən vahidi kimi qəbul etdiyi morfemin səslərə parçalanması fikrini irəli sürmüşdür: "morfoloji vahidlər nitq bölgüsünün son vahidləri deyildir və onlar da səslərə bölünürlər. ... danışığın tərkib hissəsi cümlə, cümlənin tərkib hissəsi söz, sözün tərkib hissəsi - fizioloji vahidlərdən təşkil olunur" (4, s.419).

L. V. Şerba isə morfemi kök və affikslərin ümumiləşməsi, sözün minimal məna kəsb edən hissəsi kimi başa düşürdü: "... söz morfemlərə, yəni bu və ya digər dildə müəyyən mənaya malik hissələrə bölünür. Morfemlər vahidlərin məna nöqteyi-nəzərindən bölünməzdir " (3, s.667).

Morfemi İ. A. Boduen de Kurtenenin anlamında qəbul edən praqalılar onu özündən kiçik vahidlərə bölünməyən morfoloji vahid, eyni formal funksiya ilə bir sıra sözlərdə çıxış edən və bu xüsusiyyətli kiçik hissələrə parçalana bilməyən hissə kimi şərh etmişlər. Sözün bu cür anlaşılması "real", "maddi" mənası ilə qarşı-qarşıya qoyulma kimi başa düşülə bilər, bu isə praqalıların morfemin müəyyən edilməsində nəzərdə tutulmamışdır, çünki onlar heç bir halda kökü morfemlərin siyahısından istisna etmirlər.

Morfemlər fonemlərin ardıcıllığını təmsil edirlər (5, s.91). Fonemlərin bu ardıcıllığı təkrar olunur, ancaq heç də bütün təkrar olunan ardıcıllıqlar morfem deyildir, */əv/* kimi ardıcıllığı müvəffəqiyyətlə ingilis dilinə xas bir hadisə kimi öyrənmək və bu və digər oxşar ardıcıllıqlara münasibətdə ümumiləşdirmələr etmək olar.

A. Noren morfem kimi məna ifadə edən və affikslər kimi bir səsdən ibarət olan səs kəsimlərindən başlayaraq cümlələrə kimi olan istənilən səs kəsimlərini başa düşür. (3, s.673). Y. S. Maslov yazır ki, A. Norenə görə, “sememlər” və morfemlər arasındakı münasibətlərin mahiyyəti F. De Sössürün irəli sürdüyü “ifadə edən” və “ifadə edilən” münasibətinə uyğundur (3, s.673).

J. Vandriyesə görə, semantem sözüm “real”, leksik mənasının daşıyıcısıdır. Semantem praktik olaraq həmişə səs və yaxud səs kompleksi, nitq axınında xətti ayrılmaya malik olan səslənmə kəsimidir. Semantema anlayışı kök (əsas) anlayışına yaxındır, ancaq semantema onlarla eyniləşə bilmir.

F. Y. Veysəlli qeyd edir ki, morfem dilin mənaya malik ən kiçik vahididir və onun həm ifadə edəni, yəni fonetik tərəfi, həm də ifadə olunanı, yəni məzmun tərəfi var (10, 27).

Morfem termini ilə bağlı C. Quliyevin də fikirləri maraqlıdır. Belə ki, o, morfem termininin İ. A. Boduen de Kurtenenin adı ilə bağlı olmasını qəbul etmir: “Morfem termini ilk dəfə hind qrammatikasında Paini tərəfindən işlədilmişdir. İ. A. Boduen de Kurtene isə morfem terminini dilçilik elminə deyil, slavyan dilçiliyinə gətirmişdir” (11, 27).

B. Xəlilov söz və morfem anlayışları arasında mövcud olan fərqlərin hər birinə diqqət yetirməyi vacib sayır (12, 45). Onun fikrincə, birincisi, söz leksik-sematik, morfoloji-qrammatik bütövlüyə malik olan dil vahididir. Ona görə də sözün müstəqil mənası yoxdur.

Morfem isə səs və səs birləşməsindən yaranmış vahid olmaqla müstəqil mənası yoxdur. B. Xəlilov qeyd edir ki, burada kök morfem istisnalıq təşkil edir, çünki kök morfemin leksik-semantik və qrammatik mənası vardır. İkincisi, söz müstəqil mənaya malik olduğu halda, morfem belə bir xüsusiyyətə malik deyildir. Bu zaman yenə kök morfem istisna hal kimi özünü göstərir.

Şəkilçi morfem sözə qoşulduqdan sonra öz ifadəsini sözdə tapır, söz isə müstəqil işlənməklə hər hansı bir məfhumu ifadə edir. B. Xəlilov sözlə morfem arasındakı bu fərqlərin kök morfemə aid olmadığını qeyd edir (12, 45). Belə ki, kök morfemin özü də sözə məxsus

bir sıra xüsusiyyətlərin daşınmasına görə şəkilçi morfemlərdən fərqlənir, çünki kök morfem söz kimi müstəqil işlənir, müəyyən məfhumu bildirir və sintaktik vəzifə daşıyır.

L.A.Boduen de Kurteneyə görə, morfem dilin artıq hissələrə parçalanmayan ən kiçik, mənalı vahididir. Bu termin kök, prefiks, suffiks və sonluq kimi anlayışları əhatə edir.

Bu anlayışı lüzumsuz hesab etmək, ümumiləşdirici məna kəsb edən "ağac" terminini atıb "palıd", "tozağacı", "şam ağacı" kimi adlarla kifayətlənmək kimidir. L.A.Boduen de Kurtene N.Kruşevskinin bölgüsünü yanlış hesab edərək yazır: "N.Kruşevskinin fikrinə əsaslansaq, onda belə bir nəticəyə gəlmək olar ki, insan nitqi cümlələrdən, cümlələr sözlərdən, sözlər morfemlərdən, morfemlər isə səslərdən təşkil olunub".

L.A.Boduen de Kurtenenin fikrincə, bəzən N Kruşevski morfemə, kökə heç bir məna kəsb etməyən sadə səs qrupu kimi baxır və o, tələbəsinin bu fikrinin yalnız diqqətsizlik nəticəsində meydana çıxmasına şübhə ilə yanaşır.

Yuxarıdakı fikirləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, morfemin tərifi ilə bağlı müxtəlif dilçilərin fikirləri onun mahiyyətini və dildə yerinə yetirdiyi funksiyasını bu və ya digər dərəcədə əks etdirir. Bizim fikrimizcə, İ. A. Boduen de Kurtenin tərifi daha dolğundur və onu mahiyyətini tam şəkildə açır.

Ədəbiyyat

1. Березин. Ф. М. История лингвистических учений. М.: Выісшая школа, 1975.
2. Сусов И. П. Введение в языкознание. М.: Восток-Запад, 2007.
3. Маслов Ю. С. Избранные труды: Аспектология. Общее языкознание. М.: Языки славянской культуры, 2004.
4. Крушевский Н. В. Очерк науки о языке / В кн.: Хрестоматия по истории русского языкознания. М.: Высшая школа, 1975.
5. Veysəlli F. Y. German dilçiliyinə giriş. Bakı: Təhsil, 2011.
6. Quliyev C. K. Müasur ingilis dilində mürəkkəb sifətlərin struktur-morfoloji təhlili və tam formalaşma xüsusiyyətləri. Fil. elm. nam.....dis. Bakı, 2006.
7. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə, II hissə, Bakı, 2007.

Е.М.Аббасова

К исследованию морфемы в лингвистике

Резюме

В статье анализируется история единицы второго уровня, т.е. морфема. В данной статье приводится мысли о морфеме таких ученых, как И. А. Бодуэн де Крутенэ, Н.Крушевский, Ю. С. Маслов, В. Б. Касевич, Г. Глисон и др. Подчеркивается, что введение понятие морфемы в лингвистику непосредственно связано с именем И. А. Бодуэн де Крутенэ. В статье морфема оценивается как минимальная элементарная единица языка.

Y.M.Abbasova

About the investigation of a morpheme in linguistics

Summary

The article touches the investigation history of the notion of a morpheme as a unit of second level of the language.

The thoughts of linguists such as I. A. Boduene de Courtene, Y. S. Maslov, N. Krusheviski, L. V. Sherba, V. B. Kasevich, H.Glison and others about morpheme are also referred in the article. The article states that the usage of the notion of a morpheme is related with the name of I. A. Boduene de Courtene.

Rəyçi: filol.e.n., dos. B.Səmədov
Redaksiyaya daxil olub: 30.05.2017

G.H.ADİLOVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

AZƏRBAYCAN BAYATILARINDA QARIŞIQ TİPLİ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏR

Açar sözlər: *bayatı, baş cümlə, budaq cümlə, intonasiya*
Ключевые слова: *баяты, главное предложение, подчинённое предложение, интонация*
Key words: *bayaty, head (major sentence) sentence, branshed sentence (minor sentence, subordinate clause), intonation*

Bayatılar Azərbaycan xalqının söz ehtiyatının zənginliyini, fikrin ifadə imkanlarının rəngarəngliyini, səs quruluşunun səlisliyini və qrammatik strukturunun sabitliyini özündə əks etdirən mükəmməl dil nümunəsidir. Sözlər arasındaki bağlılıq, fikrin ifadəsi üçün dil vahidlərindən necə məharətlə istifadə edilərək müxtəlif quruluşlu cümlə tiplərinin yaradılması hələ neçə yüzilliklər bundan əvvəl xalqın özünün "Ümumxalq dilçilik elmi"ni yaratmağının sübutudur.

Dilin qrammatik qaydalarından xəbərsiz xalq 28 hecadan ibarət 4 misrada birdən səkkizə qədər cümlə qurub fikrin tam ifadəsinə nail olaraq sübut etmişdir ki,"müəllifi Azərbaycan xalqı olan bayatılar əsl xalq dilinə məxsus bir sıra qrammatik, leksik, üslubi və s. xüsusiyyətləri izah etməkdə çox zəngin material verə bilər" (4, s.51).

İctimai, sosial həyatdakı inkişaf cəmiyyətin təfəkküründə də öz əksini tapır. Sadə xalqın həyata baxışı və dünyagörüşü formalaşdıqca, düşüncələrini də daha aydın və ətraflı ifadə etmək zərurəti meydana gəlir. Fikirlər daha mürəkkəb konstruksiyalı cümlələrlə ifadə edilir. Sadə cümlələr və sadə quruluşlu mürəkkəb cümlələrlə kifayətlənməyərək qarışıq tipli mürəkkəb cümlələrlə istəklərini dilə gətirirlər. Bütün bunlar insanların ilk bədii yaradıcılıq nümunələri olan bayatılarda da əksini tapır.

Yazılı ədəbi dildə olduğu kimi, şifahi ədəbi dil nümunələrində də qarışıq tipli mürəkkəb cümlələr iki formada təzahür edir ki, bunlardan biri də qarışıq tipli tabeli mürəkkəb cümlələrdir. Tabeli mürəkkəb cümlələr daha çox budaq cümlələrin artması hesabına qarışıq tipli tabeli mürəkkəb cümlələrə çevrilir. Məsələn:

1. Dövran elə dövrandır,
   Ağlayan çox, gülən az. (3, s.40).
2. Dedim ki, qanlı fələk,
   Canım al, yarım alma. (3, s.35).

Nümunədə göstərilən birinci cümlə təyin budaq cümləli tabeli mürəkkəb cümlə, ikinci cümlə isə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədir. Hər iki cümlənin ikinci komponenti tabesiz mürəkəb cümlədir. Hər iki budaq cümlənin komponentləri arasında qarşılaşdırma əlaqəsi mövcuddur. Verilən cümlələrin hər ikisində baş cümlə əvvəl, budaq cümlə isə sonra işlənmişdir.

Cümlələrin sxemləri:

1.



2.



Bu cür hallar təkcə budaq cümlələrin deyil, baş cümlənin artması nəticəsində də baş verir. Tabeli mürəkkəb cümlələr neçə tərkib hissədən ibarət olmasına baxmayaraq, iki qütbdə birləşir və həmin cümlələr ümumulikdə baş və budaq cümləyə ayrılır.

Yuxarıda deyilənlərdən də məlum olur ki, yazılı ədəbi dil nümunələrində olduğu kimi, şifahi ədəbi dil faktlarında da qarışıq tipli tabeli mürəkkəb cümlələr nəinki var, hətta onların müxtəlif modellərinə də rast gəlinir. Bu müxtəliflik aşağıdakı kimi özünü göstərir.

I.Tabeli mürəkkəb cümlənin komponentlərindən biri sadə, digəri isə mürəkkəb olur və belə cümlələr özləri də bir neçə növə ayrılır:

1.Baş cümlə sadə quruluşlu, budaq cümlə isə tabesiz mürəkkəb cümlə şəklində olan qarışıq tipli tabesiz mürəkkəb cümlələr. Məsələn:

1. Qorxuram qərib öləm,
   Tər şamama istana (3, s.95).
2. Aşıq der bu yastıqdan ,
   Nə mən durum, nə sən get (8, s.137).
3. Gözəllərdə qaydadır,
   Üz örtər, sinə bağlar. (8, s.116)
4. O gündən çox qorxuram,
   İnciyəsən, üz dönə. (3, s.43).

Göstərilən misalların birinci və ikincisi tamamlıq, üçüncüsü mübtəda, dördüncüsü isə təyin budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Birinci və dördüncü budaq cümlələrin tərkib hissələri səbəb-nəticə əlaqəsi ilə, ikinci budaq cümlənin tərkib hissələri birləşdirmə əlaqəsi ilə, uçuncü budaq cümlənin tərkib hissələri isə zaman əlaqəsi ilə birləşmişdir. Verilmiş cümlələrin hər birində baş cümlə qütbü bir, budaq cümlə qütbü iki komponentlidir.

Cümlələrin sxemi:



Bayatılarda elə qarışıq tipli tabeli mürəkkəb cümlələrə də təsadüf edilir ki, orada budaq cümlələrin sayı ikidən artıqdır. Məsələn:

Belə hənəkmi olar?
Əl qan, üz qan, yaxa qan. (3, s.55)

Cümlənin quruluşundan da görünür ki, təyin budaq cümləli tabeli mürəkkəb cümlədə baş cümlə qütbü bir sadə sual cümləsindən, budaq cümlə qütbü isə komponentləri birləşdirmə əlaqəsi ilə birləşən üç sadə cümləli tabesiz mürəkkəb cümlədən təşkil olunub .

Cümlənin sxemi:



Aşağıda göstərilən misal daha maraqlı konstruksiyaya malikdir. Bu cümlə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədir. Baş cümlə bir sözlə ifadə olunub. Budaq cümlə isə dörd sadə geniş cümlə ilə ifadə olunub.

Dedim: dilbər, ağlama,
Qara örpək bağlama,
Öz dərdim mənə bəsdir,
Mən yazığı dağlama. (3, s.34).

Bayatıda sadə cümlələr zaman əlaqəsi ilə birləşmiş və sadalama üsulu ilə bir baş cümləyə bağlanmışdır.

Cümlənin sxemi:



II. Baş cümlə sadə, budaq cümlə isə tabeli mürəkkəb cümlə şəklində olan qarışıq tipli tabeli mürəkkəb cümlələr. Məsələn:

1. Gedək dərdli yanına,
   Görək kim ağlağandır? (3, s.79)
2. Namərd, alma canımı,
   Bir canım var, yar alıb. (6, s.22)

Birinci cümlə məqsəd budaq cümləli, ikinci cümlə səbəb budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Hər iki cümlənin budaq cümlələri mürəkkəb quruluşludur. Hər iki budaq cümlə tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrdir.

Cümlələrin sxemləri:

1.



2.



III. Bir baş cümlənin bir neçə budaq cümləsi olduğu kimi, bir budaq cümlənin də bir neçə baş cümləsi ola bilər. Bayatılarda ən çox şərt budaq cümləli tabeli mürəkkəb cümlələrin budaq cümləsində bu xüsusiyyətlər özünü göstərir. Yəni, baş cümlə qütbündə iki komponent, budaq cümlə qütbündə isə bir komponent özünü göstərir. Məsələn:

1. Yar bağçaya gəlməsə,
   Bülbül incir, gül küsər. (8, s.69)

Burada budaq cümlə qütbündə bir komponent işlənib və cümlənin əvvəlində gəlib, iki komponentli baş cümlə qütbü isə axırda gəlib.

Belə tipdə olan cümlələrə şifahi ədəbi dildə daha çox təsadüf edilir. Məsələn:

2. Yar yardan ayrı düşsə,
   Ürək yanar, göz ağlar. (8, s.63)

Hər iki bayatının son iki misraları bütövlükdə şərt budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Onlarda budaq cümlə qütbü birinci, baş cümlə qütbü isə ikinci gəlib.Bir sadə cümlə ilə ifadə olunmuş budaq cümlə iki baş cümləyə aid edilib.

Cümlələrin sxemi:



Bəzən isə birinci olaraq çoxkomponentli baş cümlə qütbü işlənir. Sonra isə bir komponentli budaq cümlə qütbü işlənir. Məsələn:

1.Gizlətmə,gəl açıq de,
  Ürəyində kimin var? (8, s.60)
2. El bilir, aləm bilir,
   Mən sənə necə yaram. (6, s.40)
3. Düşmən çalsın, oynasın,
  Başa çatdı diləklər. (8, s.211)

Birinci və ikinci bayatıdakı cümlələrin hər biri iki baş cümləsi olan tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Üçüncü cümlə isə iki baş cümləsi olan qarışıq tipli səbəb budaq cümləli tabeli mürəkkəb cümlədir.

Cümlələrin sxemi:



Xalqın şifahi ədəbi dilinin poetik imkanlarının zənginliyinin misilsiz nümunəsi olan bayatılarda hələ nə qədər diqqət çəkən məqamlar var. Dilçi alim F. Cəlilov bağlayıcısız tabeli mürəkkəb cümlələr üzərində apardığı araşdırmalar zamanı maraqlı faktlar üzə çıxarır.”Danışıq dilinə xas olan bağlayıcısız tabeli mürəkkəb cümlələrin (BTMC-in) komponentləri bir sözlə ifadə olunur. (7, s.28). Bayatılarda budaq cümlələrin bir çox hallarda frazioloji birləşmələrlə, məsəllərlə ifadə olunması buna nümunədir.

Bir məsəl var bu eldə,

İşləməyən, dişləməz. (6, s.241)

Verilmiş təyin budaq cümləli tabeli mürəkkəb cümlənin frazioloji birləşmə ilə ifadə olunmuş budaq cümləsi eyni zamanda nübtəda büdaq cümləli tabeli mürəkkəb cümlədir. Budaq cümlənin komponentlərinin hər biri bir sözlə ifadə olunub. Bu da, sadə xalqın iki sözlə daha böyük fikir ifadə edə bilmək bacarığının ən gözəl göstəricisidir.

Cümlənin sxemi:



Əgər yuxarıda verilən cümlənin baş cümlə qütbü əvvəl, budaq cümlə qütbü isə ikinci gəlmişsə, bunun əksi olan bayatılar da var.

Dost kimdi, düşmən kimdi,

Tanırsan yaman gündə. (8, s.218)

Bir atalar sözünün (Dost da, düşmən də dar gündə tanınar) poetik dillə ifadəsinin nümunəsi olan bu qarışıq tipli cümlədə şoxkomponentli budaq cümlə qütbü əvvəl, bir sadə cümlədən ibarət baş cümlə qütbü isə ikinci gəlib. Həm də birinci cümlədən fərqli olaraq, budaq cümlənin komponentlərinin hər biri iki sözlə ifadə olunub.

Cümlənin sxemi:



Bayatılar da, xalqın bağrından qopan düşüncənin ifadəsi olduğu üçün belə konstruksiyalı cümlələrlə zəngindir.

Ədəbiyyat

1. Abdullayev Ə, Seyidov Y, Həsənov A. Müasir Azərbaycan dili. IV hissə. Sintaksis. Bakı, 2007.
2. Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı: Maarif, 1974.
3. Abdullayev B. və b. Azərbaycan bayatıları. Bakı, 1984.
4. Adilov M. Xalq şeirinin ritmi haqqında. // Azərbaycan folklorşünaslığı məsələləri. Bakı: ADU-nun nəşri, 1983.
5. Azərbaycan ədəbiyyatı inciləri. Bayatı, qoşma, təcnis. Bakı, 1988.
6. Cəlilov F. Mürəkkəb cümlə sintaksisi. Bakı: Maarif, 1983.
7. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 2004.
8. Qasımov H. Bayatılar. Bakı, 1960.
9. Müasir Azərbaycan dili. III cild Sintaksis. Azərb.SSR EA Nəsimi adına Dilçilik İnstitutu. Bakı, 1981.

Г.Г.Адилова

Сложные предложения смешанного типа в Азербайджанских баятах

Резюме

Статья посвящена одной из актуальных проблем лингвистики-сложным предложениям смешанного типа. Исследование ведётся на материалах баятов, в результате чего выявляются интересные языковые факты.

G.H.Adilova

Mixed-type complicated sentences in the Azerbaijani bayaty

Summary

The article was devoted to the mixed-type complicated sentences, one of the actual problems of linguistics. The research was conducted on Azerbaijani bayaties and revealed a number of interesting language facts.

Rəyçilər: filol.f.d., dos. D.T.Əliyeva;
BSU-nun Azərbaycan dili və onun tədrisi metodikası kafedrası
(20.06.2017-ci il tarixli iclasının qərarı (pr. №03)).

Redaksiyaya daxil olub: 30.06.2017

R.B.ALIŞOVA
e-mail: alishovaramila@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

"DEATH" SÖZÜNÜN MORFOLOJİ VƏ SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *söz yaradıcılığı, düzəltmə sözlər, mürəkkəb sözlər, konversiya*
Ключевые слова*: словообразование, производные слова, сложные слова, конверсия*
Key words*: wordformation, derivative words, compound words, conversion*

Dildəki sözlərin fəal və qeyri-fəallığı xalqın təfəkküründən, fəaliyyət və dünyagörüşündən, cəmiyyətin siyasi əsasından, onun bazisindən aslıdır. Dialektik inkişaf və aramsız dəyişmə dildə, şüurda, mütləq öz əksini tapmalıdır. Buna görə də dildəki sözlərin bir qrupu köhnələrək dildən çıxır, yeni sözlər yaranır. Bildiyimiz kimi, lüğət tərkibinin əsasını, onun özəyini sözlər – leksik vahidlər təşkil edir. Məhz ona görə də ingilis dilinin lüğət tərkibinin genişləndirilməsi yollarından bəhs edərkən, ingilis dilində söz yaradıcılığı prosesindən yan keçmək mümkün deyil, çünki söz yaradıcılığı özü son nəticə olaraq lüğət tərkibinin zənginləşdilirilməsinə xidmət edir.

Lüğət tərkibini təşkil edən sözlərin yaranmasında və təşəkkül tapmasında qrammatik xüsusiyyətlər – yəni nitq üzvlərinə görə üzvlənmə, qrammatik transformasiya yolu ilə bir nitq hissəsindən digər nitq hissəsinə keçid, qrammatik affikslər (ön və son şəkilçilər) vasitəsi ilə yeni sözlərin yaranması lüğət tırkibinin zənginləşməsində böyük rol oynayır. İngilis dilində bir çox tədqiqatçılar ənənəvi söz yaradıcılığından danışarkən morfoloji vasitələri əsas götürürlər. Bu özlüyündə, doğrudan da, belədir. Çünki morfoloji cəhətlər olmadan söz yaradıcılığı prosesini təsəvvür etmək olmaz. Söz yaradıcılığı prosesində morfoloji cəhətlərin rolu haqqında danışan dilçi alimlərdən V.V.Lonatin və İ.S.Uluxanov rus dilində söz yaradıcılığını bir sistem kimi qəbul edir və iki qrupa bölürlər. (1, s.37)

a) Bir motivləşmiş əsasa malik olan söz yaradıcı üsullar:

1. Affiksasiya
2. Konversiya
3. Substantivləşmə

b) birdən artıq motivləşmiş əsasa malik olan söz yaradıcı üsullar.

1.Təmiz birləşmə

2. Affikslərin iştirakı ilə əmələ gələn söz yaradıcılğının qarşı üsulu- *blue-eyed,long-tongued,shoe-maker* kimi birləşmələr nəzərdə tutulur.

3. Birləşmə

4. Abbrevasiya - (sözlərin baş hərfləri saxlanmaqla birləşmə şəklində təşəkkül tapmış USSR, UNO, NATO milli birləşmələr nəzərdə tutulur). Burada həmçinin "blending" adı almış söz yaradıçılığı prosesi və bu proses nəticəsində əmələ gəlmiş törəmələr - "blend" daxildir:

smog(smoke+fog),camcorder(camera+recorder),motel(motor+hotel), və s. (2, s.283)

Yuxarıda verilmiş fikirlərə əsasən "death" sözü də affikslər və birləşmələr vasitəsi ilə, yəni morfoloji və sintaktik yolla yeni sözlərin yaranmasında fəal iştirak edir və dilin lüğət tərkibini zənginləşdirir.

"Ölüm" anlamı bildirən isim də şəkilçilər vasitəsilə düzəldilə bilər.

"Death" isminin qrammatik əlamətlərini aşağıdakı kimi təhlil edə bilərik:

1. O.İ.Musayevin "İngiliscə-azərbaycanca" lüğətində "death" sözünün *isim* kimi aşağıdakı mənalarını oxuyurq: 1. ölüm; 2. kiminsə ölməsi, yaxud öldürülməsi; 3. həyatın

sonu; 4. ölmüş vəziyyət; bir şeyin korlanması; 5. məhf/tələf olma; ölüm; 6. axır, son; yox; qeyb olma; məhv olma (7, s.389)

Eyni mənalara "İngilis dilinin Oxford lüğəti" və "İngilis dilinin Kembric lüğəti" kimi lüğətlərində də rast gələ bilərik.

İndi isə "death" sözünün isim kimi morfoloji qurluşunu təhlil edək:

1) Sadə isimlər ancaq bir kökdən ibarət olur. Məsələn: death.

2) Düzəltmə isimlər bir kökdən və yaxud bir neçə şəkilçinin artırılması ilə düzəlir:

death**lessness** – *düzəltmə* isim."ölümsüzlük".

death**less** – *düzəltmə sifət.* ölməz, əbədiyaşar, əbədi.

death**lessly** – *düzəltmə zərf.* ölməz

death**like** – *düzəltmə sifət.* ölüm kimi, ölümə oxşar, ölümə bərabər, amansız.

Death**ful** – *düzəltmə sifət.* ölümlə hədələyən, ölümcül, çox təhlükəli

Death**ly** – *düzəltmə sifət.* öldürücü, ölümcül, ölümlə nəticələnən; fəlaktli; tam.

3) Mürəkkəb isimlər isə ən azı iki və daha çox sözün birləşməsindən yaranır. İngilis dili üçün belə bir cəhət xarakterikdir ki, söz yaradıcılığı prosesində söz yaradıcı elementlər müstəqil sözlərin bir –biri ilə birləşməsi nəticəsində meydana çıxmış və inkişaf etmişlər. Onu da qeyd etmək lazımdır ki, söz yaradıcılığı prosesində iştirak edən elementlər ayrı –ayrılıqda kifayət qədər şəffaf mənalara malikdir

Aparılmış tədqiqatların nəticəsi olaraq bildirmək olar ki, mürəkkəb isim kimi "death" sözünün məhsuldarlığı daha çoxdur.

Məsələn,

1) İsim+isim:

deathbed – *mürəkkəb isim.* ölüm yatağı;

deathblow – *mürəkkəb isim.* öldürücü zərbə;

deathman –*isim. arx.* cəllad.

Death certificate – *isim.* həkim tərəfindən xəstənin həyatının son günlərini yaşadığına dair verilən sənəd, yazı və s.

Death knell- *isim.* bir işin, hadisənin tezliklə yekunlaşacağı ilə əlaqədar olan hadisə və s.

2) İsim+isim+isim

death-watch beetle – *isim.* A small insect that eats into old wood, making sounds like a watch ticking. "Qədim ağacları yeyən balaca həşarat".

II. İsmin növbəti qrammatik əlaməti onun yiyəlik haında işlənməsidir.

2. "Death" isminin mənalarını lüğətdə axtararkən maraqlı fakta rast gəldik: ismə məxsus olan yiyəlik halında apostrof+s şəkilçisini qəbul etməsi. "Death" isminin lüğətdə 's-ilə yazılmiş forması mövcuddur.

"Death's skull" – *isim.* "insan kəlləsi" mənasını verir. Daha aydın belə yaza bilərik: "Ölüm əlaməti kimi işlədilən kəllə sümüyü". İngiliscə mənası: "the bone structure of head used as a symbol of death".

III. Məlumdur ki, ingilis dilində ismin cəm şəkli təkdə olan ismin sonuna –s (-es) şəkilçisi artırmaqla düzəlir. "Death" isminin həm sayılabilən, həm də sayılabilməyən mənaları mövcuddur. Xatırlatmaq istərdik ki, bir çox ingilis dilinə tərcümə olunan işlərdə "death" ismi sayılabilməyən isim kimi nəzərdə tutularaq artikılsız, -s cəm şəkilçisiz və s. kimi səhv tərcümə olunur. O.Musayevin "İngiliscə-Azərbaycanca" lüğətində də "death" isminin sayılabilən, yaxud sayılabilməyən olması barədə fakta rast gəlmədik. "Oksford İngilis dili lüğəti"ni, "Lonqmən Aktiv tədqiqat lüğəti" (8) araşdırarkən məlum oldu ki, doğrudur bütün mənalarda **death** ismi sayılabilməyən hesab olunur, ancaq birinci mənada sayıla bilən hesab olunur:

1. "the fact of dying or being killed". Mənası: "öldürülmək", yaxud "ölmək faktı". Nümunələr verək:

1. The anniversary of his wife's *death* made us visit him again. - Onun arvadının ölüm ildönümü bizi yenidən ona baş çəkməyə məcbur etdi.

2. An increase in *deaths* from cancer is getting higher. – Diqqət verdiyimiz kimi, bu nümunədə "death" ismi sayılabilən isim olduğundan –*s* cəm şəkilçisi qəbul etmişdir.

IV. "Death" isminin növbəti qrammatik əlaməti onun sözönü ilə işlənməsidir.

Məsələn, "*to* death" ölümcül" , "*at* death's door" "ölmək üzrə olmaq", "can vermək", *məc.* "ölümün qapısında", "be the death *of* sb." "çox təəssüf etmək", "kimisə olduqca çox kədərləndirmək"; "bezdirmək"; *məcazi mənada:* "kiminsə axırına çıxmaq", "do smth *to* death" "bir işi (hərəkəti və s.) olduqca çox edib insanları yormaq", "əldən salmaq"; *məc.* "insanları cana gətirmək", "bezdirmək"; "canlarından bezdirmək". Fikir verdiyimiz kimi bu nümunələrdə "death" sözü fərqli mənalarda işlədilir. Məsələn,

1. They were burnt *to death* in the fire. – Onlar yanğında ölümcül yandılar. Bu nümunədə "to death" "ölümcül" kimi tərcümə olunur və nisbətən öz lüğəvi mənasına yaxındır.

2. "My granny is *at death's door*" she said sadly.

Gördüyümüz kimi, bu idiomatk ifadədir. Həm öz ciddi mənasında, həm də bəzi hallarda yumor mənasında danışıqda tez-tez rast gəlinən idiomatik birləşmədir. Bu ifadə də qismən öz mənasını saxlayır.

3. My mother used to say when we were kids: "You will be the death of me". Biz körpə olanda anam deyərdi: "Siz məni canımdan bezdirdiniz". Yaxud: "Siz mənim ölmümə səbəb olacaqsınız".

Bu ifadədə "*death"* sözü öz əsl mənasından nisbətən də olsa kənarlaşır və "bezdirmək", "əldən salmaq", "cana doymaq" kimi mənalar verir.

4. Those jokes of his have been done *to death*. – Onun zarafatları məni bezdirib. Yaxud: Onun zarafatları məni öldürdü.

To death birləşməsi bu cümlədə məcazi mənada işlədilmişdi. Öz lüğəvi mənasından xeyli uzaqlaşmış bu konseptual birləşmələr mətnin, diskursun, daha aşağı səviyyədə cümlənin, sözün praqmatik mənasının aydın başa düşülməsində rol oynayarlar.

"*Deathbed" və "deathbeds*" mürəkkəb isimlərini semantik cəhətdən araşdırarkən maraqlı bir fakta rast gəldik. Bu isim bir çox lüğətlərdə, məsələn, Oksford ingilis dili lüğətində", "Lonqmən Aktiv Tədqiqat lüğətində" və s.-lərdə adətən təkdə olan isim kimi qeyd olunur. Amma bədii ədəbiyyatda bu ismin cəmdə olan formasına da rast gəlinir. Cəmdə olan formada bu mürəkkəb isim bəzən yumor mənasında da işlədilir.

Məsələn,

She told me the truth on her deathbed. – O, ölmək üzrə olması həqiqətini mənə dedi.

She was on her deathbed. – O ölmək üzrədir. Yaxud: O can verir və tezliklə öləcək.

İndi isə "deathbeds" isminin cəmdə olan nümunələrini nəzərdən keçirdək. Əvvəlcə müəyyən edək ki, bu isim Azərbaycan dilinə cəmdə necə tərcümə olunacaq. Lüğəvi mənada isə bu sözün dəqiq tərcüməsini vermək mümkün deyildir.. Məcazi mənada isə belə səslənəcək: "Ölüm yataqları". İndi isə *deathbeds* sözünün cəmdə olan formasını cümlə daxilində izləyək:

1. Especially, the confessions of the rich make their speech powerful on their **deathbeds**. - Xüsusilə, zənginlərin ölüm yataqlarında etirafları onların nitqlərini güclü edir. (9)

2. Their desperate wish for some instant, magical, absolution on their **deathbeds**; is only a continuation of perpetuating this belief. – Ölüm yataqlarında onların ümidsiz olaraq təcili və sirli şəkildə bağışlanma arzuları, onların bu inamı daimi olaraq əbədiləşdirmə istəkləridir. (3) Hər iki bədii cümlədə işlədilən *deathbeds* sözü, diqqət verdiyimiz kimi, müəyyən mücərrəd arzu və istəklə bağlı, müəllifin niyyətindən asılı olaraq "ölümyataqları" mənasını verə bilir.

Digər cümlədə olan isimlər:

İndi isə "deathblow" isminin təkdə və cəmdə olan mənalarını təhlil edək. Yuxarıda da qeyd etdiyimiz kimi, "deathblow" Azərbaycan dilinə "öldürücü zərbə"(güclü zərbə) kimi tərcümə olunur və verilmis mənanı gücləndirir. Bu mürəkkb isim iki sözün "death" və "blow"

sözlərinin birlşməsindən yaranmışdır. Hər iki isim öz lüğəvi mənalarında işlədilir. “Death” “ölüm”, “blow” isə zərbə mənasını verir. Nümunə:

1. In other words, Ney had merely to hold Wellington, and detach the remainder of his force to co-operate in the **deathblow** at Ligny. (4) Başqa sözlə, Ney sadəcə olaraq Velinqtonu saxlamalı oldu və onun gücünün qalan hissəsini Liqniyə vurulan zərbələrə kömək etməklə ayırmalı oldu.

2. But mysticism and political servility between them gave the **deathblow** to the Greek Church. (9) - Amma mistisizm və onların arasında siyasi kölelik yunan kilsəsi üçün **güclü** zərbə idi.

Növbəti isim “deathsman” “cəllad” ismidir. İbarətdir: death + s+ man. Cəm forması:

“deathmen” – “cəlladlar”.

Deathsman ismi arxaik olduğundan ona aid nümunələr əsasən tarixi hadisələrə aid olan mənbələrdən əldə olunur. Nümunələri nəzərdə keçirdək:

1.Flie lust, as the *deathsman* of the soule, and defile not the Temple of the holy ghost. – Şəhvətin ardınca gedən ruhunun cəlladı olar və müqəddəs ruhun məzarı murdarlanar. (5)

2.From his arms thou shalt start with horror, as from those of thy wronged father's betrayer,—perchance his *deathsman*! – Sən onun qolları arasından qorxu ilə çıxacaqsan, necə ki, zülm edən ataların xəyanəti kimi – ola bilsin ki, onun cəlladı kimi (6, s.198)

Beləliklə, yuxarıda verilmiş bu misallardan bir daha aydın olur ki, dilin lüğət tərkibinin zənginləşməsində söz yaradıcılığı və semantik sahə mühüm rol oynayır ki, bunun da müəyyən hissəsi “death” sözü vasitəsilə yaranan sözlərin payına düşür.

Ədəbiyyat

1. Лонатин В.В., Улуханов И.С. Грамматика современного русского литературного языка. М., 1970.

2. Каращук П.М. Аффиксальное словоброзование в английском языке. М., 1965.

3. Faye Kellerman. Grievous Sin. USA: Market Paperback, 2011.

4. Charles Baxter. First Light. UK: Viking, 1987.

5. Elizabethan and Jacobean Pamphlets by George Saintsbury, Thomas Lodge, John Lyly, Nicholas Breton, Robert Greene, Gabriel Harvey, Thomas Nash, Thomas Dekker, UK: Percival and Co., 1892.

6. The Last of the Barons by Edward Bulwer-Lytton. UK: Kessinger Publishing, LLC, 1843.

7. Musayev O.İ. İngiliscə-Azərbaycanca Lüğət. Bakı: Qismət, 2003.

8. Longman Active Study Dictionary. England: Pearson Education Limited, 1983.

9. http://sentence.yourdictionary.com

Р.Б.Алышова

Морфологические и семантические особенности слова «смерть»

Резюме

Статья рассматривает грамматические и семантические особенности слова «смерть». В статье применяются подходы разных ученых к способам их использования в языке. Объясняется использование этого слова как существительного и глагола, в единственном и во множественном числах, в притяжательной форме, с предлогами и словообразовательными особенностями. Они семантически иллюстрируются примерами из различных источников, взятых из художественной литературы.

R.B.Alishova

Morphological and semantic features of word "death"

Summary

The article considers grammatical and semantic peculiarities of the word "death". Different scholars' approaches about the ways of their usage in the language are applied in the article. The usage of this word as a noun and a verb, singular and plural, possessive case, with prepositions and word-formation peculiarities are explained and they are illustrated with examples taken from different fictions and sources semantically.

Rəyçi: filol.e.d., prof. S.S.Zeynalova

Redaksiyaya daxil olub: 20.07.2017

F.İ.CƏFƏROVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

Naxçıvan Müəllimlər İnstitutu
(Naxçıvan şəh., Heydər Əliyev pr., 1)

H.M.MƏMMƏDOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

QURBANİNİN DİL-ÜSLUB XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *Qurbani, dil, üslub, poetika, aşıq*
Ключевые слова: *Гурбани, язык, стиль, поэтика, ашуг*
Key words: *Gurbani, language, style, poetic, ashuq*

XVI yüzilin böyük saz-söz ustadı Qurbaninin Azərbaycan ədəbi dilinin inkişafında özünəxas xidməti olmuşdur. Poetik dilimizin zənginləşməsində onun sadə, aydın və rəvan dil faktları böyük rol oynamışdır. Poetiklik dilin quruluşunda məzmun və formanın bir-birinə uyğunlaşdırılması, onlar arasında xüsusi bir harmoniyanın yaradılması güclü vasitə kimi aşığın dil keyfiyyətlərinə mühüm təsir göstərmişdir:

Gözəllər oturmuş göz bulağında,
Sürmətək qovruldum göz bulağında,
Hicran dəryasında, göz bulağında,
Qurbani, çalxanıb bircə üz indi (3, s.100).

Əsəri adi söz axınından xilas edən poetiklik bədii gücün qüvvətlənməsinə, dilin gözəlliyinə səbəb olur. Belə məqamlarda müəlliflərin sözə münasibəti leksik-qrammatik sərhədləri aşaraq bədii-üslubi səviyyəyə çatır. Düşünürsən ki, doğrudan da, "Sənətkar yurdun söz memarıdır" və "əsl sənətkarın qəlbində bir-birinə söykənib misra yaradan sözlərin öz boy sırası olur, məqamları daha tutumlu, daha sanballı, daha əzəmətlidir" (1, s.95).

Ayrı düşdüm vətənimdən, elimdən,
Başı çənli qarlı dağlar, qal indi!
İçən olmaz dərdə dərman suyundan,
Axar sular, tər bulaqlar, qal indi!

Bivəfasan, mən görmədim vəfanı,
Çox çəkmişəm sənin cövrü-cəfanı,
Məndən sonra rəqib sürər səfanı,
Fərş döşəli ağ otaqlar, qal indi! (3, s.75).

Bu söz və misralar poetik duyumun incəliyini əks etdirir və təsdiqləyir ki, poetik sözlə adi sözün dəyəri eyni deyildir. Poetizmlər bədiilik və təsir gücü baxımından yüksəkdə dayanan dil faktlarıdır. Böyük dahilər belə bir fikrin tərəfdarı olmuşlar ki, torpaq üzərində pərakəndə gəzib-dolaşan qanunlardan kənar olan insanın dəyişməsində söz və kəlamların böyük rolu olmuşdur. Bu mənada bədii sözün qüdrəti daha böyükdür. "Poetik dilin qanun və əhəmiyyətini xarakterizə edən mühüm kateqoriyalardan biri sözdür və şerin spesifik meyillərinin, səciyyəvi əlamətlərinin aşkarlanmasında söz ciddi əhəmiyyət kəsb edir" (2, s.317).

İlqarsızsan, vəfan yoxdur dünyada,
Dostunun sirrini verirsən yada,
Şamamanı dərdirirsən xoryada,
Səbzə bostan, sarı tağlar, qal indi!

Qurbaniyəm, oldu sözlərim,
Eşq əlindən kabab istər gözlərim,
Qan tökərsən qürbət eldə, gözlərim,
Canan deyib ağla, ağlar qal indi! (3, s.75).

Qurbaninin dilində sözün dərin məna qatlarına nüfuz edilmiş, onun çox sayda poetik imkanları üzə çıxarılmışdır. Aşığın yaradıcılıq örnəkləri filoloji baxımdan müxtəlif araşdırmalar üçün kifayət qədər material verə bilir. Onun dilində sözlərin leksik məna qruplarının geniş üslub məqamları ilə qarşılaşmaq mümkündür. Bu baxımdan, omonimlər işlənmə səviyyəsi ilə diqqəti çəkir:

Yazıçılar yazıları yazanda
Bizim də yazını yazdı xal-xala.
Cəfa çəkdim, can çürütdüm, yar sevdim,
İnsafdırmı, mən almayam, xalx ala? (3, s.101).

Burada omonim səciyyəli sözlərin gözəl bir cinas mövqeyində işlənməsi əsərin dil məziyyətlərinin çoxalmasını əsaslandırır. "Omonim sözlər ədəbi-bədii yaradıcılıqda geniş istifadə edilən bədii ifadə vasitələrindən biridir. Böyük sənətkarlar omonimlər vasitəsilə dildə gözəl ahəngdarlıq, musiqilik yaradır, dili daha da bədii şəklə salırlar" (4, s.334).

Bir zamanlar dilçilik elmində əsassız olaraq dilin "xəstə" vahidləri, "potoloji" hadisə hesab edilən omonimlərin poetik dilin qafiyə sistemində əvəzsiz rolu vardır. Onlar söz yaradıcılığında da fəallığı ilə seçilən dil vahidləridir. Sözlərin sürəti dildə anlayışların çoxalma sürətindən geri qaldıqca omonimlərə ehtiyac yaranır. Deməli, onların yaranması təbii və zəruri məsələlərdəndir:

Dedim, Pəri, yandım eşqin oduna,
Demədim, atəşdən yar ala məni.
Dedim, şəfa üçün loğmana gəldim,
Demədim, oxlayıb yarala məni.

Dedim, niyə tərsə döndü baxdı yar,
Demədim, çölləri gəzə bax diyar.
Dedim, aşiqinə ola baxdiyar,
Demədim ha sata yar ala məni.

Dedim Qurbaniyəm, bir gül, istədim,
Demədim, buluddan bir gül istədim.
Dedim, əllərindən bir gül istədim,
Demədim, çatdırsın yar ala məni (3, s.97).

Bu qoşmadakı ilk "yar ala" yarın aşiqin oddan almağı, yəni xilas etməyi, ikinci "yarala" ox ilə yaralamaq, üçüncü "yar ala" yarın aşiqi hiyləyə, yalana satması, dördüncü "yar ala" alıb-satmaq, sonuncu "yar ala" isə yarın gül istəyən aşiqi alağa (lazımsız otlara) çardırması mənalarında işlənmişdir. Göründüyü kimi, həmin sözlər gözəl bir səs əlvanlığı yaratmışdır. Onlar dilə ritm, ahəng, musiqi verən dil faktlarıdır. Əslində, eyni tərkibli sözlərin dildə bir neçə məna daşıması bir qədər anlaşılmazlıq yaradır. Həmin mənalar yalnız mətn daxilində müəyyənləşir. Bu prosesdə ədəbi dil və xalq danışıq leksikasından başqa, söz ustalarının xüsusi üslubunun da əhəmiyyəti vardır. Ümumiyyətlə, forma baxımından bir-birinə bənzəyən sözlər şerin ritmində, axıcılığında, ahəngdarlığında çox böyük işlər görür:

Gözəl adam, gəl, Allahı sevərsən,
Daldalanma, bir də görkəz yara yüz.
Yastana gör yarın astanasında,
Qulluq eylə, xidmət eylə yara yüz (3, s.97).

Sağdan vurdu, soldan çıxdı sağ əlim,
Sağ qoşundu, sol sərkərdə sağ elim,
Nagümanam mən bu dərddən sağalım,
Təbib birdi, dərd min birdi, yara yüz. (3, s.98).

Burada "yara üz göstərmək", "yara yüz yol xidmət etmək", "yaranın sayının çoxluğu – yüz olamğı" mənalarında işlənən "yara yüz" cinasları dilin axıcılığını çoxaltmaqla bərabərt, xoş ovqat yaradır. Bundan başqa, son bənddə üslubi imkanlar baxımından sözlərin digər leksik məna qrupu olan antonimlər də bədii dildə müəyyən çalarlar yarada bilmişdir. Ümumiyyətlə, araşdırmalar göstərir ki, bədii dildə sözlərin bütün leksik məna qrupları bir araya gələndə bədiilik daha böyük bir vüsətlə meydana çıxır.

Qurbaninin dili bir daha təsdiq edir ki, şeir dili omonimlərin dilin təbii və qanuni hadisəsidir. Dildə omonimlik hadisəsi söz tapıntıları və söz seçmələri ilə nəticələnir. Bu, obrazlılığın dərinləşməsində əsas vasitələrdən biridir. Sözseçmə qabiliyyətinin dərəcəsi hər bir sənətkarın xaslığını təyin etməkdə çox faydalıdır. Bədii dildə omonimlər əsl sənətkar sözləri kimi meydana çıxır. "...Şeir sənəti tarixinin bütün dövrlərində şair sözü – şeir gözəllik qiyafəsində, müqəddəslik libasında araya-ərsəyə gəlmiş, bədii söz ustadları – sözə təmənnasız xidmət edənlər, əbədiyyat nəğməkarları sözü əbədiyyətə qovuşdurduqları üçün özləri də mənsub olduğu xalqın qəlbinə köçmüşlər. Müasirlərinə bədii söz həyəcanı, sənət sevinci, xoş ovqat və ilahi zövq aşılayan şair kəlamı həmişə misilsiz mənəvi sərvət hesab edilmişdir" (2, 3).

Qurbaninin dilində sözlərin leksik məna qrupları bol-bol işlənmişdir. Ümumiyyətlə, dildə sözlərin leksik məna qrupları "söz xəzinəsi" qiytmətindədir. Aşığın dilində omonimlərdən başqa, sinonim sözlərdən də yerli-yerində və ustalıqla istifadə olunmuşdur:

Doğru danış, doğru söylə,
Belə kar eyləmək olmaz.
Yıxıbsan könlüm evini
Mürğü zar eyləmək olmaz (3, s.128).

Örnəkdə eyni mənaya malik olan "danış" və "söylə" sözlərinin bir misra daxilində işlənməsi təkrardan qaçmağın maraqlı bir yolu və dilin zənginliyindən istifadə üsulu kimi diqqəti cəlb edir. "Sinonim cərgəyə daxil olan sözlər məna yükü ilə deyil, yazıçının məqsədindən asılı olaraq yalnız müəyyən hissəsi sinonim kimi işlənir ki, bu da şübhəsiz ki, sənətkarın mənanı düzgün seçə bilməsi qabiliyyətindən asılı olur" (6, s.102).

Sözlərin sinonimlik ifadə etməsi dilin lüğət tərkibinin rəngarəngliyi ilə bağlıdır. Belə sözlər arasındakı məna yaxınlığı və ya oxşarlığı onların bədii nitq daxilində bir-birini əvəz etməsinə imkan yaradır. Bu, məna imkanlarının çoxalmasına və konkretləşməsinə səbəb olur. Sinonimlər fikirlərin aydınlığını və dəqiqliyini ifadə etməkdə dəyərli üslub vasitəsifir.

Aşıq Qurbaninin dilində sinonimlərin meydanı xeyli genişdir. Poeziyada yeni obraz təsirində olan belə dil vahidlərinin yerinə düşməsi maraqlı bədii hadisələrdəndir. "Şerin çoxəsrlik dil faktlarından çıxış edərək, demək olar ki, poetik nitqdə sinonim söz və ifadələrin bir yerdə işlədilməsi – sinonimik təkrar gerçəkliyin poetik ifadəsində mühüm yer tutur, o, məzmunun verilən tərəflərini tutumlu fikirlərlə zənginləşdirmək baxımından çox işləkdir və şeir dilində poetik əlvanlıq yaratma vasitələrindəndir" (4, s.343).

Baxgilən fələyin ruzigarına,
Əyyam xoş keçəndə dövran gülərmiş.
Bəhrəli çağlarda, məhsul ayında
Bağı bar verəndə bağban gülərmiş (3, s.83).

Örnəkdəki "əyyam" və "dövran" sözləri sinonimik cərgə təşkil edərək aşığın dilinin söz bolluğuna imkan yaratmışdır. Sinonimlərin kasıblığını üslub kasıblığı kimi qiymətləndirənlər öz fikirlərində haqlıdırlar. Təsadüfi deyildir ki, sinonimsiz əsərlər "rəngsiz şəkil"lərə bərabər tutulur.

Aşıq Qurbaninin dilində dilimizin ritmiklik və axıcılığını özündə yaşadan maraqlı məzmun və forma gözəlliyinə malik olan bayatı janrına da müraciət edilmişdir:

Əzizim, Diri dağı,
Olmasın diri dağı,
Kimdir ölümdən,
Zülümdür diri dağı (3, s.119).

Hər bir janr öz leksikasını tələb edir. Bu baxımdan, müxtəlif janrdakı əsərlər dilimizin bu və ya digər məziyyətini üzə çıxarmaqda müəyyən qədər faydalı mənbələrdəndir.

Prof. Q.Kazımov Qurbaninin dilini Dədə Qordudun dili ilə müqayisə edərək deyir: "Dədə Qorqud öz nitqi ilə hərbi demokratiya dövrünün nitq xüsusiyyətlərini mühafizə edir, Qurbani – feodalizmin kapitalizmlə birləşməyə, qovuşmağa doğru yönəldiyi dövrün!" (5, s.5). Sözsüz ki, dilin leksikasına sənətkarın yaşadığı dövrün də təsiri böyükdür. Dədə Qorqudun dili yazıya alındığından yazılı dilimizə yaxınlığı ilə səciyyəvi olsa da, Qurbaninin dili sırf xalqın danışıq dilidir. Onun dilindəki özünə xas olan frazemlər əsərlərinin bədii qiymətini dərionləşdirməkdə\ fəal dil elementləri kimi özünü göstərir:

Ay ağalar, dərdim yaman artıbdı,
Çərxi-fələk eldən daşım atıbdı,
Səkkiz şeydi, bu dünyanı tutubdu,
Abü atəş, xakü baddı, dördü nə? (3, s.103).

Burada eldən uzaqlaşmaq əvəzinə çərxi-fələyin aşığın daşını eldən atması ifadəsinin işlənməsi uğurlu dil amillərindən biridir. Aşığın dilində "göz evi" kimi ifadəyə də rast gəlirik:

Qurbani sözlərin eylədi tamam,
Gözünün evini alıbdı duman,
Səkkiz şey gəlibdi insana ənam,
Ağıl, mərfət, həvəs, kamal, dördü nə? (3, s.103).

Qurbaninin dilində təkririn maraqlı üslub məqamları vardır. Belə ki, aşığın işlətdiyi təkrirlər nə anafora, nə də epiforaya uyğun gəlir, onlar misradaxili təkrara kimi diqqətədəyər üslub imkanılna malikdir:

Pəncərədən hayıl-mayıl baxan yar,
Baxan dilbər məni candan eylədi.
Xun ciyərin eşq oduna yaxan yar,
Yaxan dilbər məni candan eylədi (3, s.96).

Müxtəlif janrlara aid əsərlərinin dilində Qurbaninin dilçilik görüşlərini də təyin etmək mümkündür. O, "qılınc yarası sağalar, söz yarası sağalmaz" atalar sözü dəyərində olan fikirlər söyləmişdir:

O – ölümdü, heç bulunmaz çarası,
O – pis dildir, heç sağalmaz yarası (3, s.112).

Qurbaninin dili üzərindəki araşdırma aşığın dilimizin bilicisi olduğunu göstərir. Dilin imkanlarından bu dərəcədə istifadə onun dilimizə dərindən bələdliyini əsasalandırır. Ona görə də aşığın dili üslub gözəlliyi ilə bağlı çox sayda faktlarla zəngindir. Əsərlərinin birində aşıq belə deyir: "Doymaq olmur Qurbaninin sözündən" (3, s.67). Bu misradakı gerçəklik indi də qiymətini qoruyub saxlayır.

Ədəbiyyat

1. Cabbarov X. Bədii ədəbiyyatda obrazlılıq. Bakı: Yazıçı, 1986.
2. Hüseynov M. Dil və poeziya. Bakı: Elm, 2008.
3. Qurbani. Əsərləri. Bakı: Şərq-Qərb, 2008.
4. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I c. Bakı, 2003.
5. Kazımov Q. Ön söz / Qurbani. Əsərləri. Bakı: Şərq-Qərb. s. 4-36.
6. Məhərrəmova R. XV-XVI əsrlər Azərbaycan ədəbi dili: leksika, söz yaradıcılığı. Bakı: Elm və təhsil, 2012.

Ф.И.Джафарова, А.М.Мамедова

Языковые и стилистические особенности Гурбани

Резюме

В статье говорится о языковых и стилистических особенностях ашуга Гурбани. С этой целью слова и выражения из поэзии ашуга подвергаются научно-теоретическому анализу в лингвистическом плане. Языковые единицы из творчества Гурбани, привлекающие внимание своей спецификой, исследуются системно. Лингвистические воззрения Гурбани, использующего в достаточно широком плане поэтические функции языка, в статье рассматриваюмся специально.

F.I.Jafarova, H.M.Mammadova

Language-style peculiarities of Gurbani

Summary

The article deals with language and style peculiarities of ashuq Gurbani. For this purpose words and expressions in the poetry of ashuq are involved into scientific-theoretical analysis from linguistic point of view. In this process language units that are drawing attention in Gurbani creativity are searched systematically. In the article aspects of expressing linguistic opinions of Gurbani, who sufficicntly used functions of poetic language, are stated as well (specially).

Rəyçi: filol.e.d., prof. S.Həsənova

Redaksiyaya daxil olub: 23.08.2017

A.Ş.ƏLİYEVA
e-mail: aynuracab@mail.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

İNGİLİS DİLİNDƏ "YAXŞI" KONSEPTİNİN YARATDIĞI PARADİQMA

Açar sözlər: *konsept, semantik sahə, leksik-semantik paradiqma, verballaşma*
Ключевые слова: *концепт, семантическое поле, лексико-семантическая парадигма, вербализация*
Key words: *concept, semantic space, lexico-semantic paradigm, verbalization*

Dünya dillərinin əsasını təşkil edən semantik sistemlərin özəyini milli mədəni anlayışlar təşkil edir. Bunlar milli mentalitetlərin müəyyənləşməsində də mühüm rol oynayır. Lakin bütün dillərdə ümümbəşər səciyyəli anlayışlar da az deyil. Bunların ən mücərrədi "yaxşı" və "pis"dir. Həmin konseptlər insan şüurunun binar şəkildə dünyanı dərkinə tamamilə uyğundur. İngilis dilində "yaxşı" konseptinin verballaşmasında əsas məsuliyyət *good* leksik vahidinin üzərinə düşür. V. Rudnev "XX əsr mədəniyyətinin ensiklopedik lüğətində" binar oppozisiyalara xüsusi və ayrıca məqalə həsr edir. Müəllif yazır ki, "Dünyanın ikili qavranması sırf fizioloji səbəblərlə müəyyənləşir, məsələn, insan beyninin iki yarımkürəciklərinin olması ilə" (2, s.50).

Əlbəttə, "yaxşı" konsepti *good* leksik vahidinin semantik strukturuna yaxud semantik həcminə uyğun deyil, bunların arasında adekvatlıq görmək düzgün olmaz. Sadəcə *good* sözü "yaxşı" konseptinin bir növ siqnalıdır. Konsept isə mürəkkəb mental hadisə olaraq bir sıra müxtəlif səviyyəli dil vahidlərində öz əksini tapır, reallaşır yaxud, müasir koqnitiv dilçilik terminologiyasından istifadə etsək, verballaşır. Bu termin konseptin mahiyyətin əks edir. Yəni konsept yalnız xalqın kütləvi şüurunda mövcud olan zehni hadisədir, dildə o yalnız nümayiş olunur ki, buna verballaşma deyilir. *Verbum* latın dilində "söz" deməkdir. *Verballaşma* isə, beləliklə, "sözlərlə ifadə" kimi izah oluna bilər.

Good sözünün müasir ingilis dilində bir sıra sinonimləri mövcuddur. Əslində bu sinonimlər elə *good* sözü ilə birlikdə "yaxşı" konseptinin müəyyən tərəflərini dildə nümayiş etməyə yönəlib. Lüğətlər *fine, wonderful, splendid, first-rate, choice, select, sound, capital, tiptop, worthy, worthwhile, valuable, precious, priceless, admirable, commendable, crack* və s. sözlərinin semantik həcmlərində *good* sözü ilə oxşarlıq tapır.

Söhbət "yaxşı" konseptinin *good* leksemindəki əksindən gedirsə konseptual məzmun baxımından biz yalnız Azərbaycan dilindəki yaxşı sözünə müraciət edə bilərik. Yəni Azərbaycan dili baxımından aparılan tədqiqatda "yaxşı" konsepti yalnız yaxşı leksemində ifadəsini tapır, tədqiqat isə bizə azərbaycanlıların təsəvvüründə həmin konseptlə bağlı assosiasiyaları canlandırmağa imkan verir. Azərbaycan dilinin izahlı lüğətində yaxşı leksemi 8 mənada verilir. Deməli, bizim kütləvi şüurumuzda *yaxşı* sözü bu 8 mənada əks olunan çalarlarla bağlıdır. Sözün birinci mənası ən mücərrəd səciyyə daşıyır: "Müsbət xüsusiyyətlərə və ya keyfiyyətlərə malik olan; öz keyfiyyəti ilə verilən tələbləri təmin edən, lazımi qaydada olan; bəyənilən" (1, s.509). İkinci məna zərf kimi verilir: "Kifayət qədər, lazımınca, əməlli-başlı" (1, s.509). Üçüncü məna: "Kifayət qədər, kafi miqdarda, (böyüklükdə) çoxdu. *Yaxşı qazanc*" (1, s.510). Dördüncü məna: "Zərf mənasında. Salamat, itkisiz, zərərsiz. Bəladan yaxşı qurtardın" (1, s.510). Beşinci: "Yaxşı, razıyam, sən deyən olsun" mənasında". Altıncı: "Yadda saxla", "çox əcəb", "baxıb görərsən" və s. mənasında hədə bildirir". Yeddinci: İş mənasında. Yaxşıların yaxşısısan". Nəhayət, səkkizinci məna "yaxşılıqla şəklində zərf. – qalmaqalsız, rahatca, dalaşmadan, mübahisəsiz, əngəlsiz, xoşluqla" kimi müəyyən olunur (1, s.510).

Göstərilən mənaların təhlili sübut edir ki, Azərbaycan dilindəki *yaxşı* leksemi ümumiyyətlə "yaxşı" konseptinin bütün universal məna çalarlarını əks edir. Məsələn, *yaxşı*

sözünün "hədə" mənası məntiqə uyğundur, ona görə də bütün dillərdə müvafiq leksik vahidlər bu mənada işlənə bilər. Məsələn, rus dilində "хорошо, хорошо, увидишь", yaxud "ну хорошо, ты еще пожалеешь об этом". Eləcə də digər dillərdə "yaxşı" mənasını ifadə edən leksik vahidlər antonimik mənada işlənə bilər. Görünür bu imkanın özü xususi semiotik qanunla bağlıdır, yəni bu cür söz istifadəsində ümumi qanunauyğunluq özünü göstərir. Müsbət məna və konnotasiyaya malik sözlər bir qayda olaraq mənfi məna və mənfi konnotasiya ilə işlədilə bilir. Adətən bu hadisə istehza kimi dəyərləndirilir, lakin hadisənin özü dərin təhlilə cəlb olunmayıb.

İngilis dilindəki *good* leksik vahidi Oxford universitetinin lüğətində nə az nə çox 24 mənada verilir (3, s.554). Bəlkə də, burada leksikoqraflar müəyyən dərəcədə xırdaçılığa yol verirlər. Lakin hər halda onlar sabitlik və bərpa olunmaqdan çıxış edirlər. Başqa sözlə desək, *good* leksemi həmin 24 mənada sabit olaraq ingilislərin nitqlərində rast gəlinir. Leksemin birinci mənası yüksək dərəcədə mücərrəd səciyyə daşıyır və saysız-hesabsız konkret situasiyalarda özünü büruzə verə bilər. Lüğətdə oxuyuruq: "1. of high quality or acceptable standard: a good book, good food. The piano was in good condition. Your work is just not good enough" (3, s.554).

Doğrudan da, yüksək keyfiyyət və məqbul standart anlayışları "yaxşı" konseptinin ən mücərrəd səviyyəsini bildirir. Bu səbəbdən də *good* sözü həyatdakı istənilən hadisələrə şamil edilə bilər. Yuxarıda göstərildiyi kimi, insanın üçün dünya və ətraf mühit binar şəkildə iki hissəyə bölünür. Onun müsbət hissəsi, koqnitiv baxımdan xoşa gələn hadisələr sistemi bütövlükdə *good* sözü ilə əhatə olunur. Bütün digər mənalar bu mənanın, yəni good lekseminin əsas nominativ mənasının konkretləşməsi kimi təqdim oluna bilər. Məsələn, sözün 24-cü mənası "like to provide" kimi izah olunur, yəni nəyi isə həvəslə etmək, nəyəsə həmişə hazır olmaq. Lüğətdə belə misallar verilir: "He's always good for a laugh. Bobby should be good for a few drinks" (3, s.554). Azərbaycan dilinə bu cümlələri bu cür tərcümə etmək olar: "O həmişə gülməyə hazır idi. Bobbi biraz içməyə daim hazır idi". Qeyd edək ki, bu motivasiyanın məntiqi aydındır. Yəni bu insanlar gülmək və içməyi sevirdilər, bu hərəkətlərə müsbət münasibət (*good*) bəsləyirdilər.

Bu sonuncu məna nə qədər konkret olsa da, bir o qədər də mücərrəddir. *Good* sözünün bu mənadakı distribusiyası son dərəcə genişdir, əslində onun sərhədləri dildə bilinə bilməz, çünki insan istənilən (hətta mənfi) hadisələrə müsbət-yaxşı münasibət ifadə edə bilər. Bu arada, yəni 1-ci ilə 24-cü mənalar arasında "yaxşı" konseptinin geniş leksik-semantik diapazonda reallaşan çalarları öz əksini tapır. Məsələn, semem şəklində həmin definisiyalar bu cür verilə bilər: "xoşa gələn", "yapışıqlı", "dəqiq", "düzgün", "prinsiplərə və qaydalara uyğun", "hörmət və nüfüz qazanmış", "yüksək mənəvi", "yararlı", "köməyə gələn" və s. *Good* sözünün 24 mənasını *yaxşı* sözünün 8 mənası ilə müqayisə edəndə kəmiyyət yaxud keyfiyyət amilini əsas götürmək olar. Kəmiyyət amili göz qabağındadır, ingilis sözünün 16 mənası Azərbaycan ekvivalentində cavab tapmır. Keyfiyyət baxımından isə, fikrimizcə, bu leksemlər tam ekvivalentdir, çünki *good* lekseminin göstərilən bütün mənaları müvafiq cümlələrdə Azərbaycan dilində *yaxşı* sözü ilə verilə bilər. Fikrimizcə, fərq leksikoqrafik səciyyə daşıyır. Sadəcə Azərbaycan dilinin izahlı lüğətinin tərtibçiləri sememləri xırdalamaqdan uzaq olublar.

Ümumiyyətlə, təkcə *good* lekseminin semantik strukturunda deyil, "yaxşı" konsepti ingilis dilində müəyyən leksik-semantik paradiqmada qismən öz əksini tapır, verballaşır. Yuxarıda göstərdiyimiz kimi, *fine, wonderful, splendid, first-rate, choice, select, sound, capital, tiptop, worthy, worthwhile, valuable, precious, priceless, admirable, commendable, crack* və bəzi digər leksemlər "yaxşı" konseptinin müxtəlif çalarlarını nümayiş edir. Beləliklə, istənilən mücərrəd məna əslində semantik sahədə reallaşır. Məsələn, *fine* sözünün əsas nominativ mənası "very good" kimi müəyyən olunur (3, s.475). Əslində burada semantik fərq mövcud deyil, hər halda onu duymaq olmur. *Good*-un yanındakı *very* leksemi yalnız ekspressiya əlavə edir. Lakin leksik vahidin xüsusi semantik çalarları özünü müxtəlif

konfiqurasiyalarda göstərir. Məsələn, *fine distinction* ifadəsində *fine* "yaxşı" yaxud "çox yaxşı" mənalarını ifadə etmir. *Fine distinction* "incə fərq" deməkdir. *Fine skin* "gözəl dəri" yox, "həssaz dəri, zərif dəri" deməkdir, yaxud *fine question* – "çətin məsələ" deməkdir. Həmin söz birləşmələrini təhlil etsək görərik ki, heç də bütün hallarda "yaxşı" konsepti burada təqdim olmur. Məsələn, *fine skin*-də "yaxşı" ilə əlaqə tapmaq olursa, "yaxşı-gözəl-zərif", *fine question*-da bu əlaqə müşahidə olunmur. Deməli, *fine* sözü əslində *good* leksemini genişləndirir. Elə ona görə də *good* leksemi həmin semantik sahənin əsas baza leksemi sayılmalıdır.

Fine sözü "yüksək" və "incə" mənalarını hisslərlə bildirir, "yüksək mərifət və qanacaq" bildirir – davranışla, "istedad, bacarıq" bildirir – professional xüsusiyyətlərlə və s.

Splendid leksik vahidi isə good sözündən daha da expressivdir. Bundan əlavə semantik baxımdan da *splendid* sözü həm *good*, həm də *fine* leksemlərindən daha güclü keyfiyyət bildirir. Oxford universitetinin lüğətində *splendid* sözü cəmi iki mənada verilir, lakin bu iki məna çox geniş konkret mənaları əhatə edir. Aydın məsələdir ki, bu mənalar konkret semantik konfiqurasiyalarda özünü büruzə verir. Lakin bu heç də o demək deyil ki, həmin mənalar nitqdə əmələ gəlir və kontekstual səciyyə daşıyır. Fikrimizcə, bu mənalar *splendid* lekseminə dil sistemi səviyyəsində məxsusdur, sadəcə kontekstdə onlar üzə çıxarılır. Yəni kontekst onları yaratmır, kontekst – şəraitdir və bu şərait mövcud mənaları aşkar edir. Oxford lüğətində *splendid* lekseminin "1. excellent; very good" və "2. very impressive; very beautiful" mənaları göstərilir (3, s.1246). *Good* və paradiqmanın digər sözləri ilə müqayisədə *splendid* lekseminin "möhtəşəm", "təntənəli", "dəbdəbəli", "son dərəcə gözəl" və s. bu kimi semantik əlamətləri diferensial semantik xüsusiyyət kimi nəzərə çarpır. Əslində isə bu xüsusiyyətlərin hamısı bir yerdə bütövlükdə *good* leksemi ingilis dilində yaratdığı paradiqmanın zənginliyindən xəbər verir. Onomasioloji tədqiqat bu leksik vahidlərin bir-birilə kəsişdiyini göstərir, bir sözün semantik strukturu digər sözlərin semantik strukturuna nüfuz edir. Fikrimizcə, dilin sistem şəklində mövcud olması leksik-semantik sahələrin quruluşunda özünü ən qabarıq şəkildə göstərir. Sistem leksik paradiqmalarda bir növ şəbəkə quruluşu kəsb edir. Hər bir semantik sahədə əsas leksem üzə çıxmalıdır ki, sahə bütövlükdə onun ətrafında təşkil olunur. Sistemin digər bir mühüm xüsusiyyəti ondadır ki, əsas baza xarakterli söz paradiqmada nümayiş olan mənaların hamısını əhatə edir. Bu xüsusiyyət həmin sözün digər sözlərin substitutu olmaq imkanını yaradır. Əlbəttə, cümlə bütövlükdə ekspressiv tutumunu itirir, lakin semantik yaxud semiotik sistem üçün əsas amil eyni siqnifikatın aktuallaşmasıdır.

Konkret dillərin müqayisəsində baza leksemin genişlənməsi əsas meyar kimi çıxış edir. Əlbəttə, müqayisə prosesində əsas mənbə kimi izahlı lüğətlər çıxış edir. Bu da qanunauyğun haldır. Çünki leksik vahidlərin semantik strukturları haqqında dolğun məlumatı yalnız izahlı lüğətlər verir. Lakin lüğət materiallarına əsaslanan tədqiqatçılar göstərilən semantik srtukturların müstəqil şəkildə semalar üzrə komponent təhlilini verməlidirlər. Beləliklə də komponent təhlil bu növ tədqiqatlarda əsas linqvistik metod kimi istifadə olunur. Əlbəttə, müasir koqnitiv dilçilikdə diqqət, elə adından da göründüyü kimi, koqnitiv üsullara verilir. Bu isə koqnitiv əlamətlərin müəyyən olunması ilə bağlıdır. Bu istiqamət adi semantik təhlildən tədqiqatçını bir qədər uzaqlaşdırır, lakin elm üçün son dərəcə böyük əhəmiyyət kəsb edir. Məsələn, yaxşı və pisi leksik-semantik və frazeoloji-paremioloji səviyyələrdə izləyən tədqiqat koqnitivizm istiqamətində də öz maraqlarını konkretləşdirirsə, deməli, kütləvi şüurlarda yaxşının və pisin standartlarını müəyyən etməlidir. Azərbaycanlılar nəyi pis bilir, nəyi – yaxşı. Əlbəttə, burada da əksər hallarda universal modellər özünü göstərir, lakin milli-mədəni xüsusiyyətlər də az deyil. Burada məişət mədəniyyəti, dini mənəviyyat, xalqın etik normaları ön plana çəkilir. Məsələn, bizim sosialist və kommunist yaxın keçmişimizdə həqiqəti və nöqsanları insanların üzünə və kollektiv arasında açıq-aşkar demək bir hünər kimi dəyərləndirilirdi. Lakin Azərbaycan dilində *ağartmaq* və *ağartmamaq* leksik vahidlərinin olması xalqın etik normalarından xəbər verir. Həmin sözlərin mövcud olmasının özü sübut edir ki, nöqsanı

ağartmaq pis şeydir, ağartmamaq – yaxşı. Beləliklə, dilin leksik-semantik sisteminin kompleks şəklində tədqiqi "yaxşı" və "pisi" semlər üzrə komponent təhlil nəticəsində üzə çıxarır. Əlbəttə, bu son dərəcə çətin və çoxşaxəli tədqiqatdır və bir əsərdə bu məsələni yerinə yetirmək mümkün deyil. Lakin semantik sahələr üzrə bunu etmək olar. İngilis dilindəki *good* leksik vahidinin timsalında semantik sahələrin həqiqi sistem təşkil etməsini görmək olur.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. IV cild. Bakı: Şərq-Qərb, 2006.
2. Руднев В. Энциклопедический словарь культуры XX века. Ключевые понятия и тексты. М.: АГРАФ, 2001.
3. Oxford Advanced Learner's Dictionary. Oxford University Press, 2005.

А.Ш.Алиева

Парадигма созданная концептом «хорошо» в английском языке

Резюме

Статья посвящена концепту «хорошо» и его вербализации в английском языке. Отмечается, что это универсальный концепт, поскольку менталитет любого народа делит мир на хорошее и плохое. Лингвистику должна интересовать вербализация данных концептов на различных уровнях. Проведенный анализ показал, что базовым для вербализации концепта «хорошо» в английском языке является соответствующая парадигма с центральным словом *good*.

A.Sh.Aliyeva

Paradigm created by the concept "good" in English

Summary

The article deals with the concept of "good" and its verbalization in English. It is noted that this is a universal concept, because the mentality of any people divides the world into good and bad. Linguistics should be interested in verbalization of these concepts at various levels. The analysis showed that the basic for verbalization concept "good" in English is a suitable paradigm with the central word "good".

Rəyçi: filol.e.d., prof. A.M.Məmmədli

Redaksiyaya daxil olub: 31.05.2017

F.A.ƏSƏDOVA
e-mail: fatya.asadova@mail.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

MORFOLOJİ ÜSULLA YARANAN TOPONİMLƏR

Açar sözlər: *toponim, şəkilçi, onomastik vahid, morfoloji üsul.*
Ключевые слова: *топонимы, суффикс, ономастическая единица, морфологический способ.*
Key words: *toponyms, suffix, onomastic unit, morphological method*

Azərbaycan dilinin onomastik sistemi sabit qalmayıb, daim müəyyən dəyişikliyə uğrayır. Onomastik vahidlər bəzən cəmiyyətin, dilin müəyyən mərhələlərində tələbləri ödəmir. Dildəki onomastik vahidlər dəyişir, yeni köhnəni əvəz edir. Bu proses ictimai, siyasi, iqtisadi, tarixi, mənəvi hadisələrlə bağlı olaraq baş verir. Onomastik vahidlərin yaranması və dəyişməsinin öyrənilməsi Azərbaycan dilinin leksik sisteminin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıyır. Hər bir onomastik vahid dilin tələb və qanunlarına uyğun yaranır. Onomastik leksikanın öyrənilməsində qarşıda duran məsələlərdən biri də xüsusi adların yaranma yollarının ətraflı öyrənilməsidir. Onomastik vahidlərin yaranma yollarının öyrənilməsi dilin bir sıra problemlərinin həllinə kömək edir. Xüsusi adların yaranma yolları içərisində morfoloji üsul geniş yayılmışdır.

Azərbaycanın toponimik sitemində toponimlərin bir qismi morfoloji yolla yaranmışdır. Toponim yaradıcılığında morfoloji üsul daha intensiv xarakter daşıyır. Bu cəhət türk dillərində sözdüzəldici şəkilçilərin çoxluğu ilə bağlıdır. Toponimiyada morfoloji yolla coğrafi adların yaranması prosesinin çox zəngin, istər semantik, istərsə də şəkli xüsusiyyətlərini əks etdirən nümunələri meydana gəlmişdir.

Toponimlərin morfoloji üsulla, yəni kök və şəkilçi əsasında əmələ gəlməsi haqqında müxtəlif fikirlər vardır. T.Əhmədov bu haqda yazır: «Şəkilçilər yalnız toponimik səciyyə daşımayan bir sıra isim, sifət və başqa nitq hissələrinə mənsub ümumi leksik vahidlərin yaradılmasına xidmət edirlər. Toponimiyaya isə onlar qoşulduqları sözlə birlikdə (semantik bütöv kimi) gəlirlər. Bu o deməkdir ki, toponimik səviyyədə şəkilçilərin funksiyası sıfıra bərabər olub, bu baxımdan onlar asemantik səciyyə daşıyırlar. Elə buna görə də, ümumiyyətlə, türk və o cümlədən Azərbaycan toponim yaradıcılığında morfoloji üsuldan bəhs etmək düz deyildir (1, s.144). A.Qurbanov tədqiqatlarında bu barədə qeyd edir ki, Azərbaycan dilçiliyində belə bir yanlış meyl vardır ki, toponimlərin əmələ gəlməsi tamamilə sırf leksik və semantik hadisələrlə bağlıdır. Burada heç bir morfoloji amil rol oynamır. Müəyyən bir toponimə çevrilmiş söz ona qədər kök və şəkilçi şəklində mövcud olmuşdur. Şübhəsiz bu fikirdə də həqiqət vardır. Lakin toponim yaradıcılığında sözdüzəldici şəkilçinin rolunu tamamilə inkar etmək səhv nəticələrə gətirib çıxara bilər. Çünki dilimizdə elə faktlara rast gəlinir ki, orada mütləq toponim düzəldən xüsusi şəkilçinin varlığını təsdiq etmək lazım gəlir (2, s.453).

Toponim yaradıcılığında sözdüzəldici şəkilçinin rolunu tamamilə inkar etmək olmaz. Azərbaycan onomastik sistemində morfoloji yolla toponimlərin yaranması prosesi çox məhsuldardır. A.Qurbanov, Q.Məşədiyev, S.Mollazadə, R.Əliyeva, İ.Bayramov, A.Bağırov və başqaları öz əsərlərində morfoloji yolla yaranan toponimləri geniş şəkildə tədqiq etmişlər.

Müasir Azərbaycan toponimik sitemində morfoloji üsulla toponim yaradılması prosesinin özünəməxsus zəngin semantik xüsusiyyətlərni özündə əks etdirən coğrafi adlara rast gəlinir. Türk dilləri zəngin sözdüzəldici şəkilçilərə malikdir. Bu şəkilçilər vasitəsi ilə dildə müxtəlif semantikaya malik sözlər yaradırlar ki, onların bir qismi coğrafi adların yaradılmasında iştirak edir. Tədqiqatçılar türk dillərində yalnız coğrafi adlar yaradan şəkilçinin olmadığını yazır (3, s.90). Toponim yaradıcılığında iştirak edən şəkilçilər məhsuldar və qeyri-məhsuldardır. Şəkilçilərin bir qismi müxtəlif sözlərə artırılaraq çoxlu miqdarda toponim əmələ gətirdiyi halda, bəziləri yalnız məhdud dairədə işlənən sözlərə artırılaraq az miqdarda toponim əmələ gətirir.

Müasir Azərbaycan toponimik sistemində morfoloji yolla yaranan çoxlu toponimlərə rast gəlinir. Toponimlərin tərkibində iştirak edən şəkilçiləri müəyyənləşdirmək, onların yaratdıqları məna çalarlarını geniş şəkildə nəzərdən keçirmək Azərbaycan onomologiya elminin qarşısında duran problemlərdəndir.

Azərbaycan ərazisində toponimlərin tərkibində aşağıdakı şəkilçilər iştirak edir.

-lı, -li, -lu, lü şəkilçisinin köməyi ilə əmələ gələn toponimlər. Bu şəkilçi müxtəlif sözlərə artırılaraq müxtəlif mənalı toponimlərin formalaşmasında fəal iştirak edir. *-lı, li-, -lu, -lü* şəkilçisi türk dilləri arealında çox funksiyalıdır. Y.Məmmədov müasir Azərbaycan və bəzi türk dillərindəki *–lı, -li* şəkilçisinin qədim türk abidələrində geniş yayılmış *–lig, -lıg* şəkilçisinin fonetik dəyişikliyə uğramış forması olduğunu yazır (4, s.10). S.Cəfərov bu şəkilçinin 6 məna qrupuna malik söz əmələ gətirdiyini yazır (5, s.175). Toponimlərdə bu qrupların sayı daha artıqdır.

-lı, -li, -lu, lü şəkilçisini şəxs adlarına artırmaqla düzələn oykonimlər: Eyyublu (Tovuz rayonu), Cəvahirli (Ağdam rayonu) və s.

-lı, -li, -lu, lü şəkilçisini qohumluq bildirən sözlərə artırmaqla yaranan toponimlər: Dədəli (Xaçmaz rayonu).

-lı, -li, -lu, lü şəkilçisi vasitəsilə peşə-sənət mənası bildirən oykonimlər yaranır: Aşıxlı (Göygöl rayonu), Qazılı (Salyan rayonu) və s.

-lı, -li, -lu, lü şəkilçisini tayfa adlarına artırmaqla düzələn oykonimlər: Qarasaqqallı (Kürdəmir rayonu), Kəngərli (Naxçıvan) və s.

-lı, li, -lu, -lü şəkilçisini fitonimlərə əlavə etməklə yaranan toponimlər: Çinarlı (Şəmkir rayonu), Söyüdlü (Gədəbəy rayonu), Qamışlı (Kəlbəcər rayonu)

-lı, li, -lu, -lü şəkilçisini heyvan adlarına əlavə etməklə yaranan toponimlər: İlanlı (Qobustan rayonu), Sığırlı (Kürdəmir rayonu), Camışlı (Kəlbəcər rayonu).

-lı, li, -lu, -lü şəkilçisinin qoşulduğu oykonimlər başqa ərazilərdən gəlməni bildirir: Şirvanlı (Oğuz rayonu), Gəncəli (Xaçmaz rayonu), Şəkili (Göyçay rayonu) və s.

-lı, li, -lu, -lü şəkilçisini su obyekti bildirən sözlərə əlavə etməklə yaranan oykonimlər: Nohurlu (Saatlı rayonu), Çaylı (Qazax rayonu), Bulaqlı (Sabirabad rayonu) və s.

-lı, li, -lu, -lü şəkilçisini relyef quruluşunu, ərazinin xüsusiyyətini bildirən sözlərə əlavə etməklə yaranan toponimlər: Daşlı (Laçın rayonu), Qayalı (Qubadlı rayonu) və s.

Müasir Azərbaycan toponimik sistemində morfoloji yolla yaranan bir qismi *-lıq, lik, -luq, -lük* şəkilçisinin köməyi ilə əmələ gəlmişdir. Azərbaycan ərazisində toponimlərin tərkibində bu şəkilçi geniş yayılmışdır. *-lıq, lik, -luq, -lük* şəkilçisi ən qədim dövrlərdən türk dil-lərində yeni sözlərin yaranmasında mühüm rol oynamışdır. Müasir türk dillərində bu şəkilçi məhsuldardır.

-lıq, lik, -luq, -lük şəkilçisini bitki adlarına artırmaqla yaranan toponimlər: Güllük (Qax rayonu), Almalıq (Kəlbəcər rayonu) və s.

-lıq-,lik, -luq, -lük şəkilçisini yerin, ərazinin xüsusiyyətini bildirən sözlərə əlavə etməklə yaranan toponimlər: Genlik (Zəngilan rayonu).

-lıq, lik, -luq, -lük şəkilçisini vəzifə, titul, mənsubluq bildirən sözlərə artırmaqla yaranan oykonimlər: Xanlıq (Qubadlı rayonu), Şahlıq (Ucar rayonu), Ağalıq (Şabran rayonu) və s.

Azərbaycan ərazisində *-lar, -lər* şəkilçisi vasitəsi ilə yaranan toponimlərə təsadüf olunur. *-lar, -lər* şəkilçisini tayfa adına əlavə etməklə düzələn yaşayış məntəqə adları: Sofular (Tovuz rayonu). Abdallar (Laçın rayonu) və s.

-lar, -lər şəkilçisini peşə-sənət bildirən sözə əlavə etməklə düzələn yaşayış məntəqə adları: Mollalar (Ağdam rayonu), Aşıqlar (Göygöl rayonu).

-lar, -lər şəkilçisini kənd təsərrüfatına, məişətə aid sözlərə artırmaqla yaranan oykonimlər: Əmbizlər (Xızı rayonu).

-çı, -çi, -çu, -çü şəkilçisi ilə yaranan toponimlər. Bu şəkilçinin iştirakı ilə Azərbaycan ərazisində bir sıra oykonimlər qeydə alınmışdır. Ələkçi (Laçın), Bostançı (Xaçmaz rayonu), Çanaxçı (Gədəbəy rayonu), Dəvəçi (Şabran rayonu).

-ca, -cə şəkilçisi müasir Azərbaycan dilində keyfiyyət və kəmiyyət məzmunu ifadə edir. S.Cəfərov *-ca, -cə* şəkilçisini müasir Azərbaycan dilində az məhsuldar və ya qeyri-məhsuldar olan şəkilçilərə aid edir [5, s.181]. *-ca, -cə* şəkilçisi ilə yaranan toponimlər: Güllücə (Ağdam rayonu), Qızılca (Laçın rayonu), Yellicə (Kəlbəcər rayonu), Yengicə (Qəbələ) və s.

-cıq, -cık, -cuq, -cük şəkilçisi Azərbaycan dilində kiçiltmə, əzizləmə mənası ifadə edən sözlər əmələ gətirir. *-cıq, -cık, -cuq, -cük* şəkilçisi ilə yaranan toponimlər: Qalacıq (İsmayıllı rayonu), Qapıcıq dağı (Azərbaycanın Ordubad rayonu ərazisində dağ).

-ut, -üt,-ıt, -it şəkilçisi ilə yaranan toponimlər: Oxut (Şəki rayonu).

Türk dillərində *–an, -ən* formantı ən qədim şəkilçilərdəndir. Məsələn, Bayan, Alpan, Aran, Turan və s. onomastik vahidlərdə bu şəkilçi işlənmişdir. F.Cəlilov proazərbaycan dilində və protürkdə *-an* morfeminin kəmiyyət göstəricisi olduğunu yazır (6.s.193). *-an, -ən* şəkilçisi ilə yaranan toponimlər: Alpan (Quba), Qılıcan (Qubadlı) və s.

-stan, -ıstan, -istan, -ustan, -üstan şəkilçisi vasitəsilə yaranan oykonimlər: Talıstan (İsmayıllı rayonu), Bilistan (İsmayıllı rayonu), Gülüstan (Culfa rayonu) və s.

-dar, -dər şəkilçisi dilimizdə alınma hesab olunur.Bu şəkilçiyə toponimlərin tərkibində az da olsa rast gəlinir. Məsələn, Çərəkdar (Kəlbəcər rayonu).

-na, -nə şəkilçisi vasitəsilə yaranan oykonimlər. Kirna (Naxçıvan), Buzovna (Bakı).

-caq, -cək şəkilçisi ilə yaranan toponimlərə Azərbaycan ərazisində az rast gəlinir. Quyucaq (Cəbrayıl rayonu) oykonimi –caq, şəkilçisi vasitəsilə yaranmışdır.

Ədəbiyyat

1. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı: Bakı Universiteti, 1991.
2. Qurbanov A. Azərbaycan dilinin onomologiyası. Bakı: Maarif, 1988.
3. Донидзе Г.И. Об аффиксальном словообразовании в тюркской топонимии // Ономастика Востока. М., 1880.
4. Məmmədov Y. Orxon-Yenisey abidələrində adlar. Bakı: APİ, 1979.
5. Cəfərov S. Müasir Azərbaycan dili leksikası. II hissə, Bakı: Maarif, 1982.
6. Cəlilov F. Azərbaycan dilinin morfonologiyası. Bakı: Maarif, 1988.

Ф.А.Асадова

Морфологический способ образования топонимов

Резюме

В статье исследуются топонимы, образованные морфологическим способом на территории Азербайджана. Здесь рассматриваются разные суждения о морфологическом способе образования топонимов, то есть с помощью корня и суффикса. В образовании топонимов широко используется морфологический способ. Это связано с наличием большого количества суффиксов в тюркских языках. В статье определены и анализированы суффиксы в составе топонимов.

F.A.Asadova

Toponyms formed by morphological method

Summary

In this article toponyms formed by morphological method in Azerbaijan has been studied. Different views on the origination of the toponyms by morphological method, i.e. the base form and the suffix, are considered. Morphological method is widely used in toponyms origination. This is due to the presence of a large number of suffixes in Turkish languages. Suffixes which are included in the toponyms are determined and analyzed in the article.

Rəyçilər: filol.e.d. T.Baxşıyeva;
BSU-nun Azərbaycan dili və onun tədrisi metodikası kafedrası
(20.06.2017-ci il tarixli iclasının qərarı (pr. №03)).
Redaksiyaya daxil olub: 30.06.2017

S.H.NURİYEVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Dənizçilik Akademiyası
(Bakı şəh., Z.Əliyeva küç., 18)

BEYNƏLXALQ LEKSİKANIN DÜNYA DİLLƏRİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ ROLUNA DAİR

Açar sözlər: *leksika, alınma söz, dil, amil, dil prosesi*
Ключевые слова: *лексика, заимствование, язык, фактор, языковые процессы*
Key words: *lexicon, borrowing, language, factor, language processes*

Dillərin qarşılıqlı əlaqəsinin yaranmasına müxtəlif amillər təsir edir və bu cür əlaqələr hər bir dilin lüğət tərkibinin, terminoloji leksikanın zənginləşməsinə kömək etməklə hər bir dildə anlayış və məfhumların ifadə olunmasına şərait yaradan dil proseslərindən birinə çevrilir. Dillərin qarşılıqlı zənginləşməsi prosesini başlıca olaraq üç cəhətdən izah etmək olar:

1) Bir dildən başqasına keçmiş amillərin keçdikləri dildə rolu, onun strukturuna təsiri və təkmilləşməsində xidmətinin qiymətləndirilməsi;

2) Bu amillərin ictimai əhəmiyyəti;

3) Dillərin qarşılıqlı zənginləşməsi faktının qiymətləndirilməsinə tarixi münasibət.

Saysız-hesabsız dünya dillərinin fəaliyyətinin, inkişafının, qarşılıqlı əlaqələrinin və qarşılıqlı zənginləşməsinin qanunauyğunluqlarının tədqiqi həm filosoflar, həm sosioloqlar, həm də dilçilər, tarixçilər, etnoqraflar və milli mədəniyyətlər sahəsinin mütəxəssisləri üçün maraq doğurur. Dillərin qarşılıqlı zənginləşməsi prosesinin mahiyyəti və xüsusiyyətləri çox sadədir: sözlər və terminlər bir dildən başqasına keçir və onun zənginləşdirilməsinə xidmət edir. Dillərin qarşılıqlı zənginləşməsi onların qarşılıqlı əlaqələrinin ən klassik və maraqlı formalarındandır. Nəzərə almaq lazımdır ki, heç də qarşılıqlı əlaqələrin hamısı dillərin qarşılıqlı zənginləşməsinə xidmət etmir.

Başqa dillərdən müxtəlif sözlərin müəyyən bir dilə keçməsi həmin dilin lüğət tərkibinin zənginləşməsinin ən vacib amillərindən biridir. Hər bir dildə aşağıdakı layları ayırmaq olar: eyni dil ailəsinə malik olan sözlər, qohum dillərdəki eyni qrupa və yarım-qruplara aid olan sözlər, konkret bir dilə məxsus olan sözlər, alınma sözlər. Bu laylara misal göstərmək üçün ingilis dilinə müraciət edək:

- Hind-avropa sözləri (eyni dil ailəsinə malik olan sözlər): *mother, brother, daughter, wolf meat, hear, hundred* və s.;
- German sözləri: *finger, say, see, white, winter* və s.;
- Qərbi-german sözləri: *age, ask, give, love, south* və s.;
- Doğma ingilis sözləri: *lady, lord, boy, girl* və s.;
- Alınmalar: qohum dillərdən: *knight, low, flat, fellow, sale* və s. (qədim skandinaviya dillərindən), bura *rummer, napper, fitter* və s. (holland dilindən);
- Başqa dil sistemindən: *Soviet, sputnik, steppe, taiga* (rus dilindən), *judo, samurai, sumo* və s. (yapon dilindən), *xylophone, epoch, echo* (yunan dilindən).

Dillərin obyektiv qarşılıqlı zənginləşməsi prosesi özünün ən bariz inikasını terminologiyada, birinci növbədə ictimai-siyasi terminologiyada tapır. Bildiyimiz kimi, dil ehtiyac hiss etdikdə başqasına müraciət edir. Ehtiyac o zaman meydana çıxır ki, cəmiyyətdə elmi, texniki, siyasi, iqtisadi və s. nailiyyətlər hədsiz dərəcədə çoxalır, saysız-hesabsız yeni anlayışlar yaranır, dil isə həmin anlayışların nominasiyasının öhdəsindən gələ bilmir. Bu zaman dil lazımı sözləri başqa xalqdan hazır şəkildə qəbul edir və onların qrammatik qayda və qanunlarına uyğunlaşdırır. Və yaxud dil digər bir dildən sözləri hazır şəkildə dəyişmədən

qəbul edir. Digər dildə dəyişməyən söz əsasən termin sözdür. Bu hallarda müxtəlif dillər alınma və beynəlmiləl söz-terminlərlə zənginləşir. Məsələn, ingilis dilinin lüğət fondunun 70%-ə qədərini başqa dillərdən alınmalar və internasionalizmlər (beynəlmiləl sözlər - terminlər) təşkil edir.

Hazırda elmi-texniki terminologiya ilə ictimai-siyasi terminologiyanın qarşılıqlı müqayisəsi birincinin internasional və alınma vahidlərlə daha çox zəngin olduğunu aşkara çıxarır. Bunlar dilin leksik səviyyədə zənginləşməsi yollarından biridir.

Dilə təsir edən amillər ilk növbədə leksik qatda özünü göstərir və burada daha bariz və aydın şəkildə üzə çıxır. Dünya dilçiliyində artıq qəbul olunmuş bu elmi tezis, təbii ki, dilin ümumi inkişaf prosesi ilə sıx bağlı olması, inkişafın dilə olan xarici və daxili təsirlərin ilk növbədə leksik qatda reallaşması ilə birbaşa bağlıdır. Belə bir elmi fikri də haqlı sayırıq ki, "Terminologiyanin formalaşma və zənginləşmə mənbələrini təhlil edərkən bir tərəfdən hazır dil vahidlərinin (alınmaların) dilə daxil olmasını, digər tərəfdə "yarımfabrikatlardan" düzəldilməsini (söz köklərinə klassik önşəkilçilərin artırılması), üçüncüsü isə milli terminlərin yaradılmasını (dilin daxili sözyaratma imkanları ilə termin yaradılmasını) nəzərə almaq lazımdır (1, s.12). Ayrı-ayrı dillərin lüğət tərkibinə daxil olan beynəlxalq terminlər bir qayda olaraq xalqların beynəlxalq sivilizasiyaya qoşulmasına, dünya mədəni və elmi inkişaf yoluna qovuşmasına xidmət göstərir. Əslində bu prosesin həmin xalqları milli qapalılıqdan bir növ xilas etməsi inkaredilməzdir.

Dillərin qarşılıqlı şəkildə bir-birinə təsiri və ya daha güclü elmi-texniki qata malik olan, cəmiyyətin inkişafının bütün sahələrində böyük nailiyyətlər əldə edən, yenilikliləri ilə seçilən xalqların dillərinin nisbətən zəif inkişaf etmiş dillərə təsiri, təsirə məruz qalan dillərin leksik tərkibində alınmaların meydana çıxmasına və beləliklə müxtəlif dillərdə ortaq leksik vahidlərin formalaşmasına səbəb olur. Bu proses - dillərin qarşılıqlı və ya birtərəfli təsiri ayrı-ayrı tarixi dövrlərdə fərqli xarakter daşımış, təsir istiqamətləri yerini dəyişə bilmiş, bir dilin digər dilə təsiri zaman keçdikçə müəyyən tarixi dövrlərdə əks təsir də yarada bilmişdir.

Bütün canlı dillərdə milli sərhəd tanımayan incəsənət və texnikanın inkişafı sayəsində yaranmış beynəlmiləl fond çoxluq təşkil edir. Belə qarşılıqlı təsirlər dilləri məhdud milli çərçivədən çıxarır, cəmiyyətin inkişafının müxtəlif sahələrində beynəlxalq əlaqələrin formalaşmasını və inkişafını sürətləndirir, xalqlar arasında, sırf əməkdaşlığı reallaşdırmaqla dil əlaqələrini də artırır. Müasir dünya dillərinin leksikologiyasında xüsusi fond yaradan beynəlmiləl, yaxud beynəlxalq sözlər dünya xalqlarının dillərinin qarşılıqlı şəkildə zənginləşməsində, eləcə də müxtəlif sistemli dillərin bir-birinə yaxınlaşmasında xüsusi rol oynayır. Lakin leksik fondda özünəməxsus, geniş yeri ilə seçilən beynəlmiləl sözlər tədqiqat arealında nəzər diqqəti cəlb etsə də, bu problemin tədqiqi əsasən müxtəlif tədqiqat prizmalarından araşdırılmış, bu sahədə müxtəlif fikir və fərziyyələr söylənilmişdir. Ayrı-ayrı dilçi alimlər tədqiqatlarında beynəlmiləl sözlərin leksik statusunu müəyyənləşdirməyə səy göstərmişlər. Bir qism tədqiqatçılar ən azı üç müxtəlif sistemli dildə forma və məzmunca uyğun şəkildə işlənən sözləri beynəlmiləl leksikaya aid etsələr də, digər tədqiqatçı alimlər hətta beynəlmiləl sözlərə dünyanın bütün sivil ölkələrində olduğu kimi işlənilməsi tələbi ilə çıxış etmişlər.

Beynəlmiləl (beynəlxalq) terminlər işləndiyi dillərdə eyni semantik mənaya və oxşar səs qişasına malik olmaqla dilin elm, texnika, mədəniyyət, incəsənət, siyasət, idman, hərb və s. sahələrinə aid anlayış və məfhumları ifadə etməlidir. Tanınmış mərhum dilçi alim Məmməd Qasımov yazırdı: "Sırf dilçilik nöqteyi nəzərdən internasional terminlərin işləndikləri bütün dillərdə eyni mənanı ifadə etməsi, eyni səs tərkibinə, hətta eyni yazılış formasına malik olması zəruridir. Bu, elmi-texniki terminologiyanın ayrı-ayrı sahələrinin beynəlxalq miqyasda unifikasiya edilməsi üçün böyük əhəmiyyətə malikdir" (2, s.149).

Dil vahidlərinin formalaşmasında ayrı-ayrı ölkələrdə baş vermiş, dünya xalqlarının bir çoxunun taleyində müəyyən rol oynamış, beynəlxalq əks sədanın yaranmasına gətirib çıxaran

və dünyanın ayrı-ayrı regionlarında müəyyən dillər üçün ortaq keyfiyyət, yaxud məna daşıyan beynəlmiləl sözlərin müəyyən tarixi zəmində təşəkkül tapdığı nəticəsinə gəlmək mümkündür.

Dünyanın bir sıra dillərində beynəlmiləl leksika, yaxud leksik-terminoloji vahidlər dilin ümumi leksik tərkibinin müəyyən hissəsini təşkil edir və bu, müəyyən tarixi zərurətlə bağlıdır. Ona görə ki, "...heç bir dil hər hansı başqa dilə zor gücü ilə öz vahidlərini qəbul etdirə biməz. Bir dildən başqa dilə söz və terminlərin yayılması tarixi şəraitlə, xalqlar arasında elmi, texniki və mədəni əlaqələrin möhkəmlənməsi ilə mümkün ola bilər". Bu baxımdan ayrı-ayrı dünya dillərinin lüğət tərkibinə daxil olan beynəlxalq leksika daha çox elmi, texniki, eləcə də mədəni sahələrə aid olan terminlər toplusu kimi diqqəti cəlb edir.

Bəzi linqvistlər aralarında çoxlu sayda alınmalar olan terminlərə xüsusi nəzər yetirirlər. Dediyimiz bu terminlər latın və yunan köklü terminlərdir, bir çox hallarda onlar keçdikləri dillərdə ekvivalentlərlə əvəz olunurlar. Bu ekvivalentler daha çox tərcümə zamanı meydana çıxır. Bəzi dilçilər terminlərin başqa dildə ekvivalentləşməsinə milli sözlərlə əvəzedilmə prosesindən başqa transkripsiya (*computer, electrolyte* və s.) və transliterasiyanı (*electrode, collector* və s.) da aid edirlər.

Müasir dövrdə dillərarası əlaqələr daha da genişlənib. Elm və texnikanın sürətli inkişafı nəticəsində bir çox terminlər yaranmış və yaranmaqdadır. Aşağıdakı terminlərdən aydın olur ki, həmin terminlər müxtəlif dövrlərdə dünya dillərinə keçərək beynəlxalq terminlər sırasına daxil olub və eyni məna kəsb edir:

Məlumdur ki, ümumi dilçilikdə termin və terminologiya dilçilərin tədqiq obyektinə çevrilmiş, onların təbiəti və rolu haqqında ən müxtəlif fikir və mülahizələr söylənilmişdir. Xarici dilçilərdən J.Vandriyes və bir çox başqaları termin və jarqonu eyni hesab etmiş, Loqan Smit isə onu aşkarca "Elmi jarqon" adlandırmışdır. Bundan başqa T.Sevyori termin və ümumişlək sözləri qarşı- qarşıya qoymuşdur. A.A.Reformatski termin haqda yazırdı: "'Termin elm və texnikanın ayrı-ayrı sahələrində məntiqi cəhətdən formalaşmış spesifik anlayışları ifadə edən, təkmənalılığa daha çox meyil göstərən, üslubi cəhətdən neytral olan bir neçə dildə vahid şəkildə işlənə bilən söz və ya söz birləşməsidir" (3, s.53).

Elmin və başqa sosial institutların xüsusi dili özünü "sinfi dialekt" kimi göstərir və bütövlükdə terminologiya adlanır. Dildə zəngin sinonimik cərgədən seçilmiş cəmi bir nominativ söz, yaxud söz birləşməsi elmi sahələrdə və ya predmetin, hadisənin realinin elmi təfəkkürdən keçərək xüsusiləşməsi yolu ilə terminləşir. Başqa sözlə, termin yalnız elmi leksik vahid deyil, həm də cəmiyyətin sosial-ictimai fəaliyyətinin bütün başqa sahələrinin dilinin leksik vahididir.

"Termin" sözü mənşə etibarı ilə "terminus" sözündən əmələ gəlmiş, latınca "hədd, hüdud, sərhəd" deməkdir. Terminlər elm, texnika, incəsənət və mədəniyyət sahəsində müxtəlif məfhumları və anlayışları ifadə edən söz və söz birləşmələridir. Terminlər dili zənginləşdirir, inkişaf etdirir, onu elm və texnikanın mürəkkəb fikirlərinin ifadəsi üçün yararlı hala salır. Terminlər bir qayda olaraq, ya dilin öz lüğət ehtiyatından, ya da başqa bir dildən alınır. Hər iki halda, termin xüsusi bir anlayışı ifadə edən söz kimi müəyyən sahədə işlədilir və heç bir sinonimlə əvəz edilmir. Alınma terminlərin bir qismi də beynəlxalq səciyyə daşıyır. Onların ümumişlək alınmalardan bir neçə fərqli cəhəti vardır:

Ümumişlək alınma terminlər xalqımızın digər xalqlarla bütün sahələrdə qarşılıqlı əlaqəsinin nəticəsidir. Beynəlxalq sözlər isə insan fəaliyyətinin yalnız əsas, xüsusi sahələrini əhatə edir (siyasi, mədəni, elmi, texniki, iqtisadi və s.). Ümumişlək alınma sözlər isə məişətin müxtəlif sahələrinə aiddir və keçdiyi dillərdə bu və ya digər anlayışı ifadə edir. Məsələn, "mebel", "restoran", "albom" və s. Nəhayət, onlar bir neçə qohum dildə işlənə bilir, eyni mənanı bildirir. Beynəlxalq səciyyəvi alınmalar isə qohum olan və olmayan bir neçə dildə işlənərək siyasətə, elmə, texnikaya aid spesefik anlayışları ifadə edir. Məsələn, "karikatura", "xarakter", "musiqi", "qaz", "polis", "sistem", "ideya" və s.

Məlumdur ki, terminlərin çoxkomponentli dil vahidləri ilə ifadə olunması terminlərə verilən əsas tələblər baxımından (terminlər sadə, azsözlü olmalıdır ki, işləkliyi asan olmaqla daha tez yadda qalsın) o qədər də məqsədəuyğun deyildir. Lakin cəmiyyətin inkişafı onun elm və texnikasının da müxtəlif sahələrinin inkişafına şərait yaradır.

Nəticə. Beynəlmiləl sözlərin əksəriyyəti qədim klassik dillərin yunan və latın dillərinin leksik vahidləri əsasında və ya bu dillərə məxsus ünsürlərin birləşməsi əsasında digər xalqların nümayəndələri tərəfindən düzəldilmiş vahidlərdən ibarət olur. Əlbəttə beynəlmiləl terminlərin formalaşmasında yalnız yunan və latın dillərinin deyil, başqa dillərin də rolu olmuşdur. Onların müəyyən qismini ingilis, ispan, alman, fransız sözləri təşkil edir. Bu cəhətdən ərəb dilinin do rolu az deyil. Çünki ərəb dili qədim zamanlardan müxtəlif xalqlar arasında ərəb mədəniyyətinin yayıcısı olmuşdur. Bir neçə sözü misal göstərək: “algebra” (əl-cəbr), “alkaqol”, “alkaloid” və s.

Ədəbiyyat

1. Abdulla Q. Azərbaycanca danışıq kitabı. Bakı: Maarif, 1985.
2. Qasımov M.Ş. Azərbaycan dilinin terminologiyasının əsasları. Bakı: Maarif.
3. Реферматский А.А. Что такое термин и терминология? // Вопросы терминологии. М., 1961, 53-174 с.

С.Г.Нуриева

О роли международной лексики в обогащении мировых языков

Резюме

Заимствования играют важную роль в обогащении мировых языков. В статье исследуются пути и средства обогащения словарного состава языков. В основном анализируются международные слова и термины. Автор приходит к выводу, что заимствованные слова являются результатом международных отношений и связей между различными народами мира. Исследование в статье ведется на основе обширного языкового материала.

S.H.Nuriyeva

On the role of international vocabulary in enriching world languages

Summary

Borrowing plays an important role in enriching world languages. The article explores ways and means of enriching the vocabulary of languages. Basically, international words and terms are analyzed. The author comes to the conclusion that borrowed words are the result of international relations and relations between different peoples of the world. The study in the article is based on extensive linguistic material.

Rəyçi: filol.f.d., dos. A.X.Ramazanova

Redaksiyaya daxil olub: 12.05.2017

T.İ.OSMANOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MİFOLOJİ TƏSƏVVÜRLƏR DİLİN İKİNCİ NOMİNASİYA VAHİDLƏRİNİN MƏNBƏYİ KİMİ

***Açar sözlər**: mif, idrak prosesi, mədəniyyət, etnik-mədəni ənənə, atalar sözləri.*
***Ключевые слова**: миф, процесс познания, культура, этническая традиция, пословицы.*
***Key words**: myth, process of cognition, culture, ethnik cultute, proverb*

Mif ictimai inkişafın ilkin mərhələləri üçün səciyyəvi olan dünyanın anlama üsulu, əski mədəniyyətlərdə gerçəkliyin rəmzi-obrazlı şəkildə yeganə doğru bilinən izahı, ictimai şüurun ilkin formasıdır. Mif – qədim insanın hiss etdiyi, düşündüyü, inandığı, başa düşüldüyü nə varsa onun idrakının şifahi izi hesab olunmalıdır (10, s. 6).

Mənəvi-ruhani olanın belə maddi qavrandığı mif bir janr hadisəsi də deyil, idrak prosesinin özüdür, lakin o, həm məcazi təfəkkür tərzi kimi emosionallıqla dolu olub, əski düşüncəyə təpər verir. İlkin çağ insanının yaradılışı, gerçək aləmi və təbiət hadisələrini necə qavraması məhz həmin prosesin dərkiylə mümkun olur (5, s. 241).

Ümumiyyətlə mif danışılan bir tarixçə deyil, yaşanılan bir gerçəklikdir. Mif ümumbəşər mədəniyyətinin ən erkən şəkli kimi ilkin bilgiləri, ilkin dünyagörüşü, ilkin dini inancları özündə cəmləşdirmişdir. Mifdəki "idrak" anlayışı ənənəvi mənada başa duşulən bilgi qazanmaq deyil, bir dünya dərkidir, bir dünya duyumudur. Bu haqda K.Levi-Stross yazırdı: "Mif" anlayışı düşüncəmizin keyfimizin istədiyi kimi istifadə etdiyimiz bir kateqoriyasıdır"

Mifologiya ibtidai cəmiyyətlərin mənəvi həyatında mühüm yer tuturdu. Həmin cəmiyyətlərdə mifologiya ictimai şüurun universal forması kimi çıxış edirdi. İbtidai cəmiyyət insanı gerçəklikdə baş verən hadisələri anlamağa, başa düşməyə çalışmışdır. Lakin təbiətin sirrlərini anlamaq bacarığına malik olmadığlarına görə, öz təsəvvürlərində sadəlövhcəsinə müxtəlif hekayələr, rəvayətlər, əfsanələr yaradırdılar. Ibtidai insanın yaratmış olduğu hekayənin əsas məzmunu dünyanın və insanın yaranması haqqında sadəlövh hadisələr və möcüzələrdən ibarətdir. Arxaik sinkretizmin özülü və başlıca şərti mifologiyadır. Başqa sözlə, bütövlükdə qədim mədəniyyətin, yaxud tək-tək etnik-mədəni sistemlərin bərpası üçün birinci olaraq mifologiyanı öyrənmək gərəkdir (1, s. 9).

Dünyada ele bir xalq yoxdur ki, onun özünəməxsus mifologiyası olmasın. Hər bir xalqın yaşadığı təbiətə, ozünəməxsus xüsusiyyətlərinə görə mifologiyalarıda mövcud olmuşdur. Lakin bir çox qohum xalqlarda oxşar xüsusiyyətlər, oxşar anlaşılan amillər mövcud olmuşdur,bununla yanaşı bir sıra qohum xalqlarda xırda fərqləri nəzərə almasaq, eyni mifoloji kökə söykənən əsatirlər, əfsanələr, rəvayətlər, nağıl və dastanlar mövcuddur. Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, qohum olmayan, ayrı-ayrı dünya xalqlarının da müxtəlifliyinə baxmayaraq, başlıca mif süjetlərinin və motivlərinin bir-birini təkrarladığı faktını müşahidə etmək mümkündür, bu isə o deməkdir ki, mif yaradıcılığında xalqlar bir-birilərindən xəbərsiz eyni yolla gedib. Hətta dünya dinlərini elmi şəkildə araşdırılması onlarında mifoloji elementlərin olduğu faktını ortaya çıxarmışdır. A.F. Losev qeyd edir: "Əskilərə getdikcə - "ilkin çağında yığcam, lapidar və azstrukturlu" olan mif inancla etiqadla iç-içə yoğrulmuşdur"

Mifoloji təsəvvürlər şifahi xalq ədəbiyyatının və yazılı ədəbiyyatın tərkibində-dastanlaın, nağılların, əfsanələrin, tarixi əsatirlərin və bir çox yazıçıların əsərlərində geniş şəkildə oz əksini tapmışdır. Bu janrlarda öz əksini tapmış mifoloji obrazlar, sujetlər xalqların etnik mədəniyyətində, rəssamlıq nümunələrində, heykəltaraşlıq abidələrində özünü tapmışdır. "Kitabi- Dədə Qorqud" un boyları, "Koroğlu" eposu, nağıllar, bayatılar və.s xalqımızın milli

dünyasının qeyri-adi genişliyindən və qüdrətindən xəbər verir. Əslində, folkloru öyrənmək xalqı öyrənmək deməkdir.

Bir çox türkdilli xaqlarda müəyyən ağaclar, bitkilər müqəddəs sayılmışdır. Bu etiqada görə, həmin ağacların meyvələri, yarpaqları, insanları cavanlaşdırır, ona əbədi həyat bəxş edir, ölünü dirildir, yaralılara şəfa verir və s. Dilimizdə işlədilən "dirilik ağacı", "dirilik gülü" kimi idomatik ifadələr qeyd etdiyim mifoloji xarakterli anlayışlara əsasən yaranmışdır. "Tapdıq" nağılında "dirilik ağacının yarpağı", "dirilik gülü" kimi idiomatik ifadələr həyat bəxş edən kimi təsvir olunur.

Dünya mədəniyyətinin tərkib hissəsi olan "Gilqamış" dastanı bu məsələlər baxımdan maraqlıdır. Dastanda Gilqamış "sehirkar" bir bitki əldə edir. Həmin bitki onu yeyənə ölməzlik verərmiş və həmişə cavan qalmaq imkanını yaradarmış. Lakin bitki Gilqamışa, insan övladına, qismət olmur, ilana qismət olur. Bu mifoloji təssəvürə görə, ilan ildə bir dəfə dərisini dəyişir, gəncləşir. İlana olan inam hər bir xalqın dilindən də yan keçməmiş, müxtəlif konnotasiya ilə, dilin ikinci dərəcəli nominasiya vahidlərinədə öz əksini tapmışdır. Azərbaycan nağıllarında və dastanlarında rast gəldiyimiz şər və xeyirxah ilanları, əjdahaları, hər şəydən öncə həmin ərazidə yaşayıb ilana sitayiş edən qəbilə və eləcə də "buka" onqonuna tapınanlarla əlaqələndirməliyik. Əks təqdirdə, məsələnin geniş elmi mənzərəsi yarana bilməz (9, s. 18).

Bir çox mifoloqların fikrini nəzərə alaraq demək olar ki, ilana qarşı olan nifrətin yaranması ilan onqonuna etiqad edən qəbilələrin başqa onqona tapınan qəbilə ilə birləşmələri: istər könüllü, istərsə də zor gücü ilə qaynayıb-qarışmasına səbəb olmuşdur, yaxud daha nüfuzlu yad qəbilənin onqonunun üstün gəlməsi idi. Bununla da ilana pis münasibət yaranmışdır, bu da özünü atalar sözlərində və digər ifadələrdə göstərmişdir. Məs: " İlanın ağına da lənət, qarasına da" kimi atalar sözündə ilan kultuna olan pis münasibət özünü aydın şəkildə göstərir. "Taxta qılınc" nağılında, bir tərəfdən ilanın hələ də totemilik mövqeyinin itirməməsi, "qızıl ilan" çətin işlərdə dadına çatan varlıq kimi göstərilmişdir. Digər tərəfdən nağıl yaradıcısı ilan toteminin digər totemlə əvəz olunmasını nəzərə alaraq, ona qarşı nifrət hissi oyatmışdır. Bütün bunlara baxmayaraq, ilana tapınmanın izləri son zamanlara qədər bir çox türkdilli qəbilələrdə, etnik qrup və xalqlarda qalmışdır. İlan arxeotipi indi də apteklərin müsbət simvolik obrazı kimi qalmaqdadır.

M.Qaşğari qeyd edirdi ki, Oğuz, Qıpçaq və b. qəbilə birləşmələri sitayiş etdiyi mifin adını həmin qəbilə birləşməsinin bilicisinə - dini başçısına, xaqanına, ağsaqqalarına da verirmişlər. "Tengriqan", "tanqrı" və "qan" sözlərindən ibarət mürəkkəb sözdür. "Tanqrı" - göy, allah; "qan" - ata, xaqan mənasındadır. "Tanqriqan" - "ata tanrı", "xan tanqrı"deməkdir. Deməli, "tenqri" sözündən olan "tenqrixan" bilicilərə, ağsaqqalara, xaqanlara deyilirmiş (9, s. 18). Dilimizdə işlədilən "Tanrısına təpik atmaq" frazeoloji vahidinin də mərkəzi komponenti "tenqri" sözüdür. Bu ifadə yalnız "yaxşılığa alçaqlıqla cavab vermək, duz-çörəyi danmaq" mənasında deyil, həm də "kiminsə himayəsini yaddan çıxarmaq" mənasında işlənir. Bu frazeoloji birləşmədə "tenqri" konsepti xalq təfəkküründə "qoruma", "müdafiə etmə", "mərhəmət", "himayə" anlayışlarında işlənir.

Azərbaycan xalqının bədii təfəkkürünün abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarının poetik dili bədii təsvir vasitələri ilə zəngindir. Onlarda xalq dilinin incəliklərindən-atalar sözü, məsəl və idiomatik ifadələrdən bol-bol, məharətlə istifadə olunmuşdur. "Kitabi-Dədə Qorqud" Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından zəngin mənbədir. Dastanda ana obrazı xüsusilə diqqəti cəlb edir. O, vətən rəmzi kimi ümumiləşdirilir. "Ana haqqı, Tanrı haqqı" kimi qiymətləndirilir. Bu ifadə hal-hazırda da dilimizdə öz əksini tapır. Beləliklə, mifoloji kökə əsaslanan atalar sözləri, məsəllər, idiomatik ifadələr, frazeoloji birləşmələr dilimizin soykökünün araşdırılıb öyrənilməsində əvəzsiz rol oynayır.

Ədəbiyyat

1. Acalov A. Azərbaycan mifoloji mətnləri. Bakı, 1988.
2. Adilov M. Niyə bələ deyirik. Bakı, 1974.
3. Adilov M. Qanadlı sözlər. Bakı, 1988.
4. Azərbaycan nağılları. Bakı, 1962.
5. Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı, 2003.
6. Kaşğarı M. Divani lüğəti-it türk. Ankara, 1941.
7. Qıpçaq M. Söz aləminə səyahət. Bakı, 2002.
8. Orucov Ə.Ə. Azərbaycan-rusca frazeologiya lüğəti. Bakı, 1976.
9. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983.
10. Şükürov A. Mifologiya. 1-ci kitab. Bakı, 1995.
11. Şükürov A. Mifologiya. Qədim Türk mifologiyası (6-cı kitab). Bakı, 1997.

Т.И.Османова

Мифологические представления как источник единиц языка второй номинации

Резюме

Этнический опыт народа, его историко-культурное сознание находит отражение в системе единиц вторичной номинации и восходит, по мнению ученых-мифологов, к архаичным мифам. Современная лингвистика воспринимает национально - языковую картину мира как концептуализацию и рассматривает концептуально релевантные знаки языка в пословицах, поговорках, фразеологизмах. Вторичная номинация содержит экстралингвистическую информацию и служит для выражения внеязыкового смысла, содержащего когнитивные особенности миропонимания.

T.I.Osmanova

Mythological concepts of language as a source for units of the secondary nomination

Summary

The ethnic experience of the people, its historical and cultural consciousness is reflected in the system of units of the secondary nomination and goes back, according to the opinion of the mythological scientists, to archaic myths. Modern linguistics perceives the national and linguistic picture of the world as conceptualization and considers conceptually relevant signs of language in proverbs, sayings, phraseology. The secondary nomination contains extra linguistic information and serves to express an extra-linguistic meaning that contains cognitive features of the worldview.

Rəyçi: filol.f.d. A.Qəmbərova

Redaksiyaya daxil olub: 14.06.2017

X.N.QASIMOVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

İNGİLİS DİLİNDƏ OXŞAR LEKSİK VAHİDLƏRİN FƏRQLİ CƏHƏTLƏRİ

Açar sözlər: *konversiya, omoqraf, heteronim, leksik vahid, sözdüzəltmə, sintetik dil*
Ключевые слова: *конверсия, омограф, гетероним, лексическая единица, словообразование, синтетический язык*
Key words: *conversion, homograph, heteronym, lexical unit, word-formation, synthetic language*

Məlumdur ki, dilçilikdə mövcud olan hadisələrindən biri də omonimlikdir. Əvvəlcə omonimliyə verilən tərifləri nəzərdən keçirək. Görkəmli dilçi alimlərdən A.Kuninin omonimliyə verdiyi tərifi aşağıdakı kimidir: "Mənasına görə fərqlənən, səslənməsi ilə yazılışına görə, yaxud da yazılış və səslənmə baxımından eyniyyət təşkil edən sözlər omonim adlanır". L.Bulaxovskinin omonimliyə verdiyi tərif belədir: "Eyni səslənməyə malik olan, lakin tamamilə müxtəlif mənalar ifadə edən iki və ya daha çox söz omonim adlanır". E.Vorno və M.Kaşeyevanın da omonimliyə verdiyi tərif yuxarıdakı tərifdən bir o qədər də fərqlənmir: "Yeni formaya malik olan, lakin, mənaca bir-birinə oxşamayan sözlərə omonimlər deyilir". (9, s.125) K.Varantsevin omonimliyə verdiyi tərif də az fərqlənir: "Omonimlər elə sözlərdir ki, onlar eyni səsləndiyi halda müxtəlif məna kəsb edirlər" (8, s.73). K.Levkovskayanın omonimliyə verdiyi tərif öz lakonikliyi ilə seçilir: "Səslənmə örtüyünə görə üst-üstə düşən sözlər omonim adlanır". E.Kroteviç və N.Rodzeviçin verdikləri tərif də yuxarıdakılarla eyniyyət təşkil edir: "Omonimlər səslənmə baxımından eyni, məna baxımından müxtəlif olan sözlərdir".

V.Arakin isə omonimlərə aşağıdakı kimi tərif vermişdir: "Tamamilə eyni olmyan mənaya malik olan və əsasən də müxtəlif nitq hissələrinə malik olan sözlər omonim adlanır ki, belə sözlər eyni səs tərkibinə və ya eyni qrafik formaya malik olurlar". İ.Arnoldun fikrinə görə isə omonimlər səslənmə və yazılışca eyni, mənaca fərqli sözlərdir.

Məqalədə omonimlərin bir hissəsi olan oxşar leksik vahidlərin fərqli cəhətlərini araşdıracağıq. Belə oxşar leksik vahidlərdən danışarkən konversiya və omoqrafları müqayisə etmək yerinə düşərdi. Konversiya və omoqrafları müqayisə etməzdən əvvəl, yaxşı olar ki, ilk öncə onların ayrı-ayrılıqda tərifləri nəzər yetirək. İngilis dilində konversiyanın tərifi belədir; In linguistics, conversion, also called zero derivation, is a kind of word formation involving the creation of a word (of a new word class) from an existing word (of a different word class) without any change (1)

Yuxarıdakı tərifdə izah olunur ki, dilçilik elmində konversiya sözdüzəltmənin bir növü olub, fərqli söz sinfindən olan mövcud sözdən formada heç bir dəyişiklik olmadan yeni söz sinfi və ya yeni sözün yaranmasıdır. "Konversiya" termini latın mənşəlidir, "dəyişmə" mənasındadır. (10, s. 347) Linqvistik terminlər lüğətində "konversiya" termininin ingiliscə "conversion" sözündən əmələ gəldiyi və yeni söz yaradıcılığı üsulu, yolu olduğu, sözdəyişdirici paradiqmalar təşkil etdiyi qeyd olunmuşdur. (7, s. 202)

Konversiya-keçmə maraqlı linqvistik hadisələrdən olub, dilin ifadə və məzmun planlarının qarşılıqlı nisbətdə öyrənilməsi zəminində meydana çıxır. Konversiya yarananda söz yeni sintaktik mühitə düşür, yeni sintaktik funksiya ilə çıxış edir, yeni məna formalaşır, sözün morfoloji dəyişməsi nəticəsində digər paradiqmalar əmələ gəlir. (3, s.41) Məsələn, sleep ingilis dilində həm feil olub "yatmaq" kimi, həm də isim olub "yuxu" kimi tərcümə oluna bilər. Lakin hər iki halda tələffüzdə heç bir dəyişiklik müşahidə olunmur.

Məsələn, ingilis dilində e-mail sözü isim kimi feildən əvvəl yarandığı halda, hal-hazırda konversiyaya uğrayaraq həm də feil kimi işlənir: A decade ago I would have sent you an email (noun) whereas now I can either send you an email (noun) or simply email (verb) you. Ümumiyyətlə, ingilis dilində konversiyanın ən məhsuldar forması isimdən feilə çevrilən konversiyadır ki, bunun da nümunələrini aşağıdakı siyahıdan görmək mümkündür;

İsim - Feil

access – to access	knife – to knife
microwave – to microwave	bottle – to bottle
name – to name	can – to can
closet – to closet	pocket – to pocket
email – to email	salt – to salt
shape – to shape	ship – to ship
spear – to spear	Google – to google
torch – to torch	host –to host
fiddle – to fiddle	verb – to verb
fool – to fool	eye – to eye

Nümunələrə cümlələrdə də nəzər yetirə bilərik.

My grandmother bottled (feil) the juice and canned (feil) the pickles.

My grandmother put the juice in a bottle (isim) and the pickles in a can (isim).

She microwaved (feil) her lunch.

She heated her lunch in the microwave (isim).

Feildən ismə və əksinə çevrilə bilən sözlərə eye, impact, access, fool, drink, stop, lure, train və başqa sözləri də misal gətirmək olar. Məsələn, Eye the child dedikdə biz bu sözü "Uşağa göz qoy" və ya "uşağa bax" kimi tərcümə edirik. Burada eye "look (at)" sözünü əvəz edir.

Konversiyanın digər məhsuldar növü də feildən isimə çevrilən sözlərdir.

to alert – alert	to hope – hope
to increase – increase	to attack – attack
to judge – judge	to call – call
to laugh – laugh	to clone – clone
to rise – rise	to command – command
to run – run	to cover – cover
to sleep – sleep	to cry – cry
to start – start	to experience – experience
to turn – turn	to fear – fear
to visit – visit	to feel – feel

Məsələn, The guard alerted (feil) the general to the attack (isim).

The enemy attacked (feil) before an alert (isim) could be sounded.

Sometimes one just needs a good cry (isim).

The baby cried (feil) all night.

Konversiya müxtəlif nitq hissələri arasında da baş verə bilər. Əgər biz heç bir şəkilçi istifadə etmədən hər hansısa sifətdən feil düzəldə biliriksə, bu, konversiya adlanır. Azərbaycan dilində konversiyanın yaranması qeyri-mümkündür, çünki Azərbaycan dilində hər hansı bir nitq hissəsini feilə çevirərkən mütləq feil-düzəldici şəkilçidən istifadə etmək lazımdır. Azərbaycan dili aqqlütinativ və sintetik dillər qrupuna aid olduğundan burada hər hansısa qrammatik və ya leksik şəkilçi sözün sonuna artırılaraq yeni söz düzəldilir. İngilis dilində isə heç bir şəkilçi istifadə etmədən belə yeni söz sinfi yaradan digər bir nitq hissəsini

yaratmaq mümkündür. Az hallarda olsa da, konversiyada sifətdən feil və sözönü və ya bağlayıcıdan isim düzəltmək mümkündür.

Sifətdən feil: green → to green (to make environmentally friendly)

Sözönündən isim: up, down → the ups and downs of life

Bağlayıcıdan isim: if, and, but → no ifs, ands, or buts

Nidadan isim: ho ho ho → I love the ho ho hos of Christmastime.

Konversiyadan bəhs edərkən ona çox bənzəyən və çox kiçik detallarla ondan fərqlənən omoqraflara nəzər yetirməmək olmaz. İngilis dilində omoqrafın tərifi belədir; A homograph is a word that shares the same written form as another word but has a different meaning (2) Tərifdən belə bir tərcümə meydana çıxır ki omoqraf fərqli mənalı, lakin başqa bir söz kimi eyni yazılış formasını paylaşan sözdür. Bəzi lüğətlər israr edir ki, sözlər həmçinin fərqli səslənməlidir, halbuki, Oksford İngilis dili lüğətində deyilir ki, sözlər həmçinin fərqli mənşədən olmalıdır (3, s.3) Müxtəlif növ homoqraflar təsnif olunur ki, burada da fərqli söz sinfi olaraq fərqləndirilir. Məsələn, burada **hit** feil kimi **strike** yəni vurmaq sözünün ekvivalenti kimi başa düşüldüyü halda isim kimi **blow** yəni zərbə sözünün sinonimidir (4, s.192) Sözlər müxtəlif tələffüzlə fərqləndirildikdə buna heteronim deyilir. Heteronimlərə ən gözəl misal **close [klouz] [klous], lead [li:d] [led], wind [wind] [waınd]** və başqaları misal ola bilər. **Close** sözü bağlamaq kimi tərcümə olunduqda **[klouz]** yaxın mənasını verdikdə isə **[klous]** kimi tələffüz olunur. Morfoloji baxımdan təhlil edərkən də biz bir feil və bir sifət görürük. Məsələn,

You never close the door –Sən heç vaxt qapını bağılamırsan.

You are my close friend – Sən mənim yaxın dostumsan.

Yuxarıdakı misallarda həm nitq hissəsində, həm də tələffüzdəki dəyişikliklər eyni yazılışlı **close** sözünün heteronim olduğunu sübut edir. Əslində heteronim omoqrafın bir yarımqrupudur.

Lead sözü feil kimi çıxış etdikdə [li:d] kimi tələffüz olunaraq rəhbərlik etmək, aparıb çıxarmaq kimi tələffüz olunur. [led] kimi isə morfoloji cəhətdən isim funksiyasında olub qurğuşun mənasını verir. Bu söz də heteronimlər üçün analoji bir misal hədəfi ola bilər;

They lead the country properly-Onlar ölkəyə əməlli rəhbərlik edirlər.

Lead is lighter than gold-Qurğuşun qızıldan yüngüldür.

Oxşar misal **wind** sözü üçün də keçərlidir. Bu söz [wind] kimi tələffüz olunduqda morfoloji cəhətdən isim olduğu halda, [waınd] kimi tələffüz edildikdə fırlatmaq kimi tərcümə olunaraq feil funksiyasında işlənir. Məsələn,

Wind is blowing fast-Külək sürətlə əsir.

Wind the cassette back- Kaseti geri fırlat.

Omoqraflardan danışarkən mütləq qeyd etmək lazımdır ki, burada müxtəlif nitq hissələri arasında əlaqə özünü açıq-aşkar göstərə bilər. Omoqraflar konversiyaya çox bənzəyir. Bu bənzərliyin ən qabarıq forması hər ikisində əlaqənin müxtəlif nitq hissələrində təzahür etməsidir. Omoqraflar eyni yazılışa, lakin müxtəlif tələffüzə malik olan sözlərdir. Omoqraflarda bir nitq hissəsindən digər nitq hissəsinə keçərkən tələffüzün dəyişməsi mütləq olduğu halda, konversiyada bu cəhət özünü göstərmir. Yəni konversiyada söz yeni söz yaradarkən heç bir tələffüz dəyişikliyi müşahidə edilmir. Omoqraflarda isə bir nitq hissəsindən digərinə keçərkən tələffüz əsaslı formada dəyişir. Məsələn, **minute- [mınıt] [maınju:t].** Minute- [mınıt] kimi tələffüz olunarkən morfoloji cəhətdən isim və mənası "dəqiqə" olduğu halda, [maınju:t] kimi oxunarkən morfoloji cəhətdən sifət və tərcüməsi "cüzi" olur. Əslində omoqrafları konversiyadan fərqləndirən ən başlıca cəhət də tələffüzün dəyişkənliyindədir. Digər bir misalı **present** sözünə gətirmək yerinə düşərdi. Present- [prɪˈzent] kimi tələffüz olunarkən "təqdim etmək", [ˈpreznt] kimi tələffüz edilərkən morfoloji cəhətdən sifət olur və dilimizə "indiki", "hal-hazırki" kimi tərcümə olunur.

Omoqraflar cümlədə iki qrammatik funksiya nəticəsində yaranır. Məsələn: When I graduate (grædjueɪt)the University, I'II become a graduate (grædjuit).

Don't desert (di zə:t)me here in the desert (dezət). (5, s.20)

Verilən misallardan göründüyü kimi, omoqraf cütlüklərindən biri isim, biri isə feil kimi işlənmişdir. Aşağıdakı omoqraf cütlüklərə nəzər salaq:

bow (bou) -bow (bau): lead (li:d) lead (led): row (rou) -row (rau)sewer (soue)

sewer (sjue): tear (tie) tear (te e): wind (wind) wind (waind)

Verilmiş bu nümunələrdə tələffüz fərqi olduğu kimi, məna fərqi də vardır.

Əksər hallarda omoqrafların tələffüzlərindəki fərq ya onların vurğularında, ya da xüsusi nəzərə çapdırılmalarında olur. Əslində, sözün hansı hecasının vurğulu olması əsas şərtdir. İki hecalı sözlərə nəzər salsaq, görərik ki, əsasən isimlərdən birinci heca vurğulu olur, fellərdə isə vurğu ikinci hecaya düşür. Məsələn, contest (n) – con′test (v). Amma elə sözlər də vardır ki, onlarda vurğu dəyişmir. Məsələn, abuse və use sözləri. Burada səs əvəzlənməsi (sound interchange) baş verir. Feil formasında (z) cingiltili, isim formasında isə kar samit(s) olur. Lakin həmişə isim və fel dəyişmələri olmur. İngilis dilində bir sıra sözlər vardır ki, onlar müxtəlif nitq hissələrinə mənsubdurlar və komponentlərdən biri cəm şəkilçisi qəbul etsə də cütlüklər eyni cür səslənir. Məsələn, asses-asses omoqrafik cütlüyündə birinci asses-ass sözünün cəm forması, ikinci asses sözü isə Latın mənşəli olub" qəpik"mənasındadır. Read sözü də omoqrafdır, çünki feilin indiki və keçmiş zaman formalarında eyni cür yazılır.lakin hər iki zamanda səslənməsi fərqlidir. Məsələn, I want to read the sequel (conclusion) today, because I read the first book yesterday. (5, s.23)

Bunlar qrammatik funksiyalı omoqraflardır və əsl omoqraflardan fərqlənir, çünki əsl omoqraflar mənaca fərqli olur,yəni onlar nitq kateqoriyalarına görə fərqlənirlər, burda isə read (ri:d) və read (red)sözlərinin tələffüzləri müxtəlif olsa da, eyni nitq hissəsidir.

	Tələffüz	Məna	morfologiya
konversiya	__	__	+
omoqraf	+	+	+

Yuxarıdakı cədvəldən və bütün bu sadalanan keyfiyyətlərdən belə bir nəticəyə gəlmək olar ki, konversiyada əslində nə tələffüzdə, nə də mənada heç bir dəyişiklik baş vermir. Yeganə dəyişikliyə uğrayan morfologiyadır ki, burada da gizlilik müşahidə olunur. Bu gizli dəyişkənliyi isə aşkara çıxarmaq üçün yalnız sözün cümlədəki yerinə fikir vermək lazımdır. Omoqraflarda isə dəyişiklik özünü həm tələffüzdə, həm mənada, həm də morfologiyada göstərə bilər. Bu dəyişiklik yuxarıdakı cədvəldə mənfi və müsbət işarələri ilə açıq-aydın təsvir olunur.

Ədəbiyyat

1. https://en.wikipedia.org/wiki/Conversion_(word_formation)
2. https://en.wikipedia.org/wiki/Homograph
3.Homophones and homographs: An American Dictionary. 4th ed., McFarland, 2006.
4. Atkins, BTS.: Rundell,M., The Oxford Guide to Practical Lexicography, OUP Oxford, 2008.
5. Hacıyeva A.H. English Lexicology. Bakı, 2011.
6. Hacıyeva A.H. Contrastive Lexicology. Bakı, 2010.
7. Ахманова О.С. Словарь лингвистических терминов. М., 1966.
8. Варантсев К. Омонимия как системная категория языка. Мн.: БГУ, 2007.
9. Кашейева М. Практикум по английской лексикологии. Ленинград: Просвещение. Ленинградское отделение, 1974.
10. Словарь иностранных слов. М., 1954.

Х.Н.Гасымова

Отличительные черты подобных лексических единиц на английском языке

Резюме

В статье исследуются лексические единицы похожие на первый взгляд. К подобным лексическим единицам относится конверсия, омографы и гетеронимы с небольшой разницей в произношении, морфологии и словообразовании. Однако, цель статьи заключается не в рассмотрении сходств между этими лексическими единицами. В статье анализируются небольшие отличительные признаки подобных единиц и представлены примеры.

Kh.N.Gasimova

Different features of identical lexical units in English language

Summary

This article deals with the lexical units which are identical at first sight. The lexical units bearing resemblance include conversion, homographs and heteronyms with a little difference in pronunciation, morphology and word-formation. However, the target of the article is not to investigate the proximity among these lexical units. The major goal is to ascertain the minute distinctions in characters of the very lexical units constituting the basis of the article. Herewith, the article is dedicated to trivial distinctions of identical units and illustrated with examples.

Rəyçilər: dos. E.B.Nəcəfov;
BSU-nun İngilis filologiyası kafedrası
(07.07.2017-ci il tarixli iclasının qərarı (pr. №14)).

Redaksiyaya daxil olub: 28.08.2017

L.Ş.QƏDİMOVA
e-mail: leyla@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

"MƏHƏBBƏT" ANLAYIŞININ LİNQVİSTİK TƏHLİLİ

***Açar sözlər**: Şekspir, sonet, gözəllik, məhəbbət, dilçilik.*
***Ключевые слова**: Шекспир, сонет, любовь,лингвистика.*
***Key words**: Shakespeare, sonnet, love, linguistics.*

İnsanlıq antropoloji şərait nəticəsində yaşayır. Onun ən mühüm təzahürlərindən biri sevgi və ailə münasibətləri böhranıdır, cəmiyyətdən və təbiətdən – nəticədə özündən, özünün əsl daxili "mən"indən, "daxili insanlığından" özgələşdirməsinin nəticəsidir. Sevgi – insan varlığının təməlidir, o insan üçün maddi və mənəvi harmoniyanın reallığıdır, onda insan özünün "mən"ini tapır. Lakin hazırkivəziyyətdə ideal sevgi öz dəyərini və ontoloji statusunu tamamilə itirmişdir. Sevgi idealda qovuşmazlıq, müasir şəraitdə isə özgələşmişdir. Belə ki, insan simvolik dünyaya girir, sevgidə "insan varlığı"nın parçalanması linqvistikada əksini tapır (4, s.124). "Məhəbbət" sözünün cəlbediciliyi və hər dildə ifadə olunan leksemi onun milli-mədəni və sosial həyatı ilə sıx bağlılığını tədqiqatlarda aydın görmək olar. Digər kateqoriyalara nəzər saldıqda hər bir dilin lüğət tərkibində "məhəbbət" sözü emosional xarakterli söz olduğunu görmək olar. Onun geniş mənada ifadə olunması dil ilə əlaqədar deyil, bu insan şüurunda yaratdığı emiosional düşüncə ilə bağlıdır. Mədəniyyət baxımından "məhəbbət" sözünə nəzər yetirsək, o təkcə kimə isə, nəyə isə dəyər vermək deyil. O, xüsusi zəhmət verilmiş, ruhu qidalandıran, mənəvi sakitlik verən və özəl tərkibli bir duyğudur.

Müasir linqvistikada dilşünaslar sevgi fenomenini linqvo-konseptologiyada tədqiq etmiş və aşağıdaki aspektləri nəzərə almışlar: 1) leksik-semantik ve leksikoqrafik - emosiyaların müxtəlif dillərdə ifadəsi zamanı leksik vahidlərin sistemli təhlili və təsviri vasitəsilə inkişaf etdirmək; 2) Dünyanın və mentalitetin təsviri etnolinqvistik vasitələrlə linqvokulturologiyada araşdırmaq; 3) Parameloji; 4) Linqvostilistik; 5) Psixolinqvistik; 6) Etno-linqvistik.

Linqvokulturoloji araşdırmalarda, əsas "anlayış", "konsept" işlənməsi çox məhsuldar olmuşdur. Belə ki, dil sistemində və insanın nitq fəaliyyətində sevgi fenomeni insanın empirik hissələrini toplayan və izləyən daxili hissələrini, özünü birbaşa ifadə etməyə çətinlik çəkir və analitik tədqiq edir. Tədqiqatçıların araşdırmaları nəticəsində müasir insanların sevgisinin təsviri linqvokulturoloji təhlilə ehtiyac duyduğu aydın görünür (7, s.149). Nümunə olaraq, H.Spenserin fikrini qeyd edək: "...Culture is a fuzzy set of attitudes, beliefs, behavioral conventions, and basic assumptions and values that are shared by a group of people, and that influence each member's behavior and each member's interpretations of the "meaning" of other people's behavior" (6, s.54).

Mədəniyyət - bir qrup insanların davranışı, qeyri-müəyyən inancları və qeyri-müəyyən münasibətləri, davranış konvensiyaları və hər qrupun üzvünün davranışı və dəyərləri, bir qrup insanlar tərəfindən paylaşılan fərziyyələridir. "Məhəbbət" sözünün cəlbediciliyi və hər dildə ifadə olunan leksemi onun milli-mədəni və sosial həyatı ilə sıx bağlılığını tədqiqatlarda aydın görmək olar. Digər kateqoriyalara nəzər saldıqda hər bir dilin lüğət tərkibində "məhəbbət" sözü emosional xarakterli söz olduğunu müəyyən etmək olar. Onun geniş mənada ifadə olunması dil ilə əlaqədar deyil, bu insan şüurunda yaratdığı emiosional düşüncə ilə bağlıdır. Mədəniyyət baxımından "məhəbbət" sözünə nəzər yetirsək, o təkcə kimə isə, nəyə isə dəyər vermək deyil. O, xüsusi zəhmət verilmiş, ruhu qidalandıran, mənəvi sakitlik verən və özəl tərkibli bir duyğudur (6, s.84).

Məhəbbət məfhumunun ən aşağı səviyyə ilə dəyərləndirsək, o, mənəvi və daxili aləmin həyati tələbatlarını ödəyən xüsusi bir duyğudur. Bu mərhələdə ona görə sevirlər ki, bu sevginin nəticəsində öz xeyirlərinə həyatı və hadisələri dərk etmək düşüncəsində olurlar. Növbəti mərhələdə, sevginin özünü idarə mərhələsi ilə dəyərləndirsək o, daha dərin ehtiraslara dayanır. Bu halda hadisələr nəticələrdən daha gözlənilməz olur. Sevgidə şəxsiyyətin tanımı baş verir. Daha vacibi sevməkdir, nəinki sevilmək, sevgi əzabını çəkmək əsas hesab olunur.

Şəxsi zəmində şəxsiyyətini tanımaq üçün baş verən sevgi aşağıdaki proseslərdə özünü göstərir: 1) şəxsi eqoizmindən önə keçmək; 2) hörmət göstərmək; 3) digər şəxsin qayğısına qalmaq; 4) tərki-dünyalıqdan azad olmaq; 5) həyatın mənasını dərk etmək; 6) yeni yaradıcılıq bacarıqlarını kəşf etmək və s. kimi şəxsi keyfiyyətləri özündə birləşdirir (1, s.66).

Estetik mənada "məhəbbət" insanlığın yüksək həddi ilə dəyərləndirilir. İnsana, insan varlığına və həyatına qarşı yüksək humanist dəyərlə yanaşılır.Məhəbbət zülmə və pisliyə qarşı ən güclü və həqiqi qüvvə kimi başa düşülür. Digər bir mənada isə "sevgi" daim gözəllik axtarışında olan duyğu kimi başa düşülür. Nəticədə həmin gözəllikdən aldığı həzlə yeni gözəlliklər yaratmaq eşqilə yaşamaq həvəsi bəxş edir. "Sevgi konsepti" terminini istifadə etmək əvəzinə elmi ədəbiyyatda məhəbət işlənməsi bu konseptin semantik strukturundan kənara çıxır, hansı ki, adətən semantikada isim kimi *love,* fel kimi isə *to love* işlənir, onlardan sinonim sözlər düzəldən sevginin fenomeninə çatmağı, müasir mədəniyyətdə fenomenin real varlığı ingilis dilində daha çox təsadüf olunur.

"Love" leksemi haqqında ingilis lüğətlərində müxtəlif mənalar verilmişdir. 20 lüğəti ümumiləşdirərək S.Q.Vorkaçev müqayisə aparmışdır: 1) Sevgi - differensiya edilməmiş obyektə qarşı (5 lüğət); 2) Sevgi – üzə aidiyyatı olmayan motivasiyaya qarşı (7 lüğət); 3) Ailə üzvlərinə və ya dostlara qarşı (3 lüğət); 4) "romantik" və ya cinslərarası məhəbbət(5lüğət) (8, s.84). Axırıncı məhəbbətin mənası tədqiqatçının "*kinds of love"* sözünün mənası ilə uyğunlaşır, insanlar arasında mövcud olan sevgi nədir sualına birmənalı romantik sevgi ilə cavablandırırlar. Rəssam Striklendi təsvir edən Moin "Ay və Qroş" əsərində sevgi kontekstində yaradıcılıq ehtirası özünü göstərir. "Do you know how men can be so obsessed by love that they are deaf and blind to everything else in the world? They are as little their own masters as the slaves chained to the benches of a galley. The passion that held Strickland in bondage was no less tyrannical than love. And the passion that held Strickland was a passion to create beauty. It gave him no peace. It urged him hither and thither. He was eternally a pilgrim, haunted by a divine nostalgia, and the demon within him was ruthless. There are men whose desire for truth is so great that to attain it they will shatter the very foundation of their world. Of such was Strickland, only beauty with him took the place of truth". "...Sevgi ilə dolu insanlar, özündən sevgilərindən başqa dünyada kor və kar olurlar, onlar eləcə özlərinə də aid deyillər, özlərinə kölədirlər, tabedirlər. Striklend ehtirasa sahib idi, hansı ki, onu sevgidən daha çox yaraladı. Onun ehtirası - gözəllik yaratmaq idi. Bu ona rahatlıq vermirdi. O, o ölkədən bu ölkəyə gedirdi. Demon çox amansız idi və Striklend əbədi didərgin olmuşdu, ona ilahi nostalji əzab verirdi. Elə insanlar var ki, həqiqət üçün o qədər ehtirasla yanarlar ki, məqsədlərinə çatma üçün dünyanı belə başa vurmğa hazırdılar. Striklend belələrindən idi, yalnız həqiqət ona gözəlliyi əvəz etdirirdi..".

Belə görünür ki, *Love* və *Passion*, sevgi və ehtiras sinonim kimi yox, mətndaxili antonim olaraq, sevgi və yaradıcılıq sözlərinin reprezentləridir, qadına qarşı can atmaq və yaradıcılıq meyli gözəllik fikrinə daha yaxın məna ifadə edir. Bu cür antinomlar şübhəsiz, mədəniyyət üçün nəzərdə tutulub və aparılmış tədqiqat nəticəsində aşağıdakı adlar *passion* sözü ilə müqayisədə verilmişdir: 1) «feeling; emotion» [Webster] - love sözünə qohum sözlərdir; 2) «strong feeling or enthusiasm» [Hornby], «violent, intense, high-wrought, or enthusiastic emotion; depth or vehemence of feeling» [Webster] - yüksək emosionallığa işarə, love sözü ilə qohum sözlər qrupuna aiddir; 3) «an outburst of intense feeling of various kinds, e.g. of anger, hate or love» [Hornby] - outburst - sözünün semantik təsvirinə uyğun. Sevgi haqqında

linqvo-kulturoloji araşdırmalar nəticəsində, leksikoqrafik təsvirlər özünü iki cəhətdə göstərir: 1. Birinci yanaşma: sevgi hissi kimi, hansı ki, lüğətdə geniş məna ilə verilən "love" «strong liking; friendliness; tenderness; devotion» [Hornby], «sözünü ifadə edən və bütün insan həyatını əhatə edən» mənada verilir və izahlı lüğətlərdə love ismi «a feeling of affection, passion or desire between the people» [Hornby]. (3, s.1044). 2. İkinci yanaşma: sevgi çərçivəsində "tender and passionate affection for one of the opposite person» [Webster], "sevgi, böyük hərflə, "tender" və sevgi kiçik hərflə" love passion [Webster]". Bu yanaşma vera və Vera, kosmor və Kosmos və buna yaxın bir neçə adekvat ifadələri özündə analoji olaraq göstərir. Məhəbət məfhumunun ən aşağı səviyyə ilə dəyərləndirsək, o, mənəvi və daxili aləmin həyati tələbatlarını ödəyən xüsusi bir duyğudur. Bu mərhələdə ona görə sevirlər ki, bu sevginin nəticəsində həzz alırlar, öz xeyirlərinə həyatı və hadisələri dərk etmək düşüncəsində olurlar. Əlbəttə, yüksək ifadə ilə desək bu məhəbbət deyil. Və onun yaradıcı mənası burada zəif səslənir. Bu halda onun mənəvi dəyəri və keyfiyyəti çox aşağı qiymətləndirilir. Dilçilik baxımından dəyərləndirmək üçün Şekspir sonetlərindən də nümunələr qeyd etmək yerinə düşər.

V.Şekspir sonetlərin koqnitiv dilçilik baxımından tədqiqata daha çox cəlb oluna bilər və bu zaman ortaya çıxan nəticələr aşağıdakı fikirlərə gəlməyə imkan verir. Şekspir sonetlərində təsvir edilən "Məhəbbət" konseptindən dominant reallıqla fərqlənir vəburada fərdi və ümumi müəyyən diaxronik və sinxronik idrak aspektlərini müəllif müəyyən edir. Şekspir sonetlərində sevgi konseptinin linqvistik baximdan funksiyalarini təhlil etmək üçün freym və ssenarilər mövcuddur. Sonet stereotip vəziyyətlərin fərqli modeli, sevgi anlayışının izahının çərçivə daxilində ifadəsi hesab olunur (2, 42 s.).

Üç sonet isə "sevgi" hissini təcəssüm etdirir, burada sevgi isim və ya ikinci şəxsi əvəzlik şəklində aydın ifadəsi görünür: *...Sweet love, renew thy force; be it not said // Thy edge should blunter be than appetite…* (1, 77 s.). Qeyd edək ki, Şekspir sonetlərində sevgi insanlar arasında mərhəmət, insanlıq hisslərini aşılayır. İnsan və təbiət arasında bəzən kommunikativ mövqedə olur. İstilik, münasibətləri yaxınlaşdıran bir duyğu olaraq V.Şekspir öz sonetlərində sevgini tərənnüm edir.

Ədəbiyyat

1. Аникст А.А. Поэмы, сонеты и стихотворения Шекспира. М.: Книга, 1994.
2. Azərbaycan dilinin izahlı lüğəti. AMEA Dilçilik İnstitutu, II cild. Bakı, 2006.
3. Федоров А.В. Основы общей теории перевода. Лингвистические проблемы. М.: Высшая Школа, 1993.
4. Hüseyzadə M. Müasir Azərbaycan dili. Bakı, 1954.
5. Гак В.Г. Эмоции и оценки в структуре высказывания // Вестник Московского университета. Сер. 9. Филология. М., 2007, № 3, с. 13.
6. Rəcəbli Ə. Ə. Dilçilik tarixi, I cild. Bakı: Nurlan, 2007.
7. Seyidov Y. Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı, 1966.
8. Воркачев С.Г. Концепт счастья в русском языковом сознании: опыт лингвокультурологического анализа. Краснодар: КубГТУ, 2012.

Л.Ш.Гадимова

Лингвистический анализ концепции любви

Резюме

Концепт «Любовь» является базовым и присутствует в каждом языке. Любовь – эмоциональное состояние, которое может выражаться позитивными и негативными эмоциями и иметь различное лексическое выражение. В рамках статьи были изучены теоретические основы репрезентации концептов в языковой картине мира, представлено лексико-семантическое поле «Любовь» в английском языке.

L.Sh.Gadimova

Linguistic analysis of “Love” concept

Summary

The concept of "Love" is basic and presents in every language. Love is an emotional state that can be expressed by positive and negative emotions and have a different lexical expressions. Within the framework of the article, the theoretical foundations of the concept representation in the language picture of the world were studied, the lexical-semantic field of "Love" in English was presented.

Rəyçi: filol.e.d., prof. F.F.Cahangirov

Redaksiyaya daxil olub: 22.06.2017

S.Ə.XASIYEVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

LİNQVİSTİK TERMİNLƏRDƏ SAMİT BİRLƏŞMƏLƏR

Açar sözlər: *linqvistik terminlər, samit birləşmələri və onların ana dilində işlənməsi*
Ключевые слова: *лингвистические термины, сочетания согласных, терминология, сочетания, языкознание*
Key words*: linguistics terms, terminology, consonant blends, terminology, combinations, linguistics*

Bu gün müasir dilçilik çox sürətlə inkişaf edir və bunun sayəsində dilçilikdə işlənən və hamıya tanış olan terminlərlə yanaşı, çağdaş dilçiliyin tələblərinə cavab verən, hətta terminlər lüğətində belə əks olunmayan çoxlu linqvistik terminləri öyrənmək, onların mənasını bilmək və araşdırmaq bu günün dilçisi üçün zəruri və əhəmiyyətlidir. Dilçiliyin böyük bir qolunu terminologiya bəhsi təşkil edir. "Termin" latın dilindən "terminus"-dan götürülüb "həddhüdud" deməkdir (1, s. 268).

Termin elmin, texnikanın, incəsənətin anlayışlarını, təbiət və cəmiyyətdə baş verən hadisələri fərqləndirmək üçün onlara verilən səciyyəvi addır. Termin adi sözlər kimi kontekstlə deyil, anlayışlar sistemi ilə bağlıdır. Terminlərdən tələb olunan əsas cəhət birmənalılıqdır, yəni termin aid olduğu sahədə tək bir mənada işlənməlidir. Terminlər həmçinin dilin ümumi söz yaradıcılığı qaydalarına tabe olurlar (2, s.268).

Bu məqalədə biz dilçiliyin şah əsərlərində olan N.S.Trubeskoyun "Fonologiyanın əsasları" əsərində işlənən külli miqdarda terminlərin tərkibindəki samit birləşmələrinin düzülüşü problemini araşdırmağa çalışacağıq.

Bu əsərdə measir dilçiliyin tələblərinə uyğun külli miqdarda termin (təqribən 165) işlənib. Həmin terminləri açmaq üçün terminoloji lüğətlərə müraciət etmək lazımdır. Məsələn:

geminat – uzun samit;
preiferiya – (yunan d. Peripheria) mərkəzdən kənar
purizm – dilin saflığı
reartikuyasiya – səs təkrarı
dizyuniksiya – (lat. Disjunktio) bölünmə

Bundan əlavə dilçilərə məlum olan
refroflekviv – dilarxası samitlər
sibilyant – növlü samitlər
subyektiv – qeyri-dəqiq
ekspressiv – ifadəli, təsirli
simptom, merkmal - əlamət
fon – səs
sinifiant – məna tərəfi kimi terminlərlə verilmişdir

Linqvistik terminlərdə samit kombinasiyaları da çox maraqlıdır. Bu əsərdə bəzi terminlərdə sait+samit+ sait+samit ardıcıllığı, bəzilərində isə iki, üç və daha artıq samit birləşmələrinin sözün əvvəlində, ortasında və sonunda gəlməsinə rast gəlirik.

L.R.Zinder yazır ki, akustik və artikulyator baxımdan fərqlənməyən fonlar dil vahidlərini fəeqləndirə bilməz, başqa sözlə, fonem kimi çıxış edə bilməzlər. Hər bir linqvistik fərq akustik-artikulyator fərqin olmasını tələb edir, amma bu o demək deyildir ki, bütün akustik-artikulyator fərqlər mütləq linqvistik fərqlə bağlıdır. (3, s.198).

Fonem birləşmələrindəki qanunauyğunluqlarının dil strukturunun səciyyəsi üçün heç də az əhəmiyyət daşımadığını N.S.Trubeskoy xüsusi qeyd edirdi: "Deməli dilin fonetik quruluşunu və fonoloji sistemini öyrənməkdən ötrü fonem birləşmələri xüsusi əhəmiyyət kəsb edir, fonem birləşmələrindəki qanunauyğunluqların öyrənilməsi çox vacibdir. Bu yolla biz dillər arasındakı oxşarlığı və fərqliliyi göstərə bilərik" (3, s.350).

B. Trnkaya görə, universal mümkün fonem birləşmələri kimi "samit fonem+sait fonem" birləşməsi götürülə bilər. Bu cür birləşmələr sait və samitlərin mövcudluğunun məntiqi təminatıdır. Əks halda sait samitə qarşı qoyula bilməzdi, "samit+sait" birləşməsi işlənən dillər çoxluq təşkil edir və belə birləşmələr olmayan dil təsəvvürə gəlmir (3, s.158).

apikal – dilin ucu ilə əmələ gələn səs

parole – danışıq

fonetika – danışıq səsləri haqqında elm

geminant – qoşa

delimitativ – sərhədləndirici kimi linqvistik terminlərdə KVKVKV birləşmələri "yəni samit+sait+samit+sait" üstünlük təşkil edir.

Parole sözündəki samit birləşmələrindən əlavə, o linqvistik termin kimi çox maraqlı işlənmə xüsusiyyətinə malikdir.

"Hər bir danışığın "parole" özülündə norma durur, bu da təbii olaraq dil sisteminə uyğun gələn texniki biliklərdir". Dil sistemi normada reallaşmış olur, funksional olan hər şeyi obyektiv əhatə edir, məzmun və formaca fərqləndirən oppozisiyaları, kiçik əlamətləri əhatə edir. Digər tərəfdən, o realizə olunan bütün hər şeyi – vahidləri, kombinasiyaları əhatə edir (4, s.198).

Əsərdə bəzi terminlərdə sözün əvvəlində, ortasında və sonunda iki, üç və daha artıq üzvlü samit birləşmələrinə rast gəlirik.

Məsələn:

olottik – dil

sinxron – dil hadisələrinin müəyyən zaman kəsiyində çıxış etməklə izahı

rudimentar – qalıq

relevant - əhəmiyyətli

sinharmonizm – həmahənglik

rekursion – sonluq

emfatik – nitqi emosional etmə

hipozlaz – iflic vəziyyətə salma

Göstərilən misallarda samit birləşmələri sözün əvvəlində, ortasında həm də sonunda ikiüzvlü (qlottik relevant), üçüzvlü (sinxron) və hətta çoxüzvlü (ekspressiv, ekspoikativ) olaraq işlənmişdir. Azərbaycan dilində çoxüzvlü samit birləşmələri olmadığına görə (alınma və beynəlmiləl sözləri çıxmaq şərti ilə) bəzi terminlərin tələffüzü dilöyrənənlər üçün müəyyən interferensiya səhvlərini ortaya çıxmasına səbəb olur.

Əsərlərdə işlənən bəzi linqvistik terminlərdə, məsələn:

oppozisiya – qarşılaşma

appellativlik – söyləmim müraciətlə deyilməsi

appelyasiya – müraciət

reqressiv – geri

proqressiv – irəli

dsimilativ – eyni səsin başqa səs keyfiyyətlərilə açılması və s. Sözün ortasında qoşa samit işlənmişdir.

Bu terminlərdə qoşa samitin işlənməsi samit kombinasiyası adlana bilməz.

N.S.Trubeskoy qeyd edirdi ki, birləşmə qaydaları baxımından dil tiplərinin müxtəlif-liyinə baxmayaraq, kombinasiya qaydalarını mümkün vahid metodla öyrənmək nəinki yalnız arzuolunandır, həmçinin mütləq vacib sayılır, çünki müxtəlif dil tipləri arasında müqayisə yalnız bu şərtlə aparıla bilər, müqayisəsiz isə həqiqi tipologiyanın qurmaq olmaz (2, s.255).

Bu məqalədə dilçiliyin əsərlərindən biri olan N.S.Trubeskovun "Fonologiyanın əsaslarından bəzi terminləri, onların işlənməsi, terminlərdə samit birləşmələrinin gəlməsini çox düz çərçivədə göstərməyə çalışdıq. Terminlərin ana dilində verilməsi isə dilçiliyin ən aktual problemlərindən biridir.

Ədəbiyyat

1. Локшина С.М. Словарь иностранных слов. М., 1954.
2. Trubeskoy N.S. Fonologiyanın əsasları. 1938-ci il alman tərcüməsi "Son söz" və "Qeydlər" professor F.Yadigarındır (Veysəllinindir). Bakı, 2001.
3. Yadigar F. (Veysəlli). German dilçiliyinə giriş. Bakı, 2003.
4. Adilov M. və b. İzahlı dilçilik terminləri. Bakı, 1989.
5. Veysəlli F.Y. Dilçilik ensiklopediyası. Bakı, 2006.

С.А.Хасиева

Сочетания согласных в лингвистических терминах

Резюме

Статья посвящена изучению лингвистических условий сочетания согласных, взятых из книги Н.С.Трубеского «Основы фонологии». В Статье анализируются дву-, трех-, а также многокомпонентные сочетания, которые, по нашему мнению, не характерны для фонетики азербайджанского языка.

S.A.Hasiyeva

Consonant blends in linguistics terms

Summary

In this article some terms was taken from the N.S.Trubetzkoys work Basic of phonology and this linguistic terms can be used in the end beginning, in the middle and the end of the word. The role of consonantal combinations are shown in linguistic terms.

Rəyçi: filol.e.n., dos. C.Babayev

Redaksiyaya daxil olub: 11.07.2017

T.Ə.XƏLİLOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: t.xelilova0@gmail.com

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
(Bakı şəh., İstiqlaliyyət küç., 6.)

TERMİNOLOGİYA VƏ TERMİNOLOJİ LEKSİKA

Açar sözlər: *dil, termin, lüğət, terminologiya, leksika*
Ключевые слова: *язык, термин, словарь, терминология, лексика*
Key words: *language, term, dictionary, terminology, vocabulary*

Dilimizin son dövrlərdəki inkişaf meyilləri və onun lüğət tərkibinin zənginləşdirilməsi prinsipləri ilə tanışlıq sübut edir ki, müasir Azərbaycan ədəbi dilinin təkmilləşdirilməsində müxtəlif sahə terminlərinin xüsusi rolu vardır. Ədəbi dilin ayrılmaz tərkib hissəsi olan terminlər bütövlükdə xalqın ictimai-mədəni, texniki və iqtisadi nailiyyətləri ilə bilavasitə bağlıdır. Buna görə də, terminlər həm dilimizin yeni leksik-qrammatik əlamətlər qazanmasını özündə əks etdirən, həm də xalqımızın tarixi inkişafını aydınlaşdırmağa kömək edən faktorlar kimi mühüm əhəmiyyət kəsb edirlər.

Terminologiya elmin, texnikanın, istehsalatın, sənaye və kənd təsərrüfatının, ədəbiyyat və incəsənətin, iqtisadiyyatın, ictimai-siyasi həyatın müxtəlif sahələrinə məxsus anlayışları dəqiq və düzgün ifadə edən xüsusi funksiyalı leksikanı əhatə edir.

Terminologiya ümumxalq leksikasının ən fəal, ən dəyişkən, artan, təkmilləşən, yeniləşən hissəsidir. Müasir sosial-iqtisadi inkişaf, elmi-texniki tərəqqi, mədəni inqilab, istehsalın intensivləşdirilməsi yeni elmi anlayışların, yeni elmi fikirlərin inkişafına, yaranmasına səbəb olur. Bu da, şübhəsiz, dilin terminoloji leksikasının dəyişməsinə, yeniləşməsinə, artmasına təsir edir.

Elmi anlayışların təbiətini və mənasını dəqiq və aydın ifadəetmə baxımından terminologiyaya iki cəhətdən xüsusi diqqət yetirilməlidir:

mövcud məfhumları ifadə edən terminlərin yenidən nəzərdən keçirilməsi;

yeni məfhumların məna və təbiətinə uyğun terminlərin seçilməsi (2, s.177-178).

Terminlər elmin müxtəlif sahələrinin təşəkkülündə əvəzsiz rol oynayır, çünki onlar müəyyən bir elmi anlayışın düzgün qavranılmasında, anlaşılmasında, fikrin dəqiq ifadə və dərk edilməsində, şifahi və yazılı nitqin aydın və dəqıq olmasında, təlim və tədris prosesində, yazı mədəniyyətinin inkişafında, sabitləşməsində böyük rol oynayır. Buna görə də, terminlərin yaranmasında, yazılmasında (orfoqrafiyasında) və işlədilməsində vahid qayda və prinsiplər gözlənilməli, onların fonetik tərkib və mənaca müxtəlifliyinə yol verilməməlidir, çünki terminlərin müxtəlif fonetik tərkiblə eyni məna ifadə etməsi və ya eyni fonetik tərkibli terminlərin müxtəlif mənalar bildirməsi elmi-texniki dildə hərc-mərclik yaradar, qarışıqlığa, fikir dolaşıqlığına səbəb olar, onların öyrənilməsi və mənimsənilməsini çətinləşdirər.

Terminlər adlandırdıqları məfhumlara, anlayışlara, əşya və hadisə adlarına uyğun olmalı, mənaca dəqiq və anlaşıqlı, müəyyən zaman kəsiyində sabit olmalı və sistem əmələ gətirməlidir. Onların dəqiqliyi, anlaşıqlı, sadə və aydın olması, müəyyən zaman müddətində sabit qalması ümumxalq qayğısına və dövlət siyasətinə söykənməlidir, çünki cəmiyyətin intellektual (əqli), iqtisadi, mədəni-mənəvi, ictimai və siyasi tərəqqisində, inkişafında terminlərin rolu əhəmiyyətlidir.

Terminoloji leksika bir elm sahəsində işlədilən terminlərin sistemi, toplusudur. Hər termin sistemi konkret bir elm sahəsinin məfhumlar sistemini əks etdirir. Elmi dilin leksikasında terminlər əsas spesifik vahidlərdir. Terminlər üçün iki cəhət səciyyəvidir: 1) qeydedilmə (müxtəlif tipli lüğətlərdə); 2) işlədilmə (məqalə və elmi əsərlərdə) (2, s.178-179).

Azərbaycan dilinin terminlər sistemindən bəhs edərkən, ilk növbədə, dilimizdə tarix boyu işlənən terminoloji leksikanın zənginliyi göz qabağına gəlir. Terminoloji leksika ümumi ədəbi dilin lüğət tərkibi ilə əlaqədə olsa da, özünün leksik-qrammatik xüsusiyyət və fərdiliyi ilə seçilir, hər şeydən əvvəl terminoloji leksikaya verilən linqvistik tələblər baxımından diqqəti cəlb edir. Əsasən monosemantik (təkmənalı) hüdudu qoruyan terminoloji vahidləri ümumi ədəbi dil ünsürləri ilə qarışdırmaq olmaz. Terminoloji leksikanın dil materialları, artıq qeyd edildiyi kimi, üslubi baxımdan neytral olur; onlar emosionallıq və ekspressivlikdən uzaqdır, beynəlxalq işlənmə statusuna malik ola bilir. Nəhayət, bu tipli keyfiyyətlərin daşıyıcısı olan leksik vahidlər - terminlər adlandırma xüsusiyyətinə malik olmaqla yanaşı, həm də konkret, dəqiq, qısa, anlaşıqlı və sistemli olur. Məhz həmin keyfiyyətlər terminoloji leksikanı ümumi ədəbi dil və danışıq dili materiallından fərqləndirir. Terminoloji leksikanın vahidləri işlənmə dairəsinə görə ədəbi dilin sözlərindən fərqlənir. Bunlar milli dil kontekstində və beynəlmiləl səviyyədə işlədilə bilir, konkret məfhumun ifadəsinə çevrilir. Dilimizin terminlər sistemi həyat və fəaliyyətimizin, habelə gerçəkliyimizin "müxtəlif sahələrini əhatə etdiyindən, onlar arasında həmişə müştərək amillərin olması mümkündür. Elə buna görədir ki, bəzi terminlər nəinki müxtəlif sahələri əlaqələndirir, eyni zamanda terminoloji leksika müxtəlif dillər arasında leksik-semantik əlaqənin gücləndirilməsinə səbəb olur. Dilçialim E.Svadost bu haqda yazır: «İndi terminoloqların anlayış və terminlərin dəqiqləşdirilməsi və onların müxtəlif dillərdə uyğunlaşdırılınası üzrə etdikləri ümumi dil yaradıcılarının qarşısında duran birinci dərəcəli işə yaxınlaşmadır; bundan əlavə, terminoloji iş artıq bu işin bir hissəsidir və demək olar ki, gələcək dilin terminoloji leksikası üçün əsas artıq qoyulmaqdadır». (4, s.33-54). Həmin elmi-nəzəri fikri bir sıra beynəlxalq alınmalar təsdiqləsə də, hər bir dilin özünün fərdi terminoloji leksikası və onun müxtəlif sahələri olduğunu danmaq mümkün deyil. Daha doğrusu, bütün dillərin milli mənşəli düzəltmə terminləri o dillərin xüsusi terminoloji leksikasını müəyyənləşdirir. Bu zaman dilin ümumişlək və arxaik fondunda olan sözlər, onların terminoloji leksikanın tələblərinə cavab verə bilməsi də hökmən nəzərə alınmalıdır. Çünki tematik söz qrupları ilə terminoloji leksikanın sərhədlərini aydınlaşdırmadan, onların semantik hüdudlarını müəyyənləşdirmədən dilimizin lüğət tərkibi haqqında mükəmməl fikir söyləmək çətindir. Terminoloji leksikanın müəyyənliyini və ayrı-ayrı sahə terminlərinin genealogiyasını aydınlaşdırmaq baxımından dilimizin tarixi və müasir lüğət tərkibini nəzərdən keçirsək, bir daha əmin olarıq ki, xüsusi statuslu sözlər - terminlər məhsuldar işlənməsi baxımından diqqəti cəlb edir. Onlar xalqın tarixi və müasir həyatını əks etdirən dil vahidləridir. Ayrı-ayrı sahələrin leksikası və onların ümumi ədəbi dil vahidlərindən fərqini izah edən F.Cəlilov haqlı olaraq yazır: «...xalqın tarixi onun dilində yaşayır, dildə xalqın dünyagörüşü, əxlaqı, etnoqrafiyası, mifologiyası, psixologiyası ilə yanaşı, hansı coğrafi şəraitdə yaşaması, hansı xalqlarla qonşu olması barədə də informasiya olur. Dilin semantik lüğətində, yəni tematik söz qrupları sırasında bəşər tarixində muhüm kəşflər kimi qiymətləndirilən əşya-alət adlarının (balta, ox-yay, qayıq və s.), yığım-mənimsəmə dövrünün yadigarı fitonimlərin, ovçuluqla bağlı zoonimlərin, maldarlıq və əkinçilik terminlərinin, sosial quruluşla, məişət və təsərrüfatla bağlı sözlərin, mifoloji dünyagörüşü əks etdirən teonimlərin, müxtəlif rituallara aid ifadələrin etnolinqvistik informasiyası daha yüksək olur» (1, s.54). Göründüyü kimi, müxtəlif fəaliyyət sahələrindən hər birinin öz fərdi söz qrupu vardır ki, onlar informativliyi, mənası etibarilə, etnik-tarixi yaddaşı və mifoloji dünyagörüşü və s.-ni əks etdirməsi ilə fərqlənir. Müasir Azərbaycan dilində çoxsaylı sahə terminləri lüğətlərinin yaranmasına və hər bir sahənin xüsusi terminoloji leksikasının zənginləşməsinə səbəb olan amillər məhz həmin fərqlərlə bağlıdır. Lakin bu fərqlər heç də terminoloji leksika ilə ümumi ədəbi dil arasında, eyni zamanda çoxsaylı terminoloji söz qrupları arasında sərhəd yaratmağa səbəb ola bilməz. Çünki sahə terminlərinin meydana gəlməsi dilin uzunmüddətli tarixi inkişafı ilə bağlıdır. Dilin müəyyən bir dövründə ümumi ədəbi dil faktoru olan söz mənaca ixtisaslaşaraq terminləşə bilir. Buna görə də, terminoloji söz qrupları və onlarla ümumi ədəbi dil leksikası arasında mə-

safə çox azdır. M.Qasımovun təbirincə desək, «...terminoloji leksika ilə ümumi ədəbi dilin leksikası arasında keçilməz sədd qoymaq olmaz. Xüsusi terminologiya həmişə ümumi ədəbi dilin lüğət tərkibinin zənginləşməsi üçün bir mənbə olmuşdur. Ayrı-ayrı terminoloji sistemlərdən müəyyən sözalma vasitəsi ilə ümumi ədəbi dilə yeni sözlər keçir» (3, s.34). Bu proseslər isə ayrı-ayrılıqda dilin terminoloji leksikasının zənginləşməsinə, yeni sahə terminlərinin meydana gəlməsinə əsaslı təsir göstərir.

Terminoloji leksikanın zənginləşməsi və təkmilləşdirilməsi onun ümumi ədəbi dil materialları ilə əlaqəsindən, digər sahə terminlərinə münasibətindən asılıdır. Bu baxımdan, terminlərin müəyyən qisminin ümumi dil faktına çevrilməsi onlara məxsus anlayışların aydınlığı və etnogenetik mahiyyət kəsb etməsi ilə bağlıdır. Eyni proses əksinə də (ümumi ədəbi dil faktının terminoloji status qazanması istiqamətində) baş verir və terminyaratma məhsuldarlığına görə xüsusi diqqət tələb edir. Dilin terminyaratma prinsipləri də terminoloji leksikanın fərdi keyfiyyətlərini izah etməyə imkan yaradır. Belə ki, terminyaratma söz yaradıcılığından bir sıra əlamətlərlə, o cümlədən leksik-qrammatik tələblərlə fərqlənir. Bu əsasda da ümumxalq leksikası və terminoloji leksikanın sərhədlərindən danışmaq mümkün olur. Biri digərini tamamlayan həmin leksik sahələrin qarşılıqlı inkişafı haqqında H.Həsənovun «Terminologiya ümumxalq leksikasının ən fəal, ən dəyişkən, artan, təkmilləşən, yeniləşən hissəsidir. Müasir sosial-iqtisadi inkişaf, elmi-texniki tərəqqi, mədəni inqilab, istehsalın intensivləşdirilməsi yeni elmi anlayışların, yeni elmi fikirlərin inkişafına, yaranmasına səbəb olur. Bu da şübhəsiz, dilin terminoloji Ieksikasının dəyişməsinə, yeniləşməsinə, artmasına təsir edir» fikri maraqlıdır (2, s.177).

Dilin terminoloji Ieksikasınm əsas xüsusiyyətlərindən biri onun ümumxalq mədəniyyətinin göstəricisi olmasından ibarətdir. Xalq həyatının tərəqqi etməsi və yeniləşməsi nəinki onun sosial-məişət həyatı və dünyagörüşünün dəyişməsinə, zənginləşməsinə səbəb olur, habelə onun söz ehtiyatlarının da artmasına ciddi təsir göstərir. Belə olan halda, müvafiq sahələrə dair yeni anlayış, məfhum və terminlərin meydana gəlməsi tamamilə təbii xarakter daşıyır.

Terminoloji leksikanın özünəməxsusluğunu şərtləndirən amillərdən biri də ayrı-ayrı terminlərin ifadə etdiyi anlayışların müasirliyi və aktuallığı ilə əlaqədardır. Yeni yaranan məfhumlar hökmən müasir həyatın, elm və texnikanın tələbi ilə meydana gəlir və konkret əşya, hadisə və ya prosesin adlandırılmasına xidmət edir. Odur ki, termin kimi müəyyənləşən sözün ümumxalq ədəbi dilinə keçməsi və yaxud dildə mövcud olan hər hansı bir sözün eyni anlayış əsasında terminləşməsi tamamilə qanunauyğun hal almalıdır. Yeni anlayışların meydana gəlməsi elmi axtarış və dilin inkişaf diaiektikası ilə bilavasitə bağlı olduğundan, belə bir fikir də təkzibedilməzdir ki, ifadə olunan hər hansı bir məfhum, əşya və ya predmet, hadisə, proses və anlayışın aktuallığı terminin ümumi ədəbi dil materialına çevrilməsinə ciddi təsir göstərir. Başqa sözlə desək, termin və ümumi ədəbi dil əlaqəsi şüur və dil bağlılığı qədər mühümdür. Məhz həmin qarşılıqlı əlaqənin nəticəsində milli ədəbi dil təşəkkül tapır, inkişaf edir və zənginləşir.

Ədəbiyyat

1. Cəlilov F. Qədim alınmalarda etnolinqvistik məlumat. Azərbaycan dili leksikasının məsələləri. Bakı, 1989.
2. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1988.
3. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. Bakı: Elm, 1973.
4. Свадост Э. Как возникает всеобщий язык. М.: Наука.

Т.А.Халилова

Терминология и терминологическая лексика

Резюме

Говоря о терминологической системе азербайджанского языка, в первую очередь, надо отметить ее многогранные возможности, которые развиваются с каждым годом. Несмотря на

то, что терминологическая лексика тесно связана со словарной системой литературного языка, тем не менее, она отличается своими лексико-грамматическими особенностями и отвечает лингвистическим требованиям данными терминологической лексики.

Нельзя совмещать терминологические единицы, которые содержат моносемантическую грань, с литературными единицами. Языковые материалы терминологической лексики, с точки зрения литературного стиля, отличаются нейтральностью, они далеки от эмоциональности и экспрессивности, имеют международный статус пользования.

И, наконец, отличающиеся такими особыми качествами, лексические единицы, то есть термины, имея возможность называть тот или иной предмет, процесс и действия, бывают также конкретными, лаконичными, понятными и систематизированными. Именно эти качества различают терминологическую лексику от разговорных языковых материалов. Единицы терминологической лексики также отличаются от слов литературного языка по ареалу действия.

T.A.Khalilova

Terminology and terminological lexis

Summary

Speaking about the terminological system of the Azerbaijani language, first of all, its multifaceted opportunities should be noted, which are developing every year. Despite the fact that the terminology vocabulary is closely related to the vocabulary system of the literary language, it nevertheless differs in its lexico-grammatical features and meets the linguistic requirements with the terminological vocabulary.

It is impossible to combine terminological units that contain a monosemantic face with literary units. The language materials of the terminological vocabulary are neutral in terms of literary style, they are far from emotionality and expressiveness, they have an international status of use.

Finally, the lexical units that correspond to such special qualities, that is, the terms having the opportunity to call this or that subject, process and actions, are also specific, concise, understandable and systematized. These are the qualities that distinguish terminological vocabulary from colloquial linguistic materials. Units of terminological vocabulary also differs from the words of the literary language in the range of action.

Rəyçi: filol.e.n., dos. V.M.Allahverdiyeva

Redaksiyaya daxil olub: 11.07.2017

Т.В.НАЙЫБОВА

Азербайджанский университет языков
(г. Баку, ул. Р.Бехбудова, 60)

ОПРЕДЕЛЕНИЕ СООТНОШЕНИЯ ТЕМЫ И РЕМЫ В ПРОСТЫХ ПРЕДЛОЖЕНИЯХ

Ключевые слова: *тема, рема, синтаксис, сложное предложение, простое предложение.*
Açar sözlər: *tema, rema, sintaksis, mürəkkəb cümlə.*
Key words: *theme, rheme, syntax, compound sentence, simple sentence.*

Одно и то же по грамматической форме и лексическому наполнению предложение может быть воплощено,в зависимости от своего коммуникативного задания, в нескольких высказываниях с разным актуальным членением. Так, высказывания *Вчера он / получил посылку;Он получил посылку / вчера; Вчера посылку получил / он* имеют разное актуальное членение; так как все они экспрессивно и стилистически нейтральны, то в них одинаковый порядок следования компонентов актуального членения: тема предшествует реме. Отвечая разным куммуникативным заданиям, эти высказывания различаются заключенной в каждом из них особой актуальной информацией. В первом высказывании актуальная информация состоит в сообщении о событии в целом, в последующих двух - о частных аспектах событиях: о том, когда оно произошло (второе высказывание), о том, кто в нем участвовал (третье).

Однако не следует думать, что актуальное членение бесконечно в своем разнообразии. Для каждого типа предложений с определенной формальной организацией, лексическим наполнением и определенной смысловой организацией существует ограниченное количество возможных коммуникативных заданий, и формы организации высказывания с определенным синтаксическим составом для разных коммуникативных заданий стандартизованы. Виды высказываний сводимы к определенным типам, выделяемым на основе характера их коммуникативных заданий и соответственно выражаемой в них актуальной информации.

Так как коммуникативные задания могут быть сведены к вопросам, то для классификации высказываний по их коммуникативным заданиям существенна классификация вопросов.Удачная для данной цели классификация вопросов, направленная на их коммуникативную сущность, выдвинута швейцарским ученым Ш.Балли (2, с.126). Балли делит все вопросы на четыре типа:

1. Полный диктальный: *Что случилось? В чем дело?* Такой вопрос предпологает незнание спрашивающим события в целом и направлен ко всему содержанию ответного высказывания.

2. Частичный диктальный: *Кто вышел?* Вопрос предпологает незнание частного аспекта события и направлен к части заключенной в ответном высказывании информации.

3. Полный модальный вопрос *Павел здесь?* предпологает,что известно событие в целом, но неизвестно, соответствует ли оно действительности. Вопрос выражает сомнение в реальности события и имеет целью установить правильность или неправильность имеющейся информации.

4. Частичный модальный вопрос *В школу ли пошел Павел?* выражает сомнение в частном аспекте события.

В соответствии с типами вопросов по Ш.Балли, П.Адамец предложил различать четыре типа высказываний по характеру заключенной в них актуальной информации (1)

1. Общеинформативные. Они передают вещественную информацию в целом, не выделяя одного какого-то ее аспекта. Актуальная информация совпадает с вещественной.

Они менее других высказываний обусловлены окружающим контекстом, легче всего поддаются изолюции. Главной особенностью их устройства является то, что сказуемое всегда входит в рему (одно или в комплексе с другими членами предложения). Примеры**:** *Хлопнула дверь; Юноша остановил станок; В это время раздался звонок на урок.*

2. Частноинформативные. Актуальная информация, заключенная в них, представляет собой один частный аспект вещественной информации. Сказуемое всегда входит в тему, поскольку предполагается, что событие в целом известно. Примеры: *Беда разразилась / в конце дня; Эти перемены изменили / его лицо, но не душу* (Л.Леонов).

3. Общеверификативные. Актуальная информация, заключенная в них, представляет собой не новое сообщение, а « реакцию на мнение собеседника, верификацию или коррекцию этого мнения». Ремой таких высказываний является одно сказуемое, существенна его утвердительная или отрицательная форма. Примеры: *Игорь / не погиб; Дядя /все таки приедет; Но она спрашивать / не стала;* (*Я знаю:) город / будет* (В.Маяковский)

4. Частновериффикативные. Они устанавливают реальность не факта в целом, а какого-то одного его аспекта : *Не одни злые люди / ночъю гуляют*.

Частноверификативные высказывания имеют то же актуалъное членение и (соответственно) то же словопорядковое интонационное оформление, что и частноинформативные, а общеверификативные – то же, что и общеинформативные, поэтому практически важно различение высказываний **общего** и **частного** характера.

Вместе с тем среди высказываний общего характера существенно различать **расчлененные** (состоящие из темы и ремы) и **нерасчлененные.** Эти высказывания различаются порядком слов. В нерасчлененных высказываниях, построенных по самой частотной схеме N_1 V_f при условии их экспрессивной и стилистической нейтральности, обязателен порядок V_f N_1с фразовым ударением на конце (т.е. на N_1), порядок же N_1 V_f в них создает экспрессивно - стилистически окрашенный вариант с фразовым ударением на начале (т.е. на N_1), ср.: (*Почему на улице так много людей?) Кончился сеанс в кинотеатре – Сеанс в кинотеатре кончился.* В расчлененных же высказываниях общего характера имеет место обратная закономерность: (*Когда кончается сеанс в кинотеатре?*) *Сеанс в кинотеатре / уже кончился – Уже кончился / сеанс в кинотеатре.*

Таким образом, есть основания выделять три типа высказываний,различающихся коммуникативным заданием (общего или частного характера) и актуальной расчлененностью / нерасчлененностью: 1) нерасчлененные высказывания общего типа, 2) расчлененные высказывания общего типа, 3) высказывания частного типа (они могут быть только расчлененными). Каждый из этих типов имеет нейтральный и экспрессивно-стилистически окрашенный варианты. Предложение того или иного грамматического строения и состава, становясь коммуникативной единицей,получает свойства одного из этих типов высказываний.

Для каждого предложения есть нейтральный порядок слов, сопровождающийся постановкой фразового ударения на конце предложения выражающий такое актуальное членение, которое в наибольшей степени соответствует грамматическому членению предложения, т.е. его формальной и смысловой организации или (в случае их расхождения) смысловой организации. Нейтральный порядок слов оформляет высказывания общего типа. На фоне этого нейтрального порядка слов существует все другие словорасположения. Одни из них, не нарушая ритмического автоматизма речи (т. е. сохраняя фразовое ударение на конце), выражают актуальное членение, не соответствующее грамматическому членению,и оформляют высказывания частного типа; другие оформляют высказывания общего типа, но несут экспрессивную или стилистическую нагрузку, сопровождаясь переносом фразового ударения; третьи, совмещая

некоторые свойства двух первых, оформляют высказывания частного типа и несут экспрессивную или стилистическую нагрузку.

Так, для предложения *Возле дома росли липы* данный порядок является нейтральным, при автоматизированном интонационном оформлении он организует нерасчлененное высказывание общего типа; словорасположение *Липы росли возле дома* при автоматизированном интонационном оформлении выделяет сочетание *возле дома* как рему, т.е. организует высказывание частного типа, а при фразовом ударении на первом слове (*Липы росли возле дома)* оформляет высказывание или общего типа (т.е. с той же актуалъной информацией, что и при нейтралъном порядке слов), но экспрессивное,или частного типа (отвечающее на вопрос Что *росло возле дома?*) и тоже экспрессивное.

Основную коммуникативную нагрузку в высказываниях этого типа несет глагольное сказуемое.

Тема и рема имеют свои интонационные показатели: тема, расположена в начале предложения, выделяется повышением тона; рема, расположенная в конце предложения, выделяется фразовым ударением,сочетающимся в повествовательных предложениях с понижением тона.

В высказываниях, составляющих один речевой такт, тема не имеет обязателъного интонационного выражения: Ледебка тарахтела (К.Паустовский); Солнце исчезло (К.Паустовский); Хлеб цветет (В.Тендряков); Костер прогорел (В.Белов). В таких высказываниях, однако, возможно появление паузы (выражаемое в письменной речи знаком тире) и выделение темы повышением тона: Солнце – исчезло; Костер – прогорел. В таких высказываниях возможно и усиление ударения на реме. Усиление интонационных показателей темы и ремы приводит к более резкому противопоставлению компонентов актуального членения, подчеркивая расчлененность высказывания. У некоторых авторов тенденция к резкому противопоставлению тему и ремы является индивидуальной чертой стиля.

Литература

1. Адамец П. Порядок слов в современном русском языке. Praha, 1966.
2. Балли Ш. Общая лингвистика и вопросы французского языка. М.: Прогресс, 1955.

T.V.Naibova

Sadə cümlələrdə tema və rema nisbətinin müəyyənləşdirilməsi

Xülasə

Praktiki olaraq tema mövcud olanı təcəssüm edir. Rema – yeni deməkdir,lakin bu kateqoriyalar arasında mümkün ola biləcək uygunsuzluq hallarını da nəzərə almaq lazımdır. Müxtəlif sintaksis tərkibli cümlələrə əsaslanan ifadələrin bölünməsi, bir tərəfdən öyrənilən bu tip cümlələr üçün xarakterik olan tema və rema ilə əlaqənin ətraflı təhlilini qacılmaz edir, digər tərəfdən isə mövcud olanla yeni olan arasında.

T.V.Naibova

Definition of the relation between theme and rhema in simple sentences

Summary

The article is about theme – that often defines the datum, but rhema – something new, but it is necessary to take into account also all the possible eases of divergences between these categories. Description of the actual parts of utterances built on the basis of the sentences with different syntactical structure, suggests the detailed analysis of correlation between them, on the one hand, between the datum and new, on the other hand, characteristic for the studied syntactical type of sentences.

Рецензент: проф. А.Я.Мамедов
Redaksiyaya daxil olub: 05.09.2017

ƏDƏBİYYATŞÜNASLIQ - ЛИТЕРАТУРОВЕДЕНИЕ

L.C.BAĞIROVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

KURT VONNEQUTUN "SALLAQXANA-5" ƏSƏRİNDƏ QARA YUMOR

Açar sözlər: *Kurt Vonnequt, qara yumor, metaroman*
Ключевые слова: *Курт Воннегут, черный юмор, метапроза*
Key words: *Kurt Vonnegut, black humor, metefictional novel*

Qara yumor müasir ədəbiyyatda müxtəlif ədəbi məqsədlər üçün istifadə olunur. Bir çox ədəbi tənqidçilər qara yumor terminini istifadə etmişlər, bununla belə onun mənası ətraflı şəkildə müzakirə olunmağa dəyər. Bəzi yazıçılar onu gülünc, mübaliğəli, tükürpədici, naxoş, pornoqrafik, kinayəli, satirik, absurd, cəfəng və ya bu kimi cəhətlərin birləşməsi kimi izah edirlər. Bu izah qara yumorun müxtəlif formalarını əhatə edir, ancaq Yeni Kolumbiya Ensiklopediyasının 1975-ci il nəşri onun ən dərin, önəmli nöqtələrinə toxunur. Ensiklopediyada qara yumor dünyanın qəddarlığını, duyğusuzluğunu, mənasızlığını ifadə etmək üçün istifadə olunan gülünc, mübaliğəli bir vasitə kimi işlədilir. Bu ensiklopediyada qara yumordan istifadə edən müəlliflər içərisində Kurt Vonnequtun adı da xüsusi qeyd olunmuşdur. "Sallaqxana-5" əsərində Kurt Vonnequt müasir dünyanın zülmkarlığını və qəddarlığını nümayiş etdirmək üçün qara yumordan istifadə edir.

Ümumiyyətlə, Kurt Vonnequt XX əsrin məşhur qara yumoristlərindən biri hesab olunur. Yumor və sərtliyi birləşdirərək, onun əsasında sanballı əsərlər yazan Kurt Vonnequt öz nəslinin hörmətə layiq müəlliflərindən biri olmuşdur (1). Kurt Vonnequt düz 20 ilini "Sallaqxana-5" əsərinin yazılmasına sərf etmişdir. Yazıçı "*New York Times*" qəzeti tərəfindən "talenin gülməli peyğəmbəri", əsəri isə "*Chicago Sun-Times*" tərəfindən "bayram üçün səbəb" adlandırılmışdır. Ancaq Vonnequt özü hesab edirdi ki, əsəri heç də gözlədiyi qədər uğurlu alınmamışdır. O, bu əsəri barəsində qeyd edirdi ki, Lutun arvadı arxaya baxdığına görə duz dirəyinə çevrildiyi kimi, onun kitabı da duz dirəyindən başqa bir şey deyil. Lutun arvadı barədə əfsanə İncildə öz əksini tapmışdır. Bu əfsanəyə görə şəhərdə fəlakət baş verəcək. Lut və arvadı arxaya baxmadan buranı tərk etməlidirlər. Ancaq Lutun arvadı şəhəri tərk edərkən arxaya baxdığına görə daşa çevrilir. "Sallaqxana-5" əsərində müəllif müharibə mövzusu kimi ağır bir mövzuya müraciət etmişdir və məhz qara yumor müəllifə belə bir qəliz mövzuda yazmaq imkanı yaratmışdır. Vonnequt belə hesab edir ki, "*War is not an indicator of glory and heroism, but an uncontrolled catastrophe for all involved*" - "Müharibə dəhşətlidir, qorxuludur. Müharibə əzəmət və qəhrəmanlıq göstəricisi deyil, müharibə ona cəlb olunanlar üçün idarə olunması mümkün olmayan fəlakətdir" (3, s.23).

Uzun bir müddət, yaradıcılığının təxminən ilk iyirmi ili Kurt Vonnequt geniş oxucu kütləsi tərəfindən qəbul olunmamışdır. Elmi fantastik və ya qara yumor müəllifi olması ilə bağlı tənqidçilər arasında fikir müxtəlifliyi olmuşdur. Bəzi tənqidçilər onu elmi fantastik ədəbiyyatın nümayəndəsi kimi düşünsələr də, bəzi müəlliflər onu qara yumorist hesab

edirdilər. Vonnequt isə bu fikri irəli sürürdü; "Mən elmi-fantastik ədəbiyyatın müəllifi olma fikrinə qarşıyam, çünki o mənim oxucu kütləmi azaldır". Kurt Vonnequtdan necə tanınmaq istədiyini soruşanda isə o qısaca cavab vermişdi; "Corc Oruel" (4, s.19).

"Mülkü olmayan adam" adlandırılan esselər toplusunda Vonnequt qeyd edir ki, "yumor demək olar ki, qorxuya psixoloji cavabdır". Kurt Vonnequt həmçinin Freydin "yumor ümidlərin puç olmasına bir cavabdır" fikrinə də istinad edir. Vonnequt gülüşü ümidlərin puça çıxmasının iki həll yolundan biri kimi görür və belə qeyd edir: "*Laughter is a response to frustration, just as tears are, and it solves nothing ... the biggest laughs are based on the biggest disappointments and the biggest fears*". "Yumor ümidlərin puç olmasına cavabdır, göz yaşı kimi, və o heç nəyi həll etmir ... ən böyük gülüş ən böyük ümidsizliklərə və ən böyük qorxulara əsaslanır" (2, s.67).

Bütün zamanların ingiliscə yazılmış 100 ən yaxşı romanından biri hesab edilən "Sallaqxana-5" romanı Vonnequtu qısa zamanda kult yazıçıya çevrildi. Kitabın çağından çox keçməmiş "Sallaqxana-5" romanı "zərərli kitablar" siyahısına düşdü və bütün məktəb kitabxanalarından yığışdırıldı. Şimali Dakotada onun kitablarını tonqala atıb yandırdılar. Vonnequtun ironiyası burda da işə düşdü : "Mən yeniyetmə olanda insanları yandırırdılar, indi isə kitabları yandırırlar. Zərər yoxdur – bu da inkişafdır." Amerikada hələ də "Sallaqxana-5"dən sonra Vonnequtun birdən-birə necə məşhurlaşmasının və sonra necə sürətlə də "unudulmasının" sirrini çözmək istəyənlər, təhqiqat aparanlar var. Amma bu şöhrətin arxasında əslində, tam obyektiv səbəblər də tapmaq olar. Həmin illərdə Amerika Vyetnamla öz tarixinin "ən populyar olmayan" müharibəsini aparırdı və belə bir vaxtda Vonnequt bir müsahibə verib milyonlarla müharibə əleyhdarının fikrini ifadə etdi: "Bu müharibə göstərdi ki, biz nə qədər qəddar, amansız ola bilirik" (3, s.37).

Romanın əsas personajı Billi Piliqrimdir. O, 1922-ci ildə Nyu-Yorkda, İliumda bərbər ailəsində doğulmuşdur. İkinci Dünya Müharibəsində hərbi xidmətə çağırılana qədər bir semestr İlium Optometriya İnstitutunun gecə növbəsində təhsil almışdır. Billi Avropada könüllü xidmət göstərəndə almanlar tərəfindən əsir götürülmüşdü. (Eynilə Vonnequt kimi) 1945-ci ildə fəxrlə ordudan tərxis olunduqdan sonra Optometriya İnstitutunda təhsilinə davam edir. Buradakı ikinci ilində o, institutun sahibi və təsisçisinin qızı ilə nişanlanır. Bir müddət yüngül əsəb pozğunluğundan əziyyət çəkir. Onu Plasid Gölü yaxınlığındakı hospitala yatırırlar. Burada şok müalicəsi alandan sonra buraxılır. Vonnequt roman boyu tez-tez abzasların sonunda, hansısa vacib informasiyanı verəndə, təsirli bir səhnə yazanda "olan işdir" cümləsindən istifadə edir ki, bu cümlə özündən həm ironiya daşıyır, həm də fanilik hissini qüvvətləndirir, məsələlər humanizm çaları qatır.

"1968-ci ilin əvvəllərində aralarında Billi də olmaqla bir qrup optometrist Optometrislərin Beynəlxalq Konfransında iştirak etmək üçün İliumdan Monreala uçurlar. Təyyarə Vermontdakı Şuqarbuş dağında qəzaya uğrayır. Hamı öldü, Billidən başqa. Olan işdir. Billi Vermont hospitalında sağalan vaxt, arvadı karbon qazı ilə zəhərlənərək ölmüşdü. Olan işdir" (3).

Təyyarə qəzasından sonra Billi Piliqrim evinə qayıdır və bir müddət susqun, sakit həyat tərzi keçirir. Bir dəfə o, heç bir xəbərdarlıq etmədən Nyu Yorka gedib, gecə söhbətləri aparan bir radio verilişində çıxış edir və tez-tez zamandan qopduğunu deyir. İddia edir ki, 1967-ci ildə onu uçan boşqab oğurlayıb. Bu boşqab Trafalmador planetindən gəlibmiş. Onu üryan halda bu planetin insanxanasında sərgiyə çıxarıbmışlar. Yadplanetlilər onu özü kimi dünyalı olan keçmiş film ulduzu Montana Uayldheklə cütləşdirmişdilər. Bundan sonra roman boyu biz onun müxtəlif zamanlara səyahəti və orda başına gələnləri oxuyuruq. Bu "zamandan qopmaların" əksəriyyətində o, müharibə illərinə düşür. Vonnequt Pilqrim soyadını təsadüfən seçməyib. Sözün mənası "zəvvar" deməkdir. Bu mənada Billi zaman zəvvarıdır. Onu oğurlayan uşaq boşqabın gəldiyi Trafalmador planetinin də adı boş yerə seçilməyib. Trafalmador – "biz hamımız" deməkdir."Sallaqxana N-5" romanının əvvəlindəki Drezden bombalanması haqda kitab yazmaq istəyən və köhnə döyüş yoldaşıgilə gedən, beləliklə

mətnin bir hissəsinə çevrilən Vonnequt və gerçəklikdə bunları həqiqətən yaşamış Vonnequt, üstəgəl romanda Billi Piliqrimin gözündən uydurulmuş roman dünyasında, alternativ reallıqda o günləri xatırlayan Vonnequt - bütün bu vonnequtlar bir güzgünün sınması, parçalanması effektini yaradır. Romanın əvvəlində Vonnequt Drezdenlə bağlı necə material yığması və köhnə müharibə yoldaşı Bernard V. O'Heyrə zəng vurub o illəri xatırlamaq, söhbət etmək üçün görüş istəməsi də təsvir edilib. Yalnız bu məlumatları alandan sonra biz romanın lap əvvəlindəki iki ithafı başa düşürük: "Meri O'Heyr və Gerhard Müllerə həsr olunur" (19, 7).

"Sallaqxana-5" əsərində Vonnequtun qara yumoru tez-tez istifadə etməsinə dayanaraq, zülmkarlığa və müharibəyə qarşı insanın həssas münasibətini oxucuya çatdırmaq məqsədilə nə üçün qara yumoru seçməsini izah edə bilərik. Aydındır ki, müharibə insanlarda qorxu təlqin edir. Hər kəs təxmin edə bilər ki, Vonnequt özü müharibənin məhbusu olaraq qorxu keçirirdi. Müharibə ilə əlaqəli olan bu qorxuya cavab olaraq, o öz əsərində dəhşətli vəziyyəti yumoristik formada təsvir edir. Həm "Mülkü olmayan adam" , həm də "Sallaqxana-5" əsərində Vonnequtun yazı tərzi göstərir ki, müharibə və zülmkarlıq onu qorxudur. Bununla belə, Freydin dili ilə desək,Vonnequt öz qorxusuna onu komediya pərdəsi ilə maskalayaraq cavab verir. Vonnequt sadəcə "Sallaqxana-5" çap olunan vaxt Vyetnamda yayılan ardı arası kəsilməyən zülmkarlığa qarşı öz qorxusunu, nifrətini əks etdirməklə kifayətlənmir, həm də müharibə əleyhinə olduğunu göstərən fikirlərini təsvir və təqdim edir. Beləliklə, əsərin oxucuya çatdırmaq istədiyi mesaj daha dərin mənaya malikdir.

Romanın necə yazıldığının nəql edildiyi birinci fəslin sonunda Vonnequt əsərin ilk və son cümləsini yazır; sanki əvvəlcədən başlanğıc və son haqqında məlumat verməklə oxucunun bir azdan oxumağa başlayacağı Billi Piliqrimin zamanda sıçrayışlarına hazırlayır, təbii ki, eyni zamanda postmodern romanlara xas olan o məşhur fəndi təkrarlayır. Əsər öz diliylə deyir ki, mən quramayam : "Kitab belə başlayır: "Qulaq as - Billi Piliqrim zamandan qopmuşdu." Və belə bitir: "Cik-çirik?" Vonnequta görə yazıçının əsas vəzifəsi bircə dənədir: "insanları məmur, general, prezident olana qədər tutmaq və onları humanizmlə zəhərləmək. Humanizmə yoluxmuş insan heç vaxt məmur olmaq, general olmaq, prezident olmaq istəməz."

Kurt Vonnequt dünya müharibəsində milyonlarla insanın öldüyü, amma nədənsə "elm əsri" adlandırılan bir dövrün - XX əsrin nümayəndəsi idi. Bu yerdə Adornonun sözünü xatırlamaq yerinə düşür: "Osvensimdən sonra şeir yazmaq barbarlıqdır. Elə buna görə də "Pişiyin beşiyi" romanında Vonnequt həm dərin hüznlə, həm də özünəməxsus ironiya ilə yazırdı: "Alimlər nə icad edirlər etsinlər, silah alınır" (3, s.197).

Bu əsərdə Kurt Vonnequt real həyatın axmaqlıqlarını, əhəmiyyətsizliyini və yumoristik cəhətlərini təsvir etmək üçün kinayədən istifadə edir. O, bu kitabında həyatın vacib aspektlərini satira ilə təsvir edir, amma real həyatda bu hadisələr ilə qarşılaşsaq, onların heç də gülməli olmadığının şahidi olacağıq. Kurt Vonnequtun bu əsərində real həyatın obyekt, hadisə və insanları təqdim olunur. Əsərdə qəhrəmanlar bədbəxt hadisələrlə qarşılaşır və yazıçı başa düşür ki, taleni idarə etmək və dəyişmək qabiliyyəti yoxdur. Müharibə və din də sorğusual olunur. Bütün bunlar Vonnequtun satira və kinayəsinin hədəfinə çevrilir. Bütün əsər boyunca biz Vonnequtun verdiyi suallarla qarşılaşırıq. Bu suallar adətən müharibə, sülh, texnologiya və insan xoşbəxtliyi kimi həyati məsələlərlə bağlıdır. Elə müəllifin özü bu sualları kinayəli formada cavablandırır. O, öz həyatında məna, qayda-qanun və səliqə axtaran insanların gülünc vəziyyətini xüsusi vurğulayır və insanların əksinə mənasız, nizam-intizam olmayan bir cəmiyyətdə yaşadığını göstərir. Əsərdə həyatın mənası ilə bağlı verilən suallar istehza doğurur. Məsələn, Vonnequt belə bir sual verir; "Sizin incəsənətiniz nə vaxt sizi razı salıb? O nə vaxt çərçivələnib və sərgidə göstərilib? O nə vaxt çap olunub və satılıb? O nə vaxt tərifləmib və tənqid olunub? Bir insan yalnız kinayəli tərzdə belə suallar verə və onun gerçək mənasını gizlədə bilər. Başqa bir sualda isə o soruşur; "Əgər dünyanı Allah yaradıbsa, onda Allahı kim yaradıb?" (3, s.15). Bunlar satirik suallara ən yaxşı nümunələrdir və Vonnequt özü bu suallara gülünc və qeyri-real formada cavab verir.

Bəzən Vonnequt oxucularını öz hədəfinə çevirir. Belə ki, Vonnequt oxucuda əsərin sonu ilə bağlı fikir formalaşdırır və oxucu əsərin sonunun necə qurtaracağını təxmin edir. Oxucu düşünür ki, müəllifin qoyduğu məsələnin həlli var. Lakin Vonnequt birdən-birə kinayə vasitəsilə oxucunun fikrini alt-üst edir. Bundan başqa, Vonnequt göstərməyə çalışır ki, onun əsərlərində qəhrəmanları olduğu mühiti ələ almağa çalışır, sonra isə əslində bu insanların ətraf mühit üzərində heç bir təsiri olmadığını göstərir. İnsan başa düşməlidir ki, mənasız qəddarlıq və ölüm ehtimalı ömrünün sonuna kimi onu izləyəcək. İnsan hara gedir getsin və nə edir etsin, uğursuzluq labüddür, çünki insan özü uğursuzdur. Bu müəllifin öz qəhrəmanlarına və eləcə də real həyatdakı insanlara olan mənfi və kinayəli yanaşmasıdır. İnsan başa düşür ki, taleyini dəyişə bilməz. Vonnequt bütün kitablarında olduğu kimi "Sallaqxana -5" romanında da ən çox ifadə etməyə çalışdığı fikir budur. Əsərin qəhrəmanı Billi Pilqrim başa düşür ki, o keçmişlə, gələcəklə və indi ilə bağlı heç nəyi dəyişə bilməz. Vonnequt bütün əsər boyunca həyatda məna axtaran insanları gülüş hədəfinə çevirir.

Əsərdə qara yumoru daha qabarıq şəkildə göstərmək üçün Vonnequtun istifadə etdiyi başqa bir texnika saxta ciddilik ifadə edən söz və ifadələr işlətməsidir ki,bu da absurd bir vəziyyət yaratmağa səbəb olur. Drezden bombalanan gecə Billi və onun yoldaşları bomba anbarı kimi istifadə olunan yerdə saxlanılırlar. Vonnequt bu yeri "ət dolabı" adlandırır və onun bu ifadəni işlətməkdə məqsədi məhbusların onları əsir alan şəxslər üçün heç bir önəmi olmadığını, insan yerinə qoyulmadığını, heyvandan fərqli davranılmadığını vurğulamaqdır: "*They are held in a slaughterhouse for animals. just as animals were previously killed in the Dresden slaughterhouse, so too, in theory, will many prisoners and civilians be killed - only the killers will not be Germans, but rather the American prisoners' fellow Allied soldiers*". Digər alman bələdçiləri isə,Vonnequt dediyi kimi, "Drezdendəki evlərində istirahət etməyə gedib. Onlar hamısı ailələri ilə birlikdə öldürülüb. İroniyanın bu tonu ölümün ümidsizliyi ilə insan həyatı və ailəsinin şəraitinə qarşı çıxır" (3, s.148).

Absurd, cəfəng vəziyyətə səbəb olan saxta ciddiliyin başqa bir misalı Uayld Bobun dialoqunda nümayiş olunur. O, döyüşdə bütün alayını itirən amerikalı yürüş polkovnikidir. Uayld Bob adamlarını əmin edirki, döyüş sahəsində ölü vəziyyətdə uzanan almanlar var və guya onlar Uayld Bobun rəhbərliyi altında olan 405 nömrəli yürüş alayı ilə qarşılaşacaqları üçün tamamilə ümidsiz vəziyyətdədirlər. Lakin vəziyyətin ciddiliyi elə həmin dəqiqə absurd bir vəziyyətlə əvəz olunur. Belə ki, yaralanmış və ölüm ayağında olan Uayld Bob ağlını itirmək üzrədir. Onun danışdığı insanlar heç onun alayının hissəsi belə deyil, ancaq Bob belə fikirləşir: "*Even more pathetically absurd is his notion that the Germans died wishing they had never heard of his regiment: Wild Bob's soldiers, not the Germans, died on that battlefield*" (3, s.123)

Kurt Vonnequt ümumiyyətlə əsərdə hadisənin kiçik aspektlərinə daha çox fikir verir. Ölüm kimi böyük hadisələr isə "beləcə davam edir" ifadəsi ilə ötüşdürülür. Vonnequt hadisələrdəki ironiyanı göstərmək üçün kiçik hadisələrdən istifadə edir və vacib hadisələrin üzərindən elə üsullardan istifadə edərək keçir ki, bu oxucu və onun arasında yumor hissi yaradır. Onun yaradıcılığında qara yumor XX əsr Amerika həyatının müxtəlif təbəqə və zümrələrinə məxsus düşüncə və psixologiya, cəmiyyətdə gedən siyasi proseslərin doğurduğu mənəvi ziddiyyətlər, varlılar-zənginlər və yoxsullar-kasıblar arasındakı təzadlı psixoloji münasibətlər sərt epik lövhələrlə təsvir və təqdim edilir.

Ədəbiyyat

1. Bier, J. The Rise and Fall of American Humor. New York: Holt, Rinehard & Winston, 1968.
2. Dickstein, M. Black Humor and History: Fiction in the Sixties. Partisan Review, 1976, N 2.
3. Vonnegut, K. Slaughterhouse-Five, or The Children's Crusade. New York: Delacorte Press, 1969.
4. Vonnegut M. The Eden Express: A Memoir of Insanity. Seven Stories Press, 2003.

Л.Дж.Багирова

Черный юмор в романе Курта Воннегута «Бойня номер пять»

Резюме

В этой статье анализируется роман Курта Воннегута «Бойня номер пять». Главный герой романа американский солдат Билли Пилигрим, нелепый, робкий, апатичный человек, прототипом которого стал сослуживец Воннегута, Эдвард Кроун. Книга классифицируется постмодернистской метапрозой.

Писатель с черным юмором пытается показать недостатки общества. Герой произведения Билли Пилигрим хоть и похож на персонажи предыдущих произведений, однако привлекает внимание читателей абсолютно новыми качествами.

Роман «Бойня номер пять» отличается с точки зрения содержания и стиля от предыдущих произведений Курта Воннегута.

L.J.Bagirova

Black humor in Kurt Vonnegut's novel "Slaughterhouse-Five"

Summary

In this article Kurt Vonnegut's the famous novel "Slaughterhouse-Five" is analyzed. The protagonist of the novel is American soldier Billy Pilgrim, an absurd, timid, apathetic man, whose prototype was Vonnegut's co-worker, Edward Crown. The book is classified by postmodern metafictional novel.

The writer with black humor tries to show the shortcomings of society. The hero of the work Billy Pilgrim, although similar to the characters of previous works, however attracts the attention of readers with completely new qualities.

The novel "Slaughterhouse-Five" differs in terms of content and style from previous works of Kurt Vonnegut.

Rəyçi: f.f.d., dos. N.M.Nuriyeva

Redaksiyaya daxil olub: 05.09.2017

Ş.BÜNYADOVA
tarix elmləri doktoru, professor
e-mail: Shirin_bunyad @mail.ru

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

AZƏRBAYCAN ATALAR SÖZLƏRİNDƏ QONŞULUQ MÜNASİBƏTLƏRİ

Açar sözlər: *Azərbaycan, etnoqrafiya, atalar sözləri, qonşuluq, münasibət.*
Ключевые слова: *Азербайджан, этнография, пословицы, сосед, отношение.*
Key words: *Azerbaijan, ethnoqraphy, proverbs, neighbour, relation.*

Azərbaycan xalqının etnoqrafiya elminin inkişaf etdirilməsində yardımçı mənbə kimi folklor nümunələrinin tədqiqat obyektinə çevrilməsinin özünəməxsus yeri vardır. Xalqın həyat tərzi ilə əlaqədar bu və ya digər məsələləri təsdiq etmək baxımından onların müsbət rolunu dəyərləndirmək lazımdır. Belə ki, etnoqrafik müşahidələr, müxtəlif mənbələrin verdiyi məlumatlarla yanaşı, müqayisəli təhlil üçün şifahi xalq yaradıcılığı nümunələrindən istifadə olunması təqdirəlayiqdir. Çünki onların vasitəsilə real həyat hadisələrindən doğan məişətin özünəməxsus xüsusiyyətlərini daha ətraflı şəkildə canlandırmaq mümkündür. Deməli, onlara bir mənbə kimi yanaşmaq olar. Şifahi xalq yaradıcılığı nümunələrindən biri olan atalar sözlərində xalqımızın ailə məişəti və mənəvi mədəniyyəti ilə bağlı olan qonşuluq münasibətləri haqqında verilən məlumatlar olduqca böyük maraq doğurur.

Şifahi xalq yaradıcılığı nümunəsi olan atalar sözlərində xalq məişətinin tərkib hissəsi olan qonşuluq münasibətlərilə bağlı xeyli deyimlər mövcuddur. Məsələn, «anam-bacım kimdir? - Yaxşı qonşum»! (1, s.72) Qonşunu ailənin ən əsas üzvləri olan anadan və bacıdan artıq tutmağa insanı vadar edən səbəb nədir? Təbii ki, onun yaxınlığı. Lakin onun da bir dərəcəsi səviyyəsi vardır. Aydın məsələdir ki, hər qonşu da simsar, sirdaş ola bilməz. Burada xasiyyətin uyğun gəlməsi əsas şərt hesab olunur, bundan əlavə evin sirrini paylaşa bilmək mühüm amil sayılır. Çünki hamı xarakter etibarilə bir deyildir. Ona görə də yaxşılıq bu deyimdə əsas meyar götürülürmüşdür. Qeyd etməliyik ki, qonşuluqla bağlı atalar sözlərinin hamısı eyni dərəcədə müsbət məzmunlu deyildir. Onların içərisində müəyyən eyhamlar da vardır ki, bu da şübhəsiz kənar qonşular, yəni xeyri dəyməyən insanlar haqqındadır. Münasibətlərin tənzimləyici amili də məhz belə müstəvidə aydınlaşır.

Atalar sözlərində deyilir ki, «Qonşuya ağ olanın, gözü ağara qalar» (13, s.125). Burada qonşu ilə uyğun rəftar edilməsi vurğulanır. Bu istiqamətdə yanlış davranışın mənfi nəticəsi eyham edilir. Gözün ağara qalması deyimi korluğa işarədir. Qonşuya münasibətdə edilən təbliğat bir qədər qorxu dolu sözlərlə izhar olunur ki, bu da xalqımızın psixoloji təsir gücünə əhəmiyyət verdiyini göstərir.

Atalar sözlərində deyilir: «Qonşu qonşu olsa, kor qız ərə gedər», «Qonşu iti qonşuya hürməz», «Qonşu odundan çıraq yanmaz», «Qonşu payı qarın doyurmaz», «Qonşu toyuğu qonşuya qaz görünər!», «Qonşu çörəyi qonşuya borcdur», «Qonşuda bişər, bizə də düşər», «Qonşuya ümid olan şamsız yatar», «Qonşunun qızı idim, indi oldum ev qızı, ev gəlini», «Qohumun kimdir? - yaxşı qonşum!», «Evdə bişməyib, qonşudan gəlməyib», «Evində olmayanda qonşuya gedərsən, qonşuda olmayanda hara gedərsən?», «Xeyir dilə qonşuna, xeyir gəlsin başına!» (1, s.93-94). Adətə görə qız soraqlayan ailələr onu qonşudan soruşarlar və hər bir xasiyyətini öyrənməyə çalışarlar. Buradakı deyimdə onunla bağlıdır ki, qonşu çox tərifləsə kor qızı belə ərə vermək olar. Qonşu itinin qonşuya hürməməsi onun ev adamı kimi tanınması ilə bağlıdır. Hər bir evin öz odu öz evini yandırar və isidər. Adətən verilən pay həddsiz çox olmur. Buna görə də ev külfəti böyükdürsə, qonşu payı ilə hamının qarnını doydurmaq

mümkün deyildir. Toyuğun qaz kimi böyük görünməsi, ümumən qonşunun hər bir malı, əşyası digərinə böyük görünər anlamı kəsb edir. Çörəyin borc olması Azərbaycan xalqında mövcud olan adəti göstərir. Bu adətə görə evində çörək bişirən ondan qonşusuna mütləq pay verər və ya çörək bişib çıxanda təndir başına o anda kim gələrdisə təzə çörəyə qonaq edilərdi. Çörəyin iyi ərtafa yayılardı. Yaxın qonşu da həmçinin öz qonşusuna eyni qayda ilə pay yollardı. Bunu onlar bir borc sayardılar. Bu da bərabərində qonşuda bişəndən pay düşmək ifadəsində də eynilə öz əksini tapmışdır. Qonşuya ümid olanın gecənin şam yeməyindən məhrum olduğu ifadə olunmuşdur. Digər atalar sözlərində isə məzmun öz-özünə bəlli olur. Belə bir deyim də vardır ki, «Puldan qonşu payı olmaz» (1, s.208). Yəni qonşuya hər şeydən pay vermək olar, puldan yox. Belə bir deyim də mövcuddur ki, «Qonşuda yarı olanın evi dar olar» (13, s.125). Zənnimizcə, buradakı əsas fikir ondan ibarətdir ki, qonşuda qız sevənlərin ev başına dar gələr. Adətən qonşu yaxın olduğuna və daha yaxşı tanındığına görə, hər bir ailə onunla qohumluğa can atır.

Atalar sözlərində məşhur olan belə bir deyim diqqəti cəlb edir: «Qonşu qonşu olsa, bağ çəpəri neynir» (12, s.113). Burada yaxınlıq münasibətinin meyarı çəpərlə müqayisə edilərək təqdim edilmişdir. Əgər insani münasibətlər dürüstlük və etibarlılıq zəminində qurularsa, qonşular arasında heç çəpərə gərək olmaz.

«Oğuznamə» kitabında qonşuluq münasibətlərinə dair mövcud olan atalar sözlərindən misallar gətirək: «Qonşun kim isə, qardaşın oldur» (2, s.146). Burada qonşunun ən əziz adam olan ailə üzvü qardaş sayıldığı qeyd edilir. «Qonşının eşəgin toquz istə, sənin on olsun. Qonşıyı qonşıdan sorarlar. Qonşu haqqı, tanrı haqqı. Qonşu qızı tar olur. Qonşu qızı çapaqlı olur. Qonşu qızı gülənclü olur» (2, s.145; 144; 147). İraqın Kərkük vilayətində geniş yayılan belə atalar sözləri vardır ki, «qonşu axirət yoldaşıdı. Qonşu aşı, könül xoşu, olmasa daha yaxşı. Qonşu qonşuya baxar, gorun atəşə yaxar. Qonşu aşıynan tox olunmaz. Qonşunu qonşudan sor. Qonşunun dili şişib, qavğası bizə düşüb. Qonşuya umudlu olanın əkməgi doğraqlı qalar. Yoldan öncə yolçu, evdən öncə qonşu sorular» (4, s.105-106; 112). Türklərdə belə bir atalar sözü hələ də işlədilir ki, «qonşu qonşunun külünə möhtacdır». Bu ümumiyyətlə, insanların bir-birinə ehtiyacları olduğuna işarədir. Atalar sözlərindəki bənzərlik deyiliş və mahiyyətindəki oxşarlıq geniş arealda yayılan ortaq mədəniyyətin göstəricisidir.

Yaxın qonşunu uzaq qohumdan irəli bilən xalqımız, hər zaman belə atalar sözünü özünə örnək bilib ki, «qonşunu iki inəkli istə, bəlkə sənin də bir inəyin olsun» (4, s.180). Bununla bərabər, türklər də bizim kimi deyir ki, ev alma, qonşu al. Burada müdrik bir həqiqət vardır ki, o da ondan ibarətdir ki, pis qonşu ilə ömür boyu üz-göz olmamaq üçün ev seçərkən əvvəlcə qonşunun kim olduğuna diqqət yetirmək lazımdır. Bununla bağlı hətta Azərbaycanda atalardan qalma belə bir kəlam da vardır ki, qonşun pisdir, köç qurtar. Bu hikmətli kəlmə qonşuluğa xalqımızın nə qədər əhəmiyyət verdiyinin bariz nümunəsidir.

Qonşuluq münasibətlərinin əhəmiyyəti özünü nədə göstərir?-sualına aydınlıq gətirək. Bu və ya digər məsələ ilə bağlı əlimyandıda ilk imdada yetişən qonşu olur. Xalqımızın minilliklərdən bəri yaşatdığı xeyir mərasimlərində ilk dada yetən qonşular idi. Elçilik, nişan, xınayaxdı, toy kimi mərasimlərdə öz təmənnasız köməyini yetirən qonşular olurdu. Bütün işlərdə qabaqcadan tədarük görülməsində qonşular ev sahibinə var qüvvəsi ilə əl tutmağı özlərinə bir borc saymışlar. Ümumiyyətlə, gəlin gedən qızlar üçün cehizlərin hazırlanmasında, süfrələrin bəzədilməsində, masaların düzülməsində, qonaqların qarşılanıb yola salınmasında və s. işlərdə qonşular məqsədyönlü şəkildə bir-birinin dadına çatırlar, bu məsələləri qaydasına qoymağı biri digərinə həvalə edirlər. Evə qəflətən müsafir gələrsə, çatışmayan bir şeydən ötəri əlbəttə ev sahibinin yadına düşən ilk fikir qonşuya müraciət etmək olur. Bu yaxınlıq əsrlərin sərhəddini aşaraq bugünümüzə gələn və xalqımız üçün mühafizə olunması həyat fəlsəfəsi hesab edilən vacib adət şəklini almışdır. Maraqlı burasıdır ki, analar evlilik yaşına çatmış oğlanlarına müəyyən qızı bəyənərkən gizlicə onun barəsində lazımi məlumatı məhz

qonşularından almağa çalışırdılar. Qəflətən təcili bir iş yaranan zaman uşağı belə onunla məşğul olmaq üçün qonşuya qoyurlar.

Qonşuluq münasibətləri özünü təkcə xeyir işlərdə (nişan, xınayaxdı, toy və s.) göstərmir. Heç şübhəsiz, belə münasibətlər özünü ən ağır zamanlarda, xüsusən dəfn mərasimlərində də büruzə vermişdir. Belə ki, qonşuluqdakı evə yas düşən zaman hamıdan çox yaxınlıq göstərən məhz qonşulardır. El adəti üzrə mərhumun ailəsinə yaxın qohumlarla bərabər, çiyin-çiyinə əziyyət çəkən qonşu öz diqqətini heç vaxt əksik etməmişdir. Yas düşən evi tez-tez ziyarət etməklə, qonşular dərdi bir az da olsa, unutdurmağa çalışırlar. Qonşu yaxşı günün yoldaşı, yaman günün sirdaşı sayılıb el-oba içərisində. Ona görə də el-oba arasında dilə gətirilərək söylənilən «axirət qonşusu», «gor qonşusu» kimi kəlmələr özündə böyük bir həyat həqiqətini daşıyaraq mühüm məna kəsb etmişdir. Bunu belə izah etmək olar ki, daimi bir yerdə məskən salıb, yaşayıb qocalan insanlar yaratdıqları yaxın qonşuluq münasibətləri nəticəsində, rastlaşdıqları çətinlik qarşısında sinə gərərək ömürlük bir-birinə bağlanırlar, ölüncəyədək qonşu olurlar (11, s.102).

Qeyd olunanlardan aydın olur ki, qonşuluq münasibətlərinin təməlində tarix boyunca yardımlaşma, əl tutma, xeyirxah əməl, qarşılıqlı anlaşma və arxa durmaq kimi xüsusiyyətlər dayanmışdır. Qonşular yaxınlıq dərəcəsinə görə müxtəlif olurlar. Xəstəlik zamanı əl tutan ən yaxın qonşu olur. Hətta Q.Qeybullayev qeyd edir ki, qadının doğum sancıları başlayan zaman evin kişiləri qonşuya gedirlər. Qonşulardan yaxın qadınlar da gələrək qadın və körpə üçün lazımi şəraitin yaradılmasına köməklik göstərirdilər (5, s.273). Bu nümunə onu deməyə əsas verir ki, təməlində yaxınlıq, xeyirxahlıq, səmimiyyət dayanan qonşuluq münasibətləri özündə həmçinin bir sığınacaq rolunu da ehtiva edir. Qohum-əqrəbadan belə yaxın olan qonşuların bir-birinin xidmətindən istifadə etmələri həyatın gerçəkliyini təşkil edir.

Etnoqrafik müşahidələrlə təsdiq olunur ki, yaxşı qonşular bir-biri üçün həyandırlar. Çoxsaylı məlumatçıların verdiyi örnəklər də həyat həqiqətləri ilə doludur. Məlumatçı qonşunun nişanında yardım əlini uzatdığını söyləyir. Belə ki, qonşuya çox əziyyət olmasın deyə, təqdim olunan ətdən xörəyi öz evində bişirir (6). Digər örnəkdən bəlli olur ki, həyat yoldaşı xəstələnərkən ilk müraciət etdiyi adamlar həkimdən əvvəl yaxın qonşular olur (7). Yoldaşı bayılan zaman ilk olaraq tibb bacısı işləyən qonşusunu çağırır. Bundan sonra isə qolundakı yaranı sağaltmaq üçün isə digər həkim qonşuya etibar edilir (8). Qonşu etibar olunan yerdir, dayaq nöqtəsidir. Şər düşən evdə yas günlərində qonşudan qab-qacaq, masa, miz alınır (9). Digər məlumatçı isə atası xəstə olarkən nəinki qohum-əqrəbanın, eləcə də yaxın qonşuların, bir sözlə, el-obanın xəstə ziyarətinə gəldiyini deyir (10).

Beləliklə, onu deyə bilərik ki, qonşuluqla bağlı atalar sözlərinin bu qədər çox olması və müxtəlif məzmun daşıması cəmiyyət daxilində yaşanılan həyat həqiqətlərindən doğan əlamətdir. Bu eyni zamanda təcrübələrdə sınanılmış belə münasibətlərin xalq arasında nə qədər mühüm əhəmiyyət kəsb etməsindən irəli gəlir. Təqdim olunan bu məqalədə Azərbaycan cəmiyyətində qonşuluq münasibətlərinin özünəməxsus xüsusiyyətlərə malik olması, həyatın bütün sahələrini əhatə etdiyi qeyd edildi.

Ədəbiyyat

1. Atalar sözü / top. Ə.Hüseynzadə. Bakı: Yazıçı, 1981.
2. Oğuznamə. Bakı: Yazıçı, 1987.
3. Kərkük folkloru antologiyası / top. Q.Paşayev. Bakı: Azərnəşr, 1990.
4. Azərbaycan folkloru antologiyası. 1c. Bakı: Azərb. SSR EA, 1968.
5. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah. II hissə. Bakı: Elm, 1994.
6. Məlumatçı Əfəndiyeva Nabat Qara qızı (1942-ci il, Qazax).
7. Məlumatçı Teymur Əmiraslan oğlu Bünyadov (1928-ci il, Qazax).
8. Məlumatçı Hüseynova Zivər Mehdi qızı (1935-ci il, Qazax)
9. Məlumatçı Bünyadova Şirin Teymur qızı (1963-cü il, Bakı)
10. Məlumatçı Əsgər Sücayət oğlu Əhməd (1957-ci il, Ağdam)

11. Bünyadova Ş.Azərbaycanda qonşuluq münasibətlərinə dair. / Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq elmi konfransın materialları. 01- 04 may 2013-cü il. Bakı: Mütərcim, 584 s s 101-103
12. Sözlü, nağıllı gecələr / toplayıb tərtib edən Loğman Ağalı. Bakı: İşıq, 1991.
13. Xalqımızın deyimləri və duyumları / tərt.: M.İ.Həkimov. Bakı: Maarif, 1986.

Ш.Бунядова

Соседские отношения в Азербайджанских пословицах

Резюме

Этнографическое изучение фольклора каждого народа имеет свое место в науке. Разные жанры народного творчества полны материалом. В них описывается быт каждого народа. Привлекает внимания пословицы, где можно найти много сведений по поводу разных сторон общественного быта. Статья посвящена отношениям между соседями. Эти отношения говорят о повседневной жизни Азербайджанского народа. В них освещаются взаимопомощь между соседями в разных ситуациях. Испокон веков соседи считаются ближе родственников. В статье упоминается, что они помогают друг другу в самых трудных и тяжелых моментах жизни.

Соседи протягивают руку помощи в разных церемониях. Участие соседей в свадебной церемонии и в похоронах все это реальные факты жизни. Часто посещая друг друга, они делятся между собой. Они считаются самыми доверенными лицами, кому можно надеяться. Все время делятся между собой. Для доказательства приводятся сообщения информаторов. В статье подчеркивается важная роль соседей. В пословицах говорится, что прежде чем купить дом, сперва узнай близкого соседа. Поэтому изучение пословиц имеет большое значение с этнографической точки зрения. Особенно для сравнительного анализа привлечение их как вспомогательный источник очень важен.

Sh.Bunyadova

Neighborly relations in the Azerbaijan proverbs

Summary

Ethnographic study of folklore of every nation has its place in science. Different genres of folk art are full of material. They describe the life of every nation. Draws attention to the proverb, where you can find a lot of information about different aspects of social life. The article is devoted to relations between neighbors. These relationships suggest daily life of the Azerbaijani people. They highlighted mutual assistance between neighbors in different situations. From time immemorial, the neighbors are considered close relatives. The article mentions that they help each other in the most difficult and hard moments of life.

Neighbors helping each other in various ceremonies. Participation of neighbors in the wedding ceremony and the funeral are all the facts of life. Frequenting each other, they are divided among themselves. They are considered the most trusted individuals who will rely. All times are divided among themselves. To prove posts are informants. The article emphasizes the importance of neighbors. In Proverbs says that before you buy a house, first find out nearest neighbor. Therefore, the study of proverbs is important ethnographic point of view. Especially for comparative analysis of their involvement as an auxiliary source is very important.

Rəyçi: filol.e.d., prof. T.H.Cəfərov

Redaksiyaya daxil olub: 12.09.2017

N.H.CƏBRAYILOV
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: c.nesib@mail.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

L.N.TOLSTOYUN "HƏRB VƏ SÜLH" ROMANINDA PALID AĞACININ OBRAZI

Açar sözlər: *meşə, yaz günü, palıd ağacı, təbiət təsviri, həmfikir*
Ключевые слова: *лес, весенний день, дуб, описание природы, единомышленник*
Key words: *forest, a spring day, an oak, description of nature, like-minded person*

L.N.Tolstoy ədəbi qəhrəmanın daxili aləmini açmaq üçün digər üsullarla yanaşı təbiət təsvirindən də istifadə edir. Yazıçının "Hərb və sülh" romanı təbiət təsviri ilə zəngin olan bir əsərdir. Bu məqalədə biz yalnız palıd ağacı obrazının Andrey Bolkonskinin daxili aləmini və düşüncələrini təsvir etmək üçün yerinə yetirdiyi funksiyanı nəzərdən keçirmək niyyətindəyik. Xarakterlərin açılmasında təbiət təsviri həm müəyyən psixoloji, həm də ideya funksiyasını yerinə yetirir. "Hərb və sülh"də təbiət təsviri Bolkonskinin ağır ruhi böhrandan sonra həyata qayıtmasını, mənəvi cəhətdən təzələnməsini və onun xarakterindəki kəskin dönüşü ifadə etməyə imkan verir.

Yazıçı yazın təsvirinə qəhrəmanın fikir və təəssüratlarının təsvirini də əlavə etməklə ona, demək olar ki, simvolik məna vermiş olur. Bu mənada L.N.Tolstoyun gənc knyaz Andrey Bolkonskinin obrazını yaradan zaman palıd ağacına xüsusi diqqət yetirməsi, onun obrazı ilə qəhrəmanın həyat tərzini müqayisəli şəkildə, təfərrüatı ilə təsvir etməsi çox əlamətdardır.

Andrey Bolkonskinin həyatında əvvəlcə ümidsizlik baş verdiyi, məyus olduğu, həvəsdən düşdüyü vaxtlarda – yaz günündə geri qayıdan zaman gördüyü yaz meşəsi, qoca palıd ağacı onda tədricən dönüş yaranmasına, aktiv fəaliyyətə və həyata qayıtmasına səbəb olur. L.N.Tolstoy bu dönüşü təbiət təsviri ilə, onun ardınca da Andreyin təəssüratlarını, düşüncələrini çox böyük ustalıqla elə ifadə edir ki, sanki qoca palıdın həyatı ilə Andreyin fikirləri həmahəng səslənir, üst-üstə düşür.

Knyaz Andrey meşə yolunda "yaşıl ot və yasəmən rəngli çiçəklər"in, "küknar ağacları-nın", "yaşıl, təzə yarpaqlı qayınağacları"nı seyr edir. O, psixoloji cəhətdən elə bir vəziyyətdə idi ki, ətrafdakıları da hiss etmirdi. Arabaçı nökər Pyotr ona sual versə də, Andrey sanki onu eşitmirdi. Bu məqamda müəllif onun daxili monoloqunu verir: "Bu nə söyləyir?... Yəqin, yaz barəsində danışır. Doğrudan da, hər şey yaşıllaşmışdı"(1, s.569). Ətrafdakı qayınağacı, ağtikan, qızılağac, eləcə də başqa ağac və şitilliklər arasında Andreyin gözləri palıd ağacına sataşır. "Cavan və gözəl qayınağacları arasında o, qoca, eybəcər və acıqlı görünürdü, sanki, o, bu gözəl ağaclara nifrət edirdi. Yalnız o, baharın füsunkar gözəlliyinə tabe olmaq, yalnız o, baharı və günəşi görmək istəmirdi" (II, 569). Bu fikirlər Andrey Bolkonskinin düşüncələri, həyəcanları ilə həmahəng səslənir. Əslində müəllif palıd ağacı ilə Andrey Bolkonski arasında assosiasiya yaradaraq, onların həyata qarşı etinasızlıqda bir-birinə yaxın, oxşar olduğuna işarə edir. Palıd ağacının "qoca, eybəcər və acıqlı" görünməsi metafora olaraq Andrey Bolkonskini səciyyələndirir, onun düşdüyü mənəvi durumu, həyata münasibətini xatırladır. Palıd ağacının ərafındakı başqa ağaclara "nifrət etməsi", təbiətin "füsunkar gözəlliyinə tabe olmaması", "baharı və günəşi görmək istəməməsi" – bu, Andreyin həyat tərzini xarakterizə edən söz və ifadələrdir. Çünki Andrey də o cür düşünür və o hisslərlə yaşayırdı.

Müəllif paralel olaraq sanki palıd ağacının da daxili monoloqunu verir. Əslində bu, Bolkonskiyə belə gəlir: "Bahar, sevgi, xoşbəxtlik! Bu boş və mənasız şeydir, hamısı da alda-

dıcıdır. Nə bahar var, nə günəş var, nə də xoşbəxtlik! Bir ora baxın, ölü küknar ağacları yalqız dayanıb durur. Mən də sınmış, didilmiş qol-qanadımı açaraq bitən gündən burada durmuşam. Və sizin ümidlərinizə, aldandığınız şeylərə inanmıram" (II, 569). Sanki onlar həmdərd və həmfikirdirlər. Sonra müəllif yenidən knyaz Andreyin düşüncələrini verir: "Bu palıd ağacı haqlıdır, tamamilə haqlıdır, qoy başqaları, qoy cavanlar bu aldadıcı şeylərə uysunlar, biz artıq həyatın nə olduğunu bilirik, biz artıq öz dövranımızı sürmüşük!" (II, 569). Sonuncu cümlədəki "biz" ifadəsi yuxarıda söylədiyimiz fikirləri tamamlayır. Burada artıq palıd ağacı bədii obraz kimi çıxış edir. Müəllif onu sanki qəhrəman kimi danışdırır, monoloqunu verir və s. Bolkonski artıq palıd ağacı ilə həmfikirdir. Bu ağac onun düşüncələrini ifadə edir.

Palıdla bağlı olan qüssəli, ümidsiz fikirlər yenidən Andreyin qəlbində və dünyagörüşündə bədbin, pessimist fikir yaratdı. Ona elə gəldi ki, həyata yenidən başlamağa dəyməz və "ancaq başqalarına pislik etmədən, qorxu və həyəcan keçirmədən, heç bir şey arzu etmədən ömrünü başa vurmalı idi" (II, 569). Burada əsas məsələ təkcə palıd ağacı deyil, həm də söhbət təbiətdən, bahardan, yeni həyatdan gedir. Andrey Bolkonski başa düşə bilmirdi ki, niyə ondan başqa hamı həyatı bu qədər çox sevir?!

Andrey Bolkonskiyə görə təbiət haqlı deyildi. Nataşa ilə görüşdən sonra o, dərk etməyə başlayır ki, həyatın mənası və məqsədi sadəcə olaraq həyatdır. Varlıqdan kənarda həyatın heç bir mənası yoxdur. Ona görə də həyatın mənasını həyatdan kənarda axtarmaq olmaz. Ona görə ki, həyat o qədər tamdır ki, ötüb keçənlərdən hansısa məqsəd axtarmağa, xəyallar qurmağa ehtiyac qalmır. Andrey Bolkonski həyat haqqında mücərrəd mühakimələr yürüdür, qərarlar çıxarır, ancaq özü həyatın təbii qanunauyğunluqlarının iştirakçısı ola bilmir. "Bu, həyata olan insani mövqe deməkdir, həyat problemlərini insan təfəkkürü əsasında həll etmək istəyidir" (2, s.17). Onun təkcə həyat haqqındakı fikirləri yox, həyat hissləri də dəyişir. O, özünün tərkdünyalığından xilas olmağa başlayır. Bunun da nəticəsi gətirib Nataşaya olan məhəbbətə çıxarır. Məhəbbət isə onun həyata olan laqeydliyinə, etinasızlığına son qoymağa imkan yaradır.

Rostovgilin malikanəsində Bolkonski Nataşa Rostova ilə tanış olur və onda bu gənc qıza bir məhəbbət hissi baş qaldırır. Bu da onun mənəvi cəhətdən dirilməsinin, dəyişməsinin səbəbinə çevrilir. Bunu Andrey Bolkonskinin yeni həyata can atması kimi də başa düşmək olar. Puç olmuş sərt şöhrət idealının yerinə yeni sevgi idealı yaranır. Bu sevgi insan həyatının mənası ola bilər və olmalıdır. Təsadüfü deyil ki, yazda təbiətin yenidən canlandığı kimi, Andrey Bolkonskinin əhvali-ruhiyyəsindəki bu dəyişmə də məhz yazda baş verir.

Bir müddət keçəndən sonra Andrey Bolkonski Rostovların malikanəsindən qayıdır və qayınağacı meşəsindən keçən zaman o, yenə palıd ağacını xatırlayır. İyunun əvvəlləri idi, meşə öz gözəlliyi ilə adamı valeh eləyirdi. Andreyin gözləri palıd ağacını axtarırdı. Bu məqamda yenə də qəhrəmanın monoloqu verilir: "Bəli, burada, bu meşədə bir palıd ağacı vardı, biz bir-birimizlə həmfikirdik... O hanı axı?". Monoloqlar bir-birini əvəz edir. Bu psixoloji üsul ilə müəllif qəhrəmanın keçirdiyi sıxıntı və həyəcanları oxuculara çatdırır. Knyaz Andrey qoca palıd ağacını zorla tanıdı, o tamamilə dəyişmişdi. "Artıq onun qol-qanadında nə əvvəlki kələ-kötürlük, nə əvvəlki yaralar görünür, nə də əvvəlki inamsızdıq və kədər duyulurdu. Onun yüzillik sərt qabığından təptəzə yarpaqlar çıxmışdı, bunları bu qoca palıdın yaratdığına heç də inanmaq olmurdu" (II, 573).

Palıd ağacının bu cür dəyişməsi, gözəlləşməsi, həyata qayıtması sanki qəhrəmanın da qəlbində əks-səda verir. Onun da qəlbində, ruhunda bir oyanış, dirçəliş baş vermişdi. Gözlərinin qabağında həyatının ən maraqlı, ən gözəl dəqiqələri canlanmağa başladı. Psixoloji gərginlik bir anlığa əriyib yox oldu. Onun qəlbində, ruhunda yeni həyata böyük ümidlər yarandı. Təbiətin, o cümlədən palıd ağacının füsunkar gözəlliyi Andrey Bolkonskinin həyatında yeni bir dönüşün təzahürünə çevrildi. Onun fikirlərini müəllif yenidən monoloqunda davam etdirir: "Yox, 31 yaşında ikən mən hələ öz dövranımı sürüb qurtarmamışam... Hamı məni tanımalıdır. Mənim həyatım ancaq bir mənim üçün davam etməməlidir... mənim həyatım hamıya öz təsirini göstərməlidir, onlar hamısı mənimlə bir yerdə yaşamalıdır!" (II, 573). Bu sözlərdə bir

tərəfdən gənc Andreyin Napoleon olmaq arzusu və istəklərinin səsi, digər bir tərəfdən də öz qəlbini başqalarının rifahı naminə yandırmaq istəyən yetkin bir ər səsi duyulur. O, şöhrət haqqındakı fikirlərindən hələ də tamam azad olmamışdı, ancaq hiss olunur ki, bu şöhrət arzusu onunçün daha səmərəli, məntiqə uyğun hərəkət, öz barəsində çox böyük fikirdə olmaq həddinə gətirib çıxarmışdı. Hər dəfə çətin vəziyyətə düşəndə təbiət, palıd ağacı, əbədi səma və s. ona köməyə gəlirlər, yerlə göyün birliyi və sirlərindən "danışırlar", Andreyin ağır psixoloji durumdan çıxmağına kömək edirlər. Ancaq Andrey Bolkonski düşüncəli adamdır. P.P.Qromov haqlı olaraq qeyd edir ki, "Knyaz Andrey – mürəkkəb, zərif, incə düşüncə mədəniyyətinə sahib olan insandır" (3, s.115). Hisslər onu həyata cəlb edir, həyat isə hiss formasında ona qəbulolunmazdır. Düşüncə onu həyatdan uzaqlaşdırır, axtardığı, istədiyi məntiqə, mənaya nail ola bilmir və nəzərdə tutduğu planlarından kənara çəkilir. O, ruhi aləmin yox, kübar aləmin reallıqları ilə yaşayır. O hələ də real aləmdən ayrılıb, ruhi aləmə qovuşa bilmir, cismani dairədən ruhi mühitə keçə bilmir. Ruhi "Mən"i cismani varlığına hopur və onun ruhi və cismanı başlanğıcı arasında uçurum yaranır. Onun "Mən"i istədiyi zirvəni fəth edə bilmir.

Həyat insanı təbiətdən və təbii nə varsa ondan ayıran mənasız bir vurnuxmadır və o, insanı təbii nə varsa ondan əl çəkməyə və yaxud, ikinci dərəcəli məsələlərlə məşğul olmağa məcbur edir. Andrey Bolkonskinin birinci dəfə yaralanmağı və ölüm haqqındakı fikirləri, əzab-əziyyətləri, iztirabları onu ilkin təbiətin qoynuna qaytarır və onun varlığını xatırladır. Ancaq tezliklə, sağaldıqdan sonra o, Austerlits səmasını, özünün yeni fikirlərini və hisslərini unudur. Və yenidən şəxsi idrakının məntiqi və şəxsi iradəsi onu bu təbiilikdən başqa bir istiqamətə yönəldir. Ancaq qəlbində birinci bədbəxt hadisədən və birinci ruhi oyanışdan yara qalır.

Yekaterina əyanının evindəki ziyafət zamanı Andreyin Nataşa ilə görüşməsi onunçün xoşbəxtliyə və həyata yeni imkanlar yaratdı. Burada onun monoloqu verilir: "Həyat bütün sevincləri ilə ağuşunu açıb mənim qarşımda durduğu halda, mən niyə bu dar, qapalı çərçivə içində əlləşib-vuruşuram, mən nədən qorxuram? Uzun zamandan sonra, o, ilk dəfə olaraq gələcək üçün uğurlu planlar qurmağa başladı" (II, 630). Monoloq davam edir: " Nə qədər ki, mən özümdə belə qüvvə və cavanlıq hiss edirəm, öz sərbəstliyimdən istifadə etməliyəm. Pyer doğru deyirdi ki, xoşbəxt olmaq üçün xoşbəxtliyin ola biləcəyinə inanmaq lazımdır, mən də buna inanıram. Dərdi dərd çəkənlərin öhdəsinə buraxaq, nə qədər ki ömür var – yaşamaq, xoşbəxt olmaq lazımdır" (II, 630).

Andreyin həyatına yeni ümid və yeganə sevinc gətirən Nataşa ilə görüşü onu müəyyən müddət canlı, təbii həyata qaytarır və Nataşa ona öz hüquqlarını bildirir. Amma Knyaz Andreyin bu sevinci uzun çəkmir. Nataşanın Anatol Kuraginlə qaçmağa cəhd etməsi, yəni onun Andrey Bolkonskini dəyişməsi yenidən qəhrəmanı təbii həyatın cığırından çıxarır. Bu xəbəri eşitdiyi zaman Andrey çox sarsıntı keçirir. Bu hadisə onu süni, kübar, hissiz, xudbin hisslərlə dolu bir yola qaytarır. Andrey Bolkonski yenidən təbii həyatın tələbləri ilə deyil, özünün istədiyi kimi fəaliyyət göstərir. Həyat və onun ümidverici xəyalları özünün sonsuz və işıqlı üfüqünü itirir.

Knyaz Andrey nəzəri cəhətdən "əxlaqsız qadını" bağışlamağa hazırdır, ancaq praktik cəhətdən bu xəyanəti, vəfasızlığı bağışlaya bilmir. Əgər bu "əxlaqsız qadın" onun nişanlısı olmasaydı, bəlkə də, Andrey, ola bilərdi ki, onu bağışlasın. Ancaq hərçənd ki, bu onun nişanlısıdır, xudbin Andreyin namus və ləyaqəti onu bağışlamağa imkan vermir.

Andrey Bolkonskidə iradə, hökm, Pyer Bezuxovda isə əxlaq, mənəviyyat üstünlük təşkil edir. İradə şəxsi mahiyyətdir, əxlaq isə İlahi. Şəxsi iradə İlahi hökmə tabe olmur, əxlaq tabe olur. Şəxsi iradə İlahi iradədən azad olmağa can atır, əxlaq ona tabe olur. Şəxsi iradəyə təkan verən daxili mənlik, əxlaqa təkan verən isə Allahdır.

Şəxsi iradədə Allahla insanın sintezi pozulur, əxlaqda isə bu sintez bərpa olunur, əvvəlki halına qaytarılır. İradəli adam kosmosdan, Allahdan, cəmiyyətdən asılı olmaq istəmir və onları qəbul etmir, tanımır, ruhi adam isə onların içində əriyib yox olur. Əxlaqda inam, şəxsi iradədə isə "allahsızlıq dialektikası" üstünlük təşkil edir. Şəxsi iradəli adam öz "Mən"inə, insani imkanlarına və qabiliyyətinə söykənir və iflasa məruz qalır. Ruhi insan isə İlahi dəyərlərə söykənir, onun iradəsinə tabe olur, yenidən dirçəlir, təkmilləşir və iflasa

uğramaqdan xilas olur. Fəaliyyət – özgəninkiləşmə, əxlaq isə özünəqayıdış deməkdir. Əxlaq real dünyadan ruhi dünyaya, iradənin ruhi fəaliyyətə doğru təkmilləşdirilməsinə doğru keçiddir, fəaliyyət isə əksinə. Andrey Bolkonski köhnə dayaqlarını itirmiş iradəli bir adamdır. O, yenilik axtarır və iflasa uğrayır. Ona görə ki, onun dayaqları xalqa, Allaha yox, ancaq iradəsinə söykənir. Şəxsi iradə özünün təminatı üçün qurban tələb edir, əxlaq isə fədakarlıq!

Hər dəfə təbiətlə təmasda olanda Knyaz Andreyin əsl, real həyatın əbədi gücü ilə yaxınlığı yaranır. Bu yaxınlıq, qarşılıqlı münasibət Andreydə palıd ağacı ilə yanaşı, səmanı seyr edəndən sonra da bərqərar olur, müəyyənləşir. Hər dəfə mütəəssir olanda, böhran keçirəndə Andrey Bolkonski dirçəlmək, özünü bərpa etmək, sağalmaq, özündə güc tapmaq üçün əsl həyatın mənasını onunçün açan səmaya müraciət edir. Məsələn, Boquçarovda öz dostu Pyerlə mübahisədən sonra, həm də ilk dəfə olaraq Austerlits çölündəki döyüşdən sonra o uca səmanı görür. Başqa bir məqamda - Nataşa ilə Otradnidə görüş zamanı Andreyin gözləri səmaya dikilib qalmışdı. Səma ilə təşbeh yaradaraq müəllif qəhrəmanın qəlbindən keçənləri, hiss və həyəcanlarını oxuculara çatdırır. Andreyin həyatının ən məşəqqətli, ölüm-dirim məqamında da bu təşbehdən müəllif məharətlə istifadə edir. Təhkiyəçi qeyd edir ki, yaralı Andrey yüksək səmaya baxdı, buludları nəzərdən keçirdi. O, insan həyatının əbədi olmadığına bir anlığa böyük qəm-qüssəylə təəssüfləndi. Müharibənin dəhşətləri, insanların əhvali-ruhiyyəsi əhəmiyyətsiz bir şey olduğu kimi, hətta böyük Napoleonun da əbədiyyət qarşısında, bu səma qarşısında son dərəcə gərəksiz bir insan olduğunu tam anladı. “Bu dəqiqədə Napoleon ona öz qəlbi ilə bu yüksək, sonsuz və qaçışan buludlarla dolu olan sonsuz səma arasında əmələ gələn hadisələrə nisbətən çox kiçik, əhəmiyyətsiz bir insan kimi göründü...” (II, 398).

Beləliklə, təhlildən belə bir nəticəyə gəlmək olar ki, əslində bu cür psixoloji təfərrüat ilə, eləcə də palıd ağacının obrazını yaratmaqla, onun dolğun və hərtərəfli təsvirini verməklə müəllif, Andrey Bolkonskinin həyata olan münasibətini, onun daxili aləmini, ruhən dirçəlməsini, saflaşmasını göstərmək üçün istifadə etmişdir.

Ədəbiyyat

1. Tolstoy L.N. Seçilmiş əsərləri: üç cilddə. II cild. “Hərb və sülh”. I cild, II cild, Bakı: Şərq Qərb, 2010 (mətndəki bütün sitatlar cild və səhifə göstərilməklə buradan götürülüb).
2. Qocayev M.Q. Dostoyevski haqqında düşüncələr. Bakı: Elm və təhsil, 2012.
3. Громов П.П. О стиле Льва Толстого. «Диалектика души» в «Войне и мире». Л.: Худож. лит., 1977.

Н.Г.Джабраилов

Образ дуба в романе Л.Н.Толстого «Война и мир»

Резюме

Для раскрытия внутреннего мира литературного героя Л.Н.Толстой наряду с другими способами также использует изображение природы. Его роман «Война и мир» – это произведение, богатое описаниями природы. В статье рассматривается функция, которую выполняет образ дуба для изображения внутреннего мира и образа мыслей Андрея Болконского. Создавая образ дуба, давая его полное и всестороннее описание, автор показывает отношение Андрея Болконского к жизни, его внутренний мир, нравственное возрождение и очищение.

N.H.Jabrailov

The image of oak in Leo Tolstoy's novel "War and Peace"

Summary

L.N.Tolstoy uses the picture of nature along with other methods to discover the inner world of the literary hero. His novel “War and Peace” is rich in descriptions of nature. The article deals with the function performed by the image of an oak to depict Andrei Bolkonsky’s inner world and the way of

his thinking. By creating the image of the oak, giving its full and comprehensive description, the author shows the attitude of Andrei Bolkonsky to life, his inner world, moral regeneration and purification.

Rəyçi: filol.e.d., prof. N.H.Nəbiyev

Redaksiyaya daxil olub: 19.06.2017

V.İ.İBRAHİMOVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

MÜHARİBƏ FANTASTİK ROMAN JANRINDA

Açar sözlər: *müharibə, fantastik, roman, janr, yazıçı*
Ключевые слова: *война, жанр, фантастический, роман, писатель*
Key words: *war, fantastic, novel, genre, writer*

Birinci dünya müharibəsindən sonra Amerikada müxtəlif ədəbi cərəyanların mübarizəsini görürük. Bu illərdə realizmdən qaçmaq, yeni ədəbi üsullar axtarmaq meyli güclənir. Siyasi ziddiyyətlərdən uzaqlaşmaq, gözəlliyi "təmiz" sənətdə axtaran, "iyrənc həyatı", xalqın "kobud dilini" qəbul etməyən yazıçılar "Yeni ingilis məktəbi" adlanan ədəbi qrupun üzvlərinin yaradıcılığında daha qabarıq görünür. Bir qrup "Boston məktəbi"də adlanırdı. Onlar sənət və ədəbiyyat məsələlərinə subyektiv münasibət bəsləyir, dekadentçiliyə meyl edirdilər və şüurlu olaraq sənəti gerçəkliyə qarşı qoyurdular. Bir tərəfdən dekadentçilik, sürrealizm, digər tərəfdən isə realizm güclənir və bunların arasında mübarizə kəskinləşir. Lakin dövrün xüsusiyyətlərindən doğaraq yeni tipli yazıçılar fəaliyyətə başlayır.

XX əsr Amerika nəsrinin tanınmış imza sahibləri nəhəng əsərlər və müxtəlif fəlsəfi–psixoloji cərəyanlar hazırlamışdı. Bu dövrdə Amerika ədəbiyyatına iki böyük Avropa filosofu-ingilis pozitivisti H. Spenserin və dahi psixo-analitik Z. Freydin fəlsəfi-psixoloji nəzəriyyələri təsir göstərirdi.

Nitsşenin bütün yaradıcılığı demokratiya əleyhinə çevrilmişdi. O, xalqı qaraqüruh adlandırır və ona nifrət bəsləyirdi. Onun fikrincə "ali irq" zorla hakimiyyəti ələ almalıdır və yalnız almanların buna qadir olduqlarına inanırdı. Hər cür xeyir-şərdən yüksəkdə dayanan fövqaladə, güclü və amansız şəxsiyyətin qüdrətini təbliğ edirdi. İnsanların tərbiyəsi üçün ən yaxşı vasitəni isə müharibədə görürdü. Nitşenin fikrincə müharibə insanı mərhəmət və humanizm kimi "xəstəliklərdən" xilas edir. Onun bu ideyaları hərbçilərin, qəsbkarların arasında çox geniş yayılır və sonralar faşızmə mənəvi qida verirdi. Nitsşe sənət aləmində də öz nəzəriyyəsini yaymağa çalışırdı. Onun fikrincə, ədəbiyyat və incəsənəti xalqdan yüksəkdə duran güclü şəxsiyyətlər yaradır və inkişaf etdirir. Buna görə də bədii ədəbiyyatda "insan sürüsünü" təsvir etmək lazım deyil.

Amerika nəsrinin poetikasını səciyyələndirən "şüur axını", "təhtəlşüurluq", "daxili monoloq" və s. məhz həmin təsirin bədii- fəlsəfi ifadəsi idi.

Avstriyalı psixoloq Z. Freydin psixoanaliz nəzəriyyəsinin Amerika ədəbiyyatına ciddi təsirindən rus ədəbiyyatşünası Y.N. Zasurski də ətraflı bəhs edib (1, s.148). Müharibə əleyhinə Amerikada yazılmış əsərlər siyahısında Vilyam Folknerin "Əsgər mükafatı" romanının xüsusi yeri var. Burada insanın şəxsiyyətinə və taleyinə baxış üçün tamamilə orijinal bir nöqteyi-nəzər, freydisinin təsviri ilə seks və ölüm. Ameriak ədəbiyyatşünası V.F. Teylor yazır ki, "freydist ədəbiyyat" və "Amerika ədəbiyyatı" demək olar ki, sinonimlərdir (2, s.299). "Əsgər mükafatı" romanının qəhrəmanı ingilis aviasiyasında xidmət etmiş təyyarəçi Donaldın gəlini aşnası ilə şəhərdən kənarda gizlənir və yazıçı yazır: "Seks və ölüm dünyanın baş giriş qapısı və gizli çıxış yoludur. Onlar bizim içimizdə bir-biri ilə qırılmaz əlaqədədir. Cavanlıqda onlar bizim bədənimizdə baş qaldırır, qocalıqda isə bizim bədənimizə qayıdır, birisi bizi qidalandırmaq üçün, birisi də onun həşəratlar üçün təzələndirməkdən ötrü" (2, s.300).

1939-cu ildə fransız yazıçısı J.P. Sartr "Folknerdə zaman" məqaləsində onun poetik konsepsiyasını təhlil edərək belə qənaətə gəlirdi: "Mən mövcud deyiləm. Mən mövcud olmuşam. Mənə elə gəlir ki, Folknerin insan həyatında tapdığı absurdluq məhz onun özü tərəfindən ora daxil edilib". Biz qeyri-adi inqilablar dövründə yaşayırıq. Və Folkner öz orijinal sənəti üçün bundan istifadə edir ki, dünyanı ehtiraslar üçün bizim isə canımızdan ruhu çıxararaq

öldüyümüzü təsvir etsin. Mən onun sənətini sevirəm, lakin onun metafizikasına inanmıram. Qadağan olunmuş gələcək – bu hər halda gələcəkdir" (3, s.241).

Kurt Vonnequt, kiçik üçün iştirakçısı olduğu müharibə mövzusu ən yaxşı romanlarında təzahürünü tapıb. Yazıçı-fantast Kurt Vonnequt ədəbiyyata özünəməxsus mövzularla gəlmişdir. Onun əsərləri fərdi təsvir forması, süjet tamlığı və həyat lövhələri ilə oxucunun gözü önündə müharibə epizodlarını dayandırdı. Əsərləri mövzu əlvanlığı və kompozisiya bitkinliyi ilə seçilir. "Beş nömrəli sallaxxana; və ya uşaqların səlib yürüşü" romanında (Slaughterhouse Five; or The Children's Crusade, 1969) əsərində fikirlər, ifadələr aydın və sadə olduğu qədər də fəlsəfi və düşündürücüdür. Yazıçı fantastik roman janrına müraciət edərək vaxt, zaman kəsiklərinə özünəməxsus rakurslardan yanaşmaqla "bircə an"la, "min il"i yaxınlaşdırır, həyatla ölüm və olum arasındakı münasibətlərə öz arşını, baxış bucağı ilə yanaşır. O, zamanı qabaqlamağa çalışır. Müəllif eksperiment apararaq zamanı əsərin infrastrukturuna, obrazına daxil edərkən o, zamanı adi müşahidəçi kimi yox, həm də həyatın mahiyyətinə, onun gedişatına təsir edə biləcək element kimi, ortaya qoyur, ondan deyimin uğurlu şəkildə ifadə olunması məqsədilə istifadə edir. Həqiqət uydurmadan daha dəhşətli və inanılmaz olduğu üçün müəllif qrotesk və fantastikadan istifadəni elə ilk səhifədən başlamaqla qəhrəmanı iki müharibənin –İkinci Dünya və Vyetnam müharibələrinin iştirakçısına çevirir. "Beş nömrəli sallaxxana...." əsərinin Bil Piliqrim adlı qəhrəman hamı canlıların və bitkilərin maşın olduğunu düşünən sakinlərin yaşadığı Tralfamador planetinə düşür. Onlar anlaya bilmirlər ki, niyə Yer Kürəsinin sakinləri maşın ilə müqayisə olduqda qəzəblənirlər. Tralfamadorlılar üçün bu heç də ayıb sayılmır, əksinə "maşın statusu" çox rahat- nə əzab, nə kədər yaşadır. Maşını dünya quruluşu və onun mükəmməlləşdirmək "düşündürmür". Burada qəbul olunmuş bir həqiqət var. "Halhazırda onun strukturu budur" deyə onlar Billi Piliqrimin "Niyə belə" sualına cavab verirlər.

Tralfamador- müəllifin "yadlaşma planeta"sı "elmi biliyin" zirvəsi sayılır. Onun sakinləri kainatın sirlərinə yiyələnib və bilirlər ki, o, nə vaxt süquta uğrayacaq, çünki "münasib zaman strukturun"da uçan nəlbəkilərə yeni yanacağı sınaqdan keçirərkən onu partladacaqlar. Lakin gələcək kataklızmlar ən rasional planetin sakinlərinin əhval-ruhiyyəsini korlaya bilmirlər, çünki onlar "pis məqamları yox, yalnız yaxşılara diqqət etmək" prinsipi ilə yaşayırlar.

Billi bu faydalı məsləhətə əməl etmək istərdi, lakin bu onda alınmır. İlk dəfə onun "mexanizm"i Drezden Təəsüratı ilə əsəb pozğunluğundan hospitala düşən zaman sıradan çıxdı. O zaman onu tez bərpa etdiər. O, vətənə qayıdır, evlənir və özü kimi avtomatlardan ibarət cəmiyyətin ləyaqətli və hörmətli üzvü olur.

Billi Piliqrim həyatda xoşbəxtdir. Artıq onun oğlu Robertin "Yaşıl papaqlar" ordusuna Vyetnamda xidmət etməsidə onu maraqlandırmır. Drezdenıda o, unudub. Lakin təyyarə qəzası onun vərdiş halına düşmüş "iş rejimini" pozmuşdur. Onun başına qəribə əhvalatlar gəlməyə başlayır. Öz yataq otağından o, düşür keçmişə, hərbi əsrlərin barakına, 1945-ci ilin Almaniyasından isə yeni 1967-ci ilin Amerikasının heyrətamiz kadillakın içinə, sonra öz tələblərini dilə gətirən yerli sakinlərin milli qvardiyanın tanklarını üstünə yeritmiş zənci qettosuna. Billi nahar yeməyinə Şirlər klubuna tələsir. Burada bir mayor çox məharətlə Drezdeni yox, Şimalı Vyetnamı bombalamağı tələb edir. Zamanda və məkanda rahat səyahət edən Billi gah Yer kürəsində, gah da sirli Trafamadorda peyda olur. Zamanlararası sıçrayışlar, zamanlar arasında adlamalar müəllifin öz fəlsəfi mühakimələrini əsərə yükləmək məqsədi güdür. Tranrsformasiyaların baş verməsi Billinin hərəkətlərində qeyri-müəyyənlik kimi görünür. Oxucuda elə fikir yaranır ki, bu xəyalın oyunudur. Qəhrəman qəzaya düşür və bütün bunlar onun yaddaşında baş verir. Lakin burada məqsəd müharibə probleminin göstərilməsidir və ən yaxşı obraz elə yazıçıdır. Billinin marşrutunu Vonnequtun məntiqi təyin edir və o, bilir ki, hardan başlayıb, hara gedir.

"Keçmişin, gerçəkliyin və gələcəyin hər bir anı olub və olacaq" Tralfamadorların kəlamına görə və "bizim" dilə çevirəndə gerçəkliyin keçmişdən törəməsini və gələcəkdə baş verənlər üçün material olduğu məlum olur.

Tralfamador mənfəətini güdən Drezden 1945 və 1967 ABŞ – Vonnequtun işgüzarlıq dün-

yasını təşkil edir ki, bu da 3 planet insan vahidlərindən ibarət planetdir. Bu statistikaya etiraz edən müəllif Drezden fraqmentində iki ölümü toqquşdurur-böyük bir şəhərin və amerikalı-hərbi əsirin. İngilis –amerika təyyarəçilərinin planlaşdırılmış və dəqiq yerinə yetirilmiş əməliyyatı nəticəsində Drezden məhv olur. Eləcə də, təlimata əsasən "çapovulculuğa" görə "heç kəsə" məxsus olmayan çaydanı götürən Edqar Darbi güllələnəcək. İki dəfə sadəcə məntiqlə cinayət baş vermişdir. Bu hadisələrin çəki etibarı ilə müxtəlif olduğunu demək olar, lakin Vonnequt üçün onlar arasında əlaqə var, çünki hər ikisi rasional sistemin insana laqeyidliyindən, "lazımsız və maneə törədə" bilən kimi qəbul olunmasıdır. Zamanla bağlı məsələlərə müəllif axıra qədər şərh vermir. Müəllif onlar haqqında fikri məsələnin şərhini oxucunun ixtiyarına verir. Zamanda azmış adam ağır sınaqlardan keçir və tarixi yaddaş qabiliyyətini əldə etməklə şüurunda fərdi talelərlə dünyanın tale yüklü problemləri ilə kəsişirlər. Qısa yaddaş yalnız bir anda ilişib qalan Billinin həmvətənlərinin acınacaqlı keyfiyyətidir. Billi Piliqrimin vəziyyətinin paradoksallığı ondan ibarətdir ki, o normal insan kimi hərəkət etdikdə onun doğmaları və yaxınları əqildən kəm olduğunu düşünürlər. Romanın epizodik personajı, keçmiş piyadaqoşun kapitanı, müharibədən sonra isə milyonçu Eliot Rozuoter də ətrafdakı isanların rəyinə rəğmən ağlını itirmişdir, çünki o, hamını təəccübləndirib "bəşəriyyətə", daha doğrusu səfillərə məhəbbət hissinin oyanması ilə izah edirlər. O, dilənçi, səfil, uğursuz, tənha cəmiyyətdən təcrid olunmuş insanlra yardım edir. İnsanları sevirsə -özündə deyil. Lakin Eliotun müharibə vaxtı üç dinc əhalini, esses zabiti bilib təsadüfən öldürdükdə heç kəsin onu dəli olduğu ağlına gəlmədi. Rozuoter isə Billi Piliqrim kimi əsəb sarsıntısından hospitala düşdü. Vonnequt "dəli" Rozuoter və Piliqrimi normal insanlar kimi, onların tibbi baxımdan sağlam olan, lakin insaniyyət keyfiyyətlərindən məhrum, həddən artıq bacarıqlı qohumlarını mənən şikəst, ruhən xəstə hesab edir. Müharibənin "ağılsızlığı"- Vonnequtun qəhrəmanlarının "ağılsız"lığının bir səbəbidir.

Müəllif təfəkkür fərasəti təhtəlşüurun əsasında dayanır və bu duyğu imkan yaradır ki, yazının gedişində toplanmış təcrübə, informasiya yerini tutsun. Yazıçı baş verənlər barədə məlumatlı olmuş və özü müşahidə aparmış, hadisələri qruplaşdırmış, tipikləşdirmişdir.

Ədəbiyyat

1. Засурский Я.Н. Американская литература. Века. М.: Из-во МТУ, 1984.
2. Taylor W.F. The History of American Letters. Chicago, 1956.
3. Falkner W. Soldier's Pay. Londo. Chatto and Windowa 1954.
4. Parrington V.L. Main Currents in American Thought vol III. The beginnings of Critical Realism in America, 1860-1920/ University of Oklahoma Press, 1987.

В.И.Ибрагимова

Война в жанре фантастического романа

Резюме

Писатель-фантаст Курт Воннегут в своем знаменитом романе «Бойня № 5, или поход детей на войну» описывает свой военный опыт в форме фантастики. Так как реальность кажется ему более трагичной, чем вымысел, он использует гротеск и фантастику с самого начала.

V.I.Ibrahimova

War in the fantastic novel genre

Summary

Fantastic writer Kurt Vonnegut in his famous novel "Slaughterhouse Five; or The Children's Crusade" describes his own war experience in fantastic way. As reality seems to him more tragic than invention he uses grotesque and fantasy from the very beginning.

Rəyçi: filol.e.d., prof. Ş.Xəlilli
Redaksiyaya daxil olub: 11.07.2017

S.Q.İMANOVA
filologiya üzrə fəlsəfə doktoru

AMEA-nın Folklor İnstitutu
(Bakı şəh., İçərişəhər, Kiçik qala, küç., 31)

FOLKLOR VƏ MAGİYA: MÖVSÜM VƏ MƏRASİM NƏĞMƏLƏRİNİN MAGİK TİPOLOGİYASI

Açar sözlər: *folklor, magiya, mövsüm və mərasim nəğmələri, əfsun, magiyanın formaları*
Ключевые слова: *фольклор, магия, календарные обрядовые песни, заклинания, формы магии*
Key words: *folklore, magic, calendar ritual songs, incantations, forms of magic*

Folklor və magiya münasibətlərinin tipologiyasının mövsüm və mərasim nəğmələri əsasında araşdırılması ilk növbədə tipologiya anlayışına toxunmağı tələb edir. Qeyd edək ki, müqayisəli tipologiya folklorşünaslıqda əsas tədqiqat istiqamətlərindən biridir. B.N.Putilov göstərir ki, "tipologiya" adı altında geniş mənada, görünür ki, özünü təbiət və cəmiyyətin əşya və hadisələrində, xassə və münasibətlərində, element və strukturlarında, proses və vəziyyətlərində təzahür etdirən qanunauyğun, bir sıra obyektiv faktorlarla şərtlənən təkrarlanmanı başa düşmək lazımdır" (1, s.9).

Burada diqqətimizi "təkrarlanma" məsələsi cəlb edir. K.Levi-Stros yazır ki, eyni ardıcıllığın mifdə və ümumiyyətlə, şifahi ədəbiyyatda ikiləşməsi, üçləşməsi və ya dördləşməsi ilə rastlaşılması çox vaxt sual doğurur... Təkrarlanma xüsusi funksiya daşıyır və məhz mifin strukturunu aşkarlayır (2, s.206). "Beləliklə, hər hansı bir mif qatbaqat struktura malikdir və o struktur üzdə, belə demək mümkünsə, təkrarlanma üsulunda və onun sayəsində aşkarlanır" (2, s.206).

Nəzərə alsaq ki, magik mətnlər mifik mahiyyətlidir və onlarda folklor-magiya münasibətləri təkrarlanan struktura əsaslanır, bu halda bu məsələ üzərində bir qədər də geniş dayanmaq lazım gəlir. Çünki istənilən ənənəvi mətndə "təkrarlanma xüsusi funksiya daşıyır və məhz mifin strukturunu aşkarlayır". Bu halda təkrarlanmanın öyrənilməsi magiyanın mifik struktrunun öyrənilməsi deməkdir.

Tipologiyanın "canını" təşkil edıən "təkrarlanma" universal hadisədir. Kamil Vəli Nərimanoğlu təkrarlanmanı türk poetikasının iki əsas qanunundan biri kimi götürərək yazır: "Biz bu qanunları iki hesab edirik:

1. Təkrar sistemi və ya təkrarlanma qanunu;
2. Sıralanma, düzüm sistemi və sıralanma qanunu" (3, s.577-578).

"Təkrar və sıralanma dilin bütün səviyyələrini əhatə edir. Fonemlərin, morfemlərin, sözlərin, cümlələrin, kiçik (mikro) mətnlərin böyük mətn içərisində sıralanması, təkrarı fəzadakı planetlərin, göy cisimlərinin (bildiyimiz və bilmədiyimiz) sıralanmasına və dövrəvi təkrarına bənzəyir" (3, s.578).

Qeyd edək ki, bədii düşüncənin ümumi inkişaf qanunauyğunluğunun, öz inkişafının müxtəlif mərhələlərində tipoloji xarakterinin universal dini-fəlsəfi meyarlarla şərtlənməsi sübut olunmuş həqiqətdir. Elə buna görədir ki, bədii düşüncəmizin keçmişinə nəzər saldıqda onun, əsasən, estetik-psixoloji meyarlarla müəyyənləşən tarixi mərhələlərinin ideoloji və dini-fəlsəfi təlimlərlə də şərtləndiyinin şahidi oluruq. Bu baxımdan Azərbaycan xalq yaradıcılığı nümunələri dövrün ənənələrinə uyğun olaraq əski zamanlardan yazıya alınmağa başlamışdır. Dövrümüzə qədər yazılı ənənədə bizə gəlib çatan zəngin folklor örnəkləri vardır ki, bunlar xalq yaradıcılığının öyrənilməsi baxımından olduqca aktualdır. Qədim və orta əsrlərdə olduğu kimi yeni dövrdə də mövsüm və mərasim nəğmələrinin yazıya alınmasına xalq yaradıcılığını yazıya alan insanların böyük diqqəti və marağı olmuşdur. Mövsüm və mərasim nəğmələrinin, inam və inancların, ovsunların, magik elementlərin müxtəlif nümunələrinə Orxon-Yenisey

yazılarında, Mahmud Kaşqarlının məşhur "Divan"ında, müxtəlif dövrlərdə yazılan "Oğuznamə"lərdə rast gəlinir. Bununla yanaşı ayrıca olarqaq atalar sözlərinin yazıya alındığı "Əmsali-Məhəmmədəli", "Əmsali-Türkanə" və başqa bu kimi yazılı abidələrdə mövcuddur.

Söz sənətinin ümumdünya miqyasında mövzu və məzmun rəngarəngliyinə baxmayaraq, müxtəlif milli folklor nümunələrində oxşarlıqların, bəzən də eyniyyətin mövcudluğu konkret dəlil və faktlarla sübut olunmuşdur. Hər bir xalqın folkloruna müraciət etsək, onun nümunələrində insan əxlaqının, onun ictimai davranışının, qəhrəmanlıqlarının ən müsbət xüsusiyyətlərinin xüsusi bir sevgi ilə tərənnüm olunduğunun, haqsızlıq, ədalətsizlik kimi cəhətlərinin isə əksinə, sonsuz bir ikrah hissi ilə ifşa edilərək qamçılandığının şahidi olarıq.

S.Rzasoy yazır: "Folklor – xalqın yaddışıdır: fərd yaddaşı, etnos yaddaşı, millət yaddaşı və xalq yaddaşı...

Xalqın varlığı söz və sənət kodları ilə onun yaddaşında inikas olunur...

Yaddaş «qalar-qopar» dünyada «gəlimli-gedimli» ritmlə öz yaşamını gerçəkləşdirən xalqın fiziki-mənəvi mövcudluğunun fövqünə qalxır: yaddaşı yaradan xalqın mövcudluğu yenə də birbaşa onun yaddaşına müncər olunur...

Milli yaddaşda millətin tarixi bütöv xalqın taleyindən keçdiyi kimi, hər bir fərdin taleyindən də keçib gələcəyə gedir...

Folklor xalqın taleyidir: hər bir etnosun taleyi onun milli yaddaşa nə dərəcədə bağlılığından asılıdır. Yaddaşına qayıda bilən xalq onu millətlər içində millət edən zirvəyə qalxa bilir...

Hər bir xalqın bir millət kimi bütövlüyü, ölkə kimi tamlığı və təhlükəsizliyi etnokosmik yaddaşın onu hansı şəkildə ayaqda saxlamasından birbaşa asılıdır..." (4, s.3). Mövsüm-mərasim nəğmələri ritualların tərkib hissələrdir. Viktor Terner rituala belə bir tərif vermişdir: "Ritual – jestləri, sözləri, obyektləri əhatə edən hərəkətlərin stereotipik ardıcıllığıdır; xüsusi olaraq hazırlanmış yerdə icra olunur və icraçıların maraq və məqsədlərinə uyğun olaraq fövqəltəbii qüvvə və varlıqlara təsir etmək üçün təyin olunur" (14, s.32).

Azərbaycan folklorunun müxtəlif janrları içərisində mövsüm-mərasim nəğmələri xüsusi yer tutur. Mövsüm, mərasim, qəhrəmanlıq və məişət nəğmələri kimi, əmək nəğmələrinin də mətni təkrarlanan və sabitləşən tematik keyfiyyətlər qazandığından folklorun ayrıca janrı kimi öyrənilir. Hər nəğmənin özünün konkret əmək şəraiti ilə bağlı mövzusu, lakin fərqli poetik strukturu vardır.

Mövsüm-mərasim nəğmələri milli şifahi yaradıcılıq ənənələrini yeni mərhələyə yüksəltmiş, ağız ədəbiyyatını silsilə mövsüm və mərasim nəğmələri ilə zənginləşdirmişdir. Şifahi poeziyada şəkli xüsusiyyət baxımından rəngarənglik yaratmış, qəlibli, ölçülü poeziyanın erkən nümunələrinin formalaşmasının bir növ başlanğıcını qoymuşdur.

Qədim insanın şifahi yaradıcılığında əmək nəğmələrindən sonra mühüm yeri gündəlik məişətlə təbiəti dərketmə, ayin, etiqad və mərasimlərlə bağlı nəğmələr tutmuşdur. Təbii ki, həqiqi mahiyyətini dərk edə bilmədiyi hadisələrlə insan öz gündəlik həyatında tez-tez rastlaşmışdır. Bu hadisələr üzərində hökmranlıq idealı ilə yaşayan insanda onları qavramaq, başa düşmək, özünə tabe etmək duyğuları yaranmışdır. Bu duyğular isə insanın ilk inanc və etiqadlarını, ayin və mərasimlərini, magik düşüncəsini, eyni zamanda ovsunlarını yaratmış, həmin çoxcəhətli düşüncə şəcərələri özlərinin rəngarəng modelləri ilə şifahi yaradıcılıqda öz əksini tarmışdır. Ulu əcdadlarımız məişətində rast gəldiyi hadisələrə müxtəlif münasibətlər bəsləyərək onlarla bağlı silsilə nəğmələr yaratmışdır. Mərasim nəğmələri adı altında yayılan bu poetik nümunələr öz mövzu və məzmun xüsusiyyətlərinə görə iki qrupa ayrılır:

1. Mövsüm mərasimi nəğmələri;
2. Məişət mərasimi nəğmələri.

Mərasim nəğmələri arxaik düşüncənin, poetik ölçü və qəliblərin, poetik üslub və ifadə modellərinin ən erkən tiplərini ifadə edir, xalqların etik-estetik dünyagörüşünü, əxlaqı, ritual və etiqadlarını sistem halında ifadə edir. O, öz mühafizəkarlığı ilə də seçilir. Xalqın dili kimi, adət-ənənəsi, ritual sistemi də özünü aşınmalardan və rekonstruksiyalardan çox məharətlə qoruyur. Elə xalqlar vardır ki, onların mifoloji modelləri epos yaradıcılığı düşüncəsinin alt

qatı kimi unudulmağa, yaddaşlardan silinməyə məruz qalmış, lakin ritual sisteminə yaddaşda xələl gəlməmiş, uzun zaman ərzində o, özünün modern formasını qoruyub saxlaya bilmişdir. Azərbaycan mərasim nəğmələrində də bu ənənə güclü şəkildə mühafizə edilmişdir. Erkən estetik düşüncəni və məişət əxlaqi detallarını əks etdirmək baxımından mövsüm mərasimi nəğmələri iki şəkildə nəzəri cəlb edir:

a) Ayrı-ayrı təbiət hadisələri və etiqadlarla bağlı yaranan nəğmələr;

b) İlin müəyyən fəsillərində xalqın birgə əməyini yekunlaşdıran nəğmələr (5, s.218).

Ayrı-ayrı təbiət hadisələri və etiqadlarla bağlı yaranan nəğmələr içərisində yağışın yağması, günəşin çıxması, küləyin əsməsi, göyün guruldaması və oda, suya, küləyə, torpağa etiqadla bağlı nəğmələr xüsusi yer tutur. Bu nəğmələrdə ulu əcdad günəşi qızı, oğulu kimi ümumiləşdirir, çətin anda onu çağırmaqla baş verə biləcək fəlakəti aradan qaldırmağın mümkünlüyü ifadə olunur. Məsələn, günəşi çağırışla bağlı nəğməyə nəzər salsaq, əvvəla, bu nəğmədə çox qədim görüşlərdən olan antropomorfik təsəvvürün izlərini aydın görərik. Günəşi köməyə çağıran onu insaniləşdirir, sanki ona magik elementlər qatır:

Gün çıx, gün çıx,
Kəhər atı, min çıx.

İlkin təsəvvürə görə, günəş qırmızı rəngli kəhər ata minərsə, həm özünü tez yetirər, həm də bol istilik gətirər. İnsan onu tələsdirərkən öz arzusunu – günəşin özü ilə istilik gətirməsini ani olaraq arxa plana keçirir, istəyini gizlədir:

Oğlun qayadan uçdu,
Qızın təndirə düşdü,

– deyə günəşi fəlakət yerinə tələsdirir: Lakin elə buradaca insanın gündəlik məişətdə günəşə ehtiyacın zəruriliyi ilə bağlı duyğu poetikləşir, bu səma cisimlərini insan cildinə salır, onlarla ünsiyyət həqiqətini açıqlayır:

Keçəl qızı qoy evdə,
Saçlı qızı götür çıx.

Mifik təsəvvürlərə görə keçəl qız bulud, yağış, saçlı qız isə günəşin al şəfəqləri idi. Çağırışa cavab gəlməyəndə ünsiyyət modeli pozulmur, günəşin ləngiməsi insanın ümidini qırmır:

Gün getdi su içməyə,
Qırmızı don biçməyə.

Çağırışı günəşin cavabsız qoymayacağı inamı mətndə güclüdür. Elə bu inam da insanı həqiqətə qovuşdurur:

Gün özü yetirəcək,
Keçəl qızı araracaq.
Saçlı qızı gətirəcək.

İnam qalib gəlir. Günəş çağırışa isti nəfəsi ilə cavab verir, təbiəti oyadır, onu insanın istifadəsinə verir. Təbiət hadisələri ilə insanın ünsiyyətini əhatə edən bu tipli bədii nümunələrə mərasim poeziyasında tez-tez təsadüf olunur. İnsan müəyyən məqamlarda dəhşətli təbii qüvvələri ram edir, onlara sözün gücü ilə təsir göstərir, bir sıra hallarda isə insanı bu istəyə onun təbiət üzərində hakim olmaq idealı qovuşdurur.

Ədəbiyyat

1. Путилов Б.Н. Методология сравнительно-исторического изучения фольклора. Л.: Наука, 1976.
2. Леви-Строс К. Структурная антропология. М.: Глав. Ред. Вост. Лит., 1985.
3. Nərimanoğlu K.V. Özümüz və sözümüz. Bakı: Çinar-Çap, 2005.
4. Rzasoy S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. Bakı: Nurlan, 2008.
5. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə. Bakı: Çıraq, 2009.

С.Г.Иманова

Фольклор и магия: магическая типология календарных и обрядовых песен

Резюме

Фольклор и магия тесно связаны друг с другом. Магия - архаическая форма религии. Она является этапом в развитии общественного сознания. Магические жанры не умирают, они трансформируются в фольклорные жанры. В этом смысле календарные и обрядовые песни дают богатый материал для исследования магической типологии. Одним из фольклорных жанров являются календарные обрядовые песни. Календарные обрядовые песни - богатая кладезь памяти. Эта кладезь отличается также структурой магической памяти. Календарные обрядовые песни являются философским мировоззрением первобытного человека, жизненной летописью каждого народа. В этом смысле исследование календарных обрядовых песен народа, их мифологических корней и магических элементов, сохраненных в них, вызывает особый интерес.

S.G.Imanova

Folklore and magic: the magic typology of calendar and ritual songs

Summary

Folklore and magic are closely related to each other. Magic is an archaic form of religion. It is a stage in the development of public consciousness. Magical genres do not die, they are transformed into folklore genres. In this sense, calendar and ritual songs give rich material for the exploration of magical typology. One of the folklore genres are calendar ritual songs. Calendar ritual songs are a rich storehouse of memory. This is also distinguished by the structure of magical memory. Calendar ritual songs are the philosophical outlook of the primitive man, the life chronicle of each people. In this sense, the study of the calendar ritual songs of the people, their mythological roots and magical elements preserved in them, is of particular interest.

Rəyçi: filol.f.d., dos. A.X.Ramazanova

Redaksiyaya daxil olub: 17.07.2017

S.B.KAZIMOVA
e-mail: sevinckazimova15@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

LİRİK NƏSRİN POETİK MƏNZƏRƏSİ

Açar sözlər: *azad qadın, cəmiyyət, sevginin gücü.*
Ключевые слова: *свободная женщина, общество, сила любви.*
Key words: *free woman, society, the power of love.*

Lirik nəsrdə süjetin əsasını təşkil edən ideya gerçək həyatdan götürülmüş əsər, yaxud yazıçının öz təxəyyülünün məhsulu da ola bilər. Bəzən olur ki, müəllif reallaşmayan arzularını sevə-sevə yaratdığı qəhrəmanının simasında həyata keçirir. Bununla o, cəmiyyət içində yaranan bəzi çətinliklərin öhdəsindən gəlməkdə, bir növ, oxucuya çıxış yolu göstərir. Yazıçının emosional yaddaşı mürəkkəb assosiasiyalar zəncirinin başlanğıc nöqtəsi kimi çıxış edir. Beləliklə, süjeti yaradan lirik başlanğıc öz yerini almış olur. Müasir lirik nəsr fərdi üslub keyfiyyətlərinə malikdir. Gerçək həyatın təsvirində subyektiv başlanğıcın rolu əsasdır. Bu zaman yazıçının şəxsi təcrübəsi, həyatında baş verən müxtəlif hadisələr, təəssüratları bədii əsərin materialına çevrilir. Üslub rəngarəngliyi, özünəməxsus sənətkarlıq məziyyətləri, nəsr poetikasının çoxqatlılığı, mürəkkəbliyi və qeyri-adiliyi ilə seçilən lirik nəsr tədqiqatçıların yeni elmi mövzu, tədqiq predmeti və obyekti seçim edə biləcəkləri potensial bazaya malikdir. Obrazın və ya xarakterin bitkin, bütöv əhvalatlar sistemindən ibarət süjet lirik nəsrdə tam bir silsilə təşkil edən düşüncə və hisslərinin əmələ gətirdiyi həyəcanlarla xarakterizə olunan lirik süjetə çevrilir. Lirik nəsr süjet-kompozisiya strukturu baxımından lirik-epik hekayələrdən, povest və romanlardan fərqlənir. Onu ayrıca bir janr adlandırmaq olmaz, ən müxtəlif bədii formaların birləşməsindən yaranan üslub yalnız lirik nəsr üçün səciyyəvidir. Ədəbiyyatşünaslar lirik nəsrə sərbəst cərəyan kimi baxırlar və nüfuzedici lirikliyi bu axının əsas xüsusiyyəti hesab edirlər. Müxtəlif janrlarda, xüsusilə, romanda lirizmin fərqli çalarları, onların işlənmə nisbəti yazıçı mövqeyindən asılı olur.

Roman elə bir janrdır ki, daim oxucunun marağını izləyir, üslub sərbəstliyi ilə fərqlənir. Bunun üçün yazıçı romanını elə üslubda qələmə almalıdır ki, oxucu darıxmasın. Bəzən roman oxumaq bizə asan gəlir və onu adi bir yazı kimi qiymətləndiririk, halbuki, yaxşı romançı olmaq üçün istedadla yanaşı, həm də yaxşı nəzəriyyəçi olmaq labüddür. Düşünürük ki, yazar nəzəriyyə qaydalarını nə qədər dərindən mənimsəyirsə, sözsüz, o dərəcədə də onun romanı oxunaqlı, uğurlu olur. Ədəbiyyat söz sənətidir, təbii ki, onun nəzəriyyəsi də sözə verilən qiymətlə bağlıdır. Yazıçı əsərində hər sözü incəliklə seçməli, onun məna çalarlarında diqqətli olmalı, ideya, mətn, tərbiyəvi nümunə haqqında düşünməli, bədii, etik və estetik cümlələr qurmağa səy göstərməlidir. Çünki əsər təkcə danışılan əhvalatdan yox, həm də bütövlüklə bir bədii nümunə olmalıdır və ona qiymət bütün komponentləri ilə birgə verilməlidir. Qeyd etdiyimiz məziyyətləri nəzərə alaraq yazıçı Tahir Kazımovun "Ürək fəryadı" romanını onun növbəti yaradıcılıq uğurlarından biri hesab etmək olar. Tahir müəllim bu əsərini sevgi motivləri üzərində qələmə alıb, amma əsər boyu biz müxtəlif situasiyalarla, başqa - başqa mesajlarla da qarşılaşırıq. Belə ki, roman psixoloji cəhətdən yüklüdür, çünki yazıçı onu birnəfəsə yazıb, əsəri bir çox ideyalarla zənginləşdirməyə çalışıb. Əsərdə keçmiş SSRİ-yə, Azərbaycan-erməni münasibətlərinə, müxtəlif dinlərə, o cümlədən İslami dəyərlərə mesajlar var. Müəllif obrazların dili ilə oxuculara bir növ həm ictimai, həm siyasi, həm də mədəni düşüncələrini çatdırmağa nail olub. Əsərin dili emosionaldır. Buna səbəb isə əsərin bir şəxsin, sevən

qadının dilindən nəql edilməsidir. Yazıçı Nəzirənin taleyi ilə bağlı yazdığı məktublarında qadın duyğularını böyük məharət və incəliklə əks etdirmişdir.

Böyüklərimizdən həmişə eşitdiyimiz belə bir kəlam var: "Allah, heç bir insana öhdəsindən gələ bilməyəcəyi yük verməz". Belə ki, sevgi çox ağır yükdür, bu yükün öhdəsindən gəlmək isə hər insanın bacara biləcəyi iş deyil. Bəs görəsən, niyə yazıçı bu qədər ülvi bir hissdən bəhs edən əsərini sadəcə hamının anlaya, duya bildiyi adıyla - "Sevgi" adlandırmayıb, ona ahla "Ürək fəryadı" deyib? Ümumiyyətlə, araşdırsaq vaxtı ilə yazılmış o möhtəşəm sevgi əsərlərindən hansının adı elə sadəcə "Sevgi"dir? - Şəxsən biz "Sevgi" adlı əsər oxumamışıq. Bəlkə yazıçılar bu hissi öz adıyla verib, o ilahi hissi ucuzlaşdırmaq istəməyiblər. Əvəzində onu "Xosrov və Şirin", "Əli və Nino" və ya "Zahir"lə ifadə ediblər. Hərəsi sevgini bir başqa cür, başqa bir adla təqdim edib. Tahir müəllim isə fərqli olaraq əsərini "Ürək fəryadı" adlandırıb. Onun fikrincə sevən, amma sevdiyinə qovuşa bilməyən, yəni sevdiyi insan üçün hər cür fədakarlığa hazır olan şəxsin ürəyi sakit döyünə bilməz, o "fəryad edər". Ürəyin fəryadını əsərin süjet xətti çox ustalıqla anladır. Müəllif elə sözlər və ifadələrdən istifadə edir ki, sanki doğrudan da ürəyin səsi çıxdıqca, gücü yetdikcə fəryad etdiyinə, ürəyin də dili olduğuna, ən əsası ürəyin də ürəyi olduğuna inanırsan…

Romanın əsas qəhrəmanı olan Nəzirə sevdiyi Tərlanı həmişə ona qarşı olan biganəliyi ilə günahlandırır. Onun üçün əsil sevən də, əzab çəkən də məhz özüdür. Zaman keçdikcə Nəzirə Tərlanın ona olan məhəbbətinin saflığını duyur, amma həmişə öz sevgisini onun sevgisindən üstün tutur. Yazıçının da əsəri məhz Nəzirənin dilindən, onun fikri, baxışı ilə verməsi bizə deməyə əsas verir ki, bəli, Nəzirənin sevgisi Tərlanın hisslərindən daha güclüdür. Çünki o, Tərlanı tanış olduğu gündən, baxışları ilə sevib, onun haqqında nə danışsalar da, Tərlanın geri dönməsinə ümidi olmasa da, yenə də onu sevir, belə ki, ondan başqa heç kəs Nəzirənin marağında deyil. Əslində yazıçı Nəzirənin timsalında, qürurlu, özünü sevən, şəxsiyyətinə hörmət edən qadın həyatı boyu bir dəfə sevməlidir, fikrini aşılayır... Yazıçı ilə razılaşmamaq olmur. Tərlan isə Nəzirə müəyyən sınaqlardan keçdikdən, etibarlı olduqdan sonra ona daha böyük hisslərlə bağlanır. Əlbəttə, real həyatda da belədir. Qadın ilk gördüyü andan etibarən qarşısındakı insanı sevib-sevə bilməyəcəyini, ona bir ömür bağlı ola biləcəyini anlayır, kişi üçün isə bizcə, buna müəyyən zaman lazımdır. O, çoxuna vurula bilər, amma sevgisinə layiq olub-olmadığını zaman keçdikcə anlayar. Əgər biz qadın və kişi münasibətini yox, sevgisini müqayisə etsək, belə bir nəticə çıxara bilərik ki, qadın ilk görüşdən pis də, yaxşı da olsa, ömrünün sonuna kimi kişiyə bağlana və onu sevə bilər, amma kişilərdə yəqin ki, sevgidən əvvəl vurğunluq, saf-çürük etmə mərhələsi baş verir. Feminist bir iddia olsa da, çox maraqlıdır ki, bu fikir yazıçınındır, həm də oxucunun gəldiyi qənaətdir. Nəzirə həyatda çox çətinliklərlə üzləşirsə də, bütün sınaqlardan üzüağ çıxır. Onu da qeyd etmək lazımdır ki, Nəzirədə milli adət-ənənəmizə uyuşmayan bəzi xasiyyətlər də var. O, atası ilə, ətrafındakı kişilərlə sərbəstdir, hərdən açıq-saçıq, ailəsi ilə məanışır, ailəsi ilə məsləhətləşmədən qərarlar qəbul edir və s. Fikrimizcə, bir azərbaycanlı qızının mübarizəsinə həsr olunmuş əsərdə ailə və cəmiyyət mühiti necə varsa, elə də təsvir olunmalıdır. Nəzirə kimi həyat sürən və onun kimi fikirləşən qadınlarımız düzünü desək, XXI əsrdə barmaqla sayılacaq qədər azdır. Bu səbəbdən düşünürük ki, Nəzirəni ümumiləşmiş bir qadın obraz kimi yox, sırf xarakter kimi qiymətləndirmək lazımdır. Hətta əsərin yazılmasından çox illər keçsə də, Nəzirə tipik obraz deyil. Azərbaycanda Nəzirə kimi düşünən və həyat sürən qadınlar çox azdır. Bəlkə də yazıçı Nəzirə obrazını özünün cəmiyyətdə arzuladığı və görmək istədiyi qadın kimi göstərməyə çalışıb. Yəni belə bir nəticəyə gəlmək olar ki, Nəzirə obrazı nə qədər xarakterik qadın obrazı olsa da, o, milli olduğu qədər müasir və beynəlmiləldir. Belə ki, ondan Avropa qadınının "iyi" duyulur. O qədər çılğın, o qədər emosionaldır ki, hər hadisə onun aləmində başqa cür yozulur. Əzab çəkir, heç kimi dinləmir, ağlına min fikir gəlir. Çox vaxt inanmır, haqq qazandırmır, tərk edilməsini, atılmasını özünə sığışdırmır. Tərlanı hər dəfə başqa cür qarşılamağa çalışır. Gah onu qayıtdığı gün bıçaqlayır, öldürür, fikirdən fikrə düşür, hər gün yuxularında

onun başına nələr gələ bilər, deyə fikirləşir... "Sevən sevdiyini atmaz, xəbərsiz onu tərk etməz" [1, 358] - deyə düşünür, amma onu unuda bilmir... Nə qədər güclü və dözümlü olsa da, Tərlanı unudacaq, ondan uzaqlaşacaq cəsarəti Nəzirə özündə heç vaxt tapmır. Onun yolunda ürək xəstəliyi tapır, psixi vəziyyəti zəifləyir, pozulur, yenə də dözür. Bəlkə də Tərlandan vaxtında ayrılsaydı, onun həyatı daha yaxşı və ya daha pis olacaqdı, bunu bilmək olmazdı. Amma Nəzirə Tərlansız həyatı qəbul etmir...

Latın Amerikan yazıçısı Paulo Koelyo "Zahir" adlı əsərində yazır: "Eşq əhliləşdirilməmiş qüvvədir. Ona nəzarət eləməyə çalışanda bizi yox eləyir. Onu həbs eləməyə çalışanda o bizi əsir alır. Onu anlamağa can atanda bizim özümüzü itirmiş, çaşqın adama çevrilmiş kimi hiss eləməyimizə səbəb olur" (4, s.191). Sevən adamdan hisslərinə boyun əyməməyi gözləmək düzgün deyil, çünki onun sevgisi bütün başqa hisslərindən üstündür. Nəzirə bəzən inanmır, beyninə şübhələr dolur, qısqanclıq onu bürüyür, amma yenə də sevgisi bütün başqa hisslərinə güc gəlir. "Zahir" "Ürək fəryadı"ndan fərqli olaraq onu tərk etmiş arvadının izinə düşən bir yazıçının həyatından bəhs edir. Əsərdə ər özünü qınayır, arvadı niyə sevgini başqa kişidə axtarır, görəsən indi o, haradadır? "Ürək fəryadı"nda isə sevgilisinin yolunu gözləyən bir qadın mənəvi əzab çəkir. Oxşarlıq ondadır ki, hər iki obraz sevir və dözümlə gözləyirlər. Bu əsərləri müqayisə zamanı başqa-başqa millətlərin adətləri, milli xarakterləri arasındakı fərqləri aydın görmək mümkündür. Heç vaxt öz sevgisini qadınına büruzə verməyən yazıçı arvadı onu tərk etdiyi zaman dərin kədərə bürünür. Onu sevdiyini itirdiyi zaman anlayır. Həm də həyat yoldaşının başqa kişi ilə birlikdə getməyi onu dərin hüznə qərq edir. Arvadını axtarmağa başlayır, onsuz yaşaya bilmədiyini düşünür. Lakin fikirləşir ki, bir gün tale onları qarşılaşdırsa, onda arvadı Zahiri sevmədiyini, onunla qayıtmayacağını deyərsə, onu sərbəst buraxacaq. Yəni bir tərəfdən də qadının başqa kişiyə sevgisinə hörmətlə yanaşır. Fikirləşək, bizim cəmiyyətimizdə bu mümkündürmü? - Əlbəttə, yox! Qadın hətta istəyi, sevgisi ilə yox, ailə zoru ilə evlənsə də, öz ərinə sadiq qalmalıdır, başqasını sevə bilməz! Bu baxımdan biz, sadəcə olaraq yaşadığımız mühitdə bəziləri üçün sevginin heç bir əhəmiyyəti olmadığını deyirik. Bizim düşüncəmizdə sevdiyini söyləmək, etiraf etmək günahdı, ayıbdı. Bəs niyə? Əgər insanlar bu cəmiyyətdə açıq şəkildə bir-birinə düşmən ola bilirlərsə, nifrətlərini rahat şəkildə büruzə verirlərsə, öz düşüncələrini bir tərəfə qoyub ancaq başqalarının həyatını müzakirə edirlərsə və bütün bunlardan utanmırlarsa, bəs niyə demokratik cəmiyyət onları qınamır? Müəllif də bu psixoloji mühiti mahircəsinə əks etdirib. Nəzirənin haqqında söz-söhbət yayan qonşuların demək olar ki, heç birinin normal ailəsi olmayıb. Hərəsi bir cür xəyanətkardır. Və rəsmi şəkildə ailəli olmaya-olmaya sevgilisini sədaqətlə gözləyən bir qadın onları qıcıqlandırır. Yazıçı sevimli obrazı ilə cəmiyyət içərisində yaşayan, öz məqsədini, gələcəyini, sevgisini, şəxsi həyatını düşünən bir azad qadın fenomeni yaratmışdır. Reallığı tam olmasa da, bu obrazı çox uğurlu hesab etmək olar. Nəzirə istisnadır, amma cəmiyyətə yaxşı mənada dərs verə biləcək istisnadır. Bu istisna ilə bir az da olsa, hələ Nizaminin əsərlərindən bu günədək rastlaşırıq. İbn Səlama sillə vuran Leyli ədəbiyyatımızda ilk istisna qadın obrazıdır. XII əsrdə qadının öz ərinə sillə vurması bizim üçün əsil titrəyiş, oyanma idi. Niyə Nizami Leylini belə qələmə almışdı? Axı o, dahi, həm də cəmiyyətin müdrik şəxsiyyəti idi. Görəsən, qadınların heç bir hüququ olmayan cəmiyyətdə Nizami niyə Leylinin daxili hisslərinə qiymət verirdi? O da eyş - işrətdən yazardı, antik yunan şairləri kimi qadınları insandan başqa hər cür məxluqata bənzədərdi. Bəs niyə o, qadına azadlıq tələb etdi, ona yüksək qiymət verdi? Söz yox, çox təəssüf ki, onun verdiyi qiymət elə "Xəmsə"də qaldı. Yenə də qadınlar ruhsuz, hissiz, qul sayılırdı...

C.Cabbarlı XX əsrdə SSRİ mühitinə kinayə ilə gülürdü. Hansı dövlət ki, - "Mənim vətəndaşım azaddır!", - deyirdi. Cabbarlı da bu fikri, cəhalət dövrünü heç bir əsərində inkar etmirdi, sadəcə göstərirdi və əslində, hansı azadlıqdan söhbət getdiyini duyan anlayırdı. Sevil azad idi, əsil sovet vətəndaşı idi, öz azadlığı uğrunda hamını, hər şeyi tərk edə bilərdi. Cabbarlı bu azadlığı həm alqışlayır, həm də istehza edirdi. Çünki bizim düşüncəmizdə çox təəssüf ki, azadlıq tərk etmək, çıxıb getmək, heç kimə hesab verməmək anlayışıdır. Halbuki, azadlıq

hər istədiyini etmək, mənən heç nəyə cavabdeh olmamaq deyil. Azadlıq sadəcə öz həyatını doğru qurmaq, təkbaşına hər çətinliyin öhdəsindən gəlməyə çalışmaq, şəxsi qərarlarını verə biləcək ağıla sahib olmaq, hər zaman sevimli ailənin dəstəyi, milli adət-ənənənin ruhu ilə düzgün yaşamaqdır. Məhz belə yaşamaq Nəzirənin seçimi idi. O, heç kimlə hisslərini, qərarlarını müzakirə etmir, onlardan dəstək gözləsə də, öz ağlı ilə hərəkət edirdi. Yəni azad olmaq ilk növbədə ağıllı olmaqdır. Ağıllı insan azaddır. Bu azadlığın şəxsi tərəfi, bir də milli ənənə, cəmiyyət tərəfi var. Hələ görək cəmiyyət səni azad buraxacaqmı? Yazıçı bizim yaşayış tərzimizi çox yaxşı bilir. Bilir ki, valideynlər bizim həyatımızın sonuna qədər bağlı qaldığımız qüvvədir. Əgər əsərdə Nəzirə əmisinin yox, ata və anasının himayəsində böyüsəydi, bizcə, hadisələr tamamilə başqa cür cərəyan edərdi. O, bu dərəcədə sərbəst olmazdı. Məhz bu səbəbdəndir ki, yazıçı azad və öz həyatını özü quran bir qadın obrazı yaratmaq istədiyi üçün, onun ilk zəncirlərini özü qırmalı idi ki, sonrakı halqalar daha rahat qırılsın. Təbii, ən böyük azadlıq ailənlə birlikdə olub, onların düşüncələrinə hörmət edib azad yaşamaqdır. Lakin bu, hələ də bizə yad olduğuna görə yazıçı belə bir süjet düşünmüşdü. Nəzirə əgər ana və atası həyatda yaşaya - yaşaya bu cür sərbəst olsaydı, bu absurd olardı. Bizim düşüncələrimizə görə, belə bir şey mümkün deyil. Nəzirə obrazının xoşbəxtliyimi, bədbəxtliyimi? - deyə bilmərik, amma o, valideynsiz böyüdüyü üçün heç kimdən asılı deyil. Düzdür, onu böyüdən ailəyə, ögey bacılarına həmişə qayğılı və minnətdardır. Heç vaxt onları pis vəziyyətdə qoyacaq bir addım atmır. Hər zaman onların dəstəyi ilə hərəkət etməyə çalışır. Yazıçı elə gözəl şəkildə azad bir qadın obrazı yaradıb ki, onun sonda istəyinə çatması, öz ağlı ilə hərəkət edərək yolundan dönməməsi çoxları üçün örnək olmalıdır.

Hər faciə ilə bitən sevgidə müəlliflər oxucular vasitəsi ilə kimlərisə qınayırlar. Ya deyirlər ki, ay valideyinlər, sizin bu qurtarmaq bilməyən kininiz, düşmənçiliyiniz, sosial və maddi təbəqə iştahanız sevənləri bədbəxt etdi, ayırdı, indi rahat olun və "xoşbəxt" yaşayın. Ya da ayrı-ayrı millətlərə səslənirlər ki, görün sizin bu fərqli dinləriniz, dilləriniz, rənglərniz sevənləri nə günə qoydu? Həmin yazıçılar göstərmək istəyirlər ki, sevgidə din, dil, rəng, təbəqə önəmli deyil, sevgi, ruh, ürək, qəlb işığıdır. Əfsus ki, bu qlobal problemlər hələ də sevənlərə əngəldir. Bu əngəli aşmaq, əlbəttə, çox çətindir və təbii ki, belə problemlərin həlli olmayan bir cəmiyyətdə nə Əsli ilə Kərəm, nə də Romeo və Cülyetta bir-birilərinə qovuşub xoşbəxt ola bilməzlər. Bəlkə də, elə buna görə Tahir müəllim oxucularına eyhamlamaq istəyib ki, axı onun qəhrəmanları eyni qandan, eyni millətdəndirlər, onların ailələri arasında nə bir düşmənçilk, nə də təbəqə fərqi var, bəs niyə onlar bir-birilərinə qovuşmamalıdırlar? Niyə hamı sevənlərə qarşı çıxmalıdır? Nizami, Füzuli Leyliylə Məcnunu ona görə bir-birinə qovuşdurmadı ki, onların cəhalət aşılayan cəmiyyətlərində sevgini anlayan kimsə yox idi və onlar o cəmiyyətdə heç vaxt xoşbəxt ola bilməzdilər. Axı müasir dövrdə, sivil ölkədə bu baş verməməlidir, sevənləri artıq hamı anlamalıdır və onlar xoşbəxt olmalıdırlar. Buna görə də yazıçı əsəri nikbin sonluqla bitirir, çünki onun müasir həyata inamı böyükdür, inanır ki, indi sevənləri anlayanlar çoxdur, cəmiyyət, sosial təbəqə, quruluş artıq heç kəsin qarşısında maneə ola bilməz...

Frederik Beqbeder özünün "'Məhəbbət üç il yaşayır" əsərində "Məhəbbət - döyüşdür, əvvəlcədən uduzulmuş döyüş" (3, s.68) - deyir. Onun qəhrəmanı əsil sevginin insanın həyatı boyu davam etməsinə inanmır. Birinci il hər şey qaydasındadır, ikinci il sevgi öz yerini nəvazişə verir, üçüncü il isə artıq siz başqa qadınlara meyillənir, sevgi bitir və başqa sevgi başlayır. Yazıçı təbii ki, əsərində fransız mühitini təsvir edir. Amma maraqlısı budur ki, o, bu fikirlərini bütün kişilərə aid edir. Onun fikrincə, kişilər bir qadını üç ildən artıq sevə bilməz. Həmin qadın gözdən düşür, buna səbəb isə qadının özüdür. Əsərin sonunda bir qadını artıq üç il bitmiş olsa da, sevməyə davam edən obraz, bunun səbəbkarı kimi yenə də qadını göstərir. Sevdiyi qadın Alisa ürəyincə olduğu üçün onu sevir, başqasını sevsəydi, çoxdan sevməkdən bezmişdi. Əsər boyu müdafiə etdiyi fikirləri sonda təkzib edən müəllif, əslində sevginin bütün maneələri qırdığını deməyə cürətlənir. Belə ki, ömrün boyu bir doğrunu seçib onunla yaşaya bilərsən, elə bu doğru ilə də hamını qiymətləndirə bilərsən. Amma unutmaq

lazım deyil ki, gün gələr qarşına elə bir insan çıxar ki, doğru bildiklərin yalana, yalanların doğruya çevrilə bilər. Alisa onun doğrusu idi və bütün yalanlarını məhv etmişdi..

Tərlanın doğrusu isə Nəzirə idi. Ancaq xidməti ilə yaşayıb ruhlanan Tərlan, həyatın mənasının əslində tamamilə başqa olduğunu görür, sevgi və ailə nə deməkdir, onu anlayır... Əsərdə SSRİ-nin daxili və xarici siyasəti, baş verən hadisələr də ustalıqla verilib. SSRİ və dinə münasibətdən danışan Nəzirə, o dövrdə insanların əslində hər cür azadlıqlarına məhdudiyyət qoyulduğunu demək istəyir. Vicdan azadlığı insanların haqqı olan ən birinci hüquqlardandır, vicdan azadlığının olmadığı bir ölkədə rahat həyatdan necə danışmaq olar? Millətimiz bu dövlətin tərkibində illərcə nə rahat, sərbəst bayramlarını keçirə biliblər, nə də Allahlarına dua edə biliblər. Məscidlərimiz anbarlara çevrilib, unutdurulub, bütün adətlərimiz yaddaşlarımızdan silinib. Təkcə bu deyil, dilimizi də unutdurublar bizə. Azərbaycan dilində danışmağı ayıb kimi qəbul ediblər. Rusların bizə qarşı ən böyük "həyasızlığı" ermənilər bizim torpağımızda yerləşdirmək olub. Onlar isə illərlə bizə qarşı mənfur niyyətlərini həyata keçirmək üçün yaşayıblar və millətimizi yer üzündən silməyin yollarını axtarıblar. Ruslar neftimizə, qazımıza, ermənilər isə torpağımıza göz dikiblər. Əsərdə İyirmi yanvar faciəsinin təsviri də öz əksini geniş tapıb. Tərlanın illərcə xidmət etdiyi, canını qurban verməyə hazır olduğu o dövlət indi xalqa qan qusdururdu. Belə dövlətə xalqın artıq heç bir inamı qalmamışdı. İllərcə inandıqları hökumətin əslində maska altında gizləndiyini görən insanlar, - artıq heç bir qüvvə bu millətin qarşısında dayana bilməzdi. Həm də o hökumət Teymurxan kimi Vətənə xidmət edənləri də didərgin salmışdı. Müharibədən sonra çoxları öz torpağına qayıda bilməmişdi. Milləti Vətən, Vətən deyə müharibəyə aparan hökumət çox övladın atasız böyüməsinə, çox ailələrin faciəsinə səbəb olmuşdu. Nəzirə əslində dinlər arasındakı çəkişmələrin mənasızlığını göstərməyə çalışır. Dilində və qəlbində Allah sevgisi, Allah evində duasını əskik etmir. Bakıda məsciddə Allaha yalvarır, ondan kömək istəyir, Tərlana qovuşmağı diləyir. Bir müsəlman kimi Allahın onu eşidəcəyinə, kömək edəcəyinə inanır. Xristianların yaz bayramı zamanı kilsəyə gedən Nəzirə yenə eyni dualarını edir, insanların qınağından çəkinmir, onun üçün kilsə, məscid fərqi yoxdur, eynidir, Allah evidir. "Xristianların Allahı başqa, müsəlmanlarınkı başqa deyil ki. Hamını bir Allah yaradıb, O da insanların seçiminə qarışmayıb. Əsas insanın inamıdır, sevgisi, niyyətidir. Gərəklidir ki, Allahın varlığına, təkliyinə inanasan" (2, s.426). Amma Nəzirənin Hindistanda Krişnaya yalvarışı birmənalı qarşılana bilməz. Çoxları bəlkə də onun bu hərəkətini qəbul etməz. İslam, xristian etiqadları, müqəddəs kitabları səmavidir. Onları qəbul edənlər Allahın təkliyinə inanır. Amma hindistanlıların etiqadı haqqında eyni şeyi demək olmaz. Bəlkə də Nəzirəni hər yerdə dua etməyə məcbur edən onun Tərlansızlıq çarəsizliyi idi? Hindistana getməsi də bir möcüzə idi - bəlkə də Nəzirənin yuxuları idi onu bu səfərə sövq edən. Bu möcüzəli ölkədə səyahət zamanı o həm də Teymurxanı tapdı, tanıdı, sonra onun Tərlanın atası, əsil Tərlan olduğunu öyrəndi…

Tahir müəllim əsər boyu Azəri qadınını bütün xarakteri, hər mənəvi keyfiyyəti ilə göstərməyə çalışır. Bəzən qınayır, bəzən alqışlayır. Amma onun böyüklüyü, əzəməti qarşısında sanki özü də diz çökür. Nəzirənin bitib tükənməyən sevgisi, hər zaman ailəsini qoruyub saxlamağa çalışması, övladlarına aşıladığı tərbiyə ilə bütün dünya qadınlarına örnək olmasını sübüt edir. Bəlkə də əsərin əsas ideyası da budur. Hər gün xəyanət, etibarsızlıq, sədaqətsizliklə qarşılaşdığımız, kimə güvənəcəyimizi bilmədiyimiz, səmimiyyətimizin gündən - günə tükəndiyi, fiziki cəhətdən sağlam görünsək də, mənən əriməyə üz tutduğumuz bu cəmiyyətdə hələ də sevginin müqəddəs olduğunu, öz varlığını, ecazkarlığını, itirmədiyini göstərməyə çalışıb yazıçı... Bu gün bəzi insanlar o dərəcədə bədbindirlər ki, ömürləri nazik sapdan asılı ölümcül xəstə kimi... O dərəcədə naşükürdürlər ki, bütün orqanları iflas etmiş iflic kimi... Bəzən o qədər kordurlar ki, sanki bütün dünya qaranlıqmış kimi... Elə sevgisizdirlər ki, bu hiss heç yoxmuş kimi... Başlarını qaldırıb səmaya baxmırlar, həqiqətə inanmırlarmış kimi... Bəzən sanki yaşamırlar... həyat yoxmuş kimi... Amma yaşamaq bu deyil ki, yaşamaq bütün çatışmazlıqlara baxmayaraq mübarizə aparmaq deyilmi? Əgər başqaları günəşi, səmanı, hə-

qiqəti görmürlərsə, biz də onlar kimi hər şeyə gözlərimizi qapamalıyıqmı, rahatınımı seçməliyik? Yoxsa hər nə olursa olsun inandığımız yolla irəliləməliyik?... Nəzirə də bir yolçu idi, yavaş - yavaş irəliləyirdi öz yolunda, yolunu mənəviyyatsızlıqdan təmizləyə - təmizləyə... Həyatını sanki ilmə - ilmə, naxış-naxış yenidən toxuyurdu, bütün düyünlərini açaraq... O, sevirdi, əzab çəkə - çəkə, hər dəfə yenidən başlayaraq, hər dəfə sona çataraq... Arada dönə - dönə sevgilisinin varlığını unutmaq istəyərək, məqsədinə çatmaq üçün yenidən sevirdi, təkrar sevirdi.

Ədəbiyyat

1. Kazımov T. Ürək fəryadı: Roman. 2 cilddə, I cild. Bakı: Sabah, 2001.
2. Kazımov T. Ürək fəryadı: Roman. 2 cilddə, II cild. Bakı: Nurlan, 2006.
3. Frederik Beqbeder. Məhəbbət üç il yaşayır. Bakı: Qanun, 2012.
4. Paulo Coelho. Zahir. Bakı: Qanun, 2012.

С.Б.Кязимова

Поэтический пейзаж в лирической прозе

Резюме

В этом образце лирической прозы художественное повествование выражено настолько сильно, что в каждой строке чувствуется душевный крик основного героя. С большим мастерством описаны волнения, скорбь, бьющееся сердце, страдания и материнская любовь любящей женщины. Основной герой - эта женщина нежная, но она с твердым характером, большой силой воли, и она готова одна бороться с целым обществом. В этой борьбе ее единственное оружие - терпение и глубокая настоящая любовь. Содержательный сюжет и композиция, симпатия автора по отношению к образам и духовный мир личности, стоящей против общества - все это еще раз утверждает повествовательную субъективность лирической прозы. В отдельных эпизодах этого романа показаны отношения между Азербайджаном и Арменией, исламские ценности, особо выражены законы общественного поведения - которые усиливают эмоционально-эстетическую силу произведения.

S.B.Kyazimova

Poetic scenery of lyrical prose

Summary

In this sample of lyrical prose literary narration is expressed so strongly that in each sentence the reader can feel the sorrow of the main character. All the excitement, pain, efforts of loving woman and her maternal love are described with great skill. The main personage - the woman is gentle, but with a strong character, a strong-willed, and she is ready to fight with the whole society. In this struggle her weapons are just the patience and a deep true love. Substantial plot and composition, author's sympathy to the characters and their spiritual world which stands against society - all of these elements once again affirms the subjectivity of lyrical prose. In particular episodes of novel writer describes the relation between Azerbaijan and Armenia, also Islamic values, and the laws of social behavior are expressed in a very special way, so these aspects enhance the emotional and aesthetic effect of the written work.

Rəyçi: dos. S.F.Mirzəyeva

Redaksiyaya daxil olub: 29.06.2017

F.M.MƏMMƏDOV
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: azerb.lit.bsu@hotmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

İSİ MƏLİKZADƏNİN HEKAYƏLƏRİNDƏ FACİƏVİLİK PROBLEMİ

Açar sözlər: *İsi Məlikzadə, hekayələr, faciəvilik, altmışıncılar*
Ключевые слова*: Иси Меликзаде, рассказы, трагичность, писатели - шестидесятники*
Key words: *İsi Melikzade, stories, tragedy, the sixties*

İsi Məlikzadənin nəsrində XX əsr Azərbaycan kəndinin və insanlarının təsviri əhəmiyyətli yer tutur. Yazıçı gənc yaşlarından kəndi tərk etməsinə, kənddən nisbətən uzaq şəhərli ixtisasına - mühəndis-neftçi peşəsinə yiyələnməsinə baxmayaraq, kəndi bir an belə unutmamış, tolstoysayağı, şukşinsayağı şəhərli gözü ilə doğma yurdu, «kiçik Vətəni» dərindən və hərtərəfli təsvir etmişdir. Kəndin ən kiçik, bəzən gözə görünməyən, dərin qatlarda gizlənən problemləri, qayğıları yazıçının nəzər-diqqətindən kənarda qalmamışdır. Bu xüsusiyyət ilk növbədə İsi Məlikzadənin doğma yurda böyük məhəbbətindən, kəndin gələcəyi üçün keçirdiyi narahatlıqdan irəli gəlirdi. Yazıçının XX əsrin 70-80-ci illərdə yazdığı hekayələrin əsas qəhrəmanları Azərbaycan insanıdır. Həmin qəhrəmanların yaşadıqları problemlər bu gün də aktuallığını itirməmiş və müxtəlif səbəblərdən daha da kəskinləşmişdir. İsi Məlikzadənin hekayələrində mövzu qıtlığı hiss olunmur. O, ən müxtəlif mövzulara müraciət etmişdir. İlk baxışdan müəllif hədsiz dərəcədə koloritlidir, fərdidir. Eyni zamanda yazıçı klassik Azərbaycan ədəbiyyatının, o cümlədən, Y.V.Çəmənzəminlinin, Ə.Haqverdiyevin, N.Vəzirovun, C.Məmmədquluzadənin hekayə ənənələrini layiqincə davam etdirmişdir**.** Fikrimizcə, İsi Məlikzadə XX əsrin 60-90-cı illərində Azərbaycan ədəbi mühitinin yetişdirdiyi Ə. Haqverdiyevdir, Y.V.Çəmənzəminlidir. Digər tərəfdən yazıçının əsərlərində ideoloji təsir hiss olunmur. Baxmayaraq ki, hekayələrin əksəriyyətinin mövzusu kənd həyatından, kolxozdan, sovxozdan götürülmüşdür. İsi Məlikzadənin hekayələrindəki ideoloji məqamlar bütünlüklə həqiqət, bədiilik kateqoriyalarının içərisində əridilir, dəyişdirilir və sonda "məhv edilir". Bu da yüksək yazıçı realizminin, sənətkarlığının nəticəsidir, zirvəsidir. "İsi Məlikzadə kəndinin vöə ümumən quruluqdan- sünilikdən uzaq olan təbii, sımimi və həssas sənətkardı. Bu onun yaradıcılığına zənginlik gətirən ən böyük məziyyətlərdəndi. Sənətin mühüm tələb və şərtlərdən sayılan canlı dil- fikrin, hissin, təsvirin o dillə ifadəsi işinin, demək olar ki, bütün yaradıcılığı üçün aparıcı istiqamət idi" (7, s.65).

Yuxarıda göstərdiyimiz kimi, yazıçının hekayələri 70-80-ci illər Azərbaycan cəmiyyətinin problemlərini qabarıq şəkildə əks etdirir. «Duz» hekayəsinin süjet xətti sadə və aydındır. Artıq İsmayıl Şıxlının «Dəli Kür» romanında göstərildiyi kimi ən ucqar kəndlərdə yaşayan kəndli balalarının müxtəlif vasitələrlə oxumağa göndərilməsi təcrübəsinə son qoyulmuşdur. Kəndli balaları həvəslə müxtəlif şəhərlərə üz tutur, təhsil alır, cəmiyyətdə yüksək mövqe tutur, müxtəlif ziddiyyətli məqamlarla qarşılaşırlar. Eyni zamanda sovet hökumətinin cəmiyyətin müxtəlif təbəqələri üçün yaratdığı imkanlardan məharətlə istifadə edirlər. «Atalar və oğullar» mübarizəsində yeni problemlər – mənəviyyat problemləri yaranmağa başlamışdı. Şair Əli Kərimin XX əsrin 60-cı illərində «Qaytar ana borcunu» şeirində təsvir etdiyi gənclər fərdilikdən, "azlıqdan" kütləviliyə, çoxluğa keçmiş, daha amansız, qəddar, hiyləgər formalarda təzahür edirdilər. "Duz" hekayəsinin qəhrəmanı Seymur Bakıda imtahanlarını verib qış tətilinə gəlmişdi. Poçtalyon işləyən atasının, evdar qadın olan anasının, iki balaca bacısının vəziyyəti, dolanışığı onu qətiyyən maraqlandırmırdı. Daha çox pul qopartmaq istəyirdi.

«Dedilər, orta məktəbi qurtaranda sənə bahalı kostyum alacayıq, əvəzində altmış manatlıq ucuz kostyum aldılar. Dedilər, instituta girsən sənə qol saatı alacayıq. Almadılar. Saat üçün cəmi-cümlətanı iyirmi beş manat göndərdilər. İndi də… pulları yoxdur, mənə nə! Hardan tapırlar-tapsınlar. Nə vaxta qədər qorxa-qorxa, qənaətlə xərcləyəcəm? … Atam məni ötürməyə də gəlmədi… Verdikləri otuz manatı Bakıda poçtla geri göndərəcəyəm» (9, s.48).

Seymurun qəribə monoloqu 70-80-ci illər gənclərinin səciyyəvi xüsusiyyətlərini özündə ehtiva edir. Anası Seymuru qapıya qədər yola saldı. Məhəbbət dolu baxışlarını ondan çəkmədi: «Arıqlayıb Seymur. Rəngi də ağarıb. Ağız-burnu nəcibləşib. Yəqin çətinlik çəkir, doyunca yemir. Neyləsin yanında anası yox, bacısı yox» (9, s.48).

Əslində Seymuru nə atası, nə anası, nə də bacıları maraqlandırırdı. Seymurun dərdi pul dərdi idi. Mümkün qədər çox pul qopartmaq istəyirdi. Onu təkcə pul maraqlandırırdı. Seymur oğlunu yola salan ananın təbəssümünü gözlərində qoydu. Dartıb pulu anasının əlindən aldı. Pulun azlığını görəndə sanki dünya gözlərində qaraldı. Ayrılıq dəqiqələrindəki süni kövrəkliyi bir anda əriyib yox oldu. Özünü digər imkanlı şəxslərin övladları ilə müqayisə etdi. Ata-anasının qabarlı əllərini, məzlum görünüşünü, fəryadını unutdu. «Görəsən, əlavə pul göndərəcəklərmi» - deyə düşündü. Nə anasının acizanə yalvarışları, nə də atasının səhərdən axşama qədər bir parça çörək üçün qapılara ayaq döyməsi ona təsir etmədi. Qapını zərblə çırpıb maşına oturdu. «Uşaq oxudan elə olar. Oğlunu öz maşınında stansiyaya göndərir. Mən də onun qoltuğuna qısılmışam. Mənim atam … Firuzənin ərinə yazığı gəldi. Cansız-cəsədsiz kişinin bu yağışlı, küləkli gündə palçığa batıb qalacağından qorxdu» (9, s.47).

Ancaq Seymur yenə də pul haqqında düşünürdü. Təsadüfən onlarla qarşılaşan adamın əl qaldırmasına fikir vermirdi. Sürücü maşını saxladı. Firuzə tez-tez yıxılsa da, ayağa durub, təzədən qaçırdı. Seymur düşündü: «Yəqin pul gətirir. Qoy gətirsin». Yazıq ana nəfəs ala bilmirdi. Tez özünü maşına yetirdi. Ana ovcunda tutduğu bükülü kağızı Seymura uzatdı. Oğlan kağızı əlinə alıb barmaqları ilə yoxladı. Firuzə sanki son nəfəsini topladı. Sözləri güclə söylədi: "- Sənə zənbildə … soyutma toyuq … yumurta qoymuşam … Duz yadımdan çıxmışdı. Elə yerə qoy … islanmasın. Seymur ağzını geniş açıb ciyərdolusu hava udan anasının göyərmiş nazik burnuna baxdı. Onun üzündəki ifadəni yağış tellərinin arxasından sanki daha aydın görmək üçün gözlərini qıydı. «Bunlar məni dolayıblar. Bunlar məni adam saymırlar. Oğlan əlindəki kağız bükülüsünü yerə çırpıb, qapını zərblə çəkdi. Maşın tərpəndi. Təkərlərdən qopan horra palçıq yola səpilmiş ağ duzun üstünü tamam örtdü» (9, s.49).

Yuxarıda göstərilən sətirlər valideyn-övlad münasibətlərinə tam aydınlıq gətirdi. Seymur ali təhsil almasına, böyük şəhərdə yaşamasına, ən müxtəlif tipli insanlar görməsinə, kifayət qədər gənc olmasına baxmayaraq (onun həyatı hələ qabaqdaydı) nadanlığın, laqeydliyin, unutqanlığın, nankorluğun zirvəsində möhkəm qərar tutmuşdu. Özünü ata-anasından, elindən, obasından ayırmışdı. Çingiz Aytmatovun sözləri ilə desək, «yadlaşmışdı, ən ülvi insani hissləri itirmişdi, manqurtlaşmışdı». Seymur anasının qaça-qaça gətirdiyi bir çimdik duzu tapdamışdı, palçığın içinə çırpmışdı. Azərbaycan xalqının qədim inanclarına, adət-ənənələrinə görə duz, çörək müqəddəsdir. Onu tapdamaq ən böyük günah, bağışlanılmaz səhvdir. Əgər həmin duz-çörək atanın, ananın əlindən alınıb yerə çırpılırsa, bu minqat günahdır. Duz-çörək açmayan qapını heç nə açmaz, söyləyib atalar. Guya o boyda Bakıda bir çimdik duz tapılmayacaqdı? Qiyamət günü deyildi ki. Axı, duz Bakıdan kəndə gətirilirdi, kənddən Bakıya yox. Duzu yerə çırpan Seymur qısa müddətdə və tərəddüd etmədən ata-anasını yerə çırpacaqdı. Buna zərrə qədər də olsa, şübhə yeri qalmır. Hekayənin sonunda narın ağ duzun üstünün bir saniyə keçməmiş horra palçıqla örtülməsi rəmzi məna daşıyır. Ağ duz ülviliyi, müqəddəsliyi, ananı, atanı, Vətəni təmsil edir. Horra kimi qapqara palçıq isə Seymur kimilərinin hərəkətlərinin nədən ibarət olduğuna əyani sübutdur. Ağ duz Seymurla ata-ananı birləşdirəcək yeganə vasitə idi. Fikrimizcə, qapqara horra palçıq təkcə ağ duzun üstünü örtmədi, o, həm də Seymurun izini kənddən, doğma torpaqdan həmişəlik silib atdı. Böyük yaradan ata-ananın üzünə ağ olanları bağışlamır. Yəqin Seymur kimləri nələri itirdiyini dərk

etmirdi... dərk edəndə gec olacaqdı. Doğrudan da son təsvir, tutumlu vəö mənalı təsvirdir, obrazın ləyaqətsiz və naqis münasibətini təsdiqləyən bədii lövhədir. Bu, Seymurun ağzının dadını- tamını itirməsi, ana zəhmətini heçə- puça endirməsi deməkdir. Bir qədər də dərinə gedib yozası olsaq, bu- xoşbəxtlik rəmzi sayılan "ağ gün" qismətini oğulun elə bil özündən, ömründən uzaqlaşdırılması və kənarlaşdırılmasıdır. Bütövlükdə xüsusilə ana haqqında olan bu kiçik ibrətamiz hekayədə Səyavuş Sərxanlı "bir dünyalıq kədərli poeziya" görürdü (7, s.34).

İsi Məlikzadənin «Şehli çəmənlərin işığı» hekayəsində gənc yaşlarında doğma yerləri tərk edən Mirzənin taleyi təsvir edilir. Hekayənin maraqlı süjet xətti vardır. «Mirzənin altmış yaşı tamam olan günü Mirzə evdən çölə çıxmadı, həm qardan-borandan qorxurdu, həm də bazarlıq eləməyə ehtiyac yox idi, onsuz da Mirzənin ad gününə heç kəs gəlməyəcəkdi; arvadı öləndən bəri beş il idi ki, Mirzə ad günü keçirmirdi… Mirzə pəncərənin qabağına gəldi. Küləyin hirsi-hikkəsi səngimirdi. Ağacların, dirəklərin dibində qar təpələnmişdi, evlərin damı ağappaq idi. Bu ağlığın sonu, nəhayəti görünmürdü. Təkcə səma tutqun idi. Göyün bozluğu qəsəbənin başı üstündə pərdə kimi asılmışdı. Hələ axşama çox vardı, ancaq hava ala-toran idi. Qırx il idi ki, Mirzə bu diyarın boranına, çovğununa tab gətirirdi, amma Mirzənin ab-havadan belə darıxdığı olmamışdı. Görəsən, bu göyün sinəsi boşalacaqmı? Hələ çox yağacaq: bu ay da, gələn ay da, o biri ay da. Dünyanın hər yerindən qış ayağını çəkəcək, ancaq burda yenə taxtapuşların qırağından sırsıra sallanacaq» (9, s.68). Mirzənin öz-özünə etdiyi monoloq onun qəlbindəki, həyatındakı dərin təbəllüdatlardan, sarsıntılardan xəbər verirdi. Sarsıntılar qırx ildən sonra «Dalnı Vostok» adlanan uzaq diyarda başlamışdı və sonu görünmürdü. Mirzə qanlı-qadalı müharibənin iştirakçısı olmuşdu. Sağ-salamat qalmışdı. Orduda Nina adlı bir qızı sevmişdi. Müharibədən sonra doğma el-obasına qayıtmışdı. Nina adlı bir qızı sevdiyini anasına bildirmişdi. Anası Türk, Müsəlman, Azərbaycan qadınlarına məxsus mübarəkdarlıq etmiş, xeyir- dua vermişdi. Çünki Mirzə qızın şəklini anasına göstərmişdi. Nina üzünü Mirzənin çiyninə söykəyib bəxtəvər-bəxtəvər gülümsəyirdi. Ananın fikrinə görə oğlunun xoşbəxtliyi onun xoşbəxtliyi idi. Ona görə də arvad sevindiyindən ağladı. «İzni Allah verib, oğul get gəlinimizi gətir, Allah sizi xoşbəxt eləsin. Qoşa qarıyasınız, oğullu-qızlı olasınız. Get gətir, başına dönüm» (9, s.168).

Ananın xeyir-duası düşərli oldu. Gəlini ilə oğlu qoşa qarıdılar, xoşbəxt oldular. Ancaq ana-balanın ayrılığı əbədi oldu… Müharibədən sonra Nina yarımçıq qalmış təhsilini davam etdirərək həkim oldu. Mirzə daş kömür mədənində işə düzəldi, həyat yoldaşının təhsilini başa vurmasını gözlədi…

Mirzənin əvvəlcə oğlu, sonra isə qızı dünyaya gəldi. Özünə yaxşı ev-eşik, gün-güzəran düzəltdi, yeni-yeni dostlar tapdı. Bir sözlə, isti, ilıq Vətəni soyuq, yağışlı-qarlı «Dalni Vostok»la əvəz etdi. Vətənə qayıtmaq fikrindən birdəfəlik daşındı. Əvvəlcə anası, sonra atası «Mirzə» deyə-deyə həyata həmişəlik əlvida dedilər, son mənzilə sonsuzlar kimi, başqalarının çiynində getdilər. Mirzə hər iki valideyninin dəfninə bir həftədən sonra çatdı. «Mirzə rayona çatanda anasının yeddisini vermişdilər, day baş sağlığına gəlib-gedən də yox idi. Evdə təzədən ağlaşma başlandı. Güldəstə qardaşını qucaqlayıb ağı dedi. Onda Güldəstə cavan idi. Qədirlə təzəcə evlənmişdilər. Sən demə, Güldəstənin yanıqlı səsi varmış, elə dil deyib ağladı ki, Qədir özünü saxlaya bilmədi, hönkürdü, nə hönkürdü. Amma Mirzə sanki daş idi, odun idi, dayanıb durmuşdu, elə bil ağlamaq yadına düşmürdü. Bunu görəndə Qədir hönkürtüsünü kəsdi. Gözlərindən hələm-hələm yaş çıxmayan Salman kişi də arxasını həyətdəki tut ağacına söykəyib ağladı. Kişi, deyəsən arvadının ölümündən çox, neçə illik ayrılıqdan sonra oğlunu dədə yurdunda gördüyünə kövrəlib ağlayırdı. Yavaş-yavaş hamı kiridi» (9, s.74). Fikrimizcə, qırx illik Vətən həsrəti, Vətəndən, doğmalarından ayrı yaşamaq Mirzənin göz bəbəklərinin dərinliklərində gizlənmiş göz yaşlarının yolunu əbədilik kəsmişdi, irəliləməyə, geri qayıtmağa qoymurdu. Bizim qarşımızda artıq əvvəlki Mirzədən əsər-əlamət qalmamışdı. Hər halda Mirzə mənəvi manqurtluğa gedən yolun başlanğıcında deyildi. Ya ortasındaydı, ya da sona doğru gedirdi. Obrazlı şəkildə desək, sərt «Dalnı Vostok küləyi», havası mülayim, ilıq, xoş,

cənub Günəşinə qalib gəlmişdi. «Şehli çəmənlərin işığı» hekayəsində «Dalnı Vostok»u Nina təmsil edirdi. Əslində Nina ağıllı-kamallı, savadlı, bacarıqlı, sədaqətli, işgüzar qadın idi. Müharibədən sonrakı çətinliklərə baxmayaraq, ali məktəb qurtarmış, həkim olmuşdu. Qızı və oğlu, hətta gəlini də Ninanın yolu ilə gedərək, çətin, şərəfli həkimlik sənətinə yiyələnmişdilər. Nisbətən böyük ailə maddi cəhətdən heç bir çətinlik çəkmirdi. Ancaq müharibənin od-alovundan sağ-salamat çıxan, hər dəqiqə ölümlə üzləşən Nina əlli beş yaşında dünyasını dəyişmiş, «Dalnı Vostok» kimi ucsuz-bucaqsız diyarda, ata-anasından, elindən-obasından ayrı düşən Mirzəni tənhalığa məhkum etmiş, atalı-analı, oğullu-qızlı yetimə çevirmişdi. Hərçənd ki, Ninanın oğlu və qızı müntəzəm olaraq atalarına baş çəkir, ailəsizliyi, tənhalığı ona unutdurmağa çalışırdılar. Ninasız keçən beş ad günü Mirzə üçün cəhənnəm əzabına çevrilmişdi. Son illərdə oğlu və qızının laqeydliyi azacıq da olsa hiss olunurdu. Tarix yenidən təkrarlanırdı. Mirzə uzaqdakı valideynlərini, övladları isə iki addımlıqdakı tənha qalmış atalarını tədricən unudurdular. Sanki Mirzə qırx il əvvəl əkdiyi ağacların meyvələrini dərirdi, dadırdı. Burada söhbət nankorluqdan daha çox unutqanlıqdan gedir. Mirzəni bir çox günahlarda ittiham etmək olar, ancaq nankorluqda yox… Oğlu eyni ilə qırx il əvvəlki Mirzənin hərəkətlərini təkrar, təqlid edirdi. Sanki həm özünün, həm də bacısının əvəzindən üzr istəyirdi. «Mirzənin oğlu gəldi. Gətirdiyi qocafəndi köynəyi dolabçanın üstünə qoyub dedi:

- Təbrik eləyirəm, papa. – sonra soyuq dodaqları ilə atasının üzündən öpdü, dirənə-dirənə: - uşaqları evdə tək qoymuşam, - dedi.

Mirzə anladı ki, oğlu elə-belə, atasına ayaqüstü dəyməyə gəlib. Soruşdu ki:

- Bəs arvadın hanı?

Oğlan gözlərini qıyıb stolun üstündəki teleqramı oxudu: «Əziz ata, sənə bu qədər də ömür arzulayıram. Hədiyyəni göndərəcəyəm. Səni hədsiz sevən qızın Maya». Oğlan teleqramı oxuyandan sonra atasının sualına cavab verdi:

- Lida növbədədir, papa, xəstəxananı qoyub gələ bilməz. İndi nizam-intizam məsələsinə ciddi fikir verirlər, həkimin həddi nədir ki, növbəni buraxıb beşcə dəqiqəliyə harasa getsin» (9, s.169). Əlbəttə, Ninanı əvəz etmək çətin məsələydi. Oğlu və qızı Mirzəni azacıq da ovunduracaq, dərdlərini unutduracaq səbəbkarları – nəvələrini gətirməmişdilər. Anatoli atasının könlünü almaq istəsə də bacarmadı. Mirzə televizora baxa bilməyib onu söndürdü. Həkimlər ailəsi "sağalmaz xəstəliyə düçar olan" xəstənin dərdinə əlac tapa bilmirdilər. Çünki xəstə dərdini özü də bilmirdi və qəlbinin dərinliklərində gizlətmişdi. Mirzə ilk dəfə olaraq oğluna «Anatoli Mirzəyeviç, doktor» deyə müraciət etdi. Artıq Mirzənin «Anatoli», «iç», «ov», «doktorlu» dünyası sona yetməkdə idi. Xilaskar rolunu Vətən torpağı oynaya bilərdi. Mirzə axtara-axtara qalmışdı. «Bu dünyada insanın yaşamaq, yaratmaq, əlləşib-çarpışmaq borcundan savayı bir məcburi, mütləq borcu da var: ölmək! Deyəsən, vaxtdır, axı…» (9, s.170). Deyəsən, Mirzə axtardığını tapmışdı. Həyatla vidalaşmağın vaxtı çatmışdı. Ancaq belə küləkli, boranlı havada ölmək, insanlara əziyyət vermək istəmirdi. «Bu an elə bil ürəyinin hansı guşəsindəsə bir şam yandı və bu şam onun yaddaşının zülmətində qalmış uzaq illərin üstünə şəfəq saldı. Mirzə «inqə» çığırıb dünyaya göz açdığı, nə vaxtsa torpağında ayaqyalın gəzdiyi, çəməninin şehində, göyünün yağışında islandığı, bağ-biyabanlarında gəranayladığı diyarı yüngül, işıqlı bir yuxu kimi xatırladı. İndi martın axırıdır, yəqin orada ağaclar çiçək açıb, havadan ətir qoxusu gəlir, quşlar budaqdan-budağa qonub cəh-cəh vururlar, gecələr çaylarda, gölməçələrdə qurbağalar tənbəl-tənbəl quruldayıb adama mürgü gətirirlər» (9, s.171). Nə baş verdiyini Mirzə dəqiqləşdirə bilmədi. Qırx ildən artıq bir müddətdə korlaşan, korşalan yaddaş yenidən baş qaldırmışdı, oyanmışdı, "dincəlmək istəmirdi". Qurbağa qurultusu da adama ləzzət verərmi? Bəzi məqamlarda Vətənin tüstüsü belə insan üçün yad ellərin balından şirindir. Əgər həmin tüstü əlçatmazdırsa və qəriblikdə yaşayan insanı riqqətləndirirsə, onu xatırlamaq vacibdir. Mirzə uşaq deyildi, həyatın hər üzünü görmüşdü, yaşı altmışı keçmişdi. Uzaq diyarlarda yaşamağa məcbur olmuşdu. Ancaq tam yadlaşmamışdı… Bir faktı vurğulamaq yerinə düşər ki, İsi Məlikzadə möcüzəli bir şəkildə təsvir, detal ustasıdır. Yazıçı

yuxarıda göstərdiyimiz bədii təsvir vasitələri ilə insanı sehrli, möcüzəli, ağrılı-acılı, qayğılı-qayğısız, şirinli, atalı-analı, qohumlu-qardaşlı dünyaya yenidən baş çəkməyə vadar edir. İnsanın zəif yeri onu keçmişi, uşaqlıq illərini keçirdiyi yerlər, əhatə edən ətraf mühitdir. Əgər insan bir anlığa olsa belə, həmin doğma, əziz mühitə qayıda bilirsə, deməli, o, insanlığını tam itirməmişdir. «O gecə Mirzənin yuxusu ərşə çəkildi. Mirzə gözlərini yuman kimi çiçək açmış ağacları, yamyaşıl çölləri gördü, quşların mahnısını, qurbağaların qurultusunu eşitdi. Ömrünün əlçatmaz, ünyetməz çağlarında qoyub gəldiyi bir torpağın ətri dəydi burnuna. Heç olmasa, bircə dəfə üzünü o torpağa sürtmək, canında o torpağın hərarətini duymaq arzusu ilə ürəyinin başı göynədi. Yadına bir bayatı düşdü:

Əziziyəm, vətən yaxşı,
Geyməyə kətan yaxşı,
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı».

Bu nədi görəsən? Mirzənin ürəyinin hansı guşəsində yatıb qalmışdı bu bayatı? Qırx ildə bircə dəfə də dilinə gəlməmişdi. Bu sözləri kim qoşub, kim deyib belə! Yəqin ki, qürbətdə ölüm ayağında olanlar! Qürbətdə olmayan adam hardan bilər ki, «ölməyə vətən yaxşı» (9, s.171). Mirzə əvvəllər keçmişi xatırlamamışdı. Bu gün və gələcək haqqında düşünmüşdü. Qırx ildə bircə dəfə də bayatı deyib çağırmamışdı. Ancaq indi dörd sətirdən ibarət olan bayatı Mirzəni həyata qaytarmışdı. O, gəncliyinə, Vətəndə keçirdiyi xoşbəxt, işıqlı günlərə qayıdırdı. Qırx ildə keyləşmiş, daşlaşmış, əbədi buzlaqlar arasında donub qalmış, ölməkdə olan yaddaşında həyat işartıları yenidən cücərməyə başlamışdı. Həmin işartılar xoş xatirələrə döndü. Keçmişdə yaşanan hadisələr birdən-birə kino lenti kimi Mirzənin gözlərinin önündən gəlib keçirdi. Həm də nədənsə keçmişi, doğma yurdu, oradakı insanları xatırlamaq Mirzədə ancaq xoş təəssüratlar oyadırdı. Mirzə bütün gecəni yatmadı, olub-keçənləri, xatirələri bir-bir vərəqləməyə başladı… Qəflətən məktəb illərindəki Həsən yadına düşdü. Həsən Mirzənin doğulub boya-başa çatdığı rayon mərkəzindən deyildi. Qonşu kəndlərin birindən gəlmişdi. Hər gün bir neçə kilometrlik yolu qət edib yenidən evlərinə qayıdardı. Heç vaxt dərsə gecikməzdi. Fəal, əlaçı şagirdlərdən deyildi. Kasıb ailədən olduğu bilinirdi. Səliqəli geyinsə də, kasıblıq onu sıxırdı. Dərslərini yaxşı oxumur və partanın arxasından çıxmazdı. Həsən tez-tez Mirzənin sevdiyi qıza tərəf baxırdı. Günlərin birində Həsənin qıza tərəf baxması onun məktəblə həmişəlik vidalaşması ilə nəticələndi. Həsən bir daha insanların üzünə çıxa bilmədi. Mirzə sanki Həsənə qırx il əvvəl vurduğu şillənin şaqqıltısını indi hiss eləmişdi, vicdan əzabı çəkməyə başlamışdı. Kaş Həsən də onu vuraydı, cavab qaytaraydı, lap ağız-burnunu qanadaydı, yoxsa indi belə göynəməzdi Mirzə. “Görəsən indi Həsən hardadı? Görəsən, o da davaya getdimi? Ölübmü, qalıbmı?... Gözləri elə nəmlidirmi?.. Yenə elə ürkəkdirmi? Səhərə yaxın Mirzənin kirpikləri ağırlaşdı. Mirzə özünü ucsuz-bucaqsız bir bağda gördü, alça, ərik çiçəklərinin ətrini çəkdi sinəsinə, qaranquşların, sığırçınların cəh-cəhini eşitdi: yuxuya gethagetdə, sayıqlayırmış kimi pıçıldadı:

«Ölməyə vətən yaxşı… vallah, vətən yaxşı…» (9, s.173).

Mirzə Vətənə ölmək üçün gedirdi. Bilmirdi ki, onu hansı yaxşı sürprizlər gözləyir… Güldəstə doğma qardaşı Mirzəni güclə tanıdı. Sevincindən elə bir qiyyə çəkdi ki, dağlar, daşlar titrədi, yer-göy yerindən oynadı. Qonşular səsə-küyə tökülüb gəldilər. Qırx il əvvəl kəndi tərk edib «Dalnı Vostok»a getmiş Salmanın oğlu Mirzəyə tamaşa etdilər. Mirzə sifətcə «Dalnı Vostok»a oxşayırdı. Onların ab-havasını çəkib bu yerlərə gətirmişdi. Saçları o yerlərin qarı kimi dümağ idi. Soyuqqanlı adama oxşayırdı, ağlamağı tərgitmişdi. Xəbər gedib Güldəstənin həyat yoldaşı Qədirə çatdı. Qədir işini yarımçıq qoyub «Jiquli» maşınında özünü evə yetirdi. Hönkürtü ilə ağlamağa başladı. Ancaq Mirzənin lal baxışlarını görəndə hönkürtüsünü kəsdi. Ata-anası öləndə də Mirzənin gözlərindən yaş çıxmamışdı. Deyəsən, «Dalnı Vostok»un soyuğu, sazağı Mirzənin isti, ilıq göz yaşlarını əbədi olaraq buzlaqlar arasında sıxaraq susdurmuşdu. Ancaq Vətən torpağına ayaq basandan sonra Mirzədə qırx ildə olmayan qəribə hisslər baş qaldırmışdı.

Qırx illik ayrılıqdan sonra Güldəstə qardaşına doyunca baxa bilməmişdi. Mirzə Qədirin «Jiquli»sinə oturub qəbristanlığa tələsdi. Cəlil Məmmədquluzadənin «Ölülər» əsərindəki qəbristanlıq səhnəsi «hörmətli kərbəlayıların, məşədilərin, hacıların» iç üzünün tam şəkildə açılmasına səbəb oldu. «Hörmətli şəxslər» istəmədən öz həqiqi əməllərinin nədən ibarət olduğunu biruzə verdilər. Şeyx Nəsrullahın gücü də məhz bundaydı. İsgəndər olmasaydı belə, onlar bir daha qəbristanlığa qayıtmayacaqdılar. İsi Məlikzadənin «Şehli çəmənlərin işığı» hekayəsində isə Mirzə könüllü şəkildə qəbiristanlığa üz tutdu. Mirzə qoşa qəbirləri güclə tanıdı. Qəbirləri otələf basmışdı, onlara isti oğul nəfəsi dəymirdi, övlad qayğısı göstərilmirdi. Onsuz da Mirzə sağlığında ata-anasına qayğı göstərə bilməmişdi. Mirzə yiyəsiz qalan, rahat yata bilməyən valideynlərindən üzr istəyirdi: «Gəlmişəm, əzizlərim, gəlmişəm… bağışlayın ki, gec gəlmişəm» (9, s.174). Ata-ana oğlunun bu yalvarışlarını eşitsəydilər, yəqin ki, qəbirləri çatlardı. Onlar dünyadan oğul həsrəti ilə köçməzdilər. Bütün bunlar Mirzəni yenidən keçmişə qaytardı, ata-anasının dəfnini yadına saldı. Onda Mirzənin uşaqlıq illərinin şahidi olan həyətdəki tut ağacı sahiblərinin ölümünə "kədərlənmişdi, qəmlənmişdi, xeyli tutqun görünmüşdü". Mirzənin gözlərindən yaş çıxmamışdı. İndi isə qəbirlərin üstündəki otları təmizləyərək başını qaldıra bilmirdi. «Onun badamı, qonur gözlərində dəfolunmaz bir ağrının əzabları görünürdü» (9, s.175).

Həm də Mirzə yeznəsi Qədirin haqlı sözlərinə cavab qaytarmaq iqtidarında deyildi. «Qağa, başına dönüm, bəs adam el-obasını, qohum-əqrəbasını belə yaddan çıxardar? Ağlamaqdan bacın az qalır kor olsun. Adın gələndə, inandığımız haqqı, Güldəstənin dodaqlarında bir damcı qan qalmır. Mənim sözlərimi məzəmmət, danlaq kimi qəbul eləmə, qurbanın olum. Hər şey bir yana, axı burda sənin atanın, ananın qəbri var. Bu torpaqda sənin doğmaların, əzizlərin yaşayır» (9, s.175).

Mirzənin cavabı daha qəribə və gözlənilməz oldu. «Ölməyə gəlmişəm, Qədir, əcəlim çatıb. Amma Güldəstə bilməsin, ha. Eşitdin Qədir? Ölməyə gəlmişəm vətənə. Yenə ata-anasının qəbrinə baxdı, fikirləşdi ki, günü sabah usta tapıb bu qəbirləri düzəltdirmək lazımdır, yoxsa gec olar» (9, s.175).

Əslində Mirzə tez-tez təkrar etməsinə baxmayaraq, ölməyə yox, yaşamağa gəlmişdi. Mirzənin bənizindəki işıqlı təbəssüm və tərtəmiz səma da dediklərimizə əyani sübutdur. "Ölmək"dən başqa Mirzənin iki arzusu qalmışdı: uşaqlıq dostu, "düşməni" Həsəni tapmaq və qəbirlərin üstünü götürmək. Ata-anasının ölümündən sonra ilk dəfə idi ki, Mirzə rayona ayaq basırdı. Görmədiyi yerləri gəzmək istəyirdi. Onun bu istəyini görən Qədir «Jiquli»ni ən balaca küçələrə sürürdü. Rayon təmiz dəyişmişdi. Mirzənin qoyub getdiyi məkan deyildi. Qarğıdan tikilmiş palçıqlı komaların əvəzində ikimərtəbəli yaraşıqlı daş evlər tikilmişdi. Adam iki göz borc almaq istəyirdi ki, yeni tikililərə tamaşa eləsin. Ancaq Mirzə evlərini tapa bilmədi. Ona elə gəldi ki, evləri yeni tikililər arasında itib-batmışdır. Ancaq Mirzənin ata-baba evini hökumət çoxdan sökmüşdü. Yiyəsiz qalmış evlər kimi! Mirzənin ən çox sevdiyi şahtut ağacından da əsər-əlamət qalmamışdı. Evə qaydan Mirzə rahatlıq tapa bilmirdi. Bacısı Güldəstənin verdiyi suallar onun nisgilini artırırdı. Mirzə bir vaxtlar Nina və uşaqlarla birgə çəkdirdiyi, ailəsinə göndərdiyi şəklin tarixçəsini belə unutmuşdu. Öz xəttini tanıyanda Mirzənin ürəyi yerinə gəldi. Şəkildə 3-4 yaşında olan Toliklə Maya çoxdan böyümüş, valideyn olmuşdular. Ninanın vaxtsız ölümü Mirzəni hələ də yandırırdı. «Heyf, Ninadan, yaxşı adam idi». Güldəstə hıçqırıqlarına ara vermirdi. «Gəlinimizi görmək bizə qismət olmadı. Qurbanın olum, bir nisgil ürəyimi parçalayır, axı. Ayaqlarının altında ölüm, a Mirzə, bəs belə də dərd olarmı ki, sənin balalarının ayağı bu torpağa dəymədi. Balaların bizi tanımırlar, biz də onlara həsrətik» (9, s.177). Mirzə bacısının haqlı suallarına cavab verə bilmədi. Həmin suallara Mirzənin özü də cavab axtarırdı, tapa bilmirdi. Əslində problem qırx il əvvəl Mirzənin doğma yurdu, insanları tərk etməsi ilə başlamışdı. Mirzənin iki dəfə öskürməsi bu xüsusda danışmaq istəməməsinə işarəydi. Güldəstə qardaşını sözsüz başa düşdü. Söhbətin istiqamətini dəyişdi. Güldəstəyə elə gəlirdi ki, qardaşı maddi cəhətdən çətinlik çəkir, övladlarını düşünür, ancaq büruzə vermir.

Qardaşının cavabı gözlənilməz oldu. «Mənim pensiyam onların maaşından çoxdu, bilmirəm nəyə xərcləyim, hara xərcləyim. Hərdən mən onlara görüm-baxım eləyirəm» (9, s.178).

Bir faktı vurğulamaq lazımdır ki, Mirzənin övladları atalarından sədaqətli çıxmışdılar. Anadan olduqları, uşaqlıq illərini keçirdikləri el-obanı tərk etməmişdilər. Atalarının qırx ildən sonra Vətənə qayıtmaq fikrini alqışlamasalar da, mane olmamışdılar. Fikrimizcə, əsas günahkar Mirzənin özüydü… Artıq Mirzə qırx il əvvəlki həyatına qayıtmışdı. Planlı şəkildə hərəkət edirdi. İşləri yağ kimi gedirdi. Yuxuya gedən Mirzə qərara gəldi ki, indi əsas məsələ qəbirlərin üstünü götürmək və Həsəni tapmaqdır. Əks htəqdirdə Həsənə vurulan şillənin Mirzənin əlində yaratdığı göynərti əbədi olaraq onunla birlikdə qəbir evinə gedəcəkdir. Mirzəni keçmişlə bağlı ən kiçik hadisə, əşya, nişanə maraqlandırırdı, onu keçmişə, xoş günlərə qaytarırdı, bağlayırdı. Yəqin ki, Mirzə qırx illik yaşanmış ömrünü bihudə, əbəs hesab edirdi. Qırx ildən əvvəlki keçmişdən ikiəlli yapışıb orada qalmaq istəyirdi. Mirzə hətta keçmişdə onun zəhləsini tökən qurbağa qurultusunun həsrətini çəksə də heç bir səs eşidə bilmədi. Qurbağa qurultusu atası Salman kişinin evi, od dəyirmanı, günbəzli hamam kimi həmişəlik yox olmuşdu. Kimlərsə qəsdən Mirzənin keçmişlə əlaqəsini qırırdılar. Söhbət keçmişdən getmirdi. Mirzə keçmiş vasitəsilə gələcəyə bağlanmaq, yol açmaq istəyirdi. Keçmiş sanki şüşəyə bənzəyirdi. Mirzə qırıq-qırıq edilən parçaları çətinliklə bir yerə toplayırdı… Çətinliklər onu qətiyyən qorxutmurdu. Ata-anasının qəbrinin üstünü mərmərdən götürtdürdü. Həvəslə ustaya kömək eləyirdi. Azacıq da olsa, yorğunluq hiss etmirdi. Bəzən Mirzəyə elə gəlirdi ki, işlər başa çatdıqca onun ölümü yaxınlaşır. Əslində doğma yurda qayıdandan sonra Mirzə ölmək istəmirdi. «Güldəstə də, Qədir də səhər-səhər yerlərindən duran kimi Mirzəyə baş çəkirdilər, altdan-altdan onun rəng-ruhuna fikir verirdilər. Mirzə hər dəfə süfrədəki nemətləri xımır-xımır yeyəndə Güldəstənin qonur gözləri nəmlənirdi. Güldəstə o biri otağa keçib, üzünü tavana tuturdu: İlahi, kərəminə min şükür, - deyirdi, - bircəcə qardaşımın yanaqlarına qan gəlib. Sənə atam-anam qurban, ya rəbb, mənə qardaş vayı, qardaş dağı göstərmə. Mirzədən qabaq mənim canımı al. Güldəstə qardaşının əvəzində ölməyə, doğrudan da hazır idi, çünki Qədir demişkən, Mirzə axırda oğulluq, övladlıq borcunu başa düşüb, valideynlərinin ruhun şad eləyib. Hərçənd vaxtı çox ötürüb, amma nə eybi, kişi fərli iş görüb. Ləng tərpənmək, gecikmək onsuz da Mirzənin köhnə peşəsiydi» (9, s.179).

Mirzə nədənsə son zamanlar gördüyü bütün işlərdə tələsirdi. Həsəni tapmaqda xüsusi inadkarlıq göstərirdi. Yaxınları, doğmaları, köhnə tanışları haqqında düşünməyə vaxt tapırdı. Yeznəsi Qədir haqqında xüsusi minnətdarlıq hissi ilə fikirləşirdi. Ata-anasının qəbrini düzəltdirən Mirzə özünü də nəzərə almışdı. Ata-anasının yanında özünə "əbədi, son məkan" yer seçmişdi. Böyük hasar çəkdirmişdi. Cavanlıqda etdiyi səhvi başa düşür, geri qayıtmaq fikrini özünə yaxınlaşdırmaq belə istəmirdi. Qəribədir, altmış yaşlı Mirzəni iyirmi yaşlı Mirzə əvəz etmişdi.

Doğma yurd, ana torpaq, Vətən həqiqətən möcüzələr yaratmağa qadirdir. Ana təbiət bütün baş verən əhvalatlardan, hadisələrdən kənarda qalmamış, insanların əhval-ruhiyyəsinə uyğun "vəziyyət almışdı". Əlbəttə, Azərbaycanın təbiəti «Dalnı Vostok»un təbiətindən fərqlənməliydi. «Bahar günəşinin qırmızımtıl-sarı şəfəqi yerə çökmüşdü və bu şəfəqdən yaşıl tər otlar, çiçəklər, ağaclar – hər şey alov rənginə çalırdı. İlıq havadan qızılgül ətri gəlirdi, uzaqda-yaxında quşlar cikkildəşirdilər. Mirzə fikirləşirdi ki, ilin bu əyyamında ölümdən danışmaq, vallah, axmaqlıqdır. Mirzə rahat köks ötürüb, gözlərindən təbəssüm tökülə-tökülə güzgü təki tər-təmiz göyə baxdı» (9, s.180). Mirzə təkcə yerdəkilərin sevincinə səbəb olmamışdı. Tərtəmiz səma, göylər də onun Vətənə qayıtmasını, qəti qərarını bir daha alqışlayırdılar. Bunun məntiqi nəticəsi kimi Həsənin tapılması xəbəri Mirzəni göyün yeddinci qatına qaldırdı. Mirzə sevincini kimlərləsə bölüşmək istəmirdi. Nədənsə görüşə tək getdi. Həsən Qeysər müəllimin dərsində vurulan şilləni və sahibini unutmamışdı, bütün ömrü boyu onu axtarmışdı. Şillə Həsəni həqiqi xoşbəxtliyə çatdırmışdı. Həsən Mirzənin acığına şilləyə səbəb olan qızla – Qəşənglə evlənmişdi. Həsən Mirzəni daha tez tanıdı, kövrəlib qucaqladı. Həsən Mirzənin sayəsində həqiqi xoşbəxtliyə çatmışdı. Onları birləşdirən digər cəhət hər

ikisinin müharibə iştirakçısı olması, texnika sahəsində fəaliyyət göstərmələri idi. Həsən Mirzənin ürəyində dediyi «ölməyə gəlmişəm» sözlərini «torpaq çəkib gətirir» sözləri ilə əvəz etdi. Qeyri-ixtiyari olaraq Mirzənin özünün də ürəkdən istədiyi və can atdığı gələcək taleyini müəyyənləşdirdi. «Gecə yatağına uzananda Mirzə canında xoş bir yorğunluq duydu… Yuxuya nə vaxt getdiyindən özünün də xəbəri olmadı» (9, s.183). Səhər tezdən Mirzə Həsənin «Jiquli»sinin səsinə oyandı, bacısını təəccübləndirdi, onu qırx il əvvəlki Mirzənin varlığına, gəncliyinə, günahsızlığına qaytardı. «Həsən «Jiquli» ilə gəlib dalımca, bir az yemək qoy, aparım, bəlkə gec qayıtdım. Maşınları yığıma hazırlamaq lazımdır… iş çoxdu. Mirzə otağa keçib paltarını tələm-tələsik dəyişdi. Güldəstənin mətbəxdə bağlama düzəldə-düzəldə ağlamağından xəbəri olmadı» (9, s.182). Güldəstənin kədərli, nisgilli göz yaşları sevinc göz yaşlarıyla əvəz olunmuşdu. Qardaş həsrətinə birdəfəlik son qoyan namuslu, ismətli, ailəcanlı Azərbaycan qadınının sevinc göz yaşlarıydı. Mirzə qırx ildən sonra «səhərlər işə, axşamlar evə tələsən» insanların taleyini yaşayırdı. Mirzəni Vətənə "şehli çəmənlərin işığı" qaytarmışdı. Yazıçının "Şehli çəmənlərin işığı" qəbilindən əsərləri bir də ona görə dəyərlidir ki, oxucunu "diksindirmədən" silkələyib ayıldır, mənfi duyğu və hərəkətlər təsirindən uzaqlaşıb təmizlənməyə çağırır. Özü də bədii ideya patetik tərzdə, "qışqırdıcı" pafosla yox, bir növ sakit axarda, hissi- lirik səpkidə aşılanır, təlqin və təqdim edilir.

İsi Məlikzadənin «Şehli çəmənlərin işığı» hekayəsi yarım əsrdən əvvəl yazılmasına baxmayaraq, aktuallığını bu gün də itirməmişdir. Müxtəlif səbəblər üzündən dünyanın dörd bir tərəfinə səpələnən azərbaycanlıları «şehi çəmənlərin işığı» isitməli və geri qaytarmalıdır. "Şehli çəmənlərin işığı" hekayəsində faciəvilik problemi doğma yurd, Ana vətən, qəibçilik mövzusu ilə sıx əlaqələndirilmişdir. "Buz" hekayəsində isə yuxarıda göstərilən problem daha çox cəmiyyətdə baş verən mənəvi- əxlaqi problemlər müstəvisində həll edilmişdir.

Ədəbiyyat

1. Abasova S. İsi Məlikzadənin yaradıcılığı. Bakı: Nurlan, 2001.
2. Anar. Nəsrin fəzası. // Azərbaycan, 1984, №8.
3. Belinski V. Seçilmiş əsərləri. Bakı: Gənclik, 1979.
4. Elçin. Quyu müəllifinə məktub // Ədəbiyyat və incəsənət, 1977, 16 aprel.
5. Hüseynov A. Nəsr. Ədəbi proses-79. Bakı: Elm, 1983.
6. Hüseynov A. Müxtəlifliyin birliyi. Bakı: Yazıçı, 1983.
7. İsmayılov Y. İsi Məlikzadə – söz sərrafı, nəsr ustası. Bakı: Elm, 2007.
8. Qabil. Qatarda. Ədəbiyyat, 1994, 4 may.
9. Məlikzadə İ. Şehli çəmənlərin işığı. Hekayələr. Bakı: Yazıçı, 1991.
10. Yusifli V. Sənətkar mövqeyi və ədəbi qəhrəman. Azərbaycan, 1981, №1.

Ф.М.Мамедов

Проблема трагичности в рассказах Иси Меликзаде

Резюме

Творчество выдающегося писателя – шестидесятника Иси Меликзаде занимает особое место в азербайджанской литературе XX века. Иси Меликзаде пришел в литературу в 60-е годы XX века. Вместе с С.Ахмедли, Анаром, Ельчином, И.Гусейновым и др. писатель стоял в истоках «новой азербайджанской прозы». Одновременно Иси Меликзаде продолжал и развивал лучшие традиции классической азербайджанской литературы, в том числе А.Ахвердова, Н.Везирова, Дж. Мамедгулузаде и Ю.В.Чеменземинли.

Писатель написал много прекрасных рассказов, повестей и романов.

Герои его обыкновенные, простые, бескомромиссные люди. Таковы Нурджаббар, Меджид, Гариб и др. Следует отметить, что в творчестве писателя преобладают трагические мотивы.

В статье анализируются именно эти проблемы. Обьектом исследования являются некоторые рассказы Иси Меликзаде.

F.M.Mammadov

Tragedy problem in İsi Melikzadeh's story

Summary

As a representative of the 60s literature, Isi Malikzadeh, has a special place in the 20th century in Azerbaijani literature. Isi Malikzadeh came to the literature in the 60s of the XX century. He became one of the founders of the "new Azerbaijani prose" with the writers such as S.Ahmadli, I.Huseynov, Anar, Elchin and others. At the same time, Isi Malikzadeh continued and developed the best traditions of classic Azerbaijani literature, including A.Hagverdiyev, N.Vazirov, J.Mammadguluzadeh and Y.V.Camanzaminli.

The writer has written a great deal of good stories, narratives and novels. His heroes are ordinary, simple people. Nurcabbar, Garib and Majid are just like these. It should be noted that tragic motifs generally dominate in the writer's creativity. The article analyzes the above-mentioned problems.

The object of the research is a few stories by Isi Malikzadeh.

Rəyçi: filol.e.d., prof. N.T.Məmmədov

Redaksiyaya daxil olub: 20.07.2017

M.N.QULUYEVA

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

AZƏRBAYCAN ŞEİRİNDƏ QOŞMA JANRININ MÜHÜM POETİK VASİTƏLƏRİ VƏ ONLARIN BƏDİİ-ESTETİK DƏYƏRİ

Açar sözlər: *poetik vasitə, poetik düşüncə, poetik təxəyyül, klassik ədəbi proses*
Ключевые слова: *поэтические средства, поэтическое сознание, классический литературный процесс*
Key words: *main poetic(al) means, poetic(al) thought, poetic(al) sense, classic(al) literary process*

Poetika söz sənətinin nəzəri əsaslarını və qanunauyğunluqlarını öyrənir. Bu baxımdan poetikanın bölmələri aşağıdakılar hesab oluna bilər: söz sənətində ritmik ahəng və musiqi duyumu, bədii-estetik təfəkkür və düşüncə tərzi, bədii təsvir sistemi və poetik təxəyyül. Qoşma poetikasında müəyyən qəlib və nizamı və onları ifadə edən bütün vasitələrin (vəzn, qafiyə, rədif, poetik qəliblər) və s. böyük əhəmiyyəti vardır. Qoşma poetikasının əsas vahidləri bədii obraz, bədii deyim və bədii mətndir. Bütün səviyyələrdə poetik düşüncə xüsusi əhəmiyyətə malikdir. Poetik düşüncə anlamı, ifadəsi və onun estetik cəhətdən qavranılması qoşma mətnlərində gerçəkləşir.

M.P.Vaqif qoşmaları zəngin bir poetik düşüncənin ifadəsidir. Qoşmalarda olan deyimlər hər biri bədii poetik parça kimi səslənir. Vaqif qoşmalarında sözlər, obrazlar, rəmzlər misra-misra düzülür. Qoşma poetikası bu düzənin əsaslarını və məntiqi özəlliklərini tədqiq edir. Qoşma poetikasında bədii mətn poetik təxəyyülü ifadə edir. Qoşma poetikasında hər bir söz və bədii təxəyyül arasında qırılmaz əlaqə vardır. Şair düşüncəsindəki gözəllik və incə hislər özünəməxsus söz seçimi ilə verilir. M.P.Vaqifin qoşmalarında sözlərin seçimi, səs ahəngi, misralar arasındakı harmoniya çox əhəmiyyətlidir. Şair öz qoşmalarında hər bir sözü məntiqi dəqiqliklə seçərək öz yerində işlətmişdir. Qoşma poetikası ədəbi proses və mühitin səviyyəsi ilə bağlıdır. Bu poetikanın tarixi-mədəni kökləri və nəzəri əsasları vardır (2, s.102-104). Azərbaycan ədəbiyyatşünaslığında indiyə qədər poetika Yunan-Avropa sisteminin kateqoriyaları əsasında tədqiq edilmişdir.

M.P.Vaqifin qoşmaları klassik ədəbi prosesdə özünəməxsus yer tutur. Bu qoşmalar folklora və klassik şeirə söykənir, bu köklər əsasında formalaşıb inkişaf edir. M.P.Vaqif qoşmalarına aşıq şeirinin böyük təsiri olmuşdur. Aşıq şeiri ədəbi prosesdə özünəməxsus yeri olan poetik təxəyyül formaları, estetik dəyərləri ilə Vaqif qoşmalarına böyük təsir göstərmişdir. M.P.Vaqif qoşmalarının poetik təkamülündə aşıq sənəti, folklor ənənələri, klassik ədəbiyyat ehtiva olunmuşdur. M.P.Vaqif qoşmaları eyni zamanda əski poetika və orta çağların klassik şeirindən qidalanırdı (1, s.81-84). Qoşmalarda Şərq poetikasının nəzəri əsasları, bədii-estetik kateqoriyaları, ifadə vasitələri əks olunmuşdur. M.P.Vaqif qoşmalarının poetikası özünəməxsus bədii-estetik təxəyyül yönümü, musiqi-ritmik durumu və texnikası ilə səciyyələnir. Qoşmaların ritmik durumunda xüsusi əhəmiyyət kəsb edən amillərdən biri vəzndir. Nəsrəddin Tusi vəzn barəsində yazmışdır: "Vəzn elə bir qurumdur ki, burada hərəkət, sükunət və tənasüblük amilləri arasındakı ardıcıl düzüm həm sayca, həm də keyfiyyətcə bir-biri ilə bağlanır. Belə bir əhəngdar və ardıcıl düzüm insana zövq və ləzzət bağışlayır. Vəzn zahiri bəzək vasitəsi deyildir" (5, s.18-20). M.P.Vaqif qoşmalarının ritm ahəngi iki əsas meyara söykənir: vəzn, qafiyə, rədif və şeirin iç musiqi biçimi. M.P.Vaqif qoşmalarında vəzn və ritm zahiri səs ahəngi deyildir. N.Göyüşov "Milli sənətin nəzəri təhlilinə giriş" əsərində vəznin söz düzümündə və poetikada aşağıdakı təsir yönlərini ümumiləşdirir:

1. “Vəzn musiqi ahənginə uyğun ritmik düzüm yaratmaqla insan duyğularına emosional təsir göstərir”.

2. “Vəzn söz düzümündə ritmik zərbləri, fasilə və parçaları tənzimləyir, onları bir-biri ilə bağlayır”.

3. “Vəzn söz düzümündə ümumi ahəngdarlıq, tənasüblük və harmoniya yaradır”.

4. “Vəzn sözdə təkid çalarlarını gücləndirir, onun yaddaşda möhkəmlənməsinə imkan yaradır”.

Vəzn seçimi qabaqcadan müəyyənləşir. Vəzni təşkil edən ritmik ünsürlər bir-biri ilə qırılmaz tellərlə bağlıdır (9, s.102-104).

M.P.Vaqif qoşmalarının bədii imkanları danışıq tərzinə uyğunlaşaraq meydana çıxır. Bu qoşmalarda ritm və intonasiya, yığcam misra ahəngdarlığı poetik məzmunun əsasını təşkil edir. Bu baxımdan canlı nitqin bütün zəngin intonasiya çalarları, qoşma poetikasına istinadən reallaşa bilir, dilin ritmini şeirə gətirir. Əslində, ritm poeziyanın özü yaranmadan mövcud olur və məzmun sonradan ritm qəliblərinə doldurulur. M.P.Vaqif qoşmalarında ritm elə bir keyfiyyətdir ki, onun sayəsində mətni təşkil edən sözlər ahəngdar nizama nail olur. Qoşmalarda ritm o qədər əhəmiyyətlidir ki, bəzən obrazlı ifadələrin, məcazların iştirakı olmadan belə bədiiliyə nail olunur. Məcazlaşma isə ritmin yaratdığı duyğu və hislərlə ifadə olunur, şeirin dinamikasını yardır (7, s.21-24). “Qoşmanın dilinə məxsus cəhətlər nitq axınının hecalardan tutmuş bütünlüklə bədii mətnin özünə qədər ciddi simmetrik quruluşunu, səslənmə ahənginin nizamlı məcrasını, bölgülərin bərabərliyini tələb edir”. Ritm-poetik hiss və ahənglə başlanan, daxilən bir-birini tamamlayan sözlərin şeir qəliblərinə çevrilməsini şərtləndirən başlıca amildir (6, s.104-106). Ritm poeziya dilinin əsasını təşkil eidr. M.P.Vaqif qoşmalarında mətnin ritmik quruluşu intonasiya gözəlliyinə yol açır, daxili dinamikaya təkan verir, estetik səslənmə keyfiyyəti yaradır. Ritmik faktlar burada əhəmiyyətli rol oynayır. Qoşmaları fərqləndirən nizam, ahəng yaradıcılığı, dərin mənanın yığcam ifadəsi, şairin dilin estetikasını duyma bacarığı əsas faktorlardır.

M.P.Vaqif qoşmalarının özəl cəhəti olan riyazi dəqiqlik, daxili məzmuna uyğunluq, ifadə olunan fikrin həyati gücü bu şeirlərdə ritmin mahiyyətini təşkil edir. Bədii obrazların yaradılmasında ritmin müstəsna rolu vardır. Məhz söz-obrazın ritmik hərəkəti sayəsində dil bədii ifadə funksiyası kəsb edir.

M.P.Vaqifin qoşamalarında şeir dilinə melodiya da əlavə olunur. Bu qoşmalar musiqilidir, ritmik cəhətdən zəngindir. Burada ritm və intonasiya, ahəngdarlıq və musiqi zahiri bər-bəzək olmayıb əsl forma gözəlliyidir. Misraların xoş avazla səslənməsində də əsas məqsəd səslər sisteminin yaratdığı ahəngi nümayiş etdirməklə məhdudlaşmır. Əsas məsələ bu qeyri-adi gözəlliyə malik olan səslənmənin fonunda lirik qəhrəmanın hislərinin ifadəsinə nail olmaqdır.

M.P.Vaqifin qoşmalarında həyatın ahəngi canlanır. Burada ritm və intonasiya yaratma vasitələrinin hər birində xüsusi çalarlar mövcuddur. Qoşmaların ümumi intonasiya məcrasında hər bir çaların əhəmiyyəti vardır (5, s.81-86).

Ritm və intonasiya qoşmaların misradaxili bölgülərində ahəngdarlıq yaradır. İntonasiyada ritmik faktorların uyğunluğu həlledici şərtdir. M.P.Vaqifin qoşmalarında misraların və bəndlərin kəmiyyət nizam ahəngini tənzimləyir.

“Mətnin ritmik quruluşu şeirin məzmununu açan amildir”.

Ritm öz şeiriyyəti, öz ahəngi ilə yüksək zövq yaradır. Şeir və musiqinin ritm, vəzn, melodiya, fasilə, bölgü, vurğu kimi ümumi cəhətləri vardır. M.P.Vaqif misralarında söz-səs tərkibi ilə melodik səslənmə estetik vəhdət təşkil edir, xalq hökümətinin sehri bu qoşmalarda əks olunur. Qoşmaların bədii-fəlsəfi tutumunda heyrətamiz şəkildə sanballı bədii söz və musiqili ahəngin vəhdətindən doğan şeiriyyat şair qəlbinin yanğısını misralara hopdurur. M.P.Vaqifin qoşmalarında vəzndən əlavə qafiyənin də mühüm rolu vardır. Qafiyə vəznin təkmilləşməsinə xidmət edir. Avropa alimləri sözün ritmik düzümündə qafiyənin rolunu xüsusi qeyd etmişlər. Qafiyə misra və beytlərin sonunda səs-söz ahəngi və uyğunluqdur.

Misraların sonunda təkrarlanan sözlər rədif, rədifdən əvvəl ritmik baxımdan uyğunlaşan sözlər qafiyə adlanır. M.P.Vaqif qoşmalarında qafiyə duyğu və düşüncənin vəhdətinə xidmət edir. Qafiyə şair və oxucunun düşüncə tərzi arasında əlaqə yaradır.

Kür qırağının əcəb seyrəngahı var
Yaşılbaş sonası, hayıf ki, yoxdur!
Ucu tər cığalı siyah tellərin,
Hərdən tamaşası, hayıf ki, yoxdur!

Bu qoşmada "*sonası*" və "*tamaşası*" sözləri qafiyələnir və "*sonası*" sözü "*tamaşası*" sözünün işlənməsini tələb edir. Bu qafiyələrdə "a" və "ı" saitləri orta fonemlərdir, bu saitlər qafiyənin bütövlüyünü təmin edir. Nəsib Göyüşovun fikrincə, "Şeirin bədii-estetik missiyası oxucu və dinləyicinin zehnində estetik duyğu yaratmaqdan ibarətdir, bu da həm mütənasib və yaxınmənalı, həm də təzadlı anlayışların poetik qarşılaşması zəmnində yaranan söz oyunu ilə əldə edilir.

M.P.Vaqifin "Hayıf ki, yoxdur" qoşmasında

"Çoxdur ağ bədənli, büllur buxaqlı.
Lalə zənəxdanlı, qönçə dodaqlı" - beytində əsas anlayışlar ("ağ bədən", "billur buxaq", "lalə zənəxdan", "qönçə dodaq") ifadələri arasında məntiqi tənasüblük vardır.

"Amma şirin dilli, açıq qabaqlı,
Könül aşinası, hayıf ki, yoxdur!" – beytində təzad paradoksal məzmun çaları gözəl estetik təsir yaradır. "Ağ bədənli", "billur buxaqlı", "lalə zənəxdanlı", "qönçə dodaqlı" gözəllərin içində "şirin dilli", "açıq qabaqlı" "könül aşınaları" yoxdur. M.P.Vaqif qoşmalarının estetik məzmunu ilə ritmik düzümü arasında müəyyən əlaqə vardır. Şair misraların hissələri arasında ritmik tarazlıq yaratmağa nail olur. Bu qoşmalarda məzmun tənasüblüyü ardıcıldır.

Qaşilən, gözilən ciyər qan olur,
Zülf sevəndə nə din, nə iman olur,
Can quşu xallarda bəndivan olur.
Dirlik zövqü ləbdə, həm dəhəndədir.

Bu beytlərin ritmik düzəni mükəmməl bədii lövhə yaradır, böyük estetik təsir gücünə malik olur. M.P.Vaqif qoşmalarında folklordan, aşıq sənətindən qaynaqlanan poetik üsullara xüsusi yer verilir. Bu qoşmaların poetik özəllikləri, bədii estetik məzmunu, obrazlar sistemi monumental xalq yaradıcılığı ilə bilavasitə əlaqədardır. Bu qoşmalarda səs-söz ahəngi, söz biçiminin yaratdığı səs düzümünün hesabına yaranan musiqi xüsusi əhəmiyyətə malikdir.

Özün pəri, xülqü xuyun fərişdə,
Harda olsan ora dönər behiştə,
Sən gərəkdir gündə çıxasan gəştə,
Gül düzəsən, gül buxağa, Fatimə!

M.P.Vaqif poetik dilin özəlliklərindən istifadə edərək sözün emosional təsir gücünü artırır. Şairin dilində cinaslardan da geniş istifadə olunur. Cinaslarda sözün ahəngi və biçimi, məna dəyişmələri çox güclü emosional təsir qüvvəsinə malik olur. Qurani-Kərimin möhtəşəm mətnində də cinaslardan çox istifadə olunmuşdur. M.P.Vaqif qoşmalarında folklor nümunələrindən və klassik ədəbi prosesdən bəhrələnərək maraqlı cinaslar yaratmışdır. Bu cinaslar öz üslub gözəlliyi və estetik dəyəri ilə seçilir.

"Allaha şükür, lalə yanağında eyib yox,
Dişində, dəhanında, dodağında eyib yox,
Bir zərrəcə zülfündə, buxağında eyib yox,
Dəxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq
Bəsdir bu dayanmaq!"

Ol Xədicə haqqı, Səkinə haqqı,
Xeyrənnisə haqqı, Əminə haqqı,

Kəbə Məkkə haqqı, Mədinə haqqı,
Dərdin bu Vaqifi aldı, sevdiyim!”

M.P.Vaqifin qoşmalarında çox işlənən emosional-estetik təsiri gücləndirən qafiyə dinləyicini və oxucunu yeknəsəq təkrarlardan qoruyur.

Qafiyə sözdə estetik duyğu və bədii düşüncənin bütövləşməsinə yardımçı olur. Qafiyə gələrkən oxucu analoq axtarır, arzuladığı mətləbi həmin analoqdan çıxış edərək tapmağa çalışır. Bir növ şair ilə oxucunun təxəyyül tərzi arasında bir körpü yaranır v qafiyə amili bədii duyğu və təxəyyülün şairdən oxucuya bütöv və nizamlı bir halda çatdırılmasına imkan yaradır. Şeirin bütöv və möhkəm bir söz qurumu kimi formalaşması üçün onun bütün tərkib hissələri bir-birinə çoxşəbəkəli tellərlə bağlanır. Qafiyə şeir düzümünün ümumi bütövlüyünü təmin edən ümumi amillərdən biridir. Qafiyənin ortaq fonemləri nə qədər çox olarsa, onun bütövlüyü də bir o qədər çox olar. Qafiyə misra, beyt və bənd arasında vəhdət yaradır.

Gülab səpilibən dəyəndə sana
Qoxusu çulğaşır cümlə cahana,
Döndəribdir məni Şeyx Sənana
Nə din qoyub məndə, nə iman zülfün.”

M.P.Vaqifin bu qoşmasında, “sana”, “cahana”, “Şeyx Sənana” sözləri qafiyədir, qoşmanın misraları və bəndləri arasında vəhdət yaradır.

Qafiyə eyni zamanda vəznin bütövlüyünü də təmin edir. Alman filosofu Hegel qafiyənin hislərə və duyğulara təsirini xüsusi qeyd edir. Alimin fikrincə, qafiyənin yaratdığı səs ahəngi sözün mənasına diqqət yetirmədən belə hisslərə təsir edir. M.P.Vaqifin qoşmalarında işlənən ən adi sözlər elə seçilir, elə düzülür ki, onlar arasında gözəl əlaqə yaranır, ifadələr adi mənalarından əlavə yüksək və incə mənalar kəsb edir. Vaqif yaradıcılığında qafiyənin yaratdığı səs ahəngi şairanə hislərin ifadə olunmasına kömək edir. M.P.Vaqifin qoşmalarında qafiyə gəlinin gözəl paltarına bənzəyir. Şərqin Fərabi, İbn Sina, Zəməxşəri, Tusi kimi mütəfəkkirləri şeirin ritmik musiqi düzəni və estetik dəyəri barədə gözəl fikirlər söyləmişlər. M.Quliyeva “Şərq poetikasının əsas kateqoriyaları” adlı əsərində bu barədə yazır: “Ərəblərdə cahiliyyə dövrünün zəngin ədəbi ənənəsi olmuşdu və islamdan sonra Aristotelin “Poetika” və “Ritorika” əsərlərinin tərcüməsi isə ərəb ədiblərinin yunan nəzəri fikri ilə tanışlığına imkan yaratdı (5, s.24-28).

Onlar şeirin ritmik quruluşu və təxəyyül ünsüründən ibarət olduğunu təsdiqlədilər. Bu baxımdan hər iki poetik sistem üçün yaxın və ortaq cəhətlər ortaya çıxdı. lakin bədii təsvir vasitələri üzərində geniş araşdırmalar aparıldıqdan sonra bəlli oldu ki, ümumi yönlərdə tipoloji ortaq cəhətlər olsa da, bədii təxəyyül sistemində yerli dil-üslub, düşüncə tərzi, ictimai-mədəni mühit və ədəbi ənənələr baxımından ciddi fərqlər vardır. İstər şeirin musiqi və ritmik durumu, istərsə də onun bədii təxəyyül sistemi hər bir xalqın mədəniyyət toplusuna xas olan özəlliklərdən asılı olaraq seçilir.

Ədəbiyyat

1. Adilov M. Klassik ədəbiyyatımızda dil və üslub. Bakı.
2. Adilov M. Sənətkar və söz. Bakı: Yazıçı, 1981.
3. Axundov A. Dilin estetikası. Bakı, 1985.
4. Bualo. Poeziya sənəti. Bakı, 1969.
5. Cabbarov X. Bədii ədəbiyyatda obrazlılıq. Bakı, 1986.
6. Hüseynov M. Şeirşünaslıqda dil sənətkarlığı. Bakı, 2007.
7. Барабаш Ю.Я. Вопроси эстетики и поэтики. М., 1974.
8. Веселовский. Историческая поэтика. М., 1989.
9. Виноградов В.В. Поэтика русской литературы. М., 1976.

М.Н.Кулуева

Основные поэтические средства и художественно эстетическое значение гошмы в азербайджанской поэзии

Резюме

Статья посвящена анализу основных поэтических средств жанра гошмы. Поэтические фигуры, созданные великим мастером М.П.Вагифом, отличны своей гармоничностью. Отличительной чертой поэзии М.П.Вагифа является его тесная генетическая связь с народным творчеством, связь, самая непосредственная, выражающаяся не только в заимствовании сюжетов, образов, но и в языке, в системе всех художественных средств, в системе стихосложения. Светлый, оптимистический, жизнеутверждающей пафос его лирики, искренность и полнота чувств, отточенный язык, не представляемый вне богатства народа и классиков, сочные колоритные образы сравнений и метафор – все это зримо встает перед глазами, когда мы думаем о Вагифе!

M.N.Guluyeva

Main poetical means of goshma and their poetic-aesthetic value in Azerbaijan poetry

Summary

The article deals with the analysis of main poetic(al) means of genre “goshma”. Poetical figures created by a great master M.P.Vagif differ with their harmony. Many different features of Vagif s poetry are in his close genetic ties with folk arts and these ties appear not only in the creation of images and plots but also in language and in all artistic means systems, in versification system. Bright, optimistic, life-asserting pathos of his lyric poetry, sincerity and completeness of feelings, fine language are expression of wealth of people and the classics, rich picturesque images, simile and metaphor – all these come before our eyes when we think about Vagif.

Rəyçi: filol.f.d., dos. A.X.Ramazanova

Redaksiyaya daxil olub: 12.05.2017

S.H.RƏSULOVA
pedaqogika üzrə fəlsəfə doktoru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MAARİFÇİ-REALİST UŞAQ ƏDƏBİYYATIMIZIN NƏŞRİNƏ VƏ TƏDQİQİNƏ DAİR (S.S.Axundov, A.Şaiq, İ.Musabəyov, A.Divanbəyoğlu, Ə.Müznib)

Açar sözlər: *mədəniyyət, söz ustaları, uşaq sənətkarları, uşaq dünyası, nəşr, tədqiq*
Ключевые слова: *культура, мастера слова, детское творчество, детский мир, издание, исследование*
Key words: *culture, child world, child writers, publish, investigate, word masters*

XX əsrin əvvəllərində maarifçi-realist ədəbiyyatımızın və uşaq nəsrimizin görkəmli təmsilçilərindən biri kimi tanınan pedaqoq ədib S.S.Axundovun uşaq ədəbiyyatımıza verdiyi ən layiqli töhfə "Qorxulu nağıllar" silsiləsinə daxil olan hekayələrdir. Bu silsiləyə 5 hekayə daxildir və onların hamısı ilk dəfə XX əsrin əvvəllərinin uzunömürlü uşaq mətbuatı olan "Məktəb" jurnalı vasitəsilə oxuculara çatdırılmışdır. Həmin hekayələrin ilk nəşr xronikası bu şəkildədir: "Əhməd və Zeynəb" (1912, №1); "Abbas və Zeynəb" (1912, №7-8); "Nurəddin" (1912, №9-22); "Qaraca qız" (1913, №1-4, 6-9, 12-22); "Əşrəf" (1914, №8-17, 19)

Bu hekayələrdən əlavə S.S.Axundovun "Məktəb" jurnalında "Müəllim Məhəmməd Qarayevin vaxtsız vəfatı" (1913, №2) sərlövhəli nekroloq səciyyəli publisistik məqaləsi də dərc edilmişdir.

1916-cı ildə "Qorxulu nağıllar"dan ikisi "Məktəb" mətbəəsində ayrıca kitab halında nəşr olunmuşdur. Bu nəşrə "Əhməd və Məleykə" və "Rəşid və Gövhər" hekayələri daxildir. "Rəşid və Zeynəb" əslində "Abbas və Zeynəb" hekayəsinin cüzi şəkildə dəyişdirilmiş variantıdır. Sonrakı dövrdə "Qorxulu nağıllar" 1936-cı ildə yenidən işıq üzü görür. Həmin ildə S.Hüseynin tərtibatı və redaktoluğu ilə S.S.Axundovun "Əsərləri" nəşr edilir. Bu nəşrə "Qorxulu nağıllar"dan dördü salınmış, nə üçünsə "Əşrəf" hekayəsi nəşrdən kənarda qalmışdı. S.S.Axundovun 1951-ci ildə A.Zamanovun, 2005-ci ildə N.Vəlixanovun tərtibatı ilə "Seçilmiş əsərləri" çap edilir. 1968-ci ildə N.Vəlixanovun tərtibatı ilə onun "Seçilmiş əsərləri"nin iki cildliyi meydana gəlir. 1975-ci ildə yenə N.Vəlixanovun tərtib etdiyi "Hekayələr və pyeslər" kitabı nəşr olunur. Bu nəşrlərin hamısında "Qorxulu nağıllar"a da yer verilir. Silsiləyə daxil olan hekayələr 1958 və 2005-ci illərdə ayrıca kitab halında "Qorxulu nağıllar" adı ilə çap edilmişdir. Silsiləyə daxil olan hekayələrdən nümunələri uşaq ədəbiyyatına aid antologiya və müntəxabatlarda, orta məktəb dərsliklərində də görə bilərik. Təbii ki, bunların hamısını burada sadalamaq mümkün deyil.

Ədəbiyyatşünas alimlərimizdən ikisinin – M.Vəliyevin və N.Vəlixanovun S.S.Axundovun həyat və yaradıcılığına həsr olunmuş monoqrafiyaları vardır. N.Vəlixanovun monoqrafiyası iki dəfə (1968, 1996) nəşr olunmuşdur. Hər iki alim öz monoqrafiyalarında yazıçının uşaq əsərlərinin elmi təhlil və təşrihini də diqqət mərkəzində saxlamışlar.

S.S.Axundovun kiçik oxuculara ünvanladığı əsərlərlə bağlı mətbu elmi məqalələr də qələmə alınmışdır. Bunlardan C.Xəndanın "Süleyman Saninin hekayələri" (6), A.Zamanovun "Uşaqların sevimli yazıçısı" (15), A.Hacıyevin "Uşaq aləminin tərənnümü" (5), S.Talıbovanın "Uşaq ədəbiyyatı inciləri" (13) və s. məqalələri göstərə bilərik. Bundan əlavə bilavasitə "Qorxulu nağıllar"a həsr olunmuş elmi məqalələr də mövcuddur. P.Allahverdioğlunun "Qorxulu nağıllar"da təhsil və tərbiyə məsələləri" (3, s.71-76), N.Vəlixanovun "Qorxulu nağıllar"

XX əsr Azərbaycan realist nəsrinin klassik nəsr nümunəsi kimi" (14, s.88-92) və s. məqalələr bu qəbildəndir.

A.Hacıyevin "Azərbaycan uşaq nəsri" adlı dərs vəsaitində də (1989) haqqında danışdığımız hekayələrdən söhbət açılır. Ə.Əzizov "Uşaqların sevimliləri" (1978) kitabında S.S.Axundovun uşaqlar üçün yaradıcılığına ayrıca bölmə həsr edtmişdir.

Adını çəkdiyimiz monoqrafiya və məqalələrin hamısında şəxsi təhlil və analiz bacarığının keyfiyyətindən əlavə hakim rejim və sistemin diqtəsindən irəli gələn kəsirli və qüsurlu bir cəhətin şahidi oluruq. Bu, təhlil və baxışların bir qayda olaraq sosioloji yöndə, hakim ideologiyanın şablonlarına uyğun aparılmasıdır.

Q.Namazovun, Z.Xəlil və F.Əsgərlinin, R.Yusifoğlunun, B.Həsənlinin uşaq ədəbiyyatına aid dərsliklərində, X.Mustafayevanın dərs vəsaitində S.S.Axundovun "kiçiklər üçün" yaradıcılıq irsinə həsr olunmuş məxsusi bölmələr yer alır.

XX əsrin əvvəllərində Azərbaycan uşaq əsəbiyyatının ən məhsuldar qələm sahiblərindən biri də A.Ş.Talıbzadədir. Həm də o, həmin dövrdə kəmiyyətcə ən çox uşaq əsərləri yazan və nəşr etdirən bir sənətkardır. Onun əsərləri rəngarəng qaynaqlarda oxucu kütləsinin ixtiyarına verilmişdir. Müxtəlif dərsliklər, qiraət kitabları, uşaq mətbuat orqanları bu qaynaqlar sırasındadır.

Hər şeydən əvvəl xatırlatmaq lazım gəlir ki, A.Şaiq XX yüzilliyin əvvəllərində miqdarca ən çox dərslik müəllifi olan pedaqoq sənətkarlardan biridir. Belə ki, 1907-ci ildə "Uşaq çeşməyi" dərsliyini çap etdirmişdir. Ibtidai məktəbin başlanğıc sinifləri üçün nəzərdə tutulmuş bu dərslik sonrakı illərdə (1910, 1911, 1915, 1917, 1919) daha təkmil və genişləndirilmiş, yeni materiallarla təchiz edilmiş şəkildə "Uşaq gözlüyü" adı ilə nəşr olunmuşdur. 1910-cu ildə müəllifin "Gülşəni-ədəbiyyat", 1912-ci ildə "Gülzar", 1919-cu ildə "Milli qiraət kitabı" adlı dərslikləri meydana çıxmışdır. Bundan əlavə, ilk nəşri 1908-ci ilə aid "İkinci il" dərsliyinin müəlliflərindən biri də A.Şaiq olmuşdur. (Dərsliyin digər müəllifləri M,Mahmudbəyov, S.Əbdürrəhmanbəyzadə, S.Axundzadə və Ə.Əfəndizadə olmuşlar.) "İkinci il" sonrakı illərdə də (1909, 1910, 1911, 1912,... 1917) dalbadal 1917-ci ilə qədər bir neçə dəfə çap edilib məktəb şagirdlərinin ixtiyarına verilmişdir. A.Şaiq H.Cavidlə birlikdə "Ədəbiyyat dərsləri" adlı yuxarı sinif şagirdləri üçün bir dərslik tərtib etmişdir.

Biz A.Ş.Talıbzadənin dərsliklərlə bağlı fəaliyyəti üzərində ona görə xüsusi şəkildə dayanmalı olduq ki, əslində pedaqoq sənətkarı uşaqlar üçün əsərlər yazmağa sövq edən səbəblərdən birincisi həmin bu dərslikləri münasib, əlverişli, yararlı bədii mətn və materillarla təchiz etmək zərurəti idi. Müəllifin kiçik oxucular üçün yazdığı əsərlərin böyük bir qismi də ilk dəfə həmin dərsliklər vasitəsilə gün işığına çıxmışdır. Məsələn, onun "Uşaq gözlüyü"ndə 11, "İkinci il"də 10, "Gülzar"da 9, "Milli qiraət kitabı"nda 2 şeiri yer almışdır.

Ədibin məşhur "Köç" hekayəsi də əvvəlcə "Bəxtiyarlığım" sərlövhəsi ilə "Gülzar" dərsliyində verilmişdir. Ikinci dəfə hekayə "Milli qiraət kitabı"nda şagirdlərə təqdim edilmiş və bu zaman adı dəyişdirilərək "Köç" şəklində müəyyənləşdirilmişdir.

A.Şaiqin uşaq əsərlərinin bir qisminin ilk nəşr taleyi qiraət kitabları ilə bağlıdır. XX əsrin ikinci onillliyində onun "Yaxşı arxa. Tülkü, qarğa, hacıleylək" (1911), "Tıq-tıq xanım. Tülkü, qarğa, hacıleylək" (1911), "Tülkü və xoruz" (1911- Sonrakı nəşrlərdə bu əsər "Tülkü həccə gedir" adı ilə təqdim edilir, "Murad" (1913), "Şələquyruq" (1913) və s. adlı kiçik həcmli oxu kitabları nəşr edilib azərbaycanlı balaların mütaliəsinə verilir. Biz buraya "Gözəl bahar" (1912) adlı uşaq pyesini, həmçinin ədibin alman yazıçısı V.Buşdan iqtibas edib ayrıca kitabça halında nəşr etdirdiyi "İki uşaq" (1906) əsərini də əlavə edə bilərik. "Alma oğrusu" mənzuməsinin də daxil edildiyi həmin kitabçanı A.Şaiq1912-ci ildə "Cəfər və Bəşir" adı ilə yenidən işığa çıxarmışdır.

Sənətkar o zamankı uşaq mətbuatı ilə də əlaqə saxlamışdır. Onun "Dəbistan"da 1(1906, №2), "Məktəb" jurnalında isə 2 (1912, №17; 1913, №6) şeiri dərc olunmuşdur.

Məlumdur ki, A.Şaiq övladlarımızdan örtrü dəyərli pyeslər də yazmış, ümumiyyətlə, Azərbaycan ədəbiyyatında uşaq dramaturgiyasının əsasını qoymuşdur. Onun uşaq pyeslərinin sayı altıdır. Bunlardan "Gözəl bahar" 1912-ci ildə, "Ürək tikmək, yaxud qurban bayramı" isə bir il sonra (1913) Bakıda ayrıca kitab halında nəşr edilmişdir. "Çoban" və "Danışan kukla" pyeslərinin ilk nəşr taleyi isə "Məktəb" jurnalı ilə bağlıdır. Birinci əsər jurnalın 1913-cü il 9-10-cu nömrələrində, ikincisi isə 1916-cı il 1-3 nömrələrində həyata vəsiqə qazanmışdır. Müəllifin 1912-ci ildə qələmə alınmış "İntiqamçı xoruz" və 1919-cu ildə ərsəyə gəlmiş "Tələbə həyatı" dramları uzun illər çap edilməmiş, sənətkarın şəxsi arxivində qalmış, yalnız 1972-ci ildə ilk dəfə onun 5 cilddə çap edilən "Əsərləri"nin üçüncü cildinə daxil edilmişdir.

Dediyimiz kimi, xeyli dərslik müəllif olan A.Şaiq həmin dərsliklər üçün elmi və publisistik mətnlər də yazmışdır. Həmin mətnlər isə yuxarıda adını çəkdiyimiz dərsliklərə salınmışdır.

A.Şaiqin 1936, 1948 və 1955-ci illərdə bir cilddən, 1957-1960-cı illərdə isə üç cilddən ibarət "Seçilmiş əsərləri" işıq üzü görür. Bir cildlik seçilmiş əsərlərə sənətkarın uşaq əsərlərindən xeyli seçmə nümunələr salınır. Üç cildlik seçilmiş əsərlərin üçüncü cildi isə bütövlükdə müəllifin uşaqlar və gənclər üçün yazdığı bədii irsi əhatə edir. Sənətkarın K.Talıbzadə tərəfindən tərtib edilmiş üç cildlik "Seçilmiş əsərləri" 2005-ci ildə təkrar çap olunmuşdur. Müəllifin təkcildlik "Seçilmiş əsərləri"nin 1984-cü il nəşrində də onun uşaq əsərlərindən seçmə örnəklər vardır.

1966-1978-ci illərdə yazıçının külliyyatı beş cilddə nəşr edilir. Azərnəşr tərəfindən çap edilən həmin çoxcildliyi A.Şaiqin oğlu K.Talıbzadə tərtib edib nəşrə hazırlamışdı. Beş cildlik "Əsərləri"nin üçüncü cildini ədibin uşaqlar və gənclər üçün yazdığı ədəbi nümunələr təşkil edirdi.

A.Şaiqin müxtəlif illərdə kiçik yaşlı uşaqlardan ötrü kiçik həcmli şəkilli kitabları da işıq üzü görmüşdür. Bunlardan "Yaz gəlir" (1945, 1968), "Yaxşı arxa, Tülkü həccə gedir" (1939, 1966, 1971, 1980), "Odunçu bağalar" (1936), "Gözəl bahar" (1940, 1968), "Nağıllar" (1945), "Tülkü həccə gedir" (1934, 1936, 1959, 1968, 1988, 2009), "Şeirlər və nağıllar" (1948), "Şeirlər və hekayələr" (1950, 1959) və s. kitabları göstərmək olar.

Onu da əlavə edək ki, A.Şaiq sovet dövründə də uşaqlar üçün xeyli əsərlər yazmış, bu istiqamətdə yaradıcılığını davam etdirmişdir. Bizim mövzu obyektimiz isə XIX əsrin II yarısı və XX yüzilliyin ilk iki onilliyi (sovet dövrünə qədərki dövr) olduğundan sənətkarın uşaq yaradıcılığının məhz həmin zaman kəsimindəki nəşr və tədqiq taleyini izləmək məqsədi güdürük.

A.Şaiqin tədqiqi işlərinin miqyas və çəkisinə gəlincə mənzərə təxminən belədir. Indiyə qədər sənətkarın həyat və yaradıcılığına ümumilikdə üç monoqrafiya həsr edilmişdir. Bu monoqrafiyaların müəllifi filoloq alimlərdən Ş.Əfəndiyeva və M.Meylman (həmmüəlliflər), Y.İsmayılov, nəhayət, Ə.Məmmədovdur. Ə.Məmmədovun monoqrafiyası iki dəfə (1956, 1983) nəşr olunmuşdur. Həmin monoqrafik tədqiqatlarda təbii olaraq sənətkarın uşaq yaradıcılığı da diqqət mərkəzində saxlanılmışdır.

Digər bir monoqrafiya yazıçının bədii nəsrinin araşdırılmasına həsr olunmuşdur. B.Maqsudoğlunun "Abdulla Şaiqin bədii nəsri" adlanan bu əsərdə ədibin uşaq nəsrinə, xüsusilə "Köç" hekayəsinin təhlilinə də yer verilir. T.Xəlilovanın "Abdulla Şaiqin tərcümə yaradıcılığı" adlı monoqrafiyasında isə bütövlükdə sənətkarın tərcümə yaradıcılığı araşdırılsa da, bu fonda onun tərcüməçilik fəaliyyətinin uşaq əsərlərinə təsiri, "kiçiklər üçün" yaradıcılıq manerasının formalaşmasında və inkişafında tərcümə əsərlərinin rolu da işıqlandırılmışdır. Uşaq ədəbiyyatımızın araşdırıcılarından Ə.Əzizov XX əsrin əvvəllərində Azərbaycanda kiçiklər üçün yaranan söz sərvətinin tədqiqinə həsr etdiyi "Uşaqların sevimliləri" kitabında A.Şaiqə ayrıca oçerkdə yer verməyi də unutmamışdır.

Sənətkarın yaradıcılığının bəhs etdiyimiz problemi ilə əlaqədar elmi məqalələr də yazılmışdır. C.Əhmədov "Abdulla Şaiq məktəbi" məqaləsində yazıçının Azərbaycan uşaq ədəbiyyatının inkişaf tarixində ayrıca məktəb yaratdığına diqqəti yönəldir (4, 5-22). Ə.Ağayev "Uşaqların sevimli şairi" məqaləsində Şaiqin uşaq şeirlərindən söhbət açır (2). Ə.Mirzəyev "Uşaq ədəbiyyatımızın ölməz banisi" (11), B.Muradov "Uşaq ədəbiyyatının görkəmli nüma-

yəndəsi" (12, s.25-26) məqalələrində əsas elmi təhlil hədəfi kimi yazıçının uşaq əsərlərini götürürdülər.

Təbii ki, Azərbaycan uşaq ədəbiyyatına aid dərsliklərdə də A.Şaiq daim diqqət mərkəzində dayanmışdır. Q.Namazovun, Z.Xəlil və F.Əsgərlinin, B.Həsənlinin, R.Yusifoğlunun dərsliklərində, X.Mustafayevanın dərs vəsaitində sənətkarın uşaq yaradıcılığı oçerk səpkisində və səviyyəsində işıqlandırılmışdır.

XX əsrin əvvəllərində maarifçi-realist uşaq nəsrinin inkişafında müəyyən xidmətləri olan nasirlərimiz cərgəsində İbrahim bəy Musabəyovun da adını çəkə bilərik. O həm də "Neft və milyonlar səltənətində" (1917) adlı məşhur povestin müəllifidir. Ibrahim bəyin kiçiklər və uşaqlar üçün qələmə aldığı "Cəhalət fədailəri" adlı bir povesti, "Rəhimli arvad" və "Rzanın qutusu" ünvanlı iki hekayəsi, "Çay" sərlövhəli elmi-publisistik məqaləsi bizə bəllidir. "Cəhalət fədailəri" 1914-cü ildə "Cavanlar üçün hekayə" qeydi ilə ayrıca kitabça halında çap edilmişdir. "Rəhmli arvad" (1913, №8), "Rzanın qutusu" (1913, №3) hekayələri və "Çay" (1913, №5) publisistik məqaləsi ilk dəfə "Məktəb" jurnalının səhifələrində oxuculara çatdırılmışdır.

Adını çəkdiyimiz orijinal nəsr nümunələrindən əlavə İ.Musabəyovun rus dilindən tərcümə və iqtibas etdiyi əsərləri də vardır. Bu əsərlər yeniyetmələr üçün gözəl mütaliə materialdır. Həmin bədii nəsr tərcümələrindən "Kor və onun yoldaşı" hekayəsi "Məktəb" jurnalında (1913, №17-19), "İki dost – iki yol" hekayəsi 1913-cü ildə, "Üç hekayə" adlı hekayələr kitabı isə 1915-ci ildə ayrıca kitab halında Bakıda nəşr edilmişdir.

Sənətkarın uşaqlar və yeniyetmələr üçün qələmə aldığı bədii nümunələrin sonrakı nəşr taleyi belədir. Onun 1958-ci ildə işıq üzü görən "Povest və hekayələr" kitabına "Cəhalət fədailəri" və "İki dost – iki yol" adlı tərcüməsi 1974-cü ildə çap olunan "Neft və milyonlar səltənətində" kitabına isə başqa bir neçə əsəri ilə yanaşı, "Cəhalət fədailəri" povesti və "Rzanın qutusu" hekayəsi də daxil edilmişdir. Bu nəşrlərin tərtibçisi Abuzər İsmayılovdur. Yazıçının əsərlərinin 1984-cü il və 2006-cı il nəşrlərinə isə onun yuxarıda adını çəkdiyimiz istər orijinal, istərsə də tərcümə nümunələrinin hamısı salınmışdır. Gülzar Məmmədovanın tərtib etdiyi bu nəşrlər "Neft və milyonlar səltənətində" adı ilə meydana çıxmışdır.

G.Məmmədova (İbrahimqızı) İ.Musabəyovun həyat və yaracılığına həsr etdiyi monoqrafiyada (2015), həmçinin "İ.Musabəyovun hekayələri haqqında" (7), "İ.Musabəyovun nəsri" (8, s.28-31), "İ.Musabəyov və "Məktəb" jurnalı" (9, s.34-36) adlı məqalələrində yazıçının uşaq əsərlərinin müəyyən məziyyətlərindən də bu və ya digər dərəcədə söhbət açmışdır. Sənətkarın nəşr olunan kitablarına yazılmış ön sözlərdə də eyni mənzərə ilə üzləşirik.

Abdulla bəy Divanbəyoğlu uşaqlardan ötrü iki hekayə yazmışdır. "İlan" (1906, №7), "Fəhlə" (1906, №16), adlanan həmin nəsr nümunələrinin hər ikisi ilk öncə "Dəbistan" jurnalında oxuculara təqdim edilmişdir. Daha sonra isə ədibin "Can yanğısı" (1972, 1981) adı ilə tərtib və nəşr edilmiş əsərlərinə daxil olunmuşdur. Kitabın tərtibçisi yazıçının həyat və yaradıcılığının araşdırıcısı İ.Bəktaşidir. Ədəbiyyatşünas alim "Abdulla bəy Divanbəyoğlu" ünvanlı monoqrafiyasında (1984) müəllifin adını çəkdiyimiz hekayələrinin təhlilinə də diqqət yetirmişdir.

XX yüzilliyin əvvəllərində uşaq poeziyamızı zənginləşdirən şairlərimizdən biri də Ə.Müznib idi. 30-cu illərin irticaçı hakim bolşevik burulğanında repressiya qurbanına çevrilmiş Əlabbas Müznib uzun müddət unudulmuş, yalnız müstəqillik dövründə yenidən nəşr və tədqiq olunmağa başlamışdır. O, XX əsrin 10-cu illərində "kiçiklər üçün" bir neçə mənzum əsər yazıb yığcam həcmli oxu kitabları kimi nəşr etdirmişdir. Həmin əsərlərdən "Uşaqlara ibrət" (1911, 1919), "Çəkməsilən" (1911), "Sibiriya məktubları" (1913), "İbrət taziyanəsi" (1916) və s. kitabçaları göstərmək mümkündür. Bunlar orijinal məzmunlu bədii nümunələr idi. Bundan əlavə müəllif "Qiraət" (1914) adlı bir oxu kitabı da nəşr etdirmişdi. Buraya nəzm və nəsrlə tərcümə və ya iqtibas edilmiş kiçik həcmli 20-dən artıq bədii mətn daxil edilmişdi.

Ə.Müznib "Məktəb" jurnalı ilə də yaxından əlaqə saxlayan şairlərimizdən idi. 1911-1915-ci illər ərzində onun jurnalda 13-ə qədər uşaq şeiri dərc edilmişdi (1911, №1, 2; 1912, №5, 22; 1913, №22; 1914, №1, 2, 4, 10, 11, 13, 18; 1915, №5).

Əsərlərinin nəşri və tədqiqi uzun illər diqqətdən kənarda qalmış sənətkarın yuxarıda adlarını çəkdiyimiz kitablarındakı əsərləri onun 2007-ci ildə Sona Xəyal tərəfindən tərtib edilmiş "Seçilmiş əsərləri"nə daxil edilmişdi. "Məktəb" jurnalındakı poeziya örnəklərindən beşi isə "Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası"nda verilmişdir (1, 97-101). Onun uşaq əsərlərinin tədqiqi sahəsində isə ciddi bir boşluq vardır. Çünki bu aspektdə, ümumiyyətlə, elə bir addım atılmamışdır.

Ədəbiyyat

1. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. (tərtib edənlər: Məmmədov M., Salamoğlu T., Babayev Y.). Bakı, 1998.
2. Ağayev Ə. Uşaqların sevimli şairi. "Azərbaycan müəllimi" qəz., 1981, 10 iyun.
3. Allahverdioğlu P. "Qorxulu nağıllar"da təhsil və tərbiyə məsələləri. "Azərbaycan məktəbi" jur., 1968, №10.
4. Əhmədov C. Uşaq və zaman. Bakı, 1986.
5. Hacıyev A. Uşaq aləminin tərənnümü. "Azərbaycan müəllimi" qəz., 1975, 24 dekabr.
6. Xəndan C. Süleyman Saninin hekayələri. "Ədəbiyyat qəzeti", 1939, 3 aprel.
7. Məmmədova G. İ.Musabəyovun hekayələri haqqında. "Azərbaycan" jur., 1973, №7.
8. Məmmədova G. İ. Musabəyovun nəsri. "Ulduz" jur., 1979, №10.
9. Məmmədova G. İ. Musabəyov və "Məktəb" jurnalı. Azərb. SSR EA-nın xəbərləri. 1980, №1.
10. "Məktəb" jur. (1911-1920).
11. Mirzəyev Ə. Uşaq ədəbiyyatının ölməz banisi. "Azərbaycan müəllimi" qəz., 1981, №2.
12. Muradov B. Uşaq ədəbiyyatının görkəmli nümayəndəsi. "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jur., 1981, №2.
13. Talıbova S. Uşaq ədəbiyyatı inciləri. "Zəhmətkeş" qəz., 1975, 25 dekabr.
14. Vəlixanov N. "Qorxulu nağıllar" XX əsr Azərbaycan maarifçi-realist nəsrinin nümunəsi kimi. "Azərbaycan" jur., 1975, №12.
15. Zamanov A. Uşaqların sevimli yazıçısı. "Pioner" qəz., 1955, №10.

С.Г.Расулова

Об издании и исследовании просветительско-реалистической детской литературы
(С.С.Ахундов, А.Шаиг, И.Мусабеков, А.Диванбекоглы, А.Музниб)
Резюме

В статье речь идет о мастерах слова, живших и творивших в конце XIX- начала XX века, об их произведениях, отразивших детский мир, а также издание и исследование проблем детской литературы. Несмотря на то, что детское творчество таких писателей, как С.С.Ахундов, А.Шаиг, И.Мусабеков, А.Диванбекоглы и А.Музниба в определенной степени изучены и изданы, в то же время их некоторые произведения остались вне поля зрения исследователей. В статье мы стремимся к выяснению моментов, связанных с упущением в этой области.

S.H.Rasulova

On research and publication of enlightenment-realist child literature
(S.S.Akhundov, A.Shaig, I.Musabayov, A.Divanbayoglu, A. Muznib)
Summary

The article deal with the child works publication and research problem of some writers which lived and created at the end of XIX and early of XX century. These writers are S.S.Akhundov, A.Shaig, I.Musabayov, A.Divanbayoglu and A. Muznib. Some writers'child creativities have been learned and works are published. Some creativities are stayed out of sight. In the article we have tried to clear up these issues. At the same time we have made efforts to clear up the works importance doing in this area.

Rəyçi: filol.e.d. Y.Babayev
Redaksiyaya daxil olub: 17.05.2017

Ş.ŞAMIOĞLU (MUSAYEV)
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: shindi61@mail.ru

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

MİRZƏ FƏTƏLİ AXUNDZADƏ MİRZƏ BALA MƏHƏMMƏDZADƏNİN MÜHACİRƏT DÖVRÜ ƏDƏBİ-ELMİ İRSİNDƏ

Açar sözlər: *Axundzadə, Mirzə Bala Məhəmmədzadə, mühacirət, irs, mühit, həyat, ədəbiyyat*
Ключевые слова: *Ахундзаде, Мирза Бала Мамедзаде, эмиграция, наследие, среда, жизнь, литература*
Key words: *Akhundzade, Mirza Bala Mamamdzade, immigration, heritage, environment, life, literature*

Mirzə Bala Məhəmmədzadə (1898, Bakı – 1959, İstanbul) Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni və elmi fikir tarixində müstəsna xidmətləri olan görkəmli şəxsiyyətlərdəndir. Siyasi mühacir olması səbəbindən Sovet hakimiyyəti illərində onun həyatı, çoxşaxəli fəaliyyəti, zəngin yaradıcılığı tədqiqatlardan kənarda qalmış, elmi və ədəbi irsinin nəşri, təbliği sahəsində heç bir iş görülməmişdir. Halbuki nəinki mühacirətdə, hələ Vətəndə olduğu dövrlərdə, XX əsrin 20-ci illərinə qədər M.B.Məhəmmədzadə olduqca səmərəli fəaliyyət göstərmiş, çalışdığı mətbuat orqanlarında cəmiyyəti düşündürən ən aktual problemlərlə bağlı publisistik yazılarla çıxış etmişdir. O, mühacirətə qədər «İki inqilab arasında» (1918, Tiflis) və «Azərbaycan türk mətbuatı» (1922, Bakı) monoqrafik əsərləri ilə milli mətbuat tarixinin tədqiqinin əsasını qoyanlardan biridir.

Azərbaycan siyasi müstəqilliyini yenidən bərpa edəndən sonra mühacirət irsimizin, eləcə də mühacirət ədəbiyyatşünaslığımızın tədqiqinə başlanılmışdır. Tanınmış mühacirətşünas alim Nikpur Cabbarlı M.B.Məhəmmədzadənin bədii və ədəbiyyatşünaslıq irsi üzərində tədqiqatlar aparmışdır. Bu tədqiqatların nəticəsi kimi onun «Mühacirət və klassik ədəbi irs» monoqrafiyası meydana çıxmışdır (1).

M.B.Məhəmmədzadənin Türkiyədə mühacirət illərində qələmə aldığı elmi əsərləri içərisində klassik ədəbiyyatımıza dair araşdırmaları xüsusi yer tutur. Qeyd edək ki, M.B.Məhəmmədzadənin mühacirət dövrü elmi irsində M.F.Axundzadə (1812-1878) ilə bağlı tədqiqatları bütövlükdə ədəbiyyatşünaslığımıza layiqli töhfələr olmaqla yanaşı, böyük ədibin Türkiyədə öyrənilməsi işində də faydalı rol oynamışdır və bu gün müasir türkiyəli araşdırıcılar üçün bolbol materiallar verməkdədir. Məqalədə M.B.Məhəmmədzadənin mühacirət dövrü elmi irsinə daxil olan üç əsəri üzərində təhlillər aparacağıq. Bunlar - «Fətəli Axundzadə» (2), «Mirzə Fətəli və əlifba inqilabı» (3) və «Mirzə Fətəli və Puşkin» (4) məqalələridir.

«Fətəli Axundzadə» məqaləsi 1945-ci ildə İslam Ensiklopediyasında, digər iki məqalə isə Ankarada nəşr olunan «Azərbaycan» dərgisində çap olunmuşdur. Onu da qeyd edək ki, hər üç məqalədə müəyyən faktoloji yanlışlıqlara rast gəlinir ki, bunlar da obyektiv səbəblərlə bağlıdır; mühacirətdə müəllifin əlinin altında yetərincə müvafiq ədəbiyyat yox idi; üstəlik məqalələrin yazıldığı illərdə Azərbaycanın özündə belə axundzadəşünaslıq hələ formalaşma mərhələsində idi. Onu da vurğulamaq lazımdır ki, məqalələrdə M.B.Məhəmmədzadənin özünün siyasi baxışlarından doğan tendensiyalı fikir və mülahizələr də yer almaqdadır. Özü də bu, bir çox hallarda ifrat dərəcəyə çatır. Sırf subyektiv yanaşmadan doğan təhlillərin isə mütləq həqiqət kimi təqdim olunması təəssüf doğurur və M.B.Məhəmmədzadənin bəlli elmi təfəkkür səviyyəsi ilə bir araya qətiyyən sığışmır.

M.B.Məhəmmədzadə «Fətəli Axundzadə» məqaləsinin giriş hissəsində M.F.Axundzadənin mənsub olduğu xalqın mənəviyyat tarixindəki rolunu tamamilə düzgün qiymətləndir-

miş, onu türk oxuculara «... Türkcə komediyaları ilə yeni azəri ədəbiyyatının əsasını quran ilk teatr müəllifi və hekayəçi, təfəkkür baxımından ilk Qərbçi və tənqidçi və ərəb əlifbasını dəyişdirmək yolundakı təsəvvür və təşəbbüsləri ilə türkçədə əlifba inqilabının mübəşşiri» kimi təqdim etmişdir (2, s. 577). Məqalədə M.F.Axundzadənin həyatının ilk çağları, atası ilə anasının ayrılması səbəbindən körpə ikən bir ailə dramı yaşaması, «ikinci ata»sı Axund Hacı Ələsgərin onu himayəsi altına alması, Cənubi Azərbaycanın kəndlərində keçən uşaqlıq illəri, Axund Hacı Ələsgərin onu din alimi kimi yetişdirmək niyyəti və s. dəqiqliklə verilmişdir. M.F.Axundzadənin ilk təhsil məsələsinə xüsusi diqqət ayıran M.B.Məhəmmədzadə onun rus məktəbinə daxil olmasını, rus dilini öyrənməsini planlı bir məsələ hesab etmişdir. O, Fətəlinin rus dilini öyrənməyə cəhd göstərməsi ilə ruhanilik yolundan birdəfəlik əl çəkməsi arasında «sirli» bir bağlılıq olduğunu düşünür. M.B.Məhəmmədzadə yazırdı: «Üzərində durulacaq mühüm bir nöqtə bu ruscanı öyrənmə təşəbbüsünü ondan daha mühüm olan ikinci bir hadisə təqib edir...» (2, s. 578). Onun işarə etdiyi «ikinci bir hadisə» məhz Fətəlinin gələcək yolunu büsbütün dəyişən Tiflisə getməklə cəsarətli bir addım atması idi: «Hacı Ələsgərin Fətəlini özü kimi din alimi yetişdirmək əməli, Fətəlinin öz tərcümeyi-halında təsvir etdiyinə görə, «araya girən başqa bir məsələ üzündən» nəticəsiz qalır» (2, s. 578). Doğrudur, M.B.Məhəmmədzadə «araya girən başqa bir məsələ» deyəndə M.F.Axundzadənin nəyə işarə etdiyini dəqiqləşdirə bilməsə də (Mirzə Şəfi ilə gənc Fətəli arasında məşhur mükalimə nəzərdə tutulur – Ş.Ş.), hər halda onun ilkin dünyagörüşünün dəyişməsinin arxasında çox ciddi səbəblərin dayandığını söyləməklə və fikirlərini əsaslandırmaqla problemə özünəməxsus elmi yanaşma nümayiş etdirmişdir. M.B.Məhəmmədzadə bunu Türkmənçay müqaviləsindən (1828) sonra Şimali Azərbaycanda yaranan yeni ictimai-siyasi-tarixi situasiya ilə bağlamışdır. M.B.Məhəmmədzadənin fikrincə, bölgədə Rusiyanın nüfuzunun bərqərar olması, siyasi hadisələrdən geriyə dönüşün artıq mümkünsüzləşməsi yerli hakim zümrəni sarsıtmış və «onları ruslar ilə anlaşma yolunu tutmağa sövq etmişdir». Və az bir müddət içərisində «yeni şərtlərə uyaraq rus xidmətinə girən daha ilk nəsil arasından islami Şərq mədəniyyəti ilə Qərb mədəniyyətini mezce çalışanlardan təşəkkül edən yeni bir münəvvər zümrə» (2, s. 578) formalaşmışdır. M.B.Məhəmmədzadə bu yeni zümrənin ilk nümayəndələri kimi M.Ş.Vazeh, A.Bakıxanov, Mirzə Kazım bəy və M.C.Topçubaşovun adlarını çəkmişdir. O bununla da sovet axundzadəşünaslığında Mirzə Şəfinin bir danlağı və təkidi ilə («Demək, riyakar və şarlatan olmaq istəyirsən?.. Öz ömrünü bu iyrənc camaatın sıralarında zay etmə! Başqa bir peşə dalınca get!») Fətəlinin ruhanilik yolundan əl çəkib, Tiflisə dövlət qulluğuna getməsi ilə bağlı məşhur və çoxdan oturuşmuş, əslində siyasi sistemin ideoloji əlağacı olan ateizmdən doğan səbəb «fəlsəfə»sini rədd etmişdir. Zənnimizcə, Fətəlini Tiflisə aparan səbəb, daha doğrusu, onun ilkin dünyagörüşünün kökündən dəyişməsi dövrün ictimai-siyasi hadisələri ilə birbaşa bağlı olmuşdur və bu məsələdə M.B.Məhəmmədzadənin mülahizələri ilə tamamilə şərikik.

Məqalədə Qafqaz canişinliyində tərcüməçi işləyən M.F.Axundzadənin bədii yaradıcılıq sahəsində uğurlarına diqqət çəkilmişdir. M.F.Axundzadənin özünün yazdığı tərcümeyi-hala istinad edən M.B.Məhəmmədzadə bu uğurların arxasında siyasi məqsədlərin də dayandığına işarə etmişdir: «Əsərləri «Təmsilat» adı altında daha o zaman çap edilmiş və Tiflis sarayında təmsil edilmişdir. Rus valisinin türkçəyə qarşı bu «iltifatı» Azərbaycanda fars mədəniyyəti nüfuzunu qırmaq, yerinə rus nüfuzunu gətirmək kimi bir sıra siyasi səbəblərdən irəli gəldiyi, sonradan nəşr edilmiş və Azərbaycanda rus müstəmləkəçilik siyasətini göstərən sənədlərdən də anlaşılmaqdadır» (2, s. 578). Qeyd edək ki, bu məsələyə M.Ə.Rəsulzadə 1928-ci ildə yazdığı «Qafqaz türkləri» əsərində toxunmuşdur (5). M.Ə.Rəsulzadə M.B.Məhəmmədzadədən hələ 17 il əvvəl Rusiyanın məlum siyasi niyyəti barədə yazmışdır: «...Rusiya Şərqi Qafqazdakı İran nüfuzuna qarşı qoymaq üçün milli Azərbaycan türkçəsində yazı yazmağı təşviq etmişdir. Müasir Azərbaycan ədəbiyyatının yaradıcısı adlandırılan Mirzə Fətəli məşhur komediyalarını Qafqaz canişini Vorontsovun təşviqi ilə yazmış və ilk türk komediyası Tiflis sarayında oynandığı kimi, mərhumun əsərləri də canişinin mətbəəsində çap edilmişdir» (5, s. 29).

Şübhəsiz ki, M.S.Vorontsovun M.F.Axundzadəyə «iltifat» ının arxasında bəlli məqsədlər dayanırdı; Qafqazda milli-mədəni təsisatların yaradılması ilə bir tərəfdən, yazıçılar təşviq edilirdisə, digər tərəfdən, əsas məqsəd farsca yazmaq ənənəsini sıradan çıxarmaq idi. Bu məsələlər siyasi fonda aparılsa da, siyasi məqsədlərə hesablansa da, tarixin bir lütfüdür ki, sonda milli ədəbiyyata və mədəniyyətə xidmətə çevrilirdi. Bu mənada M.F.Axundzadə ilə gürcü dramaturqu G.Eristavi zahirən bu siyasətin mahir oyunçuları kimi görünsələr də, onların yaradıcılığı milli ədəbiyyatın yeni növ və janrlarla zənginləşməsi işinə xidmət etmişdir. Bu baxımdan, M.B.Məhəmmədzadənin gəldiyi nəticə tamamilə doğrudur: «Fətəli Azərbaycanda istər milli fikir, istərsə də milli sənət sahəsində bir dövr açan yeni bir ədəbi məktəb qurmağa müvəffəq olmuşdur» (2, s. 578-579).

Təhlillər göstərir ki, çarizmin məqsədi yalnız fars təsirini aradan qaldırmaq olmamışdır. Milli mədəniyyətə qayğı fonunda planlı şəkildə ruslaşdırma siyasəti aparılmışdır. Yəni yekunda fars təsirinin rus təsiri ilə əvəzlənməsi niyyəti güdülmüşdür. 1845-ci ildə Tiflisdə rus teatrının yaradılması həmin niyyətin gerçəkləşməsinə, yerli əhali arasında rus dilinin və mədəniyyətinin yayılmasına xidmət edirdi. Canişin M.S.Vorontsov Rusiya İmperator Teatrının direktoru Gedeonova məktubunda bunu açıq yazır, ondan qastrol üçün Tiflisə bir teatr truppası göndərməsini xahiş edirdi (6, s. 9). Qafqaz canişini elə həmin gün dostu Şepkinə göndərdiyi məktubda isə Moskvadan münasib bir truppa göndərməsini istəyir və bunun əhəmiyyətini izah edirdi (6, s. 10). Tədqiqatçı Alı Musayev Tiflisdə rus teatrının açılmasından bəhs edərkən canişin M.S.Vorontsovun 1850-ci ildə I Nikolaya göndərdiyi məktuba diqqət çəkir. Məktubda qeyd olunur ki, əsas məqsəd yerli əhalinin ruslarla qaynayıb-qarışmasını təmin etməkdir... (7, s. 12).

M.B.Məhəmmədzadə tədqiqatlarında M.F.Axundzadənin yeni əlifba layihəsi və onun həyata keçirilməsi uğrunda inadlı mübarizəsinə də geniş yer ayırmışdır. O, «İslam Ensiklopediyası» üçün yazdığı məqaləsində M.F.Axundzadənin bu sahədə fəaliyyətini ardıcıllıqla izləmiş, onun İstanbula və Tehrana müraciətlərinin nəticəsiz qaldığını, uğursuzluqlardan təsirlənərək bir neçə bədii əsər yazdığını göstərmişdir. Qeyd edək ki, M.B.Məhəmmədzadə M.F.Axundzadənin əlifba ilə bağlı çalışmalarından daha geniş şəkildə «Mirzə Fətəli Axundzadə və əlifba inqilabı» məqaləsində bəhs etmişdir (3). Dərin elmi məzmuna malik həmin məqalədə bəzi mübahisə doğuran mülahizələrə də rast gəlinir. M.B.Məhəmmədzadə təhlillərdən sonra belə hökm verir ki, M.F.Axundzadənin əlifba layihələrini «xidmətində olduğu rus hökumətinə deyil, Osmanlı dövləti ilə İrana qəbul etdirmək» istəyinin arxasında onun Rusiyaya barışmaz münasibəti dayanmışdır. Ümumiyyətlə, M.B.Məhəmmədzadə hər üç məqaləsində M.F.Axundzadənin Rusiyaya, «rusiyaçılığa» düşmən münasibət bəslədiyini yazmışdır. Onun fikrincə, M.F.Axundzadə Türkiyə və İrandan əli üzülsə də, yeni əlifba ilə bağlı mübarizəsini sonacan davam etdirmiş, lakin «... rus kanalı ilə bu layihənin reallaşmasını əsla ağlından keçirməmişdir. Zamanının rus hökmdarı çar I Nikolayı «dünya ölçüsündə bir quldur» olaraq təsvir edən və müsəlman millətlərini çağdaş mədəniyyət səviyyəsinə yüksəltmək istəyən Mirzə Fətəli başqa cür də hərəkət edə bilməzdi» (3, s. 4). Əslində bu mülahizələrlə o, M.F.Axundzadənin Türkiyə ilə İranı seçməsi ilə bağlı məsələnin mahiyyətini bir kənara qoyaraq, problemi siyasiləşdirməyə, islahatçı mütəfəkkirin guya Rusiya hökumətinə qarşı müxalifətdə olduğunu göstərməyə çalışmışdır. Təfərrüata varmadan qısaca qeyd edək ki, M.F.Axundzadə 1857-ci ildə əlifba layihəsini Türkiyə və İranın, eləcə də Avropanın beş mühüm dövlətinin hökumət başçılarına və elmi dairələrinə məhz rəsmi kanallarla göndərmişdir. M.F.Axundzadənin epistolyar irsindən görünür ki, onun yeni əlifba ilə bağlı çalışmaları ən xırda detallarına qədər Tiflisdə rəsmi dairələrin diqqətində olmuş, özü isə hər addımını bu dairələrlə razılaşdırmışdır. Əlifba məsələsində Türkiyə və İran «kanal» ının işə salınmasının səbəblərini digər mühacir tədqiqatçı Əbdülvahab Yurdsevər daha düzgün qiymətləndirmişdir: «Ustad bu layihəsini öncə Osmanlı hökumətinə təklif etmişdi. Çünki Osmanlı imperatorluğu bütün İslam dünyasında dini və mənəvi müstəsna nüfuza sahib idi. Bu hərəkət, eyni zamanda, Mirzə Fətəlinin türk və islam dünyasına dərin bağlılığını göstərməkdədir. O hər hansı fərdi bir

hərəkətdən qaçmışdır. Əgər əlifbanın islahatına və ya büsbütün dəyişdirilməsinə lüzum varsa, onun fikrincə, bu heç olmasa, Türkiyə və İranla birlikdə həyata keçirilməli idi. Təkbaşına edilə bilməzdi. Zira Azərbaycanın Türkiyə və İranla mədəni bağları qoparıla bilməzdi» (8, s. 21).

M.B.Məhəmmədzadənin bu məsələdə yanlış mövqeyi, problemə kifayət qədər emosional münasibəti, görünür, həm də əlifba ilə bağlı sovet siyasi rejiminin ikibaşlı siyasət yeritməsi olmuşdur. Azərbaycanda ərəb qrafikalı əlifbanın rəsmən 1929-cu ildə latın qrafikası ilə əvəzlənməsindən cəmi on il sonra, 1939-cu ildə kiril əlifbasına keçidi M.B.Məhəmmədzadə M.F.Axundzadə idealına xəyanət kimi qiymətləndirmiş, haqlı olaraq bunu düşünülmüş siyasətin tərkib hissəsi saymışdır: «Türkiyə ilə rus əsarətindəki türklər arasında mədəni birlik bağlarını qoparmaq üçün latın əlifbasını qaldıraraq, rus əlifbasını tətbiqə başladı» (3, s. 5).

M.F.Axundzadənin çar I Nikolayı «dünya ölçüsündə bir quldur» adlandırması ilə bağlı hökm isə həqiqətdən uzaqdır. Ədibin «A.S.Puşkinin ölümünə Şərq poeması» kimi məşhurlaşan qəsidəsinin farsca orijinalında və «Московский наблюдатель» jurnalında ilk dəfə dərc edilən mətndə belə bir ifadə işlədilməmişdir. Bəs nədən M.B.Məhəmmədzadə M.F.Axundzadənin adından belə bir ittiham səsləndirmişdir? Bu və ya digər suallara aydınlıq gətirmək üçün əsərin farsca orijinalı (9), ilk çap variantı (10, s. 297-302; 11, s. 145-151) və ikinci çap variantı (12, s. 76-79) arasında müəyyən fərqlərə nəzər salmaq lazımdır.

Qeyd edək ki, M.F.Axundzadə əsəri fars dilində yazmış, ona heç bir ad qoymamışdır. «Məşhur və böyük rus şairi Puşkinin vəfatı münasibətilə Mirzə Fətəli Axundzadə tərəfindən 25 yaşında yazılmış təziyyə qəsidəsidir» əsərin adı deyil, sadəcə qəsidəyə müəllifin ithaf sözləridir. M.F.Axundzadə qəsidəni özü nəsrlə rus dilinə çevirmiş, ona 12 izahat əlavə edərək o zaman Tiflisdə qulluq edən İ.İ.Klementyevə təqdim etmişdir. İ.İ.Klementyev qəsidəni özünün məktubu ilə bir yerdə jurnalın redaktoru S.P.Şevıryova göndərmişdir. Jurnalın redaksiyası «Puşkinin məzarına qoyulan bu gözəl çiçəyi» heç bir dəyişiklik etmədən 1837-ci il mart nömrəsində çap etmişdir. Əsərdə yalnız bir yerdə çar I Nikolayın adı çəkilmişdir, özü də tamamilə müsbət planda.

Farsca orijinalda:

«Gereit şöhrəte fəzləş cehan be don gune
Ke şöhrəte Nikolay əz xətay ta tatar» (9)

«Московский наблюдатель» də:

«Распространилась слава его гения по Европе, как могущество и величие Николая от Китая до Татарии» (11, s. 149).

Qəsidə ikinci dəfə 1874-cü ildə «Русская старина» məcmuəsinin XI sayında Adolf Berjenin qısa təqdimatı ilə çap olunmuşdur (12, s. 76-79). Məcmuədə qəsidə ilk dəfə məhz poema adlandırılmışdır: «A.S.Puşkinin ölümünə Şərq poeması». A.Berjenin qeydlərindən bəlli olur ki, qəsidənin «Московский наблюдатель» jurnalında çapından bir az sonra baron Rozen onunla bir yerdə Abxaziyada, Sebelda rayonunda hərbi ekspedisiyada olan (M.F.Axundzadə də həmin ekspedisiyanın iştirakçısı idi) rus yazıçısı A.A.Bestujev-Marlinskidən əsəri müəlliflə birlikdə rus dilinə tərcümə etməsini xahiş etmişdir. A.A.Bestujev-Marlinski xahişə tez bir zamanda əməl etmişdir. Bu, rus yazıçısının sonuncu işi olmuşdur, az sonra o, dağlılarla döyüşdə öldürülmüşdür. Görünür, bu qısa tarixçəni A.Berjeyə M.F.Axundzadənin özü danışmışdır və qeyd edək ki, qəsidənin surətini də ona müəllif vermişdir. Buradan, həmçinin, o da aydınlaşır ki, qəsidəni məhz A.Berje poema adlandırmışdır.

Əsərin ilk çap mətni ilə A.A.Bestujev-Marlinskinin üzərində iş apardığı mətnin tutuşdurulması onu göstərir ki, rus yazıçısı qəsidəni başdan-başa yenidən tərcümə etməmişdir. O yalnız xırda redaktə işləri aparmışdır (9; 10, s. 297-302; 11, s. 145-151; 12, s. 76-79). «Московский наблюдатель»dən gətirdiyimiz sətirdə «...и величие Николая» sözləri çıxarılmış və sətir «Русская старина»da bu şəkildə verilmişdir:

«Разошлась слава его по Европе, как могущество царское…» (12, s. 78).

Daha sonra mətndə orijinaldan fərqli hissələrə rast gəlirik ki, məhz onlar da M.B.Məhəmmədzadənin yanlış düşüncəsinə səbəb olmuşdur. Həmin hissələrdən əsas birinin fərqlərinə nəzər salaq:

M.F.Axundzadənin ruscaya tərcüməsində («Московский наблюдатель»): «Россия в скорби восклицает о нем: «О убитый рукою убийцы-злодея» (10, s. 302; 11, s. 151).

A.A.Bestujev-Marlinskinin redaktəsində («Русская старина»): «Россия в скорби и воздыхании восклицает по нем: «Убитый зладейской рукою разбойника мира» (12, s. 79).

Yeri gəlmişkən qeyd edək ki, qəsidə bu vaxta qədər Azərbaycan dilinə M.Müşfiq, B.Qasımzadə və C.Xəndan tərəfindən tərcümə edilmişdir və tərcümələrin heç birində «dünyanın qulduru» ifadəsi işlənməmişdir. Azərbaycan dilinə tərcümələrdən ikisinə nəzər salaq:

«Rusiya dad-fəğan ilə sual etdi yenə:
«Nə üçün quldur əlindən bu təbiət də sənə
Bir xilaskar ana qəlbilə aman vermədi, ah!» (13, s. 232).

Yaxud:

«Rus torpağı yas tutub, fəğan qılır ki,
- Ey qatillər əlilə ölən namidar» (14, s. 158).

Orijinaldan fərqli olaraq tərcümələrdə yalnız «Nikolay» əvəzinə «çar» sözü işlədilmişdir. A.A.Bestuyev-Marlinskinin 1990-cı ildə Bakıda rus dilində çap edilən «Seçilmiş əsərləri» nə isə onun tərcüməsi kimi daxil edilən qəsidə «Русская старина»da olan adla və həmin versiyada verilmişdir (15, s. 224-227).

Göründüyü kimi, M.F.Axundzadə çar I Nikolayı əsərində «dünya ölçüsündə bir quldur» adlandırmamışdır. A.A.Bestujev-Marlinskinin «Русская старина» dakı məlum tərzdə redaktəsi sovet ideologiyasının işinə yaradığından M.F.Axundzadənin çara qarşı müxalif mövqedə olması barədə uydurmalar bəzən elmi ədəbiyyatlara da sirayət etmişdir. Beləliklə, çar Rusiyasının və Sovet hakimiyyətinin timsalında rus siyasi rejiminə qatı düşmən mövqeyində olan M.B.Məhəmmədzadənin məlum səhv mülahizəsinin nədən və haradan qaynaqlandığını anlamaq olur.

M.B.Məhəmmədzadə «Mirzə Fətəli və Puşkin» məqaləsində (4) M.F.Axundzadənin sözügedən qəsidəsinin leytmotivi, eləcə də onu hansı mənbələrdən bəhrələnərək yazması məsələsində də aşkar ziddiyyətli fikirlər söyləmişdir. Onun yazdığına görə, M.F.Axundzadə 1850-ci ildən etibarən dram yaradıcılığına başlarkən guya fransızcanı da öyrənməyə müvəffəq olmuşdu, «fəqət 1837-ci ildə Puşkinin ölümünə ithaf etdiyi məsnəvi yazıldığı zaman Qərb dillərindən heç birinə vaqif sayılmazdı» (4, s. 6). Əvvəla, M.F.Axundzadə, ümumiyyətlə, Qərb dillərindən heç birini, o cümlədən fransızcanı bilməmişdir. 6 dekabr 1872-ci ildə fransalı diplomat müsyö Nikolaiyə məktubundan da bunu görmək olar: «Mən özüm rus dilindən başqa, Avropa dillərindən heç birisini bilmirəm» (16, s. 215). İkincisi, görəsən, rus şairi haqqında qəsidə yazmaq üçün M.F.Axundzadəyə Qərb dillərindən hansınısa bilmək nəyə görə vacib olmalı imiş? M.B.Məhəmmədzadənin qənaətindən belə çıxır ki, müəllif qəsidədə «... Puşkin də daxil olmaqla rus ədiblərini yetişdirən Qərb ədəbiyyatı və mədəniyyətinə daha artıq yer ayırmışdır» (4, s. 6) və o səbəbdən də Qərb dillərindən heç birini bilmədiyindən ona lazım olan məlumatları Osmanlı türkçəsi vasitəsilə və yaxud axtarmaq yolu ilə əldə etmişdir. Zənnimizcə, geniş şərhə ehtiyac yoxdur. Qısaca onu qeyd etmək lazımdır ki, qəsidədə Qərb ədəbiyyatı və mədəniyyətindən söhbət belə getmir, M.F.Axundzadənin həmin qəbildən məlumat axtarışlarına isə heç bir lüzum ola bilməzdi. A.S.Puşkinə Avropa ədəbiyyatının təsiri məsələsinə gəlincə isə bu, tamamilə başqa problemdir və M.F.Axundzadə qəsidəsində qarşısına həmin problemin həlli ilə bağlı vəzifə qoymamışdır.

Məqalədə A.S.Puşkinin rus ədəbiyyatındakı mövqeyini bir kənara qoyaraq onun bədii yaradıcılığını siyasi müstəvidə təhlil etmək cəhdi də diqqəti cəlb edir. Üstəlik A.S.Puşkinin sürgündən qayıdandan sonra bir saray şairi halına gəlməsi haqqında hökmü ilə barışmaq çətindir. M.B.Məhəmmədzadənin fikrincə, «Böyük Pyotrun ərəbi» əsərində Puşkin yalnız Pyotrun mütləqiyyətinə deyil, onun «vətənsevərlik» kimi qiymətləndirdiyi imperializminə də

məftundur. Yaxud «Poltava» şeirində Pyotrun «qanlı hürriyyəti» boğmasından Puşkinin bir zövq və həzz aldığını yazmaqla məsələyə başqa prizmadan yanaşdığını ortaya qoymuşdur. Rus şairinin bu və ya digər əsərinin nümunəsində onun «siyasi portret» ini çəkməyə çalışan M.B.Məhəmmədzadə sonda maraqlı nəticəyə gəlmişdir: «Bu səbəbdəndir ki, çarlığın düşməni və azadlığın üzüdönməz mücahidi zənn etdiyi üçün ona (Puşkinə - Ş.Ş.) bir əsər ithaf edən Mirzə Fətəlinin ondan sonra yazılan ədəbi və fəlsəfi əsərlərində Puşkinin adına təsadüf edilməz» (4, s. 8) M.B.Məhəmmədzadənin məntiqindən belə çıxır ki, A.S.Puşkinin çarizmə münasibəti M.F.Axundzadəni qane etməmişdir. O zaman M.F.Axundzadənin siyasi kimliyindən bəhs etmək lazım gəlir. Əslində məqalənin sonunda o, M.F.Axundzadənin siyasi kimliyini özünəməxsus şəkildə müəyyənləşdirmişdir. Bu barədə irəlidə bəhs olunacaq.

Məqalədə sovet siyasi ideologiyasının M.F.Axundzadə haqqında «rus mədəniyyətinin yetirməsi və tərəfdarı» kimi bəhs etməsinə ciddi etiraz vardır. Bu fikri qətiyyətlə rədd edən M.B.Məhəmmədzadə onun nəinki başqa əsərlərində, heç Puşkinə həsr etdiyi qəsidədə belə «rus ədəbiyyatı», «rus mədəniyyəti» deyə bir bəhs olmadığını yazmış, üstəlik «rusluğa qarşı heyranlıq heç yoxdur» qənaətinə gəlmişdir (4, s. 8). Şübhəsiz ki, siyasi sistem M.F.Axundzadə şəxsiyyətindən konyuktur məqsədlər üçün geninə-boluna istifadə etmişdir. Sovet dövründə M.F.Axundzadənin ərəb qrafikalı əlifbadan imtinaya dair əsasını qoyduğu ictimai-elmi hərəkat addımbaşı təqdir olunurdusa, kiril əlifbasına keçidlə keçmiş SSRİ-dəki türk xalqlarının Türkiyə ilə həm də mənəvi bağlılığının tam qoparılmasına yönəlik çirkin siyasət aparılmışdır. M.F.Axundzadənin cəmiyyətin müasirləşməsi, mənsub olduğu xalqın mədəni dünyaya inteqrasiyası ilə bağlı konseptual düşüncələri məharətlə interpretasiya edilirdi. Sovet siyasi sistemi üçün M.F.Axundzadə kifayət qədər yaxşı özününküləşdirilməli tarixi keçmiş idi. Müasir deyil, məhz tarixi keçmiş! Mühacir tədqiqatçı Əbdülvahab Yurdsevər bu məqama diqqət yetirərək tamamilə doğru yazırdı: «Burası dəqiqdir ki, əgər Mirzə Fətəli Sovet rejimində yaşamış olsaydı, tanınmış Azərbaycan tənqidçisi Firudin Köçərli, şair Hüseyn Cavid, Əhməd Cavad və adlarını saymaqla bitirə bilməyəcəyimiz başqa böyük ədiblər, bilginlər, sənətkarlar və ziyalılar kimi onu da ya güllələyəcək, ya da Sibirdə çürüdəcəkdilər» (8, s. 25). Lakin M.F.Axundzadənin Puşkinlə bağlı cəmi bir əsər yazmasını onun rusluğa qarşı heyranlığının olub-olmaması müstəvisində izah etmək doğru deyildir. M.F.Axundzadənin bədii və fəlsəfi əsərlərində, zəngin epistolyar irsində Avropaya inteqrasiya məsələsi ciddi şəkildə qoyulmuşdur. Ədib ictimai-siyasi baxışları, cəmiyyət haqqında düşüncələri ilə Qərbi Avropa filosofları və yazıçılarına yaxın idi. O, əsərlərində adlarını dönə-dönə çəkdiyi Volter, Monteskyö, Russo, Düma, Fenelon, Bokl, Şekspir, Volney, Düma və b. yaradıcılığına dərindən bələd idi. A.S.Puşkin isə onun nəzərində haqlı olaraq yeni dövr rus ədəbiyyatının yaradıcısı, ümumxalq sevgisini qazanmış böyük şair idi və şairin ölümünə görə matəm qəsidəsini heç də «rusluğa heyranlıq» kimi yazmamışdı. Yenə də Ə.Yurdsevərin məsələyə münasibəti ilə tamamilə şərikik: «Puşkin və Lev Tolstoy kimi ədiblər bütün dünya mədəniyyətinə mal olmuş yüksək ədəbi qiymətlərdir. Onları hər kəs müxtəlif dillərdə oxuyur və ədəbi dühalarını təqdir edirlər. Onlara qarşı heyranlığımız rus olduqlarından və ya rus mədəniyyətinə mənsubluqlarından dolayı deyildir, insan həyatını və insan ruhunu böyük bir məharətlə təsvir etmiş və insanlığa ölməz əsərlər buraxmış olmalarından irəli gəlməkdədir» (8, s. 26).

Rusluğa heyranlıq bir yana qalsın, M.B.Məhəmmədzadəyə görə, «rus daima Mirzə Fətəlidə bir yumoristik mövzu olaraq qarşımıza çıxmaqdadır» (4, s. 8). M.B.Məhəmmədzadə məqalədə M.F.Axundzadənin üç dram əsərinin adını çəkmiş və həmin əsərlərdə müəllifin məramını aydınlaşdırmağa çalışmışdır, lakin düzgün yanaşma nümayiş etdirə bilməmişdir. Bir sözlə, o, konkret halda müəllif mövqeyi problemini aça bilməmişdir. Bəlkə də burada da onun şəxsi siyasi baxışı, rus idarəçiliyinə, rus hüququna şəxsi münasibəti əsərin ideyasını düzgün müəyyənləşdirməyə mane olmuşdur. Məsələn, onun fikrincə, M.F.Axundzadə «Hekayəti-xırs quldurbasan» əsərində rus idarəçiliyini quldurluğun və qaçaqlığın hamisi kimi təsvir etmişdir (4, s. 8). Əslində M.F.Axundzadənin məqsədi heç də rus idarəçiliyini ifşa etmək

olmamışdır. Müəllif köhnəlmiş adətlərin hələ də əsiri olan həmvətənlərini tragikomik vəziyyətlərə salaraq, onları gülüş hədəfinə çevirərək tərbiyələndirmək, pis vərdişlərdən uzaqlaşdırmaq istəmişdir ki, bu da onun maarifçilik estetikasından doğan bir məsələdir. Əsərin finalında Tarverdini bağışlayan Divanbəyinin çıxışı müəllifin məqsədi ilə tamamilə uzlaşır: «Ey camaat, sizdən ötrü indi ibrət olsun! Dəxi vaxtdır inanasınız ki, siz vəhşi tayfa deyilsiniz! Sizə eyibdir yaman işlərə qoşulmaq. Bəsdir oğurluğa, tülkülüyə həris olmaq!» (13, s. 98). Divanbəyinin son sözləri isə M.F.Axundzadəyə ən azı senzuradan keçmək üçün «yaşıl işıq» dan başqa bir şey deyildir: «Heç bilirsinizmi ki, rus dövləti sizə nə yaxşılıqlar edir və sizi nə bəlalardan saxlayır?» (13, s. 98) Yaxud M.B.Məhəmmədzadənin məqalədə M.F.Axundzadənin digər bir komediyası haqqında yürütdüyü fikir də konkret halda yerinə düşmür: «Mirzə Fətəli «Vəziri-xani-Sərab» pyesində nə qədər liberal olursa-olsun, bir hökmdarın heç bir zaman islahatçı olmayacağını göstərməyə çalışmaqdadır» (4, s. 8). Halbuki, həmin komediyada liberal hökmdar, islahatçılıq və s. kimi məsələlər qətiyyən qoyulmamışdır.

Mövzu fərqlərinə baxmayaraq, komediyalarının hamısında M.F.Axundzadə maarifçi kimi çıxış etməkdədir. Görkəmli ədəbiyyatşünas Y.Qarayev bu baxımdan tamamilə haqlıdır: «Bütün «Təmsilat»da hakim estetik ideya və bədii ideal da, obrazlı dünyagörüşü də maarifçilik səciyyəsi daşıyır» (17, s. 230).

M.B.Məhəmmədzadənin fikrincə, M.F.Axundzadə bədii əsərlərində rus idarəçiliyini ona görə ifşa etmişdir ki, o, Rusiyanın bölgədə apardığı işğalçılıq siyasəti ilə barışmamış, onu düşmən hesab etmişdir. Əslində M.B.Məhəmmədzadə bu qənaəti ilə ədibin siyasi kimliyi məsələsini qoymuşdur: «Rusların Azərbaycana qəbul etdirməyə çalışdıqları kölelik nizamına sinə gərən Azərbaycan türkü Mirzə Fətəlidə cəhalət timsalı olaraq aldığı rus idarəsinə qarşı bir nifrət oyandırmışdı... Mirzə Fətəli rus hakimiyyətinin və rus siyasi-ictimai nizamının, bu nizama qarşı üsyana çağıracaq dərəcədə düşməni idi» (4, s. 8). Zənnimizcə, burada M.F.Axundzadənin siyasi sistemə münasibəti məsələsi bir qədər tündləşdirilmiş, xeyli sərt şəkildə ifadə olunmuşdur. Ən azı sonuncu cümlə ətrafında mübahisə açmaq mümkündür. M.F.Axundzadə öz əli ilə yazdığı tərcümeyi-halında Qafqaz canişinlərindən həmişə hörmət gördüyünü açıq şəkildə qeyd etmişdir: «O tarixdən (1834-cü ildən – Ş.Ş.) bu günə qədər Qafqaz sərdarlarının yanında Şərq dilləri mütərcimi vəzifəsində çalışıram. Onların hər birisindən cürbəcür iltifatlar, mərhəmətlər görmüşəm. Yaxşı güzəranım vardır. Kolonellik rütbəsinə malik olmuşam. Baron Rozendən sonra mənim ikinci nemətverənim olan mərhum general-feldmarşal knyaz Vorontsovdan xüsusilə razıyam...» (16, s. 268). M.F.Axundzadənin hökumət tərəfindən müxtəlif orden və medallarla təltifini də xatırlatsaq, məsələ bir qədər də aydınlaşar. Beləliklə, M.F.Axundzadənin rus siyasi rejiminə açıq-aşkar düşmən münasibət bəsləməsi, ona qarşı müxalifətdə olması barədə iddiaların heç bir əsası yoxdur. Lakin bu o demək deyildir ki, M.F.Axundzadə xalqının müstəmləkə şəraitində yaşamasının tərəfdarı olmuşdur. M.F.Axundzadə mənsub olduğu xalqın müasirləşməsi, onun Avropa xalqları kimi mədəniyyətə, tərəqqiyə nail olması sahəsində əlindən gələni etmiş, Avropaya inteqrasiyanın konseptual əsaslarını işləyib-hazırlamışdır.

Beləliklə, qeyd edə bilərik ki, müəyyən qədər ziddiyyətli, mübahisə doğuran məqamlara baxmayaraq, M.B.Məhəmmədzadənin M.F.Axundzadənin həyatı və yaradıcılığı ilə bağlı məqalələri təxminən yetmiş il bundan əvvəl yazılsa da, öz əhəmiyyətlərini, elmi dəyərlərini bu gün də qoruyub-saxlamaqdadır. İstər həmin məqalələrin, istərsə də M.B.Məhəmmədzadənin mühacirətdə qələmə aldığı digər əsərlərinin Azərbaycanda yenidən nəşr olunmasına ciddi zərurət vardır.

Ədəbiyyat

1. Cabbarlı Nikpur. Mühacirət və klassik ədəbi irs. Bakı: Elm, 2003.
2. Mirza Bala. Feth-Ali Ahund-zade. // «İslam Ansiklopedisi», cilt IV, İstanbul, 1945, s. 577-581.
3. Mirza Bala. Mirza Feth-Ali ve Alfabe inkilabı. // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, 1953, sayı 1(13), s. 5-8.

4. Mirza Bala. Mirza Feth-Ali ve Puşkin. // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, 1953, sayı 4 (16), s. 5-9.
5. Resulzade M.E. Kafkasya türkleri. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1993.
6. Акты собранные Кавказскою Археографическою Комиссиею, томь X, Тифлись, 1885 (1844-1854), ст. XXXV + 938.
7. Мусаев Алы. М.Ф.Ахундов и Г.Эристави, Тбилиси: 1990.
8. Yurtsever A. Vahap. Mirza Fethali Ahuntzadenin hayatı ve eserleri. Ankara: Azerbaycan Kültür Dernegi Yayınları, 1950.
9. Axundov M.F. Şairin ölümünə (farsca orijinalı. Təqdim edən: Ə.Şərif), «Ədəbiyyat qəzeti», 1936, №33.
10. «Московский наблюдатель», 1837, ч. XI, кн. II, стр. 297-302.
11. Qurbanov Ş. Əsərləri iki cilddə 2-ci cild. XIX əsrdə Azərbaycan-rus ədəbi əlaqələrinin inkişaf mərhələləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1970.
12. Восточная поема на смерть А.С.Пушкина. // «Русская старина», Санкт-Петербургь, 1874, томь XI, ст. 76-79.
13. Axundov M.F. Komediyalar, povest, şeirlər. Bakı: Yazıçı, 1982.
14. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı: Yazıçı, 1987.
15. Бестужев-Марлинский А.А. Избранные произведения. Баку: Азербайджанское Государственное Издательство, 1990.
16. Axundov Mirzə Fətəli. Əsərləri 3 cilddə, III cild. Bakı: Elm, 1988.
17. Qarayev Yaşar Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı: Elm, 2002.

Ш.Шамыоглу (Мусаев)

Мирза Фатали Ахундзаде в литературно – научном наследии периода эмиграции Мирза Бала Мамедзаде

Резюме

В статье исследованы произведения «Фатали Ахундзаде», «Мирза Фатали и революция азбуки», «Мирза Фатали и Пушкин», входящие в научно – литературное наследие периода эмиграции М.Б. Мамедзаде. В результате проводимых анализов приходим к такому заключению, что исследования М.Б. Мамедзаде, касательно жизни, среды, художественных и научно – филофоских произведений, общественно – культурной деятельности М.Ф. Ахундзаде примерно относятся к семидесятилетней давности, которые до сих пор сохраняют свою значимость, свою научную ценность. В статье, из-за отсуствия объективных причин и достаточной литературы в условиях эмиграции, М.Б. Мамедзаде допустил некоторые ошибки и высказал тенденционные мнения, вытекающие из политических взглядов в определенном моменте, которые были мотивированы фактами. Больше всего указано на то, что такие моменты встречаются в научной работе “Мирза Фатали и Пушкин”, и их необоснованность была доказана аргументами и фактами. По общему заключению, необходимым вопросом является повторная публикация произведений М.Б. Мамедзаде связанных с М.Ф.Ахундзаде в Азербайджане.

Sh.Shamioglu (Musayev)

Mirza Fatali Akhundzade in Mirza Bala Mammadzade’s emigration period literary-scientific heritage

Summary

The article deals with the analysis of the works of M.B.Mammadzade, such as, “Fatali Akhundzade”, “Mirza Fatali and Alphabet revolution”, “Mirza Fatali and Pushkin” including to his emigration period’s scientific heritage. As a result of analyses the author arrived at a result that despite the researches made by M.B.Mammadzade about M.F.Akhundzade’s life, environment, literary, scientific and philosophical works and his social and cultural activity were conducted approximately soxiante-dix ans, they preserve their scientific value and improtance up to presente. The article substantiate some errors made by M.B.Mammadzade because of shortage of saffisiant scientifc materials in immigration and other biased opinions under influence of his political views. These moments were contained rather in the article “Mirza Fatali and Pushkin”, which were analysed

comprehensively together with biased arguments forwarded by the Mammadzade. The general opinion was that the publication of M.B.Mammadzade about M.F.Akhundov once again is amongst the priorities in Azerbaijan.

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. Qrant № EİF- KETPL-2-2015-1(25)-56/48/5

Rəyçi: filol.f.d., dos. N.Cabbarlı

Redaksiyaya daxil olub: 14.06.2017

Ş.TEYMUROVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ELÇİNİN "ÖLÜM HÖKMÜ" ROMANINDA REPRESSİYA GERÇƏKLİYİNİN TƏSVİRİ

Açar sözlər: *roman, ölüm hökmü, repressiya, realist*
Ключевые слова: *роман, смертный приговор, репрессии, реальность*
Key words: *novel, death sentence, the repression, reality*

Azərbaycan nəsrinin görkəmli nümayəndəsi Elçinin "Ölüm hökmü" romanında sovet cəmiyyətinin təxminən altmış illik bir dövrü əks etdirilir. 30-cu illərdən başlanan hadisələr romanın yazıldığı dövr 80-ci illərin ortalarına qədər davam edir. Bu əsəri həm də sovet dövrü Azərbaycan cəmiyyətinin bədii səlnaməsi də adlandırmaq olar. Yazıçı hələ sovet cəmiyyətinin çökmədiyi bir sistemin ziddiyyətləri, siyasi, idarəetmə anomaliyaları ilə bağlı həqiqəti deməkdən çəkinməmiş, şəxsiyyətə pərəstiş, repressiya kimi, durğunluğun da cəmiyyətimizə vurduğu mənəvi və maddi zərbələrin insan talelərindəki əksini bədii boyalarla ifadə etmişdir. Əsərdə həm 30-cu illər, həm də əsərin yazıldığı dövrlə bağlı faktoloji sənədlilik, dəqiqlik bədii təxəyyül və obrazlılıqla özünün üzvi vəhdətini tapmışdır. Roman repressiyadan durğunluğa doğru keçdiyimiz yarıməsrlik bir dövrün müəyyən mərhələlərinin realist, canlı mənzərələrini əks etdirməklə, əsasən iki dövrün-repressiya və durğunluğun üstündə qurulub. Yazıçı bizi bu iki dövrdə yaşayan insanlar və onların taleləri ilə təkcə epizodik şəkildə tanış etmir, həm də dövrün özünü, hadisələrini göstərir. Oxucu bu iki dövrün adamlarının həyatı, işi, taleyi ilə yaxından tanış olduqca sistemi daha yaxşı dərk edir və bu iki dövr arasında gözəgörünməz tellərlə əlaqələr axtarır. Şair İsa İsmayılzadə romana yazdığı "Repressiyadan durğunluğa doğru" adlı ön sözündə əsərin əhəmiyyətini doğru qiymətləndirərək yazır:

"Romanın səhifələrində repressiya "sahilinin" ağır, boğucu kəsafət və vahimə hopmuş öldürücü havası kabus kimi iliyimizə, qanımıza hopduqca haqsızcasına boğulanların, ağlını itirənlərin, ölənlərin, ya dışarıdan, ya içəridən məhv olanların da yerinə haray salmaq, qışqırmaq, haqqı, ədaləti köməyə çağırmaq, tarixi div yuxusundan silkələyib oyatmaq istəyirsən...

"Ölüm hökmü" belə bir dövrün ruhundan-havasından yaranmış, fantasmaqorik bir sarkazmla dolu güclü bədii ittihamdır" (1, 8).

"Ölüm hökmü" romanı Bakının Tülkü Gəldi Qəbristanlığının təsviri ilə başlasa da, hadisələr tarixə-30-cu illərə gedib çıxır. Bununla yazıçı eyni sistemin müxtəlif dövrlərində baş verən hadisələrin mahiyətinin eyni olduğunu göstərmək istəmişdir. 70-ci illərdə mötəbər yığıncaqların birində, rayon fəallarının yığıncağında qəbiristanlıq idarəsinin müdiri Əbdül Qafarzadə böyük bir coşğu ilə qəbiristanlıqda planın ildən ilə artqlaması ilə ödənilməsi haqda danışır. Onun verdiyi məlumata görə, təkcə 1980-1984-cü illərdə plan 430 mindən 770 minə çatdırılıb. Əlbəttə, yazıçı bu rəqəmləri bu illərdə baş verən pripiska faktı kimi gətirmişdir. Bir dəfn əvəzinə bir neçə dəfni sənədləşdirməyi dövrün iqtisadi-siyasi anomaliyası kimi fantasmaqorik şəkildə vermişdir. Lakin durğunluqdan repressiyaya keçən yazıçı son dərəcə tarixi faktlarla dövrün repressiv gerçəkliklərini təsvir edə bilmişdir. Yazıçı bəzən hətta dövrün qəzet manşetlərininin adlarını verməklə bu hadisləri canlandırmaq istəmişdir. O zaman qəzetlərdə hər gün xalq düşməni, trotskiçinin ifşa edilməsi ilə bağlı çoxlu materiallar gedirdi. Xalq mitinqlərinin təşkil edilməsi nəticəsində yeni-yeni müsavatçı, diversantlar ortaya çıxarılır və onlara ölüm hökmü kəsilməsi haqqında qətnamələr qəbul edilirdi. Buxarin, Rıkov və başqalarının başçılığı altında "Sağçı-trotskiçi blok"un cinayət işi haqqında SSRİ prokuroru A.Vışınskinin ittihamnaməsi qəzetlərdə çap olunurdu. Hər gün qəzetlər demək olar ki, iki-üç

səhifəsini xalq düşmənlərinin ifşasına həsr edirdi. Mərkəzdən gələn təlimatlarla eyni proses respublikada da davam edirdi. Yazıçı bunu bir məktəbdə baş verən hadisələr fonunda göstərmək istəmişdir. Əslində müəllim olmayan Əflatun müəllim məktəb direktoru Ələsgər müəllimin müavini, eyni zamanda məktəb partiya təşkilatının katibi idi. Vaxtilə tranvay sürən olmuş bu adam 1936-cı ilin avqustunda Moskvada "trotskiçi-ziinovyevçi terrorçuluq mərkəzi"nin məhkəməsi başlayandan və qəzetlər Zinovyevin, Kamenevin, eləcə də on dörd digər müttəhimlərin qanlı cinayət "törətmələri", "Stalin yoldaşa qarşı düşmənçilik" fəaliyyətlərinin ifşa edilmələrindən sonra partiya sıralarına daxil olmuşdu. O, böyük oğlunun adını Stalinin kollektivləşdirmə siyasətinə uyğun olaraq Kolxoz qoymuşdu. Məktəb direktoru Ələsgər müəllim Qubalı idi, Mir Cəfər Bağırovun yerlisi idi. Belə söhbət gəzirdi ki, şəxsən onu tanıyır. Ələsgər müəllim məktəbdə mitinqlər keçirirdi, cürbəcür tədbirlər fikirləşib tapırdı. Bu tədbirlərdə müəllimlər Moskvada, Bakıda gedən məhkəmələrdə ifşa olunan "xalq düşmənlərini" lənətləyirdi. Bu cür tədbirlərdə çox zaman insanların siyasi sayıqlığı nümayiş etdirilirdi. Hamı bir-birinin danışığında siyasi səhvlər axtarır, onu yuxarıya çatdırmaq haqqında düşünürdü. Sovet cəmiyyətində Pavlik Morozovlar hamıya nümunə kimi göstərilirdi. Mövqelər çox sürətlə dəyişirdi. İnsanlar cəmiyyətdə gedən hadisələrə mövqe bildirməyə məcbur edilirdi. Yazıçı romanda bunu təbiət qasırğası ilə eyniləşdirir: "Hava tez qaraldı və o qaranlıqda da bayırın qarı elə eləcə tərtəmiz bir ağlıq içində idi. Ələsgər müəllimin yaxşı yadındaydı, 37-ci ilin yanvarında Bakıda dəhşətli qar qasırğası oldu və Ələsgər müəllim ömründə belə qasırğa görməmişdi. Sən demə 37-nin yanvarındakı o qasırğa adicə təbiət hadisəsi deyilmiş, sonrakı dəhşətləri əvvəlcədən xəbər verirmiş" (2, s.150).

Yazıçının təsvir etdiyi bu qasırğa, əslində bir məktəblinin Ələsgər müəllimin qızı Arzunun törətdiyi qasırğa idi. O, məktəbin qabaqcıllarından idi. Hər tədbirdə çıxışlar edərdi. Məktəbdə divar qəzeti çıxarar, müəllimləri tənqid edərdi. Bir gün məktəbdən qayıdıb evə gəldikdə "Bundan sonra həftədə bir dəfə evdə divar qəzeti çıxaracağam",-deyə xəbərdarlıq edir. Ona deyəndə ki, "evdə də divar qəzeti olar?", cavabında "olar" deyir və üzünü atasına tutaraq baş məqalədə onu tənqid edəcəyini söyləyir. Ələsgər müəllim səbəbini soruşduqda, onu da, "Koroğlu" operasını da tənqid edəcəyini bildirir. Onun fikrincə, bəstəkar Üzeyir Hacıbəyov müasir mövzudan yazmamaq üçün gözümüzə kül üfürüb. Opera gərək kolxoz həyatından olsun. Koroğlu gərək qolçomoqlara qarşı mübarizə aparaydı. O, bu barədə məruzə etmək və bəstəkarı da məktəbə çağırmaq haqqında düşünür ki, nəticə çıxarsın. Ələsgər müəllimlə Arzu arasında gedən dialoq dövrün mənzərəsini reallıqla ortaya çıxarır: "-Tarix bəyəm bizim deyil?-soruşdu.-Koroğlu qəhrəman olub, xalqın azadlığı uğrunda xanlarla, sultanlarla döyüşə girib...

-Bəs Pavlik Morozov?

-O da qəhrəmandı, mən bir söz demirəm ki...

-Koroğlu xanlara qarşı vuruşub, Pavlik Morozov isə qolçomoqlara qarşı vuruşub! Hətta atasını da, babasını da ifşa edib! Hansı vacibdir? "Koroğlu" operası gərək müasir mövzuda olaydı!" (2, s.151).

Ələsgər müəllim qızı Arzunun sözlərinə cavab qaytara bilmir, onu "zəmanə uşağı" adlandırır. Arzu Pavlik Morozovun yolunu davam etdirirdi. Pavlik Morozov kimilər isə atasını ifşa etməyə qədər gedib çıxır. Təsadüfi deyil ki, o, balaca bir qızın Stalinə gül verərək qucaqladığı fotoplakatı bir çərçivəyə salaraq saxlamışdı. Bu fotoplakat Arzunun xəyallarından biri idi. O da plakatdakı Gelya Markizova kimi ulu rəhbərə gül dəstəsi vermək, onu qucaqlayıb öpmək istəyirdi. Ələsgər müəllim bu fotoplakatı bütün sinif otaqlarına vurdurmuşdu. Ancaq onların xəbəri yox idi ki, 1939-cu ildə bu balaca buryat qızının atası Ətkan Markizovu xalq düşməni kimi ifşa etmişdilər və o balaca qız da atası ilə bərabər sürgün həyatı yaşayırdı. Arzunun doldurduğu anket də onun hansı ruhda böyüdüyünü, tərbiyə aldığını göstərirdi. "Ən çox sevdiyin insan?" -sualına Stalin cavabını verməsi təsadüfi deyildi. Lakin ən maraqlısı burasındadır ki, "Sənə ən doğma olan adam?" sualında da Stalin yazmışdı. Arzunun ən çox sevdiyi qəhrəman isə Pavlik Morozov idi. "Kimə nifrət edirsən?" sualına isə

o, böyük qara hərflərlə "Hüseyn Cavid, Abbas Mirzə Şərifzadə, Mikayıl Müşfiq, Ülvi Rəcəb, Yusif Vəzir Çəmənzəminli, Nəriman Nərimanov, Ruhulla Axundov və bütün başqa alçaq faşistlər"- sözlərini yazmışdı. Məktəbin altıncı sinifində oxuyan bir oğlan "Ən çox sevdiyin insan?"-sualına "Stalin", "Sənə ən doğma olan adam?" sualına isə "Atam" yazdığına görə iclas çağırılmış, onu ifşa etmişdilər.

Ələsgər müəllim də, Əflatun, Xıdır, Firudin müəllim də nə qədər bundan qorunmağa çalışsalar da, hakim ideologiyanı tərifləsələr də repressiyadan xilas ola bilmirlər. Çünki repressiyanın ayrıca bir resepti yox idi ki, ondan xilas olasan. Bu gün sən birini ifşa edirsənsə, eyni hadisə sabah sənin də başına gələr. Doğrudan da, elə də olur; Ələsgər müəllimin qızı Arzunun ad günündə baş verən hadisələr siyasi səhvlərə gətirib çıxarır. Bir məktəbli qızın ad günü məclisi siyasi bir tədbirə çevrilir. Xıdır müəllim, Kələntər müəllim, Ələsgər müəllim və b. Stalinin sağlığına badə qaldırmaq uğrunda yarışa girirlər. Tənqidçi Sabir Bəşirov bunu Ələsgər müəlllim kimi, minlərin, milyonların faciəsi adlandıraraq yazır: "Bu faciə tək Ələsgər müəllimin faciəsi deyildi. Minlərin, milyonların faciəsi idi. Bu faciə zamanın faciəsi idi. Oğul ataya etibar eləmirdi, ata oğula, qardaş qardaşa" (3, s.78).

Məclisdə ikinci sağlığı qeyd etməyə hazırlaşan tamada Kələntər müəllim ayağa qalxarkən, yenə Xıdır müəllim qəflətən söz istəyərək bu sağlığı da "yoldaş Stalinin yaxın silahdaşı" Mir Cəfər Bağırovun sağlığına qeyd edir. Bütün bunlar Xosrov müəllimə xoş gəlmir. O, başa düşür ki, Stalinin, Bağırovun sağlığına da içmək olar. Ancaq ad gününə toplaşdıqları bu məktəbli qızı-Arzunu da unutmaq olmaz. Ona görə də ayağa duraraq "-Mir Cəfər Bağırov yoldaş bizim rəhbərimizdi, düzdü,-dedi.-Amma niyə qoymursuz səhərdən bəri bu gözəl qızın-Xosrov müəllim uzun qolunu qaldırıb barmağı ilə Arzunu göstərdi,-sağlığına içək, bu gözəl qızı təbrik edək?..",-deyir (2, s.159).

Arzu təkcə Xosrov müəllimi tənqid etməklə qalmır, atasını da ona görə tənqid edir ki, O "Arzu özümüzünküdür, onun sağlığına sonra içərik..." demşdir Belə çıxır ki. Stalin özümüzünkü deyil?! Ələsgər müəllim qızından bu qədər də gözləmirdi. Ona görə də ona izah etməyə çalışır ki, əlbəttə, Stalin yoldaş da özümüzünküdür. Görünür, mən fikrimi düzgün çatdırmamışam. "Xosrov müəllim o cür demək istəmirdi..."-deyə onu da müdafiə etmək istəyir.

Yazıçı bununla dövrü, mühiti reallıqla təsvir edir. Arzunun ad günündən sonra Ələsgər müəllim, Xıdır müəllim, Əflatun müəlim və başqalarının keçirdiyi hisslər dövrün mənzərəsini reallıqla əks etdirir. Təkcə Xosrov müəllim dediyi sözlərdən həyəcanlanmır. Ona görə də Ələsgər müəllim özü bu hadisəni raykoma, Cümşüdlüyə özü deməyi qərara alır. Cümşüdlü isə şəxsən M.C.Bağırova bu barədə məlumat verir. Nəticədə məclisdə olan bütün iştirakçılar repressiyaya məruz qalırlar. Yazıçı onlardan yalnız Xosrov müəllim və Arzunun taleyini izləyir. Bunları bir də Xosrov müəllimin 1956-cı ildə Tomsk vilayətindən sürgündən qayıtdıqda görüşdürür. Bu zaman artıq Stalin vəfat etmiş, şəxsiyyətə pərəstiş aradan götürülmüşdü. Repressiyaya məruz qalıb sürgünə göndərilənlər isə bəraət almaqda idi. O zaman Pavlik Morozov sevdalısı olan Arzu indi qatarda vaqon bələdçisi işləyirdi. Xosrov müəllim qatar biletini göstərərkən Arzu onu tanıyır. Xosrov müəllim onu tanımamışdı. Maraqlıdır ki, həm Xosrov müəllimin, həm də Arzunun xatirindən yeddi qızın atasız qaldığı Kələntər müəllim yaddan çıxmır.

Yazıçı Xosrov müəllimin mühakimə, istintaq günlərini, dustaq həyatını təsvir edərkən elmi, ədəbi mühitə də münasibət bildirir. Romanın "Olum, ya ölüm" fəslində Bakının qərb tərəfində yerləşən Keşlə həhbsxanasında on iki nəfər təsvir edilir. Bunlar Şair, Dramaturq, dörd professor-Ədəbiyyatşünas, Folklorçu, Filosof və Dilçi, Nəşriyyat müdiri, Məktəb müdiri, Kitabxanaçı, Redaktor, Xosrov müəllim və bir də Bir Nəfər göstərilir. Bu cür təsnifat demək olar ki, dövrün repressiya strukturunu əhatə edirdi. Doğrudan da Azərbaycan cəmiyyətinin bütün təbəqələrini əhatə etmişdi repressiya. Lakin adi adamların repressiyası o qədər də yadda qalmamışdır. Ona görə də yazıçı dramaturq, şair, professor və b. bu kimi repressiya qurbanlarının obrazını yaradır. Romanda istintaq prosesi də təsvir edilir. Hər gün onları istintaqa çağırır, sorğu-suala tuturdular. İstintaqda sutka məfhumu yox idi, hər zaman, gecə-gündüz, fərqi

yoxdur, çağıra bilər və istədikləri qədər saxlaya, sorğu-sual edə bilərdilər. Bu istintaqda onlardan sovet hökumətinin, şəxsən yoldaş Stalinin əleyhinə birgə mübarizə apardıqları adamların adını tələb edir və onları tanımadıqları, bilmədikləri adamların əleyhinə ifadə verməyə məcbur edirdilər. Eyni zamanda, onların Mir Cəfər Bağırova qarşı sui-qəsddə iştirak etmələrini boyunlarına qoyurdular.

Yazıçı kameradakılar arasında Bir Nəfər adı ilə birini də təsvir edir. Bir Nəfərin danışığından onun gah partiya işçisi, gah da Azneftdə mühəndis olduğu, gah da Qızıl Orduda siyasi işçi olduğu bildirilirdi. Lakin göstərir ki, Bir Nəfərə geridə qalan on bir nəfər etibar etmir, ona inanmırdı. Bunun bir səbəbi də onun Mir Cəfər Bağırova oxşaması idi. Yazıçı bununla sanki bütün kameralarda Mir Cəfər Bağırovun olduğunu göstərmək istəmişdir. Aydın məsələdir ki, onun özünü aparmasından, yaxud yalandan döyməsindən belə görünürdü ki, o yalançı dustaqdır. Onu bu kameraya ona görə salmışlar ki, onlardan söz alsınlar. Bunun həm də rəmzi mənası vardır. Ona görə də Xosrov müəllim onu taun adlandırır: "-Sən taunsan! Taunsan! Taunsan! Taunsan! Sən taunsan!-Xosrov müəllim o gecə yarısı Keşlə həbsxanasındakı o kamerada o Bir Nəfərin yaxasından yapışıb silkələyirdi və var gücü ilə bağırırdı, o Bir Nəfəri-Mir Cəfər Bağırovu didib dağıtmaq, parçalamaq istəyirdi. Taun! Taun! Sən taunsan! Taun!" (2, s.218).

"Ölüm hökmü" romanının ən yaxşı cəhətlərindən biri repressiyanı bütün detalları ilə təsvir etməsidir. Bunlardan biri də istintaq prosesinin aparılmasıdır. Akademik Ziya Bünyadov repressiyanın mahiyyətini araşdırarkən belə bir qənaətə gəlir: "İbrətamizdir ki, öz həmvətənlərinə qarşı "qırmızı terror"u düşünüb həyata keçirənlərin özləri də cilovsuz qan çanağının qurbanları oldular. Çünki külək yaradanlar mütləq tufana düşməli idilər" (4, 5).

"Ölüm hökmü" romanında da bu həqiqət öz təsdiqini tapır. Yazıçının ayrı-ayrı yerlərdə bu həqiqəti müəllif təhkiyəsi ilə deməsindən başqa, müxtəlif obrazlarda da bu və ya digər şəkildə əks olunur. Elə Xosrov müəllimin istintaqını aparan müstəntriq Məmmədağa Ələkbərovu götürək. Xosrov müəllimin istintaqını apararkən ona əsəbiləşən, etmədiyi hərəkətləri boynuna qoymağa çalışan, suallarına Xosrov müəllimin verdiyi ağıllı cavablarda heç bir düşmən hərəkəti aşkara çıxara bilmədiyindən özündən çıxan Məmmədağa Ələkbərov indi onunla birlikdə uzaq Sibirdə düşərgə həyatı yaşayırdı. O, burada ölən müsəlman dustaqların dəfnində mollalıq edirdi və belə xidmətə görə hər bir dustaq öz yemək payından kəsib Məmmədağa Ələkbərova verirdi. Xosrov müəllim onu tanısa da, olsun ki, o Xosrov müəllimi tanımamışdı. Lakin Xosrov müəllim onu müşahidə edərək onunla Mir Cəfər Bağırov arasında bir əlaqə axtarırdı. Onlar xarici görkəmcə bir-birinə oxşamasalar da, mahiyyət etibarilə oxşayırdılar. Ona elə gəlir ki, Mir Cəfər Bağırov özünü gizlətməkdən ötrü dönüb Məmmədağa Ələkbərov olub. Xosrov müllimin həm kamerada Bir Nəfəri, həm həbs düşərgəsində Məmmədağa Ələkbərovu Mir Cəfər Bağırov olaraq görməsi bu repressiyanın baş memarı görməsindən irəli gəlirdi.

Elçin "Ölüm hökmü" romanında xalqın milli kimliyinin siyasi rejim tərəfindən danılması, onun ziyalılarının həbs edilməsi, güllələnməsi ilə qarşıdakı hadisələrin (əlifbanın, milli kimliyin, türk adının dəyişdirilməsi və s.) önlənməsi məsələsi detallı şəkildə verilmişdir. Repressiyanın da bir məqsədi xalqın düşünən başlarını kəsmək və sonrakı hadisələrdə onun səsinin çıxmasına imkan verməmək olmuşdur. Təsadüfi deyil ki, M.B.Məhəmmədzadə bu siyasi aksiyanın məqsədini düzgün müəyyənləşdirərək yazırdı: "Azərbaycanlıların türklüyü inkar edilirdi, məktəblərdəki gənc nəsil milli kimlikdən, milli yaddaşdan, milli şüurdan məhrum olaraq yetişdirilmək istənilirdi, əcdadımızın hüriyyət və istiqalal uğrundakı şanlı mücadiləsi imperializm uşaqlığı, cəhalət və gerilik əlaməti Moskvanın imperializmi isə mədəniyyət işığı şəklində təsvir olunacaqdı. Azərbaycanlılar milli tarixləri, milli mədəniyyətləri və milli məfahirləri ilə deyil, müstəvli millətin tarixi, mədəniyyəti və məfahiri ilə öyünəcəkdi. Və türklük ilə tamamilə əlaqəsini kəsmək üçün şərəflə daşıdıqları türk adını tərk etmələrinə rəsmən qərar verilirdi" (5, s.51).

"Ölüm hökmü" romanı həm bədii təxəyyülün, həm də tarixi hadisələrin, xatirələrdə öz əksini tapan faktların üzərində qurulmuşdur. Yalnız obrazların yaradılmasında yazıçı daha çox bədii təxəyyüldən istifadə etmişdir. Yazıçı bədii ümumiləşdirmə üsulundan yararlanmış, bir neçə tarixi şəxsiyyətin tərcümeyi-halındakı faktları ümumiləşdirərək bir obrazın kontekstində verə bilmişdir. Bu mənada romandakı obrazlar tarixi olmaqdan çıxaraq, tamamilə bədii düşüncənin məhsulu olaraq təqdim edilir. Yazıçı mövcud repressiv cəmiyyəti bütün yönləri, problemləri və şəxsiyyətləri ilə qələmə almağa çalışmışdır. Təsadüfi deyil ki, əsər türk dilinə də tərcümə edilmiş və türk ədəbi tənqidində böyük ilgi görümüşdür. Ədəbiyyatşünas Sedat Adıgözəl "Ölüm hökmü və tarixi gerçəkliklər" məqaləsində əsəri yüksək qiymətləndirərək yazır: "Ölüm hökmü" Sovet dönəmini bütün yönləriylə ələ alan, bir millətin rejim və onun tərəfdarlarının əliylə imha edilməsini, mədəniyyət, dil və din olaraq millət olma özəlliklərinin əllərindən alınmaya çalışıldığını tarixi məlumat işığında ortaya qoyan sənədli bir romandır" (6, s.230).

Yaxşıdır ki, romanın türk dilində böyük oxucu kütləsi toplamasından sonra əsər haqqında da araşdırmalar davam etmişdir. Bu araşdırmalarda Elçinin romanı hər cəhətdən təhlilə cəlb edilir. Xüsusilə Sedat Adıgözəlin "Elçin. Ədəbiyyat sosyolojisi acısından romanları" monoqrafiyasında roman sosioloji baxımdan təhlilə cəlb edilir. Tədqiqatçı əsərdə yazıçının xüsusilə rejimin mahiyyətini açmağa yönəlik fəaliyyətini qeyd edərək belə bir doğru qənaətə gəlir: "Elçin Sovet idarəediulməsində iş başında olanların özəlliklərini yeri gəldikcə oxucusuna sanki unutdurmaq istəmirmiş kimi təkrarlayır və sistemin təmamən rüşvət üzərinə qurulu olduğunu, rüşvətin bir qara bulud kimi cəmiyyətin üzərinə çökdüyünü sürəkli vurğulayır" (7, s.127). Tədqiqatçının bu qənaəti daha çox romanın ikinci xətti, yəni 70-ci illərdə baş verən hadisələr üzərinə deyilmişdir. Lakin nəzərə alsaq ki, bu cəmiyyət məhz repressiyadan sonrakı nəsil tərəfindən idarə edilirdi, o zaman milli kimliyin unudulduğu və cəmiyyətdə mənəvi deqradasiyanın baş verdiyini aydın görmək olar.

Beləliklə, Elçinin "Ölüm hökmü" əsərində bolşeviklərin Azərbaycanı işğalından sonrakı müxtəlif mərhələlərdə törətdiyi repressiyanın təzahür formalarının təsvir edildiyini aydın görmək olar. Yazıçı müxtəlif tarixi hadisələr və ayrı-ayrı süjetlər, eləcə də real həyatdan götürülümüş obrazlar vasitəsilə repressiyanın strukturunu, xarakterini və mahiyyətini bədii şəkildə ortaya qoyur. Bu cür əsərlər 30-cu illər repressiyasının mahiyyətini başa düşmək üçün oxucunu səfərbər edir, tarixi hadisələri bədii təfəkkür süzgəcindən keçirərək üzərinə qara pərdə çəkilmiş bu fəlakətin detallarını aydınlaşdırmağa nail olur.

Ədəbiyyat

1. İsmayılzadə İ. Repressiyadan durğunluğa doğru. Elçin. Ölüm hökmü. Bakı, "Yazıçı", 1989.
2. Elçin. Ölüm hökmü. Bakı, "Yazıçı", 1989.
3. Bəşirov S. 60-cılar nəsrinin etik problemləri. Bakı, "Elm", 2006.
4. Bünyadov Z. Qırmızı terror. Bakı: "Azərnəşr", 1993.
5. Mehmetzade M.B. Azerbaycanda Sovyet İmha Siyaseti, Dergi, Münih, 2 Yıl, N5, s. 50-53
6. Sedat Adıgüzel. Ölüm hökmü ve tarihi gerçekler. A.Ü.Türkiyyat Araştırmaları İnstititü Dergisi, Sayı 12, Erzurum, 1999
7. Sedat adıgüzel, Elçin. Edebiyat sosiolojisi acısından romanları. Bengü, Ankara, 2011.

Ш.Теймурова

Реальность репрессии в романе Эльчина "Смертный приговор"

Резюме

В романе отражена вся реальность советской эпохи. Здесь находит место, как многочисленные репрессии 30-х гг, так и период спада 70-80 г.

В этом произведении показаны многочисленные формы последствий репрессий после захвата Азер-на большевиками. Писатель в художественной форме предоставляет ко вниманию многочисленные исторические события, различные сюжеты, а так же показывает структуру,

характер и сущность репрессий посредством различных образов взятых из реальной жизни. В романе "Смертный приговор" созданы образы Замана, Сталина, М.Д Багирова. В тоже время на ряду сними образы азер-ских интеллектуалов были совокуплены в лице Хосрова. Такие произведения направляют читателя и способствуют пониманию сущности репрессий 30-х годов, а также путём фильтрации через сито художественного мышления помогают понять детали этой катастрофы.

Sh.Teymurova

Elchin "Death sentence" in the novel description of the reality of repression

Summary

The article analyzes the novel of the prominent Azerbaijani writer Elchin "The Rule of Death". It is shown that in the novel the realities of the Soviet era are reflected in reality. Here, both the repression of the 30s and the recession of the 70s and 80s are reflected here. The work describes the manifestation of the repressions that the Bolsheviks committed at various stages of the occupation of Azerbaijan. The writer exposes the structure, character and essence of repression through various historical events and separate subjects as well as real-life images. In the novel "Death Rule" images of Zaman, Stalin, M. Baghirov are created. At the same time, the image of Azerbaijani intelligentsia is in the face of Khosrov teacher. These works mobilize the reader to understand the essence of the repressions of the 1930s, and the historical events are able to clarify the detail of this catastrophe, which is eroded from the artistic thinking filter.

Rəyçi: dos. S.B.Kazımova

Redaksiyaya daxil olub: 05.09.2017

S.A.XAVƏRİ
filologiya üzrə fəlsəfə doktoru

AMEA-nın Folklor İnstitutu
(Bakı şəh., İçərişəhər, Kiçik qala, küç., 31)

FOLKLORUN FUNKSİONAL STRUKTURU: PROBLEMİN NƏZƏRİ-METODOLOJİ KONTEKSTİ

Açar sözlər: *folklor, istiqamət, struktur, problem, nəzəri, metodoloji*
Ключевые слова*: фольклор, направление, структура, проблема, теория, методология*
Key words: *folklore, direction, structure, problem, theoretical, methodological*

Kulturologiyada mədəniyyətin struktural aspektdən araşdırılmasında əsas məqsəd müxtəlif transformasiyalar zamanı dəyişməz qalan əlaqələr məcmusu kimi strukturun aşkarlanmasıdır. Bu mənada struktur sosial-mədəni formaların sabitliyini nəzərdə tutur. Funksionallıq isə hərəkətlə və deməli dəyişmə ilə bağlı anlayışdır. Bu aspektdən yanaşdıqda «funksional struktur» iki əks anlayışı özündə birləşdirmək baxımından ziddiyyətli təsir bağışlayır. Lakin bu ilk baxışdan belədir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, mədəniyyətdə sabit strukturların ən mühüm keyfiyyəti elə onların funksional olmasıdır. Bir az da konkret ifadə etsək, mədəniyyətdə sabit strukturlar statusunda çıxış edən sanki funksiyaların özüdür. Yəni strukturun funksionallığı onun əsas sabitlik göstəricisidir. Alan Dandes özünün "Nağılların struktur araşdırılmasında epik vahidlərdən emik vahidlərə" məqaləsində görkəmli rus alimi V. Proppun folklorşünaslığa gətirdiyi ən böyük yenilik kimi onun funksiyanı kəşf etməsini göstərir. O, qeyd edir ki, ilk dəfə olaraq V. Propp müşahidə etmişdir ki, nağılların strukturunda sabit və dəyişməz vahidlər statusunda çıxış edən nə motiv, nə süjet, nə mövzu, nə də personajlardır. V. Proppa görə, belə sabit vahidliklər statusunda funksiyalar çıxış edir. Nağıllarda mövzu da, personaj da dəyişə bilər. Funksiyalar isə sabit vahidlər kimi daim qalmaqdadır (1, s.21). Buna görə də folklorun funksional struktur aspektindən araşdırılmasında mədəni sistemi təşkil edən strukturlar, elementlər, sistemlər hər hansı bir funksiyanın gerçəkləşməsinə yönəlmiş iş prosesində araşdırılmalıdır.

Vladimir Fedotoviç Berkov "Elmin metodologiyası" kitabında yazır ki, bütün digər elmlər kimi ictimai elmlər də yalnız "nə?" və "niyə?" suallarına deyil, eyni zamanda "necə" sualına da cavab verməlidir (2, s.98). Bu tezisdən çıxış etsək, deyə bilərik ki, folklorun strukturunun izahı "folklor nədir?" sualına verilən cavabdır. Folklorun funksional strukturunun izahı isə "folklor necədir?" sualına verilən cavabdır. Bəzi folklorşünaslıq araşdırmalarında folklorun struktur öyrənilməsinin elə nümunələrinə rast gəlirik ki, burada strukturdan yalnız zahiri təsnifat səviyyəsində söhbət gedir. Bu tip yanaşmalar folklorun nəinki funksional strukturunu, heç klassik strukturalizmdə nəzərdə tutulan strukturunu belə izah etmir. Məsələn, İ.A.Qolovanov "Folklor mətni çoxsəviyyəli struktur kimi" məqaləsində yazır: "Folklor mətninin çoxsəviyyəli strukturu folklor təfəkkürünün mürəkkəb təşkili mexanizmi ilə şərtlənir. Burada iki səviyyə bir-birindən aydın şəkildə fərqlənir:

mifoloji səviyyə;

tarixi səviyyə.

Bu səviyyələrin ayırıb fərqləndirilməsi onları qətiyyən bir-birindən təcrid etmir. Onlar arasında dərin qarşılıqlı əlaqə və əks-təsir vardır" (3).

Müəllifin bu yanaşmasını folklora struktur yanaşmanın mütləq prinsipi kimi qəbul etmək mümkün deyil. Bu folklor mətnlərində əks olunmuş düşüncə laylarının məlum təsnifindən başqa bir şey deyildir. Biz folklorun funksional strukturunun izahında belə yanaşmanın qətiyyən tərəfdarı deyilik. Funksional struktur aspektindən folklorda səviyyələrin

müəyyənləşdirilməsi zərurəti yaranarsa, onda birmənalı olaraq bu səviyyələr aşağıdakılardan ibarət olmalıdır:

1. Sosial səviyyə;
2. Mədəni səviyyə.

Düşüncənin diaxron inkişaf tipləri kimi mifoloji və tarixi mərhələləri şərtləndirən sosial səviyyədə baş verən inkişafdır. Sosial səviyyədə düşüncənin fundamental layları mədəni səviyyədəki transformasiyalarla şərtlənir. Funksionallaşma bu səviyyələr arasında gedir.

Folklorun funksional struktur aspektdən araşdırılmasının elmi spesifikasını anlamaq baxımından onun elmi fikir dövriyyəsində normativləşmiş struktur yanaşma ilə qarşılıqlı müqayisəsinə diqqət edək:

Struktur yanaşmanın əsas istiqamətləri: Folklorun özündə birləşdirdiyi daxili strukturlar hesabına yaranan bütöv strukturun müəyyənləşdirilməsi;

Sinxronun diaxron üzərində üstünlüyü;

("Sinxron" adı altında eynizamanlılıq şəraitində obyektin lokallaşması və inkişafdan imtina başa düşülür. "Diaxron" dedikdə isə zaman üzrə inkişaf başa düşülür).

Folklorun daim qarşılıqlı əlaqədə olan hissələrə ayrılması, bütöv xassə və münasibət üçün xarakterik olan dəyişməz olanın müəyyənləşdirilməsi;

"Folklorlaşma" prosesində bütövün mexanizmləri arasında dəyişmə mexanizminin müəyyənləşdirilməsi;

Folklorda əsas başlangıc strukturdan digər mümkün strukturların yaranmasının nəzəri modelləşdirilməsi.

Funksional struktur yanaşmanın əsas istiqamətləri: Folklorun özündə birləşdirdiyi daxili strukturların funksiyaları hesabına yaranan bütöv strukturun funksional mahiyyətinin müəyyənləşdirilməsi; Folklorun funksional strukturunun həm sinxron, həm də diaxron istiqamətlər üzrə araşdırılması; Folklorun bir mədəni sistem kimi daxili strukturlarının daim qarşılıqlı əlaqədə olan funksonal hissələrə ayrılması, bütöv xassə və münasibət üçün xarakterik olan dəyişməz funksiyaların müəyyənləşdirilməsi; "Folklorlaşma" prosesində bütövün mexanizmləri arasında funksional dəyişmə mexanizminin müəyyənləşdirilməsi; Folklorda əsas başlangıc strukturdan digər mümkün strukturların yaranmasının funksional aspektdən nəzəri modelləşdirilməsi.

Məlumdur ki, folklorşünaslıqda, xüsusən də struktur folklorşünaslıqda xalq mədəniyyətinin sintaqmatik və paradiqmatik aspektlərdən araşdırılma təcrübələri vardır. Hesab edirik ki, folklorun strukturunun funksional aspektdən araşdırılması bu yanaşmalara alternativ olmaqla daha mütərəqqidir. Çünki folklorun funksional struktur yanaşma əsasında tədqiqi ilk növbədə xalq mədəniyyət fenomeninin öz spesifikası, fəlsəfi terminologiya ilə ifadə etsək, daxili müəyyənlik keyfiyyəti ilə şərtlənir. Bu tezisin elmi izahı baxımından mətnin folklor tipologiyasını müəyyənləşdirən prinsiplərə diqqət etmək lazımdır.

Folklorşünaslıq elminin iki yüz ilə yaxın təcrübəsi mətnin folklor tipologiyasını müəyyənləşdirən əsas prinsiplər kimi aşağıdakıları nişan verir:

1. Anonimlik;
2. Şifahililik;
3. Kollektivlilik;
4. Ənənəvilik.
5. Mətnlərin variant və versiyalılığı və s.

Bu xüsusiyyətlərin hər biri folklorun müəyyən bir aspektini izah edən olduqca tutumlu anlayışlardır. Onların izahları barədə dünya və Azərbaycan nəzəri folklorşünaslığında kifayət qədər tədqiqatlar vardır. Onları təkrar etmədən diqqəti digər bir məqama yönəltmək istərdik. Folklorun anonimliyi də, şifahiliyi də, kollektivliyi də, ənənəviliyi də onun əsas əlamətləri olmaqla yanaşı, təzahür statusundadır. Bəs bütün bu əlamətləri şərtləndirən amil nədən ibarətdir? Folklor niyə anonim, kollektiv, şifahi və ənənəvi mədəniyyətdir? Bu əlamətləri folklor mədəniyyəti üçün müəyyənləşdirən amil nədir? Birmənalı olaraq cavab vermək olar

ki, bütün bu sadalanılan xüsusiyyətlərin arxasında məlumatın yadda saxlanılmasından başqa heç bir vasitənin olmadığı şəraitdə (yazısızlıq situasiyasında) reallaşan **sosial kommunikasiya prosesi** dayanır. Belə ki, folklorun yalnız mədəni deyil, mühüm sosial fenomen kimi əsas müəyyənlik keyfiyyəti, indiyə qədər sovet folklorşünaslığında normativləşmiş qənaətlərin əksinə olaraq bədii-estetik məzmununda deyil, **kommunikativ prosessuallığında, yaxud prossessual kommunikativliyində** ifadə olunmuşdur. Diaxron olaraq tarixin hansı mərhələsində və sinxron olaraq hansı etnik cəmiyyətdə mövcud olmasından asılı olmayaraq folklor adlandırılan hadisənin yaranmasının əsas stimulyatorukommunikasiyadır.Bu mənada sovet folklorşünaslığında normativləşdirilmiş qənaətə uyğun olaraq, folklor "sadə xalq kütlələrinə məxsus olan mədəniyyətin keçilmiş arxaik mərhələsi" kimi deyil, sosial-mədəni tərəqqinin bütün inkişaf mərhələlərində, həmçinin müasir qloballaşma şəraitində mövcud olan canlı kommunikativ proses olaraq anlaşılmalıdır. Bizim folklorla eyniləşdirdiyimiz toplanılmış, katoloqlaşdırdığımız və nəşr etdirdiyimiz folklor mətnləri kommunikativ proses olan folklorun mətn təzahürləridir. Həm də canlı mühitdən ayrılmış və deməli, canlı olaraq mövcud olmaq səlahiyyətləri tamamilə məhdudlaşdırılmış, obrazlı ifadə etsək, "öldürülmüş" mətnlərdir.

Mətn nə qədər ki, kommunikativ prosesin içərisindədir, o fərdi yaddaşlar və kollektiv yaddaş arasında əlaqələndirici həlqə funksiyasını yerinə yetirir. Kommunikasiya fərdi yaddaşların cəmindən kollektiv etnik yaddaşın yaranması mexanizmini şərtləndirən əsas faktordur. Bəs bu mexanizm hansı funksional iş prinsiplərinə əsaslanır? Bu proses sosial-tarixi mənada götürülən diaxron və sinxron funksionallıq hesabına təmin edilir.

1. Sinxron funksionallıq fərdi yaddaşla kollektiv yaddaş arasında qarşılıqlı münasibətlərdən yaranır. Belə bir qarşılıqlı münasibəti kommunikativ funksionallıq təmin etmiş olur. Obrazlı şəkildə ifadə etsək, müəyyən bir qrup halında birləşmiş toplum bir-biri ilə ünsiyyətdə olmaqla sanki, özlərinin başları üzərində "folkloristik informasiya buludu" yaratmış olurlar. Onların hər birinin bu informasiya buluduna çıxış kodları olduğu üçün daim fərdi olaraq onunla əlaqədə olmaq imkanına sahib olurlar. Vahid informasiya bankı ilə fasiləsiz ünsiyyət folklorun sistem kimi sinergetik təşkilini təmin edən əsas funksional mexanizmdir. Burada digər bir maraqlı cəhət etnik kollektiv yaddaşın həm də etnik identikliyin göstəricisi kimi çıxış etməsidir. Fərdin etnosa mənsublugu yalnız bioloji qohumluğa əsaslanmır. Fərdin etnosa mənsubluğu kollektiv yaddaş daşıyıcısı olması, yaxud da həmin kollektiv yaddaşla ünsiyyət ilə ölçülür. Burada bir məsələni yeri gəlmişkən qeyd etmək istərdik ki, yüz ilə yaxın müddət ərzində dünya ictimai və humanitar elmi düşüncəsində maraq azalmayan, əksinə daim artan psixologiya sahəsində Ziqmund Freydin və Karl Qustav Yunqun tədqiqatları etnologiya və etnogenezis problemlərinə də yeni yanaşma metodologiyaları təqdim etmişdir. Məsələn, K.Yunq yazır: «Bizim təhtəlşüurumuz bizim bədənimiz kimi keçmişin izlərini özündə əks etdirir. Biz yalnız bioloji varis olaraq deyil, psixoloji varis kimi də doğuluruq. Bu və ya digər mərhələdə görüş və təcrübə ayrılır. İnsan bədəni özünü bütün orqanların muzeyi olaraq göstərdiyi kimi, psixologiya da nəslin tarixi təcrübəsini əks etdirir» (4, s.89). K.Yunqun bu konsepsiyasından yanaşsaq, uzun tarixi inkişaf prosesi ərzində etnosun əldə etdiyi milli təcrübə də təhtəlşüurda mövcuddur və milli düşüncədə real tərbiyə və təcrübə ilə paralel olaraq görünməz şəkildə bu prosesdə iştirak edir. Böyük türkoloq alim Lev Qumilyov da bu fikri bir az başqa şəkildə təsdiqləyir: «Etnik diaqnostikanın əsasında hissiyyat dayanır. İnsan öz etnosuna uşaqlıqdan mənsub olur» (5, s.49). Əgər buraya "kollektiv qeyri-şüuri" anlayışını da daxil etsək, məsələnin dərki asanlaşmış olar. Etnik kollektiv yaddaşın formalaşmasında "kollektiv qeyri-şüurinin" iştirakı olduqca zəruri məsələ olmasına baxmayaraq, qayıdaq fikrimizin əvvəlinə. Deməli, kollektiv etnik yaddaş sinxron olaraq etnik fərdlərin ünsiyyəti nəticəsində yaranır.

2. Diaxron funksionallıq zaman boyu inkişaf prosesi ərzində etnik kollektiv yaddaşın təşəkkülü, təkamülü, ötürülməsi, sabit strukturunu qoruyub saxlaması, müəyyən transformasiyaları və s. nəzərdə tutur. Burada funksional mexanizmlər daha çox etnik təcrübənin nəsildən-nəslə ötürülməsində özünü göstərir. Burada "ənənə" anlayışı üzərində xüsusi dayanmalıyıq.

Ənənə diaxron inkişaf xətti boyunca işləyən funksional mexanizmdir. Folklorşünas alim Cəlal Bəydili etnik mədəni ənənədən bəhs edərkən məhz onun funksionallıq keyfiyyətini daha çox qabardır: « Etnik-mədəni ənənə təbiət aləmində olduğu kimi canlı varlığa bənzər şəkildə özözünü qurur, tənzim edir. Çünki hərəkətlilik dinamik səciyyəli etnik sistemin öz canında var. Təkamül canlı-cansız nə varsa bütün səviyyələrdə hamısının mahiyyətinə işləyibdir. Mürəkkəb strukturların təkamülü proseslərində isə keçmiş yox olmur. Əlbəttə, strukturun elementləri bir-biriylə nə qədər zəif bağlılıqdadırsa, həmin struktur da bir o qədər tez dağılır. Fizikada çoxdan bilinir ki, sistemin özünü necə aparması təkcə ona göstərilən təsirin dərəcəsindən yox, eləcə də daha əvvəlki vaxtlarda cərəyan edən proseslərin xarakterindən asılı olur. Sistemin keçmişi onun gələcəyini birbaşa müəyyən etmir, lakin ona təsirsiz də qalmır. Eləcə sistemin keçmişi onun indisinə də təsir edir və mürəkkəb strukturlar da həmin "yaddaş" vasitəsilə birləşir, bir bütün şəklində bağlanır" (6, s.18). Göründüyü kimi, müəllifin təqdimatında ənənədəndaha çoxkeçmişi, indini və gələcəyi birləşdirməyə, əla-qələndirilməyə yönəlmiş funksional mexanizm kimi bəhs edilir. Folklorşünaslıq özünün bütün tarixi inkişaf prosesi ərzində ən müxtəlif ölkələrin timsalında folklorun tarixi genezisi və sosial funksiyaları problemini mühüm məsələ kimi daim diqqət mərkəzində saxlamışdır. Alan Dandes özünün «Folklor çalışmaları metodları» məqaləsində folklorşünaslıq yarandığı dövrdən özünün əsas metod kimi göstərən tarixi-müqayisəli metodun XX əsrin ortalarında öz yerini yeni bir metoda verməsini yazır. O, bu yeni metodu belə izah edir: «Bu yeni antropoloji əsaslı metodda həm «xalq», həm də «bilik» anlayışları əhatə olunmaqdadır. Burada folklor nümunələri söyləyən və dinləyən arasında məcburi əlaqəyə diqqət edilərək ələ alınmaqdadır. Əvvəlki metodlarda «mənşə» probleminə daha çox diqqət edilirdisə, burada getdikcə ***"funksiya" probleminə*** (kursiv bizimdir – S.X.**)** diqqət artırılmağa başlanılır. Yəni xalq nağılları nə deməkdir? Nağıllar cəmiyyət üzvlərindən hansıların arasında rast gəlinmişdir və nə zaman söylənilmişdir? Bu antropoloji-funksional metodda nağılların variantlarına diqqət artırılmaqdan daha çox, yalnız bir nağılın daha ətraflı və dərindən araşdırılmasına diqqət artırılır. Antropoloji-funksional metodun folklora tətbiqini təşfiq edənlər Amerika Birləşmiş Ştatlarında antropoloji çalışmaların yaradıcılarından olan Frans Boansın ardıcılları olmuşdur. Frans Boans folklorun mədəniyyəti ifadə etdiyinə inanırdı. Buna görə də hesab edilirdi ki, hər hansı bir qrupun folklor nümunələrinin diqqətlə araşdırılması ilə əhəmiyyətli etnoqrafik biliklərin əldə edilməsi mümkündür" (7, s.58).

Alan Dandes etiraf edir ki, folklorun genezisi məsələsində struktur metod yunqçuların mövqeyini müdafiə edir. Bu məsələdə o, yunqçuların arxetiplər nəzəriyyəsinə əsaslanır. Çünki "alternativ struktur biliklər istənilən mədəniyyətdə arxetiplər nəzəriyyəsinin formalaşmasında olduğu kimi, həmin nəzəriyyənin dəyərləndirilməsində də faydalı ola bilər" (8, s.109).

Beləliklə, folklorun funksionallığı mədəni sistem kimi "Şüur-Gerçəklik-Mətn" münasibətlərinin işlək, funksional mexanizminə əsaslanır. Bu prosesdə heç nə statik deyil, hər şey hərəkətdə və dəyişmədədir. Ən paradoksal olan isə ondan ibarətdir ki, folklor mədəniyyəti üçün olduqca xarakterik hesab edilən "sabit nizamlı strukturlar"(müxtəlif janrların müəyyənlik keyfiyyətini şərtləndirən sabit formalar) belə funksionallığa, hərəkətliliyə, iş mexanizminə əsaslanır. İstənilən bir folklor janrının daxili funksional strukturu min il bundan əvvəl hansı işi görürdüsə, bu gün də o işi görməkdə davam edir. Folklorda strukturun sabitliyi funksionallığın sabitliyidir.

Ədəbiyyat

1. Дандес Алан. Фольклор: семиотика или психоанализ: Сб. ст. / Алан Данде : Пер. с англ.; Сост. А.С. Архипова. М.: Вост. лит., 2003. 279 с.

2. Берков В.Ф. Методология науки. Общие вопросы: учеб. пособие/ Минск: РИВШ, 2009. 396 с.

3. Голованов И.А. Фольклорный текст как многоуровневая структура. https://cyberleninka.ru/article/v/folklornyy-tekst-kamnogourovnevaya-struktura

4. Теории личности в западно-европейской и американской психологии: хрестоматия / ред. Д.Я. Райгородский – Самара: Бахрах-М, 1996. 480 с.

5. Гумилев Л.Н. Этногенез и биосфера Земли /Под ред. доктора геогр. наук.профессора В. С. Жекулина. 2 изд. испр. и доп. Л.: Изд-во ЛГУ, 1989. 496 с.

6. Bəydili Cəlal (Məmmədov). İstiqbal xalq ədəbiyyatınındır... (seçmə yazılar). Bakı, 2015.

7. Alan Dundes. Halq bilimi çalışma yöntemleri. Halk biliminde kuramlar ve yaklaşmalar. 2. 3-cü baskı, Geleksel yayıncılık, Ankara, 2014.

8. A.Dundes, The morphology of North American Indian folktales, «FFCommunications», № 195, Helsinki, 1964, p. 109

С.А.Хавери

Motivasiya metodu təlimdə bir istiqamətli və quru sözlərdə bəzədilməməli, mövzular arasınd düzünə və tərsinə fərqli və oxşar əlamətlər aşkara çıxarılmalı və həyatla əlaqələndirilməlidir. Şagird alacağı məlumatları diri udmamalı, hissə-hissə mənimsəməyi bacarmalıdır. Belə olduğu təqdirdə istənilən məlumat şagirdə aşağı siniflərdə çatdırıla və yuxarı siniflərdə davamı olaraq öyrənəck məlumatların bazasını möhkəmləndirmək olar. Motivasiya həyatın istənilən sahəsində tətbiq oluna və müsbət nəticə əldə etmək olar. Tarix boyu xalqımız istər elmə, öyrənməyə, istərsə də öyrətməyə böyük önəm verib. Lakin öyrətmə metodları heç də həmişə düzgün tətbiq olunmayıb. Belə ki, azyaşlı və hələ iradəsi və düşüncəsi tam formalaşmamış uşağa düzgün yanaşmadıqda acı nəticələr verə, onlarda olan istedadın hələ ibtidai sinif partası arxasındaca sönüb getməsinə yol verilə bilər. İstər valideyn və ya uşağın himayədarı, baba, nənə, istərsə də müəllim azyaşlıya münasibətdə diqqətli olmalı və onun maraq və istəklərini düzgün qiymətləndirməlidir (4). Təəssüflər olsun ki, valideyn və ya müəllimlər heç də həmişə düzgün yanaşma metodu seçmir, uşağı özünəinamsızlıqla sürükləyirlər. "Sən oxuyan deyilsən", "Oxumasan hanbal, süpürgəçi olacan və heç kim sənə hörmət etməyəcək" və s. bu kimi yanaşma uşağı nəyinki özunə inamsızlığa sürükləyir, eyni zamanda uşağın sadə fəhlə və xadimə işləyən insanlara xor baxmasına səbəb olur. Əgər biz uşağa bunların əksi tərəfindən yanaşsaq və onlara təsir etmək üçün mənfi deyil, müsbət təsir etsək, onda nəticə tam fərqli olar. "Mənim sənə inamım böyükdür və mən bilirəm ki, sən bunu bacarcaqsan", "Oxu ki, xalqının gələcək həkimi, müəllimi, əhəmiyyətli dövlət xadimi olasan və xalqımızı dünyada təbliğ edəsən" (3). Təlim prosesində müəllim hər bir uşağın fərdi

keyfiyyətini üzə çıxarmalı və bunun üçün də üzə çıxan yeni xarakterlərdən asılı olaraq həftədə bir dəfə onlarla fərdi söhbətlər aparmalıdır. Söhbət əsnasında şagirdin dərsə niyə maraq göstərmədiyi, sinifdə etdiyi dəcəlliklər və məsuliyyətsizliyi ilə bağlı danışıq aparmalı və şagirdin öz hərəkətlərinə niyə bəraət qazanırdığını bilməlidir.

Bəzən şagirddə riyaziyyata yox, ana dilinə və ya rəsmə, musiqiyə, texnologiyaya böyük maraq yaranır. Müəllim və ya valideyn uşağın rəsmə nəzərəçarpacaq marağını görüb onu savadsız adlandırmamalıdır. Əksinə onun bu istedadından istifadə etməklə digər fənlərə də maraq oyada bilər. Bunun üçün də valideyndə qayğı, müəllimdə isə ustalıq olmalıdır. Əgər valideyn və ya müəllim uşağını rəssam və ya ədəbiyyatçı deyil, mütləq riyaziyyatçı görmək istəyirsə, o, uşağı öz məqsədi üçün istifadə etməməli, uşağa azad və demokratik seçim qoymalıdır.

Beyinlərdə yaranan sərhəd məhz valideyn və müəllimlərin göstərdiyi yanaşmanın nəticəsi ola bilər (3). Valideyin övladına qayğı ilə yanaşmalı və uşaq psixologiyasının həssaslığını unutmamalıdır. Bunun üçün də müəllim və məktəb psixoloqu mütəmadi olaraq valideynlərlə söhbət aparmalıdır. Uşağın psixoloji tipini müəyyən etmək və ona düzgün yanaşmaq çox əhəmiyyətlidir. Bu zaman motivasiyanı düzgün qurmaq təlimdə və tərbiyyədə aparıcı rol oynaya bilər. Misal üçün, melanxolik tipli uşaqların motivasiyaya böyük ehtiyacı vardır. Onların çoxu savadlı, bacarıqlı olsalar da, özünəinamsızlıq və utancaqlıq onları bir neçə addım arxada qoyur (5).

Ətrafın onlara olan diqqətsizliyi sanki ayaqlarına daş bağlayıb dənizin dibinə doğru dartırmış kimi təsir edir. Əgər müəllim bu kimi halları müəyyən edib aşkarlayarsa, uşaqları almaz kimi cilalayıb briliyanta çevirə bilər. Bunun üçün də müəllim daim öz üzərində çalışmalı, onun üçün qaranlıq qalan məqamları vaxtında aradan qaldırmalıdır ki, bu hal şagird üçün zülmə çevrilməsin. Metodun optimallaşdırılması müəllimin daim müraciət etdiyi məsələ olmalı və özünün fərdi kefiyyətlərindən aslı olaraq onları daim inkişaf etdirməli və zənginləşdirməlidir.

Metodun sinifin yaş və psixoloji xüsusiyyətinə uyğun seçilməsi müəllimin ustalığından aslıdır. Peşəkar müəllim hansı metodu nə vaxt tətbiq edəcəyini bilməli və tətbiq etməyi bacarmalıdır. Belə olduğu halda şagird xarakterinin dinamikasını idarə etmək asan olar. Müasir təlim metodlarından və İKT-dən istifadə sinif mühitində dəyişiklik etməyə və müəllimlə şagird arasında, şagirdlərin öz aralarında və məktəblə ev arasında baş verən qarşılıqlı əlaqələr qurmağa imkan yaradır. Son zamanlar Azərbaycanda tətbiq olunan müasir və fəal təlim metodlarından və İKT-dən geniş istifadə olunur. Bu metod şagird fəallığının artırılmasına və müəllim-şagird münasibətlərinin qarşılıqlı inkişaf fonunda təşkil olunmasına zəmin yaradır. Bu metodların tətbiq olunmasının məqsədi bütün şagirdləri diqqət mərkəzində saxlamaq və onların fəallığını təmin etməkdir. Hər bir müəllim, diqqətlə və ağılla həmin nəzəriyyələrdən irəli gələn təcrübə üsullarından istifadə edərək səmərəli öyrənmə və şagirdlərin təhsildə təşəbbüskarlıq göstərməsi üçün təlimat proqramı hazırlaya və tətbiq edə bilər. Müasir təlim metodlarından və İKT-dən istifadə cəmiyyətin dəyərli vətəndaşları olmağa hazırlaşan, fəal və hər şeylə maraqlanan şagirdlərin təhsil aldığı siniflərin yaradılmasında müəllimlərə yol göstərəcəkdir. Bu isə dünyanın hər yerində təfəkkürə üstünlük verən müəllimlərin heç vaxt bitib-tükənməyən axtarışları deməkdir.

Ədəbiyyat

1. Paşayev Ə.X., Rüstəmov F. Pedaqogika. Bakı, 2002
2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). Bakı, 2006
3. Mümin Sekman. Hər şey sənlə başlar. 2005
4. Balıyev H. Ana dilinin tədrisi metodikası
5. Bayramov Ə.S., Əlizadə Ə. Psixologiya. Bakı, 2003

Х.Д.Аббасова

Роль мотивации в обучении и воспитании

Резюме

В статье говорится о роли интерактивных методов обучения, об индивидуальном подходе учителя в процессе обучения и воспитания. Особо подчёркивается значение мотивации как этапа урока и способ обоснования необходимости приобретения знаний, умений и навыков по теме.

Kh.D.Abbasova

The role of motivation in education and training

Summary

The psychological importance and an exact use of motivation in the organization of training and nurture is the important problems of modern pedagogy that are mentioned in the article. It is mentioned that motivation either the main part of lesson or must be the sing which defines the progress and this method must keep its topicality not only in the training, but also other fields of life.

Rəyçi: prof. F.Rüstəmov

Redaksiyaya daxil olub: 25.05.2017

M.Ə.BABAYEV
dosent

Ş.N.MƏMMƏDOVA,
S.S.ƏLİBƏYOVA

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr, 98)

İDMANÇILARIN QİDALANMASINDA VİTAMİNLƏRİN ROLU

Açar sözlər: *balanslaşdırılmış qidalanma, vitaminlər, minerallar, zülallar, toxumalar, metobolizm*
Ключевые слова: *сбалансированное питание, витамины, минералы, белки, ткани, метаболизм*
Key words: *balanced meal, vitamins, minerals, proteins, tissue metabolism*

Həyatda möhkəm can sağlığının təminatı üçün vahid, sehrli bir düstur yoxdur, lakin onun əldə edilməsi və qorunmasının göstərişləri vardır və bunlardan da ən əhəmiyyətliləri: - müntəzəm idmanla məşğul olmaq, istirahət və balanslaşdırılmış şəkildə qidalanmadır. Bunlara əməl olunmadıqda sağlamlıq və uzun ömürlülük mümkün deyildir. Düzgün və səmərəli qidalanma hər bir insanın sağlamlığı üçün tələb olunan ən zəruri amillərdən biridir. Təzə və təbii qida məhsullarından hazırlanmış yeməklər hər bir insanın əhval-ruhiyyəsini yaxşılaşdırır, onun fiziki halına və zehni fəaliyyətinə müsbət təsir göstərir. Müxtəlif qida məhsullarının tərkibi makro və mikroelementlərdən, heyvan və bitki mənşəli maddələrdən, vitaminlərdən və mineral duzlardan təşkil olunduğundan, bu məhsulların rasiona daxil edilməsinə xüsusi diqqət vermək vacibdir.

Əzələ fəaliyyəti zamanı vitaminlərə tələbat xeyli yüksəkdir. Belə ki, hər gün gərgin məşq edən idmançı orqanizminin gündəlik vitamin və mineral maddələrə olan tələbatı digər insanlara nisbətən 1,5-2 dəfə artıq olduğundan, onların qidada balansı təmin edilməlidir. Belə balanslaşdırılmış qidalanma və xüsusi qida əlavələri sağlamlığın möhkəmləndirilməsinə, yüksək idman göstəricilərinin əldə edilməsinə və məşqlər zamanı dözümlülüyün artırılmasına xidmət edən vitamin-mineral kompleksləri sayəsində mümkündür.

Orqanizmdə baş verən ən vacib həyati proseslər məhz vitamin və mineral maddələrin iştirakı ilə baş verir. Onu da nəzərə almaq lazımdır ki, orqanizm öz-özlüyündə bu maddələri sintez etmək imkanına malik deyildir. İntensiv məşq və yarışlardan sonra idmançıların orqanizminin əlavə vitamin və mikroelementlərə olan tələbatı daha çoxdur. Odur ki, həmin idmançılar bu maddələrin olduğu qidaları və xüsusi hazırlanmış qida əlavələrini qəbul etməlidirlər. Hətta zülal, karbohidrat, lipid tərkibli qida vitaminsiz tam yararlı, səmərəli sayıla bilməz, uzun müddət bunun davam etməsi orqanizmin maddələr mübadiləsində müəyyən pozğunluqların yaranmasına səbəb ola bilər *(məs. avitaminozlar)*. Beləliklə:

- vitaminlər zülalların biosintezində mühüm rol oynayır. Vitaminlər maddələr mübadiləsində tənzimləyici kimi iştirak edir və ona görə də onların müntəzəm qəbulu vacibdir;
- intensiv idman məşqləri metabolizmi sürətləndirir, enerjiyə tələbatını artırır və ona görə də orqanizmin vitaminlərlə təminatı lazımı miqdarda olmalıdır;
- idmançılar çox vaxt eyni tipli qidalardan istifadə etdiklərindən onların rasionuna tələb olunan miqdarda zəruri komponentləri daxil etmək mümkün olmur. Odur ki idmançıların orqanizmində vitamin çatışmazlığının aradan götürülməsi onlar üçün nəzərdə tutulan vitamin-mineral komplekslərin qəbulu ilə həll edilə bilər.

Vitamin preparatları bitki və heyvan mənşəli olmaqla, təbii vitaminlər və onların sintetik analoqları, ferment sistemləri tərkibinə daxil olan kofaktorlardan ibarətdir. Bu preparatlar kombinə edilmiş halda, bütün idmançı hazırlığı dövrü ərzində, iqlim zolaq zonalarının dəyişil-

məsi zamanı, isti və soyuq hava şəraitində, ekstremal fiziki yüklənmələrdən sonrakı reabilitasiya dövründə tətbiq edilir. İdmançıların bu qida komplekslərini məhz aktiv məşqlər mərhələsi zamanı qəbul etmələri onların orqanizminin vitamin və mineral maddələrə olan zəruri tələbatını ödəyir. Vitamin preparatları həll olmalarına *(suda və yağda həll olan)* və kimyəvi tərkibinə görə səciyyələnirlər. Vitaminlər insan orqanizmi üçün əvəzolunmaz kiçik molekullu üzvü birləşmələr olmaqla yüksək bioloji aktivliyə malikdir. Onların miqdarının qida məhsullarında az olmasına baxmayaraq, normal maddələr mübadiləsinin gedişi və həyat fəaliyyəti üçün əhəmiyyəti böyükdür. Vitaminlər qida maddələrinin həzm olunmasında, bir çox biokimyəvi reaksiyalarda mühüm rol oynayırlar. Vitaminlərin böyük əksəriyyəti orqanizmə qida vasitəsilə daxil olur və bəziləri isə bağırsaqda olan saprofit mikroorqanizmlər tərəfindən sintez olunur, qana sorulur. Bəziləri orqanizmdə maddələr mübadiləsinin çoxsaylı mərhələlərini tənzimləyən fermentlər və hormonlar üçün zəruri komponentlər hesab olunur, digərləri isə toxuma hormonlarının sintezi üçün ilkin materiallardır. Vitaminlərin əksəriyyəti sinir sisteminin, əzələlərin və digər orqanların, eyni zamanda bir çox fizioloji sistemlərin normal fəaliyyətini təmin edir. Orqanizmin zehni və fiziki iş qabiliyyəti, ətraf mühitin xoşagəlməz faktorlarının *(infeksiyalar, toksinlər də daxil olmaqla)* təsirinə qarşı dözümlülüyü və möhkəmliyi birbaşa vitamin təminatı səviyyəsindən asılıdır.

Vitaminlər tez parçalanır və orqanizmdə ehtiyat halında yığılmırlar. Odur ki onların *(A, D , B_1 və B_2, PP və C vitaminləri)* qida ilə müntəzəm qəbul olmasına ehtiyac yaranır. İnsan orqanizmində vitaminlər "koenzimlər" *(fermentlərin aktivliyini artıran maddələr)* rolunu oynayırlar. Fermentlər insan orqanizmində baş verən bütün kimyəvi reaksiyaların spesifik katalizatorlarıdır. Bu reaksiyalar sayəsində energetik metabolizm və əzələ təqəllüsü baş verir. Vitaminlər fermentlərin aktivləşmə komponentləridir, vitaminlərsiz onlar fəaliyyət göstərmir, başqa sözlə, orqanizmə qida ilə qaxil olan maddədən enerji yaranması prosesləri getmir, hətta elementar fiziki yükləri belə yerinə yetirə bilmirlər.

Orqanizmin vitaminlərə olan tələbatı onun fizioloji vəziyyətindən, yaşından, cinsindən, işin növündən, ilin fəslindən, havanın temperaturundan və s. asılıdır.

Əzələ işi zamanı vitaminlər aşağıdakı prosesləri tənzimləyir:

- vitaminlər əzələlərin böyüməsini və inkişafını, fəaliyyətini təmin edir, onlarda gedən zülalların biosintezində birbaşa iştirak edir;
- aktiv fiziki yüklənmələr məşqlər və yarışlar zamanı vitaminlərə olan tələbat əhəmiyyətli dərəcədə artır, bu onlarda enerjiyə olan ehtiyacın yüksəlməsi ilə bağlıdır;
- xüsusi qida əlavələri və vitaminlər əzələlərin iş qabiliyyətinin yüksəlməsinə, bərpanın isə intensivləşməsinə müsbət təsir göstərir.

Böyük idmanla məşğul olan hər bir idmançı üçün səmərəli qidalanma əldə olunun idman nailiyyətlərinin rəhnidir. Hər bir idmançının rasionu orqanizmin məruz qaldığı yüklənmələr nəzərə alınmaqla tərtib olunmalıdır.

Məlum olan 30-a yaxın vitaminlərdən idmançıların qidalanmasında xüsusi əhəmiyyətinə görə 20-i istifadə olunur. Bir qrup vitaminlər piyliklərdə toplanır. Onların orqanizmdə böyük miqdarda toplanması zəhərli ola bilər. Odur ki, bu vitaminlərin qəbul olunma dozalarına diqqət vermək lazımdır. Bu qrupa A, D, E və K vitaminləri aiddir.

A vitamini *(retinoidlər)* dərinin elastikliyini qoruyur, bədənə lazımı idman formasının verilməsinə kömək edir. Retinoidlər transretinolun bioloji aktivliyinə malik olan β-yenon törəmələri qrupudur. Bu vitamin hüceyrələrin böyüməsi və çoxalması üçün zəruri maddədir. A vitamini bağırsaqlarda karotindən sintez olunur. Orqanizmdə onun çatışmazlığı zamanı immunitet kəskin zəifləyir, selikli qişa və dəri örtüyü quru olur. Qlikogenin parçalanmasına müqavimət göstərməklə, A vitamini, məşqlər zamanı enerji yaranmasında əsas rol oynayır. Əzələlərin hipertrofiyası üçün əsas komponent sayılan zülalların biosintezində aktiv iştirak edir, bu da idmançılar üçün mühüm əhəmiyyət kəsb edir. A vitaminin əsas mənbəyi qırmızı

və narıncı rənglərdə olan tərəvəz və meyvələr *(yerkökü, ərik, balqabaq və s.),* həmçinin, kartof, süd məhsulları, qara ciyər, balıq yağı, yumurta sarısı və sairədir.

Məlum olduğu kimi, ağır fiziki yüklənmələr sümük və qığırdaq toxumalarına çox zərərli təsir göstərir. Bunun qarşısını almaq üçün orqanizmin kalsium və fosfora ehtiyacı yaranır ki, bu da **D vitaminin *(kalsiumferolların)*** köməkliyi ilə təmin edilir. Kalsiumferollar antiraxit effekti göstərən birləşmələr qrupunu cəmləşdirir. Bunlardan ən aktivləri erqokalsiumferol *(vitamin D_2)* və xolekalsiumferol *(vitamin D_3) sayılır.* Preparat şəklində videin, akvadetrin kimi də məlumdur. Erqokalsiumferol bitki mənşəli maddədir. Bu vitaminin tərkibində çoxlu miqdarda yağ olduğundan idmançılar onu qəbul etməkdən adətən çəkinirlər, bu isə çox vaxt sümük toxumalarının dağılmasına səbəb olur. Bu maddə orqanizmin böyüməsini stimullaşdırır, karbohidrat mübadiləsində iştirak edir. D vitamini çatışmazlığı hərəkət aparatının funksiyasının pozulmasına, sümüklərin və tənəffüs orqanlarının işinin deformasiyasına gətirib çıxardır, idmançının dözümlülüyünə mənfi təsir göstərir və onların məşqlərinin effektliliyini azaldır.

İdmançı rasionuna bu vitaminlə zəngin məhsulların və preparatların daxil edilməsi orqanizmin uzun müddətli yarışlardan və ağır fiziki yüklənmələrdən sonra tez bir zamanda bərpa olunmasına, zədələnmələrin sağalmasına, dözümlülüyün artmasına, həmçinin idmançıların əhval-ruhiyyəsinin yaxşılaşmasına imkan yaradır. Digər yağda həll olan vitaminlər kimi kalsiumferol orqanizmdə öd turşularının köməyi ilə qana sorulur, xilomikronların tərkibində qaraciyər tərəfindən mənimsəlinir və burada onun fermentativ hidroksidləşməsi – metobolitlərinin əmələ gəlməsi baş verir. Kalsiumferol və onun metabolitləri qan plazması vasitəsilə nəql olunaraq sümüklərdə, qara ciyərdə, nazik bağırsaqların selikli qişasında toplanırlar. Kalsiumferol təkcə vitamin kimi deyil, həm də orqanizmdə qanın tərkibində kalsium və fosforun zəruri miqdarını təmin etməklə bu maddələri tənzimləyən hormon kimi də qəbul edilir. Kalsiumferolun əsas effekti onun bağırsaqlarda kalsiumun absorbsiyasının stimullaşdırılmasıdır ki, bunun da sayəsində hüceyrədə zülalın biosintezi - sümük, qığırdaq toxumalarının bərpası və inkişafı təmin edilir. Süd, ət və yumurta məhsulları bu vitaminlə zəngindir. Meyvə və tərəvəzlərin tərkibində bu vitamin olmur, lakin onların tərkibində D vitamininə bənzər sterollar olur ki, bunlar da günəş işığı şüalanması zamanı dəri örtüyündə D vitamininə çevrilir. Uzun müddət qəbul edildikdə bu vitaminə olan həssaslıq artır, bunun da nəticəsində qanda kalsium və fosforun miqdarı çoxalır, nəticədə yumşaq toxumalarda *(damarlarda, ürəkdə, ağciyərdə, bağırsaqlarda, böyrəklərdə)* kalsiumun toplanmasına – daşların əmələ gəlməsinə səbəb olur.

Məlumdur ki, vitaminlər orqanizmdə bioloji aktiv maddələrin sorulmasını yaxşılaşdırır, onların təsirini gücləndirirlər.

E vitamini *(tokoferol-preparatları şəklində tokoferol-asetat)* əzələ dözümlülüyünü əhəmiyyətli dərəcədə artırır, orqanizmin normal reproduktiv fəaliyyətinə səbəb olur. Tokoferol qəbul edikdikdən sonra öd turşularının köməyilə nazik bağırsağın proksimal hissəsində qana sorulur. Vitaminlərin nəqli passiv diffuziya mexanizmi üzrə tədricən baş verir, əsasən limfaya, oradan da qana keçir. Vitamin demək olar ki, orqanizmin bütün toxumalarına daxil olur və hüceyrələrdə lokallaşır. Bu vitamin bioloji membranları, onların mikroözlülüyünü normallaşdırır, stabilləşdirir, aterogenezin peroksid mexanizmlərinə müdafiə təsirini həyata keçirir, aortada ateroskleroz dəyişiklərinin inkişafını tormozlayır, qandakı xolesterolun miqdarını azaldır. Tokoferolun qəbulu toxuma tənəffüsünü stimullaşdırır, membran keçiriciliyini artırır, zülal və lipidlərin mübadiləsində fəal iştirak edir. Tokoferol kardiotrofik və kardiotonik təsir göstərir, trofikanı yaxşılaşdırır, kapilyarları genişləndirir və ürək əzələlərinin oksigenə olan tələbatını əhəmiyyətli dərəcədə azaldır. E vitamini orqanizmdə sintez olunmur, bitki mənşəli yağlarda, yumurta sarısında və balıq yağında olur. Odur ki, bu məhsullar idmançının qidasında həmişə olmalıdır. E vitamini çatışmazlığı idmançıların əzələlərində bərpa olunmayan dəyişikliklərə səbəb ola bilər. Bu vitamin hüceyrə membranının tamlığını qoruyan, orqanizmdə sərbəst radikalları zərərsizləşdirən təbii antioksidantdır. E vitamini ilə zəngin olan qida

məhsullarına:-bitki və heyvan mənşəli yağlar, dənli bitkilərin toxumları *(çovdar, buğda)* və tərəvəzlər aiddir.

K vitamini ***(naftoxinonlar)*** sümük toxuması daxılmasının qarşısını alan osteokalsin-sümük zülalının sintezinə təsir edən faktordur. İdmançılar üçün vacib vitamindir. Naftoxinon qrupuna bir neçə bitki mənşəli təbii vitamin-filoxinon *(vitamin K_1)* və onun sintetik analoqları *(məs. fitometandion preparatı), əsasən yoğun bağırsağın saprofit bakteriyaları, həmçinin heyvanların qaraciyərində sintez olunan naftoxinon (vitamin K_2)* daxildir. Vikasol *(vitamin K_3)* naftoxinonun sintetik preparatıdır, təbii preparatlardan fərqli olaraq suda həll olur. K vitamini toxumalarda sintez olunur . Bu vitamin qanın laxtalanmasını tənzimləyir. Ağır fiziki yükləmələr, mikrozədələnmələr və böyük zədələnmələr zamanı onun qəbul edilməsi tövsiyə edilir. Bu vitaminin təbii mənbəyi tərəvəz bitkiləridir.

Suda həll olan vitaminlər orqanizmdə toplanmır *(qaraciyərdə toplanan B_{12} vitaminindən başqa)*. Böyük dozalarda qəbul edildikdə onların izafi miqdarı orqanizmdən təbii yolla xaric olunur. Suda həll olan vitaminlər orqanizmə müntəzəm daxil olmalıdır. Bu vitaminlərə C və B qrupu vitaminləri (B_1, B_2, B_3 (PP), B_6, B_{12}) aiddir.

İdmançı orqanizmi üçün ən vacibi **C vitaminidir** ***(askorbin turşusu)***, onsuz əzələ toxumalarının tam effektiv işləməsi mümkün deyildir. Qəbul edildikdə askorbin turşusu bağırsaqlar tərəfindən dehidroaskorbin turşusu şəklində, əlavə enerji sərfi olmadan sorulur və hüceyrələrdə oksidləşmə hesabına yenidən askorbin turşusu şəklində bərpa olnur. Bu preparat bir müddətdən sonra qan plazmasında maksimum toplanır, tədricən bütün orqanlara nəql olunur, əsasən maddələr mübadiləsi intensiv gedən toxumalarda yığılır. Toxumalarda həm sərbəst, həm də birləşmə şəklində ola bilir. Bu vitamin fermentlərlə birlikdə hüceyrələrin regenerasiya prosesini sürətləndirir, birləşdirici toxumaların əsas tərkibi sayılan kollagenlərin əmələ gəlməsində iştirak edir. Orqanizmdə bu vitaminin kifayət miqdarda olması ağır yüklənmələr zamanı zədələnmə hallarını azaldır. Vitamin C hemoqlobin sintezi üçün zəruri olan dəmirin ionlarının yaxşı mənimsənilməsini təmin edir, testosteronun sintezində iştirak edir.

C vitamini ilə zənginləşdirirlmiş qida və qida əlavələrinin müntəzəm qəbulu osteoxondrozun inkişafının və bədən gərilmələrinin qarşısını alır. C vitamini bitki mənşəli məhsulların tərkibində olur: sitrus, alma, ərik, şaftalı, xurma, çaytikanı, itburnu, quşarmudu, qarayonca, gözotu, qazyana toxumu, qırmızı bibər, nanə, cəfəri, qanotu, bağayarpağı, gicitkən, moruq yarpağı və s.

Əzələ fəaliyyəti zamanı enerjinin artması B_1, B_2, B_6 və PP vitaminlərin sərfini artırır. **B_1 vitamini** ***(tiamin-xlorid)*** zülalların, yağların və karbohidratların mübadiləsində iştirak edir. Tiamin xlorid pirimidin və tiazol dövrlərindən ibarət olan heterotsiklik birləşmədir. Qəbul edikdikdə tiamin və onun efirləri bütün nazik bağırsaq boyunca tez bir zamanda sorulur: 15 dəqiqədən sonra qanda və 30 dəqiqədən sonra isə digər toxumalarda aşkar edilir. Qəbul edilən tiaminin ümumi miqdarının yarısı miokardda və skelet əzələlərində, 40%-i isə daxili orqanlarda toplanır. Orqanizmdə tiamin fosforlaşaraq tiaminə, tiamindifosfata və tiamintrifosfata çevrilir. Bu proses mitoxondrilərdə, mikrosomlarda və toxumaların hialoplazmasında daha aktiv gedir.

Tiamin orqanizmdə oksidləşmə-reduksiya proseslərində iştirak edir, kardiotrofik təsirə malikdir, enerji mübadiləsini yaxşılaşdırır, tac damarlarını genişləndirir. Miokardın qan dövranının artması sayəsində ürək əzələsində oksidləşmə-reduksiya prosesləri yaxşılaşır. Nəticədə, miokard qidalanması yaxşılaşır, onun təqəllüsü aktivliyi qüvvətlənir, kardiotonik effekt yaranır. Tiaminin sinir sisteminə müsbət təsiri də məlumdur. Belə ki, iltihab prosesləri *(nevrit, radikulit və s.)* və zədələnmələr zamanı tiamin karbohidratlar mübadiləsi məhsullarının miqdarını azaldır, sinir impulslarının effektor orqanlara ötürülməsini asanlaşdırır. Tiamin, həmçinin, qanda olan qlükoza və süd turşusunun səviyyəsinin azalmasına da təsir göstərir.

Sinir toxuması tiamin çatışmazlığına daha həssasdır. B_1 vitamini çatışmazlığı zəiflik, həzm, sinir sistemi və ürək fəaliyyəti pozğunluğu yaradır. Tiamin zülalların sintezi və hüceyrələrin böyümə prosesində iştirak edir. Əzələlərin formalaşmasında effektlidir. B_1 vitamini, aktiv

məşq mərhələləri zamanı əzələlərin oksigenlə təmin olunmasında mühüm rol oynayan hemoqlobinin əmələ gəlməsində iştirak edir. Bundan başqa, bu vitamin bütövlükdə məhsuldarlığı artırır və enerji sərfiyyatını tənzimləyir. B_1 vitamini orqanizmdə sintez olunsa da, bəzi bitki mənşəli qida məhsullarının tərkibində də olur. Tiamin əsasən mayada, taxıl kəpəyində, heyvanın daxili orqanlarında, baş və ayaqlarında, paxlalı və dənli bitkilərdə daha zəngindir. Təbabətdə istifadə olunan sintetik preparatlardan tiamin-xlorid və tiamid-bromidi göstərmək olar.

B_2 vitamini *(riboflavin).* Bu vitaminin kimyəvi tərkibinin əsasını izoalloksazin sistemi təşkil edir. Molekulunun tərkibində beş atomlu ribitol spirti olduğundan riboflavin adlandırılmışdır. Bağırsaqlardan absorbsiya olunur və bağırsaqların selikli qişasında, qara ciyər və qan toxumalarında fosforlaşmaqla iki koferment forma-flavinmononukleotidi və flavinadenindinukleotidi əmələ gətirir. Əsasən qara ciyərdə, böyrəklərdə və böyrəküstü vəzilərdə toplanır. Riboflavin toxumaların tənəffüsü prosesində nəqledici funksiyasını yerinə yetirir və oksidləşmə - reduksiya reaksiyalarını tənzim edir. Bundan başqa, amin turşularının sintezində və mübadiləsində iştirak edir, yağların, zülalların mübadiləsinin normallaşdırılmasında əhəmiyyətli rol oynayır. O, selikli qişaların, dərinin qorunmasında və hemoqlobin sintezində iştirak edir. Riboflavin enerji yaranması proseslərində: qlükozanın metabolizmində, yağ turşuların oksidləşməsində, hidrogenin mənimsənilməsində, zülalların biosintezində iştirak edir. Bu vitamin çatışmazlığı nəticəsində bədən temperaturun aşağı düşməsi, zəiflik, həzm funksiyasının pozulması və selikli qişaların zədələnməsi müşahidə olunur. B_2 vitamininin təbii mənbəyi qara ciyər, mayalar, dənli bitkilər, ət və süd məhsulları sayılır. Təbabətdə geniş istifadə olunan preparatlarına riboflavin və riboflavin mononukleotidləri aiddir. Riboflavin mononukleotidləri oftalmologiyada, dermatologiyada və nevrologiyada istifadə olunur.

PP, B_3 vitaminləri *(nikotin turşusu)* piridinin törəmə məhsulları olmaqla nikotin turşusu və nikotinamid preparatları şəklində istehsal olunur. İnsan orqanizminin bu vitaminlə təmin edilməsi həm qida məhsulları, həm də triptofanın və digər əvəzolunmaz amin turşularının endogen sintezi hesabına keçir. Bundan başqa, nikotin turşusu bağırsağın normal mikroflorası tərəfindən də sintez olunur. Daxilə qəbul edildikdən sonra nikotin turşusu və nikotinamid intensiv şəkildə mədədə və məhdud miqdarda bağırsaqlardan sorulur. Nikotin turşusunun bütün mübadilə məhsulları orqanizmdən sidik vasitəsi ilə xaric edilir. Nikotin turşusu beynin, ürək-damar, həzm və qan sistemlərinin funksiyalarına, beynin oyanmasına və tormozlanması proseslərinə təsir edir. Bundan başqa, nikotin yağların və zülalların sintezində mühüm rol oynayır, orqanizmin inkişafına, dəri örtüyünə və sinir sisteminin fəaliyyətinə təsir edir. Toxumalarda oksidləşmə-reduksiya proseslərinin intensivləşməsini təmin edən fermentlərlə əlaqədaq olur. Orqanizmin kifayət miqdarda bu vitaminlə təmin olunması məşqlər zamanı əzələlərin qidalanmasını yaxşılaşdırır.

Nikotin turşusu daha çox mayalarda, kəpəkdə, tunes balığın ətində, qara ciyərdə, süddə, yumurtada, göbələklərdə olur.

B_4 vitamini *(xolin)* ammonyaka oxşar azot birləşməsi olmaqla hüceyrə membranının qorunmasında və təzələnməsində, qan plazmasının əmələ gəlməsində iştirak edən lesitinin tərkibinə daxildir. Xolesterinin miqdarını azaldır, nootrop və sakitləşdirici təsirə malik olur. Asetilxolin şəklində B_4 vitamini sinir sitemində impulsların nəqlində mediator rolunu oynayır. Xolin sinir sisteminin normal fəaliyyəti üçün zəruri bir maddə olmaqla, beyin qişasının tərkibinə daxildir, onu bütün fəaliyyəti dövrü qoruyur. B_4 vitamini toksik müalicə preparatları, virus, alkoqol və narkotiklərlə zədələnmiş qara ciyər toxumalarını bərpa edir. Xolin yağ mübadiləsini normallaşdırır, onların parçalanmasını stimullaşdırmaqla yağda həll olan A, D, E, K vitaminlərin mənimsənilməsinə kömək edir. Bundan başqa, A vitamini insulin sintez edən vəzinin membranlarını möhkəmləndirir, bununla da şəkərin səviyyəsini aşağı salır. Orqanizmdə xolinin çatışmazlığı nəticəsində xolesterin birləşmələri zülal qalıqları ilə birləşməklə damarları tutan düyünlər *(başcıqlar)* əmələ gətirir. Bu mikroskopik damarlarda daha kəskin fəsadlara səbəb olur. Belə ki, kifayət miqdarda qidalanma və oksigen almayan

toxumalar məhv olur, zehni fəaliyyət pisləşir, unutqanlıq, ruh düşgünlüyü, depressiya halları baş verir. Xolin orqanizmdə metionin, serin amin turşuları olduqda sintez olunur. Metioninlə zəngin olan qida məhsulları ət, balıq, quş əti, yumurta, pendir, göy tərəvəz və pivə mayası sayılır. Xolin yumurta sarısında və cücərdilmiş buğda toxumlarında daha çox olur.

B_5 vitamini ***(pantoten turşusu)*** idmançılar üçün az əhəmiyyət kəsb etmir. Orqanizmə daxil olan pantoten turşusu oksidləşmə və asilləşmə proseslərində mühüm rol oynayan koenzim A tərkibinə daxil olan pantotenə çevrilir. Asetil koenzim zülalların, yağların və karbohidratların metabolizmində iştirak edən maddələrdən biridir. B_5 vitamini yağların, karbohidratların, amin turşularının mübadiləsini, həyat üçün zəruri olan yağ turşularının, xolesterinin, histaminin, asetilxolinin, hemoqlobilin sintezi üçün zəruri olan maddədir. Bu vitamin öd istehsalını stimullaşdırmaq xüsusiyyətinə malikdir. Buna görə də artrit, kolit, allergiya və ürək xəstəliklərinin müalicəsi üçün güclü vasitə sayılır. B_5 digər vitaminlərin orqanizm tərəfindən mənimsənilməsinə kömək edir. Pantoten turşusu bədənin ümumi kütləsinin tez artmasına, sinir-əzələ aparatı gücünün yüksəlməsinə, orqanizmin funksiyasının səmərəli gedişinə, qara ciyərin fəaliyyətinin yaxşılaşmasına, orqanizmdən toksiki maddələrin, alkoqolun və digər zərərli maddələrin xaric olmasına əhəmiyyətli dərəcədə təsir edir. Bu vitaminin intensiv məşqlər və yarışlar dövründə antistress maddə kimi qəbulu idmançılara tövsiyə olunur.

Pantoten turşusu təbiətdə çox geniş yayılmışdır. Bu vitamin bir çox heyvan mənşəli *(böyrək, ürək, toyuq əti, yumurta sarısı, süd, balıq kürüsü və s.)* və bitki mənşəli *(noxud, fındıq, yaşıl yarpaqlı tərəvəzlər, qarabaşaq və yulaf yarması, yerkökü, rəngli kələm, sarımsaq və s.)* məhsullarda daha çox olur.

B_6 vitamini ***(piridoksin)*** - amin turşularının parçalanmasında iştirak edən fermentativ proseslərdə, zülal mübadiləsində iştirak edir və qandakı hemoqlobinin səviyyəsinə təsir edir. Piridoksin əzələ toxumasının artmasına və fiziki iş qabiliyyətinin yüksəlməsinə səbəb olduğundan, onun idmançılara yüksək dozalarda qəbulu vacibdir. B_6 vitamininin təbii mənbəyi - cavan quş əti, yeni kəsilmiş heyvanın içalatı, baş və ayaqları, donuz əti, yumurta, əzilmiş düyüdür.

B_9 vitamini *(fol turşusu)* qanyaranması prosesini stimullaşdırır və tənzimləyir, qan azlığının qarşısını alır. Toxumaların genetik tərkibinin və amin turşularının sintezində yaxından iştirak edir. Ona görə də bu vitamin idmançıların intensiv fiziki yüklənmələri dövründə qida rasionunda mütləq olmalıdır. Təbii mənbələrinə yarpaqlı tərəvəzlər *(salat, ispanaq, pekin kələmi),* meyvələr, paxlalı bitkilər aiddir.

B_{12} vitamini *(Kobalamin)* iştahanı artırır və mədə-bağırsaq pozğunluqlarının qarşısını alır. Orqanizmdə çatışmazlığı nəticəsində hemoqlobinin qanda səviyyəsi azalır. B_{12} vitamini maddələr mübadiləsində, qan yaranmasında və sinir sisteminin normal fəaliyyətində iştirak edir, orqanizmə qida vasitəsilə daxil olur və qismən də özündə yaranır. B_{12} vitamini qara ciyərdə və böyrəkdə daha çoxdur. Yalnız heyvan mənşəli qidalarda olur. Odur ki, yağsız və bitki qidalarla ilə qidalanan idmançılar daim həkim məsləhəti ilə bu vitamini müxtəlif preparatlar şəklində qəbul etməlidirlər. B_{12} vitamini yüksək anabolik xüsusiyyətlərə malik olmaqla, zülalların mübadiləsini stimullaşdırır, nuklein turşuların sintezində yaxından iştirak edir. Polivitamin preparatların tərkibinə daxildir. Təbii mənbəyi - qoyun əti, mal əti, quş əti, dananın qara ciyəri, böyrəyi, xanı balığı, qızılbalıq, xərçəng əti, sardina, bitkilərdən isə laminariya (su yosunu növü), göy-yaşıl yosunlar və paxlalı bitkilərdir.

H vitamini *(biotin)* enerji mübadiləsində, orqanizmin reproduktiv proseslərində iştirak edir , yağ mübadiləsinə və dəri örtüyünün normal fəaliyyətinə müsbət təsir göstərir. Biotin amin turşularının sintezində əsas komponent sayılır. Biotinin təbii mənbəi olaraq mayaları, yumurta sarısını, qara ciyəri, dənli və paxlalı bitkiləri göstərmək olar.

İntensiv fiziki məşqlər gedişində oksidləşmə prosesi güclənir və bu da oksidləşdirici stressə səbəb olur. Odur ki, idmanşıların qidasında vitaminlərin və vitaminə bənzər maddələrin: - **antioksidantların**, **C, E, beta-karotin, koenzim Q_{10}, flavonoidlərin** olması olduqca

vacibdir. Bu maddələr orqanizmin antioksidant müdafiə sistemi fermentlərinin aktivliyini artırır.

P vitamini *(rutin, bioflavonoidlər)* bitki mənşəli suda həll olan kiçik molekullu maddədir, insan orqanizmi üçün xüsusi əhəmiyyət kəsb edir. Rutin kapilyarların kövrəkliyinin və davamsızlığının qarşısını almağa kömək edir. Bioflavonoidlər bir-birilərinə bənzəyir və insanın immun sistemi üçün əvəzolunmaz maddələr sayılırlar. P vitamini orqanizmə infeksiyaların daxil olmasına mane olur, müxtəlif xəstəliklərin yaranmasının qarşısını alıq, virus və bakteriyalarla mübarizə aparır, orqanizmdən ağır metalların və toksinlərin xaric olunmasını təmin edir.

P vitamini orqanizmin toxumalarının müdafiəsində və möhkəmlənməsində, immunitetin yüksəlməsində, mənfi amillərdən qorunmada, vaxtından əvvəl qocalmanın, müxtəlif xəstəliklərin qarşısının alınmasında, kəskin təzyiq düşməsində, toxumaların şişməsinin, qan dövranının pozulmasının qarşısının alınmasında, onkoloji xəstəliklərin inkişafının ləngidilməsində, iltihab proseslərinin müalicəsində və qarşısının alınmasında iştirak edir.

P vitamininin köməyi ilə allergik halların qarşısını almaq, ağrı sindromunu dəf etmək, qaxili qanaxmanı, babasili, hipertoniyanın gedişini yüngülləşdirmək, həmçinin də, infarkt və insultun inkişafını ləngitmək mümkündür.

Bioflavonoidlər bitki mənşəli məhsullarda: sitrus meyvələrində *(limon, portoğal, qreypfrut, naringi)*; giləmeyvələrdə *(moruq, cır mərsin, gilas, qara qarağat, qara toxumlu quşarmudu)*; meyvələrdə *(üzüm, ərik)*; tərəvəzlərdə *(kələm, pomidor, qabıqlı bibər, göy salat, cəfəri, keşniş, şüyüd)* olur. Bundan başqa, dənli bitkilərdə, çayda, kofedə, süzülməmiş pivədə, şərab və qara şokoladda *(kakao 70%-dən az olmamaqla)* da olur.

Orqanizmin toxumalarının, xüsusilə də, əzələ toxumasının normal metabolizm üçün müəyyən biokimyəvi reaksiyaların gedişini tələb edir. Bu reaksiyalarda vitaminlər rolu böyükdür, onlar fermentlərlə birgə fəaliyyət göstərir.

Vitaminlər idmançı orqanizmi üçün çox vacibdir. Onlar orqanizmdə zülalların, yağların və karbohidratların energetik proseslərində toxumalardakı metabolizmin intensivləşməsinə kömək edirlər. İdmançıların vitaminlərə olan tələbatının tam ödənilməsi onların fiziki imkanlarının artmasına, əzələlərin dözümlülüyünə, məşqlərin effektliliyinə, yükləmələrdən sonra bərpa olunmanın sürətinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Eyni zamanda, unutmaq olmaz ki, bəzi vitaminlərin həddən artıq qəbulu onların tarazlılığının pozulmasına səbəb olur, bu da fiziki iş qabiliyyətinin və idman nəticələrinin azalmasına gətirib çıxardır. Həkim nəzarəti olmadan vitaminlərin qəbulu idmançıların əhval-ruhiyyəsinə mənfi təsir göstərir, böyrəklərin, qaraciyərin və ürək-damar sisteminin fəaliyyətini pozur. İdmançıların vitaminlərə olan tələbatı olduqca müxtəlif olduğundan və təbii halda onların qəbulu həmişə mümkün olmadığından, balanslaşdırılmış miqdarda makro- və mikroelementlərdən hazırlanmış preparatlardan və qida əlavələrindən istifadə olunması lazım gəlir..

Vitaminlərlə ən yaxşı təbii mənbəyi təzə qida, meyvə və şirələr sayılır. Ona görə də qəbul ediləcək qida orqanizmə lazım olan komponentlərə malik olmalı, onun artan tələbatını ödəməlidir.

Ədəbiyyat

1. Əliyev Ə.H., Baxşalıyev A.Y., Məhərrəmov Ş.A., Əliyeva F.Ə. Qidalanma və həzm fiziologiyası, Bakı.: “Baki Universiteti”, 2009.-120 s.
2. Babayev M.Ə., Əliyev A.A. İdman təbabəti və gigiyena, Bakı, 2012
3. Cəfərov F, Fətəliyev H., Funksional qida məhsullarının texnologiyası, Bakı, 2014.-112 s.
4. Fərzəliyev E. B. Qida məhsullarının müasir tədqiqat üsulları, Bakı, 2014.-126 s.
5. Məmmədov A. M., Sudakov K. V. Normal fiziologiya, II cilddə, Tibb işçiləri üçün dərslik, II-ci cild, Bakı, Təbib, 2011.-482 s.
6. Məmmədov A.M., Sudakov K.V., Normal fiziologiya, I-ci cild, Bakı,Təbib, 2011.-420 s.
7. Məmmədyarov Q. M., Əliyev S. A., “İdman biokimyası”, Dərslik. Bakı-2005.-340 s.

8. İsmayılov O. B., İsmayılov T. M., Mahmudov R. M., Normal fiziologiya, Bakı, Turan, 2002.-640 s.
9. Арансон М.В. Питание для спортсменов. М.: Физкультура и спорт, 2001.-164 с.
10. Пшендин П. И. Рациональное питание спортсменов., Санкт-Петербург, Гиорд, 2002.-200 с.
11. Эрл Минделл Справочник по витаминам и минеральным веществам. - М.: Медицина и питание, 2013.-410 с.
12. Комов В. П., Шведова В. М. Биохимия, Учебник.-М: Юрайт, 2014.-640 с.
13. Михайлов С. С. Биохимия двигательной деятельности, М: Спорт, 2016.-296 с.
14. Малахов Г.П. Витамины и минералы в повседневном питании человека. М.: Крылов, 2007.-200 с.
15. Таймазов В. А., Марьянович А. Т. Биоэнергетика спорта, СПб.: Шатон, 2006.-122 с.
16. Румянцева Г. И., Гигиена, М.: ГЭОТАР, 2005.-608 с.
17. Онищенко Г.Г., «Гигиена питания» Москва, 2008.-340 с.
18. Олейник С. А, Гунин Л. М.,Сейфулла Р. Д., Фармакология спорта, Киев.: НУФВСУ «Олимпийская литература»,2010.-190 с.
19. Полиевский С. А. Основы индивидуального и коллективного питания спортсменов, М.: Физкультура и спорт, 2005.-160 с.
20. Горбунов Ю.Е., Гатилов П.М. Рациональное питание спортсменов., Омск: СибАДИ, 2003.-150 с.
21. Чиркин А. С., Назаренко А. С. Физиология спорта, М.: Спорт, 2016.-120 с.

М.А.Бабаев, Ш.Н.Мамедова, С.С.Алибекова

Роль витаминов в питании спортсменов

Резюме

В статье указаны основные значения и роли сбалансированного питания для спортсменов, из каких веществ, входящие в состав рациональной пищи, наш организм получает энергию и силу.

В статье подробно и отдельно описывается задачи каждого жизненно важного витамина, функциональная роль каждого витамина в строении, в развитии и в поддержании организма. Также описываются последствия при нехватке и при излишнем присутствии этих витаминов в организме.

Описывая каждый витамин, тут же указываются их натуральные источники - продукты растительного и животного происхождения.

M.A.Babaev, Sh.N.Mammadova, S.S.Alibekova

The role of vitamins in the nutrition of sportsmen

Summary

The article shows the basic values and the role of balanced nutrition for sportsmen. What are the substances that make up the rational of food, our body gets its energy and strength.

The article also describes in detail and separately each task vital vitamins, their functional role in the construction, development and maintenance of the body. The article also describes the consequences when shortages and excessive presence of these vitamins in the body.

Describing each vitamin, immediately indicate their sources of natural products of plant and animal origin.

Rəyçi: b.f.d., dos. S.A.Əliyev

Redaksiyaya daxil olub: 13.06.2017

UOT 37.02; 371

K.H.CABBAROVA
e-mail: kenulcabbarova@gmail.com

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

GƏNCLƏR ARASINDA SUİSİD (İNTİHAR) DEVİANT DAVRANIŞIN FORMASI KİMİ

Açar sözlər: *suisid, gənclər, deviant davranış, sapma, səbəb, pedaqoji maarifləndirmə, profilaktika.*
Ключевые слова: *суицид, молодёжь, девиантное поведение, отклонение, причина, педагогическое просвещение, профилактика.*
Key words: *suicide, the youth, deviant behavior, declension, the reason, pedagogical education, the prevention.*

Cəmiyyətdə ümumi qəbul olunmuş normaların pozulması deviant davranış kimi başa düşülərək və qəbul olunaraq, son zamanlarda kütləvi xarakter daşımağa başlamışdır. Bu problem ölkəmizdə psixoloqların, pedaqoqların, tibb və hüquq mühafizə orqanlarının işçilərinin daim diqqət mərkəzindədir.

Əhalinin böyük hissəsinin deviant davranışı bu gün ölkə üçün ən təhlükəli və dağıdıcı tendensiyalar təcəssüm etdirir. Deviant davranışın ümumi səbəbləri mövcuddur:

- sosial bərabərsizlik;
- cəmiyyətin əxlaqi-mənəvi səviyyəsinin həddindən artıq aşağı olması;
- deviant davranışa biganə münasibət göstərən ətraf mühit və s.

Gənclər arasında deviant davranışın ən parlaq formalarından biri olan suisid üzərində daha ətraflı dayanaq.

Ölüm mövzusu bizim bütün həyatımıza, həyat tərzimizə, düşüncələrimizə nüfuz edir və yaşımızın üstünə yaş gəldikcə daha da aktuallaşır.

XXI əsrdə bəşəriyyətin müasir sivilizasiyası ilə uzlaşmayan, insanlığın heç bir mənəvi-əxlaqi parametrlərinə uyğun olmayan, gənc nəslin tərbiyəsinə zidd olan, insanlara psixoloji cəhətdən sarsıdıcı təsir göstərən sosio-neqativ davranış aktlarından biri də intihardır. Ərəbcə "intihar", latınca isə "suisid" sözlərinin mənası insanın bilərəkdən özünə sui-qəsd etməsi və özünü öldürməsidir. Əhali arasında baş verən ölümün səbəbləri içərisində intihar ilk onluğa daxildir (3, s. 305).

Suisid latın sözü olub "sui" – özünü, "seadere" – öldürmək deməkdir.İntihar və yaxud suisid qəsdən öz haytına son qoymaqdır. *Suisidal davranış* termini altında suisidal fəallığın istənilən təzahürü nəzərdə tutulur. Əksər hallarda suisidal davranış psixi cəhətdən normal insana xas olan bir davranış forması kimi qəbul edilir.

Müasir qloballaşan dünyada ən aktual sosial problemlərindən biri suisidial davranışdır. Ümumdünya Səhiyyə Təşkilatının statistikasına görə dünyada hər il 400-500 min insan intihar edərək öz həyatlarına son qoyurlar. Özünəqəsdin statistikası aparılan ölkələrdə son 30 ildə yeniyetmə və gənclər arasında intihar nəticəsində ölüm hallarının statistikası xeyli yüksəlmişdir ki, bu da elmi-texniki, ictimai və mənəvi tərəqqinin qarşısında ciddi sosial və mənəvi əngəllərdən birinə çevrilməkdədir (1, s. 241).

Bəzi müəlliflər intiharın səviyyəsini nisbi stabil milli göstərici kimi qələmə verirlər. Bəzi ölkələrdə əhalinin müxtəlif sosial və yaş qrupları arasında intiharın rəsmi və qeyri-rəsmi statistikasında fərqlər özünü göstərsə də, deviant davranışın bu halının artım tempinin sürətlənməsi ciddi həyəcan və narahatlıq doğurur. İntiharların yüksək səviyyəsi müasir dövlətlər olan Almaniya, Macarıstan, Avstriya, İsveçrə, aşağı səviyyəsi isə İspaniya, İtaliya, İsrail və Latın Amerikası ölkələrində qeydə alınıb. 1994-cü ildən birinci yerləri Litva (hər 100 min nəfərə 45,8 hadisə), Rusiya (hər 100 min nəfərə 41,8 hadisə), Estoniya (hər 100 min nəfərə 40,9 hadisə), Macarıstan (hər 100 min nəfərə 35,3 hadisə) tutublar (2).

Son zamanlar intihar hallarının gəncləşməsi, yəni uşaqlar və gənclər arasında daha çox baş verməsi narahatedici məsələlərdəndir. Belə ki, ölkəmizdə 2008-ci ildə 58, 2009-cu ildə 54, 2010-cu ildə 51, 2011-ci ildə 28, 2012-ci ildə 60, 2013-cü ildə isə 71 uşaq intihar edib.

Elmi psixoloji və pedaqoji ədəbiyyatda suisid hallarını 3 qrupa ayırırlar: həqiqi, demonstrativ və gizli suisidlər. *Həqiqi suisid* ölmək istəyi ilə yönləndirilir və kifayət qədər gözlənilməz görünsədə, heç zaman spontan olmur. Suisidin bu formasına tükənmişlik əhval-ruhiyyəsi, depressiv hal və yaxud da həyatdan köçmək fikirləri səbəb ola bilir. Həqiqi suisidin əsas xüsusiyyəti kimi həyatın mənası haqqında düşüncələr göstərilir.

Demonstrativ suisid öz mahiyyəti etibarı ilə yeniyetmə və gəncin yaranmış vəziyyətə ətrafdakıların diqqətini cəlb etmək, köməyə səsləmək, dialoq yaratmaqla müşayiət olunur. Bu özünəməxsus şantaj cəhdi ola bilər. Belə halda ölüm təsadüfi qəzanın nəticəsində olur.

Gizli suisidal davranış əksər hallarda həyatdan getməyə deyil, riskə, ölümlə oyuna hədəflənir. Belə davranışlı insanlar riskli avtomobil yarışlarına, ekstrimal idman və biznes növlərinə, dünyanın ən qaynar nöqtələrinə könüllü səfərlərə çıxmağa, güclü narkotik maddələrin istifadəsinə, özünütəcridə üstünlük verirlər (7, s. 145).

İntihar edəcək yeniyetmə və gənclər əvvəlcədən təhlükəli siqnallar və ipucları verir. Onlar öz doğma əşyalarını yaxınlarına əmanət edir və ölüm haqqında tez-tez danışırlar. “Özümü öldürəcəkmişəm kimi hiss edirəm”, “Son vaxtlar maşının sürətinə heç fikir vermədən sürürəm”, “Hər şey daha da pisləşsə dərmanlarım hazırdı” və s. tipli cümlələrdən istifadə edir.

Suisidal təhlükə əsasən aşağıdakı qruplarda qeydə alınır: “tənhalar”, şəxsiyyətlərarası münasibətləri pozulmuş gənclər, narkotik maddələrdən və yaxud alkoqoldan sui-istifadə edən şəxslər, kriminal və yaxud deviant davranışı ilə fərqlənən şəxslər, həddindən artıq özünətən-qidlə yanaşan insanlar, təhqirlərdən, tragik itkilərdən sarsılan şəxslər, tərkedilmiş və yaxud xəstəlikdən əziyyət çəkən insanlar, nevrozlara məruz qalmış şəxslər, frustrasiyalardan əziyyət çəkən yeniyetmələr.

Müasir dünyamızda intihar edənlərin böyük əksəriyyəti gənc nəslin nümayəndələridir. Ümumiyyətlə, insanlar arasında intiharların baş verməsinin bir sıra səbəbləri var:

1. İradəsizlik və depressiyaya düşmək. İradəcə güclü olan insanlar hər zaman ölümün son anında bir çıxış yolu düşünüb tapır və intihardan vaz keçib həyatda öz mübarizələrini sona qədər davam etdirmək istəyirlər. İradəsizlər isə iradəsizliklərindən depressiyaya düşərək ən asan olan intihar yolunu seçirlər.

2. İşsizlik. Evə çörəkpulu gətirə bilməyən, borc içində itib-batan iradəsi zəif olan insanlar son əlac kimi intihara əl atırlar.

3. Qısqanclıq. Demək olar ki, dünyada qısqanc olmayan insan yoxdur. Ancaq bəzilərində o "əlamətin" dərəcəsi o qədər yüksəkdir ki, sonda özünü onun «quluna» çevirir və sevgilisindən ötrü bu dünyadan getməyə məcbur olur.

4. Sevgi. Sevib sonda o sevgiyə qovuşmayanlar intihara cəhd edirlər. Özü də bu qəbildən olan insanların hamısı əsasən gənclərdir.

5. Boşanmalar. Xüsusən də uşaqlı ailələrin boşanması həmin uşağın mənəvi pozuntusu-na gətirib çıxarır. Belə ki öz ailəsindən ayrı yaşayan uşaqlar alkoqol və narkomaniyaya daha çox meyil göstərirlər. Onların həyatda heç nəyə ümidləri olmur və tək istədikləri şey, sadəcə, tez ölməkdir (8).

Suisidal davranışın xüsusiyyətlərinə yaş meyarı böyük təsir göstərir. Məsələn, yeniyetməlik və qocalıq dövrlərinə aid edilən “böhran” anlayışı, yüksək suisidal hazırlıq ilə xarakterizə olur. Tədqiqatların nəticəsi ilə müəyyən edilmişdir ki, 13 yaşına qədər olan uşaqlarda suisidal davranış nadir hallarda baş verir. Yalnız 14 - 15 yaşdan sonra susisidal aktivlik kəskin surətdə artır və öz pik həddinə 16-19 yaşlarda çatır. A.Y.Liçko qeyd edir ki, yeniyetmələr arasında yalnız 10% intihar edərək həyatına son qoymaq istəyir, 90% halda isə bu sadəcə yardım istəyi fəryadıdır(4,s. 118).

B.N.Almazov qəsdən özünə xəsarət yetirən 14-18 yaşlı gəncləri müayinə edərək, müəyyən etmişdir ki, onlardan yalnız 4%-də özünə xəsarət yetirən zaman suisid haqqında fikirləri olmuşdur. Əksər ekseslər isə öz yaşıdları arasında baş verən münaqişə zamanı baş verib (4).

İlk gənclik yaş dövründə suisidal davranış əsasən, şəxsi–intim münasibətlər ilə əlaqəli olur, məsələn xoş "akkordlarla" yekunlaşmayan məhəbbətlə. Bu yaşda gənclər depressiyalara meyilli olurlar. Depresiyaların səviyyəsi suisidal təhlükənin ciddilik meyarı kimi müəyyən edilir. Psixoloji tədqiqatların (M.İ.Rojkov və b.) nəticələrinə görə, real özünəqəsd hallarına əsasən sensitiv və tsikloid xarakterli yeniyetmə-gənclərdə depressiv fazada təsadüf olunur. Bunun yaranmasının başlıca səbəbi müxtəlif mənşəli depressiv vəziyyətlərdir. Bütün psixi və fiziki təzahürlərində məyusluq əlamətləri daşıyan depressiya yeniyetmə və gənclərdə yaşlılardan fərqli cəhətləri ilə seçilir. A.E.Liçko bu yaş dövrü üçün səciyyəvi olan depressiyanın delinqvent, ipoxondrik, astenoapatik və melanxolik depressiya olmaqla 4 əsas tipini fərqləndirmişdir.

Yeniyetmə və gənc oğlanlarda özünəqəsd hallarına qızlarla müqayisədə ən azı iki dəfə çox təsadüf olunur. Lakin qızlarda intihar cəhdlərinə daha çox rast gəlinir ki, bunun da əksəriyyəti nümayişkaranə xarakter daşıyır. Uğursuz intihar cəhdləri əsasən təkrarlanmasa da, belə cəhd etmiş 10-20 yaşlarında 10% oğlanlarda, 3% isə qızlar sonrakı iki il ərzində bu cəhdləri təkrarlayaraq öz həyatları ilə vidalaşırlar.

Yeniyetmə gənclərdə suisidal davranışın geniş yayılmış tipik motivləri aşağıdakılardır:

- inciklik duyğusu, tənhalıq, yadlaşma;
- valideyn məhəbbətinin itirilməsi, qısqanclıq;
- valideynlərdən birinin ailəni tərk etməsi, onların vaxtsız və faciəvi ölümü;
- günah və utancaqlıq hissi, istehza, alçaldılma, təhqir;
- cəza qorxusu, üzr istəməkdən imtina;
- məhəbbət uğursuzluğu, seksual acizlik hissi, qızlarda nikahdankənar hamiləlik;
- öz taleyinə diqqəti cəlb etmək istəyi;
- xoşagəlməz nəticələrdən, çətinlikdən və təhlükədən qaçmaq təşəbbüsü;
- film və ya bədii əsər qəhrəmanlarının təqlid edilməsi (6, s. 104).

Alman psixoloqu H.Ottonun fikrincə, gənclərdə özünəqəsd cəhdinin onda doqquzu həyatla haqq-hesabı çürütmək motivi ilə deyil, köməyə çağırış motivi ilə bağlıdır. Yeniyetmə və gənclərin əksəriyyəti intihar edəcəkləri barədə irəlicədən məlumat verir və xəbərdarlıq edirlər. Intihar cəhdlərinin 80%-i evdə, gündüz və ya gecə vaxtı, heç kimin müdaxilə edə bilməyəcəyi bir şəraitdə baş verir. Bir çox intiharlar açıq, nümayişkaranə, başqalarının gözü qarşısında, kimə isə yönəlmiş və suisidal hədə-qorxu, qisas xarakterli olur.

Digər və təəssüf ki, kifayət qədər öyrənilməyən, suisidi meydana gətirən bir faktor kimi, *yeniyetmə və gənclik submədəniyyətinin* təsirini göstərmək olar. Buna misal olaraq, 2005-ci ildə Türkiyənin hal-hazırda tanınmış sənətkarlarından biri olan Murat Kekillinin böyük qalmaqal yaradan "Bu Akşam Ölürüm" mahnısını göstərmək olar. Bu musiqi nəticəsində Murat Kekilli çox məşhurlaşdı, lakin bu musiqi parçasını dinlədikdən və ya klipini izlədikdən sonra 17 nəfər gənc intihar etmişdir. Türkiyənin kütləvi informasiya vasitələrində bu mahnı intihara aparan bir musiqi olaraq qeyd olundu.

Yaxud, kimsə özünü körpüdən atır, sonra bu hallar təkrar olmağa başlayır. Elmdə bu fenomenə "Verter effekti" deyilir. Alman yazıçı İohan Fon Göte 1774-cü ildə məktublar formasında yazdığı "Gənc Verterin iztirabları" adlı romanı çap olunur. Əsər gənc Verterin Şarlotta adlı qadına qarşı platonik məhəbbətindən bəhs edir. Əsərin sonunda Verter intihar edir. "Gənc Verterin iztirabları" həmin dövrün ən çox oxunan əsərinə çevrilir. 1787-ci ildə ikinci dəfə nəşr edilir. Romanın təsiri ilə Almaniyada və Avropada intiharların sayı kəskin çoxalır. Buna görə bir çox ölkədə kitabın satışı və nəşri qadağan edilir. Əsərin verdiyi bu effektə sonralar "Verter effekti" adı verilib. Kütləvi informasiya vasitələrində, televiziya kanallarında bunun təbliğ olunması zəncirvari reaksiya əmələ gətirir. Ona görə də bəzi ölkələrdə intiharların televiziya vasitəsi ilə göstərilməsi qadağandır.

Sosial media da, gənclər arasında suisidə bir neçə aspektdən təsir etsə də, əlbəttə ki, intiharların kökündə yalnız mediyanın bu növünün olduğunu əminliklə vurğulaya bilmərik. Uşaqlıqdan gələn özgüvən duyğusunun zəif olması, getdikcə problemlərin artması, ümidsizliyin olması və insanın özünü yalnız hiss etməsi şəxsiyyətə mənfi təsirlər göstərir.Hər bir şəxsdə öz güvən duyğusunun aşağı olması insanın həyat eşqinin və yaşamaq üçün artıq heç bir səbəbinin olmaması düşüncəsinə gətirir. Öz güvən duyğusunun aşağı olma səbəbi uşaqlıqdan yaranır.Valideynlər daima uşaqlara "Sən bunu edə bilməzsən" əvəzinə "Sən bunu bacararsan,sənə inanıram" cümləsini daha tez-tez istifadə etmələri onları gələcəkdə daha güclü,bir qərar vermələri lazım olduğu zaman öz fikirlərinə daha çox yer vermələrinə səbəb olar.Məsələn, 16 yaşında bir oğlan uşağı özü siqaret çəkmək istəməsə də ətrafındakı dostlarına yox deyə bilmədiyi üçün zərərli alışqanlıqlara istiqamətlənir və öz qərarlarını daima verə bilmədiyi üçün getdikcə stresslər artan zaman ağır nəticələrlə sonlanır.

Gənclər və yeniyetmələr arasında suisid cəhdlərinin qarşısının alınması üçün bir sıra məqamlara diqqət yetirək: *dinləyək* – "mən səni eşidirəm" (gənci ümümi sözlərlə təsəlli etmək lazım deyil, suallar verib diqqətlə dinləmək lazımdır); *müzakirə edək* – planların və problemlərin geniş müzakirəsi təşvişi aradan götürməyə kömək edir; problemlərin *müvəqqəti xarakter daşıdığını* vurğulamağa çalışaq və s. (5, s. 333).

Yeniyetmə və gənclər arasında suisidin profilaktikasına vaxtında göstərilən psixoloji dəstəyi, həyatın ən çətin anlarında mehriban davranışı və yardımın göstərilməsini aid etmək olar.

Gənc və yeniyetmə təlqinə açıq olduqda, çoxlu mütaliə etdikdə, öz əhatəsində olan böyüklərə inanıb hörmət etdikdə, gənclər arasında suisid hallarının qarşısını almaq daha asan olur. Onlar belə hesab edirlər ki, suisid qəhramanlığın, gözəl davranışın təcəssümüdür və öz təsəvvürlərində yaxınlarının və dostlarının onların arxasınca ağladığını canlandırırlar. Təxəyyüllərində, öldükdən sonra cənazə kortejində cavan bir ölü bədənin aparıldığını təsəvvür edirlər. Əslində isə, məhkəmə tibbi ekspertlər qeyd edirlər ki, əksər suisid hallarının çoxu asan ölümlə deyil, ağır travmalar və əlilliklə bitir.

Müasir zəmanəmizdə, intihar artıq insanın şəxsi problemi deyildir. İstisna halları nəzərə almasaq, əminliklə demək olar ki, intihar cəmiyyətin, cəmiyyətdə yaşanan mənəvi boşluğun, insanların kütləvi özgələşməsinin, biri-birilərinə diqqətsizliyinin, dayaq durmamasının problemidir. Suisidentlər obyektiv və ya subyektiv səbəblərdən daxili harmoniyasını itirmiş və disharmoniya ilə yaşaya bilməyən insanlardır. İntihar qarşısı alına biləcək ölüm səbəbidir. Vaxtında göstərilən diqqət və qayğı bir insanın həyatına bərabər böyük və əhəmiyyətli bir işdir. Suisid hallarının profilaktikasını da əslində elə bundan başlamaq lazımdır. Unutmaq olmaz ki, intihar hadisələri bütün insanlara, xüsusilə də yeniyetmə və gənclərə çox mənfi psixoloji təsir edir. Ümumiyyətlə, profilaktik tədbirlər bütün yaş dövrlərini əhatə etməlidir.

İntihar haqqında düşünən bir çox insan qərarsız, yəni hər iki tərəfə meylli olur. Çoxları əslində ölmək istəmir, onlar acılarının bitməsini istəyirlər. Bir dəfə intihara cəhd etmiş insana dəstək olunmalıdır ki, o, yenidən bu addıma əl atmasın. İntihar riskini artıran faktorlarla bağlı insanlarımız bilgili olmalı və lazım gəldikdə gərəkən yardımı göstərməyi bacarmalıdırlar.

İnsanı həyata bağlayan ünsürlərin sayı artdıqca,bağlar qüvvətləndikcə intihar etməsi də çətinləşir. Bir sıra inancsızların inananlardan, subayların evlilərdən,uşaqsız ailələrin uşaqlılardan, skandal yaradan və uzlaşmayan kimsələrin sosial dəyərlərlə problemi olmayanlardan daha çox intihar etməyinin səbəbi başqa cür izah edilə bilməz.Bu səbəbdən,milli və mənəvi bağları qüvvətləndirib,fərd-cəmiyyət və mədəniyyətin maddi-mənəvi tərəflərini tarazlaşdırmağı bacara bilsək, həm fərdə sağlam bir şəxsiyyət qazandıra bilərik,həm də onu intihara götürən yalnızlıqdan və problemlərdən qurtara bilərik.Bununla da sosial inkişafa imkan yaradan düzgün bir cəmiyyət formalaşdıra bilərik.

Beləliklə, suisid şəxsiyyətin davranış sapmasının ən təhlükəli formasıdır. İntiharlar müxtəlif səbəblərdən baş verir, lakin həmişə ya şəxsiyyətin daxili münaqişəsindən və ya şəxsiyyətin və ətraf mühitin münaqişəsindən törəyir. Buna görə, gənclər arasında suisid aktını

azaltmaq üçün ilk öncə valideynlərlə profilaktik görüşlər təyin olunmalı və onlar maariflən-məlidir. Valideyn - övlad münasibətlərinə ən çox bu yaş dövründə diqqət yetirilməlidir. Hər bir valideyn bilməlidir ki, o özü də bu dövrdən keçib və övladını bu keçid (böhranlı) dövründə başa düşməli və onu intihar haqqında fikirlərdən uzaq tutmağa çalışmalıdır.

Ədəbiyyat

1. Кон И.С. Психология ранней юности. /М., «Просвещение», 1989.
2. Глинский Я.И., Юнацкевич П.И. Социологические и психологические основы суицидологии. – СПб., 1999.
3. Гроллман Э. Суицид: превенция, интервенция, поственция / / Суицидология: Прошлое и настоящее: Проблема самоубийства в трудах философов, социологов, психотерапевтов и в художественных текстах. М.: 2001, с. 305-306.
4. Личко А.Е. Психопатия и акцентуации характера у подростков. 2-е изд., /Л., «Медицина», 1983.
5. Шамаева Л.А. Суицид как форма девиантного поведения / Отклоняющееся поведение человека в современном мире: проблемы и решения: Материалы Международной заочной научно-практической конференции. Владимир: Владимирский государственный университет, 2010, с. 333-335.
6. Воспитание трудного ребенка. Дети с девиантным поведением. /Под ред. М.И.Рожкова / М., «Владос», 2003.
7. Змановская Е.В. Девиантология. Москва, 2006.
8. http://kayzen.az/blog/daily-problems

К.Г.Джаббарова

Суицид (самоубийство) среди молодёжи как форма девиантного поведения

Резюме

Автор здесь рассказывает о причинах роста количества случаев суицида (самоубийства), как одной из форм девиантного поведения, среди молодёжи и о путях разрешения этой проблемы с педагогической точки зрения. Проблема довольно актуальная, так как суицид среди молодёжи в XXI веке считается соционегативным поведенческим актом, несовместимым с современной цивилизацией человечества, несоответствующим никаким моральным нормам, противоречащий воспитанию молодого поколения и оказывающий разрушительное психологическое влияние на людей.

Особо подчёркивается роль проведения профилактических встреч и педагогического просвещения среди родителей.

K.H.Jabbarova

Suicide among young people as a form of deviant behavior

Summary

Here, the author recently deals with an increasing number of reasons of the suicide, which is the form of the youth deviant behavior and the ways of eliminating them pedagogically. The problem is quite important because suicide among young people in the twenty-first century, humanity is incompatible with modern civilization, humanity does not fit the parameters of any moral, which is contrary to the upbringing of the younger generation, crushing psychological impact on people's behavior acts of socio-negative one. It is important role of preventive meetings and pedagogical education among parents.

Rəyçi: ped.f.d., dos. Z.M.Əzizova

Redaksiyaya daxil olub: 11.05.2017

İ.C.CƏLİLOVA
e-mail: ilahe.celilova1981@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASI İMKANLARI

Açar sözlər: *diyarşünasıq materialları, şəxsiyyətin formalaşdırılması, tərbiyə, psixoloji inkişaf, sosioloji keyfiyyət.*

Ключевые слова: *материалы краеведения, формирование личности, воспитание, психологическое развитие, социологическое качество.*

Key words: *local history materials, the formation of personality, upbringing and development of psychological, sociological quality.*

Şagird şəxsiyyətinin formalaşması mürəkkəb, uzun sürən bir prosesdir, tərbiyəçidən-müəllim və valideynlərdən gərgin zəhmət, xüsusi qayğı, təmkin, hövsələ, dözüm tələb edir. Həm də tərbiyəvi təsirin bütün formalarının kompleks tətbiqi şəraitində məktəbli şəxsiyyəti tam formalaşa bilər. Söz sənəti və tədris fənni kimi ədəbiyyat bu sahədə hüdudsuz imkanlara malikdir, gənc nəsildə dünyaya konseptual baxışın, əqidənin, əxlaqi prinsiplərin, mənəvi dəyərlərin, fəaliyyət motivlərinin tərbiyə olunmasına köməklik göstərir.

İ.T.Frolovun təbirincə desək, "şagirdlərə dünyanın elmi mənzərəsi haqqında biliklər verən və dünyada insanın yerini göstərən təbiət fənlərindən fərqli olaraq, ədəbiyyat insan tərbiyəsinin vasitəsinə çevrilir, təbiətə, təbii mühitə münasibətdə müəyyən davranış normalarını formalaşdırmaq, onunla ahəngdarlığa cəhd insan rifahı naminə biosferin optimallaşdırılmasının vacibliyini dərk etmək kimi vəzifələrin həyata keçirilməsinə imkan verir".

Ədəbiyyat dərslərində diyarşünaslıq materiallarına müraciət etmək, onlardan tərbiyəvi məqsədlər üçün istifadə olunması şagird şəxsiyyətinin formalaşmasına köməklik göstərir. Məlum olduğu kimi, bizi əhatə edən aləmlə, təbiətlə tanışlıq, yurdumuzun təbiətinə aid məlumatlara yiyələnmək diyarşünaslıq işinin mühüm cəhətlərindəndir. Eksperimental siniflərdə pedaqoji müşahidələrin, şagirdlərlə anket sorğularının və onların yazdıqları inşaların təhlili V-XI sinif şagirdlərinin təbiətə münasibətinin formalaşmasında bədii ədəbiyyatın rolunu bir daha aşkarladı. Eksperimentə qədər aparılmış sorğulardan görünür ki, təbiətin incəsənətdə təsviri real həyatda olduğu kimi şagirdləri özünə cəlb edir.

Tədqiqatlar göstərir ki, sinifdən sinfə keçdikcə təbiətin əsrarəngiz gözəlliklərini, flora və faunasını təsvir və tərənnüm edən bədii ədəbiyyata maraq artır.

Bəzi şagirdlər etiraf edirlər ki, bədii ədəbiyyatla yaxından tanış olmaq onlarda doğma diyara, onun təbiətinə, tarixinə, keçmişinə görkəmli adamlarına, xalqımızın adət və ənənələrinə, qəhrəmanlıq səhifələrinə rəğbəti, hörmət və ehtiramı yüksəldir. Məktəblilərin qənaətincə, bədii ədəbiyyatın təsiri ilə onlar ətraf aləmi, gerçəkliyi daha doğru-düzgün qavrayırlar. Bu baxımdan ədəbiyyat dərsləri zəngin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlara malikdir. Belə ki, ayrı-ayrı mövzular şifahi xalq yaradıcılığı, yazılı ədəbiyyatımızın ümumi inkişaf yolları, müxtəlif dövrlərdə yaşayıb-yaratmış bu və ya digər yazıçının həyat və yaradıcılığı, əsərləri və s. haqqında şagirdlərə biliklər verilir, başqa sözlə, təlimin təhsilləndirici funksiyası yerinə yetirilir.

Təlim prosesində şagirdin dünyagörüşünün və şəxsiyyətinin formalaşdırılması ümumi məqsəd kimi irəli sürülür və həyata keçir.

Vaxtilə Y.A.Komenski yazırdı ki, "Təlim və tərbiyənin bütün tərəflərinin qarşılıqlı əlaqəsini səmərəli şəkildə təşkil etmək üçün: 1) dəqiq müəyyən edilmiş məqsədi; 2) bu məqsədə

çatmağa imkan verən vasitələri; 3) bu vasitələrdən istifadə etməyə şərait yaradan qaydaları müəyyənləşdirmək lazımdır".

Təlim prosesi, başlıca olaraq, üç əsas elementin qarşılıqlı əlaqəsini nəzərdə tutur: müəllimin fəaliyyəti, şagirdin fəaliyyəti, hər hansı bir fənnin proqramı öyrənilən materialla müəyyən olunan təhsilin məzmununu. Bütün bu fəaliyyət müvafiq məqsədi izləyir və əldə olunanlar özünü nəticədə göstərir.

Bu mənada diyarşünaslıq materiallarının öyrənilməsi son nəticədə öz ifadəsini şagird şəxsiyyətinin müvəffəqiyyətlə formalaşdırılmasında tapmalıdır. Həmin məqsədə və nəticəyə çatmaq üçün müəyyən metodlar sistemindən istifadə olunur ki, onlar da öz növbəsində müəllim və şagirdlərin fəaliyyətini istiqamətləndirir və kursun proqramına uyğun olaraq təlim və tərbiyənin qarşılıqlı əlaqədə həyata keçməsinə imkan verir.

Dərslərdə təlimin, inkişafın və tərbiyənin vəzifələri bir-biri ilə sıx surətdə bağlıdır və təlim fəaliyyətinin məzmunu ilə şərtlənir. Ona görə də təlimin, inkişafın və tərbiyənin metodları qarşılıqlı şəkildə bir-birilə əlaqələnir, qarşılıqlı şəkildə bir-birini tamamlayır. Beləliklə, ədəbiyyat müəllimi öz fənninin xüsusiyyətlərinə istinadən, şagird şəxsiyyətinin formalaşdırılması baxımından ədəbiyyat kursunun məzmunundan istifadə edə bilir və edir.

Ədəbiyyatın tədrisi zamanı təlimin məlum metodları (izahlı-illüstrativ. məlumat, reproduktiv, problemli şərh, evristik, tədqiqatçılıq) tətbiq olunur. Onlar şifahi, şifahi-əyani, əyani-praktik vasitələrlə və müxtəlif formalarda nəql, dərsliklə iş, cədvəllərin tərtibi, texniki vasitələrin tətbiqini və s. həyata keçirirlər.

Dərsdə, habelə məqsədə çatmaq üçün tərbiyənin metodlarına da (inandırma, perspektivin irəli sürülməsi, alışdırma, tələb, pedaqoji stimullaşdırma, nümunə, şagirdlərin müstəqil fəaliyyətinin, təşəbbüskarlıq və özfəaliyyətinin inkişaf etdirilməsi) müraciət edilir.

Şair və yazıçılarımızın həyat və fəaliyyəti, öz əsərlərində yaratdıqları obrazlar qalereyası, xeyirlə şərin mübarizəsi, insan taleləri şagird şəxsiyyətinin formalaşmasına köməklik göstərir, bir tərəfdən əqli, digər tərəfdən mənəvi, başqa bir tərəfdən fiziki, əmək, hüquqi, estetik, ekoloji və iqtisadi tərbiyəsinin uğurla aparılmasını təmin edir. Başqa sözlə, təlimin tərbiyələndirici funksiyası yerinə yetirilir.

Ədəbiyyat dərslərində diyarşünaslıq materiallarının öyrənilməsi, doğma yurda, vətənimizə aid məlumatlarla tanışlıq prosesində bütün bu məsələlər diqqət mərkəzində dayanmalıdır. Qeyd edək ki, eksperimentə cəlb edilmiş məktəblərdə bu işə ciddi fikir verilirdi.

Azərbaycan müəllimləri qurultayının qətnaməsində deyilir: "Xalqımızın müstəqil dövlət quruculuğu yolunda ilk addımlar atdığı bir vaxtda yeni nəslin müstəqil və azad bir dövlətin vətəndaşları kimi yetişməsi son dərəcə aktual və mühüm bir məsələdir". Bu vacib məsələnin həllində ədəbiyyat fənni mühüm rol oynayır və diyarşünaslıq materialları ona yardımçıdır.

Ümumtəhsil orta məktəblərində ədəbiyyatın tədrisi zamanı diyarşünaslıq materiallarının öyrənilməsi məqsədilə aşağıdakı istiqamətlərdə işin aparılması məqsədəuyğundur:

1. Şifahi xalq yaradıcılığının müxtəlif növləri ilə tanışlıq və bu zaman yerli folklor nümunələrinin toplanmasını şagirdlərə tapşırmaq. Bu işdə kəndin, rayonun yaşlı adamları, şagirdlərin valideynləri, baba və nənələri onlara kömək edə bilər;

2. Yazıçı və şairlərin həyat və yaradıcılığının öyrənilməsi. Şagirdlərin yaşadıqları kənddən, qəsəbə, rayon və şəhərdən olan (hazırda burada, yaxud paytaxtda, digər yerlərdə fəaliyyət göstərən, eləcə də dünyasını dəyişən) şair və yazıçılar haqqında materialların toplanması və nəzərdən keçirilməsi;

3. Şair və yazıçıların, ədəbiyyatşünasların ayrı-ayrı əsərlərinin öyrənilməsi;

4. Şair, yazıçı və ədəbiyyatşünaslara həsr olunmuş məqalə və əsərlərlə tanışlıq;

5. Şair və yazıçıların həyat və fəaliyyətinə aid tədris və sənədli filmlərə, əsərlərinin motivləri əsasında çəkilmiş bədii filmlərə baxışlar;

6. Şair və yazıçılara aid sənədlər, fotoşəkillər, xatirələrlə tanışlıq. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin (klassik və müasir) həyatlarına, şəxsi keyfiyyətlərinə, yazı

masası arxasındakı gərgin işinə, hər bir əsər üzərində necə əziyyət çəkdiklərinə dair müəllimin şərhi və söhbəti şəxsiyyət tərbiyəsi üçün faydalı sayıla bilər.

Ədəbiyyat üzrə fənn kurikulumunda yazılı ədəbiyyatla müqayisədə şifahi ədəbiyata nisbətən daha geniş yer ayrılır. Bu da təbiidir. Müxtəlif dövrlərdə xalq tərəfindən tədricən yaranmış yaradıcılıq nümunələri əsrləri aşaraq bu günümüzə gəlib çatmışdır və həmin əsərlər Vətən sevgisi, yoldaşlıq və dostluq, qəhrəmanlıq, böyüyə, qadına, anaya hörmət, əməksevərlik, haqq-ədalət tərəfdarı olmaq, qanun-qaydanı gözləmək, estetik gözəlliyi görmək, duymaq, qavramaq, qiymətləndirmək, fiziki kamilliyi özündə birləşdirmək, qənaətcil, eyni zamanda səxavətli və əliaçıq olmaq və s. bu kimi keyfiyyətləri təqdir edir.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, Maarif, 1989, s.540.
2. Kazımov N.M. Tərbiyənin elmi-pedaqoji əsasları. Bakı, Maarif, 1983, s.204.
3. Novikov L.N. Şəxsiyyətin kollektivdə tərbiyəsi. Azərbaycan məktəbi, 1967, № 6, s.13.
4. Əhmədov B.A., Rzayev A.Q. Pedaqogikadan mühazirə konspektləri. Bakı, Maarif, 1983, s.352.
5. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı, Mütərcim, 2017, 548 s.
6. Əliyev R.İ. Şəxsiyyətin psixologiyası. Bakı, Mütərcim, 2010, 201 s.
7. Ağaycv Ə.A. Azərbaycan pedaqoji fikrində şəxsiyyət tərbiyəsi ideyasının qaynaqları. Azərbaycan məktəbi, 1996, № 2.

И.Дж.Джалилова

Возможности формирования личности учащихся

Резюме

В статье исследованы возможности формирования личности учащихся. Установлено, что формирование личности учащихся посредством краеведческих материалов является более эффективным способом.

I.J.Jalilova

The formation of the personality

Summary

The article deal with the possibility of formation of students individuality. It was found, that the formation of students personality through the local history materials is the most effective way.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 25.07.2017

E.N.ƏLİYEV
e-mail: elmar.nadiroglu67@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

"AZƏRBAYCANÇILIQ" ANLAYIŞININ MAHİYYƏTİ

Açar sözlər: *azərbaycançılıq, azərbaycançılıq anlayışı, azərbaycançılıq anlayışının mahiyyəti, azərbaycançılıq ruhunda tərbiyə, azərbaycançılıq hissi*
Ключевые слова: *азербайджанство, понятие азербайджанство, сущность понятия азербайджанства, воспитание в духе азербайджанства, чувство азербайджанства*
Key words: *azerbaijanism, the concept of azerbaijanism, the essence of the concept of azerbaijanism, upbringing in the spirit of azerbaijanism, a sense of azerbaijanism*

Böyüyən nəslin azərbaycançılıq ruhunda tərbiyə olunması hazırda son dərəcə aktuallıq daşıyır. Tərbiyə problemi ilə əlaqədar tədqiqatları, müxtəlif xarakterli yazıları (məqalə və kitabları) nəzərdən keçirdikdə, aydın olur ki, "azərbaycançılıq tərbiyəsi" ideyası yenidir. Bu termin ilk dəfə ümummilli liderimiz Heydər Əliyev tərəfindən işlədilmişdir. Fikrimizcə, indiki şəraitdə olduqca yerində işlədilən və müvəffəqiyyətli termindir. Bu sözün özü Vətənə, vətən övladına, millətə, xalqa bir məhəbbət hissi oyadır. Ona görə də "azərbaycançılıq" termini xüsusilə məktəblilər üçün, onların bu ruhda tərbiyə olunması üçün son dərəcə gərəklidir. Bu sözdə bir təəssübkeşlik ifadə olunur.

Ulu öndər Heydər Əliyev Yeni Azərbaycan Partiyasının II qurultayındakı nitqində "azərbaycançılıq" terminini ilk dəfə işlədərək demişdir: "Azərbaycanın dövlət siyasəti azərbaycançılıq əsasında qurulmuşdur" (2, s.162).

Çox böyük məna daşıyan bu iqtibasdan görünür ki, "azərbaycançılıq" termini adi termin olmayıb, bir dövlətin siyasətinin əsasının, təməlinin ifadəsidir, adamlarda bu dövlətin vətəndaşının tərbiyəsində əsas götürülməli, diqqət mərkəzində saxlanmalı əxlaqi keyfiyyətdir. Bütün sahələrdə aparılan tərbiyə işlərində əsas deviz olmalıdır. Lakin buna mücərrəd bir anlayış kimi baxmaq olmaz, onun mahiyyətinin nədən ibarət olduğunu bilmək lazımdır. Ümummilli liderimiz Heydər Əliyev azərbaycançılığın mahiyyətindən söz açarkən deyirdi: "Biz hamımız, hansı bölgədən olmağımızdan asılı olmayaraq Azərbaycançı kimi on illərlə, yüz illərlə belə böyümüşük. Heç vaxt deməmişik ki, bunun kökü nədir, onun kökü nədir. Azərbaycanda yaşayan insanların hamısı – mən xristianları demirəm – həmişə özünü azərbaycanlı hesab edirlər. Onlar, həqiqətən, Azərbaycanlıdırlar və hamımızın birlikdə ən əsas məqsədimiz azərbaycançılığı möhkəmləndirmək, qorumaq və bütün Azərbaycan xalqını, Azərbaycan əhalisini bunun ətrafında birləşdirməkdir" (4, s.14).

Milli liderin proqram xarakterli bu çıxışı hər bir Azərbaycan vətəndaşını bu istiqamətdə düşünməyə, onun tələblərinə əməl etmək əzmində olmağa vadar edir, onların etnik mənsubiyyətindən asılı olmayaraq bir ideya – Azərbaycanın mənafeyini müdafiə etmək amalı uğrunda birgə fəaliyyət göstərməyə istiqamətləndirir.

Azərbaycançılıq ümumi anlayışdır, son dərəcə müxtəlif məsələləri: xalqının tarixən qazandığı təcrübəni, milli-psixoloji xüsusiyyətləri, mənəvi-əxlaqi keyfiyyətləri əhatə edir. Ümummilli liderimiz azərbaycançılıq ideyasının əsasında – vətənə sevgini ön plana çəkir və hər bir adama vətəni sevməyi təlqin edir:

"Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün vətənimizi sevməlidir, ölkəmizi sevməlidir, torpağımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir" (4, s.14).

Böyük və uzaqgörən Ulu öndər gənc nəslin azərbaycançılıq ruhunda böyüməsini əsas vəzifə kimi irəli sürərkən, onun həyata keçirilməsi mexanizmini də açır və istiqamət verir: "… Gənclərin qarşısında duran vəzifələr böyükdür. Ancaq əsas vəzifələrdən biri bundan ibarətdir ki, gərək gənclər həyatımızın bu çətinliklərinə baxmayaraq təhsillənsinlər. Yəni biz məktəblərin, təhsil müəssisələrinin işinə daha çox qayğı, diqqət göstərməliyik. Yenə də deyirəm, bu iqtisadi, sosial çətinliklər dövründə biz təhsili yaşatmalıyıq. Gənclər müstəqil bilik almalıdırlar, təhsillənməlidirlər" (4, s.14).

İqtibasdan göründüyü kimi, Ümummilli liderimiz Heydər Əliyev proqram xarakterli bu kəlamlarını müstəqil Azərbaycanın iqtisadi cəhətdən çətinlik çəkdiyi bir dövrdə (1997) söyləmişdir. Qeyd edilən iqtisadi çətinlik dövründə gənclərin tərbiyəsi işində, eləcə də bütün sahələrdə gələcəyi düşünmək, irəliyə baxmaq, dövləti saxlamaq, məktəbə, təhsilə qayğı göstərmək rəhbərdən müdriklik tələb edir. Belə müdriklik, dərin zəka sahibi isə Ulu öndər Heydər Əliyev özü oldu. Bunun sayəsində də ölkəni iqtisadi çətinlikdən çıxardı, özünün dediyi kimi, məktəblilərin, təhsil müəssisələrinin işinə xüsusi qayğının bariz ifadəsi olaraq ölkədə təhsil islahatı proqramını imzaladı.

Tərbiyə, təhsil sahəsində milli ənənələrin, milli dəyərlərin əsas götürülməsini Ümummilli liderimiz Heydər Əliyev xüsusi vəzifə kimi irəli sürür: "Gənclər xalqımızın milli ənənələri, milli mənəvi dəyərləri əsasında tərbiyələnməlidir. Gənclərin tərbiyə edilməsində, təhsillənməsində eyni zamanda ümumbəşəri dəyərlərdən geniş istifadə olunmalıdır. Milli-mənəvi, ümumbəşəri dəyərlərin, birlikdə bütün vətəndaşların və xüsusən gənclərimizin mənəvi kodeksini təşkil etməlidir. … Bizim elmimiz inkişaf etməlidir. Elmimizi, gənclər, siz inkişaf etdirəcəksiniz. İndiki görkəmli alimlər etdiklərini ediblər. Şübhəsiz ki, onlar öz xidmətlərini bundan sonra da göstərəcəklər. Amma elmimizin gələcəyi gənclərin əlindədir. Müstəqil Azərbaycanın gərək bundan da çox, bundan da güclü elmi potensialı olsun…

… Gəncləri xüsusən milli vətənpərvərlik, hərbi vətənpərvərlik ruhunda tərbiyələndirmək lazımdır… Milli vətənpərvərlik prinsipi gərək körpədən başlayaraq, hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olsun…" (4, s.15).

Əlbəttə, bütün bunlar böyük uzaqgörənliklə qeyd edilən proqram xarakterli ümumi vəzifələrdir. Onların hər biri də müxtəlif cəhətləri əhatə edir, hər birinin özünəməxsus komponentləri vardır. Həmin komponentlər fəaliyyət zamanı diqqət mərkəzində saxlanmalı və onlara əməl olunmalıdır. Məsələn, Ümummilli liderimizdən gətirilən iqtibasda deyilir: "Gənclər xalqımızın milli ənənələri, milli-mənəvi dəyərləri əsasında tərbiyələnməlidir". Bu, çox ümumiləşmiş fikirdir, müxtəlif sahələrdə xalqımızın əsrlər boyu qazandığı təcrübə nəticəsində yaranan və formalaşan kiçik detaldan – böyüyə hörmətdən başlamış ən böyük anlayışa – vətənə münasibətə qədər bu ənənəyə daxildir. Məsələn, "torpaqdan pay olmaz" xalq deyimi cəmi üç sözdən ibarətdir, lakin bu fikrin tutumu təsəvvürəgəlməz dərəcədə böyükdür, əhatəlidir ki, bunu heç nə ilə ölçmək mümkün deyil. Yaranmış milli ənənələrdən kənara çıxmaq o millətin nümayəndəsi üçün çox böyük qəbahətdir. Onu qoruyub saxlamaq isə iftixar hissi yaradır.

Bu baxımdan da Ulu öndərin "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir Azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir" kimi fikirləri son dərəcə qüvvətli səslənir. Bu qüvvətin nəticəsidir ki, həmin fikir ayrı-ayrı mətbuat səhifələrində epiqraf kimi verilir.

Doğrudur, "azərbaycançılıq" bir termin kimi yenidir, bunun ilk işlədəni Ulu öndərimiz Heydər Əliyevdir, ancaq mahiyyəti qədim tarixə malikdir. Tədqiqatdan çıxarılan nəticə budur ki, bu termin (azərbaycançılıq) türkçülük termininin varisidir, onun konkretləşmiş, yeni əlamətlər, keyfiyyətlər kəsb etmiş variantıdır. Məsələn, "böyüyə hörmət", "ana müqəddəsliyi", "ismət toxunulmazlığı", "övlad arzusu ilə nəzir-niyaz verərək Allaha dua etmək" və s.

kimi anlayışlar şifahi xalq yaradıcılığında, qədim yazılı abidələrdə, "Kitabi-Dədə Qorqud"da, klassik sənətkarların əsərlərində türklərə xas olan sifətlər kimi tərənnüm və təbliğ edilir. Fikir aydınlığı üçün bəzi nümunələrə nəzər salmaq olar.

"Kitabi- Dədə Qorqud"da "Salur Qazanın evinin yağmalanması" boyunun məzmunundan aydın olur ki, Salur Qazanın ovda olduğundan xəbər tutan düşmən – yeddi min kafir atlanıb Qazanın evini talayır. Anasını, arvadını, oğlunu əsir aparırlar. Qazan xəbər tutub, düşmənin arxasınca gedərək onlara çatır və deyir:

-Ədə, Şöklu Məlik!
Qızıl tağlı uca evlərimi gətirmişən,
Sənə kölgəlik olsun.
Çoxlu xəzinəmi, bol gümüş pulumu gətirmisən,
Sənə xərclik olsun.
Qırx incəbelli qızla Burla xatunu gətirmisən,
Sənə əsir olsun.
Qırx igidlə oğlum Uruzu gətirmisən,
Qulun olsun.
Tövlə-tövlə şahbaz atlarımı gətirmisən,
Sənə minik olsun.
Qatar-qatar dəvələrimi gətirmisən,
Sənə yüklük olsun.
Qoca anamı gətirmisən, ədə, kafir.
Anamı ver mənə!
Savaşmadan, vuruşmadan qayıdım,
Geri dönüm, gedim" (5, 34-35).

Dastandan gətirilən parçadan göründüyü kimi, ana hər şeydən uca tutulur, Salur Qazan ancaq qoca anası üçün vuruşacağını, ananı əsirlikdən azad etdikdən sonra geri dönəcəyini bildirir. Bu, anaya türk münasibətidir, türk sevgisidir.

Yaxud: "Ağzın qurusun, ana! Dilin çürüsün, ana! Ana haqqı, Tanrı haqqı deyilməsəydi, qalxıb yerimdən durardım, boğazından tutardım, dizimin altına alardım, ağ üzünü qara yerə vurardım. Ağzınla burnundan qan şoruldadardım, can ağrısını sənə göstərərdim. Bu nə sözdür? Çəkil, ana! Mənim üzərimə gəlməyəsən! Mənim üçün ağlamayasan! Qoy məni, ana, çəngələ çəksinlər. Qoy ətimdən çəkib qara qovurma etsinlər, qırx bəy qızının qabağına qoysunlar. Onlar bir yeyəndə sən iki ye! Səni kafirlər tanımasınlar, duymasınlar. Təki murdar dinli kafirlərə təslim olmayasan, Şərab paylamayasan. Atam Qazanın namusunu tapdamayasan. Çəkil!" (5, s.32).

Bu parçanın məzmununda deyilənlər türk psixologiyasının, türklər arasında da müasir baxımdan yanaşılsa, demək olar ki, Azərbaycanlı psixologiyasının ifadəsidir. Türkdən başqa heç bir millətin, heç bir xalqın nümayəndəsi ana ismətinin qorunması üçün ölümə belə cəsarət göstərməz və göstərə bilməz.

Bu deyilənlər (anaya, ümumiyyətlə, valideynə münasibət) türkçülüyə (azərbaycançılığa) xas olan bir əlamətdir, daha doğrusu, keyfiyyətdir. Bu gün azərbaycançılıq üçün səciyyəvi olan insaf, vicdan, ədalət, insanı sevmək, onu incitməmək kimi əxlaqi keyfiyyətlər türkçülükdə möhkəm yer almış və klassik ədəbi nümunələrdə öz zəngin ifadəsini tapmışdır. Məsələn, Azərbaycanın intibah dövrü olan XII əsrdə yaşamış, yazıb-yaratmış olan Əfzələddin Xaqaninin bir kəlamı onun ən böyük humanist sənətkarlardan biri olduğunu göstərir: "Uşaqlıqdan adətim bu olmuşdur ki, inciyim, ancaq incitməyim". Bunun nəticəsidir ki, Ə. Xaqaninin yaradıcılıq nümunələrində zülmə, pisliyə, şərə etiraz edilir. Bu insaf, ədalət Nizami Gəncəvi yaradıcılığında qalın qırmızı xəttə çevrilir. Nizaminin "Çalış hamının yükünü sən çək" sözləri Ə. Xaqaninin nümunə kimi verilən fikrinin davamı kimi səslənir.

"Çalış öz xalqının işinə yara,

Dünya əməlinlə geysin zər-xara" - misralarında olan xeyirxahlıq, yaxşılıq, demək olar ki, şairin həyat devizinə çevrilmişdir. Maraqlı cəhət kimi qeyd etmək lazım gəlir ki, dünya miqyasında bəzilərinin millətcə azərbaycanlı – türk olmasına şübhə ilə yanaşılan Nizami türkü hamıdan yüksək qiymətləndirmişdir. Şair demək olar ki, bütün əsərlərində türkə olan münasibətini poetik dillə ifadə etmişdir.

"İskəndərin rus ölkəsinə çatması və müharibəsi" adlanan hissədə ("İskəndərnamə" əsərinin "Şərəfnamə" hissəsində) şiddətli müharibə səhnəsinin təsviri verilir. İskəndərin qoşunu sayca özündən nəzərə çarpacaq dərəcədə çox güclü qoşunla qarşılaşır, lakin İskəndər qorxmur, qələbəsinə inanır. Bunun səbəbi isə bu ərazidə – Xəzər dağından (Qafqaz sıra dağları nəzərdə tutulur) Çin suyuna qədər türklərin yaşamasıdır. Bu fikir müasir baxımdan iki cəhətdən mühüm əhəmiyyət kəsb edir: əsası budur ki, bu torpaqların tarixən türk torpağı olduğu aydınlaşır, ikincisi, türklərin mərd, igid, döyüşkən xalq olduğu deyilir:

"Zorba türk borusu etdikcə şiddət,

Türklərin qoluna gəlirdi qüvvət".

Bu misraları oxuyanda Azərbaycanlı oxucunun qəlbi iftixar hissi ilə dolur. Belə tarixi keçmişlə fəxr etməmək, bu mənəvi keyfiyyətləri böyüməkdə olan nəslə aşılamamaq olmaz.

M.Ə. Rəsulzadənin Nizami Gəncəvi yaradıcılığına dair ümumiləşmiş şəkildə söylədiyi fikir bu baxımdan maraqlıdır: Rəsulzadə Nizaminin türk-azərbaycanlı olmasına şübhə edənlərə cavab olaraq deyir: "Gözəl ilə böyüyə – türk, gözəllik və böyüklüklüyə-türklük, gözəl və böyük sözə –türkcə, gözəllik və böyüklük diyarına - Türküstan» deyən bir şairə hansı ağız "o türk deyildir" deyə bilər".

Bütün ədəbiyyat tarixi boyu yazıb-yaradan söz sənətkarlarının, görkəmli şəxsiyyətlərin əsərlərində azərbaycanlı (eləcə də bütövlükdə türk) tərbiyəsi, adət-ənənəsi ilə bağlı fikirlər söylənir və təbliğ olunur. Yenə də nümunə kimi XIII əsrin ikinci, XIV əsrin birinci yarısında yaşamış, yazıb-yaratmış Marağalı Əvhədinin "Cami-cəm" poemasına ötəri nəzər salmaq olar. Bu əsərdə tərbiyə məsələsinə geniş yer verilir, haqqında danışılan anlayışların əksəriyyəti, demək olar ki, türkçülüyün, azərbaycançılığın formalaşmış tələbləridir. "Mey içməyin qaydaları", "Şərabın, bəngin, sərxoşluğun pislənməsi", "Ev tikməyin şərtləri", "İsrafçılığın pislənməsi", "Evlənmək və törətmək haqqında", "Övlad tərbiyəsi haqqında", "Tərbiyənin təsiri və özbaşına boy atmağın nəticələri", "Dostluq və vəfanın şərtləri", "Övladı natəmizlərin şərindən qorumaq haqqında" və s. kimi tərbiyə məsələlərinin nəzərdə tutulması türkdilli xalqların əxlaq normalarının, demək olar ki, əsas tələblərindəndir.

Müxtəsər şəkildə deyilənlər türkçülükdə tarixən qorunub saxlanmış, indi də azərbaycançılığın əlamətlərindəndir. Lakin təcrübə, xalqımızın həyatı davranış qaydaları göstərir ki, müasir baxımdan azərbaycançılıq deyilənlərlə məhdud qalmır, yeni keyfiyyətlər qazanmış və dövlətin siyasi xəttinə çevrilmişdir. Bir daha qeyd etmək lazım gəlir ki, Azərbaycanın dövlət siyasəti azərbaycançılıq əsasında qurulmuşdur.

"Azərbaycançılıq" anlayışını təkcə millət, xalq anlamında başa düşmək səhv olar. Belə ki, «Azərbaycan çoxetnoslu bir ölkədir. Onun tarixi də burada məskunlaşmış, yaşamış etnosların tarixidir. Türklər, talışlar, tatlar, kürdlər, ləzgilər, darginlər, saxurlar, udinlər və başqa xalqlar bu torpaqlarda həmişə birgə yaşamış, birgə işləmiş, bir-biri ilə qonşuluq və dostluq münasibətləri yaratmışlar. Hamı üçün qəbul edilən, məqbul sayılan mədəniyyət, dil, həyat tərzi yaratmışlar" (2, s.162).

Bu sadalanan, eləcə də Azərbaycan ərazisində yaşayan digər xalqların (rusların, gürcülərin və s.) bir-birinin dilinə, mədəniyyətinə hörmətlə yanaşmaq "azərbaycançılıq" anlayışının tərkib hissəsi kimi çıxış edir. Eləcə də Azərbaycanda məskunlaşmış kiçik xalqların Azərbaycan mədəniyyətinə, adət-ənənəsinə hörmətlə yanaşmaları mühüm şərtlərdəndir.

Gənclərin tərbiyəsi sahəsində deyilənlərin qorunub saxlanması, sonrakı nəsillərin bu ruhda tərbiyə olunması dövlətimizin siyasəti, valideynlərin təhsil ocaqlarının, eləcə də böyük və kiçikliyindən asılı olmayaraq hər bir qurumun borcudur.

Ümumiyyətlə tərbiyə işində, o cümlədən azərbaycançılıq tərbiyəsində əsas vəzifə ümumtəhsil məktəblərinin üzərinə düşür. Məktəbdə tədris olunan hər bir tədris fənni azərbaycançılıq tərbiyəsinin vasitəsidir. Lakin həmin fənlər arasında ədəbiyyat və tarix fənlərinin imkanı daha genişdir.

Məqalənin aktuallığı. Müasir mərhələdə gənc nəslin azərbaycançılıq ruhunda tərbiyə olunması hazırda son dərəcə aktuallıq daşıyır.

Məqalənin yeniliyi. Məqalədə gənc nəslin azərbaycançılıq ruhunda tərbiyə olunmasının aktual məsələlərinə münasibət bildirilir.

Məqalənin praktik əhəmiyyəti. Böyüyən nəslin azərbaycançılıq ruhunda tərbiyə olunması sahəsində pedaqoji kollektivlərə öz köməyini göstərəcəkdir.

Ədəbiyyat

1. Talıbov Y. Ağayev Ə. və b. Pedaqogika. Bakı: Adiloğlu, 2003.
2. Qaralov Z. Tərbiyə. III cilddə. Bakı: Pedaqogika, 2003.
3. Kazımov N. Milli pedaqogika yollarında. Bakı: Ağrıdağ, 2001.
4. Heydər Əliyev və Azərbaycan məktəblilərin gözü ilə / A. Babayev və b. tərtibatında, Bakı: Gənclik, 1998.
5. Kitabi-Dədə Qorqud. Bakı: Elm, 1999.
6. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı: Yazıçı, 1982.

Э.Н.Алиев

Сущность понятия «азербайджанство»

Резюме

Термин «азербайджанство» впервые был использован общенациональным лидером Гейдаром Алиевым. В нынешних условиях этот термин своевременно и удачно используется. Данное слово побуждает любовь к Родине, нации, народу. Поэтому термин «азербайджанство» в большой степени важен для воспитания школьников в этом духе.

В статье выражено отношение к актуальным вопросам воспитания подрастающего поколения в духе азербайджанства.

E.N.Aliyev

The essence of the concept “azerbaijanism”

Summary

The term "azerbaijanism" was first used by the national leader Heydar Aliyev. In the current conditions, this term is used in a timely and successful manner. This word encourages love for the Motherland, nation, people. Therefore, the term "azerbaijanism" is to a large extent important for the education of schoolchildren in this spirit. The article expresses the attitude to the topical issues of the upbringing of the younger generation in the spirit of azerbaijanism.

Rəyçilər: ped.f.d., dos. T.S.Paşayev,
ped.f.d. L.N.Nağıyeva

Redaksiyaya daxil olub: 03.08.2017

Ə.A.ƏLİYEVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

V və VI SİNİFLƏRDƏ İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ YAZILI NİTQDƏ KOMMUNİKATİV KOMPETENSİYANIN FORMALAŞDIRILMASI

Açar sözlər: *kommunikativ kompetensiya, yazılı nitq, linqvistik kompetensiya, diskursiv kompetensiya, strateji kompetensiya, ictimai-mədəni kompetensiya*

Ключевые слова: *коммуникативная компетенция, письменная речь, лингвистическая компетенция, дискурсивная компетенция, стратегическая компетенция, социокультурная компетенция*

Key words: *communicative competence, written speech, linguistic competence, discursive competence, strategic competence, sociolinguistic competence*

Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə təhsil proqramına əsasən hazırkı dövrdə qloballaşma prosesinin və inteqrasiya meyllərinin getdikcə sürətləndiyi ictimai-siyasi, sosial-mədəni sahələrdə baş verən mühüm keyfiyyət dəyişiklikləri kommunikasiya vasitələrindən (yeni informasiya texnologiyalardan) istifadə etməklə şagirdlərin kommunikativ bacarıqlarının yüksək səviyyədə inkişafını tələb edir (11, s. 7).

Metodikaya "kompetensiya" (səriştə) terminini ilk dəfə amerikalı linqvist N.Çomski gətirmişdir. Onun fikrincə bu anlayış dilə real ünsiyyət şəraitində yiyələnməkdən fərqli olaraq, dilin sistemini bilməyi nəzərdə tuturdu (9). Tədricən metodikada N.Çomskinin linqvistik kompetensiyanın əksi olaraq metodiki termin olan "kommunikativ kompetensiya" anlayışı meydana gəldi. Kommunikativ kompetensiya - şəxsi cəhətlərin və imkanların insanın kommunikativ fəaliyyətini təmin edən, eləcə də dil və dildənkənar bilik və bacarıqların məcmusudur (2, s.42).

Kommunikativ kompetensiyanın formalaşdırılması problemi Sısoyeva Y.E., Milrud R.P., Qalskova İ.D., Passov E.İ., Leontyev T.P, Filatov V.N., kimi metodistlər tərəfindən tədqiq olunmuşdur.

Hər bir kompetensiyanın əsasında onu istifadə edə bilmək, bilik, bacarıq və vərdişləri durur, lakin kompetensiyanın bacarıqdan fərqi ondadır ki, o, hər zaman müxtəlif problemlərin həll edilməsi prosesində qarşılıqlı əlaqədə olan zaman və əməkdaşlıq edərkən psixoloji hazırlıq ilə müşayiət olunur.

Məhz kommunikativ kompetensiya bütün digər kompetensiyaların inkişaf etdirilməsinin əsasında durduğuna görə, o, əsas və aparıcı kompetensiya hesab edilir. Solovova Y.N. qeyd edir ki, kommunikativ kompetensiya çoxkomponentlidir və dil, nitq və ictimai-mədəni komponentləri özündə ehtiva etdirir (5, s. 7).

V və VI siniflərdə ingilis dili dərslərində yazılı nitq bacarıqlarını inkişaf etdirən zaman kommunikativ kompetensiyanın mərhələli şəkildə formalaşdırılması tədrisin məqsədi kimi çıxış edir, gələcəkdə isə yazılı nitq zamanı artıq formalaşmış kommunikativ kompetensiya bilik və bacarıqlara yiyələnərkən artıq tədris vasitəsinə çevrilir.

V və VI siniflərdə ingilis dili dərslərində yazılı nitqin tədrisinin məqsədi yazılı kommunikativ kompetensiyanın formalaşdırılmasıdır. Yazılı kommunikativ kompetensiya aşağıdakı tərkib hissələrdən ibarətdir (9):

- linqvistik kompetensiya (dil bilikləri);
- diskursiv kompetensiya (öyrədici kommunikativ situasiyalarda müxtəlif növ diskurslara malik olma);
- strateji kompetensiya (yazılı nitq mətnlərinin yaradılması prosesini dərk etmə, kommunikativ uğursuzluqların öhdəsindən gəlmə, dil vasitələrinin çatışmazlığı halda uğursuzluğun qarşısını ala bilmə);

- ictimai-mədəni kompetensiya (davranış normalarına malik olma).

Linqvistik kompetensiya xarici dilin formalarının düzgün şəkildə tanınması və istifadə edilməsi deməkdir. Linqvistik kompetensiya - dil qaydalarını (qrammatik, fonoloji, morfoloji, sintaksis, leksik) bilməyi və ünsiyyətdə olduğu həmsöhbətinin fikirlərini anlamaqla yanaşı, öz fikirlərini tərtib edən zaman bu qaydalardan düzgün şəkildə istifadə etməyi nəzərdə tutur. Yazılı linqvistik kompetensiyanı formalaşdıran zaman şagirdlər eyni bir fikri müxtəlif vasitələrlə təqdim edilməsi ilə daha yaxından tanış olurlar. Eyni zamanda şagirdlər öz düşüncələrini dərk edirlər (7, s. 117). Yazılı nitqdə linqvistik kompetensiya dedikdə bilik, bacarıq və vərdişlərə birlikdə malik olmaq və ünsiyyət vasitəsi olan yazılı mətnlərin tərtib olunması üçün müəllifin dil materialı ilə sərbəst şəkildə istifadə etməyi nəzərdə tutulur. Linqvistik kompetensiya şagirdlərdən bunları tələb edir: Mən hansı sözləri istifadə edirəm? Mən onları söz birləşmələri və cümlələrdə necə istifadə edə bilərəm? (1, s. 69)

Yazılı kommunikativ kompetensiyanın linqvistik aspekti aşağıdakı biliklərə yiyələnməyi tələb edir:

-yazılı mətnlərdə mövcud olan, şagirdlər üçün aktual olan situasiyalarda kommunikasiya vasitəsi rolunu oynayan leksik formaları və sintaktik strukturu bilmə;

- yazılı mətnlərin qurulması üçün orfoqrafik, morfoloji və sintaktik qaydaları bilmə;
- kommunikativ ifadə vasitələrini bilmə;
- parafrazın qaydalarını bilmə;
- yazılı mətnlərin stilistik xüsusiyyətlərini bilmə;
- mətnin tipinə uyğun olaraq koheziyanın müxtəlif vasitələrinin fəaliyyət xüsusiyyətlərini (qrammatik, məntiqi, leksik) bilmə.

Yazılı kommunikativ kompetensiyanın linqvistik aspekti aşağıdakı vərdişlərə yiyələnməyi tələb edir:

- ingilis dilinin ədəbi normalarına uyğun olaraq, yazılı mətni və ya diskursu orfoqrafik, leksik-qrammatik, sintaktik baxımdan düzgün tərtib etmə bacarığı;
- koheziyanın müxtəlif vasitələrindən (qrammatik, məntiqi, leksik) istifadə etmə bacarığı;
- kommunikativ mətnləri düzgün tərtib etmə bacarığı.

V və VI siniflərdə linqvistik kompetensiyanın formalaşdırılması şagirdlərin linqvistik biliklərinin genişlənməsinə, ünsiyyət mədəniyyətinin və nitqinin inkişafına müsbət təsir göstərir

Kommunikativ kompetensiyanın diskursiv aspekti yazılı ünsiyyət prosesində öz fikirlərini məntiqi (ardıcıl) şəkildə ifadə etməyi, eyni zamanda, bir fikri digəri ilə əlaqələndirə bilmə bacarığını nəzərdə tutur (8. s. 37). Diskursiv kompetensiya müxtəlif ünsiyyət şəraitində istifadə olunan rabitəli yazılı mətnlər qurmaq məqsədilə qrammatik formaları və semantik məzmunu necə əlaqələndirməyi bilməkdir. Diskursiv kompetensiya şagirdlərdən bunları tələb edir: Yazılı mətn, e-mail (elektron məktub), qəzet məqaləsi, dialoq tərtib edərkən sözlər, söz birləşmələri və cümlələr necə birləşməlidir (1, s.69)?

Diskursiv kompetensiyanın məzmununa aşağıdakı biliklər daxildir:

- funksional stilin əsas xüsusiyyətlərini bilmə;
- ünsiyyət vasitəsi rolu oynayan mətnlərin qurulma sxemini bilmə;
- ritorik strukturun, janr formalarının qurulma vasitələrini bilmə;

Yazılı kommunikativ kompetensiyanın diskursiv aspekti aşağıdakı vərdişlərə yiyələnməyi tələb edir:

- tərtib edilən mətnin növünə uyğun olaraq, dil vasitələrindən istifadə etmə bacarığı;
- yazılı mətni stilistik baxımdan düzgün tərtib etmə bacarığı.

Diskursiv kompetensiyanın əsasını aşağıdakı kommunikativ bacarıqlar təşkil edir:

- mətni planlaşdıra bilmək;
- nitq vasitələrinin ünsiyyətdə tətbiqinin mümkünlüyünü proqnozlaşdırmaq;
- janr formasına və funksional üslubun xüsusiyyətlərinə uyğun olaraq mətni qura bilmək;

- mətnin ümumi modallığını tənzimləmək;
- mətnin kommunikativ məqsədini formalaşdırmaq;
- kommunikativ intensiyanı ifadə edə bilmək;
- mətnin mövzusuna uyğun giriş və xülasə verə bilmək;
-mövzunu genişləndirmək üçün müxtəlif yollardan istifadə edə bilmək:
1. əsas cümlənin köməyi ilə abzasın əsas mənasını ifadə edə bilmək;
2. əsas cümlədə ifadə olunmuş əsas fikri inkişaf etdirmək;
3. semantik məzmunu məntiqi və ardıcıl şəkildə ötürə bilmək (müqayisə etmək, qarşılaşdırmaq, əsas məlumatı qısa şəkildə ötürmək, nəticə çıxarmaq, və.s.).
4. bu və ya digər mətnin növünə xas olan kompozisiya üsullu nitq formalarını və ritorik strukturları qurmaq.

V və VI siniflərdə diskursiv kompetensiyanı formalaşdırılmaq məqsədilə şagirdlərə yazılı mətn, e-mail (elektron məktub), qəzet məqaləsi, dialoq tərtib edərkən sözlər, söz birləşmələri və cümlələri düzgün qaydada əlaqələndirmək kimi tapşırıqlar verilə bilər.

Strateji kompetensiya ünsiyyət prosesində dil vasitələrinin çatışmazlıqlarını kompensasiya edə bilmək bacarığını nəzərdə tutur. Belə ki, ingilis dilini öyrənən zaman dil vasitələrinə kompleks şəkildə dil daşıyıcısı kimi yiyələnmək mümkün olmur. Ona görə də ünsiyyət zamanı dil vasitələrinin çatışmazlığı şəraitində vəziyyətdən çıxa bilmək həddindən artıq vacibdir. Bu bacarıqlara yazı zamanı müvafiq sözü bilmədikdə o anlayışı izah edə bilmə, mürəkkəb cümlələrin əvəzinə sadə cümlələr istifadə edə bilmək bacarıqları aiddir. Bundan başqa strateji kompetensiya əvvəlcədən hazırlıqlı olma, motivasiya olunma, şüurluluq kimi komponentlərlə xarakterizə olunur (10, s.160). Strateji kompetensiya şagirdlərdən bunları tələb edir: Nə zaman səhv başa düşdüyümü və ya nə zaman səhv başa düşüldüyümü necə anlaya bilərəm? O zaman mən nə deyə bilərəm? Hər hansı bir əşyanın adını bilmədikdə və ya feili düzgün zamanda işlədə bilmədikdə öz fikirlərimi necə ifadə edə bilərəm (1,s.70)?

Strateji kompetensiyanın məzmununda özünüidarənin müxtəlif bacarıqları əsas yer tutur. Bu bacarıqların əsasında diqqəti yüksək səviyyədə toplama, gərgin intellektual fəallıq durur. Yazılı mətni quran zaman şagird sözlərin orfoqrafik cəhətdən düzgün olmasına, öz yazısının struktur-semantik və məntiqi tərtibatına fikir verməlidir.

Strateji kompetensiyanın əsasında duran və tərkib hissəsi olan özünüidarə aşağıdakı vərdişlər əsasında həyata keçirilir:
- dil və ya nitq vasitələrinin bu və ya digər kontekstdə düzgün və ya səhv istifadəsini görə bilmək;
- sözlərin mənalarını müqayisə edə və fərqləndirə bilmək;
- oxşar və əksmənalı sözləri tapa bilmək;
- sözün kontekstual mənasını müəyyən edə bilmək;
- dil vasitələrinin səhv istifadəsini aşkar edə və düzgün variantı təqdim edə bilmək;
- mətnin müəyyən parçasını öz sözləri ilə ifadə edə bilmək.

Strateji kompetensiya aşağıdakı kommunikativ bacarıqları nəzərdə tutur:
- semantik məzmunun formal quruluşunu dəyişə bilmək bacarığı;
- qənaətbəxş sayılmayan nitq vasitələrinin kommunikativ düzəlişlərini həyata keçirmək bacarığı;
- mətni tərtib edən zaman ehtiyac olduqda onun semantik məzmununu dəyişə bilmək bacarığı;
- mətni redaktə edə bilmək bacarığı.

V və VI siniflərdə strateji kompetensiyanı formalaşdırarkən şagirdlərdə yazı zamanı müvafiq sözü bilmədikdə, o anlayışı izah edə bilmə, mürəkkəb cümlələrin əvəzinə sadə cümlələr istifadə edə bilmək bacarıqları inkişaf etmiş olur.

Müasir dövrdə təkcə dil materialından istifadə etməklə dolğun ünsiyyət qurmaq mümkündür desək səhv etmiş olarıq. Kommunikasiyanın ictimai nəzəriyyəsi baxımından iki insan

arasında ünsiyyət prosesi məlumat mübadiləsidir ki, bu zaman onlardan birinin bildiyi məlumat barəsində ikinciyə heç bir şey məlum olmur, əks təqdirdə onlar arasında məzmunlu ünsiyyət baş verə bilməz. İctimai-mədəni kompetensiya ünsiyyətin, məzmunun və konkret vəziyyətin seçim sahələrini müəyyən edir. Bu kompetensiyanın formalaşdırılması zamanı şagirdlər ingilis dilli ölkələrin mədəniyyəti, adət-ənənələri ilə yaxından tanış olurlar və bunun nəticəsində onlarda başqa millətlərin mədəniyyətinə tolerantlıq hissi formalaşır (4. s.97). İctimai-mədəni kompetensiya şagirdlərdən bunları tələb edir: Bu mövzu və ya mətn parçasına hansı söz və ya söz birləşmələri uyğun gəlir? Ehtiyac olduqda hər hansı fikrə öz xüsusi münasibətimi (nəzakətlilik, mehribanlıq, hörmət hissi) necə bildirə bilərəm? Qarşımdakı şəxsin hansı münasibəti bildirdiyini necə anlaya bilərəm (1, s. 70)?

İctimai-mədəni kompetensiyanın əsasını aşağıdakı biliklər təşkil edir:

- ingilis və Azərbaycan dillərində ümumi və spesifik yazılı nitq mədəniyyəti biliyi;
- ingilis dilində yazılı mətnlərin məntiqi-kompozisiya quruluşunun linqvokultroloji xüsusiyyətlərinin Azərbaycan dili ilə müqayisədə biliyi;
- ingilis dilində yazılı ünsiyyət quran zaman etnik ictimai mədəni fonun konkret vəziyyətlərin (məsələn, ingilis dilli ölkələrdə keçirilən ənənəvi bayramlarla milli bayramları müqayisəli şəkildə təsvir etmə) biliyi;

İctimai-mədəni kompetensiyanın əsasını aşağıdakı vərdişlər təşkil edir:

- ingilis dilində ünsiyyətin yazılı formasının kommunikativ nitq etiketi nöqteyi-nəzərindən mətnin düzgün tərtib edilməsi;
- Azərbaycan dilinə uyğun qəbul olunmuş nitq vahidlərinin ingilis dilinə və əksinə ingilis dilinə uyğun qəbul olunmuş vahidləri Azərbaycan dilinə düzgün tərcümə edilməsi;

İctimai-mədəni kompetensiya aşağıdakı kommunikativ bacarıqlara yiyələnməyi tələb edir:

- ingilis dilindəki mətnlərin linqvokulturoloji xüsusiyyətlərinə uyğun olan yazılı mətn qura bilmək bacarığı;
- ingilis mədəniyyətinə xas olan və Azərbaycan dilində ekvivalenti olmayan nitq vasitələrinin ana dilində ona adekvat olan vasitələrlə düzgün ifadə etmə bacarığı;
- Azərbaycan mədəniyyətinə xas olan və ingilis dilində ekvivalenti olmayan nitq vasitələrinin ingilis dilində ona adekvat olan vasitələrlə düzgün ifadə etmə bacarığı.

Kommunikativ kompetensiyanın yuxarıda adları sadalanan tərkib hissələrinin bacarıq və vərdişləri mərhələli şəkildə formalaşdırılır. Nitq fəaliyyətinin bu və ya digər növünə sərbəst şəkildə yiyələnmə hazırlıq mərhələsində həyata keçirilən məqsədyönlü tədris fəaliyyətinin nəticəsidir ki, bu zaman nitq vərdişlərinin tədricən daha da sürətlənməsi və onların əsasında kommunikativ bacarıqların formalaşdırılması baş verir. S.F.Şatilovun araşdırmalarına əsasən, "Nitq vərdişlərinin formalaşdırılması tanışlıq-hazırlıq, situativ-standart və situativ-fərqləndirən mərhələlərdən keçir " (6, s.).

Nitq vərdişlərinin formalaşdırılmasının mərhələli olmasını nəzərə alaraq, yazılı nitqi inkişaf etdirən zaman kommunikativ kompetensiyanın formalaşdırılması prosesini üç mərhələyə ayırmaq olar:

1. Birinci produktivliyin elementləri daxil olmaqla, reproduktiv tədris fəaliyyəti əsasında hazır formaların kombinatorikasını mənimsəmə mərhələsidir. Bu mərhələdə nitqdə vərdişlərə yiyələnmənin həyata keçirilməsi cümlə və ya mətnin bir parçası səviyyəsində reallaşır, xüsusilə, əvəzetmə, transformasiya, formalaşma mexanizminə yiyələnmə baş verir. Reproduktiv baxımdan isə nümunə mətndə informasiyanı axtarma bacarığı, verilmiş nümunəyə əsasən cümlə qurma bacarığını əldə etmə baş verir. Produktiv baxımdan isə nümunəyə uyğun yazılı mətnin bir parçasının yaranması baş verir. Məhz bu mərhələdə yazılı nitqə yiyələnmə zamanı məhdud kommunikativ mərhələdən fəal kommunikativ mərhələyə keçmək üçün zəmin yaranmış olur.

2. Növbəti mərhələdə reproduktiv və produktiv tədris fəaliyyəti əsasında nitq materialı ilə sərbəst işləmə vərdişlərini təkmilləşdirmə prosesi baş verir. Produktivlik nümunədən

istifadə etmədən yazılı mətn parçaları qurarkən nitq materialının müstəqil şəkildə kombinə olunması ilə həyata keçir.

3. Sonuncu mərhələdə fəal kommunikativ və yaradıcı kommunikativ səviyyədə yazılı mətnin qurulması zamanı kommunikatıv bacarıqlara yiyələnmə baş verir. Bu mərhələdə tədris prosesində yeni məntiqi-semantik tapşırıqların tətbiq edilməsi daha məqsədəuyğundur.

Bütün deyilənləri nəzərə alaraq, belə bir nəticəyə gəlmək olar ki, kommunikativ kompetensiyanın bütün komponentləri V-VI siniflərdə ingilis dili dərslərində yazılı nitq bacarıq və vərdişlərini inkişaf etdirən zaman həyata keçirilən məqsədyönlü tədris fəaliyyəti prosesində formalaşdırılır. Beləliklə, V-VI siniflərdə yazılı kommunikativ kompetensiyanın linqvistik aspektinin formalaşdırılması şagirdlərin linqvistik biliklərinin genişlənməsində, ünsiyyət mədəniyyətinin və nitqinin inkişafına müsbət təsir göstərir. Diskursiv kompetensiyanın formalaşdırılması zamanı şagirdlər yazılı mətn, e-mail (elektron məktub), qəzet məqaləsi, dialoq tərtib edərkən sözlər, söz birləşmələri və cümlələri düzgün qaydada əlaqələndirmə bacarıqları inkişaf edir. Strateji kompetensiyanı formalaşdırarkən şagirdlərdə yazı zamanı müvafiq sözü bilmədikdə o anlayışı izah edə bilmə, mürəkkəb cümlələrin əvəzinə sadə cümlələr istifadə edə bilmək bacarıqları inkişaf etmiş olur. İctimai-mədəni kompetensiyanın formalaşdırılması zamanı isə şagirdlərdə başqa xalqların milli-mənəvi dəyərlərinə, dil və mədəniyyətinə hörmət hissi, tolerantlıq formalaşır, başqa ölkələrdə yaşayan həmyaşıdları ilə yazışan zaman Azərbaycanı, milli mətbəximizi, adət-ənənələrimizi, tariximizi onlara tanıtmaq imkanı əldə edirlər.

Ədəbiyyat

1. Ismailova D.A., Teaching English as a foreign language. Baku: Moutarjim- 2011. S. 320

2. Manafoğlu R., Tağısoy N., Kamal R., İzahlı tərcüməşünaslıq terminləri lüğəti. Bakı: Mütərcim- 2010. S. 169

3. Гез Н.И. Формирование коммуникативной компетенции как объект зарубежных методических исследований// Иностранные языки в школе-№ 2-1985. С.17-24.

4. Сафонова В.В., Социокультурный подход к обучению иностранным языкам. М.: Высшая школа. АМСКОРО ИНТЕРНЕШНЛ, 1991.С. 115.

5. Соловова Е. Н., The Russian magazine for English language teachers, Ns 2 (27) August-2003, International Book Distribution. С.2-11.

6. Шатилов С.Ф., Некоторые принципы создания системы упражнений для обучения иностранному языку// Система упражнений при обучении иностранному языку в школе и вузе: Межвуз. Сб. Науч. Тр. Л..ЛГПИ им. А.И. Герцена, 1978. С-125

7. Щерба Л.В., Преподавание иностранных языков в средней школе: Общие вопросы методики. СПб.: Филологический факультет СПбГУ. М. Академия, 2002. С.160.

8. Canale M. Theoretical bases of Communicative approaches to second language teaching and testing// Applied Linguistics. London, 1980.№ 1. P.1-47.

9. Chomsky N., Linguistic theory. In Mead- 1966.

10. Scarcella R.C., Andersen E.S., Krashen S.D. Discourse competence// Developing Communicative Competence in a Second Language. Boston: Heinle & Heinle Publishers, 1990. P.103

11. cdn-media1.teachertube.com

А.А.Алиева

Формирование коммуникативной компетенции в развитии письменной речи на уроках английского языка в V-VI классах

Резюме

В статье говорится о формировании коммуникативной компетенции в развитии навыков письменной речи на уроках английского языка в V-VI классах. Рассматриваются составляющие коммуникативной компетенции в письменной речи, описываются знания, умения и навыки лингвистической, дискурсивной, стратегической и социокультурной компетенций в письмен-

ной речи. Выделяются три этапа процесса формирования коммуникативной компетенции в развитии навыков письменной речи.

A.A.Aliyeva

The formation of the communicative competence in the development of written speech in English V-VI classes

Summary

The article deals with the formation of the communicative competence in the development of written speech skills in English V-VI classes. The article discusses the components of the communicative competence in written speech. The knowledge, skills and abilities of linguistic, discursive, strategic and sociocultural competences in written speech are described. Three stages of the process of forming communicative competence in the development of written speech skills are singled out.

Rəyçi: ped.e.d., prof. D.Ə.İsmayılova

Redaksiyaya daxil olub: 11.05.2017

X.N.FƏTTAHOVA
e-mail: xalide.fettahova@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

YENİYETMƏLƏRİN ÖZÜNÜTƏRBİYƏSİNİN TƏŞKİLİ YOLLARI

Açar sözlər: *şagird, özünütərbiyə, təlim prosesi, psixoloji fəaliyyət, təfəkkür*
Ключевые слова: *ученик, самовоспитание, процесс обучения, психологическая деятельность, мышление.*
Key words: *pupil, self-education, training process, psychological action, thinking*

Hər bir pedaqoq məktəblilərlə, kollektivlə işləyərkən, pedaqoji təsir məqsədi ilə bir çox metodlardan istifadə edir. Bu cəhətdən yuxarı sinif şagirdlərinin özünütərbiyə işinin təşkili də istisna deyildir. Buna görə də həmişə bu metodların pedaqoji səmərəliliyini təmin etmək üçün şəraiti nəzərə almaq lazımdır. Özünütərbiyə işinin tərbiyəçi tərəfindən təşkili formaları və metodları məktəbli şəxsiyyətinin, mənlik şüurunun inkişafına, onda özünədərkin formalaşmasına, hisslərin, maraqların, əxlaqi münasibətlərdə və davranışda təcrübənin, özünütərbiyəyə tələbatın yaranmasına istiqamətləndirir.

Əxlaq normalarının başa düşülməsi, dərk olunması, mənəvi keyfiyyətlər haqqında düzgün təsəvvür formalaşdırmadan, nəyin yaxşı, nəyin pis olduğunu təyin etməyi bacarmadan, öz hərəkətini, davranışını, xarakterini, çatışmayan cəhətlərini və müsbət keyfiyyətlərini düzgün qiymətləndirmədən özünütərbiyə, özünütəkmilləşdirmə və əxlaqi təcrübənin təşəkkülü mümkün deyildir. Bundan ötrü vəzifə tərbiyə olunanda əxlaqi idealı formalaşdırmaq da bunun əsasında isə həyati məqsəd təyin etməkdə şagirdə kömək göstərmək və onu bu işə həvəsləndirməkdən ibarətdir.

Tərbiyəçi qarşıya qoyduğu məqsədə çatmaq üçün bir sıra məlum metod və formalardan səmərəli şəkildə istifadə etməlidir.

Özünütərbiyə işinin təşkili metodları tərbiyəçinin tərbiyə olunanın şüuruna, hisslərinə və davranışına təsiri sahəsindəki fəaliyyətinin təşkili yollarıdır. Özünütərbiyə işinin təşkili formaları isə tərbiyəçinin özünütərbiyə işinin təşkili zamanı qarşıya qoyduğu məqsədlərin, vəzifələrin və işin məzmununun praktiki cəhətdən həyata keçirilməsi üçün seçdiyi vasitələrdir.

L.İ.İvanovun, Q.İ.İqnatoviçin, N.A.Vasilenkonun, S.A.Mavrinin, L.İ.Ruvinskinin, M.Q.Tayçinovun, A.Q.Kovalyovun əsərləri şagirdlərin özünütərbiyə işinin təşkili yollarının təhlilinə həsr olunmuşdur. Tədqiqatçıların məqsədi tərbiyəçiyə uşaqların müstəqil şəkildə özüzərində işləmək, insanın özü-özünə təsir etmək üsulları haqqında məlumat vermək və bu işə pedaqoji rəhbərliyin əsaslarını təkmilləşdirmək olmuşdur.

Apardığımız tədqiqatlar göstərir ki, yuxarı sinif şagirdlərinin çox az hissəsinin özünütərbiyə haqqında məlumatları vardır. Bu boşluğu doldurmaq üçün məktəblilərə özünütərbiyənin əhəmiyyəti və vasitələri haqqında zəruri məlumatlar vermək lazımdır.

Bu işi yerinə yetirmək üçün xüsusi məşğələ keçirilə bilər. Məşğələnin əvvəlində müəllim frontal sorğu aparmaqla şagirdlərdən soruşur ki, onlar özlərinin şəxsiyyətə məxsus keyfiyyətlərindən, xarakterlərindən, qabiliyyətlərinin inkişaf səviyyəsindən razıdırlar, yoxsa narazı. Müəllim şagirdlərin cavablarını təhlil edib onlara xatırladır ki, əvvəlki məşğələnin əsas məqsədi onlarda "özləri haqda mühakimə yürütmək" tələbatı yaratmaq idisə, bu günkü məşğələnin vəzifəsi onlara özlərinin şəxsiyyətə məxsus keyfiyyətlərini, xarakterlərini dəyişmək tələbatını aşılamaqdan ibarətdir.

Müəllim göstərir ki, özünütərbiyənin inkişafı üçün gənc oğlan və qız özünün keyfiyyətlərini və əməllərini təhlil etməyi, onları cəmiyyət və kollektivin insana verdiyi tələbləri nəzərə almaqla tənqidi qiymətləndirməyi bacarmalıdır.

Əlbəttə, özünütərbiyə tələbatı birdən-birə formalaşmır, müəllim bu cəhəti nəzərə almalı, əvvəla, hər bir məşğələdə bu və ya digər formada özünütərbiyə probleminə qayıtmalıdır; ikincisi, müxtəlif ictimai faydalı fəaliyyətdə şagirdlərin özlərini daha yaxşı başa düşmələri, dərk etmələri üçün sinif rəhbərləri, şagird təşkilatları ilə əlaqə saxlamalıdır.

Müəllim göstərməlidir ki, öz nöqsanlarını, özünün mədəniyyətinin aşağı olmasını "məni pis tərbiyə ediblər" kimi bəhanələrlə izah etməyə, günahı öz üzərindən götürməyə, onu öz müəllimləri və valideynlərinin üzərinə atmağa heç kəsin haqqı yoxdur. Hər kəs müstəqil surətdə heç də asan olmayan özünütərbiyə yolunu keçməlidir.

Daha sonra şagirdlərə özünütərbiyə haqqında məlumat verilir. Qeyd olunur ki, özünütərbiyə insanın öz şəxsiyyətini təkmilləşdirilməsi məqsədilə fəaliyyətidir. Özünütərbiyənin istiqaməti gənc oğlan və qızın həyat idealında yəni onun özünü necə görmək istəməsindən, necə adam olmaq istəməsindən, nəyi özü üçün ən əhəmiyyətli hesab etməsindən asılıdır. Özünütərbiyə problemi xüsusilə kəskin şəkildə ilk dəfə erkən gənclik yaşlarında meydana çıxır. Bu yaş dövründə şəxsiyyətin təşəkkülünün ən mühüm anlarından biri və özünütərbiyənin əsas şərti mənlik şüurunun formalaşmasından və inkişafından ibarətdir.

Mənlik şüuru dedikdə, insanın özünü cəmiyyətin üzvü kimi dərk etməsi, özünün şəxsi keyfiyyətlərini, ətraf aləmlə, başqa adamlarla qarşılıqlı münasibətlərini, fikir və hislərini anlaması nəzərdə tuturlar.

Şəxsiyyətin özünüqiymətləndirməsi mənlik şüurunun mühüm elementidir. İnsan özünü ya öz fəaliyyətinin nəticələrinin təhlili əsasında (məsələn, riyazi məsələləri həmişə tez və asanlıqla həll edir) və ya özünü ətrafdakı adamlarla, filmlərin, kitabların qəhrəmanları ilə müqayisə etmək yolu ilə qiymətləndirir. İnsanın bu zaman hansı meyarlara əsaslanmasının əhəmiyyəti böyükdür.

Erkən gənclik yaşında özünüqiymətləndirmənin zəruri nəticəsi kimi özünəhörmət hissi xüsusi əhəmiyyət daşıyır. İnsanın özünə verdiyi ümumiləşdirici qiymətlər öz əksini özünəhörmət hissində tapır ki, bu da onun özünü şəxsiyyət kimi qəbul etməsi (qavraması) və ya qəbul etməməsi (qavramaması) səviyyəsini ifadə edir. İstər özünüqiymətləndirmə, istərsə də özünəhörmət hissi bir çox cəhətdən ətrafdakı adamların yuxarı sinif şagirdlərini necə qiymətləndirməsindən asılıdır. Yüksək özünəhörmət hissi şəxsiyyətin bütün inkişafı prosesi üçün zəruridir.

Müəllim şagirdlərin özünütərbiyə haqqındakı biliklərini daha da genişləndirərək onları tərbiyəli adam anlayışı ilə tanış edir. Şagirdlər öyrənirlər ki, tərbiyəli adam başqa adamın şəxsiyyətinə hörmət bəsləyir və onun mənafeyini nəzərə alır, doğrucul və düzgündür, həmişə öz ləyaqətini qoruyur. Onun üçün mənəvi tələbatlar, hisslər və adətlər, mənəvi cəhətdən tərbiyə olunmuş iradə xasdır və s.

Özünütərbiyə haqqında ilkin məlumatın əhəmiyyətini yoxlamaq üçün biz belə bir eksperiment keçirdik: Yuxarı sinif şagirdlərindən (X sinifdən) 50 nəfər seçdik. Bunlardan 10 nəfəri tamamilə özünütərbiyə ilə məşğul olmayanlar, 23 nəfər yaxın vaxtlarda bu işə qoşulmağa başlayanlar (şəxsi keyfiyyətlərinin özünütəsdiq səviyyəsində olanlar) 17 nəfəri - keyfiyyətlərinin özünütəkmilləşdirmə səviyyəsində olanlar idilər. Bu şagirdlərə özünütərbiyə barəsində məlumat və müəyyən praktiki göstərişlər, məsləhətlər verildi. Sistematik müşahidələr, məktəblilərin fəaliyyətinin təhlili və problemi vəziyyətlərin təşkili göstərdi ki, özünütərbiyədə əsaslı dəyişikliklər baş vermişdir. Belə ki, müntəzəm şəkildə özünütərbiyə ilə məşğul olanların sayı 33 faiz artmışdır. Sonrakı ayda da bu uşaqlara daha 14 nəfər qoşuldu. Kontrol qrupda isə həmin müddət ərzində özünütərbiyə işinə yalnız 3 nəfər şagird maraq göstərmişdir.

İkinci eksperimentdə isə, birinci ilə paralel, 100 nəfər məktəbliyə özünütərbiyə haqqında praktiki göstərişlər verildi. Bu şagirdlərin özünütərbiyəsində nəzərə çarpacaq dəyişikliklər

baş verdi. Müntəzəm şəkildə özünütərbiyə ilə məşğul olanların sayı 32 faiz artdı. Sonrakı ayda bu uşaqlara daha 10 nəfər məktəbli qoşuldu.

Beləliklə, aşkara çıxarıldı ki, şagirdlərə özünütərbiyə haqqında həm nəzəri, həm də praktiki məsləhət və göstərişlərin əhəmiyyəti çox böyükdür.

Ədəbiyyat

1. Рувинский А.И. Теория самовоспитания. М; Изд. Московского управления. 1980.
2. Kazımov N.M. Məktəb pedaqogikası. B.: OKA Ofset, 2002.
3. Гордин Л.О. Поощрение и наказание в воспитании детей. М.; 1971.
4. Ананьев Б.Г. Психология педагогической оценки. Л.; изд-во ин-та мозга, 1935.
5. Гмурман В.Э. Поощрение и наказание в школе. М.; Знание, 1962.
6. Muradxanov M.Ə. Məktəblilərin iradi tərbiyəsinin prinsip və üsulları. B.; 1993.

Х.Н.Фаттахова

Пути организации самовоспитания подростков

Резюме

В статье исследован процесс самовоспитания у учеников старших классов, где выявлены педагогические и психологические особенности, а также определены новые педагогические этапы самовоспитания учеников. Доказано, что самовоспитание начинается с самосознания, развивается и стимулируется постепенным переходом в привычки.

Статьей могут пользоваться специалисты, ведущие исследования в направлении педагогики и психологии.

Kh.N.Fattahova

Ways (roads, pathes) of forming of the self-education of the juveniles

Summary

In article the self-education action of high school pupils has been investigated, its pedagogical and psycological features were showned, the new periods of self-education of pupils have been researched. It was proved, that self-education begins from conscionsness, develops on self-routing and gradually stimulate to habits.

This article can be used by the specialists, who are researching on pedagogical and psycological sciences.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 25.07.2017

E.İ.GƏRAYZADƏ
dosent

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

MÜASİR ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ PROBLEMLƏRİ

Açar sözlər: *kompyuter texnologiyaları, məlumat, şəxsi potensial, müəllim, interaktiv dərslər, dərslik*
Ключевые слова: *компьютерные технологии, информация, личностный потенциал, преподаватель, интерактивные занятия, учебник*
Key words: *computer technologies, information, personal potential, lecturer, interactive lessons, textbook*

İnformasiya və kommunikasiya texnologiyalarının (İKT) ədəbiyyat dərslərinə tətbiqi müəllimlərə hər bir tələbənin şəxsi potensial imkanlarını qiymətləndirməyə şərait yaradır.

Azərbaycanda "bütün sahələrdə mütəxəssislərin informasiya və kommunikasiya texnologiyaları ilə işləmək və onlardan düzgün istifadə etmək bacarığına əhəmiyyət verilir. Qeyd edək ki, İKT biliyinə mükəmməl yiyələnməyin ən yaxşı yolu elə orta məktəbdən başlayır" (2, 7).

Məlumdur ki, təhsil probleminin həlli, ilk növbədə müəllimlərin professional hazırlığı məsələsindən başlayır. Bu gün İKT-dən istifadə etməklə müasir təhsil modelinin həyata keçirilməsi müəllimlərin qarşısında da yeni tələblər qoyur. Pedaqoji professionallığın informatik keyfiyyətini artırmadan İKT-nin təhsil sisteminə səmərəli tətbiqinə nail olmaq qeyri-mümkündür.

Ancaq İKT tələbə ilə müəllim arasında ənənəvi tədris prosesini əvəz etmir. Müəllim qrup və ya konkret tələbənin öyrədilməsində iki mühüm funksiyanın – motivasiyanın saxlanmasına və interpretasiyasının öyrədilməsində əvvəlki kimi təlim prosesinin böhranlı hissəsi kimi qalmaqdadır. Bacarıq və vərdişlərin formalaşmasında informasiya-kommunikasiya texnologiyalarının geniş imkanlarından düzgün istifadə təhsil siyasətinin əsas tələblərindən biridir. Problemin həllinə nail olmaq üçün informasiya-kommunikasiya texnologiyası auditoriyanı tərk etmədən ən son məlumat mənbələrinə daxil olmaqla lazım olan son informasiyaları əldə etmək imkanı verir.

İKT-nin Microsoft Office, Microsoft Word, Microsoft Power Point, İnternet Expoler və digər proqramlarının köməyilə məqsədəuyğun tapşırıqların yerinə yetirilməsində çox əhəmiyyətlidir. İKT verilən tapşırığı yerinə yetirərkən bir problemin müxtəlif proqramların imkanlarından çıxış edərək fərqli çalarlarda həlli istiqamətində tələbələrin seçim imkanlarını artırır. Yəni tələbə problemi Microsoft Word proqramının imkanlarından bir çalarda, Power Point proqramının imkanlarından çıxış edərək başqa çalarda təsəvvür edir.

Bu cür dərslərin həyata keçirilməsi üçün aşağıdakı amillər mühüm şərt kimi dəyərləndirilir:



Kompyuter texnologiyalarının ədəbiyyat dərslərinə tətbiqi tələbələrin marağının artırılmasına, yaradıcılıq təfəkkürün inkişafına, informativ bilik, bacarıq və vərdişlərin münasibətin formalaşmasına informasiya texnologiyaları, multimediya və internet resurslardan istifadə etməklə təhsilin şərait yaradır.

İnformasiya texnologiyaların mühazirə və seminarlarda istifadə metod və üsulları müxtəlif olmalarına baxmayaraq, biz onların tətbiqində yeganə məqsəd güdürük: ədəbiyyat dərsinə marağı artırmaq, onu çox maraqlı keçirmək. İnformasiya texnologiyaların tətbiqi ilə keçirilən qeyri-standart dərslər isə öz növbəsində müasir tələbəni oxumağa sövq etməli, klassik ədəbiyyatla tanışlıq prosesini asanlaşdırmalı, kitaba marağı oyatmalıdır.

Ədəbiyyat müəllimləri adətən dərslərdə yeni informasiya texnologiyaların tətbiqinə çox ehtiyatla yanaşırlar və bu da təbiidir, çünki ədəbiyyat müəlliminin qarşısında duran vəzifələr, əlbəttə ki, başqa fənn müəllimləri qarşısında duran vəzifələrdən bir çox hallarda seçilir. Çünki əsas məqsəd aşağıdakı problemlərdir:

Buna baxmayaraq informasiya texnologiyaların tədrisin başqa vasitələri ilə birlikdə dil və ədəbiyyat müəllimin köməkçisi olur.

Qeyd etməliyik ki, dərslərin kompyuterin köməyi ilə hazırlanması və aparılması müəllimdən çoxlu vaxt və səbr tələb edir, bəzi təşkilati xarakteri daşıyan narahatlıqlar yaradır, lakin belə dərslər həm müəllimə, həm də tələbələrə çox böyük məmnunluq verir. Müəllim Power Point proqramının vasitəsi ilə yeni dərsin izahı üçün slaydlar (yəni illüstrativ material) hazırlamalıdır. Həmin slaydlar şüura nəinki eşitmə qabiliyyəti vasitəsi ilə, hətta vizual təsir edə bilər.

Dərsin əsasını şəkillərin, sadə və animasiyalı sxemlərin və eləcə də, video-filmlərin köməyi ilə yeni materialın izahı təşkil edir. Seçilmiş materialların hamısı əksər hallarda PowerPoint proqramı vasitəsi ilə ümumi prezentasiya halında ümumiləşdirilir. Dərsin gedişində belə prezentasiya həm multimediya proyektoru vasitəsi ilə, həm də ayrı-ayrı kompyuterlərdə təqdim oluna bilər.

Təlimdə yeni informasiyalardan istifadə etməklə təhsilin keyfiyyətinin yüksəldilməsi indi hər bir müəllimin amalına çevrilmişdir. Təlim texnologiyalarının tətbiqinin əsası tədris prosesində qoyulur.

Məlumdur ki, dərs təlimin təşkilinin əsas formasıdır. Buna görə də müəllim dərsi müasir səviyyədə qurmaq, onun gedişinə yaradıcılıqla yanaşmaqla şagirdlərdə əqli vərdişlərin formalaşdırılmasına onların müasir texnologiyalara yiyələnməsinə nail ola bilər. Əlbəttə tədris prosesində təlimin texniki vasitələrindən istifadənin ən müasir metodlarının tətbiqi üçün müəllim öz işini sistemli qurmalıdır.

Müəllimin nəzarəti işgüzar səciyyə daşımalı, tələbələrdə texniki vasitələrdən istifadə etmək meyli təşəkkül etdirilməli və onların müstəqil işləmək bacarığına tam sahib olmasına cəhd göstərilməlidir. Nəzərə alınmalıdır ki, tələbələrin texniki vasitələrə psixoloji cəhətdən uyuşması nəticə etibarilə onların fəallığını artırır, obrazlı və bədii təfəkkürün inkişafı üçün obyektiv zəmin yaradır. Lakin bu prosesdə tələsikliyə yol vermək olmaz.

Sadədən mürəkkəbə doğru getmək prinsipi texniki vasitələrin də tətbiqində öncül pedaqoji prinsip kimi daima diqqət mərkəzində saxlanmalıdır. Müəllimin qarşıya qoyduğu

məqsəd aydın olmalı, texnologiyaların tətbiqi tələbələrin yaş və bilik səviyyəsinə uyğun nizamlanmalıdır.

Müasir kompyuter texnologiyaları həyatımızın müxtəlif sahələrində böyük rol oynayır və mədəniyyətimizin ayrılmaz hissəsinə çevrilir. Müasir texnologiyalardan istifadə tələbənin şəxsi potensial imkanlarının inkişafına şərait yaradır. Təlim materialını tələbələrə geniş və hərtərəfli mənimsətmək üçün mümkün olan müxtəlif texniki vasitələrdən və kompyuterin imkanlarından səmərəli şəkildə istifadə olunmalıdır. Bu proses elə təşkil olunmalıdır ki, tələbələrin dərsə marağı artsın, onlarda estetik zövqün inkişafına kömək etmiş olsun, tələbələrin təlimə münasibəti soyumasın.

Bunlardan əlavə, "müəllimlər İKT-nin köməyi ilə dərs prosesində müxtəlif hazırlıqlı tələbələrə fərqli yanaşma və adaptasiyalı öyrətmə sistemini tətbiq etməklə qavrama qabiliyyətlərinə uyğun tapşırıqlar verə bilər. Tələbələri qruplara ayırmaqla kompyuterdə optimal iş rejimi də qurmaq olar. Müəyyən fənlər üzrə məsələlərin, tədqiqat xarakterli çalışmaların həllində belə qruplaşdırma xüsusi effekt verir. Kompyuter qarşısında təhsil alan tələbə materialın verilmə və mənimsəmə sürətini özünə rahat formada müəyyənləşdirə bilər. Öz sürət rejimində tələbənin işləməsi yaxşı nəticə verir, onun özünə inamı artır, bu isə təlimdə əlverişli psixoloji atmosfer yaradır. Müəllimin verdiyi suala tələbələrin hamısı kompüter vasitəsilə eyni zamanda cavab verməklə dərs prosesində aktiv iştirak edir, beləliklə də müəllim dərs boyu tələbələrin aktivliyini istədiyi kimi qoruyub saxlaya bilir" (2, 8).



Məhz buna görə bu gün təhsilin bütün pillələrində İKT-nin tətbiq və istifadə edilməsi, tələbələlərdə müstəqil şəkildə informasiya toplamaq, analiz etmək, ötürmək qabiliyyətinin formalaşdırılması onların gələcəkdə informasiya cəmiyyətinin qiymətli üzvlərinə çevrilməsində mühüm rol oynaya bilər.

Tələbə verilən problem həll edərkən onu həm araşdırır, həm də müxtəlif kompyuter proqramlarının ayrı-ayrı xidmətlərinin ümumi bir məqsəddə birləşdirilməsi üzərində düşünülür. Bir neçə proqramdan problemin həllində yararlı olanını seçib məqsədə çatmaq üçün istifadə edilməsi həm tapşırığın icrasını asanlaşdırır, həm də işin keyfiyyətini yüksəldir.

Universitetlərin kompyuterləşməsi çoxdan davam eləsə də, elektron təhsil sistemi müəllim üçün yeni imkanlar formalaşdırır. Bu gün tələbələrdə kompyuter biliklərinin az olması və ondan istifadə qaydalarının bilməməsi müəllimləri çətinlik qarşısında qoyur. Buna görə də informasiya texnologiyalarının öyrənilməsi zəruridir.

"Tədrisdə yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə edən müəllimlərin sözlərinə görə, İKT vasitələri öz geniş imkanları ilə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir" (2, 8). "Müəllim – tələbə – dərslik" tədris modelinə kompyuterin də əlavə edilməsi

tədris prosesini individual proqram üzrə təşkil etməyə, tələbənin dərsə marağını və istəyini stimullaşdırmağa imkan verir.

Təcrübəmiz göstərir ki, kompyuterlə aparılan dərslər tələbələr üçün çox cəlbedici və yaddaqalan olur. Multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya qrafikası, rəngarəng illüstrasiyalar tələbələrin idrak aktivliyinə müsbət təsir göstərir və yekun etibarilə onların müxtəlif intellektual yarışmalarda göstərdikləri nəticələrin keyfiyyəti xeyli artır.

Müasir İKT-nin istifadəsi müəllim üçün fənninin tədrisində yeni imkanlar yaradır. İKT-nin tətbiqi təhsilin keyfiyyətini artırır və fənnə qarşı marağın yaranmasına səbəb olur. Multimediya təqdimatları və onlayn testlər ilə müşayiət olunan klassik və inteqrasiya olunmuş dərslərdə tələbələrə öz biliklərini daha da möhkəmləndirməyə imkan yaradır. İngilis atalar sözü "Mən eşitmişdim və unutmuşdum, lakin gördüm və yadda saxladım" buna bais misaldır. Beləliklə də, müasir texnologiyalarının tədrisə tətbiqi tələbə şəxsiyyətinin formalaşmasına əlverişli şərait yaradır və müasir cəmiyyətin tələbatına cavab verir. Bu yüksək informativ mühitdə müəllim və tələbə məlumatları eyni səviyyədə qəbul etdiyi üçün müəllim faktlar, fikirlər və prinsiplərin, həmçinin digər məlumatların mənbəyi vəzifəsindən çıxış edir. Müasir tələblərə cavab verən müəllim informasiya komputer texnologiyasından istifadə edərək öz dərsini tədris etməyə, həm texniki cəhətdən, həm də psixoloji hazır olmalıdır. Ali məktəbin tədris və tərbiyə proseslərində əsas vəzifəsi tələbələri informasiya texnologiyalarından istifadə etməklə onların fərdi hazırlığını təmin etməkdir. Bu məqsədi həyata keçirmək üçün hər bir müəllimin informasiya texnologiyaları biliklərinə yiyələnməsi vacib şərtdir.

Ümumiyyətlə, müasir dərs üslubunda köhnə ənənələr saxlanılır, bu zaman elmin aktuallığı, yeni dərsin izahı, təkrarlama və tələbələr üzərində yoxlama olduğu kimi qalır. Burada izahlı illüstrasiyalardan, axtarışlardan və digər üsullardan istifadə olunur.

Tələbələrə dərs materiallarının çatdırılma formalarından ən uğurlu hesab edilən multimediyalı təqdimatlardır, çünki hazır elektron dərsliklərdən, test tapşırıqlarından istifadə olunur: şəkillər, video-ekskursiyalar, interaktiv modellər, xüsusi fotoşəkillər, illüstrasiyalı obyektlər və s. Bunların arasında daha çox ensiklopediyadan istifadə olunur.

Dərsdə zamanı keçirilən mövzuya aid tələbələrin şəxsi araşdırmalarını təqdimatı, kompyuter testləri və multimediyalı fraqmentlər dərslərin daha yaxşı mənimsənilməsinə şərait yaradır. İKT-nin fənnə tətbiqi bu fənni keçən müəllimin hazırlığından, həmçinin tələbələrin mənimsəməsindən və elektron dərsliklərin mövcudluğundan asılıdır.

Ədəbiyyat

1. Gərayzadə E.İ., Orucova M.İ. Ali məktəblərdə müasir dərsin kompüterləşdirmə problemi. Metodik vəsait. Bakı: Mütərcim, 2009.
2. Haqverdiyev V. // Azərbaycan müəllimi, 2010, 12 noyabr, s.7-8.

Э.И.Герайзаде

Проблемы использования информационных и коммуникационных технологий на современных уроках литературы

Резюме

Использование информационно-компьютерных технологий на уроках литературы предоставляет преподавателю возможность более полно реализовать личностный потенциал каждого студента. В статье анализируются возможности применения компьютерных технологий на занятиях. Отмечается, что такие занятия повышают интерес студентов к учебе, способствуют развитию их творческого мышления и т.д.

E.I.Gerayzade

Problems of using information and communication technologies in modern literature classes

Summary

The usage of technologies during the lectures and seminars gives the lecturer the opportunity to realize more fully personal potential of each student. The article analyzes the possibilities of applying computer technologies at the lessons. It is noted that those lessons increase students' interest in learning, help developing their creative thinking, etc.

Rəyçi: filol.e.n., dos. S.H.Qafarova

Redaksiyaya daxil olub: 05.09.2017

F.N.HÜSİYEV
filologiya üzrə fəlsəfə doktoru
e-mail: gusiev70@mail.ru

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

MÜASİR DÖVRDƏ TƏHSİL SAHƏSİNDƏ AZƏRBAYCAN-RUSİYA ƏLAQƏLƏRİ

Açar sözlər: *Azərbaycan, Rusiya, Heydər Əliyev, İlham Əliyev, Mehriban Əliyeva, jurnalistika, humanitar əlaqələr, tarix, təhsil, inkişaf*
Ключевые слова: *Азербайджан, Россия, Гейдар Алиев, Ильхам Алиев, Мехрибан Алиева, журналистика, гуманитарные связи, история, образование, развитие*
Key words: *Azerbaijan, Russia, Heydar Aliyev, İlham Aliyev, Mehriban Aliyeva, journalism, humanitarian relations, history, education, development*

Dövlət müstəqilliyimizin ilk illərində olduqca mürəkkəb ictimai-siyasi hadisələr fonunda Rusiya ilə Azərbaycan arasında digər sahələrdə olduğu kimi təhsil sahəsində əlaqələr də ikinci plana keçmişdi. Hər iki ölkədə daxili siyasi sabitliyin olmaması,Rusiyada ermənipərəst, anti-Azərbaycan, Azərbaycanda isə anti-rus, qüvvələrin siyasəti, münasibətlərimizə dağıdıcı təsir göstərmişdir. Amma 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə gəlmiş Heydər Əliyevin siyasi kursu bütün sahələrdə Azərbaycan-Rusiya münasibətlərini tamamilə yeni mərhələyə qaldırmışdır. Müasir tariximizin gərgin anlarında ölkəmizə rəhbərlik etmiş ulu öndər Heydər Əliyev hələ sovetlər dönəmində ölkənin ali rəhbərliyində təmsil olunduğu vaxtlardan təhsil sahəsinə, ələxsus ümumittifaq miqyasında tələbə mübadiləsinə xüsusi diqqət yetirirdi.Hələ o zaman Heydər Əliyev tərəfindən təqribən 15 minə yaxın azərbaycanlı gənc Rusiyanın və digər müttəfiq ölkələrin müxtəlif ali təhsil ocaqlarında oxumağa göndərilmişdi.

Hazırda ölkə prezidenti İlham Əliyevin düşünülmüş xarici siyasəti nəticəsində Azərbaycan-Rusiya münasibətləri yüksələn xətlə inkişaf etməkdədir.Bu uğurlu siyasi xətt təhsil sahəsində də özünü göstərir.Müasir dövrümüzdə hər bir cəmiyyətin intellektual inkişafı həm də cəmiyyətin sabitliyidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi , "əgər cəmiyyət yüksək intellektual səviyyədədirsə, savadlıdırsa kənardan gətirilən heç bir qüsurlu təzahürlər və meyllər heç vaxt onu sarsıda bilməz. Müasir dünyada, xüsusən də, kifayət qədər inkişaf etməmiş ölkələrdə, bir çox problemlər məhz təhsilin çatışmazlığı ilə əlaqəlidir. Bir çox müharibələr və münaqişələr məhz təhsilin səviyyəsinin aşağı olması ilə bağlıdır. Ümumi yanaşmada savadlılıq səviyyəsi ölkənin inkişaf səviyyəsinə və bu ölkələrdə baş verən proseslərə tam müvafiqdir" (1).

Azərbaycanda təhsilə həmişə xüsusi diqqət ayılmışdır. Bu baxımdan, təhsilimizin zənginləşməsi baxımından Rusiya ilə əlaqələrmiz önəm kəsb edir. 2009-cu il 27 fevral tarixində paytaxtımızda Mixail Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı flialının açılışı elmi əlaqələrimizə təkan verən hadisə olmuşdur. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ölkə ziyalıları, həmçinin Rusiya Prezident Administrasiyasının rəhbəri Sergey Narışkinin başçılığı ilə geniş nümayəndə heyəti iştirak etmişdir. MDU-nun proqramları əsasında qurulan tədris prosesi ilkin mərhələdə filologiya, kimya və tətbiqi riyaziyyat fakültələrini əhatə etmişdir. Açılış mərasimində çıxış edən Rusiya Prezident Administrasiyasının rəhbəri Sergey Narışkin Moskva Dövlət Universitetinin (MDU) Bakı flialının açılışını "strateji tərəfdaşlığımızın növbəti körpüsü, bizim ümumi - yaxşı və işıqlı gələcəyimizə salınan uğurlu bir körpü" kimi dəyərləndirmişdi. Mixail Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru Viktor Sadovçni öz çıxışında Azərbaycan Prezidentinə Bakı filialının açılışı ilə bağlı göstərdiyi diqqətə görə

minnətdarlıq etmiş, qısa bir müddətdə belə bir filialın açılmasını münasibətlərimizin tarixində nəhəng hadisə adlandırmışdır. MDU Bakı filialının rektoru, professor Nərgiz Paşayeva isə çıxışında kollektiv adından hər iki ölənin dövlət başçılarına minnətdarlıq etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə öz çıxışında bu layihənin ərsəyə gəlmə tarixçəsinə nəzər salmışdır. MDU-nun Rusiyanın aparıcı ali təhsil məktəbi olduğunu vurğulayan İlham Əliyev bu ali təhsil ocağının filialının Bakıda açılmasının humanitar sahədə əlaqələrimizin yüksək səviyyədə olmasından xəbər verdiyi bildirmişdir. Prezident İlham Əliyev MDU-nun fəxri doktoru seçildiyini diqqətə çatdırmış, Bakı filialında təhsilin Moskvada olduğu kimi yüksək səviyyədə tədris ediləcəyinə ümidvar olduğunu bildirmişdir.Tədbirin sonunda MDU Bakı filialının rektoru, professor Nərgiz Paşayeva Rusiya Prezident Administrasiyasının rəhbəri Sergey Narışkin tərəfində "Dostluq işinə töhfəyə görə" («За вклад в дело дружбы») şərəf nişanı ilə təltif edilmişdir.

MDU Bakı filialının Xocasən qəsəbəsindəki yeni tədris kompleksinin açılışı isə 26 sentyabr 2012-ci ildə olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə baş tutan açılış mərasimi yadda qalan olmuşdur.Beş hektar ərazidə iki il ərzində tikilmiş yeddi müasir tədris korpusunda 400-dən çox tələbə təhsil alır.Burada müəllim və tələbələr üçün dörd yataqxana da fəaliyyət göstərir. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etmişdir:

"Bu gün ölkəmizin həyatında gözəl, əlamətdar gündür. Biz MDU-nun Bakı filialının yeni binasını açırıq. Bu gün bu yaraşıqlı bina ilə tanış olarkən mən xəyalən dörd il əvvələ, MDU-nun Azərbaycanda filialının yaradılması haqqında Sərəncam imzaladığım vaxta qayıtdım. Əlbəttə ki, bu Sərəncam təsadüfi meydana gəlməmişdir. Bundan əvvəl Rusiya tərəfi ilə danışıqlar aparılmış və MDU-nun rəhbərliyinin fəal dəstəyi ilə biz belə mühüm qərar qəbul etmişik. Bu, Azərbaycanda təhsil sisteminin təkmilləşdirilməsi prosesində, habelə Rusiya ilə Azərbaycan arasında ikitərəfli dostluq münasibətlərinin möhkəmləndirilməsi çərçivəsində, həqiqətən, əhəmiyyətli qərar idi.....

Mən çox şadam ki, qısa müddətdə filial ölkəmizdə böyük nüfuz qazanmışdır. Filialın rəhbərliyi MDU-nun rəhbərliyinin dəstəyi ilə sıfırdan başlayaraq artıq böyük nüfuz qazanmış və gənclərin can atdığı ali təhsil müəssisəsi yarada bilmişdir. Buradakı tədris prosesi, kadrların seçilməsi sistemi, əlbəttə ki, logistika infrastrukturu vəavadanlıq təhsil üçün gözəl şərait yaradır. Ən başlıcası isə hazırda biz MDU-nun Bakı filialının simasında Azərbaycanda dünya səviyyəli ali təhsil müəssisəsi görürük. Çünki artıq dediyim kimi, MDU dünyanın nüfuzlu təhsil müəssisələrindən biri, böyük ənənələrə malik universitet, Rusiyanın aparıcı təhsil ocağıdır. Əlbəttə ki, MDU-da tədrisin səviyyəsi onun filialının harada olmasından asılı olmayaraq qoruyub saxladığı standartdır.

Bu gözəl gündə, əvvələn, bir neçə il ərzində, əslində sıfırdan müasir təhsil müəssisəsi yaratmış MDU-nun rektoru, bizim böyük dostumuz Viktor Antonoviç Sadovniçiyə, universitetin Bakı filialının rektoru Nərgiz Paşayevaya, habelə bütün həm yerli, həm də moskvalı müəllimlərə təşəkkürümü bildirmək istəyirəm..... Müasir dünyada ölkələrin uğurunu biliklər, elm, texnologiyalar və təhsil müəyyən edir. Biz şadıq ki, bu gün Azərbaycanda yüksək savadlılıq səviyyəsini qoruyub saxlamağa nail olmuşuq. Savadlılığın səviyyəsi faktiki olaraq 100 faizdir. Biz təhsilin inkişafı üçün çox iş görür və bu sahəyə olduqca çox sərmayə yatırırıq. Son səkkiz ildə Azərbaycanda təhsil xərcləri altı dəfə artaraq 1,5 milyard manat səviyyəsinə çatmışdır. Bu da büdcəmizin bütün məxaric hissəsinin on faizindən bir qədər azdır. Yəni, Azərbaycanda təhsil xərcləri müdafiə xərcləri ilə birinci və ikinci yerləri bölüşür. Bu isə bizim üçün məhz düzgün tədris prosesinin nə qədər əhəmiyyətli olduğuna, Azərbaycan gənclərinin onlara həyatda lazım olan bilikləri əldə edə biləcəkləri belə bir tədris sisteminin yaradılmasının nə qədər əhəmiyyətli olduğuna dəlalət edir.....".

Açılış mərasimində M.V.Lomonosov adına MDU-nun 50 professoru iştirak edirdi. Bu ali məktəbin rektoru, akademik Viktor Sadovniçi öz çıxışında təhsil sahəsindəki əlaqələrimizi

yüksək qiymətləndirmiş, gələcəkdə bu əlaqələrimizin böyük perspektivlərini qeyd etmişdir : *"....Burada doğrudan da, Moskva Universitetinin ən yaxşı professorları və müəllimləri dərs deyirlər. Bu gün Rusiya Akademiyasının çox sayda görkəmli alimləri və akademikləri, professorları, Moskva Universitetinin kafedra müdirləri burada – bu zaldadırlar. Bu, o deməkdir ki, filial elita hazırlamağa və gələcəkdə elmi avadanlıqla təchiz olunmaqla elmi istiqamətlər yaratmağa, digər universitetlər və Elmlər Akademiyası iləəməkdaşlıq etməyə, bu tərəqqini həyata keçirməyə qadirdir. Özü də ki, Rusiya və Azərbaycanın əməkdaşlığı çox yaxşı səviyyədədir. Biz də, Moskva Universiteti olaraq filialın inkişafına töhfə verməyə hazırıq. ...Bizim 5 dövlətdə 5 filialımız var və bu filialların hamısı qarşılıqlı əməkdaşlıq prinsipi əsasında yaradılıb. Yəni, Moskva Universitetinin professorları dərs demək üçün həmin ölkələrə, həmin filiallara gedirlər, biz də onlardan baza, təcrübə, tələbələrin yay tətili səfərləri kimi qarşılıqlı fayda götürürük. Əslində, bu, ödənişsiz tələbə filiallarıdır. Məncə, bu, əməkdaşlığın düzgün yoludur. Biz əməkdaşlıq edib bir-birimizə kömək göstərməli, tarixi ənənələrimizi, köklərimizi xatırlayıb bir-birimizə danışmalıyıq*."

MDU-nun Bakı filialının rektoru, professor Nərgiz PAŞAYEVA çıxışında bildirmişdir ki, flialın fəaliyyət göstərdiyi dörd il ərzində Moskva Dövlət Universitetinin 940 professor və müəllimi burada mühazirələr oxumuşdur. "*Bu, böyük rəqəmdir, yəni Bakıya minə yaxın adam gəlib. Bütün bu dörd il biz – həm Bakı, həm də Moskva müəllimləri bir yerdə olmuşuq, açıq, nəcib və şərəfli yolla, universitet həyatı yolu ilə yanaşı addımlamışıq..... Çox istərdik vurğulayaq ki, burada təkcə tələbə hazırlamağa deyil, həm də böyük elmə həvəs göstərəcək, böyük elmdə qalacaq və bu istiqamətdə özlüyündə çox zəngin olan Azərbaycanımızın gələcəkdə də elmi ictimaiyyətini və elm tarixini şöhrətləndirəcək alimlər yetişdirməyə çalışırıq.Biz bilirik ki, müasir dünya texnologiya dünyasıdır. Biz bilirik ki, dünyada xeyli elmi-texnoloji araşdırmalar baş verir. Lakin qeyd etmək lazımdır ki, istənilən texnoloji araşdırmalar, istənilən texnoloji ideyalar, tədqiqatlar, hansısa istiqamətlər əvvəl-axır bu və ya digər şəkildəhumanitar problemlərlə toqquşur, humanitar məsələlərdə qapanır. Beləliklə, humanitar elmlər çox vacibdir.Humanitar və texnoloji elmlərin birliyi bu gün doğru birlikdir.... Rusiyanın və Azərbaycanın alimləri elmi qarşılıqlı şəkildə zənginləşdirməklə keçmiş, lakin təəssüf ki, itirilmiş elmi əlaqələri yenidən bərpa edə bilərlər....".*

2015-ci il sentyabr ayının 15-də İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının açılışı təhsil sahəsindəki əlaqələrimizin daha bir uğurunun göstəricisidir. Azərbaycanın birinci xanımı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin məzunu və fəxri professoru Mehriban Əliyevanın açılış mərasimində iştirakı isə bu təhsil ocağına məxsusi münasibətdən xəbər verir. Açılış mərasimində həmçinin Rusiya Federasiyasının səhiyyə naziri Veronika Skvortsova, Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçko, Azərbaycanın hökumət və ictimaiyyət nümayəndələri iştirak edib, filialda yaradılan şəraitlə tanış olublar. haqqında məlumat verdilər. Universitetin Bakı filialında ilk tədris ilində 100 azərbaycanlı tələbə müalicə işi ixtisası üzrə təhsil alacaq. Tədris əsasən universitetin professor-müəllim heyəti tərəfindən yeni nəsil Rusiya dövlət təhsil standartlarına uyğun aparılacaq. Eyni zamanda, tədris prosesinə dünyada tanınmış rusiyalı alimlər cəlb olunacaq. Filialda həkim-mütəxəssislərin hazırlanması zamanı innovativ təhsil texnologiyalarının tətbiqi və ustad dərslərinin keçirilməsi nəzərdə tutulur. Azərbaycanın birinci xanımı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəxri professoru Mehriban Əliyevan çıxış edərək bildirib ki:

" *Mənim üçün bu hadisə, Seçenov Universitetinin filialının açılması xüsusi məna kəsb edir. Mən bu universitetdə oxumuşam, bu universitetin fəxri professoruyam və məhz bu ali məktəbin divarları arasında yüksək mədəniyyət, mənəviyyat, mükəmməl peşəkarlıq ruhunda keçirdiyim tələbəlik illərinə, tələbə gəncliyimə görə taleyimdən razıyam. Mən bizə həm fundamental biliklər və peşə vərdişləri, həm də etika, mənəviyyat, humanizm ideyaları aşılamış müəllimlərimə dərin minnətdarlığımı bildirmək istəyirəm.*

Deyirlər, universitetlər elm məbədidir. Lakin mənə belə gəlir ki, tibb universiteti həm də şəfqət məbədidir. Təbabət xüsusi peşədir və öz həyatını təbabətə həsr edən insan fundamental biliklər, praktiki vərdişlərlə yanaşı, həssas qəlbə malik olmalı, başqasının halına acımağı, onun dərdinə şərik olmağı, ağrısını eşitməyi bacarmalıdır ". (2)

Rusiya Federasiyasında 2004-cü ildən başlayaraq Ümumrusiya Azərbaycan Konqresi tərəfindən "Gənc azərbaycanlıların Rusiya ali məktəblətində təhsili" proqramı da fəaliyyət göstərmişdir.Moskva şəhərində Azərbaycan Respublikasının Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının testlərinə uyğun olaraq qəbul imtahanları bütün qruplar üzrə keçirilmişdir. Bu proqramın xəttilə Rusiyanın 63 ali məktəbində 300-dən çox azərbaycanlı tələbə təhsil almışdır.

Orta məktəb təhsili bazasında əlaqələrimiz də maraq doğurur. Moskva şəhərində Sovet kosmonavtikasının banilərindən sayılan general-leytenant Kərim Kərimovun adını daşıyan 1583 saylı gimnaziya fəaliyyət göstərir. Burada Moskva Təhsil departamentinin dəstəyilə Azərbaycan dili tədris olunur, Azərbaycan mədəniyyətini təbliğ edən "Birlik" otağında mütəmadi məşğələlər keçirilir. Əvvəllər bu təhsil ocağı etnomədəni komponentli 157 saylı orta məktəb adlanırdı. 1997-ci ildən bu məktəbin direktorun milliyətcə azərbaycanlı, əməkdar müəllim Aida Quliyeva olmuşdur (3). Hazırda gimnaziyanın baş direktoru Svetlana Dvoryançovadır.

Rusiya Federasiyasının Həştərxan şəhərində 2011-ci ilin oktyabr ayında Heydər Əliyev adına 11 saylı tam orta məktəbin açılması da təhsil sahəsində əlaqələrimizin dinamik göstəricilərindən biridir. Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin,Həştərxan şəhərinin meri Sergey Bojenov və digər yüksək rütbəli nümayəndələrlə yanaşı, Azərbaycandan gəlmiş böyük nümayəndə heyəti də təntənəli açılışda iştirak etmişdir.Heydər Əliyev fondunun təşəbbüsü ilə rekonstruksiya edilən bu məktəbdə 700 nəfərdən çox şagird təhsil alır.1937-ci ildə inşa edilmiş bu məktəbin ərazisi Azərbaycan tərəfin maliyyə dəstəyilə iki dəfə böyüdülmüş ,əlavə iki yeni təhsil binası, idman-oyun meydançaları inşa edilmiş və məktəb bütün müasir lazımı avadanlıqla təchiz olunmuşdur... Tədbirdə çıxış edən Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin bildirmişdir: "Siz qısa müddətdə dəyərli bir obyekti necə ərsəyə gətirməyi nümunə olaraq göstərdiniz... Bu hazırda Həştərxanda ən yaxşı məktəbdir"(4).Açılış mərasimində çıxış edən Həştərxan vilayəti Dumasının sədri Aleksandr Klıkanov isə Azərbaycan prezidenti İlham Əliyevin "Həştərxan şəhərinin fəxri vətəndaşı" adına layiq görüldüyünü bildirmişdir.

Rusiyanın bir çox şəhərlərində Azərbaycan dilini, ölkəmizin mədəniyyətini, tarixini ictimai əsaslarla tədris edən "bazar günü məktəbləri" də fəaliyyət göstərir.Adətən bu məktəblər soydaşlarımızın dəstəyilə həftədə bir dəfə təşkil edilir.

Ədəbiyyat

1. http://www.president.az/articles/6295
2. http://www.mehriban-aliyeva.az/news/node/845750
3. http://www.azerbaijan-news.az/2012/12/30/
4. http://azcongress.ru/2011/10/29/

Ф.Н.Гусиев

Азербайджано-российские связи в области образования в современном периоде

Резюме

В статье исследуются азербайджано-российские связи в области образования. Со ссылкой на соответствующую научную и на различные электронные ресурсы отмечается, что основу азербайджано-российских культурных связей составляют добрососедские и дружественные отношения двух народов, и эти связи всегда развивались по восходящей.

В статье нашли свое отражение и усилия общенационального лидера Гейдара Алиева, имеющего особые заслуги в развитии этих связей. Также отмечается заслуги президента Ильхама Алиева и вице-президента Мехрибан Алиевой в области образования. Вместе с тем,

исследованы также хронология и география проведения совместных проектов с Россией в области образования.

F.N.Husiyev

Azerbaijan-Russia educationrelations in the contemporary time

Summary

The article explores Azerbaijan-Russia humanitarian - education ties. It is noted, with reference to appropriate scientific and fiction literature and different media bodies, that the neighborhood in friendly relations between the two nations comprise the foundation of Azerbaijan-Russian humanitarian ties and these ties have always developed on an ascending line. The article also touches on Heydar Aliyev's and İlham Aliyev efforts, who has contributed to the development of these ties. At the same time, the chronology and geography of education were explored in the article.

Rəyçi: filol.f.d., dos. Ə.Ç.Ağamirzəyev

Redaksiyaya daxil olub: 12.09.2017

M.H.İBRAHİMOVA

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
(Bakı şəh., Azadlıq küç., 20)

XARİCİ DİLİN EFFEKTİV ÖYRƏNİLMƏSİ ÜSULLARI

***Açar sözlər**: xarici dil, effektiv öyrənmə üsulları, danışıq, dinləmə, metod, yanaşma*
***Ключевые слова**: иностранный язык, эффективные способы обучения, речь, слушание, метод, подход*
***Key words**: foreign language, effective learning ways, speaking, listening, method, approach*

Azərbaycan dünya birliyi ölkələri ilə ictimai həyatın bütün sahələrində səmərəli əməkdaşlıq edən bir ölkədir. Buna görə də başqa fəaliyyətlərlə yanaşı, bir və ya iki xarici dildə ünsiyyət qurmağı, əlaqə saxlamağı bacaran şəxsiyyətin formalaşdırılması müasir ali məktəblərin mühüm vəzifələrindən biridir. Hazırkı dövrdə qloballaşma prosesinin və inteqrasiya meyllərinin getdikcə sürətləndiyi ictimai-siyasi, sosial-mədəni sahələrdə baş verən mühüm keyfiyyət dəyişiklikləri kommunikasiya vasitələrindən (yeni informasiya texnologiyalarından) istifadə etməklə tələbələrin kommunikativ bacarıqlarının yüksək səviyyədə inkişafını tələb edir.

Xarici dilə yiyələnən şəxs bilavasitə beynəlxalq arenaya çıxaraq öz xalqının millimənəvi dəyərlərini, qazandığı nailiyyətləri başqalarına çatdırmaq, onlarla həmin dildə fikir və təcrübə mübadiləsi aparmaq imkanı əldə edir. Xarici dil vasitəsilə müxtəlif xalqlarla ünsiyyət, yeni mədəniyyətlərlə tanışlıq şagirdin yüksək səviyyəli layiqli vətəndaş, yaradıcı və tənqidi düşünən şəxsiyyət kimi yetişməsində mühüm rol oynayır.

Xarici dilin öyrənilməsinin (öyrədilməsinin) effektivliyinin artırılması müasir tədris sisteminin qarşısında duran əsas vəzifələrindəndir. Xarici dilin öyrənilməsinin intensivləşdirilməsi müasir tədris metodologiyasının və texnoloji avadanlıqların – kompüter, audio-video texnikanın, elektron vəsaitlərin müntəzəm istifadəsini tələb edir. Metodiki ədəbiyyatların analizi də göstərir ki, artıq ənənəvi birtərəfli tədrisdən kommunikativ-interaktiv tədris metodologiyasına maraq artmışdır. Ənənəvi metodda müəllim öz işini izah etmək, tapşırıq vermək və yoxlamaq üzərində qurur, şagird-müəllim ünsiyyəti birbaşa deyil, dolayı şəkildə həyata keçirilir. İnteraktiv metod zamanı isə müəllim bilavasitə şagirdlə ünsiyyət yaradır, şagird isə əsas funksional fiqura çevrilərək bacarıqlarını ifadə etmək imkanı qazanır. Bu zaman şagird dil baryerlərini daha rahat aşır, yad dildə danışmaq utancaqlığı zamanla aradan qalxır, dərs vaxtı həm də real situasiyaların məşqini etməyə imkan verir.

Dərs vəsaiti olaraq audio-video texnikadan istifadə, danışaraq göstərə bilmək şagirdləri daha çox maraqlandıraraq dərsə həvəsini artıra bilər. Bu da bir həqiqətdir ki, şagird həvəsi olmadığı işi görmək istəmir, və ya "mən bunu qavraya bilmirəm" deyərək yanlış fikirlərlə dərsdən soyuyur. Bu cür şagirdləri dərsə qazandırmaq üçün təkcə şagird-müəllim ünsiyyətini qurmaqla kifayələnməməli, eyni zamanda şagirdlərin öz aralarındakı kommunikasiyanı gücləndirmək lazımdır. Bunun ən yaxşı yolu müəyyən oyunlar təşkil etmək, şagirdlərə rollar vermək, birgə mahnılar oxumaq, hər kəsi müzakirələrdə iştiraka cəlb etməkdir. Yeni dərslər müəllim tərəfindən xarici dildə tanış sözlərlə, keçilmiş dil formulları, qrammatik konstruksiyalar, mimika və jestlər, şəkillər və digər vizual təqdimat vasitələri ilə aparılır. Kommunikativ metod nitqi (yazılı və şifahi) inkişaf etdirir, qrammatika danışıq prosesində öyrədilir, şagirdlər öncə sözləri öyrənir, bildikləri formullarla cümlə qurur, sonra isə müəllim cümlələrə yeni qrammatik qaydaları tətbiq etməklə düzəlişlər edərək şagirdlərə öyrədir.

Dərslərdə tez-tez qarşılıqlı sual-cavab və testlərdən istifadə interaktiv metodun üstünlüklərindən biridir. Bütün şagirdləri bu prosesə cəlb edərək onlar arasında rəqabət mühiti ya-

ratmaqla həm öyrətmək, həm də ünsiyyət maneələrini aradan qaldırmaq olar. Şagirdlərin həvəsləndirmələrə meylli olduğunu nəzərə alaraq, hər pedaqoq öz xüsusi kiçik mükafatlandırma metodlarını tətbiq etməkdə sərbəstdir, təki şagirdlər öz fikirlərini xarici dildə ifadə etməkdən qorxmasınlar. Müəyyən komanda yarışları təşkil etmək, qrupları proporsional bölərək hər bir şagirdin özünü komandanın vacib elementi kimi hiss etməsinə imkan yaratmaq lazımdır.

Xarici dili yaxşı öyrənmək üçün təkcə məktəb proqramı və sinif dərslikləri yetərli deyil, bunun üçün də hər kəs mütəmadi olaraq, öz üzərində işləməlidir. Öyrənmək təbii ki, müəyyən vaxt və əmək sərfi tələb edir, amma effektiv metodlarla bu işi əyləncəli və maraqlı şəkildə həyata keçirmək olar. Aşağıda verilmiş tövsiyələr sərbəst xarici dil öyrənənlərə gərəkli ola bilər:

1. Xarici dildə kitablar oxuyun. Əgər dil səviyyəniz aşağıdırsa, sadə yazılardan, uşaq kitablarından (şəkilli, illüstrasiyalı) başlaya bilərsiniz. Əsas odur ki, həvəslə oxuyasınız və hər söz üçün lüğət axtarmayasınız, oxuduqca məlum sözlər əsasında ümumi mənanı çıxarasınız. Vacib hallarda isə lüğətə baxmaq və sözləri aid olduğu ifadələrə uyğun şəkildə qavramaq olar. Bu zaman öyrənmə prosesinin çətinliyi aradan qalxacaq və sözlər daha yaxşı yadda qalacaq.

2. Xarici dildə filmlərə baxın. İlk əvvəl yaxşı olar ki, subtitrlərlə baxasınız, bu sizə sözləri eşidərək oxumağa və tələffüzünü qavramağa kömək edəcəkdir. Sizə maraqlı olan filmlərə baxın, əvvəl ana dilində baxdığınız filmlərə də baxmaq olar, bu bütövlükdə söz birləşməsi və cümlələri də asanlıqla anlamağınıza kömək olar. Eynilə xarici dildə xəbərlərə baxmaq, musiqi dinləmək, karaoke oxumaq da dil öyrənmənin effektiv, eyni zamanda əyləncəli üsullarındandır.

3. Evdə, işdə, uzun vaxt keçirdiyiniz məkanlarda görünən yerdə xarici dildə sözlər, ifadələr, cümlələr yazın. Tez-tez sevdiyiniz şüarları yazın və müntəzəm olaraq dəyişin. Müəyyən sərbəst öyrənmə kitabları alıb biliyinizi möhkəmləndirə bilərsiniz.

4. Utancaqlığı sındırın və danışmağa çalışın. Kifayət qədər söz bilən və qrammatik savadı olan çox insan var ki, danışmağa çətinlik çəkirlər. Buna mane olan çox amillər var, utanmaq, səhv etməkdən qorxmaq, tənbəllik və s. Danışığı inkişaf etdirmək üçün ilk öncə təkbaşına danışaraq məşq etmək, sonra xarici dildə internetdə yazışmaq olar. Zaman keçdikcə dostlarla və yoldaşlarla danışmaq və nitqi inkişaf etdirmək olar. Sizdən yaxşı bilən birisilə və ya müəllimlə danışmaq daha yaxşı nəticə verər, sizin səhvlərinizi düzəldərək danışığınızı qüsurlardan təmizləyər. Yadınızda qalsın ki, dil də bir vərdişdir, istifadə etmədikcə, danışmadıqca unudulur və zəifləyir.

Məlumdur ki, hər hansı bir dil üç aspektdə öyrənilir. Bu, fonetika, qrammatika və leksikadan ibarətdir. Bu əlaqələr üzvü surətdə bir-biri ilə bağlıdır və onlar tədris prosesində bir-birini tamamlayır. Xarici dilin tədrisində şifahi nitq mühüm rol oynadığı üçün ona təsir göstərən amillərdən biri də dilin qrammatikasıdır. Bunun üçün də qrammatik qaydaların öyrədilməsi əsas götürülməlidir. Çünki xarici dildə düzgün danışmaq və başa düşmək üçün qrammatikanı bilmək vacibdir.

Dil öyrənmək böyük bir vəzifədir. Hər bir böyük təşəbbüs kimi olduğu kimi, öyrəncinin həqiqətən istədiyinin nə olduğunu dəqiq bilməsi çox vacibdir. Əgər aydın bir motivasiya yoxdursa, onların dil öyrənmə səylərini tərk etmələri şansı çox yüksəkdir. Başqa bir dil öyrənmək istəyən öyrənci nəyə qadir olduğunu müəyyən etməsi üçün əvvəlcə beynini istifadə etməlidir.

Dil müəyyən olaraq əvvəlcə danışıq vasitəsidir. Buna görə xarici dilin mümkün qədər dinləməsini vacibdir. Bu, öyrəncilərə qulaqları yavaş-yavaş söyləyənləri başa düşə bilmək üçün imkan yaradır.

İstənilən bir dildə sərbəst danışmaq müvəffəqiyyəti, danışıq dilini yaxşı mənimsəmə dinləmədən çox asılıdır.

Danışıq dilini mənimsəməyin vacib hissəsi isə fəal şəkildə dinləmə bacarığına yiyələnməkdir. Dinləmə, dərhal eşitdiyinizə diqqət yetirmək deməkdir.

Hazırda dünyaya inteqrasiya dövründə ən çox danışılan dillərdən biri olan ingilis dilini öyrənmək istəyən hər kəsə bu gün çoxsaylı imkanlar mövcuddur, lakin ən çox tələbə tərəfindən qaldırılan ümumi bir sual ən təsirli olanıdır. İngilis dilini öyrənmək üçün heç bir

zəmanət vermək üsulu yoxdur, baxmayaraq ki, bu tapşırığı effektiv edə biləcək bir neçə yanaşma var. İkinci bir dil, iş üçün, məşğulluq və ya şəxsi ünsiyyət üçün İngilis dili öyrənmənin səbəblərindən asılı olmayaraq, tələbələrin başlanğıcdan əldə etdiyi öyrənmə seçimlərini başa düşmək vacibdir. Mövcud variantları anlamaq, tələbə üçün ingilis dilini öyrənmək üçün seçilmiş təklif və ya onların birləşmələri barədə yaxşı məlumatlı qərar qəbul etməyə kömək edəcəkdir.

Hazırda üstünlük verilən öyrənmə stilinə əsasən, bəzi tələbələr sinif otağında öyrənməyi üstün tuturlar. Belə bir ənənəvi mühitdə öyrənmək tələbələrə həm müəllimlər, həm də onların həmyaşıdları ilə davamlı əlaqə yaratmağa imkan verir. Bu, əlavə rəhbərlik və təlimat tələb edənlər üçün faydalıdır və həmçinin ingilis dilini öyrənmək və ingilis dilini lazım olan məqamda tətbiq etmək üçün yaxşı bir imkan verir.

Tələbələr üçün mövcud olan başqa bir variant da, bu gün az əhəmiyyət kəsb edən bir seçim olsa da, bu audio dərslərdir. Çox tələbə üçün ingilis dilinin yalnız audio dərsləri vasitəsi ilə hazırladığı bütün mürəkkəb aspektlərini başa düşmək çətin olsa da, onlar öyrənmə repertuarı üçün faydalı bir hissədir.

İngilis dilini öyrənmək üçün başqa bir mükəmməl metod oxudur. Kitablar, jurnallar və qəzetlər və hətta onlayn bloqlar kimi mətnlər yeni sözləri və ifadələri öyrənmək və lüğət qurmaq üçün tövsiyə edilən üsuldur. İngilis dili öyrənən tələbələr ingilis dilini ikinci bir dil olaraq necə danışmaq üçün əlavə kitablardan istifadə bilərlər.

Yəqin ki, ingilis dili öyrənmənin ən müasir metodlarından biri internet vasitəsilə öyrənilmə metodudur. Bu proses, tələbələrin öyrənmə repertuarını qurması üçün mükəmməl bir təməl olduğundan populyarlığın əhəmiyyətli dərəcədə artdığının şahidi oluruq. Məsələn, bir tələbə xüsusi İnternet resursdan ingilis dilini öyrənmək və yuxarıda göstərilən digər variantlardan birini və ya bir neçəsini əlavə etməklə internet vasitəsilə öyrənmə metodunundan itsifadə edə bilər.

Ədəbiyyat

1. X. Qədimova. İnteraktiv təlim metodları. Bakı, 2005.
2. Borich,G.D. Effective teaching methods. Upper Saddle River, 1996.
3. Devine, Thomas G. Teaching studies skills. Boston, 1987.

М.Г.Ибрагимова

Эффективные способы обучения иностранному языку

Резюме

Человек, который приобретает иностранный язык, сможет перейти непосредственно на международную арену, передать свои национальные ценности и достижения людям и обменяться идеями и опытом с ними на этом языке. Общение с разными культурами с помощью иностранного языка, знакомство с новыми культурами играет важную роль в становлении студента как первоклассного гражданина, творческого и критического мыслителя.

Повышение эффективности обучения иностранным языкам является одной из основных целей современной системы обучения. Интенсификация обучения иностранному языку требует регулярного использования современной методики преподавания и технологического оборудования - компьютерной, аудио- и видео- техники, электронных ресурсов.

M.H.Ibrahimova

Effective ways of learning a foreign language

Summary

A person who gains a foreign language will be able to go directly to the international arena, to convey his / her national values and achievements to his / her people and exchange ideas and

experiences with them in that language. Communicating with different cultures through a foreign language, acquaintance with new cultures plays an important role in educating the student as a high-class citizen, creative and critical thinker.

Increasing the effectiveness of learning foreign languages is one of the main objectives of the modern teaching system. Intensification of foreign language learning requires regular use of modern teaching methodology and technological equipment - computer, audio and video equipment, electronic resources.

Rəyçi: filol.e.n., dos. R.V.Məmmədova

Redaksiyaya daxil olub: 05.07.2017

A.F.KAZIMOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İKT-nin "İŞGÜZAR İNGİLİS DİLİ"nin TƏDRİSİNDƏ ROLU

Açar sözlər: *informasiya-kommunikasiya texnologiyaları, işgüzar ingilis dili, təhsil, informasiya cəmiyyəti*

Ключевые слова: *информационно-коммуникационные технологии, деловой английский, обучение, информационное общество*

Key words: *information and communication technologies, business English, training, information society*

İnformasiya cəmiyyətinin formalaşmasında dövlətin rolu kimi elm, təhsil və mədəniyyətin sürətli inkişafı, elmtutumlu informasiya və telekommunikasiya texnologiyaları məhsullarının yaradılması və istehsalı üçün əlverişli şəraitin formalaşdırılması öz əksini tapıb. Təhsilli gənc nəslin yetişdirilməsi, onların müasir texnologiyaların fəal istifadəçiləri, yaradıcıları kimi formalaşması, İKT-nin təhsil prosesinin bütün mərhələlərinə inteqrasiyası ilə informasiya cəmiyyətinin tələblərinə uyğun müasir təhsil sisteminin qurulması, rəqəmli təhsil informasiya ehtiyatlarının yaradılması, müəllimlərin kompüter biliklərinin artırılması, e-təhsil və distant təhsil sisteminin müasir tələblərə uyğun inkişaf etdirilməsi, xüsusi qayğı tələb olunan sosial qruplar da nəzərə alınmaqla, fasiləsiz təhsil konsepsiyasının formalaşdırılması və inkişaf etdirilməsi e-təhsilin əsas məqsədlərindəndir. Bu istiqamətin məqsədlərinə çatmaq üçün milli təhsil şəbəkəsinin inkişaf etdirilməsi və bütün ümumi təhsil müəssisələrinin etibarlı, təhlükəsiz genişzolaqlı şəbəkəyə qoşulmasının təmin olunması nəzərdə tutulur. Burada, həmçinin təhsilin resurs mərkəzinin və təhsil prosesini dəstəkləyən elektron tədris vasitələrinin inkişaf etdirilməsi, bütün təhsil pillələri üçün informatikanın tədrisinin keyfiyyətinin artırılması və dərs vəsaitlərinin texnoloji inkişafa uyğun müasirləşdirilməsi, mərkəzləşdirilmiş virtual tədris platformasının yaradılması və təhsilin idarə olunması sisteminin inkişaf etdirilməsi, təhsildə İKT-nin səmərəli istifadəsinin təşkili də öz əksini tapıb (6).

İKT yarandığı tarixdən müasir təkmilləşmə dövrünə qədər müxtəlif metodoloji əsaslarla xarici dil dərslərində tətbiq edilmişdir. Belə ki, XX əsrin 40-cı illərində Amerika alimləri C.F.Neyman, Q.Qoldşteyn və A.Beris tərəfindən müasir kompüte-rin əsas prinsipləri müəyyən olunmuş və bu prinsiplər 1946-cı ildə ABŞ-da ENİAK adlı universal kömpüterin yaradılması ilə həyata keçirilmişdir. Məhz həmin tarix də müasir İKT-nin yaranma tarixi hesab edilir. Elə həmin vaxtdan da başlayaraq, İKT yüksək sürətlə inkişaf etməyə və elmin və sənayenin bütün sahələrində, eləcə də xarici dil dərslərində tətbiq olunmağa başlamışdır (4, s.93).

Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramında isə cəmiyyətin bütün təbəqələrinin İKT-dən istifadə imkanlarının genişləndirilməsi, bilik və bacarıqlarının yüksəldilməsi və yeni texnologiyalara inamın artırılması öz əksini tapıb. Gözlənilən nəticələrə gəldikdə isə göstərilir ki, təhsilin bütün pillələrində İKT-nin tətbiqi və ondan istifadə genişləndiriləcək (2). Bu gün ölkəmizdə müəllimlər İKT-nin imkanlarından yararlanaraq, onun təhsil sistemində tətbiqinə nail ola bilər. Hansı fənnin tədrisindən asılı olmayaraq, müəllimlərin İKT-nin imkanlarından geniş istifadə etdikləri göz önündədir. Müasir dövrdə xarici dillərin tədrisini daha effektiv etmək üçün onu İKT-siz təsəvvür etmək qeyri-mümükündür. Hazırki dövrdə təlim prosesində İKT-nin bütün vasitələrindən istifadəyə cəhd edilir və bu da təqdirə layiqdir. İngilis dili dərslərində İKT-nin tətbiqinin əsas məqsədi orta məktəblərlə yanaşı ali məktəblərdə də İKT-ni tətbiq etməklə tədris prosesini xeyli canlandırmaq, təhsilin və biliyin səviyyəsini artırmaq, dərsləri dil öyrənənlər üçün daha maraqlı və başa düşülən

etmək, təhsildə idarəetmə sisteminin effektivliyini və şəffaflığını artırmaq, məktəbin vahid informasiya məkanını yaratmaq, müəllim və tələbə arasında rahat ünsiyyət forması qurmaqdır (1).

Müasir dövrdə texnologiyada baş verən sürətli inkişaf, ali təhsilin–kurrikulumu daxilində "İşgüzar İngilis Dili" ilə İKT arasında olan əlaqə müzakirə mövzusuna çevrilmişdir. Bu baxımdan İKT-nin "İşgüzar İngilis Dili"-ni öyrətmə və öyrənmə prosesinə interqrasiyası müəllim və tələbəni dünya miqyasında biliklərini nümayiş etdirməyə imkan yaradır. Hətta İKT barədə belə deyimlər var ki, "İKT-də öyrənmə mühitinin təbiəti və prosesini yeni öyrənmə mədəniyyətinə çevirmək potensialı vardır". İKT-nin "İşgüzar İngilis Dili"-nin öyrənilməsinə və öyrədilməsinə əhəmiyyətli dərəcədə təsiri var. İşgüzar ingilis dili əsasən biznes karyeraları üçün hazırlaşan professional insanlara və tələbələrə ingilis dilinin öyrədilməsini əhatə edir. Ümumilikdə, tələbələr və dil öyrənənlər biznes haqqında məlumatı daha çox kitablardan əldə edirlər. Nəticədə bu yolla qazanılan bilik tam olmur və təcrübi bilikdən daha çox nəzəri bilik əhəmiyyəti kəsb edir. Nəzəri biliklərə yiyələnən tələbələr real həyatda baş verən biznes situasiyalarında ünsiyyətin qurulması üzrə kommunikasiya bacarıqlarına malik olmurlar. Bu problemin aradan qaldırılması üçün işgüzar ingilis dili dərslərində effektiv strategiyanı və praktik yanaşmaları birgə şəkildə tətbiq etmək zəruridir. Bunlardan birincisi "autentik", "Framevork" və "tailor-made" materialları birləşdirmək, simulyasiya ilə biznes bacarıqlarını inkişaf etdirmək və İKT texnologiyasından istifadə etməkdir. Biznes ingilis dilinin tədrisi biznesin və dilin öyrədilməsindən daha artığı, ünsiyyətin autentik kontekstdə öyrədilməsidir.

"İşgüzar İngilis Dili"-nin tədrisində kompyuterdən təlimat materiallarını (dril) məşq və təcrübə vasitəsilə öyrənçilərə ötürən mexanizm kimi istifadə olunur və bir vasitə kimi kompyuterə anlama aləti, qrammatik yoxlama vasitəsilə dildən istifadə olunması üsulu, işçi stolun redaktə proqramları kimi istinad olunur. Bütün bu addımlar "komputer əsaslı dil öyrənməyə" aiddir və bu da dünyada "CALL" (Computer Assisted Language Learning) proqramı adı altında geniş yayılmışdır. Dilin öyrədil-məsi üçün istifadə olunan kompyuter əsaslı materiallar "Kompyuter əsaslı dil öyrənilməsi" adı altında 1980-cı ildə meydana gəlmişdir. Bundan əlavə dil öyrənmək üçün, "Windovs messenger", "email", "internet" və digər xüsusi və adi güclü dilöyrənmə proqramını yaratmaq üçün effektiv pedaqogikanın istifadə olunmasında əməkdaşlıq edə bilər. Bu yalnız tələbələrin 4 dil bacarıqlarından danışıq, oxu, yazı, və habelə tənqidi düşüncənin formalaşmasına kömək etmir, habelə bu fənni stimullaşdırır. "İşgüzar İngilis Dili"-nin tədrisində İKT-dən danışan zaman interneti yaddan çıxartmayaq. İnternet biznes ingilis dili müəllimləri və tələbələri üçün faydalı mənbədir. İnternet tələbələri autentik və müasir materiallarla təmin edərək dərsləri zənginləşdirə bilər. "İşgüzar İngilis Dili"dərslərində İKT-dən istifadə ətraf dünyanı auditoriyaya gətirmək və beləliklə, tələbələrə gələcəkdə real biznes dünyasında lazım olacaq bacarıqlara yiyələnmək istiqamətində autentik məzmun yaradır. "İşgüzar İngilis Dili" müəllimləri və tələbələri üçün çox sayda e-learning mənbələri vardır. Biznes müəllimləri üçün daha səmərəli linklərdən istifadə oluna bilər. Axtarışa "biznes" sözünü daxil edən kimi gələcək istifadə üçün təqribən bizneslə əlaqədar bütün mövzular təqdim olunur. www.bized.ac.uk veb-saytı isə müəllim və tələbələri müasir biznes nəşrlərinə əsaslanan interaktiv fəaliyyət növləri ilə təmin edir. Bu fənnin tədrisi zamanı hər bir müəllimin və tələbənin istifadə edə biləcəyi bir neçə vebsaytı nəzərdən keçirək.

www.britishcouncil.org/azerbaijan, http://www.iearn.org, http://www.tigweb.org/classroom2.0com, http://www.teachchildrenesl.com, http:/www.epals.com/,esl.about.com, http://www.englishclub.com/teach-english.htm, http://community.tes.co.uk, http://amerenglish.tripod.com, http://www.ucl.ac.uk, http://www.pulitzercenter.org, www.besig.org və s. (6; 7)

"İşgüzar İngilis Dili"-nin tədrisində İKT-dən istifadə mətnin tədqiq edilməsinə böyük imkan verir, öyrətmənin də özünün çoxlu mənfəəti vardır. Veb səhifələrinin yaradılması və

istifadəsi mətnin, tələbənin və müəllimin birgə səylərini cəlb edir. Belə kompleks öyrənmə yalnız mətnin öyrənilməsində deyil, habelə tələbənin mətn haqqında bilgisinin təkrar yoxlanılmasının təminatında da çox effektlidir.

Əsas dil öyrənmə bacarıqları aşağıda qeyd olunan hallarda öyrədilə bilər:

1. Dinləmə və müşahidə bacarıqlarını möhkəmləndirmək üçün audio/video kliplər;

2. Tələbənin dərk etmə bacarığını yaxşılaşdırmaq üçün interaktiv testlər (quiz);

3.Tələbənin yazı bacarıqlarını inkişaf etdirmək üçün şəkilli dərk etmə tapşırıqları;

4. Öyrədilən mövzu ilə əlaqədar olan filmlərin ekranda göstərilməsi öyrənənlərə audio-vizual imkanlar verir və onların analitik bacarıqlarını inkişaf etdirir;

5. İKT zaman və məkan çərçivəsindən kənara çıxmağa, coğrafi məsafələrin yaratdığı məhdudiyyətləri kənarlaşdırmağa, real həmsöhbətlərlə onları maraqlandıran aktual mövzular ətrafında autentik ünsiyyət qurmağa imkan yaradır. Real ünsiyyət müxtəlif formalardan istifadə etməklə sinxron və asinxron rejimdə yaradıla bilər.

İKT-nin tətbiqi ilə keçilən müasir "İşgüzar İngilis Dili" dərsləri ənənəvi dərslərdən bir çox üstün cəhətləri ilə fərqlənir. Ənənəvi dərsdə təlim "müəllim-dərslik-tələbə" ardıcıllığı ilə qurulurdusa, müasir dərsdə "tələbə-dərslik-müəllim" ardıcıllığı üstünlük təşkil edir və tələbələrin hərtərəfli inkişafı təmin edilir. Müasir dərsdə əvvəldə qoyulan problem sonda oz həllini tapır və gözlənilən nəticə alınır. Müasir dərs şəxsiyyətyönümlü olur və onda dərsdə tədqiqat və inkişafetdiricilik əsas amil kimi önə çəkilir.

Tələbələr ünsiyyət prosesində özünü daha yaxşı dərk etdiyinə görə istər qrup, istərsə də cütlərlə işdə fəallıq, şagirdlərin fəaliyyətində bir-biri ilə əməkdaşlıq, yaradıcılıq, qarşılıqlı münasibətlər formalaşır. Müəllim texnologiyalı dərs formasını seçərkən "İşgüzar İngilis Dili" sahəsi ilə bağlı tələbələrin marağını nəzərə almalıdır. Bu gün auditoriyadan kənar mühitdə mövcud informasiya vasitələrindən fəal istifadə edən tələbələr dərsdə onlar üçün maraqlı olanları görmək istəyir. Bunun üçün müəllimin İKT-dən yüksək istifadə etmək bacarığı olmalıdır. Həm də bu texniki təminatı lazımi materiallarla zənginləşdirməyi bacarmalıdır. İKT vasitələri təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir (4).

Dərslər zamanı hər bir İKT vasitəsindən istifadə fərqli ola bilər. İKT-nin təlimdə istifadəsini tədqiq edən U.Hadad və A.Draksler təhsildə onun 5 növünün olduğunu göstərmişdir:

1. təqdimat (presentation); 2. nümayiş (demonstration); 3. tapşırıq və təcrübə (drill and practice); 4. qarşılıqlı təsir (interaction); 5. birgə iştirak və ya əməkdaşlıq (collaboration) (5, s.126).

İKT vasitəsilə qeyri-ixtisas fakültələrində "İşgüzar İngilis Dili"nin öyrənilməsi proqrama daxil olan mövzuların geniş şəkildə öyrənilməsi deməkdir. Bura aşağıdakılar daxildir: (4, s.92).

- Prezentasiya və demonstrasiyadan istifadə edərək biznes sahəsi ilə bağlı məlumatların manipulyasiyası.

- Silebusa və ya proqrama daxil olan əlavələrdən istifadə. Məsələn, "İşgüzar İngilis Dili" kursuna daxil olan mövzular və ya sahələrlə bağlı, tapşırıq və təcrübə (drill and practice), simulyasiyalar, tyutoriallar (konsultantlar), virtual konfranslar, tok-şoular, vizuallaşdırmalar, expertlərin fikirləri və s.

- CD-ROM–da, flash-card-da olan və ya online informasiya və resursların istifadəsi. Məsələn, ensiklopediyalar, elektron jurnallar, müxtəlif məlumat bazalarında "İşgüzar İngilis Dili" sahəsi ilə bağlı məqalələr/yazılar və digər istinadlar (3).

Qeyd edilənlərdən savayı, **YOUTUBE** vasitəsilə peşəkar müəllimlər tərəfindən keçirilən dərslərin (tutorial) izlənilməsini və daha sonra təhlilini aparmaq da mümkündür. Bundan başqa, internetin bizə verdiyi digər kommunikasiya texnologiyası növü olan **Skype** vasitəsilə də şirkətlər arasında işgüzar danışıqlar aparmaq, virtual olaraq bəzi məsələləri həll etmək və danışıqları izləyib təhlil etmək mümükündür (5).

Yekun olaraq onu qeyd etmək lazımdır ki, qeyri-ixtisas fakültələrində "İşgüzar İngilis Dili"nin tədrisi zamanı qeyd edilən vasitələrdən tam olaraq bəhrələnilmir. Yalnız müxtəlif

mətnlərin, müqavilələrin, e-mail yazışmalarının və əsasən də, mövzu ilə bağlı tapşırıqların axtarılmasında İKT-dən (internet vasitəsilə) istifadə edilir (2). Bu fənnin tədrisində slaydlardan, **Skype** vasitəsilə danışıqlar aparılmasından və **Youtube** vasitəsilə dərslərin izlənməsi və təhlili aparıla bilər ki, bütün bunlar da qeyri-ixtisas fakültələrində "İşgüzar İngilis Dili"nin tədrisinin keyfiyyətinə müsbət təsir edə bilər. İnternetin verdiyi imkanlar arasında distant təhsil imkanını da vurğulamaq lazımdır və bizə internet vasitəsilə xarici dövlətlərdəki univeristetlərin təklif etdiyi biznes kurslarını da "online" (canlı) olaraq bitirmək şansını dəyərləndirmək yaxşı olardı (6).

Göründüyü kimi, yaşadığımız XXI əsrdə İKT-nin bizə verdiyi imkanlardan istifadə edərək təkcə "İşgüzar İngilis Dili"ni deyil, eləcə də digər sahələrə dair məlumatlar əldə etmək və bilikləri zənginləşdirmək tam mümükündür. İKT vasitəsilə keçirilən dərs prosesində tələbənin subyekt olması təmin edilir, müəllim, əsasən, tələbəni köməkçisi, məsləhətçisi, onun fərasətini bilik və bacarıqlarını qiymətləndirən, tələbəni aktivliyə, müstəqilliyə, təşəbbüskarlığa həvəsləndirən şəxs rolunda çıxış edir. Əlbəttə, bütün bu yeniliklərin məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsi, bu halda isə "İşgüzar İngilis Dili" tədrisinin keyfiyyətinin yüksəldilməsi, ölkəmizin gələcək inkişaf və tərəqqisini təmin edəcək yüksək intellektual səviyyəli, elmi dünyagörüşlü, müstəqil düşünmək və yaradıcı fəaliyyət göstərmək qabiliyyətinə malik olan yüksək kompetensiyalı gənc nəslin yetişdirilməsindən ibarətdir. Bundan ötrü müasir dünyanın şəxsiyyətyönümlü təhsil sferasına daxil olmaq, tələbatlara uyğun interaktiv məzmun, ən yeni təlim strategiyaları, qiymətləndirmə mexanizmləri, demokratik idarəetmə sistemi işləyib hazırlamaq üçün mütərəqqi dünya texnologiyalarından istifadə zəruridir.

Ədəbiyyat

1. Mehrabov A.O., Abbasov A.N., Mahmudov M.C. Təhsilin modernləşdirilməsinin aktual problemləri. Bakı: Mütərcim, 2013, 412 s.

2. Mehrabov A.O., Abbasov Ə.M., Zeynalov Z.Z., Həsənov R. Pedaqoji texno-logiyalar. Bakı: Mütərcim, 2006, 372 s.

3. Abrudan, Cristina Laura. New Trends in Teaching and Learning Business English: 2012.

4. Comfort J. and Brieger N. Business English Meetings: Instant Agendas. London: Penguin Books. 1998.

5. Jendrych E. New Approach to Teaching English for Business Communication. 2011.

6. http://www.businessenglishresources.com/

7.https://www.scribd.com/doc/136882306/How-to-Teach-Business-English-Evan-Frendo

А.Ф.Казымова

Использование информационно-коммуникационных технологий в обучении деловому английскому

Резюме

В статье раскрывается роль ИКТ в обучении «деловому английскому». В 40-х годах XX века американские ученые Дж. Ньюман, Г.Голдстейн и А.Берис определили основные принципы компьютера и в 1946 году (эта дата считается датой создания информационно-коммуникационных технологий) эти принципы были выдвинуты созданием универсального компьютера ENIAK.

В обучении «деловому английскому» программы «CALL», «WINDOWS» «email» «Internet», «YouTube», «Skype» (средства информационно-коммуникационных технологий, с помощью которых проводятся бизнес-переговоры, обсуждение на уроке; возможен просмотр уроков профессиональных учителей всего мира, анализ просмотренного), некоторые другие программы, CD, флеш-карты, ресурсы и информация в сети, энциклопедии, электронные журналы, статьи могут быть весьма полезно использованными для более эффективного обучающего процесса. Всем вышесказанным не следует пренебрегать, т.к. они являются весьма полезными ресурсами, как для педагога, так и для студента.

A.F.Kazimova

Use of ICT in the teaching of "Business English"

Summary

The article deals with the role of ICT in teaching "Business English". In the 40th of XX century American scientists J.Newman, G.Goldstain and A.Beris defined main principles of computer and in 1946 (this date is considered the creation date of ICT) in the USA these principles were carried out by creating the universal computer ENIAK. In teaching "Business English", CALL program,"Windows messenger", "email", "internet", YOUTUBE/Skype (which are means of ICT given to us by the internet to hold business negotiations, to discuss them in class; to follow the tutorials of professional teachers around the world, later to analyse them), some other special programs CD-ROM, flash-cards, online information and resources, encyclopaedias, electronic journals, articles/written materials in different databases can be very helpful in learning process and be used to make teaching process more effective. In teaching "Business English" all the above-mentioned shouldn't be forgotten, since they are very beneficial sources both for teachers and students.

Rəyçi: filol.f.d., dos. A.X.Ramazanova

Redaksiyaya daxil olub: 17.07.2017

E.MƏMMƏDOVA
pedaqogika üzrə fəlsəfə doktoru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

AZƏRBAYCANDA PEDAQOJİ FİKRİN İNKİŞAFINDA "MÜƏLLİMƏ KÖMƏK" JURNALININ ROLU

Açar sözlər: *pedaqoji nəzəriyyə, aparıcı pedaqoqlar, klassik pedaqogika, didaktik görüşlər, didaktik prinsiplər.*
Ключевые слова: *педагогическая теория, ведущие педагоги, классическая педагогика, дидактические взгляды, дидактические принципы.*
Key words: *pedagogical theory, leading teachers, classical pedagogy, didactic views, didactic principles.*

Məqalədə "Azərbaycan məktəbi"nin ikinci sələfi olan "Müəllimə kömək"də (1930-1941) pedaqoji fikrin inkişafına yardımçı olan məsələlərdən, jurnalın bu istiqamətdə gördüyü işlərdən bəhs edilir. Jurnalda Azərbaycan alimlərinin ayrı-ayrı pedaqoji problemlərə dair fikirlərinə, o cümlədən Azərbaycan pedaqoqlarının Qərb, rus pedaqoji elminə dair tədqiqlərinə geniş yer verilmişdir. Bu baxımdan Y.A. Komenski, J.J. Russo, A.Disterverq, K.D.Uşinski, R.Ouen, H.Pestalossi və başqa pedaqoqlara həsr olunmuş məqalələr oxucularda jurnala maraq doğururdu. Klassiklərin tanıdılması sahəsindəki işlər sonralar "Azərbaycan məktəbi"ndə də davam etdirilmişdir.

Azərbaycanda pedaqoji fikrin inkişafında "Müəllimə kömək" jurnalının xüsusi xidmətləri vardır. 1930-cu ildən "Yeni məktəb" jurnalının davamı kimi nəşrə başlayan "Müəllimə kömək" pedaqogika elminin inkişafının mürəkkəb bir dövründə meydana çıxmışdır. Ona görə də onun qarşısında çox məsul vəzifələr dururdu.

"20-ci illərdə yeni pedaqogika elmini yaratmaq məsələsi ortaya çıxanda, təmamilə aydın oldu ki, klassik pedaqoji irsin ən yaxşı ənənələrin mənimsəmədən, zəngin tərbiyə sistemi, son dərəcədə yüksək fəlsəfi dəyərləri və aydın didaktik istiqaməti olan pedaqoji fikir tarixinin, mütərəqqi dünya pedaqoji fikrinin nailiyyətlərini nəzərə almdan qarşıya qoyulmuş məqsədə yol almaq olmaz. Çünki yeni pedaqoji fikrin inkişaf istiqamətləri bu məsələlərin obyektiv elmi həllindən çox asılı idi. Yeni dövrun pedaqoji elmi keçmişin mütərəqqi irsi ilə orijinal fkirlərinin sintezindən yarana bilərdi".

"Müəllimə kömək" məcmuəsində əsasən müəllimlərə metodiki göstərişlər verilirdi, burdakı məqalələr də məzmunca metodiki xarakter daşıyırdı. Bunun da səbəbi aydın idi. Metodik məcmuənin məqsədi, məramı barədə jurnalın 1930-cu il 1-ci sayında deyilirdi: "Maarif Komissarlığı metod sektoru həmin metodik məcmuəni çıxarmağa qərar vermiş. Məqsəd müəllimlərə gündəlik məktəb işləri haqqında praktik yardım verməkdir, bunun üçün məcmuənin adı "Müəllimə kömək" qoyulmuşdur".

Ölkəmizdə pedaqogika elmimizin inkişafı ilə əlaqədər 1938-ci ildən jurnalın məqsəd və məramı bir qədər dəyişdirilərək pedaqoji təmayül gücləndirilmişdir. "Müəllimə kömək" jurnalı respublikamızda müəllimlər üçün Azərbaycan dilində yeganə elmi-pedaqoji və metodiki jurnal olduğu üçün məktəbdə təlim-tərbiyənin müvafiq qərarlar əsasında getməsi, məktəbdə nüfuzlu intizamın yüksəlməsi və tədris keyfiyyətinin yüksəlməsi, müəllimlərin ümumi hazırlığının, pedaqoji ustalıqlarının yüksəldilməsi məsələlərindən yazmaq onun üzərinə düşmüşdü. Jurnalda elmi pedaqoji, pedaqoji ustalıq terminləri daha qabarıq şəkildə səslənir, demək olar ki, tanınmış pedaqoqlar haqqında ardıcıl şəkildə məqalələr dərc olunurdu.

"Məcmuə oxucuların diqqətini ona cəlb edirdi ki, onlar jurnala tərbiyə məsələlərindən, pedaqoji-psixoloji məsələlərdən, ümumi didaktik və metodiki məsələlərdən, ana dili və ədəbiyyat dərsləri metodikasından, hesabdan, fizikadan və riyaziyyatdan metodik materiallar, təbiət və coğrafiya dərslərindən, tarix dərslərindən, sinifdənxaric işlərdən, məktəbə rəhbərlik və təşkilati işlərdən məqalələr yazsınlar".

"Müəllimə kömək" jurnalının fəaliyyətə başladığı illər pedaqogika elmimizin nəzəri nailiyyətlər qazandığı illər kimi də xatırlanır. Prof. Ə.Ağayevin sözləri ilə desək, jurnal o illərdə pedaqoji cəbhənin ən sayıq əsgəri kimi həmin vəzifələrin yerinə yetirilməsinə ləyaqətlə xidmət etmişdir. Jurnal azərbaycanlı alimlərin, müəllimlərin, metodistlərin orijinal məqalələri ilə yanaşı, görkəmli rus pedaqoqlarının əsərlərindən tərcümələri də çap edib azərbaycanlı oxuculara çatdırmışdır. Azərbaycan məktəblərinin iş təcrübəsi jurnalda ümumiləşdirilmiş, yayılmışdır" (Azərbaycan məktəbi, 1976, №10).

Bir fakt da aydındır ki, o dövrdəki dissertasiyaların böyük əksəriyyəti Azərbaycan pedaqoji fikir tarixinə həsr olunmuşdur. Bu sahədə Ə.Seyidovun cəsarətli təşəbbüsündən sonra Azərbaycan alimləri "M.Ə.Sabirin pedaqoji görüşləri", "M.F.Axundovun maarif və pedaqoji görüşləri", "A.Şaiqin pedaqoji görüşləri", "F.Ağazadənin pedaqoji fəaliyyəti və görüşləri", "M.T.Sidqinin pedaqoji fəaliyyəti və görüşləri" və başqa mövzularda araşdırmalar aparılmışdır. Bununla da Azərbaycan pedaqoji fikir tarixinə dair yeni materiallar üzə çıxarılmış və tədqiq obyektinə çevrilmişdir. Bunlarla yanaşı də azərbaycanlı oxucular dünya pedaqoq alimlərinin də irsi ilə məhz bu jurnal vasitəsilə tanış olurdular. Ölkədə pedaqoji tədqiqatların genişlənməsi jurnalın da işinə müsbət təsir göstərirdi.

Azərbaycanda pedaqoji fikir tarixinin ardıcıl öyrənilməsi məhz bu zamandan sonra sistemli şəklə düşmüşdür. Məhz "Müəllimə kömək", ondan sonra "Azərbaycan məktəbi"ndə çap olunan pedaqoji aspektli məqalələrin təsiri idi ki, 40-60-cı illərdə pedaqogikanın nəzəri məsələləri, pedaqoji tədqiqatların, maarif və pedaqoji fikir tarixinin, təlim-tərbiyənin müxtəlif məsələlərini əhatə edən elmi tədqiqatlar Azərbaycan pedaqoji fikrini zənginləşdirirdi. Pedaqoji mətbuatın köməyi ilə Azərbaycanda pedaqoji elmlərin daşıyıcıları yetişirdi.

Bütün bunlar onun nəticəsi idi ki, "Müəllimə kömək"də, xüsusən onun 1938-1941-ci illərdə nəşr olunan nömrələrində görkəmli pedaqoqların, maarif xadimlərinin irsi təbliğ olunur, Azərbaycan pedaqoji fikrinin tanınmış nümayəndələrinin irsinin araşdırılması, pedaqogikanın bir elm kimi formalaşması prosesini sürətləndirirdi.

"Müəllimə kömək" jurnalının qoyduğu ənənələr 1943-cü ildən nəşrə başlayan "Azərbaycan məktəbi" üçün yaşıl işıq yandırdı. "Müəllimə kömək"də yazılar dərc etdirən pedaqoqlarımız "Azərbaycan məktəbi"nin fəal müəllifləri və həm də redaksiya heyətinin üzvü oldular.

Qeyd etmək lazımdır ki, indiki dövrdə tədqiqatçılar sovet dövründəki pedaqoji fikirləri təhlil edərkən onu hərtərəfli dəyərləndirməli, alt və üst qatları bütövlükdə görməlidir. Bu elmi-pedaqoji məqalələri sovet pedaqogikası düşüncəsindən gələn yanaşmalarla təqdim etmək düzgün hal ola bilməz. Belə hallar pedaqoji fikrin formalaşması istiqamətlərinin qiymətləndirilməsinə mane olar. Belə əsərlər dövrün ideologiyasına tabe tutulmuş münasibət bəsləmək olmaz. Jurnalda bu məsələlərə hakim ideologiya baxımından yanaşılsa da yenə də pedaqogikanın ana xətti qorunub saxlanmışdır. Artıq məcmuədə dünya və klassik rus pedaqoqlarının fəaliyyətindən bəhs edən məqalələr bitkin əsər təsiri bağışlayırdı. Bu məqsədlə məcmuədə "Jan Jak Russo" (1939, №7), "Adolf Disterverq və onun didaktikası" (1938, №7), "Robert Oyen və fəhlə sinfi uşaqlarının məktəbəqədər ictimai tərbiyəsi" (1938, №7), "Yan Amos Komenskinin didaktik prinsipləri barədə" (1938, №2-3), "İ.F.Herbartın didaktik görüşləri" (1938, №10-11), "Henrix Pestalossi və onun didaktik təlimi" (1938, №5-6), "K.D.Uşinskinin pedaqoji görüşləri", "Uşinskinin didaktik görüşləri" (1939, №5-6 və 7-8), "A.S.Makarenkonun yaradıcılıq yolu" (1940, №11-12), "Makarenkonun pedaqoji sistemasında uşaq kollektivi" (1940, №11-12), "Makarenko və fiziki tərbiyə" (yenə orada) kimi çox dəyərli yazılar dərc olunmuşdur.

XVIII əsr fransız "maarifçilik" hərəkatının ən görkəmli nümayəndəsi, filosof, yazıçı, ensiklopediyanın yaradıcılarından biri olan Jan Jak Russo (1712-1788) həm də çox bacarıqlı pedaqoq kimi tanınmışdır. O, "İctimai müqavilə", "Yeni Eloiza", "Dalamberə məktub", "Emil və ya tərbiyə haqqında" kimi dünyaca məşhur əsərlərin müəllifidir. Russo təbii hüquq, təbii tərbiyə və təbii dil nəzəriyyəsini irəli sürmüşdür. Russoya görə, uşağın tərbiyəsi təbiətə uyğun olmalıdır. Göründüyü kimi, dünya pedaqogikasında öz yeri olan Russonun azərbaycanlı oxuculara tanıtdırılması "Müəllimə kömək" jurnalını düşündürmüşdür. "Jan Jak Russonun pedaqoji görüşləri" adlı məqalə də bunu sübut edir. Bu məqalədə J.J.Russonun həyatı, onun pedaqoji sistemi, fiziki tərbiyə, əmək təliminə dair baxışlar, dini tərbiyə məsələləri geniş təhlil olunmuş, Azərbaycan müəllimləri ilk dəfə dünya pedaqogikasının aparıcı nümayəndələrindən biri olan Russonun pedaqoji görüşləri barədə bir gədər geniş məlumatlandırılmışdır.

Russonun pedaqoji roman traktatı təhlil olunan bu məqalədə pedaqoji fikir tarixində Russonun uşaq haqqındakı görüşlərinin böyük əhəmiyyətə malik olduğu da vurğulanmışdır. O, uşağa hörmət etməyi tələb edir. Məqalədə xatırladılır ki, tərbiyə də uşağın azadlığını tələb edir. Russo deyir: "Uşağı yerimək istəyən zaman yerində durmağa və ya yerində durmaq istəyərkən yeriməyə məcbur etmək lazım deyildir".

Russonun fikrincə, "heç kəs, hətta atası belə uşağa, ona heç bir şey üçün lazım olmayan bir işi əmr etməyə haqlı deyildir". Russo uşağın bilik almasına da münasibət bildirmişdir. O deyirdi: "Qoy elmi əzbərləməsin, əksinə, fikirləşməyə çalışsın. Onun fikrincə, Emil kəndli kimi işləməli, filosof kimi düşünməlidir". Məqalədə Russo fikirlərinə tənqidi münasibət də öz yerini almışdır.Məqalə müəllifinin fikrincə, onun bəzi ideyalarında ziddiyyətlər vardır.Lakin yekun kimi o da deyilir ki, "vaxtı ilə Russonun bu fikirləri pedaqoji fikir və pedaqoji praktikaya bir yenilik gətirmişdir. Russonun pedaqoji görüşləri ilə "Müəllimə kömək"də tanış olan müəllimlərə o da tövsiyə edilirdi ki, böyük pedaqoqun, alimin görüşlərindən yaradıcılıqla istifadə edilməlidir.

"Müəllimə kömək" jurnalının elə 1938-ci il 7-ci nömrəsində Jan Jak Russonun vəfatı günündən 160 il keçməsi münasibətilə J.Davıdovun "Jan Jak Russo" adlı bir məqaləsi də dərc edilmişdir. Burada deyilirdi ki, Volterdən, Didrodan fərqli olaraq "Russo məhz müəllim idi, pedaqoq idi. O, ləyaqətli olmağı tələb edirdi və öz əxlaq qaydalarında amansız idi". O da qeyd edilirdi ki, Russonun "Emil və ya tərbiyə haqqında" əsərində söylədiyi pedaqoji fikirlərin öz zamanı üçün böyük proqressiv əhəmiyyəti vardı.

Məqalədə Russonun ideyalarının Koramzinə, Puşkinə, Lermontova, Lev Tolstoya təsir etdiyi də qeyd edilirdi. Sonra məqalədə Russo bəşəriyyətin mədəniyyətini zənginləşdirən, mütəfəkkir və mübariz kimi tanıdılırdı.

Pedaqogikanı müstəqil bir elm kimi əsaslandırmağa təşəbbüs edən klassik pedaqoq İohan Fridrix Herbartın didaktik görüşlərinə həsr edilmiş məqalə "Müəllimə kömək" jurnalının 1938-ci il 10 və 11-ci nömrəsində dərc edilmişdir. Məqalənin müəllifi bundan əvvəlki məqalənin də müəllifi olan prof. A.A.Krasnovski idi..

Herbartı klassik pedaqoqlar arasında müstəsna yer tutan, pedaqogikanın müstəqil bir elm kimi əsaslandırmağa təşəbbüs edən birinci filosof kimi təqdim edilirdi. Herbart müəllimin biliyinə və təfəkkür qüvvələrinə birinci dərəcəli əhəmiyyət verirdi. Məqalədə deyilir: "Herbart pedaqogikanı "didaktika" və "xarakterin əxlaqi tərbiyəsi haqqında təlimdən" ibarət başlıca hissəyə ayırır". Daha sonra deyilir: "Didaktikanın predmeti – xeyirxah adam tərbiyə etməkdən ibarət əsas vəzifəni yerinə yetirməyə doğru yönəlmiş təlim prosesidir". Tərbiyələndirici pedaqoji nəzəriyyə də Herbartın adı ilə bağlıdır. Nəhayət "Müəllimə kömək" uzun axtarışlardan sonra öz milli müəlliflərini tapırdı 1939-cu ilin 5-6 və 7-8-ci nömrələrində dalbadal tanınmış pedaqoq Əhməd Seyidovun böyük rus pedaqoqu U.D.Uşinskiyə həsr olunmuş məqalələri çap olundu. "Uşinskinin pedaqoji görüşləri" , "Uşinskinin didaktik görüşləri" adlı yazıları Azərbaycan pedaqogika elminin, Azərbaycan pedaqoji fikrinin ən sanballı yazıları idi. Rus pedaqoji məktəbinin, müasir pedaqogikanın banilərindən biri, yazıçı, jurnalist, maarifçi, Rusiyada

pedaqogika elminin və xalq məktəblərinin banisi hesab olunan K.D.Uşinskinin elmi-pedaqoji irsindən Azərbaycanda da faydalanılmış, pedaqoji tədqiqatlarda yeri gəldikcə ona istinad olunmuşdur. "Uşinskinin pedaqoji görüşləri" adlı məqalədə alimin həyatı haqqında məlumat verildikdən sonra 50-ci illərin axırlarında və 60-cı illərin əvvəllərində Uşinskinin bir-birinin ardınca yazdığı "Pedaqoji ədəbiyyatın faydası haqqında", "İctimai tərbiyədə xalqçılıq haqda", "Məktəbin üç ünsürü" və sairə məqalələrini çap etdirməsi haqqında məlumat verilir və bu məqalələrdə Uşinskinin yeni prinsiplər irəli sürdüyü vurğulanır, onun Qərbi Avropanın qabaqcıl metodları əsasında yazdığı "Uşaq dünyası" kitabından söz salınır.

Ə.Seyidov Uşinskinin pedaqoji görüşlərini, "Uşinskinin siyasi və fəlsəfi görüşləri", "Uşinskinin psixoloji görüşü", "Uşinskinin pedaqoji sistemi", "Uşinskinin əlifba təlimi haqqında fikri" bölmələri üzrə təhlil edir və diqqətini ən çox "Uşinskinin pedaqoji sistemi"bölməsində cəmləşdirir. O qeyd edir ki, haqlı olaraq Uşinskini "Rus pedaqogikasının atası" adlandırırlar. Öz vətənində pedaqoji ədəbiyyatın yoxluğundan şikayətlənən Uşinski tərbiyə sistemi üçün "pedaqoji ədəbiyyatı böyük bir vasitə" bilir. Tərbiyəni yüksək dərəcədə qiymətləndirən Uşinski insanı tərbiyə və təlimin elmi əsaslarını, prinsiplərini işləmişdir. Ə.Seyidov, Uşinskinin pedaqoji sistemində xüsusi bir yer tutan məsələlərdən birinin də ana dili olduğunu qeyd edir və göstərir ki, Uşinskini ana dilini yüksək dərəcədə qiymətləndirmiş və ona böyük əhəmiyyət vermişdir. O bu fikrini inkişaf etdirərək deyir ki, "Uşinski ana dilini ən böyük və ustad pedaqoq adlandırır". Uşinskinin əlifba təlimində indi də öz əhəmiyyətini itirməyən cəhətlər vardır. Onun "Vətən dili" dərsliyi sonralar azərbaycanlı müəllimlər üçün ən mötəbər mənbə olmuşdur. Azərbaycanda ilk məktəb dərsliyi də "Vətən dili" adlandırılmışdır.

Görkəmli Azərbaycan pedaqoqu Ə.Seyidovun "Müəllimə kömək"dəki ikinci məqaləsi "Uşinskinin didaktik görüşləri" adlanır.

Məqalə müəllifi bir qədər tarixə üz tutub yazır: "Uşinskinin didaktik görüşlərindəki əsas və qiymətli cəhətlərdən biri ümumi təhsilin ixtisas təhsilindən qabaq verilməsinin zəruri hesab edilməsidir. Uşinski bu tələblərində 60-cı illərin qabaqcıl pedaqoqları olan Piroqov, Pisaryev, Stojini və sairələri ilə birləşir. Lakin bu məsələnin düzgün həllinə gəldikdə Uşinski onların bəzilərindən daha irəli getmişdir".

Uşinskinin təlim haqqında fikirlərini geniş və düzgün təhlil edən Ə.Seyidov təlimə asan və əyləncə kimi baxanlarla razılaşmayaraq "Uşaqlara düşüncəlilik, vəzifə anlayışını verməyi zəruri hesab edir".

Uşinski didaktik göstərişlərində xüsusi yer tutan məsələlərdən biri kimi dərs və onun düzgün təşkili barədə metodiki göstərişlər və məsləhətlər verir və müəllimin dərsə yaxşı hazırlaşmasını əsas şərt sayır. Məqalədə Uşinskinin qrammatikanın tədrisi, savad təlimi və başqa məsələlərə dair tövsiyələri də vardır.

Məqalədə professor Ə.Seyidov Uşinskini dərin və ciddi öyrənməklə yanaşı onun bəzi fikirlərinə tənqidi münasibət bəsləməyi də unutmamışdır. Yenə də bu qərara gəlmişdir ki, böyük pedaqoq dövrün psixoloji və pedaqoji yeniliklərini dərindən izləmiş, əldə edilmiş elmi təcrübələrin təbliğinə də ardıcıl fikir vermişdir.

Azərbaycan pedaqoji fikri üçün tanış simalardan biri də elmi pedaqogikanın banisi, böyük çex pedaqoqu Yan Amos Komenski (1592-1670) olmuşdur. Onun adı hər bir bir azərbaycanlı pedaqoqa yaxşı tanış idi. Lakin Azərbaycan oxucusu bu böyük pedaqoq haqqında çox şey bilmirdi. Belə bir boşluğun doldurulmasında "Müəllimə kömək" jurnalının xüsusi rolu olmuşdur.

Azərbaycan oxucuları "Yan Amos Komenskinin didaktik prinsipləri barədə" məqaləni "Müəllimə kömək" jurnalının 1938-ci il 2-3-cü nömrəsində oxumuşdur. Çox geniş, 8 səhifəli bir məqalənin müəllifi M.Zaysev idi. Məqalə epiqraf kimi Komenskinin "Şagird tərəfindən bilinməsi lazım gələn bütün şeyləri, ona öyrətmək lazımdır",- sözləri seçilmişdi. Məqalə əsasən Komenskinin "Böyük didaktika" əsəri üzərində qurulmuşdu. Təlim-tərbiyənin məqsəd, üsul və vasitələrini yenidən tədqiq edən bu əsər həm məzmununa, həm də quruluşuna və hissələrinin qarşılıqlı münasibətinə görə pedaqoji fikrin ən dəyərli əsərlərindən biri hesab olunur.

Azərbaycan oxucusu ilk dəfə belə fikirlərə rast gəlirdi ki, didaktik maşını müəllim idarə etməlidir. Müəllim yalnız didaktik göstərişlərin sadəcə icraçısı kimi qalmır, onun fikirləri, müvəffəqiyyət başlıca olaraq metoddan və təlimin düzgün təşkil edilməsindən asılıldır.

"Müəllimə kömək"də dünya pedaqoqları haqqında məqalələrin çapı davam edirdi. "Robert Oyen və fəhlə sinfi uşaqlarının məktəbəqədər ictimai tərbiyəsi" (1938, №7) adlı məqalədə böyük utopik-sosialist, pedaqogika sahəsində böyük tarixi xidməti olan Robert Oyenin pedaqoji görüşlərindən, xüsusilə onun uşaqların ictimai tərbiyəsinə dair fikirləri və bunun praktikada tətbiqindən söhbət gedir. Məqalə müəllifi Y.Sivaşev öz fikrini Oyenin başlıca əsərləri: "Cəmiyyətə yeni baxış və ya xarakterin təşkil xülasələri", "Yeni mənəvi aləm", "Avtobioqrafiya (Robert Oyenin həyatı)", onun məqalələri, mühazirələri əsasında qurur. Müəllif qeyd edir ki, Robert Oyen gənc nəslin tərbiyəsi və təhsili sahəsində də öz zəmanəsinin qabağında getmişdir. O, inamla güman etmişdir ki, körpə yaşdan uşaqların ictimai tərbiyəsi uşaqlar üçün səmərəli olduğu kimi, ailə üçün də səmərəlidir. Həm də qeyd edirdi ki, "bütün insanlar, təbiətə görə, bərabər təhsil hüququna malikdirlər. O uşaqlar üçün yaslilər düzəltmişdir.

"Henrix Pestalossi və onun didaktik təlimi" məqaləsi "Müəllimə kömək" jurnalının 1938-ci il 5-6-cı nömrəsində çap olunmuşdur. S.Belausovun bu məqaləsi başlıca əsərləri "Linqord və Gertruda" (roman), "Gertruda öz uşaqlarını necə oxudur", "Elementar təhsil ideyasına aid olan görüşlər və təcrübələr", "Qugu nəğməsi" olan, bütün həyatını maarif işinə vermiş, çox vaxt son vəsaitini belə yaratmış olduğu pedaqogika müəssisəsinə verərək özü ac həyat keçirmiş bir dahi şəxsiyyətin həyat yolundan bəhs edir. Onun qəlbi daim uşaqlar üçün yanmış, bütün qüvvəsini və qabiliyyətini yeni pedaqogika ideyalarının işlənməsi və təbliğinə vermiş, ömrünün mənasını "Hər şey başqaları üçün və heç bir şey özün üçün sözlərini həyat devizi seçən böyük pedaqoq Henrix Pestalossidir (1746-1877)".

O erkən yaşlarından yüzlərlə kitab oxumuşdur. Russonun əsərləri ona güclü təsir göstərmişdir. Yoxsul kəndlilərlə birgə yaşayan Pestalossi özü də, arvadı da bütün günü işləyirdilər. O həddən artıq sadədil, tez inamcıl idi. Bu xasiyyətindən istifadə edərək onu tez-tez aldadırdılar. Lakin Pestalossi tanınmış şəxsiyyət kimi tanınırdı. O, Höte, Gerder, Qlopstoq və sairlərlə məktublaşırdı. Ona məsul vəzifə təklif edəndə o: "Mən müəllim olmaq istəyirəm",-demişdir. Məqalə müəllifi Pestalossinin pedaqoji işindəki uğurlarından da söhbət salır, o 1800-cü ildə İnstitut açır. Elə bu zaman öz didaktik kitabını bitirir. Onun arzusu idi ki, yoxsul uşaqlar oxusunlar.

"Müəllimə kömək" dünyanın məşhur pedaqoqları haqqında geniş məlumat verməyi davam etdirirdi. O, 1938-ci il 7-ci nömrədə çap olunan "Adolf Disterverq və onun didaktikası" məqaləsi də bu qəbildəndir. Məqalə müəllifi S.Belousov məqaləni "Disterverqlə biz niyə maraqlanırıq" sözləri ilə başlayır. O burada Disterverqin ibtidai məktəbdə tədris metodlarını yaxşılaşdırmaq, müəllimin rol və əhəmiyyətini yüksəltmək üçün çox işlər gördüyünü ön plana çəkir. Onu Pestalossinin ardıcılı adlandırır. Böyük pedaqoqun "Nemes müəllimləri üçün rəhbərlik" kitabını xatırladır və bu əsərin XIX əsrdə alman müəllimlərinin stolüstü kitabı olduğunu qeyd edir".

Məqalədə deyilirdi ki, Disterverqə görə tədris məqsədi insana təhsil verməkdir. Buradakı bəzi fikirlər bu gün necə də aktual səslənir: "Şagirdləri yalnız biliklərlə deyil, bacarıqlarla da silahlandır. Şagird öyrədiləni tamam mənimsəməyə qədər mümarisə etməyə məcbur et". Yaxud: "Tələsmə, predmetin əsaslarını öyrətmək üzərində çoxlu dayan", "Materialı elə bölüşdür ki, gələcək pillədə keçmişdəkilər yeni şəkildə təkrar olunsun".

Məqalədə Disterverq Pestalossinin ən parlaq və səmərəli ardıcılı kimi tanıdılır. Sonda Disterverqin xidmətləri belə qiymətləndirilir:"Disterverq öz vaxtında pedaqogikanın inkişafına və məktəbdə tədrisin yaxşılaşdırılmasına olduqca böyük təsir etmişdir. O, müəllimin kvalifikasiya və avtoritetinin yüksəlməsinə güclü yardım etmişdir. Onun didaktikasının bir xeyli hissəsi, təlim qaydalarının çoxusu və müəllimə verdiyi bir çox məsləhətləri indiyə qədər öz əhəmiyyətini itirməmişdir. Onların ciddi diqqət yetirilməyə, diqqətli surətdə analiz edilməyə və işimizdə ağıllı tərzdə istifadə olunmağa ləyaqəti vardır".

Azərbaycanda gənc pedaqoqların yetişdiyi, pedaqoji fikrimizin tədqiq olunduğu və öyrənildiyi bir zamanda Disterverqin təlim nəzəriyyəsi, pedaqoji fikirləri çox aktual görünürdü.

"Müəllimə kömək"də dünya pedaqoqları haqqında gedən məqalələr Azərbaycanda pedaqoji fikrin inkişafına müsbət təsir göstərirdi. Onlar haqqında Azərbaycan oxucuları ilk məlumatı "Müəllimə kömək"dən aldılar. Sonralar bu pedaqoqlar haqqında çox geniş şəkildə müxtəlif tədqiqatlar aparıldı, elmi fikir söyləndi. Yalnız bir faktı demək yerinə düşər ki, pedaqoji elmlər doktoru, professor Əhməd Seyidovun "Pedaqogika tarixi" kitabından "Müəllimə kömək"də haqlarında məqalələr yazılan Yan Amos Komenski, Jan Jak Russo, İ.H.Pestalossi, İ.F.Herbart, Adolf Disterverq, Robert Oyenə xüsusi fəsillər ayrılmışdır. Bu da təsdiq edir ki, "Müəllimə kömək" pedaqoji fikrin təbliği və yayılmasında düzgün istiqamət götürmüş, dünya pedaqoji fikrində dəyər statusu qazanmış nümayəndələr haqqında çox qiymətli məlumatlar verilmişdir. "Müəllimə kömək" və onun davamı olan "Azərbaycan məktəbi" belə məqalələri ilə Azərbaycanda pedaqoji fikrin formallaşmasına zəngin material vermiş, yeni pedaqoqlar nəslinin yetişməsinə mənəvi kömək göstərmişdir.

Ədəbiyyat

1. "Müəllimə kömək" jurnalı. 1930-1941-ci illər.
2. Seyidov Ə. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən. Bakı, 1987, 301 səh.
3. M.Mehdizadə Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr, Bakı, 1959.
4. Mehdizadə M. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. Bakı:Maarif, 1980, 274 səh.
5. Ağayev Ə. Seçilmiş əsərləri. 2 cilddə. 1-ci cild. Bakı: Mütərcim, 2011, 470 səh.
6. Əhmədov H. Azərbaycan məktəbi və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014, 432 səh.
7. Rüstəmov F. Azərbaycan pedaqogikaşünaslığı. Bakı, 2017, səh.888
8. Ağayev Ə., Rzayev V. Güney Qafqaz xalqlarının pedaqoji əlaqələri tarixindən. Bakı: Təhsil, 2004.
9. Əliyeva Z. "Azərbaycan məktəbi" jurnalı 60 ildə. Azərbaycan məktəbi, 1984, №7, səh. 19-23.
10. Ağayev Ə. "Azərbaycan məktəbi" 50 ildə. Azərbaycan məktəbi, 1976, №10, səh. 6-12.
11. Kazımov N. Pedaqoji fikrimizin güzgüsü. Azərbaycan məktəbi, 1976, №10, səh. 24-27.
12. Məmmədova E. "Azərbaycan məktəbi" jurnalının 2-ci sələfi. ADPU-nun "Xəbərləri" . 2017, №1, səh. 191-200.
13. Rüstəmov F. Pedaqoji oçerklər : sələflərim və müasirlərim. Bakı: Elm və təhsil, 2010, 344 s.

Э.Мамедова

Роль журнала «Муаллима комек» («Помощь учителю») в развитии педагогической мысли Азербайджана

Резюме

В статье рассматриваются статьи, которые способствовали развитию педагогических идей во втором предшественнике журнала «Азербайджан мектеби» – «Муаллима комек» (1930-1941). В журнале широко освещались мысли азербайджанских педагогов об индивидуальных педагогических проблемах, а также исследования азербайджанских педагогов по западным и российским педагогическим воззрениям. С этой точки зрения статьи, посвященные Ю.А. Коменскому, Ж.Ж.Руссо, А. Дистервергу, К. Д. Ушинскому, Р. Оуэну, Х. Пестолосси и другим преподавателям, вызывали у читателей интерес к журналу.

E.Mammadova

A role of magazine "Muallima Komek" in the development of the pedagogical thought of Azerbaijan

Summary

The article examines articles that contributed to the development of pedagogical ideas in the second predecessor of the "Azerbaijan mektebi" – "Muallima Komek" (1930-1941). The journal

widely covers the views of Azerbaijani teachers on individual pedagogical problems, as well as the studies of Azerbaijani teachers in Western and Russian pedagogical sciences. From this point of view, articles devoted to Yu.A. Komenski, J. Rousseau, A. Diesterwerg, K.D. Ushinski, R. Owen, H. Pestolossi and other teachers, evoked interest in the magazine from the readers.

Rəyçi: ped.e.d., prof. Ə.Ağayev

Redaksiyaya daxil olub: 15.09.2017

M.M.MƏMMƏDOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

Açar sözlər: *ünsiyyət, şifahi nitq, kontekst*
Ключевые слова: *коммуникация, устная речь, контекст*
Key words: *communication, oral speech, context*

İxtisas dilindən ünsiyyət məqsədilə istifadə etmək və bu sahədə mütəxəssislərin hazırlanması ali məktəblər, xüsusilə də ali ixtisas məktəblərinin qarşısında duran əsas vəzifədir. Bu gün ali təhsil qarşısında duran ən önəmli vəzifələrdən biri müasir dövrün tələblərinə uyğun olan xarici dil müəllimlərinin hazırlanmasıdır. Dil sahəsində mütəxəssislərin günün tələblərinə cavab verən şəkildə hazırlanması, xarici, o cümlədən, ingilis dili müəllimləri, tərcüməçi və dilçilərin yüksək peşə keyfiyyətlərinə yiyələnməsi bu gün mühüm əhəmiyyətə malikdir. Qloballaşma dövründə Azərbaycanın dünya dövlətləri ilə mədəni, siyasi, iqtisadi əlaqələrinin bərqərar olması ilə əlaqədar qlobal səviyyədə əsas ünsiyyət dili statusunu qazanmış ingilis dilini öyrənən insanların sayı günü-gündən artmaqdadır. Son zamanlara qədər bilik öyrətmə, yəni bilikli tələbə yetişdirmə müəllimin qarşısında qoyulmuş başlıca vəzifə hesab olunurdu. Müasir dövrdə isə biliyə münasibət tamamilə dəyişib. Çünki yaşadığımız yüksək texnologiyalar dövründə biliklər sürətlə köhnəlir, bacarıq və dəyərlər, kompetensiyalar isə öz əhəmiyyətini uzun illər boyu saxlayır. İndi biliklərdən istifadə etməyə – onların tətbiqinə daha çox önəm verilir. Ona görə də tələbələr daha çox gündəlik həyatda qarşılaşdıqları problemləri həll etməkdə, məsələlərə analitik yanaşmaqda, yaradıcı düşünməkdə yiyələndikləri biliklərdən istifadə bacarıqlarına malik olmalıdır. Bu gün yalnız bilikli deyil, daha çox müəyyən sahədə tənqidi təfəkkürə malik olan səriştəli mütəxəssislərin hazırlanmasından bəhs edilir. Göstərilən vəzifələri yerinə yetirmək üçün yeni metodiki iş üsulları və yanaşmalar işlənib hazırlanmalıdır. Bu prosesdə tələbələr müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yaddaqalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, düzgün nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər. Eyni zamanda, nəzərə almaq lazımdır ki, xarici dillərin tədrisində kommunikativ-funksional yanaşma önəmlidir və hər bir tələbənin fəal ünsiyyət prosesində iştirakı vacibdir. Müasir dünyada əsas ünsiyyət dili olan ingilis dilinin yüksək səviyyədə mənimsənilməsi ölkəmizin orta və ali təhsil müəssisələri qarşısında qoyulan əsas tələblərdən biridir. Bu gün ingilis dilinin ünsiyyət vasitəsi kimi öyrənilməsinin vacibliyi danılmazdır. İxtisas dilindən kommunikasiya məqsədilə istifadə etmək qabiliyyətinin tələbələrə aşılanması məqsədilə ali məktəblərin dil fakültələrində tədris prosesinin kommunikativ yönümlü şəkildə təşkil edilməsi olduqca vacibdir. İngilis dili fakültəsi məzunlarının ixtisas dilində kommunikativ səriştələri əksər hallarda qloballaşma dövrünün tələbləri səviyyəsində olmur. Eyni zamanda qeyd edilməlidir ki, ingilis dilini öyrənənlər, həmin dildən kommunikasiya vasitəsi kimi istifadə etməyə meyl göstərirlər. Qlobal dil vasitəsilə qabaqcıl texnologiyalardan istifadə etməklə dil fakültələrində təhsil alan tələbələr özlərinin peşə sahələri ilə bağlı olan dünya təcrübəsindən bəhrələnmək və ondan səmərəli şəkildə istifadə etmək qabiliyyətinə yiyələnməli, müvafiq bilikləri mənimsəməlidirlər. Bu gün dil aspektlərinin mənimsənilməsi, nitq vərdiş və bacarıqlarının inkişaf etdirilməsi deyil, daha çox ixtisas dilində kommunikativ kompetensiyaya yiyələnmək zərurəti meydana çıxır. Lakin, qeyd edilməlidir ki, bu gün kommunikativ cəhətdən səriştəli olan, yüksək ixtisaslı mütəxəssislərin azlığı müşahidə edilir.

Bu da artıq aktuallığını itirmiş təlim metodları, köhnəlmiş dərslik və təlim materiallarından istifadə edilməsi ilə izah edilə bilər.

Qeyd etməliyik ki, təhsilimizdə durmadan dəyişikliklər baş verir. Bu xarici dillərin tədrisində də geniş imkanlar yaradır. Müasir dövrdə təhsil sahəsinin məzmununda gedən işlər, islahatlar, innovasiyalar, fəal təlim metodlarından, üsullarından, yeni təlim texnologiyalarından geniş istifadə etmək təlim prosesində bütün müəllim və tələbələrin öz üzərində işləməyi tələb edir. Müxtəlif sahələrdə baş verən inkişafa uyğunlaşmaq və səmərəli fəaliyyət göstərmək üçün insanın həyat boyu bilikləri müstəqil əldə etmək bacarığına yiyələnməsi və buna can atması olduqca vacibdir. Azərbaycanda xarici dillərin tədrisinin inkişaf etdirilməsi perspektivləri onun dünya təhsil sisteminə inteqrasiya istəklərindən doğur. Bu da öz növbəsində, xarici dillərin tədrisi sistemini dəyişdirməyi və təkmilləşdirməyi zəruri edir. Sözü gedən məsələdə əsas diqqət tələbələrdə kommunikativ bacarığın formalaşdırılmasına yönəldilir. Təhsilin kommunikativ istiqamətliliyi təhsilin humanistləşdirilməsi strategiyasının əsasını təşkil edir. Çünki, məhz formanın deyil, məzmunun diqqət mərkəzində olduğu kommunikativlik tələbələrin nitq-təfəkkür fəaliyyətini stimullaşdırır.

Təcrübələr göstərir ki, süni şəkildə tərtib olunan mövzular tələbələrdə stimul yarada bilmir və nəticədə tədris formal şəkil alır. Dilin mənimsənilməsinə dair nəzəriyyələrin ixtisas dilinin tədrisi prosesində nəzərə alınması dilin tədrisi prosesini yaxşılaşdırmağı mümkün edir. Dil fakültələrində əsas məqsəd tələbələrə öyrənilən dildən ünsiyyət vasitəsi kimi istifadə etmək qabiliyyətini aşılamaqdan ibarətdir. Xarici dil dərslərində tələbələr tərəfindən mənimsənilməli olan hər bir dil vahidi, çalışma və tapşırıq kommunikativ cəhətdən mənalı olmalı və tələbələrə xaricı dili kommunikativ məqsədlərlə aşılamaq vəzifəsini yerinə yetirməlidir. Onu da qeyd etmək lazımdır ki, bu cür təşəbbüs adətən tələbələrin əksəriyyəti tərəfindən alqışlanır, dilin öyrədilməsi adlanan oyunda iştirakçı qismində çıraş edərkən tələbələr fəallaşır və onlarda öyrənilən dilə qarşı maraq və müsbət münasibət oyanır. Lakin, real tədris prosesində ana dilindən tamamilə imtina etmək, zənnimizcə, heç də düzgün olmazdı. Bəzən ana dili xarici dilin daha səmərəli şəkildə, daha sürətlə öyrənilməsinə kömək edir (1, 7).

Uzun illər şifahi nitqin intensiv öyrədilməsi işi ilə məşğul olmuş alimlər şifahi nitqin inkişafını birinci dərəcəli iş hesab etmişlər. Müşahidələr göstərir ki, şifahi nitqin intensiv aparılmasında müəllim əsas simadır. O bu işə daim rəhbərlik edir və şifahi danışmalara şərait yaradır. Görkəmli ingilis metodisti H.Palmer şifahi nitqi eşitmə yolu ilə inkişaf etdirməyi təklif edirdi. Son zamanlar alınan nəticələr sübut etmişdir ki,dilin kompleks şəkildə tədris edilməsi şəraitində də şifahi nitqi inkişaf etdirmək olar. Xarici dilin tədrisinə tətbiq edilən "dilə praktik yiyələnmə" terminini digər adamların fikirlərini anlama, bacarıq və vərdişlərin aşılanması kimi başa düşmək lazımdır. Sonra bu bacarıqlar formalaşır, nitqə çevrilir. Əgər insanlar arasında ünsiyyət bilavasitə yaradılırsa, onda dilə praktik yiyələnmə nitq fəaliyyətinin müxtəlif növlərinin şifahi nitqə, oxu və yazıya xarakterik olan bacarıqların formalaşmasını tələb edir. Ünsiyyət məsələsi şifahi nitqlə bağlı məsələdir (2, 50). Əgər bir adam dil materiallarını yaxşı mənimsəyibsə, o həmin dildə şifahi danışmaqda heç bir çətinlik çəkməyəcəkdir. Ona görə də, dil materiallarının avtomatlaşması şifahi nitqin əsasını təşkil edir və aşağıdakıları nəzərdə tutur: 1. dinləyib-anlama 2. danışıq vasitəsilə öyrətmə. Xarici dil tədrisində tələbələri mətn əsasında təşkil edilmiş diskussiyalara cəlb etməklə onlarda şifahi nitq, daha dəqiq desək, danışıq vərdişlərinin inkişaf etdirilməsi üçün müvafiq şəraiti yaratmış və beləliklə, interaktiv təlim prinsiplərinə riayət etmiş oluruq. Məlum olduğu kimi, kommunikativ təlimi təşkil edən əsas prinsiplərdən biri məhz interaktivlik prinsipidir. Məlumdur ki, şifahi nitq materialları leksik,qrammatik və fonetik materiallardan ibarətdir. Bu materialların birini digərindən təcrid edilmiş şəkildə göturmək olmaz. Əgər bu materialların biri digərini tamamlamazsa, onda şifahi nitqin inkişafından da danışmaq olmaz. Tədqiqatçıların fikrincə, sözlərin reseptiv və produktiv məqsədlərlə mənimsənilməsi arasında olan fərqləri müəyyənləşdirmək heç də asan deyil. Belə ki, bəzi tələbələr mənimsədikləri söz və söz birləşmələrini sonra nitq prosesində

istifadə edir,bəziləri isə həmin sözləri yalnız reseptiv səviyyədə mənimsəmiş olur və onlardan nitqlərində istifadə etmir. Adətən dil materiallarının təqdim edilməsi və mənimsənilməsindən danişarkən, asandan çətinə, sadədən mürəkkəbə doğru irəliləmək tövsiyə edilir (3, 272).

Onu da qeyd etmək lazımdır ki, lüğət vahidlərinin mənimsənilməsinin çətinlik dərəcəsini müəyyənləşdirərkən, adətən həmin prosesə tələb edilən vaxt müddətini əsas tuturlar. Eyni zamanda, problemi araşdıran müəlliflərin fikrincə, "çətinlik" meyarının kifayət qədər etibarlı və inandırıcı olması məsələsi birmənalı şəkildə qəbul edilmir və mübahisələrə səbəb olur. "Qəti absolyut" çətinlik mövcud deyil, "çətinlik" məfhumunun əsasında duran səbəblər fonologiya, morfologiya, sintaksis, leksika və s. ilə əlaqədar ola bilər. Onu da demək lazımdır ki, bir qrup tələbələrin çətin hesab etdikləri dil və nitq vahidləri, başqa tələbələr üçün heç bir çətinlik törətməyə bilər. Qeyd edildiyi kimi, dərs vaxtından səmərəli şəkildə istifadə edilməlidir. Suallara çox diqqət yetirilməli və vaxt ayrılmalıdır. Tələbələrə üsul seçimində müəyyən müstəqilliyin verilməsində əsas məqsəd onlarda dinlənilən mətnin və yaxud kitabın məzmununa maraq oyatmaq, onlarda rast gəldikləri problem və çətinliklərə baxmayaraq dinləməyi davam etdirmək həvəsini yaratmaqdan ibarətdir. Tələbələri düzgün istiqamətləndirmək, onlara mətnin məzmununu adekvat şəkildə başa düşmək üçün hansı üsullardan istifadə etmək haqqında məlumatlandırmaq və bu məqsədə nail olmaq üçün yerinə yetirilməsi tövsiyyə edilən çalışmaları və tapşırıqları onlara təqdim etməlidir. Yerinə yetirilən tapşırıqların əsas məqsədi həmin prosesin səmərəliləşdirilməsi və daha yüksək nəticələrin əldə edilməsidir. Qeyd edilməlidir ki, interaktivliyə əsaslanan təlim prosesində tələbələrin özünü və sinfi, hətta bütövlükdə dərsin özünü qiymətləndirməsi imkanları çox genişdir. Yeni təlim metodları ilə işləyən müəllimlər bu qiymətləndirmə üsulundan müntəzəm istifadə edir və çox yaxşı nəticələr əldə edirlər.

Müvafiq olaraq, hər bir təlim kontekstində ingilis dilində tədris edən müəllimin qarşısında duran əsas vəzifələrdən biri lüğətin rolunu və yerini müəyyənləşdirməkdir. Sonra həmin sözlərlə cümlələr təqdim edilir. Tələbələr sözün cümlədə yerinə yetirdiyi funksiya, onun hansı nitq hissəsinə mənsub olduğunu deməli və nəhayət, düzgün məna variantını siyahıdan tapmalıdır. Beləliklə, xarici dildə danışıq vərdişlərinə həmin dildə danışmadan, yazı vərdişlərinə yazı fəaliyyətinə cəlb olunmadan, oxu vərdişlərinə oxumadan və nəhayət eşidib-anlama vərdişlərinə öyrənilən dildə müxtəlif xarakterli mətnlərə, monoloq və dialoqlara sistemli şəkildə qulaq asmadan yiyələnmək qeyri-mümkündür (2, 157).

Ədəbiyyat

1. Halliday A. The House of TESEP and the Communication Approach: The Special needs of English Language Education // ELT Journal, 1994, v.48 (1), p. 3-11
2. Gee W.R. "Types of communication in the foreign and second language classroom with special reference to EFL/ESL" // Journal of Applied Linguistics (Greek Applied Linguistics Association), 1992, №1, p. 46-53
3. Sharan, S. 1980. Cooperative learning in small groups: Recent methods and effects on achievement, attitudes, and ethnic relations // Review of Educational Research, 50, 2, p. 241-71
4. Anderson J. Selecting a Suitable Reader / Procedures for Teachers to Assess Language Difficulty", RELS Journal 2, December 1971, № 2, p. 35-42

М.М.Мамедова

Пути формирования навыков устной речи при преподавании английского языка

Резюме

В данной статье рассматриваются вопросы обучения устной речи на английском языке в языковом вузе. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно–функциональном принципе. Обучение устной речи должно носить целе-

направленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В условиях глобализации основная цель обучения иностранным языкам и их изучения состоит в формировании у обучаемых способности использовать язык в целях коммуникации. Адекватное восприятие информации в процессе “speaking” является одним из самых важных и необходимых умений, которыми должен обладать человек, изучающий язык в тех или иных целях. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке.

M.M.Mammadova

The ways of developing oral speech in teaching elt

Summary

The article deals with the problem of working out, effective ways of speaking skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners’ ability to use the target language for communication. The process of teaching English should be based on the communicative–functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners’ ability to use the target language for communication. Speaking comprehension is one of the most basic and important of the four skills in language teaching&learning. One of the main goals of language learning is to acquire the ability to communicate effectively.

Rəyçi: p.e.d. G.X.Şirəliyeva

Redaksiyaya daxil olub: 20.06.2017

Ş.A.MƏMMƏDOVA
biologiya üzrə fəlsəfə doktoru, dosent

İ.M.MAZANOV,
S.S.ƏLİBƏYOVA

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr, 98)

Ş.R.SULTANOVA

Şamaxı Regional Kolleci
(Şamaxı şəh., Məşədi Əzizbəyov 3)

TƏLƏBƏLƏRİN FİZİKİ İNKİŞAFINA VƏ SAĞLAMLIĞINA HƏRƏKƏT AKTİVLİYİNİN TƏSİRİ

Açar sözlər: *arterial hipertenziya, hərəkət aktivliyi, oksigenin maksimal sərfi, ürək indeksi, vurğu həcmi, fiziki yüklər, fiziki iş qabiliyyəti, fiziki məşqlər.*

Ключевые слова: *артериальная гипертензия, двигательная активность, максимальное потребление кислорода, сердечный индекс, ударный объем, физическая нагрузка, физическая работоспособность, физические тренировки.*

Key words: *arterial hypertension, motor activity, maximum oxygen consumption, cardiac index, stroke volume, physical load, physical efficiency, physical trainings.*

Əhalinin sağlamlığının formalaşdırılması, möhkəmləndirilməsi qorunması dövlətin ən ümdə vəzifələrindən biri olub, milli təhlükəsizliyinin, firavanlığının və rifah halının əsas amili kimi qəbul edilir. Cəmiyyətdə əsas diqqət böyüməkdə olan uşaq və yeniyetmələrə, həmçinin də tələbələrə ayrılaraq, onların sağlamlığına, normal fiziki inkişafına xüsusi yer verilir. Məhz cəmiyyətin bu təbəqəsi yaxın gələcəkdə sosial-iqtisadi və rifah halının qorunmasında əsas aparıcı və yaradıcı qüvvəyə çevrilir.

Qeyd etmək lazımdır ki, tələbə əməyi intellektual fəaliyyətin özünəməxsus forması olub, cəmiyyətdə daim artan məlumat və təlim yüklərinin təsirinə məruz qalır. Təsir edən bu yüklər heç də onların fizioloji imkanlarına adekvat olmur, sonra onlarda bir sıra xəstəliklər proqressivləşir və inkişaf etməyə başlayır. Buna həm də orta ümumtəhsil məktəblərin şagirdlərinin sağlamlıq səviyyəsinin enməsi, həddən artıq psixoemosional gərginliklər, əmək və istirahət rejiminin pozulması da şərait yaradır. Sağlamlıq səviyyəsinin pisləşməsinə insanların hərəkət aktivliyinin məhdudlaşdırılması da təsir edir (8,9,11). İnsanın hərəkət aktivliyi daha çox hipokineyiya, hiperkineyiya və normokineyiyanın səviyyəsi ilə xarakterizə olunur. Hipokineyiya bir tərəfdən, multipatogen amil kimi bir sıra qeyri-infeksion xroniki xəstəliklərin inkişafında iştirak edir, digər tərəfdən, fiziki aktivlik bir çox xroniki xəstəliklərin ilkin profilaktikasında korreksiyanın multisanogen amili sayılır (xüsusilə də, ürək-damar sistemi xəstəlikləri zamanı). O da məlumdur ki, ürək-damar sistemi xəstəlikləri dünya əhalisinin ən çox əzab çəkdiyi xəstəliklərdəndir. Fiziki hərəkətlərin normal ölçülər çərçivəsində icrası insanın sağlamlığını möhkəmləndirir və profilaktik əhəmiyyət daşıyır. Lakin hərəkət aktivliyinin ayrı-ayrı növlərinin sağlam insanlara göstərdiyi təsir tam olaraq öyrənilməmişdir (12, 3, 4).

Tələbələrin sağlamlığının səviyyəsini inteqral olaraq qiymətləndirən elmi tədqiqat işləri demək olar ki, yoxdur. Tələbələrin hərəkət aktivliyinin səviyyəsi, qidalanmanın xarakteri, əmək və istirahət rejimi, asudə vaxtlarının mənalı keçirilməsi kimi amillər sağlamlığın qorunub saxlanılmasına və möhkəmləndirilməsinə kömək edən amillərdəndir.

Yuxarıda sadalananlar tələbə gənclərin sağlamlığının formalaşdırılması, möhkəmləndirilməsi və qorunması ilə bağlı olan tədbirlərin strategiyasının işlənməsinin aktuallığını göstərir və bu sahədə elmi-tədqiqatların aparılmasının vacibliyini göstərir.

İşin məqsədinə müxtəlif fiziki aktivliyə malik olan tələbələrin sağlamlığının inteqral qiymətləndirilməsinin aparılması daxil edilmişdir.

Bunun üçün aşağıdakı tədqiqat vəzifələrinin həll olunması planlaşdırılmışdır:

1. Fiziki inkişafın, fiziki hazırlığın və fiziki iş qabiliyyətinin tələbələrdə ali məktəbdə oxuduqları müddət ərzində öyrənilməsi;

2. Müxtəlif hərəkət aktivliyinə malik olan tələbələrdə ürək-damar və tənəffüs sistemlərinin vəziyyətlərinin və onların tənzimləmə mexanizmlərinin öyrənilməsi.

Material və metodlar. Tədqiqatlar Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Tibbi bioloji elmlər" kafedrasında aparılmışdır. Tədqiqatlara I, II və III kurs tələbələri cəlb edilmiş və üç il müddətində davam etdirilmişdir.

Tədqiqatlar üç mərhələdə aparılmışdır. Birinci və ikinci mərhələdə müxtəlif hərəkət aktivliyinin təsiri altında tələbələrin fiziki halı eksperimental olaraq öyrənilmişdir. Yoxlamalar üç qrupun tələbələri üzərində aparılmışdır. Birinci qrupa daxil olan tələbələr, əsasən, dövri idman növləri ilə məşğul olan tələbələrdən formalaşdırılmış, onlar tərəfindən icra olunan hərəkətlər dözümlülüyün inkişafına yönəldilmişdir (atletika idman növlərində).

İkinci qrupa idman oyun növləri ilə məşğul olan tələbələr daxil edilmişdir (voleybol, futbol, basketbol).

Eksperimental qrupa ayrı-ayrı idman növlərində məşq edən ixtisasçı tələbələr daxil edilmişdir. Onlar həftədə 4-5 dəfə, 1,5-2 saat, nəbzin 140-170 vur/dəq. rejimində məşq edənlər olmuşdur. Hərəki aktivliyin effektivliyini qiymətləndirmək üçün eksperimental qruplar arasında və nəzarət qrupları ilə müqayisələr aparılmışdır. Fiziki hazırlığın səviyyəsini qiymətləndirmək və səciyyələndirmək üçün nəzarət yoxlamaları da aparılmışdır. Hər üç qrupda hərəkət aktivliyinin göstərdiyi təsiri qiymətləndirmək üçün I, II və III kurslarda fiziki hazırlığın səviyyəsi də öyrənilmişdir.

Tədqiqatların üçüncü mərhələsində hərəkət aktivliyinin kardio-respirator sistemlərin vəziyyətinə göstərdiyi təsir öyrənilmişdir. Dinamik tədqiqatlar aparılmışdır (Martine Ştanqe, Qençe sınaqları).

Tələbələrin kompleks yoxlanmasında dozalaşdırılmış fiziki yüklər (1 dəqiqədə 180 addım, 3 dəqiqə müddətində yerində qaçmaq), spirometriya, dinamoteriya, nəfəsalma və nəfəsvermə vəziyyətlərində nəfəsi saxlama, Harvard step-testinin köməyi ilə fiziki iş qabiliyyəti, bədənin uzunluğu, kütləsi və döş qəfəsinin en dairəsi müəyyən edilmişdir.

Yoxlamaya cəlb olunmuş tələbələrin hamısı sağlam olmuş və müxtəlif hərəki rejimə malik olmuşdur. Hərəkət rejiminin qiymətləndirilməsi zamanı təlim-məşq məşğələlərinin tezliyi, xarakteri nəzərə alınmışdır.

Tədqiqatlarımızda tələbələr üçün hərəkət rejiminin variantından istifadə edilmişdir:

a) məşq hərəkət rejiminə proqramlar üzrə fiziki tərbiyə və idmanla müntəzəm məşq edən tələbələr daxil edilmişdir;

b) məşq hərəkət rejiminə müstəqil olaraq məşq edən tələbələr daxil edilmişdir;

c) az hərəkətli rejimə - fiziki tərbiyə üzrə təlim-məşqlərdə iştirak etməyənlər daxil edilmişdir. Bura nəzarət qrupu kimi sağlam, müstəqil məşq edən digər ali məktəblərin və kolleclərin tələbələrindən ibarət olan tələbələr cəlb edilmişdir.

Alınan materialların hamısı statistik hesablanmaya ümumi qəbul olunmuş metodlarla aparılmış, orta riyazi (M) və orta hesabi xətalar (m) hesablanmışdır. Fərqlərin etibarlılıq göstəricisi (P) cədvəl üzrə Styudentin kriteriyasından (t) istifadə edərək təyin olunmuşdur.

Alınan nəticələr və onların müzakirəsi. Tədqiqatların birinci mərhələsində I, II və III kurs tələbələrinin (18-25 yaş) antropometrik göstəriciləri öyrənilmişdir.

Cədvəl 1

Tələbələrin fiziki inkişafının göstəriciləri (M±m)

Göstəricilər	I kurs	II kurs	III kurs	P
Bədənin uzunluğu (sm)	177,52±0,66	178,40±0,63	178,72±0,65	0,05
Bədənin kütləsi (kg)	72,21±0,65	72,81±0,65	74,42±6,2	0,01
Döş qəfəsinin en dairəsi (sm)	93,55±0,62	95,83±0,60	95,98±0,58	0,01

Təhsil aldıqları müddətdə tələbələrin bədən kütlələri və döş qəfəslərinin en dairəsi birinci kursdan üçüncü kursa qədər artmışdır. Alınan nəticələrin sentil cədvəllərin nəticələri ilə tutuşdurulması onu deməyə əsas verir ki, bədənin uzunluğunun, kütləsinin və döş qəfəsinin en dairəsinin ölçüləri müayinəyə cəlb olunmuş tələbələrdə "orta ölçülər" dəhlizi daxilindədir və bu da, həmin yaş qrupuna məxsus olan 25-dən 75-dək sentil civarındadır. Lakin yoxlanılan şəxslər arasında müəyyən fərqlər də aşkarlanmışdır və bu da, öyrənilən keyfiyyətlərin inkişafının müxtəlifliyinin tezliyini qiymətləndirməyə imkan verir (cədvəl 2, 3, 4).

Cədvəl 2

Tələbələrin bədənin uzunluğunun beş qiymətləndirmə qrupu üzrə paylanması (%-lə)

Yaş (illərlə)	Səviyyə (%-lə)				
	Aşağı	Ortadan aşağı	Orta	Ortadan yuxarı	Yüksək
18	6,96	7,0	70,35	10,9	5,5
19	5,6	6,4	70,4	11,2	6,4
20	6,1	7,8	69,6	11,2	5,2
21	6,5	7,4	69,4	11,1	5,6
22	5,9	6,9	72,5	8,8	5,9
23-24	6,1	7,1	70,4	1,7	5,7

Cədvəl 3

Bədən kütləsinin göstəricilərinə görə tələbələrdə
beş qiymətləndirmə qruplara paylanması (%-lə)

Yaş (illərlə)	Səviyyə (%-lə)				
	Aşağı	Ortadan aşağı	Orta	Ortadan yuxarı	Yüksək
18	3,9	6,3	74,9	10,2	4,7
19	4,0	7,2	73,6	10,4	4,8
20	5,2	7,8	70,5	12,2	4,3
21	5,6	8,3	69,4	11,1	5,6
22	3,9	8,8	70,6	10,8	5,9
23-24	4,5	7,6	72,0	10,9	5,0

Cədvəl 2 və 3-də göstərilən nəticələrə əsasən, bədənin uzunluğunun "aşağı" qiymətlərinə 6,1%, bədən kütləsinin isə - 4,5% tələbəsi malikdir.

Bədən uzunluğunun "aşağı" qiymətlərinə 70,4%, bədən kütləsinin "orta" qiymətlərinə isə 72,0% tələbələr malik olmuşdur. Artıq bədən kütləsi yalnız 5% tələbələrdə aşkarlanmışdır.

Yaşla əlaqədar olaraq, artıq bədən kütləsinə malik olan tələbələrin sayında artma müşahidə olunmuşdur (4,7%-dən 5,9%-ə qədər).

Döş qəfəsinin en dairəsinin göştəriciləri yaşdan asılı olaraq mütləq ölçülərin artması, "aşağı" və "ortadan aşağı" qiymətə malik olanların sayında azalma, "ortadan yuxarı" və "yüksək" qiymətə malik olanların sayında isə artma müşahidə olunmuşdur (cədvəl 4).

Cədvəl 4

Tələbələrin döş qəfəsinin en dairəsinin ölçüsünə görə
beş qiymətləndirmə qrupları arasında paylanması (%-lə)

Yaş (illərlə)	Səviyyə (%-lə)				
	Aşağı	Ortadan aşağı	Orta	Ortadan yuxarı	Yüksək
18	4,7	7,8	75,0	8,6	3,9
19	3,2	10,4	72,8	9,6	4,0
20	3,5	9,6	72,1	10,4	4,4
21	2,8	8,6	72,8	12,0	3,8
22	2,5	6,1	76,0	12,5	2,9
23-24	3,5	8,5	73,6	10,6	3,8

Tələbələrin 72%-də "orta" səviyyəli bədən kütləsi qiymətinə, döş qəfəsinin en dairəsinin orta səviyyəli ölçüsünə isə 73,64%-ində rast gəlinir. Tərəfimizdən bədən kütləsinin göstəricisi ilə döş qəfəsinin en dairəsinin göstəricisi arasında sıx korrelyasiyanın olduğu aşkar edilmişdir. Daha az korrelyasiya asılılığı bədənin uzunluğu ilə bədən kütləsi arasında, çox da əhəmiyyətli olmayan korrelyasiya isə bədən uzunluğu ilə döş qəfəsinin en dairəsi arasında olmuşdur.

Yoxlamaya cəlb olunmuş tələbələrin fiziometrik göstəricilərinin (spirometriya, əl və bel əzələlərinin dinamoteriyası) nəticələri cədvəl 5-də əksini tapmışdır. Təqdim olunmuş nəticələrdən göründüyü kimi, fiziometrik göstəricilərin artma dinamikası, əsasən, ilk iki ildə baş vermişdir (cədvəl 5).

Cədvəl 5

Tələbələrin fiziometrik göstəriciləri (M±m)

Göstəricilər	I kurs	II kurs	III kurs	P
AHT (ml)	4861,35±52,82	5211,25±49,48	5233,10±50,05	P>0,01
Sağ əlin güçü (kg)	54,04±0,75	58,22±0,74	56,64±0,77	P>0,01
Sol əlin güçü (kg)	51,16±0,73	54,86±0,59	54,54±0,67	P>0,01
Bel əzələlərinin güçü (kg)	133,60±2,20	143,11±2,23	140,16±2,37	P>0,01

Spirometriyanın nəticələri fiziki yüklərin AHT-nin ölçüsünə müsbət təsiri əyani əks etdirir, "ortadan yuxarı" və "yüksək" səviyyəyə malik olan tələbələrin sayı I, II və III kurslarda artmışdır. III kursun sonunda bu göstəricilər ziddiyyətli xarakter daşımışdır (cədvəl 6).

Cədvəl 6

Tələbələrin ağ ciyərlərin həyat tutumunun (ml) göstəricilərinə görə
beş qiymətləndirmə qruplarına paylanması (%-lə)

Yaş (illərlə)	Səviyyə (%-lə)				
	Aşağı	Ortadan aşağı	Orta	Ortadan yuxarı	Yüksək
18	2,3	8,6	78,9	7,0	3,1
19	0,8	7,2	75,2	10,4	6,4
20	0,9	5,2	74,8	11,3	7,8
21	1,9	8,3	76,5	7,4	5,6
22	2,9	10,8	74,5	5,9	5,9
23-24	1,7	8,0	76,1	8,5	5,5

Cədvəl 7-dən göründüyü kimi, müxtəlif hərəkət aktivliyinə malik olan tələbələrin spirometrik göstəricilərində daha çox dəyişiliklər ilk iki il ərzində baş vermişdir. Daha çox müsbət

dəyişikliklər birinci qrupda baş vermişdir. Ağciyərlərin həyat tutumu (AHT) 12,5%-ə qədər artmışdır.

Cədvəl 7

Müxtəlif hərəkət aktivliyinə malik olan tələbələrdə AHT-nin göstəriciləri (ml) (M±m)

Qruplar	I kurs	II kurs	III kurs	P
1	4896,82±57,35	5509,06±48,24	5707,35±59,18	P>0,01
2	4853,50±48,25	5163,18±51,67	5341,71±55,33	P>0,01
3	4784,08±40,56	4943,44±49,92	4622,58±57,85	P>0,05

İkinci qrupda artma 6,4% olmuşdur. Nəzarət qrupunda bu cəmi 33% (P<0,05) təşkil etmişdir. Nəticədə, birinci qrupda AHT-nin göstəricisi, ikinci və üçüncü qruplardan yüksək olmuşdur (P<0,05).

Üçüncü kursdan başlayaraq, AHT-nin dinamikasında müsbət dinamika qorunub saxlandığı halda, üçüncü qrupda spirometrik göstəricilərdə ikinci kursla və ilkin nəticələrlə müqayisədə enmə müşahidə olmuşdur.

Sağ əlin gücündə ilk iki kursda, birinci qrupda 10,2%-ə qədər (P<0,001) artma olmuşdur. İkinci kursda ilkin nəticələrlə müqayisədə artma 6,7% (P<0,001), nəzarət qrupunda isə 5,3% (P<0,01) olmuşdur. Belə bir mənzərə sol əlin gücünün öyrənilməsində də müşahidə olunmuşdur. Lakin birinci qrupun nəticələri yalnız üçüncü qrupla müqayisədə etibarlı olmuşdur. İkinci və üçüncü kurslarda 1-ci və 2-ci qruplarda artmağa meyllik qorunub saxlanılmışdır (50%-ə qədər), 3-cü qrupda isə, əksinə, üçüncü kursda kəskin olaraq azalmışdır (P<0,001).

Tələbələrin funksional vəziyyətini qiymətləndirmək üçün kardio-respirator sistemin göstəriciləri həm sakitlik zamanı, həm də fiziki yüklərin təsiri zamanı öyrənilmişdir. Bu zaman maraq doğuran məqamlardan biri fiziki aktiv həyat tərzi keçirən tələbələrin ürək-damar sisteminin vəziyyətinin funksional göstəriciləri ilə, onların son 2-3 ildə fiziki tərbiyə ilə məşğul olmayan yaşıdlarının nəticələri arasındakı müqayisə olmuşdur. Bununla əlaqədar olaraq, yuxarı kurs tələbələrinin kardio-respirator sisteminin fəaliyyətinin göstəriciləri öyrənilmişdir, onların hərəkət aktivliyinin səviyyəsi nəzərə alınmışdır.

Alınan nəticələr qeyd olunmaqla, tələbələrin ali mərtəbdə oxuduqları müddətdə funksional göstəriciləri dinamikada öyrənilmişdir. Bu mərhələdə tələbələrdə hemodinamikanın göstəriciləri aktiv fiziki həyat tərzi keçirən (seçilmiş idman növü üzrə məşq edən, ya da idman seksiyalarında məşğələlərdə iştirak edən) və son 2-3 ildə sistematik məşğələlərdə iştirak etməyənlərdə öyrənilmişdir.

Hərəkət aktivliyindən asılı olaraq, ürək-damar sisteminin əsas göstəricilərinin öyrənilməsi göstərmişdir ki, hemodinamikanın mərkəzi göstəricilərində (ÜVS və vurğu həcmində) kəskin fərqlər müşahidə olunmamışdır (cədvəl 8).

Cədvəl 8

Müxtəlif hərəkət aktivliyinə malik olan 20-24 yaşlı tələbələrdə hemodinamikanın əsas göstəriciləri (M±m)

Qruplar	Hemodinamikanın əsas göstəriciləri			
	ÜVS, v/dəq.	VH, ml	QDH, ml/dəq	ÜİI, l/dəq/m^2
1	73,81±1,72	67,05±3,74	5,30±0,30	2,91±0,28
2	63,10±0,52	77,64±3,06	4,87±0,24	2,86±0,17
	P<0,001	P<0,05	P>0,05	P>0,05

Qeyd: ÜVS - ürək vurğularının sayı;
VH - vurğu həcmi;
QDH - qanın dəqiqəlik həcmi;
ÜİI - ürək indeksi.

Ürək-damar sisteminin göstəricilərinin fizioloji normalar çərçivəsində olmasına baxmayaraq, alınan fərqlərin hamısı etibarlı olmuşdur. İkinci qrupda ÜVS-nin göstəricisi etibarlı olaraq aşağı olmuşdur (P<0,001). Belə dəyişikliklərin fizioloji aspektləri ədəbiyyat qaynaqları ilə uyğunluq təşkil edir (2,3), ürək-damar sisteminin sistematik fiziki yüklərə adaptasiyasını əks etdirir. Burada, həmçinin ürək-damar sisteminin qənaətliliyi də mühüm yer tutur. ÜVS-in azalması, ürəyin vurğu həcminin (sistolik həcminin) yüksəlməsi hesabına kompensasiya edərək, orqan və toxumaları oksigenlə adekvat olaraq təmin edir. Belə ki. ürəyin fəaliyyətində baş verən dəyişikliklər QDH-nin inteqral göstəricilərində heç bir dəyişikliyin yaranmasına səbəb olmamışdır. Onu da qeyd etmək lazımdır ki, ÜVS-in VH-nin QDH-nin ölçüsünə verdikləri tövhə fərqlidir. Yüksək hərəki aktivliyə malik olan qrup tələbələrində ürəyin vurğu həcmi üstünlük təşkil edir (VH və QDH korrelyasiya sabitləri 0,8-dən yuxarı; ÜVS və QDH-nin isə - 0,2-dən aşağıdır).

Hərəkət aktivliyinin aşağı səviyyəsində VH və QDH-nin korrelyasiya sabitinin dərəcəsi 0,68; ÜVS və QDH-nin isə - 0,25-dən aşağı olur.

Qeyd etmək lazımdır ki, ürək-damar sisteminin fəaliyyətinin tənzimləmə mexanizmləri fərqli olduğundan, onlara sərf olunan enerji də müxtəlif olur. ÜVS-nin sayı artdıqca, ona sərf olunan enerjinin miqdarı da yüksəlir. ÜVS-nin sayının azalması və onun qanın sistolik həcmi hesabına kompensasiya olunması enerjinin daha qənaətli sərf olunduğunu təsdiq edir.

Alınan nəticələrin analizi onu deməyə əsas verir ki, sistematik icra olunan fiziki məşğələlərdən sonra nisbi sakitlik zamanı tələbələrdə hemodinamikanın hipokinetik (31%) və eukinetik (61%) tipləri üstünlük təşkil edirl. Bu halı ürək-damar sisteminin dəyişilməsi mövqeyindən sakitlik vaxtı qənaətlə fəaliyyət göstərməsi kimi qiymətləndirmək olar, bu zaman orqanizmin tələbatını ödəmək üçün daha çox oksigen tələb olunmur. İkinci tərəfdən, sistematik olaraq bədən tərbiyəsi və idmanla məşğul olan şəxslərdə oksigenin nəql olunması sistemində müəyyən adaptiv dəyişikliklərin getdiyi müşahidə olunur (eritrositlərin sayının artması, hemoqlobinin səviyyəsinin yüksəlməsi) ki, bunlar da mülayim bradikardiyanı kompensasiya edirlər.

Aktiv həyat tərzi keçirməyən tələbələrdə hiperkinetik tipli qan dövrqanına malik olan tələbələrin sayı kifayət qədər yüksək olmuşdur (29%). Ədəbiyyat mənbələrinin analizi göstərmişdir ki, hiperkinetik tipli qan dövranı böyük enerji sərfi tələb edir, az effektlidir (10,11,12).

Arterial qan təzyiqinin (AQT) ölçülməsi göstərmişdir ki, onun ən aşağı göstəricisi, 1-ci qrupda deyil, 2-ci qrupda olmuşdur. Belə fərqlər ÜVS-nin göstəriciləri ilə analoji olaraq, sistematik fiziki yüklərə qarşı gedən adaptiv dəyişiklikləri əks etdirir. Tam olaraq müayinə olunan bütün qruplarda SAT və DAT normal hüdudlar daxilində olmuşdur (1-ci qrupda 118/77 m m c st; 2-ci qrupda isə 106/67 m m c st olmuşdur).

Beləliklə, aktiv həyat tərzi keçirən tələbələrdə mərkəzi və periferik hemodinamikanın göstəriciləri uzunmüddətli adaptasiya prosesində, yaxşı məşq etmiş idmançılara xas olan bir sıra xüsusiyyətlər qazanmış olsalar da, ürək-damar sisteminin adaptasiyası yüksək dərəcəli idmançılar səviyyəsində olmamışdır.

Aktiv həyat tərzi keçirməyən tələbələrdə hemodinamikanın göstəricilərinin öyrənilməsi göstərmişdir ki, onlar fizioloji normalar hüdudunda olmuş, lakin ürək-damar sistemindəki funksional gərginliyin dərəcəsi xeyli yüksək olmuşdur (ikiqat istehsal, gərginlik indeksi, qan dövranının adaptasiya potensialının göstəriciləri).

Alınmış nəticələr ürək-damar sisteminin funksional vəziyyətinin dinamik analizini, tələbələrin ali məktəbdə oxuduqları müddətdə hərəki aktivliyin səviyyəsinin nəzərə alınması ilə aparmağa imkan vermişdir.

Müxtəlif hərəkət aktivliyinə malik olan tələbələrin hipoksiyaya dayanıqlığının səviyyəsini qiymətləndirmək üçün inteqral bir göstərici – nəfəsalma aktında tənəffüsün saxlama müddəti (Ştanqe sınağı) müəyyən edilmişdir. Bu sınaqda nəinki kardio-respirator sistemin, həmçinin vegetativ sinir sisteminin də funksional vəziyyəti əks olunur. Aşağıdakl cədvəldə

tələbələrin ali məktəbdə oxuduqları müddətdə, onların hərəkət aktivliyinin səviyyəsi nəzərə alınmaqla, əldə edilən nəticələr öz əksini tapmışdır.

Cədvəl 9

Müxtəlif hərəkət aktivliyinə malik olan tələbələrdə
Ştanqe sınağının göstəriciləri (ml) (M±m)

Qruplar	I	II	III	P
1 (aşağı hərəkət aktivliyi)	52,63±2,31	60,08±2,22	50,85±2,95	0,05
2 (yüksək hərəkət aktivliyi)	54,03±2,17	64,26±1,17	70,72±1,66	0,001
P 1-2	>0,05	>0,05	>0,001	

Analiz olunan bütün qruplarda hipoksiyaya qarşı dayanıqlıq mülayim və yüksək kimi xarakterizə olunmuşdur. Buna baxmayaraq, bəzi tələbələrdə bu göstərici 40 san.-dən də aşağı olmuşdur ki, bu da, hipoksiyaya qarşı onların daha zəif dayanıqlılığı ilə səciyyələnir. Belə ki, III kursun 1-ci qrup tələbələrində bu dayanıqlıq 17,8%-dən aşağı olmuşdur. İkinci qrupda belə tələbələr olmamışdır (1-ci kursda bu qrupdan olan tələbələr 4% təşkil etmiş və ötən bir il müddətində onların da göstəriciləri yüksəlmişdir).

İ.B.Zabolotskinin (1990, 1993) nəticələrinə görə aşağı dayanıqlıq nümayiş etdirən tələbələr üçün astenizasiya, neyrosirkulyator distoniya xarakterikdir, belə ki, simpatoadrenal sistemin funksiyasında lazımı səviyyənin olmaması nəticəsində hipokinetik, yaxud hiperkinetik tipli qan dövranı özünü biruzə verir, qeyri-spesifik rezistentliyin səviyyəsinin və ümumi funksional vəziyyətin aşağı enməsinə səbəb olur. Ştanqe sınağının nəticələrinin aşağı olmasının əsas səbəbi oksigen nəqledici sistemin funksiyasının neyroreflektor tənziminin areaktivliyi ilə periferik xemoreseptorların yüksək reaktivliyinin üst-üstə düşməsi (uyğunluğu) olmuşdur. Ştanqe sınağının göstəricilərinin dinamikada əhəmiyyəti 2-ci qrupda artmağa meyllik dinamikasında özünü göstərmişdir, 1-ci qrupda isə bu meyllik azalmağa doğru getmişdir. İkinci kursdan başlayaraq, bu göstəricilər 2-ci qrupda etibarlı olaraq yüksək olmuşdur. Üçüncü kursda hipoksiyaya meylliyin yüksək dərəcəsinə 2-ci qrupun 43% tələbələri malik olmuşdur. Hipoksiyaya qarşı yüksək tolerantlığın fizioloji bazasını homeostatik mexanizmlər təşkil etmiş, tələbələrin fiziki iş qabiliyyətinin yüksək səviyyədə qalmasını təmin etmişdir. Bu da, oksigen daşıyıcı sistemlərin funksional fəaliyyətinin yaxşı səviyyədə olduğunu əks etdirir (5,6,7,10).

Tələbələrin fiziki iş qabiliyyətinin ali məktəbdə oxuduqları müddətdə tədqiqinin nəticələri göstərmişdir ki, hərəki aktivliyin səviyyəsindən asılı olaraq, onun ölçüsündə əhəmiyyətli dərəcədə dəyişikliklər baş vermişdir. Fiziki iş qabiliyyətinin I və II kursların dövründə alınan nəticələrinin analizi göstərmişdir ki, bu göstərici nəzarət qrupunun tələbələrində bir qədər yüksəlmişdir. I kursda oxuyan tələbə gənclərdə fiziki iş qabiliyyəti 1067,8±12,17 kg m/dəq. (orta səviyyə) təşkil etmiş və II kursda bu göstərici 1179,5±18,41 kg m/dəq. qədər yüksəlmişdir (ortadan yuxarı səviyyə). Bu halda artım 10,5% (p>0,001) olmuşdur. Bunu 1 kg bədən kütləsinə görə hesablasaq, onda fiziki iş qabiliyyətinin nisbi göstəricisi 17,01±0,18-dən 17,63±0,20 kg m/dəq.-yə qədər (p>0,05) artmışdır. Tələbə gənclərdə oksigenin maksimal sərfi isə onlarda həm nisbi, həm də mütləq ölçülərdə dəyişilməyərək sabit qalmışdır. Fiziki məşqlərin təsiri nəticəsində iki ildən sonra 1-ci qrup tələbələrində həm ümumi fiziki iş qabiliyyəti, həm fiziki inkişafın səviyyəsi və həm də fiziki hazırlığın səviyyəsində etibarlı olaraq yaxşılaşma müşahidə olunmuşdur. 1 kg çəkiyə görə hesablama apardıqda, nisbi iş qabiliyyətinin 2,38 kg m/dəq/kg-a qədər yüksəldiyi məlum olur (p>0,001) (5,12).

Məşqliliyin artması ilə 1-ci qrupun tələbələrində OMS həm mütləq, həm də nisbi ölçülərdə artmışdır (0,223 l/dəq. mütləq ölçüdə və 4,75 ml/dəq/kg nisbi ölçüdə (p>0,001)). Bu göstəricilərin müsbət dinamikası 2-ci qrupun tələbələrində də müşahidə edilmişdir, lakin bu dəyişikliklər etibarlı olmamışdır. Üç illik fiziki məşqlərdən sonra (III kursda) nəzarət qrupundan fərqli olaraq, 1-ci və 2-ci qruplarda bu, artmaqda davam etmişdir. Öyrənilən göstəricilərdə inkişaf əks istiqamətli olmuşdur. Fiziki aktiv qrupların tələbələrində müsbət dəyişikliklər olduğu halda, nəzarət qrupunda mənfi dinamika müşahidə olunmuşdur.

Ədəbiyyat

1. Меерсон Ф.З. Физиология адаптационных процессов / Меерсон Ф.З., Пшенникова М.Г., - М., 1986, с.643.
2. Меерсон Ф.З. Адаптация к стрессорным ситуациям и физическим нагрузкам / Меерсон Ф.З., Пшенникова М.Г., Медицина, 1988, с.130.
3. Меерсон Ф.З. Адаптация, стресс и профилактика / Меерсон Ф.З., - М., Наука, 1984, с.321.
4. Меерсон Ф.З. Высшие адаптационные реакции организма / Меерсон Ф.З., Кругликова Р.И. //Физиология адаптационных процессов: Руководство по физиологии, - М., 1986, с.499-520.
5. Заболотский И.Б., Физиологические эффекты произвольной задержки дыхания. //Физиология человека, 1990, № 1, с.118-126.
6. Заболотский И.Б., Физиологические основы различных функциональных состояний у здоровых и больных с разной толерантностью к гиперкапнии и гипокапнии: дис. ... д-ра мед. наук / Заболотский И.Б., -СПб., 1993, с.297.
7. Серебровская Т.В., Чувствительность к гипоксическому и гиперкапническому стимулу как отражение индивидуальной реакции организма человека / Серебровская Т.В. //Патофизиология, 1985, % 5, с.65-69.
8. Низамутдинов П.С. Комплексная коррекция факторов риска внутренней патологии у студентов ВУЗов / Низамутдинов П.С., Акиров Ю.Ю. //Актуальные проблемы спор. мед. и леч. физкультуры: Материалы Всерос. науч.-практ. конф., -СПб, 2003, с.90-91.
9. Низамов И.Г. Заболеваемость и образ жизни студентов средних мед. учебных заведений // Низамов И.Г., Нугаева Г.Ш. //Мед. журн. Казанского гос.пед.ун-та, 2001, -Т.82, №6, с.468-471.
10. Сабирьянов А.Р. Динамика вариабельности сосудистого кровообращения после дозированной физической нагрузки у мальчиков / Сабирьянов А.Р.//Мат. науч.-прак. конф. посвящен. 60-летию Челябинской областной общественной организации врачей-терапевтов. – Челябинск, 2004, с.126-128.
11. Фомин Н.А. Физиологические основы двигательной активности / Фомин Н.А., Вавилов Ю.Н. –М.: Физкультура и спорт, 1991, с.224.
12. Чимаров В.М. Программа: Основы формирования, сохранения, восстановления и укрепления здоровья (общая и детская биология)/ Чимаров В.М., - М., 1995, с.45.

Ш.А.Маммадова, И.М.Мазанов,
С.С.Алибекова, Ш.Р.Султанова

Влияние двигательной активности
на физическое развитие и здоровье студентов

Резюме

В данной статье были исследованы проблемы, связанные с формированием, укреплением и сохранением здоровья молодого поколения как одна из актуальных проблем настоящего времени. Возрастающее количество информации и психологические нагрузки, интенсификация образования и решение ряда социально-экономических проблем не всегда совпадают с физиологическими возможностями организма. Наряду с этим, определенное ограничение

двигательной активности, которая входит в образ жизни современного человека, способствует развитию, прогрессированию ряда болезней и снижению работоспособности.

В этой статье также были изучены динамика морфофункциональных показателей организма студентов, связанная с физическим развитием, физическая подготовленность и уровень работоспособности в период их обучения в вузе. Кроме этого, были исследованы состояние кардио-респираторной системы и механизмы ее контроля, и влияние различного уровня двигательной активности. Было определено, что систематическое применение различных форм и средств физического воспитания является одним из сильнейших факторов, влияющих на сохранение здоровья студентов. Было выявлено повышение степени их толерантности к гипоксии и физической работоспособности. Значительное увеличение максимального потребления кислорода было обнаружено не только в абсолютной, но и в относительной величине. Динамика положительных изменений у физически активных студентов так же сохранилась на высоком уровне в течение всей продолжительности обучения.

Sh.A.Mammadova, I.M.Mazanov,
S.S.Alibekova, Sh.R.Sultanova

Influence of motor activity on students' physical development and health

Summary

The issues on formation, strengthening and preservation of young generation's health were investigated in this article as one of the current actual problems. Increasing information and psychological loads, intensified education and solution of several social-economic problems do not always overlap with the physiological capabilities of the organism. But along with this, certain restriction of motor activity, a part of life style of a contemporary human being, causes the expansion of several diseases and decrease of physical efficiency.

Dynamics of morphofunctional indices of the students' organisms associated with physical development, physical training and the level of physical efficiency during the period of education in high school have been studied in the given article. Furthermore the state of cardio-respiratory system of the students, its adjustment mechanisms and the influence of various levels of motor activity on them were investigated. It was also defined that the systematic use of various forms and means of physical training is the strongest factor that influences the preservation of the students' health.

The increment of the level of tolerance against hypoxia and physical efficiency was also observed. A significant increase of their maximum oxygen consumption was observed both in absolute and relative dimensions. As well, the dynamics of the positive changes in physically active students was preserved in a high level during the whole training period.

Rəyçi: b.f.d., dos. Y.N.Quliyev

Redaksiyaya daxil olub: 05.09.2017

Ü.M.MƏMMƏDOVA
e-mail: ulker_memmedova62@inbox.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

MƏKTƏBDƏNKƏNAR TƏRBİYƏ MÜƏSSİSƏLƏRİNDƏ TƏRBİYƏVİ İŞLƏRİN TƏŞKİLİ YOLLARI

Açar sözlər: *Məktəbdənkənar müəsisə, tərbiyəvi iş, tərbiyə prosesi, peşə tərbiyəsi, şagirdlərin ailədə peşə hazırlığı.*

Ключевые слова: *внешкольное учреждение, воспитательная работа, процесс воспитания, профессиональное воспитание, профессиональная подготовка школьников в семье.*

Key words: *in out-of-school establishment, profession work, education process, profession craft education, preparation of craft of pupils in a family.*

Məktəbdənkənar tərbiyə müəssisələrində tərbiyəvi işlərin təşkili şagirdlərin öyrənmə, hər bir uşağı tanıma ilə başlanır, bununla da tamamlanır. İstər müəllim, istərsə də dərnək rəhbəri şagirdi heç vaxt sadəcə olaraq tanıma xatirinə öyrənməməlidir. Öyrənmə zamanı şagirdin fiziki və psixi inkişafı, uşaq şəxsiyyətinə təsir edən amillər nəzərə alınmalıdır. Bu məqsədlə müəllim şagirdi fəaliyyət prosesində ailə və məktəbdə, ictimai yerlərdə öyrənməlidir. Bu baxımdan şagirdi öyrənmək üçün aşağıdakı prinsiplərə əməl etməyi məqsədəuyğun hesab edirik:

1. Hər bir şagirdin öyrənilməsi tərbiyəçinin qarşıya qoyduğu böyük məqsədlərdən irəli gəlməli, uşağın inkişafına normal təsir göstərməlidir.

2. Şagirdin öyrənilməsi fəaliyyət prosesində aparılmalıdır. Bu zaman uşağa təsir edən adamlarla yanaşı, şey və hadisələr də nəzərə alınmalıdır.

3. Şagirdi tədricən öyrənmək, bu zaman onun xarakter əlamətlərini statikada deyil, dinamikada götürmək lazımdır.

4. Şagirdi öyrənərkən ancaq fakt dalınca qaçmamaq, həm də ayrı-ayrı əlamətləri törədən səbəbləri müəyyən etmək lazımdır.

5. Tərtib olunmuş hər bir xarakteristika şagirdin gələcək inkişafı üçün perspektiv yaratmalı, onun gələcək inkişafına xidmət etməlidir və s.

Şagirdi öyrənərkən onun əməksevərliyini bilmək də çox əhəmiyyətlidir. Onun təlim əməyinə və fiziki əməyə münasibəti nə vəziyyətdədir; əməyin ayrı-ayrı növünə necə yanaşır, əgər əməyə mənfi münasibət varsa, bu haradan irəli gəlib, özünü kollektiv əməkdə necə göstərir və s.

Şagirdlərin hərtərəfli qabiliyyətə malik olan insan kimi yetişməsində məktəbdənkənar tərbiyə müəssisələrinin özünəməxsus rolu vardır. Məktəbdə olduğu kimi, məktəbdənkənar işlərdə də şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almağın, kollektiv fəaliyyət prosesində kollektivi ahəngdar mütəşəkkil surətdə yetişdirmək, elmi biliklərə yiyələndirmək üçün hər bir şagirdə fərdi yanaşmağın böyük əhəmiyyəti vardır.

Məktəbdənkənar tərbiyə müəssisələrində aparılan işlər məktəbin ümumi təlim-tərbiyə işinin ayrılmaz tərkib hissəsidir. O, hər cür bacarığa, qabiliyyətə malik olan insan yetişdirmək məqsədinə xidmət edir. Bu işin düzgün təşkili hər bir şagirdin təlim müvəffəqiyyətinin artmasına kömək edir, maraq və meylinə müvafiq məşğələ və əyləncə növü seçməsinə imkan yaradır, yaradıcılığını inkişaf etdirir. Buna görə də məktəbdənkənar tərbiyə işinin təşkilinə aşağıdakı tələblər verilir ki, bunlar da uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınmasında az əhəmiyyət daşımır.

1. Məktəbdənkənar tərbiyə müəssisələrində aparılan işlər məktəbdə aparılan işlə üzvü surətdə bağlı olmalıdır;

2. Məktəbdənkənar tərbiyə müəssisələrində uşaqlarla aparılan fərdi işlər uşaq və yeniyetmələrin çoxtərəfli marağını tə'min etməlidir;

3. Aparılan söhbətlər, nümunələr müasir həyatla sıx bağlı olmalıdır;

4. Şagirdlərlə aparılan fərdi işlər hər bir şagirdin dünyagörüşünün genişlənməsinə, yaradıcılıq qabiliyyətinin inkişafına biliyinin möhkəmlənməsinə kömək etməlidir.

Məktəbdənkənar tərbiyə işlərində şagirdin təlim fəaliyyəti başqa xarakter daşıyır. Burada şagirdə daha çox müstəqillik verilir. İş prosesində şagird əsasən öz biliyindən istifadə edir, kənardan kömək olmadığı halda, onu yeni bilik sahəsinə tətbiq edir, təcrübədən keçirir.

Məktəbdənkənar işlərin bir çox növlərində geniş şagird kütləsi deyil, maraq meylinə görə bir qrup şagird iştirak edir. Bu da ayrı-ayrı şagirdlərə fərdi yanaşmaq üçün istər müəllimə, istərsə də dərnək rəhbərlərinə geniş imkanlar verir.

İstər biliyə, istərsə də texnikaya tələbat yaratmaqda dərslə yanaşı, məktəbdənkənar tərbiyə müəssisələrində aparılan işlər də müstəsna əhəmiyyət kəsb edir. Onu da nəzərə almaq lazımdır ki, məktəbdənkənar işlərə həddən artıq cəlb edilmə və işin düzgün təşkil edilməməsi şagirdlərin marağına mənfi təsir göstərə bilər. Məhz ona görə də müəllim-dərnək rəhbəri şagirdləri belə işlərə cəlb edərkən, onların hər birinin fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Bu zaman şagirdləri elə işə cəlb etmək olar ki, bu həm onun təlimə olan maraq və meylini artırar, həm də qabiliyyət və bacarığını inkişaf etdirər.

Şagirdin fərdi xüsusiyyətinə, qabiliyyət və meylinə müvafiq elə məktəbdənkənar müəyyən etmək lazımdır ki, bu iş onun həm zövqünə, həm də müəyyən fənnə olan marağına müsbət təsir göstərsin.

Şagirdi hər hansı məktəbdənkənar işlərə cəlb edərkən elə etmək lazımdır ki, o tərbiyə obyektinə çevrildiyini hiss eləsin. Ayrı-ayrı şagirdlərdə peşəyə maraq yaratmaqda da onun böyük əhəmiyyəti vardır.

Şagirdlərin məktəbdənkənar işlərə cəlb edilməsi fərdi xüsusiyyətlərini, biliyindəki üstün cəhətləri, çatışmamazlıqları öyrənməklə sıx bağlıdır. Dərsdə olduğu kimi məktəbdənkənar işlərdə də şagirdlərin fərdi xüsusiyyətlərini öyrənmək üçün geniş imkanlar vardır. Belə ki, dərnək rəhbəri uşaqların meyl və maraqlarını, bacarıqlarının hansı sahəyə daha çox istiqamətləndiyini hiss etdikdə o sahədə göstərişlər verir və onları uyğun peşələr üzrə dərnəklərə cəlb edir. Bu zaman uşaq və yeniyetmələr yaradılan imkanlar daxilində öz bilik və bacarıqlarını sərf edirlər ki, bu da onların gələcəkdə hansı peşəyə istiqamətlənməsinə və ya hansı peşə seçməsinə zəmin yaradır.

Buradan aydın olur ki, şagirdlərin fərdi xüsusiyyətlərini bilmək azdır, həm də onlara vaxtında köməklik göstərmək lazımdır.

Təcrübələr göstərir ki, bəzi müəllimlər fərdi xüsusiyyətlərin nəzərə alınması prinsipinin tətbiqində mühüm rol oynayan fərdi keyfiyyətlərin öyrənilməsi metodikasına dərin yiyələnməyiblər. Onlar ayrı-ayrı şagirdlərin fərdi keyfiyyətlərini, onların biliyindəki üstün və zəif cəhətləri düzgün müəyyənləşdirmədən təlim-tərbiyə işi aparırlar. Bu da əsasən müvəffəqiyyətsizliklə nəticələnir. Bəzi müəllimlər isə fərdi yanaşmanı çox səhv olaraq, ancaq dərslərdən müvəffəq qiymət almayanlara və intizamsızlıq edən şagirdlərə aid edirlər. Bu zaman şagirdlərin meyl və marağı, müxtəlif peşəyə həvəsi, qabiliyyəti və bacarığı kənarda qalır.

Sinifdə olan eyni yaşlı uşaqların ümumi cəhətləri ilə bərabər onların hər birinin özünəməxsus cəhətləri də vardır: birinin görmə hafizəsi qüvvətlidir, biri sürətlə fikirləşir, o biri nisbətən zəif fikirləşir, biri təlimin çətinliklərindən qorxur, o birisi isə çətinliklərə can atır, biri texnika ilə maraqlanır, digəri heç bu haqda fikirləşmir və s. Şagirdlərdə təsadüf edilən belə fərdi fərqlər bir tərəfdən onların sinir sistemi tipi və temperament xüsusiyyətləri ilə, digər tərəfdən təlim tərbiyə ilə, yaşadıqları mikromühüt ilə əlaqədardır. Temperament xüsusiyyətlərindən fərqli olaraq xarakterdəki fərdi fərqlər təlim-tərbiyə ilə daha çox bağlı olur.

Məktəbdənkənar tərbiyə işlərinin səmərəli təşkili üçün şagirdlərin qeyd etdiyimiz fərdi xüsusiyyətlərini bilmək və bu xüsusiyyətlərin mənşəyindən baş çıxarmaq, onların əmələ gəlməsi səbəblərini öyrənmək tələb olunur.

Fərdi yanaşma prinsipinin mahiyyəti fərdi keyfiyyətləri öyrənməklə tamamlanmır, həm də şagirdlərin müstəqil fəaliyyətindəki çatışmamazlıqlar bu prinsipin köməyi ilə aradan qaldırılır, onlarda yeni-yeni keyfiyyət yaratmaq olur ki, bu keyfiyyətlər hər bir şagirdin sonrakı təlim fəaliyyətində həlledici rol oynayır.

Ədəbiyyat

1. Kazımov N.M. Məktəb pedaqogikası. Dərslik, Bakı, 2009
2. Qaralov Z.İ. Tərbiyə (üç cilddə). Bakı, 2003
3. Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri. Azərnəşr, Bakı, 1961.

У.М.Мамедова

Пути организации воспитательных работ во внешкольных воспитательных учреждениях

Резюме

В статье исследуется организационное положение воспитательных работ во внешкольных воспитательных учреждениях, а также указываются различные пути их организации в современном периоде и обосновывается самый рациональный из них. Данная статья является особо значимым методическим материалом для воспитателей.

U.M.Mammadova

Roads of rational formation works in out of-school establishments

Summary

In article investigated the situation of formation of profession works in out-of school establishments, showed the rational form of their form roads and based the more rational of them. Article is an especially important material for teachers.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 25.07.2017

T.MƏMMƏDZADƏ

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALMAN DİLİ DƏRSLƏRİNDƏ İSTİFADƏ OLUNAN QISAMETRAJLI FİLMLƏR VƏ ONLARIN ALMAN DİLİ DƏRSLƏRİNDƏ KREATİV İSTİFADƏSİ

***Açar sözlər**: multimedia vasitələri, İKT vasitələri, qısametrajlı filmlər, xarici dilin mənimsənilməsi*
***Ключевые слова**: мультимедийное оборудование, средства ИКТ, короткие фильмы, осваивая иностранный язык*
***Key words:** multimedia equipment, ICT facilities, short films, mastering a foreign language*

Əsrlər dəyişdikcə öyrənmə üsul və metodları da dəyişir. Dərs fəaliyyəti başlayan andan etibarən xaricə dilə yalnız tədris fənni kimi yox, eyni zamanda onun ünsiyyət vasitəsi kimi praktik əhəmiyyəti nəzərə alınaraq yanaşılmalıdır. Bildiyimiz kimi, dilə yiyələnmək üçün yalnız dil sistemi haqqında nəzəri biliklər kifayət etmir. Bu barədə L.Blumfild söyləmişdir: ”Dili mənimsəmək və ona yiyələnmək praktika məsələsidir. Hər hansı bir musiqi əsərini təşkil edən notların fortepianonun hansı klavişlərinə uyğun gəldiyini əzbərləmək olar. Ancaq gərgin uzunmüddətli məşq olmadan həmin əsəri çalmaq mümkün deyil. Bu dildə də belədir” Buradan belə nəticəyə gəlirik ki dilin mexanizmini bilmək, onun formaları və bu formaların bir-birinə nisbətini, əlaqəsini bilmək lazımdır. Lakin yalnız bu kifayət etmir, yəni tədrisin istiqaməti dilyönümlü yox, nitqyönümlü olmalıdır .Bir çox hallarda, xüsusən də tədrisin ilkin mərhələsində xarici dil biliklərinin qaneedici dərəcədə olmaması izolyasiyaya imkan vermir. Xüsusən tədrisin ilkin mərhələsində xarici dil bilikləri artıq bilik yox, vərdiş səviyyəsində olmalıdır ki, bu da izolyasiya üçün tam şərait yaradır. Xarici izolyasiya isə daxili izolyasiyanın yaradılmasını və ona əməl olunmasını mümkün edən xarici mühit, şəraitdir”. Belə şəraitin yaradılması işində əsas yük müəllimə düşür, çünki xarici dil dərslərində müəllim təkcə öyrədən tərəf deyil, həm də öyrənənləri istiqamətləndirən tədris metodikası kreativliyi yenilikçi düşüncəsi ilə tədris etdiyi fənni rəngləndirəndir. Ümumiyyətlə dünya şöhrətli alimlər kreativ üsullarla öyrənməni hər zaman digər üsullara nisbətən daha effektiv hesab edirlər. Müasir dövrümüzdə eşitmə və anlamanı yaxşılaşdırmaq məqsədilə alman dili dərslərində bir sıra köməkçi IKT və multimedia vasitələrdən istifadə olunur ki bunlardan da ən məqsədə-uyğunu qısametrajlı filimlər hesab olunur. Təbii nitq situasiyalarının yaradılmasının rolu yalnız “dinləyən-müəllim”i “dinləyən-real dil daşıyıcısı” ilə əvəz edərək müəllimin işini yüngülləşdirməklə məhdudlaşmır. Şifahi nitqin yuxarı mərhələdə tədrisi latent üsulla aparılmalıdır ki, bu da öz növbəsində təbii mühitdə mümkündür. Təbii nitq situasiyalarını təbii mühitdə yox, dərs mühitində, tədris prosesi ilə bilavasitə bağlı olan filmlərlə yaratmaq mümkündür. Bu baxımdan süni dərs mühiti və təbii nitq situasiyası arasında tarazlığın yaradılması müəllimin qarşısına bir sıra vəzifələri qoyur. Müəllim çalışmalıdır ki, filmin nümayişı zamanı tələbə özünün dərs fəaliyyəti, öyrənmə ilə məşğul olduğunu mümkün qədər az hiss etsin. Qısa metrajlıfilmlərin alman dili dərslərində istifadəsi dərsin nəzəri və praktik baxımdan səmərəliliyini artırır. Belə filmlərin dil dərslərində nümayişində əsas məqsəd keçirilən dərsin nəzəri və praktiki baxımdan səmərəliliyini artırmaq və onlarda bir sıra dinləmə və anlama vərdişləri yaratmaqdır. Alman dili dərslərində qısametrajlı filmlərin nümayişi üçün bir neçə period vardır ki bunlar da aşağıdakı kimi sıralanır: 1) izləmədən öncə; 2) izləmə zamanı; 3) izləmədən sonra.

Izləmədən öncə yəni filmin dərs zamanı nümayişindən öncə müəllim öyrənənlərə filmlə bağlı müəyyən məlumat verməli, filmlə əlaqəli olan iş vərəqələrini paylanmalı və öyrənən-

lərin etməli olduqları tapşırıq müəllim tərəfindən dəqiq və anlaşılan şəkildə izah olunmalıdır. İzləmə zamanı isə informasiyanı dərk edib anlaşılması üçün müəllim tərəfindən müvafiq şərait yaradılmalıdır. Tədqiqatlar göstərir ki, qəbul olunan informasiyanın dərk olunması həmişə: materialın hissələrə bölünməsi; məna qruplarının yaradılması, əsas məna daşıyan məqamların xüsusi qeydi; əvəzləyici ekvivalentlərin təyini hesabına baş verir. Ekvivalentlərin müəyyənləşdirilməsində eşitmə və görmə vasitəsilə qavranılan söz və söz birləşmələri bütöv mətnin hissələrini yaddaşda saxlamağa imkan verən sadə siqnallar və ya əyani obrazlarla əvəz olunur. İzləmədən sonra isə şagirdlər filmdə baş verənləri öz sözləri təsvir edir, müzakirələr aparır, iş vərəgəsindəki cavablar müəllim tərəfindən yoxlanılır və öyrənənlər düzgün istiqamətləndirilir. Bütün bu prosedurlardan bu nəticəyə gəlmək olar ki xarici dil dərslərində istifadə olunan filmlər təkcə passiv film izləməkdən ibarət olmayıb filmldəki informasiyanın dərk edilib yaddaşda daha effektiv saxlanılmasına təkan verir.

Əsasən alman dili dərslərində qısametrajlı filmlərin nümayişi zamanı əsasən nəzərə alınmalı cəhətlər aşağıdakılardır: 1) filmin adı və məzmunu; 2) filmin janrı 3) dil səviyyəsinə uyğun olması; 4) yaş kateqoriyası; 5) məqsəd və hədəf.

Məhz yuxarıda sadalanan bu səbəblərə görə belə nəticəyə gəlirik ki, xarici dil dərslərində istifadə olunan filmlər təkcə nümayiş olunmalı deyil tələbələr tərəfindən müzakirə olunmalı və müəllim tərəfindən məqsəd qoyulmalı, həmçinin tələbələrin filmə dair fikirləri və gəldikləri şəxsi qənaət soruşulmalıdır. Nümayiş olunan film mütləq şəkildə nəzəri, praktiki və metodiki baxımdan müəyyən olunmuş standartlara cavab verməlidir. Xarici dil dərslərində istifadə olunan filmlər bir sıra səbəblərə görə müasir dövrümüzdə çox aktualdır. Buna misal olaraq sosial, iqtisadi, siyasi, mənəvi səbəbləri göstərə bilərik. Alman dili dərslərini effektiv tədris etmək üçün Goethe İnistitutunun Alman dili müəllimlərinə dəstək məqsədilə çəkdiyi bir sıra qısametrajlı filmlər vardır ki hal hazırda onlar alman dili dərslərində geniş istifadə olunur. Onlara misal olaraq “Mein Weg nach Deutschland“ , „Jo Jo sucht Glück“, “ Deutsch Extra“ “Mission Berlin” “Tatort” “Julia Wege zum Glück “kimi qısa metrajlı filmlərini göstərmək olar.

Ədəbiyyat

1. Barsuk R.Y. Azərbaycan məktəblərində xarici dil təliminin metodikasının bəzi məsələləri // Azərbaycan məktəbi, Bakı, 1965, № 8, s. 29-33.
2. Barsuk R.Y., Seyidov F. Nitq inkişafına dair metodik izahat (şəkillər üzrə). Bakı: Maarif, 1967.
3. Hüseynzadə G. Xarici dillərin tədrisində islahatların tətbiqi: Müəllimyönümlü tədrisdən tələbəyönümlü tədrisə keçid /Elm ilinə həsr olunmuş xarici dillərin tədrisinin aktual problemləri II Respublika elmi konfransının materialları. Bakı: ADU Nəşriyyatı, 2009, s. 220-226
4. İxtisas və tərcümə fakültələrində alman dilinin şifahi və yazılı nitq praktikası fənni üzrə tədris proqramı /B.S.Həsənovun redaktəsi ilə. Bakı, 2005, 38 s.
5. Qazıyeva M. Xarici dilin tədrisində nitq ünsiyyəti üçün vacib olan psixoloji xüsusiyyətlər / Xarici dillərin tədrisinin aktual problemləri III Respublika elmi konfransının materialları. Bakı: ADU Nəşriyyatı, 2010, s. 191-195
6. Yunusov D. Konstruktiv dialoq və ya düzgün ünsiyyət qurmaq qabiliyyəti / Mədəniyyətlərarası dialoq: Linqvistik, pedaqoji və ədəbi aspektlər Beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 2010, s. 336-338
7. Veysəlli F.Y. Dilöyrənmənin praqmatik aspekti / Orta və ali məktəblərdə xarici dillərin tədrisinin aktual problemləri Respublika elmi konfransının materialları. Bakı: ADU Nəşriyyatı, 2008, s. 214-218
8. Barbara B. Visualisierung in Lehrwerken für DaF. Ein Beitrag zur Gedächtnisschulung / Gedächtnis und Sprachlernen, Regensburg: Fachverband Deutsch als Fremdsprache, 1997, S. 58-72
9. Bausch K.R., Christ H., Krumm H.J. Handbuch Fremdsprachenunterricht. 3. Aufl., Tübingen: Francke, 1995, 585 S.
10. Doelker C. Multimedia ist Multicode / Reflexionen zu Aspekten neuer Medien. Konstanz: Medien Verlagsgesellschaft, 1992, S. 237-246

11. Engel U. Mannheimer Gutachten zu ausgewählten Lehrwerken Deutsch als Fremdsprache. Band. 1., 3. Aufl. Heidelberg: Julius Groos, 1978, 305 S.
12. Funk H. Lehrwerke und andere neue Medien. Zur Integration rechnergestützter Verfahren in den Unterrichtsalltag / Fremdsprache Deutsch. Zeitschrift für die Praxis des Deutschunterrichts. Hueber Verlag, 2000, S. 5-12
13. Rüschoff B. Elektronische Medien / Handbuch Fremdsprachenunterricht. Tübingen, Basel: Francke, 1995, S. 320-323

İstifadə olunmuş linklər
14. www.goethe.de
15. http://www.dw.com/de/deutsch-lernen/deutsch-aktuell/s-2146
16. http://www.deutsch-lernen-online.net/videos

Т.Маммадзаде

Короткометражные фильмы, используемые на уроках немецкого языка и их креативное использование на уроках немецкого языка

Резюме

В представленной статье говоиться о креативном применении краткометражных фильмов используемых на уроках немецкого языка. Отмечается, что существуют определенные черты, которые должы быть учтены при показе короткометражных фильмов на уроках немецкого языка. Они группируются по категориям названий и жанров, с соответствующими уровнями языка, возрастной категории, категории по цели. В конце статьи называются имена некоторых фильмов, используемых на уроках немецкого языка.

T.Mammadzade

Short featured films used in the German lessons and their creative usage in the German lessons

Summary

This article is about creative usage of short films in german classes. Article points out that there is some aspects that should be considered while watching short films in german classes. This aspects is groupped out as following categories: film name and content, film janre, its language level, age category, objective and target. At the end of the article some movies that used in german classes are mentioned.

Rəyçi: filol.f.d., dos. S.Adışova

Redaksiyaya daxil olub: 12.06.2017

N.İ.MUSAYEV
pedaqogika üzrə elmlər doktoru, professor
e-mail: drmusayev@gmail.com

Azərbaycan Tibb Universiteti
(Bakı şəh., Səməd Vurğun, 167)

FİZİKİ MODELLƏŞDİRMƏ VƏ ONUN TİBBİ TƏHSİLDƏ ROLU

Açar sözlər: *modelləşdirmə, ürək, təhsil, fiziki, qan dövranı*
Ключевые слова: *моделирование, сердце, образование, кровообращение*
Key words: *modeling, heart, education, physical, blood circulation*

Müasir dövrdə təhsil alanların bilik və bacarıqlarını formalaşdırmaq üçün müxtəlif pedaqoji yanaşmalardan, interaktiv üsullardan, pedaqoji və təlim texnologiyalardan istifadə edilir. Təhsil sistemində, o cümlədən tibbdə təhsilin keyfiyyətinin yüksəldilməsində dəqiq elmlərin rolu daha böyükdür. Bu elmlərin tibbə gətirilməsi, həm təhsildə və həm də praktik təbabətdə fizika qanunlarından, fiziki və riyazi modelləşdirmələrdən, İKT-dən istifadə xüsusi əhəmiyyət daşıyır. Modelləşdirmə biofizikanın əsas tədqiqat üsullarından biri olub, canlı sistemlərin öyrənilməsinin bütün pillələrində: molekulyar biofizikadan başlamış, membran biofizikası, hüceyrə və orqan biofizikası və mürəkkəb sistemlərin biofizikasına qədər bütün sahələrdə istifadə edilir.

Canlılarda fizioloji proseslər o dərəcədə mürəkkəbdir ki, onlar haqda tam məlumat almaq qeyri mümkündür. Ona görə də tədqiqatçı, yeni müalicə, diaqnostika, formasiya və s. üsulları tətbiq edərkən həmin obyekti (prosesi, hadisəni) şüurlu sürətdə sadələşdirilmiş modellə əvəz edir. Təcrübi olaraq biofizika kursunun bütün sahələrində cürbə-cür modellərdən: membranın maye-mozaika modeli, təsir potensialının formalaşması modeli (Xodjkin-Xaksli modeli), əzələlərin yığılmasını xarakterizə edən sapların sürüşməsi modeli, qan-damar sisteminin modeli (Frank modeli) və b. istifadə edilir. Model - tədqiq olunan obyektin sadələşmiş forması olmaqla bərabər həm quruluşuna, həm də daxili və xarici əlaqələrinin mürəkkəbliyinə görə tədqiqatçını maraqlandıran əsas xassələri özündə saxlamalıdır. İdeyaya görə həm nəzəri, həm də təcrübi tədqiqat üsullarının hamısı əslində modelləşdirmə üsuluna əsaslanmalıdır.

Modelləşdirmənin əsas etapları aşağıdakılar hesab edilə bilər:

1. İlkin informasiya toplanması. Tədqiqatçı tədqiq olunan obyekt haqqında: onun xassələri, onda baş verən proseslər, müxtəlif xarici şəraitlərdə onun xassələrinin qanunauyğunluqları haqda mümkün qədər çox informasiya toplamalıdır.

2. *Məsələnin qoyuluşu.* Tədqiqatın məqsədi, vəzifələri formalaşdırılır, bu tədqiqat nəticəsində hansı yeni biliklər qazanılacağını müəyyənləşdirir. Bu etap ən əhəmiyyətli və ən çox zəhmət tələb edən hissədir.

3. *Aparılacaq əsas sadələşdirilmələr əsaslandırılır.* Başqa sözlə real obyekt sadələşdirilir, obyektin xarakteristikalarından tədqiqat üçün əhəmiyyəti olmayan və atılması mümkün olan hissələr seçilib atılır.

4.*Model seçilir, tədqiqat müəyyənləşdirilir.*

5.*Modelin real obyektə adyekvatlığı yoxlanılır.* Modelin tətbiq olunma sərhəddi göstərilir.

Beləliklə, model, real obyektin sadələşdirilmiş formasını, tədqiqatın məqsədi ilə razılaşdırır: bir tərəfdən obyekti sadələşdirir, digər tərəfdən-tədqiqatçını maraqlandıran əsas göstəriciləri özündə saxlayır. Modelləşdirmənin gedişatı sxem 1-də verilmişdir.

Model-istənilən fiziki təbiətə malik abstrakt və ya maddi reallaşdırılmış obyekt ola bilər. Modelləşdirmə nəinki cisimlərin əyani əksini çıxarmaq (məsələn planerlərin modelini düzəltmək) kimi başa düşülməli, həm də hadisə və proseslərin mənasını dərindən başa düşmək və tədqiq etmək üçün həyata keçirilən elmi tədqiqat üsulu qəbul edilməlidir. Modelləşdirmənin əsasını maddi aləmin və materiyanın atributlarının vahidliyi və tamlığı təşkil edir.



Sxem 1

Tibbdə əsas etibarilə həndəsi, bioloji, fiziki (fiziki-kimyavi) və riyazi modelləşdirmədən istifadə edilir. Həndəsi model orijinalın xarici əksidir-anatomiya, biologiya və fiziologiya dərslərində, mulyajlar kimi istifadə edilir. Bioloji (fizioloji) modellərin düzəldilməsi, laboratoriya şəraitində hər hansı vəziyyətin (yaşayış tərzinin, halın), təcrübi heyvanlarda əks etdirilməsidir. Bu modeldə hər hansı vəziyyətin gediş mexanizmi, onun dəyişdirilməsi yolları öyrənilir, orqanizmə təsir vasitələri müəyyənləşdirilir. Belə modellərə misal olaraq süni şəkildə törədilmiş infeksion xəstəlikləri, orqanizmdə şişkinliyin yaradılması, irsi pozğuntular, bəd xassəli törəmələrin yaradılması, süni şəkildə törədilmiş nevrozlar və müxtəlif emosional vəziyyətləri misal göstərmək olar. Bu modelləri düzəltmək üçün təcrübi heyvanlara müxtəlif şəkildə təsirlər göstərilir: mikroblarla yoluxdurma, müxtəlif hormonların orqanizmə yeridilməsi, yeməklərin tərkibinin dəyişdirilməsi, periferik sinir sisteminə təsir göstərilməsi, yaşamaq şəraitinin və mühitinin dəyişdirilməsi və s. Bioloji modellər biologiya, fiziologiya, farmakologiya və genetika üçün əhəmiyyətlidir.

Fiziki-kimyəvi modellər daha ideallaşdırılmış modellərdirvə bioloji obyektlərin uzaq oxşarları sayılır. Tibbdə ən əhəmiyyətli model, hüceyrənin sitoplazmatik membranının xassələrini öyrənməyə imkan verən sünii fosfolipid membranı modelidir. Belə membranlar uzun müddət saxlanıla və istifadə olunan modellərdir. Süni membranlar, həqiqi membranların müxtəlif xassələrini: ionları nüfuz etdirmə qabiliyyətini, fiziki-kimyəvi parametrlərini, aktiv və passiv nəqliyyatın mexanizmini, xarici amillərin nüfuz etdirməyə təsirini və s. öyrənməyə imkan verir. Bu membranın alınma sxemi şəkil 1-də verilmişdir.

Praktiki nöqteyi-nəzərdən ən əhəmiyyətli model hüceyrə, orqan və bütöv orqanizmin fiziki-kimyəvi yaşayış şəraitini təmin edə biləcək şəraitin modelləşdirilməsidir. Məsələn, hüceyrə və orqanların orqanizmdən kənar şəraitdə yaşayışını təmin edə biləcək məhlullar, canlı orqanizmin uyğun məhlullarını imitasiya edən modellərdir.

Orqanizmdə baş verən müxtəlif proseslərin mürəkkəb və qarşılıqlı əlaqədə olmalarına baxmayaraq əslində onların bir çoxu fiziki proseslərə çox yaxındırlar. Məsələn, mürəkkəb fizioloji proses olan qan dövranı: öz əsasına görə hidrodinamika, rəqslər və dalğalar, iş və güc, biopotensialın generasiyası və s. kimi fiziki proseslər toplusu kimi qəbul edilə bilər. Bu analogiyalardan istifadə etməklə ürək-damar sisteminin fiziki modelini düzəltmək olar.



Şəkil 1

Bildiyimiz kimi, qapalı dövrədə elektrik cərəyanının daimi mövcudluğunu təmin etmək üçün cərəyan mənbəyi tələb olunur. Cərəyan mənbəyi dövrədə potensiallar fərqi yaradır ki, bu da qapalı dövrədə müqaviməti dəf edərək yüklərin nizamlı hərəkətini, yəni cərəyanın mövcudluğunu təmin edir. Analoji olaraq qapalı

hidrodinamik dövrədə mayelərin daimi hərəkətini təmin etmək üçün "nasos" tələb olunur. Bu nasos hidravlik müqaviməti dəf edərək qapalı dövrədə mayenin hərəkətini təmin edir. Qan dövranı sistemində belə nasos rolunu ürək oynayır. Termodinamik nöqteyi-nəzərdən ürək, ürəyin kimyəvi enerjisini mexaniki enerjiyə çevirən və ritmik işləyən bir "qurğudur".



Şəkil 2

Beləliklə, ürək-damar sisteminin əyani modeli kimi, maye ilə dolu olan elastik divarlı armudcuq və çoxlu sayda şaxələnmiş elastiki divarlı borulardan ibarət sistemi qəbul etmək olar. Bu sistemdə mayenin hərəkəti, iki K_1 və K_2 klapanı olan və ritmik işləyən armudcuq şəkilli nasos vasitəsilə həyata keçirilir Şəkil 2 a, ürək damar sisteminin hipotetik mexaniki modeli, şəkil 2 b-də onun elektrik modeli verilmiş və şəkil 2 c-də isə ürək-damar sistemində təzyiqin və sürətin paylanması verilmişdir.

Araşdırmalar göstərir ki, qanın ürək-damar sistemində hərəkəti, qan axarının mənbəyi (aorta) və mənsəbi (boş venalar) arasında ürəyin fəaliyyəti nəticəsində yaradılan təzyiqlər fərqi hesabına baş verir. Orqanizmin normal durumunda damar sisteminin arterial sistemində qanın axın sürəti, damarın divarından onun oxuna tərəf getdikcə simmetrik şəkildə artır, parabolik qanuna uyğunluğa tabe olur və

$$\upsilon = \frac{p_1 - p_2}{4l\eta}\left(R^2 - r^2\right) \qquad (5)$$

ifadəsinə bərabər olur. Borunun oxu boyunca (r=0) axan təbəqə maksimal sürətlə axır və

$$\upsilon_{\max} = \frac{(p_1 - p_2)R^2}{4L\eta} \qquad (6)$$

düsturu ilə ifadə olunur.

Damarın en kəsiyindən vahid zamanda axan mayenin həcmi

$$Q = \frac{\pi R^4}{8\eta}\frac{p_1 - p_2}{l} \qquad (7)$$

riyazi düsturu ilə təyin olunur və zərbə həcmli qan adlanır. Bu ifadəyə Qaqen-Puazeyl düsturu deyilir. Qaqen-Puazeyl düsturu (7) və qapalı elektrik dövrəsinin, dövrə hissəsi üçün Om qanunu (İ=U/R)biri-biri ilə analojidir. Bu analogiyada potensiallar fərqi-borunun uclarındakı təzyiqlər fərqinə, cərəyan şiddəti-vahid zamanda borunun en kəsiyindən axan mayenin həcminə (qanın zərbə həcminə), elektrik müqaviməti isə *hemodinamik müqavimətə* uyğun gəlir. Qaqen-Puazeyl düsturunda

$$X = \frac{8\eta l}{\pi R^4} \qquad (8)$$

ifadəsi hemodinamik müqavimətdir. Düsturdan göründüyü kimi, mayenin özlülüyü η, maye axan borunun uzunluğu l nə qədər çox olarsa və borunun en kəsiyinin sahəsi nə qədər az olarsa, hemodinamik müqavimət o qədər çox olar. Elektrik və hidravlik müqavimətlər arasında mövcud olan belə analogiya, bir çox hallarda, ardıcıl və paralel birləşmiş damarlarda hemodinamik müqavimətlərin tapılmasında istifadə edilir.

Özlü mayelərin elastiki divarlı borularda axınının tədqiq edilməsi, tibbi diaqnostika və müayinə vaci rol oynayır. Belə ki, belə borularda maye axınının tədqiq edilməsi, borunun müxtəlif hissələrində axının xarakterinin öyrənilməsi, orqanizmin ayrı-ayrı hissələrinin qanla təminatını müəyyənləşdirmək işində böyük əhəmiyyət daşıyır.

Problemin aktuallığı. Yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında aktiv metodların o cümlədən modelləşdirmədən istifadə edilməsi yüksək ixtisaslı həkim hazırlığında aktiv problemlərdən biridir.

Problemin elmi yeniliyi. Fiziki və fizioloji proseslər arasındakı analogiyalardan və modelləşdirmədən istifadə edilməsi tibbi təhsil prosesində tədrisə gətirilmiş yeni tədris üsuludur.

Problemin praktik əhəmiyyəti. Tibbi təhsildə tədrisə belə yanaşma tələbələrin zehni inkişafına müsbət təsir göstərir, tədrisin keyfiyyətinin yüksəlməsinə səbəb olur.

Ədəbiyyat

1. Musayev N. İ. Fiziki modelləşdirmə, onun tibbi və bioloji fizika və fiziologiyanın tədrisində rolu // Odlar yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri, 2008, № 26
2. Бабский Е. Б. и др. Физиология человека. М.: Медицина, 1966.
3. Губанов Н. И., Утепбергенов А.А. Медицинская биофизика. М.: Медицина, 1978.

Н.И.Мусаев

Физическое моделирование и его роль в медицинском образовании

Резюме

Статья показывает роль моделирования в образовании, а также роль биологического, физического, и математического моделирования в медицинской диагностике и научных исследованиях, с комментариями относительно роли физического моделирования в преподавании физиологии, медицинской и биологической физики и в исследовательских работах, а также требований к моделированию и его общих принципах. Особое внимание уделено физическому моделированию при изучении сложнейших физиологических процессов, физиологии сердечно-сосудистой системы и внутриклеточных процессов в частности.

N.I.Musayev

Physical modelling ant its role in medical education

Summary

The article shows the role of biological, physical and mathematical modeling in medical diagnostics and scientific research activities and general modeling during education, with comments on role of physical modeling in teaching physiology, medical and biological physics, medical diagnostics and research activities, as well as on requirements against modeling and its general principles. A special attention was paid to blood and circulation and intra-cellular process review and modeling.

Rəyçilər: ped.e.d., prof. N.Səfərov,
ped.f.d. Ə.Gərayev

Redaksiyaya daxil olub: 20.07.2017

G.S.MÜSLÜMOVA
filologiya üzrə fəlsəfə doktoru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ FONETİK ÇALIŞMALARIN ƏHƏMİYYƏTİ

Açar sözlər: *düzgün tələffüz, kompleks yanaşma, fonetik çalışmalar*
Ключевые слова: *правильное произношение, комплексный подход, фонетические упражнения*
Key words: *correct pronunciation, complex approach, phonetic assignments*

Azərbaycan dünya birliyi ölkələri ilə ictimai həyatın bütün sahələrində səmərəli əməkdaşlıq edən bir ölkədir. Buna görə də başqa fəaliyyətlərlə yanaşı, bir neçə dildə ünsiyyət qurmağı bacaran, kommunikativ bacarıqları formalaşmış şəxsiyyət yetişdirmək təhsilin ən ümdə vəzifələrindən biridir.

Xarici ölkələrlə gündən-günə artan siyasi, iqtisadi, mədəni əlaqələr, respublikamıza artan maraq, xarici ölkə şirkətlərinin və firmalarının ölkəmizlə işbirliyi, zəngin turist axını və s. faktlar xarici dillərin daha dərindən və əməli şəkildə öyrənilməsini tələb edir. Buradan aydın olur ki, xarici dillərin tədrisi praktik xarakter daşımalı və tələbələrdə ünsiyyət bacarıqlarının inkişaf etdirilməsinə yönəldilməlidir. Tələbələrin xarici dil vərdişlərinin inkişaf etdirilməsində isə ən vacib məsələlərdən biri xarici dildə düzgün tələffüz vərdişlərinin formalaşdırılması məsələsidir.

Məlum olduğu kimi, dərs prosesində tələbələrə müvafiq bacarıq və vərdişlər də aşılanır və xarici dil dərslərində bu məsələ daha ciddi əhəmiyyət kəsb edir. Çünki hər hansı xarici dili öyrənmək həmin dilin leksik tərkibi, fonetik və qrammatik quruluşu və s. haqqında müəyyən bilik almaqla bərabər öyrənilən dil üzrə bir sıra bacarıq və vərdişlərə də yiyələnməyi tələb edir. Bunlarsız hər hansı xarici dili öyrənməyi təsəvvür etmək mümkün deyil.

Xarici dil müəllimi tədrisin ilkin mərhələsindən başlayaraq, tələbələlərin bacarıqlarının inkişafını izləməli, xarici dil fənni üzrə şifahi nitqin inkişafını əsas tələb kimi götürülməklə, tələbələrin ünsiyyət bacarıqlarının formalaşdırılması ilə yanaşı, onlarda digər vərdişlərin də formalaşdırılmasına yardımçı olmalıdır. Həmçinin tələbələrin lüğət ehtiyatını zənginləşdirilməli, ən zəruri qrammatik anlayışların və dil konstruksiyalarının mənimsənilməsi, dinləyib-anlama vərdişləri, oxu, yazı texnikası və yazılı nitqi inkişaf etdirilməlidir.

Hər hansı xarici dildə danışmaq üçün qrammatik qaydaları bilmək və müəyyən qədər söz bazasına malik olmaq azdır. Bu qaydaların və sözlərin ifadə tərzini öyrətmək və eyni zamanda öyrənmək çətin prosesdir. Bu prosesi düzgün öyrətmək və öyrəncilərə şifahi nitq vərdişləri aşılamaq üçün müəllimlər müxtəlif üsul və priyomlara müraciət etməlidirlər.

Xarici dillərin tədrisi praktik əhəmiyyət daşıdığından tələbələrin şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi əsas məqsəd kimi qarşıya qoyulur. Şifahi nitqin inkişafı isə düzgün tələffüz vərdişlərinin inkişaf etdirilməsi ilə birbaşa əlaqəlidir. Tələffüz vərdişləri təkcə səslərin öyrədilməsini deyil, eyni zamanda söz vurğusu, cümlə vurğusu, intonasiya, sözlərin əlaqələnməsini də əhatə edir."Xarici dilin fonem tərkibinə maksimum səviyyədə yiyələnmək vacibdir". (4, 391)

Səhv və vaxtında düzəldilməyən vərdişlər nəticədə interferensiya hadisəsini dərinləşdirir. Məsələn, [θ] səsinin **[s]** kimi, **[ð]** səsinin **[z]** kimi tələffüz olunması halları daim rast gəlinən problemdir. Göründüyü kimi, fonetik materialın tədrisi zamanı qarşıya çıxan çətinlik, əsasən, ana dilimizdə olmayan səslərin tədrisi zamanı müşahidə olunur. Diş samitləri adlanan **[θ]** və **[ð]** səsləri ana dilimizdə mövcud olmadığından və ingilis dilində spesifik xüsusiyyət

təşkil etdiyindən Azərbaycanlı şagirdlər həmin səsləri çox çətin mənimsəyirlər. Bu səslərin tələffüzündə çətinlik çəkir və səhvlərə yol verirlər. **[θ]** və **[ð]** səslərini öyrədərkən, müəllimlər həmin səslərin artikulyasiya yerini düzgün başa salmalıdır. Bu səslər **interdental** səslərdir, yəni tələffüz edilərkən dil dişlərin – alt və üst arasında olmalıdır. Dilin uc hissəsi astaca dişlərin arasına qoyulmalı və əmələ gələn nov vasitəsilə səs çölə çıxmalıdır. [θ] səsinin **[s]** kimi, **[ð]** səsinin **[z]** və yaxud **[d]** kimi tələffüz olunması yolverilməzdir və müəllimlər bunu ingilis dilinin tədris olunduğu ilk dövrlərdən diqqət mərkəzində saxlamalıdırlar. "Tələffüzün tədrisi ilə bağlı olan məsələlərin həlli üçün xarici dilin və ana dilinin fonoloji bazasının müqayisəli analizi böyük əhəmiyət kəsb edir". (4, 399)

Göründüyü kimi, uzun müddətli səhv tələffüzün təsiri nəticəsində şagirdin nitqində əmələ gələn vərdişi onun tələbə olduğu ilk dövrdə aradan qaldırmaq, düzgün tələffüz vərdişini yaratmaq mümkün olsa da xeyli çətin olur. Bu proses istər müəllim, istərsə də tələbə üçün uzun və yorucu prosesə çevrilir və hər iki tərəfin böyük enerji sərf etməsinə səbəb olur. Buna görə də orta məktəbdə fonetik çalışmalar sisteminə müraciət olunmalı və fonetik tapşırıqların yerinə yetirilməsinə vaxt ayırılmalıdır. "Şagirdlərdə düzgün tələffüz vərdişlərinin formalaşdırılmasında imitasiyanın (təqlidin) rolu da qeyd edilməlidir. Bu baxımdan autentik tələffüzlə kasetlərə yazılmış dil materiallarının dinlənməsi və şagirdlər tərəfindən müxtəlif növ tapşırıqların icrası müsbət nəticə verə bilər". (3, 17)

Məhz birinci kurs tələbələrinin də qarşılaşdığı ən böyük çətinlik fonetik simvolların tələffüzü ilə bağlı olur. Orta məktəbdə onlarda bu vərdiş ya heç aşılanmamış, ya da dərindən öyrədilməmişdir. Orta məktəblərdə fonetik çalışmaların yerinə yetirilməməsi, onlara lazımi diqqətin ayrılmaması təəssüf doğuracaq haldır. Deməli, birinci kusda dərs deyən müəllimlərin çiyinlərinə ağır yük düşür. Onlar tələbələrin kommunikasiyayönümlü şifahi nitqinin inkişaf etdirilməsində ilk növbədə fonetik simvolların düzgün tələffüz olunmasına, tələbələrdə düzgün tələffüz vərdişlərinin aşılanmasına xüsusi diqqət verməlidirlər.

Məlumdur ki, şifahi nitq materialları fonetik, leksik və qrammatik materiallardan ibarətdir və müasir dərsliklər də, məsələn New English File dərsliyi, məhz bu əsasda tərtib olunub. Bu materiallardan birini digərindən təcrid edilmiş şəkildə götürmək məqsədəuyğun deyil. Bəzən müəllimlər leksik və qrammatik çalışmalara daha çox vaxt ayırmaqla fonetik çalışmalara diqqət yetirmirlər. Unutmaq olmaz ki, fonetik çalışmalar tələbələrin tələffüz vərdişlərini zənginləşdirir, sözlərin oxunub tanınması ilə yanaşı, həm də eşidib anlanılmasına kömək edir. Məsələnin bu cəhətini nəzərə alaraq xarici dil dərslərində tələffüz vərdişlərinin inkişaf etdirilməsinə yönəlmiş çalışmaların yerinə yetirilməsi vacibdir. Belə çalışmalar xarici dili praktik olaraq öyrənmək işində müstəsna əhəmiyyətə malikdir, çünki məhz bu çalışmalar tələbələrdə düzgün tələffüz vərdişləri yaratmaq və onları formalaşdırıb avtomatlaşdırmaq məqsədi daşıyır.

Qeyd olunduğu kimi, müəllimlər tələbələrin şifahi nitq vərdişlərinin inkişaf etdirilməsinə xüsusi önəm verməlidirlər. Şifahi nitq üzrə təşkil olunmuş iş tələbələrin dil vərdişlərinin – həm reseptiv (receptive), həm də produktiv (productive) vərdişlərinin inkişafının əsasını təşkil edir.

Xarici dillərin tədrisi praktik əhəmiyyət daşıdığından tələbələrin şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi əsas məqsəd kimi qarşıya qoyulur. Şifahi nitqin inkişafı isə düzgün tələffüz vərdişlərinin inkişaf etdirilməsi ilə birbaşa əlaqəlidir. "Çalışma həmişə hərəkətin yerinə yetirilməsi üsulunun təkmilləşdirilməsinə yönəldilməlidir. Buna görə də çalışma hərəkətin dəfələrlə təkrar edilməsini nəzərdə tutmalıdır". (3, 7)

Məktəblərimizdə tədris olunan xarici dillərin hər birinin özünəməxsus spesifik çətinlikləri mövcuddur. İngilis dilinin də tədrisində mövcud olan çətinliklərdən biri düzgün tələffüz vərdişlərinin aşılanması məsələsidir. Səsləri düzgün tələffüz etməyən şagirdlərin nitqi səlis olmur və həmin şagirdlər Universitetlərə qəbul olunduqdan sonra da onların tələffüzündə müəyyən problemlər olur ki, bunu da aradan qaldırmaq bir qədər çətin prosesə çevrilir. Sözlər düzgün tələffüz olunmadıqda şifahi nitqi də anlamaq mümkün olmur.

Orta məktəblərdə ingilis dilinin təliminin ilk mərhələsində fonetika, yəni hərflər və səslər tədris olunur. Fonetika ingilis dilinin və ümumiyyətlə digər xarici dillərin də tərkib hissəsi kimi təlim edilir. Deməli, xarici dillərin tədrisi ayrı-ayrı aspektlər (qrammatika, leksika, fonetika) üzrə təcrid edilmiş halda deyil, kompleks yanaşmanın tələblərinə uyğun olaraq əlagəli şəkildə tədris edilir.

Orta məktəblərdə şagirdlərin oxuyub-anlama, oxunulan mətni tərcümə etmə, qrammatik və leksik tapşırıqları yerinə yetirmə vərdişləri formalaşdığı halda, düzgün tələffüz vərdişlərinin formalaşdırılması kölgədə qalır. Beləliklə, şagirdlərin nitqi səlis və rəvan olmur, düzgün tələffüz edilməyən sözlər şifahi nitqin anlaşılmasını çətinləşdirir. Buna görə də, fikrimizcə, düzgün tələffüz vərdişləri hələ ilk dərslərdən aşılanmalıdır.

Göründüyü kimi, İngilis dilinin fonetikasının yaxşı mənimsənilməsi, şifahi nitq vərdişlərinin formalaşdırılmasında müstəsna əhəmiyyətə malikdir. İngilis dilinin fonetikasının münasib şəkildə öyrədilməsi, düzgün tələffüz vərdişlərinin aşılanması məsələləri dil tədrisinin əsasını təşkil etdiyindən buna təlimin ilk günlərindən başlamağın vacib olduğunun bir daha şahidi olduq. Belə olmadığı təqdirdə sonradan tələbələrin ingilis dilinin fonetik normalarını mənimsəməsi işi xeyli çətinləşir və interferensiya hadisəsini - İngilis dilinə xas olan səsləri öz ana dilinə uyğun tələffüz etmə vərdişini tərgitmək çətin prosesə çevrilir. Bütün bunlar fonetikanın əhəmiyyətini nümayiş etdirən konkret faktlardır. İngilis dilinin fonetikasının münasib şəkildə öyrədilməsi, düzgün tələffüz vərdişlərinin aşılanması xarici dillərin tədrisinin əsasını təşkil etməli və buna təlimin ilk günlərindən başlanmalıdır.

Ədəbiyyat

1. Axundov A. Ümumi dilçilik. Bakı: Maarif, 1979
2. Babayev A. Dilçiliyə giriş. Bakı: Maarif, 1992
3. Yusifov G. İngilis dili dərslərində etnopedaqoji və folklor nümunələrindən istifadə yolları (metodik vəsait). Bakı: ADU, 2009
4. Общая методика обучения иностранным языкам в средней школе. Под редакцией А. А. Миролюбова, И. В. Рахманова, В. С. Цетлин. Москва: Просвещение, 1967
5. Harmer J. How to teach English. Harlow, England: Addison Wesley Longman Limted, Printed in Malaysia, 2004
6. Rogova G. V. Methods of Teaching English. Л.: Просвещение, 1975

Г.С.Муслимова

Важность фонетических заданий при преподавании английского языка

Резюме

В статье рассматривается важность фонетических заданий на уроках английского языка, которые считаются наиболее сложной частью преподавания языка. На самом деле, развитие навыков говорения напрямую связано с правильным произношением.

Правильному произношению нужно научить в школьные годы. Студенты должны активно участвовать в заданиях, где практикуется правильное произношение. С помощью фонетических заданий учителя должны стимулировать учащихся запоминать английские фонемы.

G.S.Muslumova

Importance of phonetic assignments at English language teaching

Summary

The article explores the importance of phonetic assignments at English language classes which is considered to be the most difficult part of language teaching. In actual fact, the development of speaking skills is directly connected with the correct pronunciation.

Correct pronunciation must be taught and learned throughout the school years. Students should be actively involved in tasks where correct pronunciation is practiced. With the help of phonetic assignments, teachers should stimulate students to memorize English phonemes.

Rəyçi: filol.f.d. S.M.Bağırova

Redaksiyaya daxil olub: 14.07.2017

R.F.QƏDİMOV
dosent
e-mail: rufat-qadimov@mail.ru

Z.N.ZAHİDOV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr, 98)

FİZİKİ TƏRBİYƏ MÜƏLLİMİNİN PEŞƏ FƏALİYYƏTİNİN ÇƏTİNLİKLƏRİ

Açar sözlər: *fiziki tərbiyə müəlliminin peşə hazırlığı, peşə ustalığı, dərs keçmək bacarığı.*
Ключевые слова*: профессиональное подготовка преподавателя физической культуры, мастерство, умение проведение урока.*
Key words*: professional training of the teacher of physical culture, skill, ability to conduct a lesson.*

Fiziki tərbiyə müəlliminin peşə fəaliyyəti mürəkkəb çoxcəhətli dinamik səviyyə daşıyan yüksək mənəvi-psixoloji keyfiyyətlər tələb edən xalqın maarif və elminin inkişafında mühüm yer tutan fəaliyyət sahəsidir. Qeyd etdiyimiz fəaliyyəti nəzərə alaraq kifayət qədər tədqiq edilməyən pedaqoji fəaliyyət prosesində ciddi aktuallıq kəsb etməsi üçün biz fiziki tərbiyə müəllimlərinin peşə fəaliyyətində raslaşdıqları çətinlikləri aradan qaldırılması problemlərini tədqiqat mövzusu kimi seçmişik. Fiziki tərbiyə müəllimi yüksək səviyədə dərs keçərkən şagirdlərin sağlamlığını, hərəki qabliyyətlərini, fiziki inkşafini, fiziki hazırlığını eyni zamanda mənəvi-iradi keyfiyyətlərini inkşaf etdirməkdən ibarətdir. Məlum məsələdir ki, məqsədi həyata keçirmək maniyəsiz ötüşmür. Bütün bunlar fiziki tərbiyə müəllimlərinin pedaqoji fəaliyyətində qarşılaşdıqları çətinlik və maneələrin artmasında da özünü büruzə verir. Fiziki tərbiyə müəlliminin fəaliyyəti həmişə rəvan, maneəsiz getmir. Fiziki tərbiyə müəllimi bu prosesdə bir sıra pedaqoji çətinliklərə rast gəlir, onları nəzərə almadan və aradan qaldırmadan onun pedaqoji fəaliyyətinin müvəffəqiyyətindən danışmaq mümkün deyil.

Deməli hər bir fəaliyyət kimi fiziki tərbiyə müəlliminin pedaqoji fəaliyyətinin də özünəməxsus spesifik çətinlikləri vardır. Xüsusən də gənc müəllimlərin daha çox rastlaşdıqları çətinliklərin xarakterini məhs xüsusi cəhətlərini onların aradan qaldırılması yollarını pedaqoji-psixoloji mexanizmlərini bilmək son dərəcə böyük elmi və praktiki əhəmiyyət kəsb edir. Fiziki tərbiyə müəlliminin fəaliyyəti şəxsiyyətin pedaqoji - psixoloji xüsusiyyətlərinin ayrı-ayrı cəhətləri nəinki indi eləcə də keçmiş dövrlərdə də bir çox psixoloq və pedaqoqların tədqiq obyekti olmuşdur. Lakin indiyə kimi bu problemlər qalmaqdadır. Problemlər dedikdə; fiziki tərbiyə dərslərində şagirdlərin hərəki qabliyyətlərinin inkişaf etməməsi, normativ göstəricilərinin yeriniə yetirilməməsi, şagirdlərin təlim-tərbiyəsi, məktəbdə fiziki tərbiyə dərslərinin keçirilməsi üçün şəraitin oimaması və.s. Məktəblərdə mövcud olan bu problemləri nəzərə alaraq tədqiqatımızı həhata keçiməyi zəruri saydıq.

Bizim tədqiqatımızın məqsədi bu çətinlikləri araşdırıb və hansı tiplərə aid olduğunu müəyyən etməkdir. Fiziki tərbiyə müəlliminin fəaliyyətində rastlaşdığı çətinliklər – adaptasiya, kifayət qədər təcrübənin olmaması və mütəxəssisin ixtisasından kənar işlərə cəlb edilməsi, eyni zamanda şagirdlərlə ünsiyyət yarada bilməməyi ilə bağlıdır.Həmçinin bura müəllimin bilik-bacarığının olmaması,məktəb proqramını zəif bilməsi və.s. Azərbaycanda fiziki tərbiyə müəlliminin pedaqoji fəaliyyətinin xüsusiyyətlərini araşdırmağı qarşıya qoyan bir neçə elmi-tədqiqat əsərləri vardır. Lakin zaman keçdikcə, müasir dövrün tələbatlarina üyğun araşdırmalar məhdudur. Bu sahəyə toxunan tədqiqatçılar da əsasən bu mövzunu dərindən araşdırmamışlar. Azərbaycanda müasir kütləvi bədən tərbiyəsi və idman həyatında bu mövzunun

araşdırılması məqsədəuyğun sayılır. Bununla əlaqədar olaraq biz fiziki tərbiyə müəlliminin peşə fəaliyyətində rastlaşdıqları çətinliklərin pedaqoji xüsusiyyətləri öyrənib və hərtərəfli araşdırmağa səy göstərmişik. Fiziki tərbiyə müəllimlərinin əsas çətilikərindən biri şagirdlərlə lazımı səviyyədə ünsiyyət qurmamağıdır. Pedaqoji ünsiyyət birgə fəaliyyət zamanı müəllim və şagirdlərin əməkdaşlığından ibarətdir.

Fiziki tərbiyə müəlliminin pedoqoji fəaliyyəti yerinə yetirərkən qarşılaşdığı müxtəlif çətinliklərin əsası ondan ibarətdir ki, çətinliklərin səbəbini tapmaq mümkün olsun. Burada çətinliyi doğuran səbəbin obyektiv və subyektiv olmasını çətinliyin dərk olunma dərəcəsini pedaqoji təsirin təşkili xüsusiyyətlərini özününəzarət və s. aid etmək olar.Yuxarıda qeyd etdiyimiz kimi səbəblər müxtəlifdir; idman avadanlıqların kifayət qədər olmaması, pedaqoji təcrübə meddətinin az olması, şagirdlərin təlim-tərbiyəsi ,və.s. Təcrübə göstərir ki fiziki tərbiyə müəllimi xüsusilə təzə fəaliyyətə başlayan müəllim heç də həmişə pedaqoji məqsəd sistemində ünsiyyəti təsəvvürünə gətirə bilmir, şagirdlərin şəxsiyyətini öyrənməyi bacarmır steriotip qiymətləndirmədən istifadə edir və buna müvafiq olaraq bütün siniflərdə yaş fərqindən asılı olmayaraq monoton ünsiyyətə gətirib çıxaran eyni cür qarşılıqlı təsir vasitəsindən istifadə edir, heç də həmişə ayrı-ayrı şagirdlərlə ünsiyyətdəki çətinliyi təsəvvür edə bilmir sinfi ələ almaqda çətinlik çəkir. Fiziki tərbiyə müəlliminin rastlaşdığı çətinliklər onun müəyyən pedaqoji şəraitdə həyata keçirdiyi fəaliyyət zamanı təzahür edən gərginlik vəziyyəti ilə müəyyən edilir. Pedaqoji gərginliyin şəraiti dedikdə, məşğələ zamanı səs-küyün, dayanmadan hündür tonlarda danışmağa və yüksək hərəkətliliyə malik olan şagirdlərin səsi fiziki tərbiyə müəllimində mənəvi yorğunluq hissini artırır, fiziki tərbiyə məşğələlərində yüksək zədələnmə təhlükəsi olduğu üçün şagirdlərin sağlamlığına və həyatlarına cavabdehlik, fiziki hərəkətlərin göstərilmə məcburiyyəti, şagirdlərlə birlikdə fiziki hərəkətlərin yerinə yetirilməsi, fiziki hərəkətləri yerinə yetirən şagirdləri sığortalamaq məcburiyyəti. Xarici- mühit amillərin təsir şəraiti, açıq havada dərslərin keçirilməsində klimatik və hava şəraiti, İdman zallarinin sanitar-gigiyenik vəziyyəti, və.s. Ümumiyyətlə fiziki tərbiyə müəllimlərinin peşə fəaliyyətinin çətinliklərini təhlil etsək bir çox obyektiv və subyekyiv amillərin meydana çıxmasinin şahidi olarıq. Buna əsasən fiziki tərbiyə müəlliminin peşə fəaliyyətində rastlaşdığı çətinliklər aşağıdakı sxemdə öz əksini tapmışdır;



Tədqiqatda fəaliyyətin strukturu motivlər sistemi mexanizmləri fiziki tərbiyə müəlliminin pedaqoji fəaliyyətinin strukturu peşə fəaliyyətinin spesifik xüsusiyyətləri ilə bağlıdır.

Elmi işin nəticəsi məktəblərdə müasir şəraitdə fiziki tərbiyə müəllimlərinin peşə fəaliyyətində rastlaşdıqları çətinliklərin spesifik xüsusiyyətlərini mexanizmlərini təsiredici amillərini öyrənmək və pedaqoji- psixoloji cəhətdən təhlil etməklə onların aradan qaldırılması üçün zəruri olan əsas yol və vasitələri aşkar etmək profilaktik tədbirlər sistemini müəyyənləşdirməkdən ibarət olmaqla qarşıya qoyulan həmin vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur. Pedaqoji təcrübə zamanı biz 40 məktəbdə müşaidə apardıq. Müşaidələrimiz onu aşkar etdi ki, bu problem və çətinliklər yuxarıda qeyd etdiyimiz kimi vardır. Bu çətinlikləri aradan qaldırmaq yollarını araşdırıb tapmaq üçün tədqiqatımızı davam etdirib, müsbət nəticəyə gəlməliyik.

Ədəbiyyat

1. Nəsrullayev M.Ə. Məktəblilərin fiziki tərbiyəsi Bakı 2003.
2. Talıbov .Y.R. Bədən tərbiyəsi üzrə kadr hazırlığının elmi əsasları magistr üçün tədris proqramı. Bakı 1999.
3.Talıbov.Y.R. Qurbanov.H.H. İxtisasa giriş. Bakı 2000.
4. Qurbanov .H.H. FTN və M. Bakı 2001.
5. Yolçuyev.S.B. Qurbanov.H.H. Pedaqoji təcrübə. Bakı 2003

Р.Ф.Гадимов, З.Н.Захидов

Профессиональные трудности преподавателей физической культуры

Резюме

Преподаватель физичесеой культуры в своей деятельности встречается с некоторыми педагогическими проблемами. Не имея их ввиду и не борясь с ними, нельзя говорить об успехах педагогической деятельности преподавателя физической культуры. Проблематике психологической подготовленности стрелков и исследованию вопроса формирования уровня притязяний спортсменов посвящено не мало работ. Исследователями освещены, прежде всего, методологические и общетеоретические вопросы.

R.F.Gadimov, Z.N.Zahidov

Professional difficulties of the teachers of the physical culture

Summary

The teachers of physical culture are faced with some difficulties in pedagogical-psychological spheres. It is imposible to speak about their pedagogical activity above mentioned problems without paying attention to them and trying to overcome them.The Level claims of the representative's different atheletic categorles and beginnier marksman has its potential difference.The athletic psychologist must study furthesthe psychological particularities of marksmen by means of modern scientific methods, show general and especial means of psychological preparence of marksmen.

Rəyçilər: p.f.d., prof. Q.Cəfərov
AzDBTİA-nın Bədən tərbiyəsi və idmanın nəzəriyyəsi
və metodikası kafedrası
(09.06.2017-ci il tarixli iclasının qərarı (pr. №17)).

Redaksiyaya daxil olub: 22.06.2017

Q.QƏHRƏMANOVA
psixologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: asil_zade@mail.ru

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

PEŞƏKAR TƏLİM MƏRHƏLƏSİNDƏ ŞƏXSİYYƏTLƏRARASI ZİDDİYYƏT PROBLEMİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

Açar sözlər: *şəxsiyyətlərarası ziddiyyətlər, kollektivdə gender fərqləri, natamamlıq kompleksi, cinsi fəaliyyət, cinsi rollar*
Ключевые слова: *межличностный конфликт, половое различие в коллективе, комплекс неполноценности, гендерная деятельность, половая роль*
Key words: *interpersonal conflict, sex differences, gender activity, sex role*

Son onilliklər gender dəyişiklikləri şəxsi və peşəkar inkişaf prosesinin əsas determinantının qiymətləndirilməsində aktual qalır. Pedaqogika elmində tam dəyərli şəxsi inkişaf üçün hazırkı hadisələrin şərtsiz mühümlüyünə baxmayaraq, şəxsiyyətin sosiallaşması prosesində, onun inkişaf xüsusiyyətlərinin, gender identikliyinin öyrənilməsi rakursu bu vaxta qədər yoxdur. Hələ sovet dövründə təhsildə mürəkkəbləşən cinsi rol yanaşması, kişi və qadınların bioloji xarakterinə uyğun gələn cəmiyyətin qəbul etdiyi standartlara, norma və tələblərə uyğun cəmiyyətdə kişilərin və qadınların təyin edilməsinə baxışların ənənəvi sistemi kimi özünü təqdim edir [1.21].Tədris müəssisələri ilə birgə fəal həyata keçirilən qızların və gənclərin cinsi rol sosiallaşmasının xüsusi və sosial sferalarda cinslərin qarşılıqlı təsirinin patriarxal stereotplərini yaradır. Bu stereotiplər müasir cəmiyyətdə gender münasibətlərinin real transformasiyalarla qarşıdurmasında daha tez – tez çıxış edir və fərdiliyin aşkarlanmasına, cinslərin bərabər hüquqluğunun yaranmasına maneçilik törədir, nəticədə şəxsiyyətlərarası ziddiyyətlərə gətirib çıxarır. Təhsil müəssisəsi bu və ya başqa cinsə mənsubluqdan asılı olmayaraq, fərdi xüsusiyyətlərin inkişafı üçün əlverişli şərait yaratmalıdır. Ali məktəblərdə təlim, peşəkar özünü təyinin şəxsiyyətlərarası ziddiyyətlərini, peşəkar hazırlıq və öncə adaptasiyanı actuallaşdırır. P.Hollun və B. Sendlerin tədqiqatlarında göstərilmişdir ki, verbal və qeyri – verbal kommunikasiyalar maskulin ünsiyyət üsullarına söykənir. L.V.Popova qeyd edir ki, təhsil prosesinin təşkili gənc oğlanları fəal olmağa həvəsləndirir, qızları isə kölgədə qalmaq və ikinci plana keçməyə məcbur edir .Bu qızlara nisbətən, gənclərə daha çox müəllimlik zamanının sərf edilməsində təzahür edir, qızlardan isə əsasən inisiativ yox, sözə qulaqasma və təmizlik, səliqəlilik tələb edilir. Xırda intizam qaydalarının pozulması qızlara nisbətən, oğlanlara daha asanlıqla bağışlanılır. Müəllimlər tələbələrin uğurunu və uğursuzluğunu müxtəlif cür izah edirlər: uğursuzluğu qabiliyyətlərinin olmaması ilə, gənc oğlanların uğursuzluğu isə əməksevərlik, yaxud diqqətsizlik, səbrliliyin çatışmaması ilə izah edilir. Bir faktı qeyd etmək yerinə düşərdi, hələ uşaqlıqdan qızların şəxsiyyətlərarası münasibətlərə, başqa insanlara oriyentasiya edirlər, bunun sayəsində onlarda gözləmələrə yüksək həssaslıq, başqaları, xüsusilə referent əhatənin fikirləri tərəfindən özünə münasibət inkişaf edir [2.254]. Sosial adaptasiyaya yüksək inkişaf etmiş qabiliyyətli qızları, pedaqoqun birbaşa, yaxud dolayı yolla həvəsləndirdiyi davranış modelinə uyğun olmağa səsləyir. Qızlar üçün daha tipik sayılan, onların yeni, qeyri – standart vəziyyətə düşərək tədris qrupunda öz bacarıqlarını nümayiş etdirməyə tələsmədikləri və diqqətlə bəyəndikləri şeyə baxdıqları situasiyalardır. Məktəb və orta ixtisas təhsili pillələrində, təlimdə istifadə edilən tədris materiallarının gender təhlilini aparaq, E.R.Yarskaya – Smirnova aşağıdakı spesifikaları aydınlaşdırmışdı . Pedaqoqlar gənc oğlanların riyaziyyat, fizika, idman və kompyuter bilikləri, qızlar üçün isə - ana dili, ədəbiy-

yat, tarix, evdarlıq kimi fənlərin uğurla mənimsənilməsi mühüm hesab edirlər. Bununla belə E.S.Kletsina hesab edir ki, əgər qızlar həqiqətən kişilər üçün istisna hesab edilməsi qəbul edilən fəaliyyət sferası ilə riyaziyyat, fizika, informatika ilə məşğul olmağı qərara alırlarsa, onlarda sosiallaşma ilə bağlı xüsusi problemlər yaranır. Nəticədə qızlar - ətraf mühit tərəfindən qəbul edilmək, ümumi qəbul edilən davranış normaları və standartlara üstünlük vermək, yaxud öz qabiliyyətlərini inkişaf etdirmək dilemması qarşısında qalırlar. Humanitar istiqamətli ixtisaslaşma seçimi situasiyasında oxşar problemlər praktiki olaraq yaranmır. Görünür, gender stereotiplərinin belə möhkəm tətbiqindən cəmiyyət mühüm insanı potensialları itirir: qızlar şüurlu olaraq öz qabiliyyətlərini reallaşdırmaqdan imtina edirlər. Beləliklə, tədris müəssisəsi, əsrlərlə mürəkkəbləşən gender stereotiplərini fəal olaraq yaradan, gender sosiallaşmasının əsas institutlarından biri kimi, tələbənin özünü peşəkar rolla mənfi identifikasiyaya, şəxsiyyətin altstrukturlar arasında qarşıdurmasına "Mən" fərd kimi – "Mən" peşəkar qrupun nümayəndəsi kimi gətirib çıxara bilər. Tələbəlik dövründə aktuallaşdırılan şəxsiyyətlərarası ziddiyyətlər probleminə tədqiqatçıların böyük marağına baxmayaraq, hazırkı problem bütövlüklə araşdırılmır, şəxsiyyətlərarası ziddiyyətlərin ayrı – ayrı növləri təhlil edilsə də, onların gender xüsusiyyətlərinə nəzər yetirilmir. Həm ölkə, həm də xarici psixologiya elminin inkişafının müasir mərhələsində gender problemi, sosial – psixoloji tədqiqatlar üçün aktual və perspektivdir. Elmi tədqiqatlarda gender problematikasının inkişaf tarixinin nəzəri təhlili, spesifik gender metodikasının yaranması, kross – mədəni tədqiqatlar, empirik faktların nəzəri qavranılması, indiki zamanda gender psixologiyasının coşğun inkişafının yer tutduğunu göstərən təhlilin əsas mərhələlərini ayırd etməyə icazə verir. Gender psixologiyasının inkişafına adroginiya konsepsiyası (S. Bem və D. Spens), genderin sosial konstruksiyalaşma nəzəriyyəsi (P. Berqer, T. Lukman) gender identikliyinin, cinsi fərqlərin psixoloji nəzəriyyəsi (E.Makkobi, K.Ceklin) əhəmiyyətli təsir göstərdi. Müasir dövrdə gender tədqiqatlarının inkişafı, cəmiyyətdə qadınların status və vəziyyətini dəyişən ölkədə ictimai və iqtisadi münasibətlərin kardinal yenidən qurulması ilə şərtləndirilmişdir. Ədəbiyyatın təhlilindən göründüyü kimi, yeni tədqiqat istiqamətinin, yeni bilik sahələrinin formalaşmasının başlanğıc prosesi, gender tədqiqatlarının orjinallığını əks etdirən qarşıdurma kontekstində baş verir. Bizim nəzərimizdə, səbəb ölkə gender tədqiqatlarının hələ işlənilməmiş xüsusi predmeti ilə şərtləndirilmişdir (onun sərhədləri formalaşmağa davam edir). Psixologiyada şəxsiyyətlərarası ziddiyyət problemi, fundamental problemlərdən biridir. Bu problemin nəzəri təhlili göstərdi ki, həm ölkə psixologiyasında, həm də xarici psixologiyada interpretasiyaya, şəxsiyyətlərarası ziddiyyətlərin klassifikasiyasına və əsasının qoyulmasında müxtəlif yanaşmalar mövcuddur. Bununla birgə, bu yanaşmanın ümumimləşməsi, motivasiyalı, koqnitiv, emosional və davranış səviyyələrində təzahür edən, əsasında şəxsiyyətin məna – dəyər sferasının ziddiyyəti olan, şəxsiyyətin inkişafında mürəkkəb psixoloji qanunauyğun hadisələr kimi başa düşülən, şəxsiyyətlərarası ziddiyyətlər haqqında danışmağa imkan verir. Şəxsiyyətlərarası ziddiyyətlərin anlaşılmasında psixologiya üçün vahid ənənənin olmaması onların klassifikasiyasının çətinləşməsinə gətirib çıxarır. Təhlilin aspektindən, tədqiqatının nəzəri mövqeyindən asılı olaraq, klassifikasiyaya aid müxtəliflik ayırd edilir. Bizim tədqiqatların əsasında, oxşar yanaşmaların birləşməsi üzərində qurulan motivlər, dəyərlər və özünüqiymətləndirməyə daxil edilən, insanın daxili dünyasının struktur diferensasiyası üzərində qurulan, A.İ. Şipilovun təqdim etdiyi klasifikasiya qoyulmuşdur. Tələbəlik yaş dövründə, şəxsiyyətlərarası ziddiyyətlərin spesifikasının müzakirəsində alimlərin əsas diqqəti, peşəkar təlim dövrü ərzində, ali təhsil müəssisələri təliminə adaptasiya mərhələsində, şəxsiyyətlərarası ziddiyyətləri şərtləndirən amillərin aydınlaşdırılmasına yönəlmişdir. Tədqiqatların, tələbəlik yaş dövrünün şəxsiyyətlərarası ziddiyyətlərinə böyük marağına baxmayaraq, bu problem bütövlükdə araşdırılmır, onların gender spesifikasına nəzər yetirilmir, ancaq şəxsiyyətlərarası ziddiyyətlərin ayrı – ayrı növləri təhlil edilir. Ali məktəblərdə tələbələrin təlim prosesində aktuallaşdırılan şəxsiyyətlərarası ziddiyyət problemlərinin nəzəri təhlili, onların gender xüsusiyyətlərinin hesabı ilə şəx-

siyyətlərarası ziddiyyətlərin həllində tələbələrin köməyinə istiqamətlənən xüsusi işlərin aparılmasının vacibliyi haqqında nəticə əldə etməyə imkan verir.

Problemin elmi yeniliyi: Məqalədə əsaslandırılmış məsələlər praktik əhəmiyyətə malik olduğu kimi elmi cəhətdən də asanlaşdırılıb. Problemin təhlili və həlli yolları məqalənin elmi yükünü artırır.

Problemin praktik əhəmiyyəti: Məqalə praktik psixoloq və müəllimlər üçün praktik əhəmiyyətə malikdir.

Problemin aktuallığı: Məqalədə vurğulanan məsələlər aktuallığı ilə diqqət çəkir və araşdırılması gərəkən mövzulardandır.

Ədəbiyyat

1. Bayramov Ə.S. Etnik psixologiya məsələləri. Bakı, 1996.
2. Əliyev B.H. Müəllim – tələbə münasibətlərinin təlim prosesinə təsiri. Bakı, 1996.
3. Əliyev R.İ. Psixologiya (Dərs vəsaiti) 2.nəşr. Bakı, “Nurlan”, 2008.
4. Əlizadə.Ə.Ə. Azərbaycan güzəran psixologiyası məsələləri. Bakı, 1994
5. Григорьева, Н.Н. Гендерные особенности проявления лидерства у студентов [Текст]: дис. ... канд. психол. наук / Н.Н. Григорьева. - М., 2006.

Г.Гахраманова

Определении проблемы межличностных конфликтов на этапе профессионального обучения

Резюме

Несмотря на большой интерес исследователей к проблеме внутриличностных конфликтов, актуализирующихся в студенческом возрасте, данная проблема не рассматривается целостно, анализируются лишь отдельные виды внутриличностных конфликтов, не рассматривается их гендерная специфика.

G.Gahramanova

Definitions of interpersonal conflict problem at the stage of professional training

Summary

Despite the great interest of researchers to the problem of intrapersonel conflicts, which are actualizing in the student's age, this problem was not viewed holistically, only certain kinds of intrapersonal conflicts were analized, their gender particularities were not discussed.

Rəyçilər: psixol.e.d., prof. R.İ.Əliyev,
ped.f.d. S.Q.Həsənli

Redaksiyaya daxil olub: 12.07.2017

N.T.QULİYEVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

İCTİMAİ FƏALLIĞIN FORMALAŞDIRILMASINDA TƏLƏBƏLƏRƏ İCTİMAİ FƏALLIQ TƏRBİYƏSİNİN AŞILANMASI

Açar sözlər: *ictimai fəallıq, ictimai fəaliyyət, motiv, tələbat, kollektiv.*
Ключевые слова: *общественная деятельность, социальная деятельность, мотивы, потребность, коллектив.*
Key word: *public activity, social activities, motive, need, collective.*

Akad. M.M. Mehdizadə yazırdı: "Şəxsiyyətin fəal həyat mövqeyinin təzahürü formalarından biri ictimai-siyasi fəallıq mövqeyindən ibarətdir. Şəxsiyyətin malik olduğu qabiliyyətlərin hərtərəfli inkişaf etdirilməsi, onun hərtərəfli fəaliyyət göstərməsini, hətta əmək növlərinin dəyişdirilməsini tələb edir.

Qabiliyyətləri hərtərəfli inkişaf etdirmək üçün, əməyin dəyişməz qanununundan istifadə etmək birinci dərəcəli tədbir olmalıdır. Yəni şagirdlərin təlim əməyini, idrak fəaliyyətini məktəb həyatında icra edilməsi mümkün olan başqa əmək növlərilə, o cümlədən ictimai-siyasi fəaliyyət, ictimai-faydalı işləri ilə sıx surətdə bağlamaq" (1, s.30) lazımdır.

Prof. M. Ə. Həmzəyev yazir: " Şəxsiyyətin fəallığı onun inteqral xassəsidir. Bu həm şəxsiyyətin ideyallığında, həm əxlaqi saflığında, həm də mənəvi zənginliyində, xüsusilə iradi inkişaf səviyyəsində ifadə olunur. Ən əhəmiyyətli fəallıq şəxsiyyətin əmək və ictimai fəallığıdır. (2, s.49) İctimai fəallıq tərbiyəsi əqidəliliklə müəyyən olunur ki, bu da müvafiq bilik, hiss və iradi keyfiyyətlərin nəticəsi kimi özünü göstərir; mövcud bilikləri praktik fəaliyyətdə tətbiq edə bilmək bacarıq, vərdiş və adətləri ilə, öz əqidəsinə uyğun şəkildə fəaliyyət göstərməklə, ictimai fəaliyyətə maraq və tələbatla, şəxsiyyətin ictimai və kollektiv istiqamətini müəyyənləşdirən motivlərlə xarakterizə olunur.

Prof. B.A.Əhmədov ictimai fəallıqda müsbət emosiyalara əsaslanan motivlərin rolunu xüsusi qeyd edir. Bu xüsusda yazır: "Elə etmək lazımdır ki, şagird öz fəaliyyətinin cəmiyyət üçün faydalı olduğunu başa düşsün və bu zəmin üzərində hərəkət etməyə çalışsın. Cəmiyyət üçün, xalq üçün işləmək tələbatı ən aparıcı motivdir, şagirdləri də məhz bu ruhda tərbiyə etmək lazımdır.

İctimai fəallıq tərbiyəsinin başlıca şərtləri bunlardır.

1. İctimai fəaliyyətin ideya istiqaməti.
2. Kollektivə rəhbərliyin demokratik üslubu.
3. Kollektiv daxilində hər bir fərd üçün fəallıq göstərmək mövqeyinin yaradılması.
4. Kollektivdə şəxsiyyətlərarası münasibətlərin nizama salınması.
5. Təşkilatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi və s." (2, s. 25-26).

A. Aslanovun qənaəti isə belədir ki, «ictimai fəallıq xarakter əlaməti kimi formalaşır, bu cəhətdən onu şəxsiyyətin fərdi xüsusiyəti hesab etmək olar. Amma şəxsiyyətin cəmiyyət xeyrinə fəaliyyətdə daimi iştirakı əməli işin özüdür, gerçək həyatdır, ictimai fəallıq isə əməli işin, cəmiyyət üçün xeyirli fəaliyyətdə daimi iştirakın özü deyil, cəmiyyətə xeyirli fəaliyyətdə daimi iştirak etmək üçün psixoloji və praktik cəhətdən yaranmış daxili hazırlıqdır. Başqa sözlə, şəxsiyyətin cəmiyyət üçün faydalı olmasını dərk etməsidir» (3, s. 10).

E.A. Anufriyevin fikirləri də diqqəti cəlb edir. O, ictimai fəallıq anlayışını əsasən düzgün aydınlaşdırmışdır. E.A. Anufriyevin qənaətincə, ictimai fəallıq məhfumu şəxsiyyətin ictimai həyatın müxtəlif sahələrinə münasibətini, onun konkret sosial-siyasi fəaliyyətini səciyyələndirir ki, bu da müxtəlif istiqamətlərdə və intensivlikdə olur. İctimai fəallıq insanın

sosial iş bacarığının təzahür həddini ifadə edərək, şəxsiyyətin xarakteristikasında ictimai münasibətlərin subyekti kimi əsas cəhəti təşkil edir. Nəticədə ictimai fəallıq insanın əməyə, cəmiyyətə və ictimai-siyasi fəaliyyətə münasibətini göstərir (4, s. 111).

E.A. Anufriyev «ictimai fəallıq» anlayışında üç başlıca məsələni – münasibət, fəaliyyət və onun intensivliyini xüsusi şəkildə nəzərə çarpdırır. O, insanın əməyə, cəmiyyətə münasibətinə və ictimai-siyasi fəaliyyətinə yüksək qiymət verir.

L.V. Voxminovanın nöqteyi-nəzərincə, ictimai fəallıq əməyə, ictimai fəaliyyətə şüurlu, yaradıcı münasibəti, fəaliyyətin bir sıra növlərində faktiki olaraq iştirakı, həm də könüllü iştirakı nəzərdə tutur ki, bu iştirak mahiyyət etibarilə şəxsiyyətin özünütəsdiqinə imkan verir. Başqa sözlə, ictimai fəallıq məqsədyönlülükdə, özünə yüksək tələbkarlıqda, özü, öz hərəkətləri, şəxsiyyətin üzvü olduğu kollektivin uğurları və fəaliyyəti üçün məsuliyyət daşımasında özünü göstərir (5, s. 16).

Pedaqoq, psixoloq və filosofların bir çoxu ictimai fəallıq anlayışına öz münasibətlərini bildirmişlər. Bu baxımdan İ.İ. Kernoqanın fikirləri maraq doğurur. O yazır: «İctimai fəallıq məfhumu altında biz məktəblinin vətəndaşlıq borcunu dərk etməsi əsasında cəmiyyət xeyrinə fəaliyyətdə daimi iştirakını nəzərdə tuturuq» (6, s. 112)

Göründüyü kimi, İ.İ. Kernoqa ictimai fəallığı psixoloji keyfiyyət kimi nəzərdən keçirir. Lakin bununla bərabər, müəllif haqqında danışılana həm də iştirakın özü kimi yanaşır. O, ictimai fəallığı psixoloji keyfiyyət hesab etsə də, «ictimai fəallıq» anlayışı ilə «ictimai fəaliyyət» anlayışını, psixi hadisə ilə gerçək həyatı, xarakter əlaməti ilə əməli fəaliyyəti eyniləşdirir.

Psixoloqlar insan fəallığının təhrikediciləri kimi motivlərin və tələbatların rolunu xüsusilə qeyd edirlər. Şəxsiyyəti fəaliyyətə maddi tələbatla bərabər ictimai və mənəvi tələbatlar, yəni maraqlar, ideallar, hisslər, duyğular və s. sövq edir. Adamların qarşılıqlı əlaqələri əmək prosesində meydana gəldiyi və inkişaf edərək formalaşdığı üçün, fəallıq şəxsi tələblər və maraqlarla məhdudlaşmır. İctimai tələblər və maraqlarla da müəyyən olunur.

İnsan müəyyən yaş həddinə çatdıqca, onun şəxsiyyəti formalaşdıqca maraq dairəsi, dünyagörüşü genişlənir, fəallığı yüksəlir. Bu vaxt mühit də ona təsir edir.

Tələblər daimi deyil. Onlar da fəaliyyətin təsiri ilə dəyişir. Bu da həqiqətdir ki, insan predmet-praktik fəaliyyətdə iştirak edərək öz mövcudluq şəraitini dəyişməklə bərabər eyni zamanda tələbatını dəyişir. Odur ki, şəxsiyyətin fəallığına və inkişafına tələbatın təsiri bu tələbata, onun şəxsiyyətə təsirinə münasibətdən, hansı tələbatdan qane olacağı və yaxud olmayacağı isə şəxsiyyətin özündən asılıdır.

Beləliklə, ali məktəb tələbələri bu məsələyə münasibətdə tələbatların rolunu və vəzifələrini aydın anlamalıdırlar. Bütün bunlar isə, şəxsiyyətin özünütərbiyəsində başlıca yer tutur. Zəruri tələbatlar fəaliyyətin motivlərinə çevrilir.

Deyilənlərdən görünür ki, ictimai fəallıq, əvvəla, insanın əsas xüsusiyyətlərinin biri kimi çıxış edərək şəxsiyyətin strukturunda öz ifadəsini tapır, ictimai fəallıq xüsusi sosial təzahürü əmələ gətirərək ictimai-siyasi münasibətlər sahəsində insanların hərəkət və əməllərində, davranışında meydana gəlir. Həm də ictimai fəallıq şəxsiyyətin yönümünü müəyyən edir.

Ali məktəb tələbələrinin ictimai fəallığı, ilk növbədə onların özlərini kollektivin üzvləri kimi hiss etmələrində, kollektivin və cəmiyyətin mənafeyi naminə ictimai fəaliyyətdə iştirakında, ictimai tapşırıqlara əməl edilməsində, təşəbbüskarlığın və özfəaliyyətin təzahüründə, kollektivin və cəmiyyətin qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi məqsədi ilə təşkilatçılıq bacarığı, qabiliyyəti və tələbatına yiyələnməkdə özünü göstərir. Fikrimizcə, tələbələrin ictimai fəallığı dedikdə, onların öz bilik, bacarıq və qüvvələrini cəmiyyətimizdə gedən quruculuq işlərinin və vəzifələrinin yerinə yetirilməsinə doğru istiqamətlənən fəaliyyəti, ictimai fəaliyyətdə iştirak etmək sahəsində vərdişlərə yiyələnmələri və həmin fəaliyyətə tələbatın yaranması anlaşılmalıdır. Həmin fəaliyyət müəyyən ictimai tapşırıqları yerinə yetirmək vəzifəsini öz üzərinə götürmək və onlara əməl etməklə məhdudlaşmamalı, fəaliyyətin digər növləri, o cümlədən əmək, təlim idrakı, təşkilatçılıq fəaliyyəti ilə birləşib hərtərəfli şəkil almalı-

dır. Bu, bir həqiqətdir ki, ictimai fəallıq olmadan, idraki fəallıq, ictimai borcun yerinə yetirilməsində olduğu kimi, təlimə münasibət səviyyəsinə də qalxmaz. Eləcə də, təşkilatçılıq fəaliyyətində fəallıq müəyyən istiqamətə malik olmadıqda cəmiyyətə zidd fəaliyyətə çevrilə bilər.

İctimai fəallıq şəxsiyyətin inkişafına xeyli dərəcədə kömək göstərir, mənəvi baxımdan insana zənginlik gətirir, ona yaradıcı, əxlaqi məmnunluq verir. Buradan görünür ki, ictimai fəallıq şəxsiyyətin zəruri keyfiyyəti, ictimai iş isə daxili tələbat kimi özünü göstərir.

Tələbə oğlan və qızların ictimai işdə iştirakı hələ onların ictimai fəallığı demək deyildir. Onlarda ictimai fəallıq daxili tələbata çevrildiyi və onlar şüurlu surətdə fəaliyyətdə iştirak etdikləri zaman bu, fəal olur.

P.V. Konanıxin ictimai işdə tələbatın formalaşması prosesini şərti olaraq dörd yerə bölür:

1) tələbat ictimai işə həvəs kimi;

2) tələbat ictimai işlə məşğul olmaq istəyi kimi;

3) tələbat ictimai işə cəhd göstərmək kimi;

4) tələbat ictimai vəzifələrin yerinə yetirilməsi zəruriliyinə və əhəmiyyətinə inam kimi (7, s. 32).

Burada iki mərhələ – («tələbat ictimai işə həvəs kimi» və «tələbat ictimai işlə məşğul olmaq istəyi kimi») bir-birinin eynidir ki, bu, bizi qane etmir. L.V. Voxminovanın bölgüsü daha səciyyəvidir. O, ictimai fəaliyyət zamanı tələbatın formalaşması prosesi ilə bağlı beş mərhələni ayırır:

Birinci mərhələdə tərbiyəçilər və özünüidarə orqanları ictimai və şəxsi məna daşıyan perspektivi ayrı-ayrı məktəblilər, şagird qrupları, yaxud bütöv kollektiv qarşısında irəli sürürlər;

İkinci mərhələdə, məktəblidə stimul əsasında daxili həvəs (meyl) meydana gəlir, ictimai və şəxsi sərvət kimi irəli sürülmüş perspektivin qəbul edilməsi özünü göstərir;

Üçüncü mərhələdə şagirdlər müəllimlərin köməyi ilə qarşıda dayanan vəzifələrə uyğun şəkildə davranış formalarını seçirlər;

Dördüncü mərhələdə davranışda motivlər sistemi həyata keçir, motivlər adətə çevrilir;

Beşinci mərhələdə davranışın ilkin formaları şəxsiyyətin xassələrinə çevrilir (5, s. 29).

İctimai fəallıq «ictimai iş» anlayışı ilə qırılmaz surətdə bağlıdır. İctimai fəallıq məhz müvafiq istiqamətdə fəaliyyət və ictimai işin yerinə yetirilməsi prosesində inkişaf edib formalaşır.

Tələbələrin ictimai fəallığının mürəkkəb quruluşunun ayrılmaz komponenti onun iradəsinin xassələridir. Məqsədəyönəlmişlik, qətiyyət, təkidli olmaq, müstəqillik, intizamlılıq, prinsipiallıq, təmkinlik və s. buraya daxildir.

İctimai fəallıq şəxsiyyətin əxlaqi ləyaqəti, ictimai dəyərinin meyarlarından biri, onun vətəndaşlıq yetkinliyi kimi nəzərdən keçirilir.

Ədəbiyyat

1. Mehdizadə M. M. Ümumtəhsil məktəblərində təlım-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982.

2. Həmzəyev M. Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003.

3. Aslanov A. Q. İnternat məktəb şagirdlərinin tərbiyə edilməsində özünüidarənin rolu. Bakı Azərbaycan Maarif Nazirliyinin nəşri, 1974.

4.Ануфриев Е. А. Школьная роль и активность личности М: Изд-во Москва Ун-та, 1971.

5.Вохминова Л. В. Проблемы развития общественной активности старшеклассников в деятельности самоуправления: Автореф. дис. канд. пед. наук. М., 1979.

6. Кернога И. И. Воспитание ообщественной активности и старших школьников в пруше внеурочной работы. М. Просвещение, 1967.

7. Конанихин Р. В. Формирование потребности и общественной деятельности и старшеклассников: Автореф. дис. канд. пед. наук, М. 1967.

Н.Т.Кулиева

Прививание студентам воспитания социальной активности в формировании общественной активности

Резюме

В статье определены условия воспитания общественной активности у студентов в процессе общественной деятельности. Основным условием формирования социальной активности студентов является правильная организация данного дела.

Уровень общественной активности студентов зависит от четких целей, принципиальности, ответственности, дисциплины, настойчивости и любознательности, ответственности, инициативы, творчества, общения в коллективной работе. Под понятием общественной активности имеется в виду постоянное присутствие и деятельность студента на основе осознания гражданского долга в пользу общественности.

Общественная деятельность воспитывает сознательную дисциплину, единство, познание друг друга, взаимную помощь и взаимное уважение.

N.T.Gulieva

Encouraging students to raise social activity in the formation of social activity

Summary

In article have been determined the social activities in the education of the students in terms of public activity. The basic condition of formation of the social activities in the education of the students in terms of public activity.

Level of formation of social activities in the education of the students depends on the clear goals, responsibility, discipline, persistence and curiosity collective work, responsibility, initiative, creativity, committing. Under the notion of social activities means the regular participation of pupils for the positive activity and civic duty.

Social activities bringed up the conscious discipline, trained mutual assistance and the mutual respect to the each other.

Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev

Redaksiyaya daxil olub: 12.07.2017

R.H.QULİYEVA,
S.Ə.HÜSEYNOVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ÜSLUBİ BACARIQLARIN FORMALAŞDIRILMASI YOLLARI

Açar sözlər: *leksika, yazılı və şıfahi nitq, üslubi bacarıq, frazeoloji vahidlər.*
Ключевые слова: *лексика, письменная и устная речь, стилистические умения, фразеологические единицы.*
Key words: *vocabulary, writing and oral speech, stylistic skill, phraseology units.*

Məktəbə ilk dəfə qədə qoyan şagirdin nitqi müəllimin danışığından kəskin şəkildə fərqlənir. Belə ki, şagirdlərin hər biri öz dialektində danışır, müəllimin nitqi isə ədəbi dil normalarına uyğun qurulur. Yaxud eyni kənddə yaşayıb, eyni məktəbi bitirən, lakin biri kənddə qalıb işləyən, digəri ali məktəbdə təhsilini davam etdirən iki gəncin də nitqi bir-birindən kəskin şəkildə fərqlənir. Təcrübə göstərir ki, həm birinci sinif şagirdləri, həm də məktəbi bitirib kənddə qalıb işləyən məzunlar öz nitqlərində dialektizmlərdən, loru söz və ifadələrdən çox istifadə edir, sinonim sözlərin məna fərqlərini bilmədiklərindən onları qarışdırır, bir sıra üslubi səhvlərə yol verirlər. Amma bu o demək deyildir ki, onlar üslubi normalara əməl etmir, yaxud müxtəlif üslublarda yazılmış mətnlər arasındakı fərqi duymurlar. Şagirdlər çox gözəl hiss edirlər ki, evdəki danışıqla məktəbdəki nitqləri arasında fərq olmalıdır, məktəbdə evdəki kimi danışmaq olmaz.

İllər keçir, artıq üçüncü və dördüncü siniflərdən başlayaraq məişət üslubunda yazı yazmağı öyrənir, müəyyən bacarıqlara yiyələnirlər. V sinifdən başlayaraq bu bacarıqlar möhkəmləndirilərək vərdişlərə çevrilir.

Təhsil sahəsində aparılan islahatlar şagirdlərin inkişafının, nitq mədəniyyətinin yüksəldilməsini önəmli bir məsələ kimi ön plana çəkir. Hər bir dövlətin ən qiymətli kapitalı onun savadlı, bacarıqlı vətəndaşlarıdır. Savadlı olmaqla yanaşı gözəl nitq vərdişlərinə yiyələnmək xüsusi əhəmiyyət kəsb edir. Şairdlərin nitqi inkişafı ilə bağlı bir neçə istiqamətdə iş aparılması vacib hesab edilir: ədəbi tələffüz üzrə iş, lüğət üzrə iş, cümlə qurmaq vərdişləri ilə bağlı işlər, rabitəli nitqin inkişafı və s. Üslubi bacarıqların formalaşdırılması bu istiqamətlərdən biridir. Milli Kurikulumda şagirdlərə üslubi bacarıqların aşılanması ilə praktik işlər aparılması nəzərdə tutulur.

Dil vahidləri arasında olduğu kimi dilçiliyin sahələri arasında da qarşılıqlı əlaqə mövcuddur. Məhz həmin qarşılıqlı əlaqəni nəzərə alaraq leksikanın və qrammatikanın tədrisi zamanı üslubi bacarıqların formalaşdırılması imkanlarını araşdırdıq.

Məktəb təcrübəsinin öyrənilməsi göstərdi ki, şagirdlərin yazılı və şifahi nitqlərində üslub səhvlərinə yol verirlər. Bu üslub səhvləri sözlərin mənalarını dəqiq bilməməkdən, lüğət ehtiyatının azlığından irəli gəldiyinə şübhə yoxdur.

1) Cəsur Mehdi Hüseynzadə qəhrəmancasına rəhmətə getdi.
2) Ayaz üzə salmasa da, həyəcan keçirirdi.

Birinci nümunədə şagird yaxınmənalı rəhmətə getmək və həlak olmaq ifadələrinin arasındakı məna fərqini bilmədiyindən üslub xətasına yol vermişdir. İkinci cümlədə isə şagird üzə vurmasa ifadəsi əvəzinə üzə salmasa işlətmişdir. Söz yox ki, bu ifadələrin mənasını bilməməkdən irəli gəlir. Apardığımız müşahidələr, pedaqoji təcrübə zamanı dinlədiyimiz dərslər şagirdlərin nitqlərində işlətdikləri frazeoloji birləşmələr haqqında aşağıdakı mülahizələri deməyə əsas verir.

1) lüğət ehtiyatının kasadlığı üzündən adi bir fikri ifadə etməkdə və ya onu təsirli verməkdə çətinlik çəkirlər.

2) Sözlərin məcazi mənalarını dəqiq bilmədiklərindən onları mətnə uyğun işlətməyi bacarmır və nəticədə cümlələr ikimənalı olur.

3) Sinonimlərin məna fərqlərini bilmədiklərindən sözlər yerinə düşmür, fikir dəqiq ifadə olunmur

4) Eyni bir cümlədə eyni sözün təkrarı. Bu yeknəsəkliyə səbəb olur, dinləyicini, yaxud oxucunu yorur, sözçülüyə səbəb olur

5) Şagirdlər öz nitqlərində alınma sözlərdən, vulqar sözlərdən, ayrı-ayrı şivələrə məxsus leksemlərdən istifadə etməklə nitqin təxəyyülünə xələl gətirir.

Bu kimi üslub xətalarından başqa nitqin ifadəliliyinə xələl gətirən nöqsanlara da təsadüf edilir. Bu səhvlər şagirdlərin ayrı-ayrı sözlərin ekspressiv xüsusiyyətlərini bilməməsindən irəli gəlir.

Bütün bunları nəzərə alıb Azərbaycan dili bölmələrin tədrisində üslubi bacarıqların aşılanması ilə bağlı iş aparmaq səmərəli nəticə verəcəyinə şübhə etmirik. Leksika ilə bağlı mövzuların tədrisi zamanı bir tərəfdən şagirdlərin lüğət ehtiyatı zəənginləşir, digər tərəfdən onların qeyri-fəal lüğətinə daxil olan söz və ifadələrin mənasını dəqiqləşdirməyə və fəallaşdırmağa, sözləri yerində işlətməyə, yersiz təkrarlardan qaçmağa imkan verər.

Müşahidələr göstərir ki, şagirdlərin ifadə və inşa yazılarında təsadüf edilən üslub səhvləri orfoqrafik səhvlərə nisbətən xeyli çoxdur.

Məlum olduğu kimi, hər bir şəxsin lüğət ehtiyatının zənginliyi onun nitqinin zənginliyini, ifadəliliyini təmin edən şərtlərdən biridir. Nitq prosesində müxtəlif və təkrar dil elementləri nə qədər çox işlənərsə, həmin nitq bir o qədər zəngin olar (8, 24).

Kafedramızın sabiq müdiri professor Bəşir Əhmədov tələbələrə sözlərin üslubi çalarlarını izah edərkən «Ü.Hacıbəyovun «O olmasın, bu olsun» əsərindəki Məşədi İbadın papağını xatırladırdı. Məşədi İbad gənc və gözəl Gülnazla görüşə gələrkən papağını necə qoyacağını fikirləşir:

- Əgər belə qoysam, Gəncə qumarbazına bənzəyərəm, Əgər belə qoysam, qız elə biləcək ki, Bakı qoçusuyam…»

Beləliklə, eyni bir əşya qoyuluş tərzindən asılı olaraq müxtəlif təəssürat oyada bilir. Sözlər də belədir. Sözlər eyni, məzmun eyni, ancaq formadan, işlənmə tərzindən asılı olaraq onun təsir qüvvəsi də dəyişir.

Müəllim fikrini izah edərkən hər qrupa eyni bir əşya haqqında müxtəlif məzmunda mətnlər verə bilər. Məsələn, I qrupa:

Bakının dərdi var, Bakı xəstədir,
Könül intizarda, göz yol üstədir.
Soyuq divarlarda güllə nişanı,
Qırır, parçalayır insan insanı.
(S.Vurğun)

II qrupa:

Hara olacaq, Bakıdır da.. qadan alım. Bax ora günçıxan tərəf Qaraşəhərdir. Ondan o yana Ağşəhərdir, düz qənşərindəki İçərişəhərdir (Ə.Məmmədxanlı).

III qrupa:

Bakı gözəl şəhər, mehriban diyar,
Qoynunda boy atıb oldum bəxtiyar.
Sən mənim qüdrətim, şərəfim, şöhrətim
Tükənməz sərvətim, əzizimsən.
(Z.Cabbarzadə)

IV qrupa:

O zaman Bakı belə deyildi. Küçələr, meydançalar dava meydanına bənzəyirdi. Güclülər gücsüzlərin başına yumruqlar yağdırırdı. Aləm bir-birinə qarışmışdı. İt yiyəsini tanımırdı. (S.Rəhman).

Şagirdlər mətnlərdə Bakı haqqında danışıldığını qeyd edirlər. I və IV qruplara verilən mətn də köhnə Bakıdan, III qrupun materialında gözəl Bakıdan söhbət gedir. II qrupdakı şagirdlər söyləyirlər ki, onlardan mətndə savadsız bir qadın Bakıya yenicə gəlmiş qonağına şəhəri tanıdır.

Şagirdlərdə üslubi bacarıqların formalaşdırılması üçün aşağıdakı praktik işlərin aparılması məsləhətdir:

1) Hər hansı mətnin üslubunu müəyyənləşdirmək;
2) Mətni üslubi cəhətdən redaktə etmək;
3) Bu və ya digər üslubda mətn tərtib etmək və s.

Azərbaycan dilinin lüğət fondunda elə sözlər var ki, onların leksik mənasının özündə müsbət və ya mənfi çalar olur. Şagird bu xüsusiyyəti bilməyən də işlətdiyi söz yerinə düşmür. Məsələn, gülmək, gülümsəmək, qəhqəhə çəkmək kimi sözlər neytral, hırıldamaq, dişləri ağarmaq, irişmək kimi sözlər mənfi çalarlı sözlərdir. Nitqin dəqiqliyi, gözəlliyi üçün şagirdlərin sinonimləri bir-birindən fərqləndirən məna fərqini bilməsi təqdirəlayiqdir. Ancaq bu o demək deyildir ki, dildəki sinonimlər şagirdlərə öyrədilməlidir. Buna ehtiyac yoxdur.

Prof. H.Balıyev yazır ki, baxmaq və boylanmaq sözləri yaxınmənalı olsalar da, onların birini digəri ilə əvəz etmək olmaz. Çünki nitq təsirsiz qalar (2, 303).

Sinonimlər mənanı dəqiq ifadə etməyə imkan verdiyi kimi təkrarların da qarşısını alır.

İnsan sakitcə durduğu zaman nəyə və ya kiməsə baxa bilər. Boylanmaq isə kiçik pəncərədən, hasardan, maneələrin arasından boynunu uzadıb, bəlkə də barmaqları üstə qalxıb nəyə sə, yaxud kiməsə baxmaq mənasını ifadə edir.

Məlumdur ki, frazeoloji birləşmələr nitqə yığcamlıq, emosionallıq gətirən dil vahidləridir. Frazeoloji birləşmələr az sözlə çox şey deməyə, fikri bir neçə kəlmə ilə söyləməyə imkan yaradır. Məsələn:

1) Mənə bir vəzifə verin, gözünüzün qabağında işləyim, görün analar necə oğullar doğub. 2) Qadın gördü ki, bıçaq sümüyə dirənib. 3) Padşah bu sözü eşidən kimi bərk qəzəbləndi, başından tüstü çıxdı. 4) Kişinin ağzından dürr tökülür. 5) Bu adamın qabırğası qalındır, ona söz təsir etmir.

Bu nümunələrdəki «analar necə oğullar doğub», «bıçaq sümüyə dirənib», «başından tüstü çıxmaq», «qabırğası qalın» frazeoloji birləşmələri hadisəni və ya hərəkəti bir kəlmə ilə ifadə etməyə imkan verir.

Məlumdur ki, «görün analar necə oğullar doğub» ifadəsi «necə bacarıqlıyam», «nəyə qadirəm»; «bıçaq sümüyə dirənib» ifadəsi «çarəsizlik», «çıxış yolu olmamaq»; «tüstüsü təpəsindən çıxmaq» ifadəsi «bərk qəzəblənmək»; «ağzından dürr tökülmək» ifadəsi «çox dəyərli, ağıllı sözlər demək»; «qabırğası qalın» ifadəsi isə «nadan, anlamaz, hər şeyə laqeyd» mənalarını daşıyır. Amma fikrin frazeoloji birləşmə ilə ifadəsi nitqə obrazlılıq, ekspressivlik gətirir.

Orta məktəblərdə frazeoloji birləşmələrin bu xüsusiyyətinin şagirdlərə çatdırılması üslubi baxımdan çox əhəmiyyətlidir.

Ədəbiyyat

1. Bağırov Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, ADU nəşriyyatı, 1985, s.32.
2. Balıyev H. Ortamrəktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014.
3. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Azərtədrisnəşr. Bakı, 1962, s. 219.
4. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, 1990.
5. Həsənov M. Sintaksisin üslubiyyatla əlaqəli tədrisi. ADƏT. 1978, №4.
6. Kəlbəliyev Ə. Sintaksisin tədrisi prosesində üslubiyyat üzrə işlər. ADƏT. 1975, №2.

7. Mikayılov. Leksikanın tədrisində üslubiyyat üzrə aparılan işlər. ADƏT. 1988, №3.
8. Головин Б.Н. О качестве хорошей речи // Русский язык в школе. 1964, №2.

Р.Г.Кулиева, С.А.Гусейнова

Система работы по формированию стилистических умений в занятиях по азербайджанскому языку

Резюме

В статье исследуются возможности и пути формирования стилистических умений в процессе преподавания азербайджанского языка.

Отображаются пути формирования стилистических умений в процессе проведения работ по фразеологии и преподаванию лексики.

R.H.Guliyeva, S.A.Huseynova

The system of work on the formation of stylistic skills in Azerbaijani Language Lessons

Summary

The article explores the possibilities and ways of forming stylistic skills in the process of teaching the Azerbaijani language.

The ways of formation of stylistic skills are displayed in the process of carrying out works on phraseology and teaching of vocabulary.

Rəyçi: prof. İ.Z.Qasımov

Redaksiyaya daxil olub: 25.05.2017

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr, 98)

XALQ OYUN VƏ ƏYLƏNCƏLƏRİNİN TƏDQİQİNƏ DAİR

Açar sözlər: *xalq oyun və əyləncələri, ibtidai, icma.*
Ключевые слова: *народные игры и развлечения, первобытный, община.*
Key words: *national games and entertainments, primitive, community.*

Xalq oyun və əyləncələrin mənəvi mədəniyyət sistemində özünəməxsus yeri vardır. Belə ki, oyun və əyləncələrin etnoqrafik tədqiqi insan fəaliyyətinin bütün digər sahələrinin (təsərrüfat, maddi mədəniyyət, incəsənət, musiqi və d.) öyrənilməsi üçün zəngin material verir. Başqa sözlə desək oyun və əyləncələrin özü də insan fəaliyyətinin spesifik növü kimi uzun bir inkişaf yolu keçmişdir. Bununla bağlı həm Azərbaycanda, həm də digər ölkələrdə kifayət qədər elmi araşdırmalar aparmış və bir sıra maraqlı elmi nəticələr əldə edilmişdir.

Bir çox dövlətlərin alimləri oyunların meydanagəlmə (yaranma) və mahiyyəti haqqında tədqiqatlar aparmışlar. Bu baxımdan müxtəlif nəzəriyyələr yaratmışlar.

XIX və XX əsrlərdə K.D.Uşinski, K.Qross, Q.Spensor, Z.Freyd, A.Adlor, K.Byuller, V.Şterin və bir çox digər görkəmli alimlərin əsərlərində də oyun problemi ilə bağlı maraqlı fikirlər söylənmişdir. Bu alimlərin də bir neçəsi oyunun əməkdən əvvəl yarandığını qeyd edirlər. İrəli sürülən bu nəzəriyyələr oyunların ictimai təzahür kimi izah edilməsi düzgün deyil, belə ki, oyunlar ideoloji mövqedən nəzərdən keçirilirdi. Onların səhvi mexaniki olaraq heyvanın bioloji oyun təbiətinin adamın sosial oyun xarakterinə çevrilməsindən ibarət idi. Onlar qeyd edirdilər ki, oyunların yaranma mənbəyi ictimai ətraf mühit yox, instinkt və irsiyyətdir.

Marksist dialektik metodun da oyun və əyləncələrin yaranma və mahiyyətinin dərin elmi və hərtərəfli izah olunmasında rolu olmuşdur. Burada oyun ilk növbədə tarixən yaranmış ictimai təzahür formalarından biri kimi nəzərdən keçirilir. İnsan əməyi oyun və əyləncələrin yaranma və inkişafının əsasıdır. Marksizm baniləri elmi surətdə əsaslandırmışlar ki, ibtidai insan öz əmək fəaliyyəti ilə təbiətə təsir göstərməklə yanaşı özü də dəyişilmişdir. Bəşəriyyət ibtidai vəziyyətdən hazırkı səviyyəyə gəlib çatanadək çox uzun bir yol keçmişdir.

Elize Reklyunun ibtidai insanlarla bağlı fikirləri çox maraqlıdır. Özünün «İnsan və torpaq» əsərində belə yazmışdır: «İlk insanlar canlılar dünyasının əvvəli sayılırsa, biz də onların davamçılarıyıq. Onları özümüzün böyük müəllimimiz adlandıra bilərik. Çünki bu günkü fəaliyyətimizdə cüzi də olsa aid olduğumuz keçmişdən nəsə var. Sadə misalla desək, ilk insan yaşamaq üçün qida axtarırdısa, bu hiss ta qədimdən bizə qədər gəlib çatmışdır. Vuruşmaq, qan tökmək, əylənmək, oyunu udmaq bəşər övladının ədəbi və dəyişməz hissləridir. Hələ insanın özünün heyvan kimi yaşadığı vaxtlarda, güclə özünün mövcudluğunu qorumaq üçün qida toplayırdı, ov edirdi, balıq tuturdu və ətrafına da böyük sayda qida əldə etmək nümunələrini görürdü ki, bütün bunlar mövcudluğa bir dəstək idi. Dəniz sahillərində xərçənglər və dəniz heyvanları insanlara digər dəniz canlılarının gizləndiyi yerləri göstərirdi və aclıqdan əziyyət çəkənlər yorulmadan müşahidə edər, güdər və yemək üçün əldən gedərdilər. Bir dəfə balıq tutan adamlar sonra giləmeyvə toplamaqla, heyvan ovlamaqla aclıqlarını dəf edirdilər (8, səh.131).

Bir çox xalq oyun və əyləncələrimiz nisbətən kamil ilkin dövrün ayrı-ayrı təsəvvürləri ilə bağlı olmuşdur. Oyunlarda ibtidai dövrün bir çox səciyyəvi cəhətləri öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, unudulmuş, yaddaşlardan silinmiş bir çox oyunlar bizə tam halda gəlib çatmamışdır. Bütün bunlara baxmayaraq, yazıya alınmış oyunlar əməyə hazırlıq

mərhələsi keçmişdir. Vaxtilə məşhur rus demokratı Q.V.Plexanov özünün «Ünvansız məktublar» (üçüncü məktub) əsərində deyirdi ki, oyun əməklə bağlı olub, lakin vaxt etibarilə onlar əvvəl yaranıb. Plexanov belə hesab edirdi ki, oyun yeniyetmə nəsli cəmiyyətdə həyata hazırlamaq tələbindən irəli gəlir. Məhz bu vəziyyət ayrıca götürülmüş fərdin həyatında əməyi qabaqlayır (1, səh.22). İlk təkamül nəzəriyyəsini irəli sürənlərdən biri olan Lamark göstərmişdir ki, təbiətin amansız qüvvələrinə qarşı uzun müddət mübarizə etmə nəticəsində heyvanların orqanizminin əlaqədar üzvləri də dəyişir. O, əlamətlərin irsən nəsildən-nəslə keçməsi ideyasını irəli sürmüşdür. İngilis alimi Çarlz Darvin Lamarkın bəzi fikirləri ilə razılaşaraq insanın meymundan əmələgəlmə nəzəriyyəsini irəli sürürdü. Ç.Darvin nəzəriyyəsinə tənqidi yanaşan F.Engels özünün «Meymunun insana çevrilməsində əməyi rolu» adlı əsərində yazır ki, «İnsanın özünü də məhz əmək yaratmışdır». Engelsə görə, insan insanabənzər meymundan əmələ gəlmişdir, yəni ulu əcdadı heyvandır. O, öz fikrini əsaslandırmaq üçün Ç.Darvinin «İnsanın mənşəyi və cinsi seçmə» (London, 1871) əsərinin VI fəslinə («İnsanın bənzəri və geneologiyası haqqında») istinad edir. Bu baxımdan biz pedaqoji elmlər doktoru, professor Ə.Ə.Ağayevin belə bir yanaşması ilə razılaşırıq: «Marksizm banilərinin insanın şəxsiyyət kimi formalaşması, ahəngdar və hərtərəfli inkişafına dair ideyaları nə qədər önəmli başa düşülsə də, F.Engels Ç.Darvinə istinadən insanın meymundan əmələ gəlməsi fikri bir o qədər də inandırıcı deyildir. Bizim fikrimizcə, təbiətin öyrənilməsinə nəbatat, heyvanat sistemində yanaşılsa da insanat ayrıca (və əlbəttə əlaqəli) öyrənilməlidir, həm də bu zaman insanın insan olaraq yaradıldığı, meymunla irsi-varislik əlaqəsinin olmadığı nəzərdə tutulmalıdır… Digər tərəfdən, insanın meymundan deyil, insan olaraq yaradıldığı dini təlimlərdə öz bariz əksini tapır. Darvinin qənaəti genetik imkan varisliyi ilə də təsdiq olunmur» (2, səh.8-11).

Biz professor Ə.Ə.Ağayevin fikirləri ilə razılaşaraq bildiririk ki, insanın yalnız insandan yaradıldığı tam real həqiqətdir. İnsanı digər məməlilərdən fərqləndirən onun şüurudur.

Əlbəttə, inkar edilə bilməz ki, şüur cəmiyyətin inkişafında çox böyük rol oynayır. İnsan şüurunun özü tarixi inkişafın məhsuludur. İbtidai insanların şüuru çox primitiv idi. Lakin insan şüurunun hazırkı səviyyəsi əmək prosesində ictimai istehsalda inkişaf etmişdir. Əmək prosesində insanlar öz fikir və arzularını danışıq vasitəsilə başqasına çatdırmaqda ünsiyyət saxlamağa vadar olmuşlar. Birgə əməkdə insanların nitqi ilə birlikdə təfəkkürü də inkişaf etməyə başlayır. Adamlar birgə səy göstərərək əmək şeylərinin xassəsi və işin sonrakı prosesini öyrənməyi fikirləşmişlər. Məhz əmək prosesində təfəkkür və dil bəşər cəmiyyətinin inkişafına güclü təsir göstərir. Təfəkkür və dil olmadan iş təcrübəsini, oyun və əyləncələri qurmaq, başqasına ötürmək (vermək), keçmişin səmərəli irsindən və hazırkı nailiyyətlərdən istifadə edib bunları gündəlik işdə yaradıcı surətdə tətbiq etmək olmazdı.

İbtidai icma dövründən başlayaraq bütün cəmiyyətlərdə insanların cəhd etdiyi, malik olmağa can atdığı, özlərində, övladlarında, tayfa və qəbilələrdə görmək istədikləri düzgün fiziki tərbiyə də insanda belə keyfiyyətlərin yaranmasına və inkişafına xidmət etdiyindən, bütün xalqlar (millətlər) onu həmişə yüksək dəyərləndirmiş və ona ciddi fikir vermişlər. Sözsüz ki, bu keyfiyyətlərin inkişafında oyun və əyləncələrin böyük rolu vardır. Əbədi və ümumi bir kateqoriya kimi bəşər cəmiyyətinin müşayət edən oyun və əyləncələrin məzmunu, forma, məqsəd və vəzifələri ictimai şəraitin dəyişməsi ilə əlaqədar olaraq dəyişmiş, müxtəlif tarixi dövrlərdə müxtəlif səciyyələr daşımışdır.

Oyun və əyləncələr ibtidai insanların tam formalaşmasında əvəzedilməz amillərdən biridir. İbtidai insanlar formalaşdıqca fiziki tərbiyənin əsasını təşkil edən oyun və əyləncələr də sadə formadan mürəkkəb formaya düşmüşdür. İbtidai icma dövrünə xas olan qəbilə, tayfa münasibətləri, onların inam və etiqadları, məşğulluqları oyun və əyləncələrdə də əks olunmuşdur. Çünki oyunun yaranması və məzmunu öz-özünə deyil, ictimai həyat şəraitində əmələ gəlirdi.

Qədim zamanlarda başqa xalqlarda olduğu kimi, azərbaycanlıların həyatında ov etmə, balıqçılıq əsas rolu oynayırdı. İstər dağlıq-meşə şəraitində, istərsə də dəniz sahillərində yaşayan azərbaycanlıların bu fəaliyyətinin inkişaf və təkmilləşdirilməsində son dərəcə imkanlar

yaranırdı. Ovçu və balıqçıların özünəməxsus danışıq tərzi olmuşdur. Bir çox xalq oyun və əyləncələrimiz ov əsasında yaranırdı, ovçuların və balıqçıların hərəkətini əks etdirirdilər. Bu nümunələrə dastanlarımızda rast gəldiyimiz təlim (ibtidai dövrə aid olan) növlərindən oxatma, sapand və şəşpər atma və s. sonradan idman növü kimi xalqımız arasında geniş yayılması səbəbləri məlum olur.

Bir sıra uşaq oyunları vardır ki, ibtidai dövrə təsadüf edir. Onlardan «Gözbağlıca», «Siçan-pişik», «Gizlənpaç», «qa-qa», «Çilinğ ağac», «Cinqo», «Pil-pil, «Qoşar bənd» və s. misal göstərmək olar.

Bir çox xalq oyunları ov əsasında yaranır, ovların və heyvanların hərəkətini əks etdirirdilər. Öncə ovçuların xüsusi ilahi kultunun, sonra isə şikarın özünün yaranmasını təsdiq etmək sadəlövhlük olardı.

Şikarın oyundan əvvəl meydana gəlməsinə qədim «gözbağlıca» Azərbaycan xalq oyunu buna sübutdur. Oyunçular iki dəstəyə bölünürlər. Başçılar seçilir, hər dəstədən növbə ilə oyunçuların gözünü bağlayıb meydana buraxırlar. Kimsə qıraqda daş çıqqıldadır, səs çıxarıb qaçır. Gözübağlı uşaq başlayır bu səsin sorağına, qarasına düşüb axtarmağa. Böyük əziyyətlə daşı daşa vuranı tutur. Ələ keçən oyunçunun gözünü bağlayırlar, bir başqası da başlayır oyun daşlarını çaqqıldatmağa. «Gözübağlıca» oyunu, bax, bu sayaq davam edir. Bu oyun həqiqətən ov səhnəsini (ayrı-ayrı heyvanların ovunu) xatırladır. Daşların oyun zamanı xatırlatdığı səs ovçuların heyvanları onun yuvasından qovmaq üçün edilən səs-küyü, gözübağlı səsin sorağına, qarasına düşmək və tutumuq isə ovçuların fəhmlə şikarı (ovu) əldə etməyi təqlid edir.

Misal göstərdiyimiz bu oyunlarda ibtidai icma dövrünün də erkən təsəvvürləri özünün aydın izlərini saxlamışdır. İnsan cəmiyyətin bütün yaranma dövründə oyun və əyləncələr insan həyatının, əməyin və məişətin müxtəlif hisslərini əks etdirmişdir. Cəmiyyətin maddi rifahının dəyişilməsi ilə əlaqədar oyun və əyləncələrin məzmun və formaları da dəyişir.

İbtidai icma quruluşunda oyunlar primitiv olaraq əmək (iş) hərəkətlərinə yaxın və oxşar idilər. Əmək (istehsalat) vasitələrinin müəyyən dərəcədə təkmilləşdirilməsi cəmiyyətin inkişafı ilə oyun və əyləncələr öz xüsusiyyətlərinə əsasən daha mürəkkəb və rəngarəng olurdular. Qədim mədəniyyət üzrə tanınmış dünya şöhrətli tədqiqatçı E.Teylor yazırdı ki, oyun və əyləncələr zəruri həyati işlərin məzəkəli təzahürü kimi özünü büruzə verir. (7, səh.65)

İbtidai icma quruluşunun sonrakı mərhələlərində insanların düşüncələrinin formalaşması ayrı-ayrı təsərrüfat sahələrinin yaranması oyun və əyləncələrin forma və məzmununa təsir etmiş və bir qədər yeni yaranmış insan cəmiyyətində özünə layiqli bir yer tuta bilmişdir. Sözsüz ki, oyunlar həmin dövrün səciyyəvi xüsusiyyətlərini özündə az da olsa saxlaya bilmişdir. Ulu babalarımızın yaratmış olduğu oyun və əyləncələr həmin dövrün həyat-məişəti, inam-etiqadları, adət-ənənələri ilə sıx bağlı olmuşdur. Oyun və əyləncələr ulu mədəniyyətimizin mənəvi sərvətləridir. Oyun və əyləncələrimizin qoruyucuları isə xalq yaddaşı və daş kitabələrdir. Qədim qaya rəsmlərində və daş kitabələrdə (Qodustan və Kəlbəcər) xalq oyunlarımızın silsilə nümunələri əks olunmuşdur.

Qədim zamanlarda azərbaycanlılarda aşıq-aşıq (moça-moça) adlı oyun mövcud idi. Bu oyun əsas etibarı ilə azərbaycanlıların maldarlıq və ovçuluqla məşğul olduqları vaxt meydana gəlmişdir. Kaman və oxu sıxışdırıb aradan çıxardan daha müasir ov aləti sayılan çaxmaqdaşlı tüfənglərin meydana gəlməsi ilə «aşıq» əvəzinə dairənin içinə qurğuşun güllələri qoymağa başladılar. Çaxmaqdaşlı tüfənglər olan **berdankalar*** ilə əvəz ediləndən sonra qurğuşun güllə yerinə yenə də aşıqdan istifadə olunmağa başladı.

* Бердан, Хайрем (англ. Hiran, Berdan: 6 сентября 1824, Фелпс, штат Нью-Йорк – 31 марта, 1893, Вашингтон) – полковник Американской службы; известность приобрел, как изобретатель разных приспособностей к ручному огнестрельному оружию.

Azərbaycan xalq oyunlarının əksəriyyəti ictimai həyatın müəyyən şəraitini əks etdirməsinin nümunəsi kimi nizənin atılmasını xatırladan «ağac sürüşdürmə»** və «ağacların atılmasını» qeyd etmək olar. Xarakterikdir ki, adı çəkilən oyunlarda ağacı yalnız atmaq yox, onu yalnız ortadan tutaraq çiyin arxasından bir əllə atmaqla icra olunur. Görünür ki, bu oyunlar nizənin əsas mübarizə aləti və qidanın əldə edilməsində xalqın həyatında olan dövrünü əks etdirir. Azərbaycanda maldarlıq və qoyunçuluq təsərrüfatlarının yaranmasının tarixi çox qədimdir. Bu cür təsərrüfatlarda çalışanlar özlərilə əl ağacları və çomaq gəzdirirlər. Çox qədimlərdə bu adamlar əl ağacından özünümüdafiə məqsədi üçün istifadə etmişlər. Həmçinin əhali arasında ağac vuruşmalarının olmasını yaşlı nəslin nümayəndələrini indi də xatırlayırlar. Ayrı-ayrı tayfalar arasında da bu cür vuruşmalar çox olmuşdur.

Ağacdan müdafiə məqsədi üçün istifadə olunması «Kitabi-Dədə Qorqud»dakı Qaraca Çobanın timsalında ilkin tarixi mənbələrdən bizə məlumdur.

Hələ qədim zamanlarda insanlar heç bir silah yaratmazdan əvvəl əl ağacından özünümüdafiə və tələbatını ödəmək məqsədi ilə primitiv alət kimi istifadə etmişlər. Əl ağacı ilə icra olunan oyunların məzmunundan göründüyü kimi, nizənin əsas mübarizə aləti və qidanın əldə edilməsində (insanın) xalqın həyatında olan dövrünü əks etdirir.

Əməkdən yaranan insanın oyunu əməklə çox ümumidir. Məşhur pedaqoq A.S.Makarenko deyirdi: «Bir çoxlarının düşündüyü kimi oyun və iş arasında çox da böyük fərq yoxdur. Yaxşı oyun yaxşı işə, pis oyun isə pis işə bənzəyir».(5, səh.47)

Əmək prosesində yarış elementləri də yaranmışdır.

Yazıçı-pedaqoq Y.V.Çəmənzəminli «Qızlar bulağı» romanında qəbilə dövründə yaşayan Azərbaycan xalqının həyatından, adət və ənənələrindən bəhs edir. «Xoruz» qəbiləsinin adətincə sonsuz qadınlara, kişilərə kömək edir, evi təmizləyir, qarı və qocadan halallıq alırlar.

Gənclər qəbiləni tərk edərkən özlərindən müxtəlif xeyirxah işləri, əməlləri yadigar qoyub getməli idilər. Onlardan əvvəlkilər arx çəkmiş, kəhriz çıxarmış, körpü tikmiş, meşə salmışlar. Gənclər bağ salmağı qərara aldılar. Bir neçə günə onlar yüz ağaclı bir bağ salıb qəbilə şurası nümayəndələrinə təhvil verdilər. Gənclər həm də odla bağlı oyunu olan «Təbiətə pərəstiş» adətini icra etdilər. Bu bayram formasına bütün qəbilə toplaşmışdı. Məcməidə bir qab su, bir az torpaq və odun parçaları gətirdilər. Hərə diz çökərək məcməiyə təzim edib, nəğmə oxuyaraq torpağı götürüb bağlı bir ağacın dibinə tökdülər, odunlar düz yerdə qalanıb üzərinə çırpı yığıldı və od vuruldu, suyu ətrafa səpələyib əl-ələ verərək oynamağa başladılar. Kişilər, arvadlar və uşaqlar tonqalın ətrafına dolanaraq oxuyurdular. (4, səh.392)

Romanda təsvir olunan hadisələr tarixin ən qədim dövründə cərəyan etsə də, xalqımızın mərhəmət, xeyriyyəçilik və el köməklikləri o dövrün ibrətamiz faktlarıdır. Əsərdən bizə məlum olur ki, qeyd olunan adətlər təkcə kişilər arasında deyil, həm də qadınlar arasında da yayılan bir hal olmuşdur.

Azərbaycan xalqının qarşılıqlı yardım formaları qədim tarixə malik olsa da, onların peşəkar formada öyrənilməsinə XIX əsrin sonu – XX əsrin əvvəllərində başlanmışdır. Azərbaycan xalqını qarşılıqlı yardım formalarını etnoqrafik cəhətdən ilk öyrənənlər rus tədqiqatçıları olmuşdur. Onlardan S.Yegizarov, S.Şaverdov və Q.Çursini problemlə bağlı əsərlərini qeyd etmək olar.

Azərbaycan etnoqrafiya elmində isə qarşılıqlı yardım formalarının tədqiqinə yalnız XX əsrin 50-60-cı illərində başlanmışdır. Həmin illərdə Azərbaycan etnoqraflarından Q.T.Qaraqaşlı, T.Ə.Bünyadov, Ş.A.Quliyev, Q.Ə.Rəcəbli, Q.C.Cavadov və V.A.Çıraqzadə qarşılıqlı yardımın müxtəlif formalarının elmi araşdırılması ilə xüsusi məşğul olmuşlar.

Q.Rəcəblinin 2008-ci ildə nəşr olunmuş «Azərbaycanda qarşılıqlı yardım formaları» tarixi-etnoqrafik tədqiqat» kitabında Azərbaycanda qarşılıqlı yardım formaları haqqında

** Ağac sürüşdürmə əsasən qabığı qovrularaq soyulmuş əl ağacı nəzərdə tutulur. Bunlar bərkliyi, möhkəmliyi ilə də fərqlənir, səthi tam hamar olur, əyriliyi qətiyyən olmur, hər kəsin boyuna uyğun əl ağacı olurdu.

məlumat verilir. Həmin kitabda müəllif yazır: «Azərbaycanda qarşılıqlı yardım formaları iməclik, avrəz, avaja, mədəd, növbələşmə, ortaqlıq, hoy, cey, mödgəm, həmgəl, bədəl, əvəzçilik, şəriklik, ziyanlıq, alışma, damazlıq umya və i.a. müxtəlif adlarla geniş yayılmışdır. Qarşılıqlı yardımın bu formaları müxtəlif adlar daşısalar da, məzmun etibarilə bir-birinə yaxın və oxşar olmuşlar. Onların bir qismi ümummilli səciyyə daşıyaraq bütün ölkədə yayılmış, bir qismi isə məhəlli xarakter daşıyıb ayrı-ayrı bölgələrdə təbliğ edilmişdir» (6, səh.12).

Q.Cavadovun 1993-cü ildə nəşr olunmuş «Azərbaycanda el köməyi adətləri» adlı kitabında el köməyi adətlərinin digər türkdilli və türkdilli olmayan xalqlarda da olduğunu bildirir və bu barədə Q.Cavadov yazır: «Azərbaycan əkinçiləri arasında sırf köməklik prinsipləri əsasında yaradılan bu qəbilli əmək birləşməsi özbəklər və taciklərdə «alqoy» və ya «olqov», türkmənlərdə «əkin şərik», «xovəndləşmək» istilahları ilə məlum olmuşdur.» (3, səh.37)

Söhbət açdığımız «el köməyi» və «qarşılıqlı» yardım formaları məlumatı 13.06.2015-ci ildə Kəlbəcər şəhərində (1926-cı ildə) anadan olmuş Həsənov Süleyman Zeynal oğlundan almışıq.*

O, bizə söylədi ki, mən kiçik yaşlarımdan insanların bir-birinə əl tutmalarının şahidi olmuşam. Kəndin sakinləri xəstələrə və ehtiyacı çox olan qonşulara məhsulun yığılmasında, ot biçimində, evin tikilməsində, odunun qışa hazırlanmasında və s. birgünlük təmənnasız köməklik göstərirdilər. El köməyində işləməyə qadir olan bütün kişi və qadınlar iştirak ediblər. İş zamanı qonşuya daha çox kömək etmək üçün hamı əlindən gələni edirdi. Beləliklə, bu iş yarış xarakteri alırdı.

Ot biçini zamanı keçirilən yarışlar xüsusilə maraqlı olurdu. Bizim Kəlbəcər dağ rayonu olduğundan, adətən, biçinçilər yamaca qalxıb yuxarıdan aşağıya (kərənti, dərgəz) biçməyə başlayırdılar. Sıldırımlı və təhlükəli sahələrdə işləyərkən, biçinçilər bir-birini qabaqlamağa çalışırdılar. Qoçaq adam, zirək adam özündən qabaq kərənti çəkəni vərdən (vər – burada sıra deməkdir) çıxarırdı və yenə də işinə davam edirdi. İşin bu prosesi zamanı mərdlik, güc, cəsarət, dözümlülük kimi keyfiyyətlər əldə edilir, xüsusilə isə ayaq, çiyin və bel əzələləri inkişaf edirdi.

Biçinçilərə ev sahibləri kərə yağından hazırlanmış xüsusi yeməklər, quzu əti, qaymaq və s. qüvvətli yeməklər verirdilər.

Bu cür yeməklərə üstünlüyün verilməsi də güc və çeviklik yarışı ilə bağlı idi. Çünki belə yeməklər onların işinin davam etməsinə mane olmurdu. Qidanın həcmi az, kalorisi çox idi. Biçinçilər bu yanaşmanı işi tam bitirənə qədər davam etdirib qüvvələrini sınayırdılar.

Oyunun materialist anlayışını verən Plexanov oyunun yaranmasının müxtəlif əks elmi nəzəriyyəsini qəddarcasına tənqid edərək, Byuxer və başqa tədqiqatçıların kobud səhvlərini açıqlamışdır. Lakin Plexanov sona qədər özü (öz nöqteyi-nəzərini) baxışlarının davamçısı olmur. O, insanın oyunu və heyvanların utilitar hərəkətlərinin arasında dərin fərqləri görmürdü.

Tarixən inkişaf etmiş adamın oyunu onun şüurlu spesifik fəaliyyətidir. Bunun üçün onu, heyvanın hərəkəti ilə eyniləşdirmək olmaz.

Bütün digər xalqlarda olduğu kimi Azərbaycan xalq oyun və əyləncələri də insanların əmək fəaliyyəti prosesində yaranmışdır. Belə ki, oyunların yaranmasında ilk olaraq əmək əsas yer tutur.

Cəmiyyətin maddi həyat rifahının dəyişilməsində oyunların forma və məzmunu da dəyişirdi.

Ədəbiyyat

1. Ağayev Ə., Səmədov Y.. Ümumtəhsil məktəblərində xalq oyun ənənələrindən istifadə. Bakı, Mütərcim, 2005, 152 s.

2. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. «Avropa» nəşriyyatı, Bakı, 2005, 288 səh.

* Həsənov Süleyman Zeynal oğlunun 90 yaşı var. Kəlbəcər qaçqınıdır. 2015-ci ilə kimi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında bağban işləmişdir.

3. Cavadov Q.C. Azərbaycanda el köməyi adətləri. Bakı, Azərnəşr, 1993, 104 səh.
4. Vəzir Y. Əsərləri, II cild, Bakı, Elm, 1976, 744 səh.
5. Makarenko A.S. Uşaqların tərbiyəsi haqqında mühazirə. 1947, səh.47.
6. Rəcəbli Qəzənfər Əjdər oğlu. Azərbaycanda qarşılıqlı yardım formaları (tarixi-etnoloji tədqiqat). Bakı, MBM, 2008, 60 səh.)
7. Тейлор Г. Первобытная культура. СПб, 1896, Т.1,стр.65.
8. Елизе Реклю. Человек и Земля, Elize Reklyu. Том первый. Первобытный человек – Древняя история. Издание Брокраузъ-Ефронъ С.Петербург, 1906.

Я.Б.Самедов

Об исследовании народных игр и развлечений

Резюме

Одной из важных отраслей духовной культуры народа являются народные игры и развлечения. Отражая жизненный уклад, сельскохозяйственную деятельность, традиции, обычаи, желания и чаяния народа, они также являются важным источником для изучения проблемы самобытности и этногенеза этого народа. Через них четко прослеживаются элементы и особенности социальных и общественно-политических отношений, существующих в обществе.

Возникновение и развитие народных игр и развлечений азербайджанского народа происходило в контексте тесного взаимодействия и взаимосвязи с культурами всех тюркско-мусульманских народов региона. В становлении этих взаимосвязей, помимо социально-экономических факторов, определенную роль сыграло и наличие единой идеологии. В статье исследуются все вышеперечисленные вопросы, а также анализируется степень изученности обозначенной проблемы в азербайджанской этнографии.

Y.B.Samadov

Investigation about national games and entertainments

Summary

National games and entertainments being one of the main areas of spiritual culture along with reflecting the lifestyle, economic activities, traditions, level of national development, wishes and aspirations of the people is considered as one of the basic sources for the studying the problem of ethnogeny as well.Here also is clearly visible the general mood of the people, the results of social inequality, signs of socio-political relationships having existed in society and so on.

Shaping of Azerbaijan popular games and entertainments have occurred in the context of the general development of culture, mutual relationship and interaction with the neighboring Turkic-Muslim peoples. Along with the social and economic factors, other factors, including the single ideology has had significant influence in the establishment of this relationship. All these issues and the state of the problem’s investigation in Azerbaijan ethnography is analyzed in the article.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 07.09.2017

G.A.SƏMƏDOVA
e-mail: gulshansamadova @yahoo.co.uk

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ÖYRƏNƏNLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİNİN XARİCİ DİL MÜƏLLİMLƏRİNİN PEŞƏKARLIQ SƏRİŞTƏSİNDƏN ASILILIĞI

***Açar sözlər**: qiymətləndirmə, kollokvium, imtahan, obyektiv meyarlar, subyektiv meyarlar, tədqiqat bacarıqları*
***Ключевые слова**: оценивание, коллоквиум, экзамен, объективные критерии, субъективные критерии, исследовательские навыки*
***Key words**: assessment, colloquium, examination, objective criterion, subjective criterion, research skills*

Azərbaycan təhsilində innovativ yenilikləri yalnız yeni təfəkkürə, yeni dəyərləri nəzərə alan və yeni peşəkar kompetensiyalara malik yeni müəllimlər nəsli həyata keçirə bilər. Müasir Azərbaycan təhsilində yüksək peşəkarlıq kompetensiyalarina malikxarici dil müəllimlərinə olan tələbat durmadan artır. Bu artım cəmiyyətimizdə xarici dilə yiyələnmiş mütəxəssislərə olan tələbatın durmadan artması ilə bağlıdır.

Azərbaycanda təhsil sahəsində baş verən yeniliklər öyrənənlərin biliklərinin qiymətləndirilməsində daha obyektiv meyarlardan istifadə etmək bacarıqlarına malik öyrədənlərin formalaşdırılması vacibliyini ortaya qoyur. Universitetlərdə öyrənənlərin, konkret olaraq, 1-ci və 2-ci kurs tələbələrinin xarici dil biliklərinin qiymətləndirilməsi əsasən aşağıdakilara əsasən aparılır:

- Gundəlik şifahi sorğu
- Yazı işləri
- Kollokviumlar
- Sərbəst işlər
- İmtahan

Gündəlik şifahi sorğu tələbələrin cütlər və qruplarda iştirakını, mətnlər üzərində işləırini nəzərdə tutur. Bu zaman qiymətləndirən müəllim tələbənin nitqində mövzunun əhatə olunması dərəcəsini, qrammatik və leksik səhvləri, nitqin səlisliyini nəzərə alır və tam olaraq bir qiymətlə qiymətləndirir. Bu qiymət nə dərəcədə obyektivdir? Qiymətin obyektiv olması üçün müəllim, yəni öyrədən xüsusi rubrikdən istifadə etməli və bu rubriklə tələbələri – öyrənənləri də əvvəlcədən tanış etməlidir.

Yazı işləri də tələbələrin, yəni öyrənənlərin biliyinin qiymətləndirilməsi üçün bir vasitədir. Yazı işləri əsasən müxtəlif növ esselərdən ibarətdir ki, bunlar da təsviredici, analitik(mövcud olana aid fikir bildirmək), nağıl etmə(hər hansı bir hadisənin nəqli) və inandırıcı esse növləridir ki, bunların qiymətləndirilməsi də xüsusi rubriklər əsasında aparılır.

Tələbələrin, yəni öyənənlərin biliyinin qiymətləndirilməsində vacib vasitələrdən biri kollokviumlardır ki, bunların tərtibatında dəqiq meyarlar hələ də tam təyin edilməmişdir. Müəllimlər, yəni öyrədənlər burada çalışmalardan, oxuyub anlama tapşırıqlarından, qısa esselerdən istifadə edirlər. Hər bir müəllim, yəni öyrədən öz professional bacarıqları və yaradıcılıq səviyyəsindən asılı olaraq kollokvium tapşırıqları tərtib edir. Kollokviumlara qoyulan əsas tələb müəyyən müddət ərzində qazanılan bilik və bacarıqların yoxlanılmasıdır. Bunun üçün dəqiq mexanizmlər işlənib hazırlanmasına ehtiyac duyulur. Məsələn, söz ehtiyatının minimum sayı, keçilmiş mövzu üzrə yazılı və şifahi kompetensiyalar, yəni konkret vaxt ərzində konkret mövzuda yazılı və ya şıfahi fikir bildirmək bacarığı bu siyahidandır. Bu zaman tapşırıqların çətinlik dərəcəsi də nəzərə alınmalıdır və mütləq şəkildə xarici dildə

mövcud dil səviyyələri çərçivəsində olmalıdır. Belə olan halda tələbənin, yəni öyrənənin konkret zaman kəsiyində hansı konkret bilik və bacarıqlara yiyələndiyi mümkün və maksimum dərəcədə obyektiv qiymətləndirilə bilər.

Sərbəst işlərə gəldikdə, onlar tələbənin, yəni öyrənənin yaradıcılıq işi kimi qiymətləndirilir. Bu zaman əsas diqqət öyrənənin xarici dildə mövzu seçiminə, mövzu üzərində işləmək bacarığına, resurslardan düzgün istifadə qabiliyyətinə, işin məzmun və tərtibatında uyğunluğa yetirilir. Sərbəst işlərin qiymətləndirilməsində konkret rubrik olmadığından hər bir müəllim, yəni öyrədən qiymətləndirmə meyarlarını müəyyənləşdirərək əvvəlcədən tələbələrə, yəni öyrənənlərə təqdim etməli və onlarla tanışlıq prosesində lazımi izahatlar verməlidir. Sərbəst işlər müəyyən mövzu üzrə analitik yazılar, kiçik təqdidat işləri və ya təqdimatlar şəklində ola bilər. Bu işlərin hər birinin formatı ilə tələbə qabaqcadan tanış edilməlidir. Bu zaman internet resurslarına istinad etməyin və onlardan düzgün istifadə qaydalarını da tələbələrə aşılamağa ehtiyac duyulur, cünki internet resurslarından istifadə zamanı istinad edilən saytın ciddi mənbə kimi tanınıb-tanınmaması nəzərə alınmalıdır. Mənbədən istifadə edilərkən onun istinad obyekti olaraq adının çəkilməsi, hətta istinad edilən tarixin də qeyd olunması vacibliyi önə çəkilməlidir. Tələbələr, yəni öyrənənlər resurslardan necə faydalanmağı, öz fikirlərini necə əsaslandırmağı öyrənməlidirlər ki, bunun da əsası sərbəst işlərə hazırlıq prosesində qoyulur. Bu baxımdan sərbəst işlərin qiymətləndirilməsində düzgün meyarlara riayət etmək vacibdir. Sərbəst işlərin hazırlanması prosesində tələbələr bir çox bacarıq və vərdişlərə yiyələnirlər ki, bu da onların ümumilikdə xarici dili daha mükəmməl anlamasına xidmət edir.

İmtahanlar hər bir tələbənin, yəni öyrənənin biliyinin rəsmi qiymətləndirilməsidir və tələbə fəaliyyətinin ümumi qiymətləndirilməsində əsas yer tutur. İmthan sorğu vərəqəsi əsasən leksik və grammatik tapşırıqlardan, oxuyub anlama və mövzu üzrə fikrini ifadə etmək bacarığını əhaə edən tapşırıq da daxil olmaqla yazı, oxuyub anlama kimi bacarıqların qiymətləndirilməsi ilə nəticələnir.

Yalnız bəzi hallarda (məsələn, Sabah qruplarında) dinləmə və danışıq bacarıqları da yoxlanır və qiymətləndirilir. Bu tapşırıqlar çox gözəl işlənmiş formada tələbələrə təqdim edilir ki, bunun üçün də tələbələr semestr ərzində dərslər zamanı bu tip çalışmalar tipi ilə tanış edilir. Dinləmə tapşırıqlarının həyata keçirilməsində baş verə biləcək texniki problemlərin qabaqcadan düşünülüb alternativ yollarla həll edilməsi üçün görüləcək tədbirlər çox zaman müəllimlərin peşəkarlıq səviyyəsindən asılıdır.

Yazı tapşırıqlarının və şifahi nitq bacarıqlarının qiymətləndirilməsi fərqli meyarlar əsasında aparılır. Yazı tapşırıqlarının qiymətləndirilməsi üçün düzgün cavabların sayı kimi obyektiv meyarlardan istifadə olunur. Şifahi nitqdə dialoqlardan, mətnlərdən, şəkil təsvirlərindən, problem situasiyalardan və s. istifadə edilir və bu zaman qiymətləndirilmə əsasən subyektiv meyarlar əsasında aparılır və bu zaman qiymətləındirənin subyektiv münasibəti ilə qarşılaşa bilər.

Hər bir qiymətləndirmə tələbə, yəni öyrənənin fəaliyyətində həm də stimullaşdırmaya müsbət və mənfi təsir edəcək bir faktordur. Xarici dil müəllimləri öyrənənləri qiymətləndirərkən motivasiya amilini unutmamalıdırlar. Dörneyiyə görə müəllimlər zamanla motivasiya dəyişkənliyini nəzərə almalıdırlar. Bu öyrənmənin dəyişməz atributu deyildir. O bir neçə ay və ya il boyunca dəyişməz qala bilməz. Bir sıra faktorlar öyrənənlərin motivasiyasına yaxşı və ya pis təsir edə bilər. İnsanları motivasiya etmək asan məsələ deyil və burada bir neçə qayda və prinsiplər var ki, öyrədici çalışmanın məzmun və məqsədindən asılı olmadan ümumbəşəri cəhətdən həqiqidir. Dörneyinin qeyd etdiyi kimi "Təbiət elmlərində olduğu kimi dəqiq qaydaların olması yaxşı olardı, lakin sosial elmlərdə heç nə birbaşa deyil və demək olar ki, motivasiya üzrə ədəbiyyatda yazılmış hər şey başqaları tərəfindən sual altına alınmış ola bilər."(2, 24)

Bunu nəzərə alaraq qiymətləndirmə, tələbə, yəni öyrənənin fəaliyyətinin göstəricisi kimi həm öyrənənin, həm də müəllimin, yəni öyrədənin lazımı kompetensiyalara yiyələnməsinin vacibliyini aşkara çıxarır. Belə ki, tələbənin, yəni öyrənənin biliyinin qiymətləndirilməsi üçün

meyarların təyin edilməsi, sistemləşdirilərək rubrik halına salınması müəllimlərdən- öyrədənlərdən xüsusi kompetensiyalar tələb edir. Bu kompetensiyaların formalaşdırılması xarici dil müəllimlərinin hazırlanmasında nəzərə alınmalıdır.

Ədəbiyyat

1. Simon Borg. Teacher Research in Language Teaching. A critical analysis. Cambridge University Press, 2013, 253 p.
2. Zoltan Dörneyi.Motivational Strategies in the language classroom.Cambridge University Press, 2013, 155 p.
3. Гусейнзаде Г.Д. Обучение речевой коммуникации на иностранном языке. Баку: Мутарджим, 2001, 316 с.
4. Исмаилова Д.А. Методика обучения диалогической речи современного Английского языка на начальных курсах языковых вузов (I и II курсов). Баку: Мутарджим, 2002, 212 с.

Г.А.Самадова

Зависимость оценивания знаний обучающихся от профессиональной компетентности учителей иностранного языка

Резюме

Результаты оценивания знаний студентов, изучающих иностранный язык, очень важны для их дальнейшего развития. Учителя используют различные материалы, чтобы проверить их четыре языковых навыка. В конечном итоге качество оценивания во многом зависит от профессиональной компетентности учителей иностранного языка.

G.A.Samadova

The dependance of the assessment of the learners on the professional competence of foreign language teachers

Summary

The results of the assessment of the knowledge of foreign language learners are important for the their further improvement. Foreign language teachers use different materials to assess four language skills of the learners. Therefore the quality of assessment depends on the professional competence of foreign language teachers.

Rəyçilər: ped.f.d. J.Mehrəliyeva,
ADU-nun Linqvodidaktika kafedrası
(15.05.2017-ci il tarixli iclasının qərarı (pr. №17)).

Redaksiyaya daxil olub: 17.05.2017

F.SÜLEYMANOV
e-mail: farid.suleyman@hotmail.co.uk

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

İNKLÜZİV TƏHSİL PROSESİNDƏ KÖMƏKÇİ MÜƏLLİMİN ROLU

Açar sözlər: *İnklüziv təhsil, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, köməkçi müəllim, paradiqma, əməkdaşıq modeli*
Ключевые слова: *инклюзивное образование, дети с особыми потребностями, ассистент учителя, смена парадигмы, модель сотрудничества*
Key words: *inclusive education, children with special needs, teacher assistant, a paradigm shift, collaboration model*

İnklüziv təhsil

Müasir dövrdə industrial cəmiyyətin tədris paradiqmasından postindustrial cəmiyyətin tədris paradiqmasına keçid baş verməkdədir (1, 144). Başqa sözlə, ictima-mədəni həyatımızın bütün müstəvilərində olduğu kimi təhsildə də postmodernist dəyərlər kök salmaqdadır. Əvvəllər hadisə və fenomenlərə yanaşmada sabit ehkamlara istinadən mühakimə yürüdən və münasibət nümayiş etdirən modernizm baxış bucağından fərqli olaraq postmodernizm uzun tarixi proses əsnasında sərt qəlibdə formalaşmış bir çox paradiqmaları inkar edərək onları dəyişməyə məhkum etdi. Özü də bu hadisə "qloballaşma" adlandırılan və ümumdünya miqyasında cərəyan edən bir prosesin tərkib hissəsi olduğundan hər hansı bir ölkə yaxud cəmiyyətin bu prosesdən kənarda qalmaq ehtimalı çox azdır. Bu baxımdan tarixən şərq və qərb dəyərlərini məharətlə sintez edən Azərbaycanın da bu prosesə çevik və operativ şəkildə qoşulmağa səy göstərməsi təbii qarşılanmalıdır. Ölkəmizdə təhsilin bütün pillələrində mütərəqqi prinsip və dəyərlərin tətbiq edilməsinə xüsusi cəhdlərin edilməsinin şahidiyik. Lakin o da danılmaz bir faktdır ki, bəzi hallarda yeniliyin tətbiqində tələskənliyə yol verilir ki, bu da nəticənin qeyri-qənaətbəxş olması ilə nəticələnir. Məhz bu səbəbdən təhsildə innovativ mexanizmlərin tətbiqi zamanı müəyyən zaman çərçivəsinə salınmış islahatlar və sistemli tədbirlər daxilində fəaliyyətin qurulması məqsədəuyğun olardı. İnklüziv təhsilə keçid prosesinin də bu yanaşma əsasında baş tutması səmərəli perspektiv vəd edir.

Azərbaycanda təhsil sisteminə idxal edilən və nisbətən yeni sayıla bilən anlayışlardan biri də inklüziv təhsildir. İlkin olaraq xüsusi qayğıya ehtiyacı olan uşaqların (XQEU) ümumtəhsil müəssisələrində təhsilə cəlb olunmasını nəzərdə tutan bir təhsil forması kimi təqdim edilən inklüziv təhsilin əslində sərhədləri daha genişdir. Doğrudur, inklüziv təhsil anlayışı əslində birbaşa olaraq XQEU-ın təhsil ehtiyacları, sosial inteqrasiya və adaptasiyası məsələsinin aktuallaşması fonunda meydana gəlmişdir. Əsasən keçən əsrin 70-ci illərindən etibarən qərb ölkələrində formalaşmağa başlayan inklüziv təhsil XQEU-ın valideynləri və onların hüquqlarını müdafiə edən vətəndaş cəmiyyətinin təşəbbüsü və təkidi sayəsində geniş vüsət almağa başladı. Davamlı israrlar və təşviqat kompaniyalarının nəticəsi olaraq XQEU-ın inklüziv təhsil çərçivəsində ümumtəhsil məktəblərində təhsil almaq hüququ müvafiq qanunlarda öz təsbitini tapdı.

Hazırda geniş mənada inklüziv təhsilin mahiyyəti hər hansı bir şagirdin sinifdə fiziki mövcudluğu, təlimdə fəal iştirakı, müəllim və digər şagirdlər tərəfindən qəbul olunması və nailiyyət (akademik və sosial) əldə etməsini özündə ehtiva edir.

Köməkçi müəllim

İnklüziv təhsil fəlsəfəsinin təhsilə verdiyi töhfələrdən biri də köməkçi müəllim vəzifəsidir. Köməkçi müəllim anlayışını müxtəlif bacarıq, qabiliyyət və maraqları olan uşaqların ehtiyac-

larını qarşılamaq üçün tətbiq olunan difersiallaşdırılmış təlim prosesinin məhsulu kimi anlamaq olar. Belə ki, təcrübə göstərdi ki, bütün şagirdlərə bərabər imkanlar yaratmaq, onların hər birinə bərabərhüquqlu təhsilalan münasibəti göstərmək üçün bir sinifdə təlim alan onlarla şagirdin nisbətində bir sinif müəlliminin fəaliyyəti kifayət etmir. Beləliklə, bu vəziyyət sinif müəlliminin, belə demək mümkünsə, alternativi olan köməkçi müəllim vəzifəsinin formalaşmasını labüd hala gətirdi. Hazırda dünya miqyasında köməkçi müəllimlərin dəstəyindən istifadə getdikcə artmaqdadır ki, bu da həm müəllimlər, həm də şagirdlər üçün faydalı hesab edilir (3).

Köməkçi müəllimin yardımından hələ 1820-ci illərdən bəri istifadə olunurdu. Lakin bu vəzifədən rəsmi surətdə 1950-ci illərdən istifadə olunmağa başlanmışdır (2. səh. 92). ABŞ-da 1960-cı illərdə qəbul edilmiş bəzi qanunvericilik aktları köməkçi müəllim vəzifəsinin məsuliyyət və öhdəliklərinin müəyyənləşdirməyə kömək etdi. Bu illər ərzində müəllim köməkçiləri, əsasən, məktəbin inzibati idarəetməsində iştirak edirdilər, lakin zaman keçdikcə müəllimlər belə bir təşəbbüslə çıxış etdilər ki, köməkçi müəllimlər müəllimlərin nəzarəti ilə təlim prosesində müəyyən vəzifələri icra edə bilərlər.

Təlim-tədris prosesinin uzun illər, hətta əsrlər boyu "şagirdlər və bir müəllim" klassik kontekstində baş tutduğu bir dövrdən sonra inqilabi surətdə fərqli bir təlim-tədris formatına keçidin tərəddüd və şübhə doğuracağı mütləq idi. Klassik təhsil ənənələri təhsil sistemində və təfəkkürlərdə dərin kök saldığından ondan imtina etmək asan olmadı. Əlbəttə ki, burda birmənalı imtinadan söhbət getmir. Qərb ölkələrinin təcrübəsi göstərir ki, bu proses tədrici olaraq və ehtiyacyönlü əsaslarla baş tutduğundan təhsil sistemində özünə yer edə bildi.

Bu yeniliyin uğur qazanmasına imkan yaradan amillərdən biri də müvafiq elmi-pedaqoji tədqiqatların, o cümlədən köməkçi müəllimlə bağlı müvafiq araşdırmaların aparılması idi. Bu araşdırmaların maraqlı nəticələrindən biri inklüziv təhsillə yanaşı, "həmmüəllim", "həmmüəllimlik" (co-teacher, co-teaching) kimi anlayışların yeni təhsil terminləri qismində dilin leksikasına gətirilməsi idi.

Ədəbiyyatda müxtəlif terminlərlə adlandırılan (müəllim köməkçisi, paraprofessional, parapedaqoq, təlim yardımçısı, həmmüəllim və s.) köməkçi müəllimə münasibət birmənalı olmamışdır. Yəni bəzi tədqiqatçıların araşdırmalarına görə müəllim köməkçisi təlimin uğurlu və səmərəli təşkil olunmasında heç də həlledici rola malik deyildir. Lakin bununla belə müəllim köməkçi vəzifəsinin önəmi, nüfuzu və istifadə miqyasının genişliyi inkarolunmazdır. Çünki digər qrup tədqiqatlar da sübut etməkdədir ki, müəllim köməkçisinin fəaliyyəti digər bir sıra faktorlardan daha çox inklüziv təhsilin keyfiyyətinə müsbət təsir göstərə bilir.

Həmmüəllimlik modelləri

Şübhəsiz ki, inklüziv təhsil prosesinin önəmli icraçılarından biri də köməkçi müəllimdir və bu vəzifə XQEU üçün son dərəcə mühümdür. Təhlillər göstərir ki, köməkçi müəllim inkişaf etmiş bütüm ölkələrdə uğurlu məktəb və səmərəli təlimin mərkəzində dayanan fiqurlardandır. Məlumdur ki, təlim prosesində bir müəllimin onlarla şagirdin tələbatına lazımınca cavab verməsi, onlara təlimdə bərabər imkanlar yaratması, şagirdlərin hamısını eyni səviyyəli fəal təlimə cəlb etməsi əməli surətdə mümkün deyil. Günümüzün danılmaz reallığı bundan ibarətdir ki, ölkəmizin təhsil müəssisələrində bəzən vəziyyət elə gətirir ki, müəllim təkbaşına otuzdan çox şagirdlə çalışmalı olur. Hətta tipik şagirdlərlə belə effektiv təlim işi qurmaq istənilən nəticəni vermir. Belə olan halda sinif müəlliminin yardımçı həmkara olan ehtiyacını açıq-aşkar müşahidə etmək mümkündür. Məhz bu səbəbdən köməkçi müəllim anlayışı qərb ədəbiyyatlarında nəzəri baxımdan geniş şəkildə işlənmiş, onun funksional fəaliyyəti, təlimdə vəzifə və öhdəlikləri müəyyənləşdirilmişdir. Bu anlayış həm də təhsil siyasətinə gətirilmiş və uğurla tətbiq olunmuşdur. Ölkəmizdə də təhsilin, xüsusilə də inklüziv təhsilin arzuolunan formada maneəsiz təşəkkül tapması üçün köməkçi müəllimin kadr potensialı kimi məktəblərə daxil olması bir zərurətdir.

Yuxarıda qeyd olunduğu kimi, köməkçi müəllimin sinifdəki mövqeyi və funksiyası nəzəri baxımdan işlənib hazırlanmış və təcrübədə özünü doğrultmuşdur. Köməkçi müəllim,

elə adından da bəlli olduğu kimi, sinif müəllimi üçün yardımçı mövqedə dayanan və ona nisbətdə ikinci dərəcəli statusa malikdir. Bununla belə, müəllim köməkçisi sinif müəlliminin müəyyən etdiyi təlim strategiyasının ana xəttini izləməklə müəyyən dərəcədə sərbəst fəaliyyət göstərmək səlahiyyətinə malikdir. Lakin bu səlahiyyətlər sinif müəlliminin səlahiyyətlərini aşmamalıdır, əks təqdirdə tədrisin təşkili və idarə olunmasında xaos yarana bilər ki, budan da ən çox əziyyət çəkən elə şagirdlər ola bilər.

Təcrübə göstərir ki, bir sıra hallarda müəllim köməkçisinin vəzifəsi düzgün anlaşılmır. Yəni müəllim köməkçisi təlim prosesində daha çox şagird köməkçisi qismində fəaliyyət göstərir. Yəni müəllim köməkçisi bir çox hallarda təlim prosesində əsasən bir şagirdə təhkim olunmuş halda məhdud çərçivədə iştirak edir. Bu hal Azərbaycanda da müşahidə olunmaqdadır. Lakin müəllim köməkçisinin nəzərdə tutulmuş funksiyası ondan ibarətdir ki, o, eynilə sinif müəllimi kimi bütün sinif şagirdlərinə bərabərsəviyyəli yanaşma, yardım və münasibət bəsləsin. Yəni müəllim köməkçisinin əsl vəzifəsi, elə adından da göründüyü kimi müəllimə kömək etmək, yəni onun məsuliyyətini və öhdəliklərini bölüşmək və onun müəyyən etdiyi istiqamət və çərçivədə fəaliyyət göstərməkdir.

Təlim prosesinin xaotik vəziyyətə düşməməsi, təlimin səmərəsinin artırılması, müəllim və müəllim köməkçisi fəaliyyətinin bir-birini tamamlaması üçün fərqli modellər təklif olunmuşdur. Bu modellər aşağıdakı kimidir (4) (Şəkil 1):

"Bir müəllim, bir köməkçi" modeli çərçivəsində sinif müəlliminin rəhbərliyi və aktiv fəaliyyəti özünü aydın büruzə verir. Köməkçi müəllim isə daha çox müşahidəçi qismində iştirak edir və lazım gəldikdə şagirdlərə yaxınlaşaraq onlara kömək edir.

"Qrup təlimi" modeli çərçivəsində şagirdlər iki və daha artıq qruplara ayrılır və sinfin müxtəlif yerlərində onlara müəllim və köməkçi müəllim tərəfindən ayrılıqda təlim verilir.

"Paralel təlim" modelinə əsasən hər iki müəllim keçiləcək dərsin planını birgə hazırlayır və ayrılıqda iki qrupa təlim keçir.

"Alternativ təlim" modelində müəllimlərdən biri kiçik qruplarla iş apararkən digər müəllim sinfin əsas hissəsi ilə işləyir.

"Komanda təlimi" modelində isə hər iki müəllim təlimi bərabər səviyyədə aparır, yəni hər ikisi də vəzifə bölgüsü aparmaq şərtilə eyni dərəcədə fəallıq göstərirlər.

Mövcud vəziyyətdən, yəni məktəbdə maddi-texniki resursların mövcudluğu, müəllim və köməkçi müəllimin səriştəsi, sinif şagirdlərinin sayı və s. bu kimi amillərdən asılı olaraq yuxarıda göstərilən həmmüəllimlik yanaşmalarının birindən istifadə etmək olar. Əlbəttə, söhbət daimi olaraq bir yanaşmanın tətbiqindən getmir. Dəyişən imkanları nəzərə alaraq vəziyyətə operativ adaptasiya olunmaqla ayrı-ayrı dərslərdə istənilən model, yaxud modellərdən istifadə oluna bilər. Nəzərə almaq lazımdır kı, bu modellər mütləq ehkamlar deyil. Yəni onlar müəyyən dəyişikliyə məruz qala, yaxud əlavələr edilə bilər. Bundan başqa, müəllim özü yaradıcılığını işə salaraq yeni və fərqli bir model tətbiq edə bilər.

Təhsil müəssisələrimizdə bu tipli modellərdən istifadə edilməsi son dərəcə vacibdir. Çünki ölkəmizdə inklüziv təhsil verən məktəblərdə aparılan müşahidələr göstərir ki, sinif müəllimləri ilə köməkçi müəllimlər bir-biri ilə tərəf müqabili qismində əməkdaşlıq etmədiklərindən XQEU sinif daxilində digər şagirdlərdən təcrid olunur. Bu vəziyyət isə inklüziv təhsil fəlsəfəsinin mərkəzi prinsipləri ilə ziddiyyət təşkil edir. Bu prinsiplərdən biri XQEU-ın məktəbdə öz həmyaşıdları ilə sosiallaşmasını təmin etməkdir ki, bu prinsipin özünü doğrultması xeyli dərəcədə müəllim və onun köməkçisinin əməkdaşlığından asılıdır. Bu əməkdaşlığın əsasında qarşılıqlı dəstək amili durur ki, onun da əsas elementləri aşağıdakı cədvəldə verilmişdir (3) (Cədbəl 1).

Həmmüəllimliyin aşağıda göstərilmiş bir sıra üstünlükləri vardır (2):

–daha uyğun olan müəllim-şagird nisbətini və beləliklə, şagirdlərə daha çox diqqət ayrılmasını təmin edir;

–şagirdlərin daha yaxşı öyrənməsini təmin edən təlim metodlarından səmərəli istifadə olunur;

–təlimin daha səmərəli təşkil olunmasına imkan verir;

–şagirdlərin sosial ünsiyyət bacarıqlarını artırır;

–şagird nailiyyətlərinin artmasına kömək edir.

Bundan başqa həmmüəllimlik amilinin müəllim və köməkçi müəllim üçün də faydası vardır. Belə ki, qarşılıqlı yardımlaşma şəraitində fəaliyyət göstərən həmkarlar fiziki və zehni enerjilərinə qənaət etmək, əməkdaşlıq bacarıqlarını, eləcə də situasiyaya uyğunlaşmaq və şəraitin tələblərinə uyğun manevr etmək bacarıqlarını inkişaf etdirmək, fikir mübadiləsi aparmaqla yeni ideyalar icad etmək və beləliklə, peşəkar inkişafını sürətləndirmək imkanı əldə edirlər.

Təcrübə göstərir ki, Azərbaycanda tətbiq olunan inklüziv təhsil pilot layihələrində köməkçi müəllim kadr potensialından istifadə olunsa da, müəllim-köməkçi müəllim əməkdaşlıq mexanizmi (həmmüəllimlik) o qədər də səmərəli təşkil edilməyib. Belə ki, köməkçi müəllim daha çox XQEU-a təhkim olunmuş halda ya sinfin arxasında ya da ayrı bir sinifdə təcrid olunmuş vəziyyətdə iş aparırlar. Bu hal da inklüziv təhsilin təməl prinsiplərinə uymur. Əlbəttə, burda obyektiv və subyektiv səbəblər özünü açıq şəkildə büruzə verir. Lakin inklüziv təhsilin təşəkkül tapması və vüsət alması üçün köməkçi müəllim vəzifəsinin təlimdə iştirakını təmin edən islahatların aparılması təhsil siyasətinin prioritetlərindən olmalıdır.

Eyni zamanda həmmüəllimlik mexanizminin fayda verməsi üçün müəllim hazırlığı prosesində, yəni müəllim hazırlığı ilə məşğul olan ali təhsil müəssisələrinin tədris proqramına və müəllim hazırlığının kurrikulumuna həmmüəllimlik səriştələrinin öyrədilməsi daxil edilməlidir. Belə olan halda müəllimlər əməkdaşıq vərdişlərinə daha dərindən yiyələnir və bunu öz fəaliyyətlərində asanlıqla tətbiq edə bilərlər. Hətta belə təkliflə çıxış etmək olar ki, ali təhsil müəssisələrində təhsil alan gələcək müəllimlərin məktəblərdə keçdiyi pedaqoji təcrübənin müddəti uzadılsın (6 ay, 1 il, yaxud daha çox) və bu müddət ərzində təcrübəçilər köməkçi müəllim kimi fəaliyyət göstərsinlər. Bu təhsil siyasəti bir neçə aspektdən faydalı ola bilər. Yəni bu zaman həm sinif müəllimləri köməkçi müəllimlərlə təmin olunacaq, həm də təcrübəçilər köməkçi müəllim qismində çalışmaqla təcrübə qazanacaqlar ki, bu da onların gələcəkdə müstəqil surətdə müəllim kimi fəaliyyət göstərə bilmələrinə töhfə verəcək.

Beləliklə, həmmüəllimlik təcrübəsinin geniş yayılmasını və bu təcrübənin xüsusilə inklüziv təhsil üçün əsas şərtlərdən biri olmasını nəzərə alaraq hesab etmək olar ki, bu təcrübənin ölkəmizdə də geniş surətdə tətbiq olunması və təhsil sisteminə oturuşması məqsədilə müəyyən tədbirlərin görülməsi məqsədəuyğundur.

Tədqiqatın aktuallığı. Tədqiqatın aktuallığı inklüziv təhsilin getdikcə artan əhəmiyyəti və doğurduğu maraqla şərtlənir. Ölkəmizdə hələ pilot layihə mərhələsindən keçən inklüziv təhsilin yaxın gələcəkdə daha geniş miqyas alacağı gözlənir ki, bu da inklüziv təhsil və onun haqqında aparılan tədqiqatların aktuallığını təmin edir.

Tədqiqatın elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi inklüziv təhsildə mühüm yer tutan köməkçi müəllim vəzifəsinə yeni və konstruktiv yanaşma ilə ölçülə bilər. Belə ki, inklüziv təhsilin bir sıra komponenləri və aspektləri kimi köməkçi müəllimin rolu və vəzifələri mövzusu demək olar ki, elmi-pedaqoji müstəvidə işlənməmişdir. Bu məqalədə isə köməkçi müəllim vəzifəsizə az da olsa yeni yanaşma ortaya qoyulur.

Tədqiqatın praktik əhəmiyyəti. Tədqiqatın praktik əhəmiyyətini müəllim və köməkçi müəllimin birgə fəaliyyətinə dair verilən əməkdaşlıq modelləri təmin edir. Belə ki, bu modellərdən yaxud məktəbin imknalarından asılı olaraq bənzər modellərdən istifadə inklüziv təhsilin praktik işlək mexanizminə töhfə verə bilər.

Ədəbiyyat

1. Birləşmiş Millətlər Təşkilatinin İnkişaf Proqrami İnsan İnkişafı tədris vəsaiti. Bakı, 2014
2. Giangreco M. F. (2010) Utilization of teacher assistants in inclusive schools: is it the kind of help that helping is all about?, European Journal of Special Needs Education, 25:4, 341-345, DOI: 10.1080/08856257.2010.513537
3. Devecchi C., (2005) Teachers and TAs working together in a secondary school: should we be critical? Faculty of Education, University of Cambridge, 2005
4. Cook, L. and Friend, M. (1995). Co-teaching: Guidelines for creating effective practices. Focus on Exceptional Children, 28(3), 1-16.

Ф.Сулейманов

Роль помощника учителя в процессе инклюзивного образования

Резюме

В статье рассматриваются обязанности помощника учителя в инклюзивном образовании. Кроме того, ради более продуктивного обучения вводятся некоторые совместные учебные модели («один учитель - один помощник», «групповое обучение», «параллельное обучение», «альтернативное обучение», «групповое обучение»).

F.Suleymanov

The role of a teacher assistant in inclusive education process

Summary

The article deals with duties and obligations of a teacher assistant in inclusive education. Moreover, for the sake of more productive learning, some collaborative teaching models (“one teacher, one assistant”, “group teaching”, “parallel teaching”, “alternative teaching”, “and team teaching”) are introduced.

Rəyçilər: ped.f.d. M.S.Kazimov,
ped.f.d D.Ə.Dostuzadə

Redaksiyaya daxil olub: 19.06.2017

N.D.ZEYNALOV
tarix üzrə fəlsəfə doktoru
e-mail: nizami.zeynalov.77@mail.ru

Mingəçevir Dövlət Universiteti
(Mingəçevir şəh., D.Əliyeva küç., 21)

Ş.C.NƏBİYEVA

Mingəçevir şəhər Təbiət-Riyaziyyat
və Humanitar Elmlər Təmayüllü Lisey
(Mingəçevir şəh., H.Əliyev pros., 79)

MƏKTƏBƏHAZIRLIQ QRUPLARINDA TƏLİMİN TƏŞKİLİNƏ DAİR

Açar sözlər: *məktəbəhazırlıq qrupu, məktəbəqədər təhsil, proqram,ümumtəhsil məktəbi*
Ключевые слова: *дошкольная подготовительная группа, дошкольное образование, программа, общеобразовательная школа*
Key words: *preliminary group, preliminary stage of education, program, school*

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd edildiyi kimi, "Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründə ninkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur" [1]. 2016/2017-ci tədris ilindən umumtəhsil məktəblərinin bazasında məktəbəhazırlıq qruplarının təşkili böyük əhəmiyət kəsb edir. Bu eyni zamanda "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın 3.1.2.1. saylı müddəsaının bilavasitə yerinə yetirilməsi deməkdir [1].

Məktəbəhazırlıq qruplarının təşkilində əsas məqsəd beş yaşlı uşaqların tələb və imkanlarını nəzərə almaqla onların məktəbəhazırlıq mərhələsində inkişafı, tərbiyəsi və təhsil prosesini təşkil etməkdir. Bununla yanaşı uşaqların bu cür xüsusi hazırlığı gəlcəkdə onların məktəbdə təlimini yüngülləşdirəcək, məktəb mühitinə uyğunlaşmasına kömək edəcək və müvəffəqiyyətli tədris fəaliyyətinə zəmin yaradacaqdır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən müzakirə edilmiş "Məktəbəqədər təhsil haqqında" qanun layihəsində də məktəbəqədər təhsilin dövlət siyasətindəki priorotetliyi, məktəbəqədər təhsil və ibtidai təhsil arasında bilavasitə varisliyin və fasiləsizliyin təmin olunması, ailə tərbiyəsi və məktəb mühitindəki ictimai tərbiyənin, milli və dünyəvi təhsilin məqsədyönlü inteqrasiyası və s. prinsipləri ön plana çəkilmişdir (3-cü maddə) [4]. Buna görə də məktəbəhazırlıq qruplarında təlim prosesi elə qurulmalıdır ki, sözügedən təlim yuxarıdakı məqsədlərə xidmət edə bilsin. Məktəbəqədər yaşlı uşağın təhsili onun inkişafının süni şəkildə tezləşdirilməsinə deyil, keyfiyyətcə zənginləşdirilməsinə xidmət etməlidir.

"Məktəbə hazırlığın təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar, 2010-cu il tarixli, 4 nömrəli qərarına əsasən məktəbəhazırlıq qruplarında həftəlik dərs yükü 12 saat, həftədə 4 dəfə olmaqla gündə 3 saat planlaşdırılmışdır [5]. Məktəbəhazırlıq qrupları üçün "Ətraf aləmlə tanışlıq", "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Savad təliminə hazırlıq və nitq inkişafı", "Təsviri fəaliyyət", "Fiziki mədəniyyət", "Musiqi" və "Bədii təfəkkürün inkişafı" məşğələlərinin tədrisi nəzərdə tutulmuşdur. Bu məşğələlərin tədrisi məktəbəhazırlıq qrupunda təhsil alan uşağın 4 inkişaf istiqaməti üzrə müəyyən edilmişdir [2, 7-9] .

"Ətraf aləmlə tanışlıq" məşğələsi proqram üzrə 30 mövzudan ibarətdir [2, 110]. Proqramla tanışlıq göstərir ki, məşğələnin tədrisi əsas etibarı ilə uşaqların idarkının inkişafına və sosial-emosional inkişafına yönəlmişdir. "Ətraf aləmlə tanışlıq" məşğələsi proqramında nəzərdə tutulan mövzuları iki sahə üzrə qruplaşdırmaq olar: təbiətlə tanışlıq və cəmiyyətlə tanışlıq. Nəzərə almalıyıq ki, məktəbəhazırlıq qrupunda təhsil alan uşaqlar ətraf aləmin inadlı tədqiqatçılarıdır. Onlar ətraf aləmi oyunlar vasitəsilə, yaşıdları və böyüklərlə ünsiyyət vasitəsilə daha əyani şəkildə dərk edirlər. Bu məşğələlərin bir çoxu ətraf aləmdə artıq uşaqlara tanış olan əşyalar və əşyalar çoxluqlarının tətbiqi ilə əyani şəkildə, uşaqların bilavasitə iştirakı və fəaliyyəti əsasında təşkil edilir. "Ətraf aləmlə tanışlıq" məşğələsinin digər bir sıra mövzularında, məsələn, "Vətənim Azərbaycan", "Paytaxtımız – Bakı", "28 may – Respublika Günü!", "Milli ordumuz" və s. bu kimi mövzuların tədrisi isə uşaqların gördükləri, eşitdikləri, valideyinləri və ya digərləri ilə ünsiyyət zamanı əldə etdikləri məlumatlara istinad etməklə, habelə İKT vasitələrindən istifadə etməklə müəllim tərəfindən təşkil olunması daha məqsədəuyğundur. Bütün bunlar isə müəllimdən dərin erudisiya qabiliyyəti və yüksək bacarıq tələb edir.

"Məntiqi və riyazi təfəkkürün inkişafı" məşğələsi proqram üzə 60 mövzunu əhatə edir [2, 43-44]. Bu məşğələnin tədrisi məktəbəhazırlıq qrupunun uşaqlarında sırf idraki inkişafa yönəldilmişdir. Nəzərdə tutulan mövzuların uşaqlara mənimsədilməsi onlarda yaddaşın, məntiqli nitq qabiliyyətinin, təxəyyülün inkişafına xidmət edir. Mövzuları tədris edən müəllim həmçinin uşaqlarda əzmkarlıq, səbr, fərdi yaradıcılıq kimi keyfiyyətlərin formalaşdırılmasına da diqqət yetirməlidir. "Məntiqi və riyazi təfəkkürün inkişafı" məşğələsində əşyaların əlaməti, ölçüsü və yeri, 10 dairəsində ədədlərin yazılışı və tərkibi, fiqurlar və onların müqayisəsi, əşyaların uzunluğu, kütləsi, həcmi, vaxt anlayışı, həmçinin məntiqi və riyazi biliklərə dair əyləncəli tapşırıqların tədrisi nəzərdə tutulmuşdur. "Ətraf aləmlə tanışlıq" məşğələsinin bir çox mövzularından fərqli olaraq "Məntiqi və riyazi təfəkkürün inkişafı" məşğələsinin bütün mövzuları sırf praktik xarakter daşıdığından müəllim də öz fəaliyyətini tam praktik əsaslar üzərində qurulmalı, uşaqlarda yalnız sadə riyazi təsəvvürlərin formalaşdırılmasına diqqət yetirilməlidir. Bilavasitə məntiqi və riyazi təfəkkürün inkişafı ilə əlaqədar olduğu üçün bu məşğələlərin gedişi zamanı 5 yaşlı uşaqlarda zehni yorğunluq, diqqətin tez yayınması müşahidə oluna bilər. Bunu aradan qaldırmaq üçün müəllimin məşğələlərin gedişi zamanı fəaliyyət növlərinin növbələşdirilməsi, idman dəqiqələrini keçirilməsi, təlimin müxtəlif metod və piryomlarından, inteqrasiyadan istifadə etməsi məqsədəuyğundur. "Məktəbə hazırlığın təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar, 2010-cu il tarixli, 4 nömrəli qərarında da nəzrəd tutulur ki, zehni gərginlik tələb edən məşğələlərdə 11 dəqiqədən bir idman dəqiqəsi keçirilir [5]. Nəzərə alsaq ki, məktəbəhazırlıq qrupunda məşğələlər 30 dəqiqə davam edir, o zaman bu məşğələlərdə 2 dəfə idman dəqiqəsi təşkil etmək lazımdır. Eyni zamanda idman dəqiqələrini keçilən məşğələlərə uyğun olaraq müəllim tərəfindən tətbiq edilən aktivləşmələrlə də əvəz etmək olar.

"Təsviri fəaliyyət" məşğələsi proqram üzə 60 mövzunu əhatə etməklə, dörd bölmədən – "Rəsm", "Kəsib yapışdırma", "Yapma", "Quraşdırma" bölmələrindən ibarətdir [2, 81-82]. "Təsviri fəaliyyət" məşğələsinin məzmunu uşaqların sensor inkişafına istiqamətlənmişdir. Bu məşğələyə həcm, forma, məkana görə yerləşmə, rəng, həmçinin rəsmetmə də daxil olmaqla bir sıra bacarıqların formalaşdırılması daxildir. "Təsviri fəaliyyət" məşğələsinin "Rəsm" bölməsindəki maraqlı mövzulardan biri "Qız qalası" mövzusudur. Bu mövzuda məğələyə başlayarkən müəllim aktuallaşdırma məqsədilə "Qız qalası əfsanəsi" adlı Azərbaycan cizgi filimindən bir fraqment təqdim edir. Fraqmenti izlədikdən sonra müəllim bir neçə yönəldici sualla uşaqlara müraciət edərək onların diqqətini fraqmentdə göstərilən "Qız qalası"na yönəldir. Bundan sonra müəllim həmin fraqmentdəki Qız qalası abidəsinin rəsminin konturlarını lövhədə çəkərək uşaqlara göstərir. Müəllim uşaqlara "Təsviri fəaliyyət" dərsliyindəki 1 nömrəli tapşırığı [6,11] fərdi şəkildə yerinə yetirməyi təklif edir. Daha sonra müəllim əvvəlcədən hazırladığı iş vərəqlərində konturu çəkilmiş "Qız qalası" üzərində kiçik düymələrdən, muncuq

dənələrindən, balıqqulağı, düyü və mərcimək dənələrindən, qələm yonqarından istifadə etməklə öz zövqlərinə uyğun həmin kontur təsviri bəzəməyi təklif edir. Bununla da müəllim bu mövzuya görə inteqrasiya üçün nəzərdə tutulmuş 1.3.3. Əşyalardan, təbiət, tullantı və titkinti materiallarından təyinatına görə istifadə edir standartını [2, 23] tətbiq etmiş olur.

Beləliklə, məktəbəhazırlıq qruplarında təlimin təşkili uşaqların gələcək məktəb təliminə hazırlanmasında mühüm bir mərhələni təşkil etməklə onların uğurlu təhsil almasına, şəxsiyyət kimi formalaşmasına, ictimai həyatda iştirak etməsinə, potensial imkanlarının üzə çıxarılmasına, bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsinə, müstəqillik, yaradıcılıq və təşəbbüskarlıq kimi keyfiyyətlər formalaşdırmasına xidmət edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. [Elektron resurs]- http://www.president.az/articles/9779

2. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu). Bakı: TPİTTM, 2015, 96 s.

3. Cəfərova L., Məcidova A., Sadıqova T., Həmidova X. və b. Məktəbəhazırlıq üzrə təlimin təşkili metodikası. Müəllim üçün metodik vəsait. Bakı: Çaşıoğlu, 2016, 140 s.

4. "Məktbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu (layihə). [Elektron resurs]- http://www.meclis.gov.az/?/az/law/1354

5. "Məktəbə hazırlığın təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar, 2010-cu il tarixli, 4 nömrəli qərarı. [Elektron resurs]- http://edu.gov.az/az/page/92/1016

6. Həmidova X., Cəfərova L., A.Məcidova, S.Musayeva və b. Təsviri fəaliyyət. Məktəbəhazırlıq qrupu üçün təlim vəsaiti. Bakı: Çaşıoğlu, 2016, 80 s.

Н.Д.Зейналов, Ш.Дж.Набиева

Об организации обучения в дошкольных подготовительных группах

Резюме

В данной статье рассматриваются проблемы организации обучения в группах дошкольной подготовки. Известно, что уровень дошкольного образования составляет одну из приоритетных сфер в системе образования Азербайджанской Республики. Подготовительное образование выступает, как бы, неотъемлемой составной частью дошкольного образования. С 2016/2017 учебного года создание групп дошкольной подготовки при средних общеобразовательных школах раскрывает актуальные проблемы организации обучения в данных группах. В статье освещаются проблемы, связанные с осуществлением методов и средств обучения по конкретным предметам, цели и задачи в подготовительных дошкольных группах.

N.D.Zeynalov, Sh.J.Nabiyeva

About Organization of Study in Preliminary Groups

Summary

The article presented to your attention investigates the problems of organization of study in preliminary groups. It is known that the preliminary stage of education is is one of the most prior elements in the education system of the Azerbaijan Republic. Preparatory study to school represents an important constituent part of pre school education. Beginning from 2016/2017 educational year formation of preliminary groups at schools and organization of teachin in these groups have put forward a number of actual problems connected with teaching in these groups. The article also reflects a number of problems connected with goals and objectives of education, methods and means of teaching in preliminary groups.

Rəyçi: ped.f.d., dos. Z.M.Əzizova
Redaksiyaya daxil olub: 26.07.2017

Г.М.АЛИЕВА,
С.Дж.ДЖАФАРОВА
e-mail: ceyhun.ma@gmail.com

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 25)

ПОДРОСТКОВОЕ БРОДЯЖНИЧЕСТВО КАК ФАКТОР ИХ СОЦИАЛЬНОЙ ДЕЗАДАПТАЦИИ

Ключевые слова: *семья, подростки, подростковое бродяжничество, неформальные подростковые объединения, социальные институты воспитания*
Açar sözlər: *ailə, yeniyetmə, yeniyetmə sərsəriliyi, qeyri-rəsmi yeniyetmə qurumları, tərbiyənin sosial institutları*
Key words: *family, teenagers, teenager vagrancy, informal teenager unions, social institutes of education*

В настоящее время проблема позитивной социальной адаптации подростков находится в центре особого внимания всего демократического общества, является приоритетным направлением воспитательной деятельности всех социальных институтов общества и активно исследуется учеными-специалистами в области формирования и развития подрастающего поколения. Можно отметить, что консолидация усилий всех институтов общества, помноженное на серьезные итоговые результаты многочисленных научных исследований в этой области, дают определенные положительные ответы на многие волнующие общество вопросы позитивной подготовки молодежи как конструктивной, творческо-созидательной силы общества. Молодые люди, проявляющие осознанную позитивную социальную активность, занимающие творческую жизненную позицию в жизни, социально позитивно адаптированные, со сложившейся положительной системой социально-нравственных и духовно-интеллектуальных ценностей, являют собой ту непосредственную личностно-социальную, общественную перспективу дальнейшего эффективного развития общества. «Наряду с безусловными успехами в области достойного воспитания, развития и формирования достойного подрастающего поколения, имеются определенные факты упущений и недостатков в организации воспитательной работы с молодыми людьми, итогом которых выступает своеобразная социальная дезадаптация молодежи, проявляющая себя как акты подросткового бродяжничества и побега из дома» (4, 69). Надо сказать, что проблема подросткового бродяжничества и побега из дома давно переросла границы только лишь определенных недостатков и упущений в организации воспитательной работы и в последнее время все активнее заявляет о себе как о серьезной, духовно-социальной проблеме общества в целом. Специалисты-исследователи считают одной из серьезных причин возникновения и распространения феномена подросткового бродяжничества и побега из дома духовно-социальную и личностно-интеллектуальную несостоятельность молодых людей, приводящих их в итоге к состоянию социальной дезадаптации, нежелания подчиняться и принимать устоявшиеся нормы, правила и положения гармоничного сосуществования нескольких поколений общества. Следует заметить, что причины и содержание духовно-социальной и личностно-интеллектуальной несостоятельности молодых людей (подростков) меняются постоянно, и эта своеобразная мобильность подводящих путей духовно-социального разлада личности с самим собой на каждом этапе взросления личности проявляет себя по-особому, тем самым создавая определенные сложности в деле организации единого алгоритма воспитательной работы с социально-дезадапти-

рованными подростками. Современные исследователи проблемы подросткового бродяжничества и побега из дома (Б.Н.Алмазов, Л.А.Грещенко, М.М.Дубровина, А.Е.Личко, Э.Г.Костяшкин, А.Б.Добрович, Л.М.Зюбин, Н.Н.Верцинская, В.А.Писарев, Н.И.Чергинец и др.) считают главным среди причин возникновения такого феномена допущенные серьезные ошибки и недостатки в организации школьного и семейного воспитания. Принимая за безусловную данность, что семья и школа как социальные институты воспитания являются общественными ячейками общества, а воспитание – процесс социальный, то, само собой разумеется, причины возникновения феномена подросткового бродяжничества и побега из дома носят социальный характер, хотя и не является следствием самой общественной системы. «Проблема настолько актуальна и злободневна, что на сегодняшний день практически ни одна страна в мире (будь то высокоразвитые или же развивающееся страны) не избежала этого феномена и пытается всеми силами и средствами найти позитивный выход из создавшейся ситуации» (3, 82). Несовершенство системы семейного воспитания в определенных семьях, низкий уровень социально-педагогической, духовно-интеллектуальной культуры родителей, относительно слабая профессиональная подготовка педагогов и воспитателей средней общеобразовательной школы, усиленная естественным состоянием самовыражения подросткового возраста, приводят к неизбежным конфликтам и создают своеобразный плацдарм для возникновения состояния отчужденности и социальной дезадаптации молодых людей. Специалисты-исследователи отмечают, что имеющаяся (по различным причинам) психологическая изоляция подростков в школе, игнорирование их личностного «Я», постоянные внутрисемейные конфликты, пренебрежение самой личностью подростков вызывают у них состояние личностно-психологической деструкции, духовно-нравственной пустоты и в определенной степени мотивируют возникновение феномена подросткового бродяжничества и побега из дома. Если подростки не приходят домой, родители начинают серьезно беспокоиться, обзванивают их друзей, спрашивают о них у соседей, дворовых ребят, обращаются за помощью. Если подростки сами возвращаются домой, или же с помощью правоохранительных органов устанавливается их местонахождение и их возвращают домой, то многие родители, не придавая особого значения самому факту отсутствия подростков дома, считают это за единичный случай, который всегда может иметь место в жизни молодых людей подросткового возраста. На самом деле, это первое своеобразное предупреждение взрослым людям, что что-то неблагополучно в системе семейного воспитания, что есть определенные проблемы в организации межличностных отношений в семье. Когда же факты отсутствия подростков в семье повторяются, уходы из дома молодыми людьми превращаются в систему, когда неоднократные заявления о помощи в полицию приобретают постоянный характер, родители начинают задумываться о первопричинах возникновения такого состояния своих детей. При беседах с такими «возвращенными» в семью подростками в полиции в присутствии родителей как раз и выявляются основные причины побега из дома и бродяжничества. Если ознакомиться со сводками полиции по таким характерным делам, беглецов из дома, можно, не будучи специалистом высокого уровня, четко определить: между родителями и подростками образовался большой разрыв и, если не принять серьезных мер купирования такого состояния, проблема изо дня в день будет осложняться и ухудшаться. Приводим в качестве наглядного примера образовавшегося разрыва между родителями и подростками ответы последних в полицейских участках. Вопрос: «Почему ты ушел из дома?». Ответы: 1) «А что там делать, если тебя за человека не считают, а начнешь что-то говорить в свою защиту, родители кричат, что они меня кормят, обувают, дают кров над головой, а я как был, так и остался неблагодарным»; 2) «Родители мне часто говорят, ты на нас, родителей, должен молиться, что мы

создали для тебя такие хорошие условия для жилья, посмотри, сколько на улице бездомной шантрапы ходит, и подумай об этом. Если сам не поймешь, пожалуйста, присоединяйся к этой шантрапе, нам такой недалекий, неблагодарный ребенок не нужен»; 3) «Мне родители говорят, что ты вообще возникаешь, что ты лопочешь, кто ты, собственно, такой, если бы не мы, ты просто «ноль без палочки», ты никто. Принимаешь наши условия – живи с нами, не нравится, дверь открыта, уходи, чтобы мы тебя не видели, невелика потеря для нас». Эти ответы – всего лишь малая часть причин, которые в той или иной степени способствовали уходу из семьи подростков и их бродяжничеству. Есть категория родителей, которые эти ответы подростков воспринимают очень несерьезно, считая это блажью, самовыпячиванием, простой неблагодарностью, ребячеством, ложной бравадой, романтикой улицы, а то и просто недостатком ума своих детей. Конечно же, при таком отношении родителей к проблеме говорить о ее позитивном разрешении, к сожалению, не приходятся. Проблема будет и дальше углубляться, отчужденность между родителями и подростками будет еще более разрастаться и, в конце концов, в таких семьях будут создаваться «идеальные» негативные условия для формирования осознанной девиантной деятельности молодых людей. Если родители всерьез задумаются о причинах бродяжничества и побега из дома своих детей-подростков, будут настойчивее искать причины того, что толкает их детей в ситуацию, полную тревог, страха, неопределенности, черствости, жестокости, равнодушия, что закрывает их глаза на волнения и страдания родителей, то, в этом случае можно говорить о перспективе оптимизации отношений поколений и позитивном разрешении проблемы. Следует также заметить, что иногда родители, даже искренне желающие реанимировать положительные межличностные отношения со своими детьми-подростками, сами испытывают определенные профессиональные трудности и затрудняются в определении наиболее адекватных форм и методов работы с ними (1, 47). В таких случаях необходимо обратиться за помощью к специалистам-профессионалам, умеющим четко и научно выверено отличать состояния личностно-социальной дезадаптации подростков как результат их возрастной неопределенности самовыражения или же классифицировать сложности в их поведении как результат отклонений эмоционально-психического развития. Специалисты-исследователи отмечают, что подростковое бродяжничество и побег из дома по большей части является следствием внутрисемейного неблагополучия, отсутствия благоприятной для развития личности молодых людей позитивного морально-психологического климата семьи. Однако, следует заметить, что бродяжничество бродяжничеству – рознь, т.е. есть случаи, когда подростки бродяжничают и убегают из дома под влиянием ложной романтики уличной жизни, соблазнившись примером кого-либо из своих друзей. Однако, такие случаи весьма единичны и, как следствие, подростки, вдоволь «насладившись», удовольствиями уличной жизни, поняв всю ее ущербность и бесперспективность, возвращаются домой и больше таких поступков не совершают. Другое дело, когда подростки под влиянием личностно-духовного дискомфорта в семье и бесконечных семейных конфликтов осознанно выбирают бродяжнический вариант продолжения своей жизни, своеобразно перемещаются под воздействием внешних и внутренних причин реальности в специфическую среду бродяжничества. Такая специфическая среда бродяжничества имеет свои определенные законы, нравы, обычаи, привычки, закономерности поведения, язык, формы личностного самовыражения, символику, атрибутику и т.д. Следует также заметить, что не все подростки, даже испытывающие на себе негативные издержки семейного воспитания, отчужденность от них родителей, жестокость в обращении с ними, физические наказания, лишение личностного пространства, решаются на побег из дома и ведение бродяжнического образа жизни. Однако, если подростки все же решили уйти из семьи и вести

Overall, it is considered that students from reputable universities have wider forms of cultural and social capital than students from other universities (Qenani, 2014). British companies are characterised by their selection of future senior managers from a very limited number of elite universities; specialists who graduate from “elite” universities are selected for future senior management positions in which, by exercising their creativity, responsibility and decisiveness, they manage others (Brown and Scase, 1994). At the same time, three respondents stated that there are companies, which pay a lot of attention to the name of the university, and so if a student is not from a top, reputable university, he or she will not be considered for an internship at all.

However, Brown and Scase (1994) stated that, for middle and junior managerial positions, firms tend to hire from less prestigious universities and colleges, prioritising those who can demonstrate an ability to learn the rules and who are prepared to subordinate roles.

Archer and Davison (2008) conducted a study among employers which revealed that communication skills are ranked as a major skill necessary for employers’ satisfaction while

its quality demonstrated by graduates was ranked 16th. In their research, other important traits, namely team working and integrity were ranked second and third in importance. All participants felt that in order to get an internship, applicants need to show something different than their educational achievements or grades, because employers have already selected a pool of applicants from top universities with good grades (2:1 or above). As such, applicants must be able to differentiate themselves from the others. One of the respondents noticed: "During my interviews I realised that having only good grades is not enough and that they are looking for other skills as well".

When it comes to the topic of personality traits, in the U.S. this sphere of research is linked to the notion of *proactive personality*, which refers to one's ability to take the initiative. Proactive people do not accept their roles passively but initiate the change (Erdogan and Bauer, 2005). Seibert et al. (2001) found that proactive people adjust to the work more rapidly. Brown et al. (2006) felt that those with a proactive personality are usually more successful in finding a job because they are very self-driven. Villar and Albertin (2010) highlighted the need for universities to help students by all means possible in order to develop their proactive personality qualities. Indeed, one of the respondents noticed that consultancy companies need people who are able to take the initiative, have an impact on projects, and lead people. Here, the ability to take an initiative is more important than in other industries. However the from respondent's point of view, investment banks are looking for hard-working people with decent interpersonal skills, good team players, and people who can do a lot of work within a limited amount of time (tough time pressure). Working hours in banks are also very long and the respondent felt that this industry requires resilient people. Similarly, the career advisor stated that experience; communication, team working skills and initiative are key factors potential employers are interested in.

2. What do the students learn professionally during practice/internships? What do they learn in terms of interpersonal skills?

As claimed by Maertz et al. (2014) internships assist students in learning more about the industry as well as realising what they want and what they do not want to do in the future. For example, one of the respondents noted: "My internship helped me to understand what capital market is about. How companies list themselves into the stock exchange, what are the parts of this process? What is investment? How companies do IPO and appear in stock exchanges".

Another interviewee discussed the benefits of insight days at the ministry of finance: "I attended the insight days at the Ministry of Finance of Tajikistan, which gave me some understanding about the work that they do and certainly improved my analytical abilities especially when I saw the rates of inflation or unemployment in the country and was explained the causes and reasons of these factors and how they affected the society. I also improved my communication skills since every day I was meeting with new people who had a long-term working experience at the ministry". Likewise, the career advisor stated that students have an opportunity to develop their communication and team working skills and other skills depending on the type of job being done.

In addition, all students emphasised that the university gives opportunities to many companies to make presentations on the campus, thus making it easier for students to find an internship. As stated by Tymon (2013), all respondents demonstrated that they are very well aware of the importance of internships when it comes to developing employability skills. The respondents highlighted that spring weeks are less of a practical skills building experience and more of a learning experience to enable students to decide which area they may be interested in for a summer internship and if they feel that the institution is the right place for them to work. In contrast, a summer internship involves a lot more learning. A student may be

assigned to a desk or rotated around a number of desks, learning the role of the desk within the wider organisation. Students will be expected to carry out a range of basic tasks such as writing a wrap up of what has happened in the financial world during the night, or contributing to pitch books for a client. Alongside this, students will meet business reps with varying degrees of seniority and shape their interpersonal skills to those of a business environment. All students stressed that internships do not imply a heavy workload, with focus instead on getting to know the company, their culture, their values, and see if they can fit that culture. However, an expert committee of business intern supervisors were of the opinion that the aim of internships is to develop the following skills: reliability, consistency of performance, eagerness to learn new skills, timeliness, prioritisation of tasks, demonstrating initiative and ethical behaviour, accepting criticism constructively and commitment to quality of work (Gault et al., 2000). While the students mentioned some of these qualities, they were not aware of all the mentioned features.

3. How important is an image or brand of a company for potential applicants from your point of view?

Cultivating an employer brand is one method employed by companies when it comes to attracting and retaining the most desirable employees, i.e. those who will contribute significantly to the success of an institution (Moroko and Uncles, 2008). All respondents felt that when selecting a company for employment, the job seekers are mainly interested in market leaders in the industry. One of the respondents noted: “Applicants investigate the performance of a company in comparison with their competitors, what is the profit, who are the clients and who are the partners since it indicates what your bonus might be. How stable is the company, will it be able to survive during crisis”. With this said however, Rynes et al. (1991) suggested that individuals learn and form attitudes about the companies via social exchange networks.

From the career advisor’s point of view, students seem to be applying only to the very large international well-known companies, ignoring the less known ones and very often the job of career centre implies revealing the other employment options to the university students.

International students felt that there is one big advantage of studying in the UK or USA, specifically the tendency of big companies in these countries to hire people in very large numbers. However, they also stated that a person still needs to be from a target university. Companies with a strong image receive so many applications and must filter them somehow, with the first step being to filter them by university names. Interestingly, the findings of Ng and Burke (2005) suggested that companies diverse in terms of gender, race and nationality tend to attract high achievers since they prefer to work for more progressive organisations.

One interviewee, who is responsible for career advice, gave his view on this issue: the majority of students are attracted to big companies and banks because of the prestige that is associated with their names. Many students are interested in big, reputable companies since they give them good exit opportunities. They often plan to work for a big company for a couple of years, gain skills and then move to another company on a higher position. They need a good name on their CV. In the respondent’s opinion in the sphere of economics, many people eventually want to work for hedge funds or private equities. Though the scale of such companies is smaller, the compensation and prestige are higher. They have smaller teams, thus meaning it is harder to get into them than into the big banks, although they do hire employees from banks. As such, many students start in the banks, gain skills, occupy a junior position and then move to the hedge funds and private equities.

4. What are the key factors that will encourage people to work for a company for a long period of time?

While the economic success of any company depends on loyalty of its workers (Guillon and Cezanne, 2014), an interesting opinion was put forward by one of the respondents, who felt that most students already know where they want to end up, and so the conditions in their current job are somewhat irrelevant. He felt that when workers have a plan they will leave a company in any case. For others who do not have a certain plan, as they start working they assess their level of satisfaction with working conditions. They must develop in their career and should not be forced to remain at a certain point. Income level is also very important, especially for people with families, who thus need high and stable income. Zeithaml et al. (1990) pointed out that when the compensation provide by an organisation is higher than in the market, the loyalty of employees is often stimulated. Interpersonal relations between the members of the staff are also very important.

Another respondent highlighted that companies should show that they respect and value their employees, and stimulate mutual respect and appreciation. This respondent also noted that pleasant and comfortable job conditions, positive interpersonal relations with the members of the staff and life insurance, contribute significantly to the loyalty of the employees. All respondents felt that people like working for companies that are number one in their field and the companies that compete successfully and are very prestigious. In the career advisor's opinion, career progression within a company is the main factor, which increases employees' loyalty to a company, and vice versa.

Luecke (2004) stated that, as a part of the retention scheme, some companies try to give psychological support to talented employees by hiring coaches and mentors who set high standards and goals and lead the career development of the valuable members of staff. One interviewee also noted that, in the USA, each department can choose the interns that they like and want to work with from the pool of selected interns. This helps interns to fit into the team and be sure that they are welcome at the new workplace. However, Zeithaml et al. (1990) proposed that new employees need to possess precise information regarding their role at the workplace and must also obtain complete information about the products or service that the company offers while also being aware of how well they are performing compared to the standards for successful future performance.

5. What factors are likely to force people to leave a company without waiting for the end of a probation period?

The most frequently mentioned factors by respondents included a repetitive and monotonous job, too much pressure, and bad relations with a supervisor or other members of that organisation. One of the respondents noted: "If you do not feel comfortable around people you work with, it is very hard to stay with a company for a long period of time, especially if you spend 10-15 hours per day at your workplace". Furthermore, one of the international students proposed that when the employers do not feel that their work and efforts are valued, it immediately has a mirror effect on their performance and loyalty to the company. On the contrary, Zeithaml et al. (1990) proposed that the following traits lead to work dissatisfaction and weak performance: role ambiguity, role conflict, inappropriate supervisory control system and lack of teamwork.

Another interviewee responsible for budget allocation in the society mentioned politics, political atmosphere (implicit intrigues, hidden obstacles and barriers); bureaucracy, with the very hierarchical structure of an organisation making it difficult to get something done; and long hours of work, regardless of reward, as people must have time to enjoy said rewards. In

terms of long working hours, Zeithaml et al. (1990) also stated that role conflict occurs when employees have more work than they do have time to complete it.

Literature

1. Archer, W., and Davison, J. (2008). Graduate employability: What do employers think and want? The Council for Industry and Higher Education. http://www.cihe-uk.com (accessed April 20, 2015).

2. BERA (2011). Ethical Guidelines for Educational Research. British Educational Research Association. London, 1-11.

3. Brown, P. and Scase, R. (1994). Higher education and corporate realities. London: UCL Press.

4. Bryman, A. (2011). Business research methods. Oxford: Oxford University Press.

5. ERDOGAN, B. and BAUER, T. (2005). ENHANCING CAREER BENEFITS OF EMPLOYEE PROACTIVE PERSONALITY: THE ROLE OF FIT WITH JOBS AND ORGANIZATIONS. Personnel Psychology, 58(4), pp. 859-891.

6. Gillham, B. (2005). Research interviewing. Maidenhead: Open University Press.

7. Guillon, O. and Cezanne, C. (2014),"Employee loyalty and organizational performance: a critical survey", Journal of Organizational Change Management, 27(5), pp. 839 – 850.

8. Luecke, R. (2004). Hiring and Keeping the Best People. Boston, Mass.: Harvard Business School Press.

9. Maertz, Jr, C., Stoeberl, P. and Marks, J. (2014). Building successful internships: lessons from the research for interns, schools, and employers. Career Development International, 19 (1), pp. 123-142.

10. Miles, M., Huberman, M., and Saldana, J. (2014). Qualitative Data Analysis. Los Angeles (etc.): SAGE Publications.

11. Moroko, L. and Uncles, M. (2008). Characteristics of successful employer brands. Brand Management, 16(3), pp. 160-175.

12. Newby, P. (2014). Research methods for education. Routledge.

13. Ng, E. and Burke, R. (2005). Person–organization fit and the war for talent: does diversity management make a difference? The International Journal of Human Resource Management, 16(7), pp. 1195-1210.

14. Punch, K. (2011). Introduction to research methods in education. Los Angeles (etc.): SAGE Publications.

15. Qenani, E., MacDougall, N and Sexton, C. (2014). An empirical study of self-perceived employability: Improving the prospects for student employment success in an uncertain environment. Active Learning in Higher Education, 15(3), pp. 199-213.

16. Robson, C. (2011). Real world research. Chichester, West Sussex: Wiley.

17. RYNES, S., BRETZ, R. and GERHART, B. (1991). THE IMPORTANCE OF RECRUITMENT IN JOB CHOICE: A DIFFERENT WAY OF LOOKING. Personnel Psychology, 44 (3), pp. 487-521.

18. Seibert, S., Kraimer, M. and Crant J. (2001). What do proactive people do? A longitudinal model linking proactive personality and career success. Personnel Psychology, 54 (4), pp. 845–874.

19. Tymon, A. (2013). The student perspective on employability. Studies in Higher Education, 38(6), pp. 841-856.

20. Villar, E. and Albertín, P. (2010). 'It is who knows you '. The positions of university students regarding intentional investment in social capital. Studies in Higher Education, 35(2), pp. 137-154.

21. Yin, R. (2011). Qualitative research from start to finish. New York: The Guilford Press.

22. Zeithaml, V., Parasuraman, A. and Berry, L. (1990). Delivering quality service. New York: Free Press.

V.Ç.Bayramova

Böyük Britaniya tələbələrinin iqtisadi sahədə iş gözləntiləri

Xülasə

Qeyd olunan məqalə tələbələrin karyera quranda şirkətlərinin seçimi zamanı davranışına həsr olunub. Təhlil üçün məlumatlar müsahibə metodu ilə toplanıb. Müsahibə nəticəsində məlum olub ki, tələbələrin fikrinə görə böyük və uğurlu şirkətlərin işəgötürənləri yaxşı riyazi və kompüter bacarıqları

və nüfuzlu universitet təhsili olan ünsiyyətcil, özünəəmin gəncləri axtarır. Müsahibənin gedişində tələbələrin təcrübəsinin gələcək karyera üçün prioritet sahənin seçiminə müsbət təsiri məlum olub. Şirkətə böyük sayda ərizəçiləri cəlb edən ən əsas faktorlar isə şirkətin nüfuzu və rəqiblərlə müqayisədə yaxşı göstəriciləri və gələcəkdə uğurlu karyera qurmaq üçün öz anketində mötəbər ad əldə etmək imkanıdır.

В.Ч.Байрамова

Ожидания британских студентов в экономическом секторе относительно дальнейшего трудоустройства

Резюме

Данная статья посвящена изучению поведения студентов при выборе компании для трудоустройства. Данные для анализа были собраны методом интервью. В результате интервью стало известно, что работодатели крупных и успешных компаний по мнению студентов ищут коммуникабельных уверенных в себе молодых людей с хорошими математическими и компьютерными способностями и с престижным университетским образованием. В ходе интервью было выявлено положительное влияние стажировки студентов при выборе приоритетной области для дальнейшей карьеры. А самыми главными факторами, привлекающими большее количество соискателей в компанию, являются репутация и показатели компании по сравнению с конкурентами и возможность заиметь звучное имя в своей анкете для построения удачной карьеры.

Reviewer: assistant professor I.Nuriyeva

Redaksiyaya daxil olub: 07.06.2017

İCTİMAİ ELMLƏR – ОБЩЕСТВЕННЫЕ НАУКИ

Ə.İ.ƏHMƏDOV
fəlsəfə elmləri doktoru, professor

Azərbaycan Memarlıq və İnşaat Universiteti
(Bakı şəh., A.Sultanova küç., 5)

"İSLAM HƏMRƏYLİYİ İLİ"nin ÇAĞIRIŞLARI

Açar sözlər: *İslam həmrəyliyi, dinlərin dialoqu, multikulturalizm, tolerantlıq, islamofobiya, ikili standartlar*
Ключевые слова: *Исламская солидарность, диалог религий, мультикультурализм, толерантность, исламофобия, двойные стандарты.*
Key words*: Islamic solidarity, dialogue of religions, multiculturalism, tolerance, islamophobia, double standards.*

Məlumdur ki, ölkə Prezidenti İlham Əliyev 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi ili" elan edilməsi ilə bağlı sərəncam imzalamışdır. Belə bir sərəncamı verməyə yalnız multikulturalizmin, həmrəyliyin bərqərar olduğu, vətəndaşlarının, müxtəlif millətlərə, dinlərə, təriqətlərə mənsub insanların əmin-amanlıq şəraitində yaşadığı Azərbaycan kimi bir dövlətin başçısının mənəvi haqqı vardır. İslam Həmrəyliyi təşəbbüsünün irəli sürülməsi hazırkı zamanın çağırışları və İslam dünyasında müxtəlif səbəblərdən baş verən ziddiyyətli proseslərlə əlaqədardır.

Hazırda dünya miqyasında siyasi, iqtisadi böhranların, hərbi münaqişələrin, terror təhlükəsinin artması, İslam dininə və müsəlmanlara qarşı təhdidlərin getdikcə güclənməsi bütövlükdə planetimizdə həm dinlərarası, həm də beynəlxalq münasibətlərdə həmrəyliyə böyük ehtiyac olduğundan xəbər verir. Dövlətimizin başçısı İslam Əməkdaşlıq Təşkilatının "OİC Journal" nəşrində dərc olunmuş "İslam Həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" başlıqlı məqaləsində yazır: "Bu gün müsəlman dünyasının əvvəlki dövrlərdə heç zaman olmadığı qədər daha çox birliyə və həmrəyliyə ehtiyacı var. Buna görə də 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi ili" elan olunması bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesajdır. "İslam Həmrəyliyi ili"nin əsas məqsədləri müsəlman aləmində birliyi möhkəmləndirmək , İslamın sülh və mədəniyyət dini olduğunu bütün dünyaya göstərməkdir" (1).

Azərbaycanda 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan edilməsi İslam dünyasına qarşı basqıları ildən-ilə gücləndirən və az qala XXI əsrdə yeni "səlib yürüşləri"nə rəvac verən Qərbə bir çağırışdır.Bu həm də İslam ölkələrini Qərbin məkrli niyyətlərinə qarşı ayıq-sayıq olmağa, birləşməyə və həmrəylik nümayiş etdirməyə çağırışdır.

Fərqli dinlərə dözümlülük, başqa xalqların mədəniyyətinə hörmət, ehtiyacı olanlara yardım dini olan İslama hücumların arxasında nə dayanır? Bu, hər şeydən əvvəl İslam ölkələrinin zəngin yeraltı sərvətlərini, karbohidrogen ehtiyatlarını ələ keçirmək istəyindən qaynaqlanır. Qərbin əlaqədar xüsusi xidmət orqanlarının əli ilə baş tutan "ərəb baharı" və "rəngli inqilablar" vasitəsilə İraq, Misir, Liviya, Yəmən, Suriya və s. ölkələr müharibə ocaqlarına çevrilmişlər. "Əl-Qaidə", "İŞİD" və digər terror təşkilatlarının yaranmasının səbəbini də Qərbin İslam dünyası ilə bağlı avantürist siyasətində axtarmaq lazımdır. Maraqlı cəhət burasıdır ki, Qərb İslam ölkələrində törətdiyi cinayətləri "demokratiyanın bərqərar edilməsi", "söz azadlığı" şüarları altında həyata keçirir. Həm də bu münaqişələr və

qarşıdurmalar zamanı yüz minlərlə insanın həyatını itirməsi, qaçqın düşməsi, dəhşətli aclıq çəkməsi Qərbi qətiyyən maraqlandırmır.

Dünyada gedən mənfi proseslərdə insanları, cəmiyyətləri, ölkələri "doğmalara" və "özgələrə" bölən yanaşmanın da mühüm rolu vardır. Qərb üçün onun dəyərlərini qəbul etməyənlər "özgələrdir" .Bu cür yanaşma əsasən müsəlman aləminə münasibətdə özünü göstərir. Belə bir fakta diqqət yetirək: 2016-cı ilin fevralında Kubada Roma Papası ilə Rusiya Patriarxının görüşündən sonra müsəlmanlara qarşı təzyiqlər ,hücumlar daha da gücləndi.Bu görüşün məntiqi nəticələrindən biri olaraq 2016-cı ilin mart ayında ABŞ Konqresi Yaxın Şərqdə və Şimali Afrikada xristianların öldürülməsinin "Xristian əhalisinə qarşı soyqırım" kimi tanınması barədə qərar qəbul etdi. Bəs elə həmin Yaxın Şərqdə və Şimali Afrikada daha çox sayda müsəlmanın öldürülməsi soyqırım deyilmi? Soyqırımdır, ancaq onlar "doğmalar" deyil, "özgələrdir". Bu yaxınlarda Myanmada müsəlmanların kütləvi qırğına məruz qalmasına qarşı etiraz səsini ucaltmayan Qərbin öz antiislam mövqeyində sabitqədəm olduğunu bir daha təsdiqləyir.

İslam dininə qarşı Qərbdə tarixən formalaşmış yanaşma uzun əsrlərdən bəridir ki, dəyişməz qalmaqdadır.Türkiyəli alim İbrahim Kalın belə bir mülahizə irəli sürür ki, Qərb İslamı öz dəyərlərinə dini-siyasi-mədəni təhdid olaraq gördüyündən münasibətlərdə harmoniyaya ümid bəsləmək çətindir (2).

İslam dini, onun müqəddəs dəyərləri islamofobiyanın, İslama qarşı aparılan zəhərli təbliğatın təsirinə məruz qalan insanlar tərəfindən təhqir olunur. İslam ölkələrində, xüsusən də İraq və Suriyada aparılan müharibələr, səngimək bilməyən qarşıdurmalar nəticəsində "Min bir gecə" nağıllarında sevə-sevə təsvir olunan Bağdad, Dəməşq, Bəsrə və s. şəhərlər ciddi dağıntılara məruz qalır, bu şəhərlərdəki İslam mədəniyyətinə aid abidələr yerlə yeksan edilir. Qərb ölkələrinin mətbuatında Məhəmməd Peyğəmbərin (s.) karikaturaları verilir, məscidlər , müqəddəs kitabımız olan "Quran" yandırılır. Qərb dünyasının rəsmi strukturları bu kimi vandalizm hərəkətlərini nəinki pisləyir, əksinə, həmin hərəkətlərin icraçılarını hər vəchlə qoruyur, əzizləyir və təqdir edirlər.Məsələn, 2005-ci ildə Danimarkada nəşr olunan bir qəzetdə İslam Peyğəmbərinin (s.) karikaturasını dərc etdirən redaktor Fleminq Rouz həmin ildə Nobel mükafatına təqdim olunmuşdu. "Qurani-Kərimi" "Şeytan ayələri" adlandıran, İslamı təhqir edən şeirləri ilə dünya müsəlmanlarının qəzəbinə səbəb olmuş britaniyalı şair Salman Rüşdi Qərbin rəğbətini qazanmışdı və onun həyatı hər vasitə ilə qorunurdu.

Osmanlı imperiyasında 1915-ci ildə baş vermiş hadisələri öz yazılarında erməni soyqırımı kimi qələmə verən Türkiyə yazıçısı Orxan Pamuk bir neçə il bundan öncə Nobel mükafatına layiq görülmüşdür.

Yeri gəlmişkən qeyd edək ki, "Daş yuxular" əsərində ermənilər humanist bir xalq kimi təsvir edən Əkrəm Əylislinin də, yəqin ki, Qərbdən bir umacağı vardı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Qərbin qərəzli mövqeyi uzun illərdir ki, davam etməkdədir. Bu münaqişədə Ermənistan Xristian dünyası tərəfindən daim dəstəklənir. İkili standartlardan, "doğmalar" və "özgələr" yanaşmasından çıxış edən qüvvələr münaqişənin həllinin uzanmasına göz yumur, mövcud status-kvonun qorunub saxlanmasını dolayısı ilə dəstəkləyirlər. İşğal olunmuş Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunmasına dair BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamə yerinə yetirilməmiş qalır. Halbuki Azərbaycanın yerində bir Xristian dövləti olsaydı, məsələ çoxdan öz həllini tapmışdı.

Ermənilərə xas olan bəd əməllərdən biri də yalan məlumatlarla dünya ictimaiyyətini çaşdırmaqdır. Bir müddət bundan əvvəl onlar hay-küy salmışdılar ki, güya Naxçıvandakı erməni maddi-mədəniyyət abidələrinə,erməni məzarlıqları-na qarşı hörmətsizlik edilir. Avropa Parlamenti dərhal "Azərbaycanda mədəni irs" adlı qeyri-obyektiv məzmunlu qətnamə qəbul etdi, azərbaycanlıların bu "hərəkətini" qınadı. İşğal olunmuş Azərbaycan ərazilərində xalqımıza məxsus maddi-mədəniyyət abidələri - məscidlər, mədəniyyət ocaqları, kitabxanalar və s. vəhşicəsinə dağıdılanda, görkəmli sənətkarlarımızın heykəlləri gülləbaran ediləndə isə Qərb inadla susurdu.

İslam-Xristian qarşıdurmasının, Müsəlman ölkələrinə Qərbin basqılarının tarixi heç də cavan deyildir. Lakin bununla belə, ABŞ-ın Harvard Universitetinin professoru Samuel Hantinqtonun "Sivilizasiyaların toqquşması "əsəri çapdan çıxdıqdan sonra bu basqılar daha da gücləmiş və intensivləşmişdir. Məsələ burasındadır ki, S.Hantinqton sözügedən əsərində Xristian dünyası ilə İslam dünyası arasında ziddiyyətlərin,qarşıdurmaların qaçılmaz olduğunu nəzəri cəhətdən əsaslandırmağa çalışmışdır.Onun fikrincə, əgər Birinci dünya müharibəsinin başlanması ölkələrin yeni torpaqlar hesabına öz ərazilərini genişləndirmək istəyindən qaynaqlanıbsa, İkinci dünya müharibəsi bir-birinə daban-dabana zidd olan iki ideologiyanın - burjua ideologiyası ilə kommunist ideologiyasının toqquşması nəticəsində baş vermişdir. Üçüncü dünya müharibəsi olacağı təqdirdə isə cəbhə xətti dinlər və sivilizasiyalar arasından keçəcəkdir.

İslam Həmrəyliyi yalnız İslam ölkələrinin həmrəyliyi mənasına gəlmir. Bu,dinindən asılı olmayaraq, dünya əhalisinin dostluq, qardaşlıq və multikultural şəraitdə yaşamasına, bir növ, çağırışdır. Bununla belə, "İslam Həmrəyliyi ili "nin təlqin etdiyi ideyalar arasında İslam dünyasının birliyinə çağırış başlıca yer tutur. Qətiyyətlə demək olar ki, islam terrorizmi mifinin gündən-günə alovlandırılma-sının, islamofobiya təhlükəsinin şişirdilməsinin, İslam ölkələrinə qarşı basqıların gücləndirilməsinin əsas səbəblərindən birini məhz bu ölkələr arasında birliyin, həmrəyliyin olmamasında axtarmaq lazımdır.Məzhəb ayrılığı, bir sıra məsələlərdə mənafelərin, mövqelərin bir-birinə uyğun gəlməməsi və s. ciddi ixtilaflara, bəzən isə kəskin qarşıdurmalara gətirib çıxarır.Son illərdə İraqda, Bəhreyndə,Yəməndə, Suriyada təriqətçilik zəminində baş verən qanlı hadisələr fikrimizin təsdiqidir.

"İslam Həmrəyliyi ili"nin əsas məqsədlərinə nail olmaq üçün,ölkə başçısı İlham Əliyevin dediyi kimi, ilk növbədə İslama tarixən zərər gətirən müxtəlif təriqətlər arasında barışıq yaradılmalıdır.

Qeyd etmək lazımdır ki, İslam tarixinin müxtəlif dövrlərində barışıq çağırışları olmuşdur, lakin bunlar arzu olunan nəticəni verməmişdir. Məsələn, çox da uzaq olmayan tariximizdə Əfşarlar dövlətinin başçısı Nadir şahın təşəbbüsünü yada salmaq olar.O, sünni-şiə ayrılıqlarını aradan qaldırmağa cəhd göstərmiş, lakin sui-qəsd nəticəsində qətlə yetirilmişdir.

Böyük Azərbaycan şairi M.Ə.Sabir bu tarixi fakta işarə edərək "Fəxriyyə" adlı məşhur şeirində yazırdı:

Nadir bu iki xəstəliyi (*sünnilik və şiəlik-Ə.Ə.****) tutdu nəzərdə,***
İstərdi əlac eyləyə bu qorxulu dərdə,
Bu məqsəd ilə əzm edərək girdi nəbərdə,
Məqtulən onun nəşini qoyduq quru yerdə...
Bir şeyi-əcibiz,nə bilim, bir tühəfiz biz!
Öz dinimizin başına əngəlkələfiz biz!

"Fəxriyyə" şeirində İslam-türk dövlətləri arasında birliyin, həmrəyliyin olmamasından, mənəm-mənəmlik iddiası, məzhəb ayrılığı səbəbindən aparılan müharibələrdən ,törədilən qardaş qırğınlarından söhbət açılır, düşmənin bu vəziyyətdən məharətlə istifadə etdiyi diqqətə çatdırılır.Dahi şair "həm oxatan, həm də hədəf " mövqeyində dayandığımızı, "öz dinimizin , öz qövmümüzün başına əngəlkələf olduğumuzu", "öz qılıncımızın öz kökümüzü kəsdiyini" təəssüf hissi ilə bildirir.Sözügedən şeirdə İslam-türk dünyasının anatomiyası məharətlə aşkarlanır...

...Yadımdadır, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində oxuyarkən bir dəfə şairləri görüşə dəvət etmişdik. Dəvət olunanlar arasında Bəxtiyar Vahabzadə də var idi. Şairlər bir-bir tribunaya qalxıb öz şeirlərini oxudular. Növbə Bəxtiyar Vahabzadəyə çatanda o bildirdi ki,bu gün öz şeirlərini yox, yalnız Sabirin "Fəxriyyə" şeirini oxuyacaq. Dediyi kimi də etdi və tələbələrin, bütün tədbir iştirakçılarının gurultulu alqışlarına səbəb oldu. Bu fakt "Fəxriyyə" şeirinin nə qədər dərinmənalı, dəyərli bir poeziya nümunəsi olduğunu bir daha sübut edir.

M.Ə.Sabirin "Təhəssür" adlı digər bir şeirində İslam birliyi, həmrəyliyi üçün çəkilən həsrət duyğusu daha qabarıq şəkildə ifadə olunmuşdur. Şair vahid bir dinin iki yerə (sünniliyə

və şiəliyə) parçalanmasından, İslamı təfriqədə, bölünmə vəziyyətində görən dindaşlarımızın biganəliyindən, öz etiraz səslərini ucaltmamasından narahatlığını bildirir.Böyük sənətkar dərindən təəssüflənir ki:

Dai bə üxüvvət olur ikən bizə Quran,
Əmr eylər ikən birliyə peyğəmbəri-zişan,
Tapmazsan iki müttəfiqürrəy müsəlman
Qafqazda olan bir neçə milyan arasında!

Sabir yaradıcılığında belə nümunələr çoxdur.Ümimiyyətlə klassik poeziyamız, o cümlədən və özəlliklə də M.Ə.Sabirin ədəbi-bədii irsi birlik, həmrəylik duyğularının tərbiyəsi üçün geniş imkanlar açır. Bu imkanlardan yetərincə faydalanmaq günümüz üçün olduqca önəmlidir...

...Azərbaycan Respublikası həm Avropa, həm də İslam ölkələri ilə yüksək səviyyədə əlaqələr yaratmış, hətta bu əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə qaldırmağı bacarmışdır. İslam dövlətlərinin rəhbərləri Azərbaycanın bu təcrübəsindən istifadə etsələr nəinki öz aralarında dostluq münasibətlərinə nail ola, həm də bütün İslam dünyasının həmrəyliyinə öz töhfələrini verə bilərlər.

Əlamətdar haldır ki, Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir və ölkəmizdə müxtəlif dinlərin dialoqu, həmrəyliyi günümüzün reallığına çevrilmişdir. Bakı sivilizasiyalar və mədəniyyətlərarası, dini dözümlülük, birgəyaşayış ənənəsi, həmrəylik ideyasının təşviqi ilə bağlı regional və beynəlxalq konfransların, yüksəksəviyyəli forumların keçirildiyi əsas məkandır. 2011-ci ildən başlayaraq iki ildən bir Bakıda Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Azərbaycanın təşəbbüsü və təşkilatçılığı ilə son illər Bakıda 5 dəfə Beynəlxalq Humanitar Forum keçirilib. 2013-cü ildə Dünyanın Dini Liderlərinin Zirvə Görüşü təşkil edilib. 2016-cı ildə isə paytaxtımız Bakı şəhəri möhtəşəm bir foruma – BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi edib.

2015-ci ildə Bakıda təşkil olunan I Avropa Oyunları və bu ilin mayında keçirilən IV İslam Həmrəyliyi Oyunları, habelə Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi ölkələr arasında yaxınlaşmaya, həmrəyliyə, bir-birinin mənəvi, o cümlədən dini dəyərlərinə hörmətlə yanaşılmasına xidmət edən tədbirlərdir. Bakı şəhərinin 2009-cu, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ölkəmizin İslam həmrəyliyi ideyalarına, islamçılıq məfkurəsinə sədaqətinin lazımınca dəyərləndirilməsidir. Azərbaycan dövlətinin dəstəyi ilə Parisdəki Luvr muzeyində İslam mədəniyyəti bölməsinin açılması, Vatikanda ilk dəfə müsəlman ölkəsi Azərbaycanın sərgisinin təşkili ümumislam mədəniyyətinə olan töhfədir.

Təriqətlər arasında barışıq yaratmaq işində də Azərbaycan dövlətinin təcrübəsi İslam dünyasının köməyinə gələ bilər.Bakının möhtəşəm Heydər Məscidində İslam dininin müxtəlif təriqətlərinə mənsub dindarların bir araya gəlib,eyni sırada vəhdət namazı qılması,dualar oxuması,dini məzmunlu tədbirlərdə birgə iştirak etməsi İslam ölkələri üçün ən yaxşı örnəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev 1 mart 2017-ci ildə İslamabadda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) XIII Sammitindəki çıxışında demişdir: "Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyə xüsusi əhəmiyyət verir... Bu gün islamofobiya dünyada ən ciddi təhlükələrdən biridir.Biz bu tendensiyanı qəti şəkildə pisləyirik. İslamı terrorla əlaqələndirmək yanlış və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən məhz müsəlman dövlətləridir. Biz sülh, mərhəmət, dözümlülük və ədalət dini olan İslamın dəyərlərinin təşviqini davam etdirməliyik"(3).

Azərbaycanda multikultural mühitin, tolerant davranış və ünsiyyət mədəniyyətinin bərqərar edilməsi də İslam Həmrəyliyinin, bütövlükdə dünya xalqlarının dostluq şəraitində dinc yanaşı yaşamasının, müxtəlif konfessiyalara, dini təriqətlərə mənsub insanların bir-birinə hörmətlə yanaşmasının vacibliyini sübuta yetirən bir örnəkdir. Bəzi Qərb ölkələrində multikulturalizm ideyasının iflasa uğramasından danışırlar. Lakin əslində həqiqət bundan ibarərdir ki, multikulturalizm deyil, Qərbin insanları,xalqları dini etiqadına, milli mənsubiy-yətinə, mənəvi-mədəni dəyərlərinə görə "doğmalara" və "özgələrə" bölən yanaşması iflasa uğramışdır.

"İslam Həmrəyliyi ili" bir də onunla əlamətdardir ki,Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları məhz həmin ilə təsadüf etmişdir. " İslam Həmrəyliyi ili"ndə nəzərdə tutulan məqsədlərin reallaşdırılması sahəsində ilk addımlar da həmin oyunlarda atılmışdır. IV İslam Həmrəyliyi Oyunlarında dünyanın dörd qitəsini təmsil edən 54 müsəlman ölkəsindən 3000-dək idmançı iştirak etmişdir. Nəzərə almaq lazımdır ki, bu idmançılar arasında hətta münaqişə vəziyyətində olan dövlətlərin nümayəndələri də var idi. Lakin ölkəmizin paytaxtı Bakı şəhərində idmançılar, onların məşqçiləri və qonaqlar üçün yaradılan gözəl şərait, dostluq, birlik və həmrəylik mühiti hər cür incikliyi və münaqişədən, fikir ayrılığından irəli gələn narazılıq hissini aradan qaldırmışdı. İdmançılar bir-birlərinin uğurlarına sevinir və qalibləri səmimiyyətlə təbrik edirdilər. Ölkəmizin IV İslam Həmrəyliyi Oyunları vasitəsilə bütün dünyaya çatdırdığı ismarıclar bütövlükdə ümumbəşəri həmrəyliyə, planetimizdə sülhün, ədalətin və əməkdaşlığın əldə edilməsinə çağırışdır. Sıradan olmayan bu idman tədbiri bütün dünyaya bəyan etdi ki, tolerantlıq və multikulturalizmin alternativi yoxdur, bəşəriyyətin nicat yolu birlik və həmrəylikdən keçir. IV İslam Həmrəyliyi Oyunları və "İslam Həmrəyliyi ili "nin bir-birini üzvi surətdə tamamlaması İslam dünyasının birliyinin son dərəcə zəruri olmasından xəbər verir.

İnanmaq istərdik ki, 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan edilməsi İslam dünyasındakı mövcud problemlərin, çətinliklərin, ayrı-ayrı İslam ölkələri arasındakı ziddiyətlərin aradan qaldırılması istiqamətində addımların atılmasına mühüm təsir göstərəcəkdir. İslam dövlətləri təriqətlər arasında qarşıdurmaların yaranmasına imkan verməyəcək, humanist və sülhpərvər din olan İslamın, islamçılıq ideyalarının düzgün təşviq olunmasını diqqət mərkəzində saxlayacaqlar. O zaman "İslam Həmrəyliyi ili"nin qarşıya qoyduğu əsas məqsədlər reallaşmış olacaqdır.

Ədəbiyyat

1. Aslan Aslanov. "Bakı -2017" : dünyaya idman dili ilə ötürülən sülh, tolerantlıq və həmrəylik mesajları- "Xalq qəzeti", 25 may 2017-ci il.

2. Ərəstu Həbibbəyli . Multikultural mühitdə "doğma" və "özgə" anlayışı.- "İki sahil" qəzeti, 4 iyul 2017-ci il.

3. Eynulla Mədətli. İslam həmrəyliyi təcrübəsi və milli dəyərlər.-"Azərbaycan" qəzeti, 6 iyul 2017-ci il.

А.И.Ахмедов

Призывы "Года Исламской Солидарности"

Резюме

В статье раскрывается значение " Года Исламской Солидарности " для Исламских стран и всего мира, обращается внимание на призывы, вытекающие из его сущностей. Автор выясняет причины предвзятого отношения к мусульманам и Исламской религии на Западе, особо отмечает ту правду, по которой путь к спасению человечества – не в противостоянии, а в единстве и солидарности.

A.I.Ahmadov

Challenges of "Islamic Solidarity year"

Summary

The article highlights the significance of Islamic solidarity for Islamic countries and the whole world and attention is drawn to appeals arising from its essences. The author clears up the reasons of the preconceived attitude towards Muslims and Islamic religion in the West, especially mentioning that the path of survival of the mankind is not in opposition, but in unity and solidarity.

Rəyçi: fəl.e.d., prof. D.Y.İsmayılov

Redaksiyaya daxil olub: 12.09.2017

M.A.ƏHMƏDOV
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

AZƏRBAYCAN İNTERNET MEDİASINDA BƏZİ ETİK PROBLEMLƏR

Açar sözlər: *KİV, Azərbaycanda internet media, saytlar, jurnalistika, etik problemlər, etik prinsiplər.*
Ключевые слова: *СМИ, интернет медиа в Азербайджане, сайты, журналистика, этические проблемы, этические принципы.*
Key words: *Media, online media in Azerbaijan, sites, journalism, ethical issues, ethical principles.*

Azərbaycan müstəqillik qazandıqdan sonra demokratikləşmə prosesində milli mediamız inkişaf etmiş demokratik ölkələrin informasiya məkanının bir hissəsinə çevrildi. Lakin bu illər ərzində jurnalistika sahəsində etik problemlərin həlli istiqamətində bir sıra mühüm işlər görülsə də, hələ ki, bu sahədə ciddi problemlər qalmaqdadır. Heç kimə sirr deyil ki, bu gün jurnalistikanın etik norma və prinsiplərinin ən çox pozulması halları elektron mediada, daha dəqiq desək, internet mediada baş verir.

Müasir dövrdə Azərbaycanda "internet mediası" anlayışı geniş yayılmışdır. İndi ölkədə xeyli sayda dövlət, özəl və digər internet media qurumları fəaliyyət göstərməkdədir. Bu sahədə çalışan jurnalistlər onlar üçün yaranmış bu şəraitdən geniş istifadə edərək özlərinin informasiya almaq və yaymaq hüquqlarından lazımınca bəhrələnirlər. Amma təəssüf ki, onlara yaradılmış bu imkanlara baxmayaraq, baş vermiş hər hansı bir olayla bağlı xəbərin dəqiqliyini onun operativliyinə qurban verərək, bir çox hallarda jurnalistikanın etik prinsipləri ilə bağlı kobud pozuntulara yol verməkdən çəkinmirlər.

Əlbəttə, bu sahədə olan problemləri aradan qaldırmaq üçün, ölkədə istər dövlət, istərsə də QHT-lər tərəfindən mütəmadi olaraq treninqlər, maarifləndirici tədbirlər - layihələr həyata keçirilir. Ancaq hələ ki, bu vaxtadək istənilən nəticə hasil olunmayıb.

Lakin media mütəxəssisləri hesab edirlər ki, bu sahədə lazımi nəticəyə nail olmaq üçün, internet mediada özünü tənzimləmə mexanizmi yaradılmalıdır. Bu mexanizm kənar təsirlərdən tam azad olmalı və yalnız onun öz təmsilçiləri vasitəsilə idarə olunaraq reallaşdırılmalıdır.

Hazırda ölkə ərazisində internet istifadəçilərinin sayı gün-gündən çoxalmaqdadır. Bu, cəmiyyətin ənənəvi KİV növləri ilə müqayisədə xəbər portallarına daha çox inanması və xüsusən də onların operativ olması ilə bağlıdır. Amma bütün bunlarla bərabər internet istifadəçiləri elektron mediada etik problemlərin tez-tez pozulduğunu görəndə, qeyri-peşəkar formada işlənmiş hər hansı bir materialla rastlaşanda sözsüz ki, onlar həm psixoloji, həm də mənəvi cəhətdən sarsılırlar. İnternet mediada bu kimi hallar daha çox təqdim olunan yazıları cəlbedici göstərməkdən ötrü, "qışqıran" başlıqların qoyulması və mətnə aidiyyatı olmayan foto-şəkillərin yerləşdirilməsi ilə müşahidə olunur. İlk baxışda oxucunu cəlb edən başlıq və foto-şəkil mətnin məzmunu ilə üst-üstə düşməyəndə, yəni vəhdət təşkil etməyəndə təbii ki, burada oxucu məyus olur.

Ona görə də, jurnalist heç bir halda reytinq naminə öz oxucusunu, dinləyicisini və tamaşaçısını məyus edərək, onlar tərəfindən qazandığı az-çox etimadını itirməməlidir. Bunun üçün isə jurnalistin etik norma və prinsiplərə riayət etməsi kifayətdir.

Əslində peşəkar jurnalist anlayışı təkcə onun hazırladığı materialı janr nöqteyi-nəzərdən düzgün hazırlaması ilə bitmir. Burada, bundan da önəmli olan amil jurnalistin hazırladığı və cəmiyyətə ötürdüyü materialın faktlara, həqiqətə və ən əsası isə obyektivliyə söykənməsindən ibarətdir. Amma peşəkar jurnalistlər üçün vacib olan bu ali dəyərlərə baxmayaq, təəssüf ki, hələ də mediada yol verilən etik pozuntulardan tamami ilə qurtulmaq mümkün deyil.

Məsələn, 2 avqust, 2014-cü ildə oxuculara təqdim olunan - "Düşmən meyitlərini sürüyə-sürüyə aparır" adlı xəbərdə, "vaxt.az" saytı dünyanın vaxtını nə az, nə çox, düz 6 il geri çevirməyi bacarıb desək yanılmarıq. Adı qeyd olunan saytın təqdim etdiyi xəbərdə yerləşdirdikləri foto-şəkil erməni əsgərlərinin şəkili kimi təqdim olunsa da, amma bu, heç də həqiqəti əks etdirmir.

Çünki yazıya yerləşdirilmiş iki əsgər meyiti *(mozaikalanmamış - hansı ki, bu da etik pozuntudur)* təqdim olunduğu kimi, qeyd olunan tarixdə məhv edilmiş erməni hərbiçilərinin yox, 2008-ci ilin avqustun əvvəllərində Gürcüstan respublikası ərazisində, daha dəqiq desək Cənubi Osetiyada öldürülmüş əsgərlərin şəklidir. Əgər sıralama ilə baxsaq, barəsində danışılan bu şəkil *(etik baxımdan şəkilin məqalədə yer almasını məsləhət bilmədik)* saytında verilən 17 şəkildən 4-cüsüdür (2).

Vaxt.az saytının bu "xəbər"i Müdafiə Nazirliyinin rəsmi bildirişinə əsasən yaymağı təqdirə layiq olsa da, amma şəkil məsələsində bilərəkdən yanlış informasiya yayması ilə, jurnalistin peşə etikasının prinsip və normalarını pozmuş olur.

Jurnalistin "peşə etikasının prinsip və normalarının pozulması hallarının" IV maddəsindəki məlum müddəalara görə, jurnalistin - bilərəkdən yanlış informasiya yayması və ya səhlənkarlıqdan faktları dəqiqləşdirməmək üzündən yanlış informasiya verməsi, "Vətəndaşların informasiya almaq hüququnu pozan hərəkətlər" hesab olunur (3).

Bu məqamda, Azərbaycan Respublikası jurnalistinin peşə etikası kodeksi və prinsiplərinin II maddəsinə - (Düzgünlük) nəzər salsaq zənnimcə, yerinə düşər:

"Jurnalist baş verən hadisələrin təsvirini dəqiq və konkret faktlar əsasında verməyə borcludur. O, faktların təhrif olunmasına yol vermir, onları şəxsən öz materiallarının taleyi və ya işlədiyi redaksiyanın mənafeyi naminə seçib istifadə etmir" (1).

Jurnalistinin peşə etikası kodeksi baxımından faktları hərtərəfli və bütün incəliklərinə qədər yoxlamadan, sənədlərə və başqa qaynaqlara dönə-dönə müraciət etmədən, dərc olunmaq və ya efirə vermək üçün nəzərdə tutulan materialda faktların doğruluğuna tam əmin olmadan yayımlanması yol verilməzdir.

Bu prizmadan baxanda aydın görürük ki, "Avropa.info" saytının 3 avqust, 2014-cü ildə "Ermənilər Azərbaycanın qarşısında ağ bayraq qaldırdı" - başlıqlı xəbərdə yerləşdirilən foto-şəkil, ermənilərin bizim qarşımızda ağ bayraq qaldırmalarını heç cür təsdiqləmir. Əksinə, əgər bu foto-şəkil həqiqətən də erməni əsgərlərinə məxsusdursa, o zaman biz onların bizə təslim olmalarına yox, bizimlə vuruşmaq üçün hərbi təlim keçmələrinə inanmalıyıq. Fotodan göründüyü kimi, şəkil hansısa bir hərbi təlimdə çəkilmiş şəkildir. Burada bir əsgər qumbaraatanı doldurur, yanındakı iki əsgər isə ona bu işdə kömək edir və digər bir əsgər isə əlində tutduğu qırmızı və sarı rəngli bayraqlarla əmr verməyə hazırlaşır.

"Xəbər"də problem təkcə bayraqların rənginin səhv salınması ilə, yəni faktoloji səhvdən ibarət deyil. Burada, həm də "xəbər"in başlığı ilə mətn arasındakı əlaqənin olmamasıdır.

Baxın, aşağıdakı bu fotoda ağ bayraq qaldıran erməni yoxdur - bu artıq açıq şəkildə faktın olmaması deməkdir. Yazının mətninə nəzər salanda isə, sonuncu "onlar sübut kimi Ermənistanın aidiyyəti qurumlarının ağ bayraq qaldırmalarını göstəriblər" - cümlədə yazının başlığına uyğun olaraq söz açılsa da, amma, bu cümləni təsdiq edən heç bir mənbəyə istinad edilmir. Yəni, burada oxucu olaraq hər kəsi düşündürən bir neçə sual yaranır - aidiyyəti qurum bu ağ bayrağı nə vaxt və harada qaldırdı?

Doğrudur, "avropa.info" saytı bu xəbəri "axar.az" saytına, "axar.az" isə, Ukraynanın "Glavnoe.ua" agentliyinə istinad edərək yayıblar (4).

Burada bir məqama da diqqət yetirək: "Glavnoe.ua" agentliyi 2 avqustda "Dağlıq Qarabağ ərazisindəki konfliktdən həyacanlı məlumatlar gəlir" - adı altında verdiyi yazıya bir gün sonra istinad edən "axar.az", bu yazıya "Separatçı ermənilər Bakının qarşısında ağ bayraq qaldırdı", "avropa.info" isə, eyni məzmunlu yazını "Ermənilər Azərbaycanın qarşısında ağ bayraq qaldırdı" - adlandırır və eyni zamanda yazıya fərqli foto-şəkillər yerləşdiriblər.

Orjinal mətnə diqqət yetirəndə isə, orada ermənilərin ağ bayraq qaldırmaları barədə heç bir cümləyə rast gəlinmir (5).

Bir sözlə, hər iki saytın bu yazıya yerləşdirdikləri foto-şəkilləri, barəsində danışdığımız "xəbər"i təsdiqləməyən foto-şəkillərdir. Yazının adlandırılmasına gəlincə isə, görünür mətndə qeyd olunan sonuncu cümlə məcazi mənada işlədilib. Amma "xəbər" mütləq fakta, yəni həqiqətə söykənməlidir, məcaza yox.

Azərbaycan Respublikası jurnalistinin peşə etikası kodeksi və prinsiplərinin IV maddəsində - (Vicdanlılıq) qeyd olunur ki, "Jurnalistin vəzifəsi peşə borcunu vicdanla yerinə yetirməkdən ibarətdir. Bunun üçün yaradıcılıq imkanlarından tam istifadə edir, ümumi, peşə mədəniyyətini və səviyyəsini daim artırmaq üçün səy göstərir. Vicdan jurnalistə diktə edir ki, faktları hərtərəfli və bütün incəliklərinə qədər yoxlasın, sənədlərə və başqa qaynaqlara dönə-dönə müraciət etsin, dərc olunmaqdan ötrü (efir üçün) nəzərdə tutulan yazıdakı faktların doğruluğuna tam əmin olsun. Belə olarsa, yazı barədə yozmalara, şayiələrə yer qalmır. Yazısında səhvə yol vermiş müəllif dərhal səhvin qarşısını ala biləcək tədbirlər görür, mənəvi ziyan çəkmiş şəxsdən (şəxslərdən) rəsmən üzr istəyir, onun (onların) jurnalisti bağışlamasına etika çərçivəsində nail olur" (1).

Əlbəttə, peşəkar jurnalistlər bilməlidirlər ki, belə hallarda bayraqları qətiyyən səhv salmaq olmaz. Burada, jurnalistikanın norma və etik prinsiplərini bayraq olaraq əldə tutmaq isə hər bir jurnalistin peşə borcudur.

Mediada etik pozuntular baxımdan "qışqıran" başlıqlara da tez-tez rast gəlinir. Təəssüflər olsun ki, peşə etikasına məhəl qoymayan bir çox jurnalistlər bunu bir növ neqativ ənənəyə çeviriblər. "Şok, şok, şok!", "qalmaqal", "...yıxıb sürüdü", "...başını kəsdi" "...zorladı" və digər bu kimi başlıqların oxuculara belə "qışqırıqla" təqdim olunması, təbii ki, xəbərin oxunma faizini yüksəltməyə hesablanır.

Amma əvvəlcə onu qeyd edək ki, heç kimin, o cümlədən jurnalistin öz oxucusunu və ya tamaşaçısını şok halına salamağa heç bir hüququ yoxdur. Əksinə bu, mənəvi-psixoloji baxımdan təqdirə layiq hal hesab olunmur.

Problemə digər rakursdan baxanda isə xəbər oxucuya "şok" və ya digər "qışqıran" başlıqla təqdim olunsa da, amma mətni oxuyanda o, bu xəbərin adi bir olay olduğunu görür. Bununla yanaşı, bu kimi "xəbər"lərə əlavə edilən foto və ya videoların hazırki xəbərlə heç bir əlaqəsi olmayan köhnə hadisələrdən bəhs edildiyi də məlum olur (6).

Əslində xəbər başlıqlarının əsas məqsədi təqdim olunan infromasiyanın nədən ibarət olduğunu bildirməkdir. Saytlarda çox zaman yazıya qoyulan başlıqlar aldadıcı olur. Yəni, başlıq mətndəki məzmunu və ya xəbəri heç cür əks etdirmir.

Məsələn, 18 may, 2017-ci ildə "ulus.az" saytında gedən - "Növbəti vitse-prezident təyinatı 2018 seçkisinə qaldı, nazirlər gedir - Şok gəlişmə" adlı xəbərə diqqət yetirəndə, burada, "...nazirlər gedir - Şok gəlişmə" ifadəsi mətndə birbaşa öz əksini tapmır. Çünki xəbəri oxuyanda aydın olur ki, burada, əsasən söhbət 2018-də keçiriləcək prezident seçkilərindən sonra növbəti vitse-prezidentlərin təyinatının baş tuta biləcəyindən və gələcəkdə müəyyən kadr islahatlarının aparılmasından gedir. Amma bu xəbərə verilmiş *(nazirlər gedir - Şok gəlişmə)* başlığı oxuyan hər bir oxucu ilk baxışda aldanaraq elə sanır ki, artıq, nazirlərin kütləvi şəkildə vəzifədən getmələri və ya azad olunmaları barədə ölkə prezidenti tərəfindən sərəncam imzalanıb (7).

Bəzi media ekspertlərinin fikrincə, xəbər başlıqları ilə bağlı etik pozuntuların əsas səbəbi ölkədə əsl jurnalistikadan anlayışı olanların sayca az olmasındadır.

Doğrudur, xəbərlərə başlıq seçmək redaksiyanın, saytın öz daxili səlahiyyətinə aid bir məsələ olsa da, amma burada qanunvericilik və peşə əxlaqı mütləq qorunmalıdır. Təəssüf ki, bu gün Azərbaycan mediası özünün elə bir tarixi dövrünü yaşayır ki, cəmiyyətə çıxaraq təmasda olmaq və İP toplamaq üçün müxtəlif üsullardan istifadə edir.

Qeyd edək ki, jurnalistikada sərlövhələrə, xəbər başlıqlarına konkret verilən tələblər var. Bu tələb ondan ibrətdir ki, sərlövhə məzmuna uyğun və təbii ki, müəyyən qədər də cazibədar olmalıdır. Amma heç bir halda yalan və uydurma olmalı deyil. Bir çox hallarda ölkə daxilinə aid olmayan məlumatlar sanki bu ölkəyə aid olmuş kimi təqdim edilir. Xəbəri açıb oxuyan oxucu görür ki, başlıq xəbərin içinə uyğun gəlmir və heç kimə gərək olmayan xarici məlumatlardır. Bu kimi başlıqlarla oxucunu aldatmaq isə etik baxımdan kobud səhv hesab olunur.

Əslində, klassik Azərbaycan jurnalistikasında çox doğru seçilən xəbər başlıqları olub. Xəbər başlıqları üçün xalq dili, deyimləri və frazeoloji birləşmələr var. Müasir dövrdə işlətdiyimiz hikmətli və atalar sözlərindən xəbər başlıqlarında məharətlə istifadə etmək olar. Bacarıqlı və peşəkar jurnalistlər xəbər başlığı seçməyin yollarını klassik jurnalistikadan öyrənə bilərlər (8).

Nəticə olaraq sonda onu qeyd edək ki, internet mediada - saytlarda jurnalist etikasının norma və prinsiplərinin pozulması halları müxtəlifdir. Odur ki, internet media və şəbəkə resurslarında özünütənzimləməni formalaşdırmaq üçün "Onlayn medianın etik davranış Kodeksi"nin yaradılması ideyası təqdirə layiqdir. Bu, jurnalistlər üçün öz peşələrində etik standartlar haqqında kompleks təsəvvürlər yaradılmasına xeyli yardım etmiş olar. Xəbər saytlarına işə götürülən jurnalistləri "Jurnalistin peşə etikası Kodeksi" ilə mütləq tanış etmək və bu kodeksə əməl etmələrinin ən vacib şərt olduğunu bildirmək lazımdır.

Ədəbiyyat

1. Əhmədov M. Azərbaycanda jurnalist etikası: problemlər və vəzifələr. Dərs vəsaiti. Bakı: Mütərcim, 2017.

2. (http://etsphoto.ru/foto-voyynyi-v-yujnoyy-osetii-2008.html#11)

3. (http://vaxt.az/mobile/?name=xeber&xeber_id=4382#)

4. (http://axar.az/news/25616#ad-image-0),

5. (http://avropa.info/?xeber=62263; http://axar.az/news/25616#ad-image-0)

6. http://qafqazinfo.az/news/detail/sok-soyundu-yandirib-yaxdi-olkenin-xeber-basliqlari-136473

7.http://ulus.az/karusel/2636-novbeti-vitse-prezident-teyinati-2018-sechkisine-qaldi-nazirler-gedir.html

8. http://modern.az/articles/103609/1/#gsc.tab=0 Hansı sayt yaxşı xəbər başlıqları verir?

М.А.Ахмедов

Некоторые этические проблемы в азербайджанских интернет - СМИ

Резюме

Понятие профессионального журналиста основывается на фактах, правде и, самое главное, на объективности материала, подготовленного журналистом, который он передает на суд общественности.

Несмотря на то, что в последние годы в Азербайджане был проведен ряд мероприятий в вопросе решения проблем соблюдения этических норм в журналистике, в этой сфере все еще остаются серьезные проблемы.

В отличие от других сфер СМИ, на сегодняшний день нарушения принципов журналистской этики чаще всего встречаются в интернет - журналистике. Потому в данной статье больше всего уделяется внимание ряду фактов нарушения этических норм в интернет - СМИ (сайтах) Азербайджана, которые противоречат общепринятым нормам и принципам.

M.A.Akhmedov

Some ethical problems in the Azerbaijani internet media

Summary

The concept of a professional journalist based on facts, truth and, most importantly, on the objectivity of the material prepared by the journalist, which he conveys to the public.

Despite the fact that in recent years a number of events have been held in Azerbaijan on the issue of solving the problem about following ethical standards in journalism, serious problems still remain in this area.

Unlike other media spheres, today the violations of the journalistic ethics principles are most often found in Internet journalism. Therefore, in this article, most attention is paid to a number of facts of violation of ethical norms in Internet media (websites) of Azerbaijan, which contradict the generally accepted norms and principles.

Rəyçi: filol.f.d., dos. Ə.Ç.Ağamirzəyev

Redaksiyaya daxil olub: 15.07.2017

N.H.ƏHMƏDOV
iqtisad elmləri doktoru, professor

C.QASIMOV
iqtisad üzrə fəlsəfə doktoru

Naxçıvan Dövlət Universiteti
(Naxçıvan şəh., Universitet şəhərciyi)

DÖVLƏT PROQRAMLARI VƏ NAXÇIVAN MR-da MƏŞĞULLUĞUN TƏMİN OLUNMASI İSTİQAMƏTLƏRİ

Açar sözlər: *işsizlik, məşğulluq, iqtisadi siyasət, dövlət proqramı, əmək bazarı, sahibkarlıq.*
Ключевые слова: *безработица, занятость, экономическая политика, государственная программа, трудовой рынок, предпринимательство.*
Key words: *unemployment, employment, economic policy, state program, labor market, ownership.*

Bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublkasının həyata keçirmiş olduğu siyasət səmərəli məşğulluğa və işsizliyin aradan qaldırılmasına yönəldilmişdir. Ölkədə mövcud olan əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsi və quruluşunun müəyyən edilməsinə və bu sahədə səmərəli məşğulluq siyasəti tədbirləri işlənib hazırlanmasına və həyata keçirilməsinə böyük ehtiyac vardır.

Yeni iqtisadi sistemə transformasiyanın ilk illərində müəssisələrdə işin dayanması ilə əlaqədar olaraq məşğulluq problemləri xeyli kəskinləşmişdir. Lakin dayanıqlı iqtisadi inkişaf, makroiqtisadi sabitlik əldə edildikdən sonra iqtisadi islahatların əhatə dairəsinin genişlənməsi, o cümlədən regional iqtisadi inkişafın da əsas islahat istiqamətlərindən birinə çevrilməsi zərurəti meydana gəlmişdir.

Bazar iqtisadiyyatına keçid tənzimlənən və mütəşəkkil əmək bazarının yaradılmasını, milli ənənələrə əsaslanan məşğulluq siyasətinin formalaşmasını və inkişaf perspektivlərinin müəyyənləşdirilməsini tələb edir.

Dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri də ölkə əhalisinin məşğulluğunun sosial səmərəliliyinin təmin edilməsinə yönəldilən dövlət məşğulluq siyasətinin formalaşması və əmək ehtiyatlarından səmərəli istifadə edilməsidir.

Ölkədə aparılan məşğulluq siyasəti daha çox aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsinə, əhalinin məşğulluğunun təmin edilməsinə, peşə hazırlığının, ictimai işlərin səmərəliliyinin artırılmasına, yeni iş yerlərinin yaradılmasına yönəldilmişdir.

Məşğulluq probleminin həlli və bununla bağlı yeni iş yerlərinin açılması məsələləri Azərbaycan Prezidenti İlham Əliyevin 11 fevral 2004-cü ildə imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər"-na dair fərmanda qeyd edilmişdir.

Hələ ölkə prezidenti İ.Əliyev 2003-cü ildə seçkiqabağı marafonda səsləndirdiyi yaxın beş il ərzində 600000 yeni iş yerlərinin açılması fikirləri də proqramda öz əksini tapmışdır.

Proqnozlara görə 2004-2008-ci illərdə bütövlükdə ölkə və, o cümlədən 10 iqtisadi rayon üzrə aşağıdakı sayda iş yerləri açılmalıdır. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar:

2004-2008-ci illərdə açılması planlaşdırılan iş yerlərinin iqtisadi rayonlar üzrə proqnoz bölgüsü (1)

№	İqtisadi rayonun adı	Cəmi	O cümlədən				
			2004	2005	2006	2007	2008
1	2	3	4	5	6	7	8
1.	Aran	127.100	17.800	21.600	25.400	29.200	33.100
2.	Quba-Xaçmaz	35.000	5.000	6.000	7.000	8.000	9.000
3.	Gəncə-Qazax	83.500	11.700	14.200	16.700	19.200	21.700
4.	Abşeron	30.000	4.400	5.100	6.000	6.900	7.600
5.	Dağlıq-Şirvan	20.000	2.800	3.400	4.000	4.500	5.300
6.	Lənkəran	68.300	9.200	11.600	13.600	15.700	18.200
7.	Şəki-Zaqatala	40.500	5.700	6.800	8.000	9.300	10.700
8.	Yuxarı Qarabağ	14.600	2.000	2.400	2.900	3.400	3.900
9.	Kəlbəcər-Laçın	2.600	460	400	500	500	800
10.	Naxçıvan	28.400	4.000	5.500	5.900	6.300	6.700
Cəmi regionlar		450.000	63.000	77.000	90.000	103.000	117.000
Bakı şəhəri		150.000	22.000	25.000	30.000	35.000	38.000
Ölkə üzrə cəmi		600.000	85.000	102.000	120.000	138.000	155.000

Proqnoz məlumatlarından aydın olur ki, ölkədə açılacaq 600.000 iş yerindən 5 faizi Naxçıvan iqtisadi rayonunun payına düşür.

Dövlət Proqramına uyğun olaraq keçən dövr ərzində, yəni 1 oktyabr 2003-cü il tarixdən 1 yanvar 2009-cu il tarixədək Naxçıvan Muxtar Respublikası üzrə 37 min 73 yeni iş yeri açılmışdır ki, onların da 23 min 675-i, yaxud 63,9 faizi daimi iş yerləridir (2).

Qeyd etmək lazımdır ki, 2004-2008-ci illəri əhatə edən birinci regional Dövlət Proqramı müvəffəqiyyətlə yerinə yetirildikdən sonra ölkə Prezidenti İ.Əliyev tərəfindən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər)" və onun ardınca "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2014-2018-ci illər)" qəbul edildi.

Etiraf etmək lazımdır ki, 2009-cu ildən bu günə kimi keçən dövr ərzində muxtar respublikada tikilən yeni müəssisələr nəticə etibarilə 100 minlərlə yeni iş yerlərinin açılmasına gətirib çıxarmışdır.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və respublika hökumətinin əhalinin məşğulluğunun təmin olunması və yaşayış səviyyəsinin yüksəldilməsi istiqamətində gördükləri işlər öz bəhrəsini verməkdədir. Əlbəttə ki, burada rayon və şəhər icra başçılarının, müvafiq orqanların gördükləri işlər də diqqətəlayiqdir. İndi demək olar ki, şəhər və rayonlarda həyata keçirilən məqsədyönlü tədbirlər öz müsbət nəticələrini vermiş, iqtisadiyyatda dinamik inkişaf meylləri güclənmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə geniş imkanlar yaratmışdır.

2005-ci ildə muxtar respublikada 2908 yeni iş yeri yaradılmışdır ki, bunun da 2837-ci və ya 97,6 faizi daimi iş yerləridir (3).

Ümumiyyətlə müstəqillik illərində məşğulluq probleminin həllindən söhbət gedərkən qeyd etmək lazımdır ki, ölkəmizdə məşğulluq siyasəti ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan iqtisadi inkişaf strategiyasının ən mühüm tərkib hissələrindən biridir. 2001-ci il 2 iyul tarixli "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu bu istiqamətdə

dövlət siyasətini müəyyən etmişdir. Daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 oktyabr 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)", 2007-ci il 15 may tarixli Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" və 2011-ci il 15 noyabr tarixli Sərəncamla öz təsdiqini tapmış "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2011-2015-ci illər)" ölkədə məşğulluq siyasətinin yüksəldilməsinə real imkanlar yaratmışdır.

Əgər biz yuxarıda qeyd olunan üç regional Dövlət Proqramlarını (2004-2008-ci illər), (2009-2013-cü illər) və (2014-2018-ci illər) da buraya əlavə etsək demək olar ki, iqtisadiyyatın bütün sahələrində yüksək nailiyyətlər əldə edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransdakı çıxışında demişdir: "Bütün obyektiv çətinliklərə baxmayaraq, 2016-cı ildə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir və bütün əsas vəzifələr icra olunmuşdur. İqtisadiyyatın əsas göstəriciləri müsbətdir. Kənd təsərrüfatı 2,6 faiz, ölkəmizin qeyri-neft sənayesi isə 5 faiz artmışdır. Dünyada neftin qiymətinin üç-dörd dəfə aşağı düşməsinə baxmayaraq, əvvəlki illərdə görülmüş işlər və keçən il apardığımız dərin islahatlar nəticəsində biz bu inkişafı təmin edə bilmişik" (4).

Qeyd etmək lazımdır ki, bütün ölkədə olduğu kimi, onun regionlarında və, o cümlədən Naxçıvan Muxtar Respublikasında da iqtisadi inkişaf davam etmiş və yüksək nailiyyətlər əldə edilmişdir.

İqtisadi resurslardan səmərəli istifadə edilərək çoxşaxəli iqtisadiyyat formalaşdırılmış, qəbul olunmuş dövlət proqramlarının uğurlu icrası nəticəsində muxtar respublikada sosial-iqtisadi sahədə inkişaf təmin edilmişdir. Belə ki, 2016-cı ildə inkişafın əsas göstəricisi kimi ümumi daxili məhsul istehsalının həcmi bir il öncəki dövrlə müqayisədə artaraq 2 milyard 500 milyon manatdan çox olmuşdur. Onun hər bir nəfərə düşən həcmi isə 5 min 771 manat təşkil etmişdir ki, bu da 2015-ci ilin müvafiq göstəricisinə nisbətən 3,4 faiz çoxdur (5).

Muxtar respublikada sahibkarlığın inkişafına xüsusi diqqət yetirilir, stimullaşdırıcı tədbirlər həyata keçirilir, banklar və kredit təşkilatları tərəfindən sahibkarlara verilən kreditlər ildən-ilə artır. Məhz bunların nəticəsidir ki, 2016-cı ildə muxtar respublikada daha 47 yeni istehsal və xidmət sahələri işə başlamışdır. Yeni istehsal müəssisələrinin istifadəyə verilməsi hesabına hazırda muxtar respublikada 366 növdə məhsul istehsal olunur.

Sahibkarlığın inkişafı yeni iş yerlərinin açılmasına səbəb olmuşdur. Bununla yanaşı "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın ilk ilinin icrası da nəticəsiz qalmamış, 2818 yeni iş yeri açılmışdır ki, bunun da 98 faizi daimi iş yerləridir.

Beləliklə demək olar ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi altında iqtisadiyyatınsürətli inkişafı təmin olunur, yeni müəssisələr tikilib istifadəyə verilir, iş yerləri açılır, işsizlik tədricən aradan qaldırılır və əhalinin məşğulluğu təmin edilir.

Ədəbiyyat

1."Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" , 11 fevral 2004.

2. "Şərq qapısı" qəzeti. 22 yanvar 2009-cu il, № 14.

3. "Şərq qapısı" qəzeti. 30 yanvar 2016-cı il, № 19.

4. "Xalq qəzeti". 31 yanvar 2017-cı il, № 21.

5.Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sesiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri Vasif Talıbovun məruzəsi. "Şərq qapısı" qəzeti. 8 yanvar 2017-ci il № 4.

Н.Г.Ахмедов, Дж.Гасымов

Государственные программы и направления обеспечения занятости в Нахчыванской АР

Резюме

Глубокий экономический кризис, происходящий в стране в первые годы независимости, привёл к остановке производственных процессов на предприятиях и возрастанию безработицы.

В соответствии с региональными Программами развития, создание в Нахчыванской Автономной Республике новых предприятий постепенно приводит к росту Общей Валовой Продукции. Естественно, все это создаёт условия для постепенной ликвидации безработицы и обеспечения полной занятости в автономной республике.

В статье речь идёт о проведённых государством мероприятиях по снижению уровня безработицы до минимума и обеспечению занятости.

N.H.Ahmadov, J.Gasimov

State proqrams and the directions of providing employment in Nakhchivan Autonomous Republic

Summary

The deep economic crisis in the country at early years of our independence resulted in the stopping of production process and increase of unemployment at enterprises. Government accepted a lot of Laws and Programs in order to eliminate unemployment and to provide the population with work.

The foundation of new enterprises in NAR in accordance with regional development programs leads to the increase of Gross Domestic Product. Naturally, all these gives all circumstances to eliminate unemployment and to provide complete employment in Autonomous Republic.

Generally, in the article it is spoken of decreasing unemployment to the minimum level and of all measures government took in order to provide employment.

Rəyçi: iqt.f.d., dos. M.T.İmanova

Redaksiyaya daxil olub: 22.08.2017

A.Q.ƏZİMOVA
filologiya üzrə fəlsəfə doktoru

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

İLK QADIN-JURNALİST ŞƏFİQƏ XANIM ƏFƏNDİZADƏ

Açar sözlər: *Azərbaycan qadını, qadın hüquqları, cəmiyyət, jurnalist, publisist, mətbuat*
Ключевые слова: *азербайджанская женщина, права женщин, общество, журналист, публицист, печать*
Key words: *Azerbaijan woman, woman rights, community, journalist, publicist, press*

XX əsrin əvvəllərində müsəlman türk qadınlarının cəmiyyətdə yeri və rolunu göstərən, qadınlar arasında təhsilin, maarifçiliyin yayılması üçün fədakarlıqla çalışan, onların təşkilatlanmasında, öz hüquqları uğrunda mübarizə aparmasında böyük rol oynayan Şəfiqə xanım Əfəndizadə öz dövrünün taleyüklü problemlərini zərif çiyinlərində daşıyan qadın fədailərimizdəndir.

Şəfiqə Məmmədəmin qızı Əfəndizadə 1882-ci ildə Gürcüstanın tarixən türklərin (Ahıska) yaşadığı Cavahetiya bölgəsində, Axalsıxe rayonunun Asğuri kəndində dünyaya göz açıb.

"Azərbaycan" qəzetinin 1 may 1919-cu il (№ 170) sayında "Yol əsnasında gördüklərim" məqaləsində Ş. Əfəndizadə doğma vətəni haqqında məlumat verir: "Keçən sənə avqust ayında Bakıdan çıxıb altı aydan bəri əhvalından xəbərimiz olmadığı vətənimiz olan Axisxaya getdik".

Şəfiqə xanım Əfəndizadənin yüksək təhsil almasında, milli ruhlu ziyalı qadın kimi yetişməsində doğulub boya-başa çatdığı ailəsinin və mühitin ciddi təsiri olmuşdur. Dövrünün tanınmış pedaqoqu və ziyalısı Məmmədəmin Şeyxzadənin ailəsində dünyaya göz açan Şəfiqə xanım və bacısı Səidənin ilk təhsilləri ilə şəxsən ataları məşğul olub. Uşaqlıqdan elmə, biliklərə marağı olan Ş. Əfəndizadə fərqli dünyagörüşü ilə də seçilib.

On dörd yaşında ikən o, Nuxa (indiki Şəki) şəhərinə gəlmişdir. Burada atasının çalışdığı "Darrüssiyada" məktəbinin nəzdində qızlar üçün açılmış xüsusi qrupda dərs deməyə başlamışdır. Həmin il Bakıya gələn Ş. Əfəndizadə qadınların savadsızlığına qarşı mübarizəyə başlayır.

Bu dövrdə ənənəvi müsəlman və qabaqcıl Avropa sivilizasiyalarının elementlərini özündə birləşdirən yeni mədəniyyət təşəkkül tapmışdı. Dini təhsildən dünyəvi təhsilə keçilməsi bu yeniliyin mühüm xüsusiyyəti idi. Qadın təhsilinin və bütövlükdə Azərbaycan qadınının cəmiyyətdəki vəziyyətinə baxışların transformasiyası baş verirdi ki, bu zaman dövrün aparıcı ziyalıları qadın təhsilinin genişləndirilməsi ilə bərabər Azərbaycan qadınının ictimai həyata cəlb olunması uğrunda daha fəal çıxış etməyə başladılar. Şəfiqə xanım Əfəndizadə bu hərəkatın öncüllərindən biri kimi öz fəaliyyətini genişləndirir. Dövrün ictimai-mədəni problemlərinə, cəmiyyətdə gedən proseslərə münasibət bildirməkdən çəkinməyən Ş. Əfəndizadə xalqın rifah və təhsil səviyyəsini qadınların azad olması ilə əlaqələndirir, bu məsələlərin həllini qızların təhsilində və tərbiyəsində görürdü.

1901-ci ilin oktyabrın 7-də İmperatriçə Aleksandra Fyodrovna adına Bakı rus-müsəlman qız məktəbinin açılışı olur. Bununla da, müsəlman Şərqində qadınların yüksək təhsil almasının təməli qoyulur. Görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanov Məmmədəmin Şeyxzadəyə məktub yazaraq ondan qızını həmin məktəbdə dərs deməyə göndərməsini xahiş edir. Ata bu dəvətdən məmnun qalır. Ancaq qızının dövlət məktəbində təhsil almadığı üçün belə bir hüququ olmadığını bildirir. Belə olan halda Şəfiqə Əfəndizadə 1901-ci ildə Tiflisdə Zaqafqaziya Ruhani İdarəsində imtahan verərək müəllimlik attestatı alır.

Sonra yenidən Bakıya dönür. Qeyd edək ki, Ş. Əfəndizadə həmin il rus-müsəlman qızlar məktəbində dərs deyən Məryəm Sulkeviç, Rəhilə Terequlov, Səkinə Axundova, Xədicə Əbdürəhmanovla birlikdə çalışır, bu tədris ocağında ana dilini tədris edir. O, cəhalətin hökm sürdüyü bir vaxtda müəllimə rəfiqəsi Səkinə Axundzadə ilə birlikdə dram dərnəyi yaradır. Avropa mədəniyyəti ilə yaxından tanış olan Şəfiqə xanım Əfəndizadə Azərbaycan dili və ədəbiyyatını tədris etməklə bərabər, dünya klassiklərinin əsərlərinin də öyrənilməsinə çalışırdı. Qızlara teatr mədəniyyəti, aktyorluq sənəti barədə məlumatlar verməklə kifayətlənməyən Ş. Əfəndizadə onları o dövrdə çıxan mətbuat xülasələri ilə cəmiyyətdə baş verən proseslərlə tanış edirdi.

Şagirdlərdə Azərbaycan ədəbiyyatına maraq və həvəs yaradan pedaqoq qızlara nəinki ədəbi əsərləri, dərslikləri oxumağı, eyni zamanda sərbəst, aydın, savadlı yazmağı da öyrədir. Gənc qızların yüksək təhsil almasına çalışan Şəfiqə xanım 1910-cu ilədək bu məktəbdə müəllimə işləyir. Fars, rus və ərəb dillərini, Şərq klassik ədəbiyyatını dərindən öyrənən bu gənc pedaqoq eyni zamanda, qadın pedaqoji məktəbindəki müəllimlik kurslarında da dərs deyir. Ş.Əfəndiyeva şəhər rus-tatar qız məktəbində (1910-1920), ikiillik pedaqoji kursda (1915-1916), darül-müəllimatda (1920-1926), Azərbaycan partiya və sovet məktəbində (1923-1927) pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Ş. Əfəndizadə pedaqoji fəaliyyəti ilə bərabər həm də ilk qadın jurnalistlərdən biri olaraq publisistik fəaliyyətlə də məşğul olur. Bəli, Azərbaycan mətbuatında qadın imzasının az təsadüf olunduğu bir dövrdə Şəfiqə xanımın imzasını "Şərqi-rus", "Dəbistan", "Rəhbər", "Məktəb", "Füqara füyüzatı", "Şərq qadını" ilə yanaşı milli azadlıq məfkurəli "Dirilik", "Açıq söz", "Azərbaycan" kimi mətbu orqanlarında da tez-tez görmək olurdu. Publisistik baxımından çox alovlu və yanğılı məqalələrini çap etdirən Ş. Əfəndizadə ictimai həyata, dövrün aktual problemlərinə öz münasibətini konkret faktlar və hadisələrin timsalında bildirməkdən çəkinmir, cəmiyyətin inkişafına mane olan ünsürlərə qarşı etiraz səsini qaldırır. Ş. Əfəndizadə qadınların mənəvi-ictimai təkamülünün başlıca çarəsini onların azad olmasında, özlərini dərketmələrində görürdü.

İlk azərbaycanlı qadın-jurnalist Ş. Əfəndizadə ilk qələm təcrübəsini 1903-cü ildə "Şərqi-rus" qəzetində sınayır. O bu qəzetdə dərc etdirdiyi məqalələrində nəinki qadınların, ümumilikdə xalqın milli taleyini, cəhalət, zülmət əsarətindən çıxmaq yolunu yalnız maarif və təhsilə yiyələnməkdə görürdü: "Ümidlərimiz çox böyükdür... Hər bir rəzalətin səbəbi cəhalətdir. Cəhalətdən çıxmağın dərmanı isə elmdir, maarifdir..."

"Dəbistan", "Məktəb", "Dirilik", "İşıq" jurnalları ilə əməkdaşlıq edən Ş. Əfəndizadə bir pedaqoq kimi bu mətbuat orqanlarında əsasən tədrisin vəziyyəti, təlim-tərbiyə, əxlaq, vətənpərvərlik mövzusuna daha çox yer verirdi. Bu yazılarında qadın hüquqsuzluğu və savadsızlığının cəmiyyətin inkişafına mənfi təsirini tənqid edən böyük pedaqoq ailə tərbiyəsinin uşaqların həyatında oynadığı mühüm rolu, müsəlman qadınının əqli və mənəvi inkişafının təhsildən başlandığını, yeni təhsil formalarının əhəmiyyətini əsaslandırır. Onun uşaqların həyatından bəhs edən və bu mətbuat orqanlarında dərc olunan məqalə və ilk hekayələri –"Tərbiyeyi-beytiyyə". "İki qızın söhbəti", "Şəkər alması", "Vəhşilər çörəkçisi", "İlk məhəbbət", "Röya", "Müəllim nədir", "Mükafat" və başqa əsərləri uşaq ədəbiyyatının ilk nümunələri və uşaqlara doğma vətənə məhəbbət, xeyirxahlıq, mərdlik, doğruçuluq kimi gözəl keyfiyyətlər aşılanması baxımından qiymətlidir.

Ş. Əfəndizadənin jurnalislik fəaliyyətinin ən məhsuldar, mübariz dövrü onun "Dirilik", "Açıq söz", "Azərbaycan"da əməkdaşlığı illərinə təsadüf edir. Bu mətbuat orqanlarında biz onu müsəlman dünyasında qadının cəmiyyətdə yer tutması, onun əks cinsin nümayəndələri ilə eyni hüquqlara–təhsil almaq, seçmək və seçilmək, cəmiyyətin bütün sahələrində çalışmaq haqlarının müdafiəçisi və mübarizi kimi görürük. Qadınların ictimai həyata cəlb olunmasına çalışan Ş. Əfəndizadə Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin üzvü kimi də cəmiyyətin qarşısında duran problemlərin həllində və bütün tədbirlərində iştirak etməklə

fəaliyyətini genişləndirir. Bu xeyriyyə cəmiyyətinin fəaliyyətini Şəfiqə xanımın "Azərbaycan" qəzetinin 8 iyul 1919 (№219) tarixli nömrəsində "İzhari-təşəkkür" adlı minnətdarlıq yazısı özündə əks etdirir: "Bakıda yaşayan əshabi-həmiyyətdən adını bildirmək istəməyən alicənab bir zat Bakıda mövcud yetimlər yurdunu ziyarətlə çocuqların ehtiyaclarını nəzəri-diqqətdən keçirmiş. Və şimdilik bayram münasibətilə çocuqların maddi cəhətlərini təmin etməyi lazım bilib".

Xeyriyyə cəmiyyətinin qeyrətli və çalışqan qadınlarının köməyi ilə həyata keçirilən bu xeyirxah işdə əhəmiyyətli şəxs tərəfindən maliyələşdirilən bu tədbirdə yetimlər evində 102 nəfər istər oğlan – istər qız balaları həm paltar və həm ayaqqabılarla təmin edilərək sevindirilir. Ş. Əfəndizadə yazının sonunda: "İştə bu həmiyyətli alicənab əfəndi həzrətlərinə həm yetimlər yurdu və həm xanımlar tərəfindən ərzi-təşəkkürlər etməklə böylə alicənab şəxslərin əmsalını artıq eləməsini xudayi-mütəalidən diləriz" yazmaqla minnətdarlığını bildirir .

1917-ci il aprelin 15-20-də Ş. Əfəndizadə Cənubi Qafqaz müsəlmanlarının I qurultayında Sara xanım Talışinskaya və Sara xanım Vəzirova ilə birlikdə Şərq qadınlarının müdafiəçisi kimi iştirak edir. Çıxışının sonunda "Yaşasın qadın azadlığı! Hürriyyət!" deyərək tribunadan enir. ("Açıq söz" qəzeti, 1917, 16 aprel (№ 451) Qadın hüquqsuzluğu barədə odlu-alovlu çıxışı ilə zaldakıları heyrətə gətirən Ş. Əfəndizadə yeni məktəblərin, teatrların açılmasını tələb edir ki. bu da o dövr Azərbaycan mühiti üçün nadir hadisələrdəndir. Mraqlıdır ki, həmin qurultayda qəbul edilmiş qərarda göstərilirdi ki, başqa xalqların qadınları ictimai-siyasi həyatda kişilərlə bərabər fəaliyyət göstərərək öz millətinin tərəqqisi üçün çalışan zaman Azərbaycan qadınları bu prosesdən kənarda qala bilməz. Sənəddə, o cümlədən Azərbaycan qadınlarının siyasi və vətəndaşlıq hüquqlarının kişilərlə bərabərliyinin zəruriliyi qeyd olunurdu.

Ş. Əfəndizadənin "Dirilik", "Açıq söz", "Azərbaycan" da fəaliyyətini, jurnalistin yaradıcılığının yeni – ən yüksək mərhələsi adlandırmaq olar. "Qadınlıq ləyaqəti" ("Dirilik",1914, № 8), "Qadınlarda dirilik və nöqsanat" ("Dirilik", 1914, № 7), "Mövqeyimiz və ehtiyacımız" ("Açıq söz", 2 oktyabr 1915, № 1), "Qadın seçkisi " ("Açıq söz", 20 oktyabr 1917, № 593), "Seçki və qadınlar" ("Açıq söz", 26 oktyabr 1917, № 598), "Yol əsnasında gördüklərim" ("Azərbaycan", 1 may 1919, №170), "Dağıstan günü" ("Azərbaycan", 6 may 1919, №173), "İslamların, türklərin" ("Azərbaycan", 15 may 1919, №181), "Təşkilatın qadınlara təsiri" ("Azərbaycan", 28 may 1919, №), "Milli bayram və qadınlarımız" ("Azərbaycan", 5 iyun 1919-cu il, № 196), "Vətən bizim sevgili anamızdır" ("Azərbaycan", 25 iyun 1919, №211), "Xanımlarımıza müjdə" ("Azərbaycan", 22 sentyabr 1919-cu il, № 302) və bu səpkili digər məqalələrində əxlaqi-mənəvi tərbiyə, qadınların cəmiyyətin ictimai-siyasi proseslərində, habelə seçkilərdə iştirakının əhəmiyyəti, millətin inkişafında qadın hüquqlarının qorunması məsələləri öz əksini tapır.

1915-ci ildə "Açıq söz" qəzetinin ilk nömrəsi çapa hazırlanarkən redaksiya heyəti "Abdulla Şaiq əfəndinin bir şeiri ilə bir neçə mühərrirlərimizin məqalələri dəxi yer olmadığından bu nömrəyə basılamayıb bilzərurə təxirə düşdü" yazır. Belə bir məqamda Ş. Əfəndizadənin "Mövqeyimiz və ehtiyacımız" məqaləsinin ilk sayda çap edilməsi ilk azərbaycanlı jurnalistə və onun yazılarının aktuallığlna və əhəmiyyətinə verilən dəyərdir. Dövr üçün əhəmiyyətli bir problemə həsr olunan bu yazı qadınların cəmiyyətdə tutduqları ictimai mövqeyə aydınlıq gətirir: "Hamıya məlumdur ki, vilayətimizdə, yaşadığımız mühitdə biz müslimə qadınlar arasında dərdimizə qalan, əhvalımıza ağlayan, bizə nicat yolu göstərən, aramızda işçilik, sənət hünərlərini nəşr etməgə çalışan cəmiyyətlər görülmüyor".

Kor-koranə surətdə ancaq məişətdə dəyişilən qadınlar hələ də zahiri və maddi cəhətdən yeniliklə kifayətlənirlər. Cəmiyyət üçün əsas və vacib olan ictimai və iqtisadi məsələlərdə isə qadınların passivliyi jurnalist Ş. Əfəndizadəni narahat edir.

Qəflətdə, hər şeydən bixəbər yaşamağın müsəlman qadınlarının inkişafı üçün böyük bir əngəl olduğunu qeyd edən Ş. Əfəndizadə qadınlara üz tutur: "...ictimai hallarımızın islahı qeydinə qalmazsaq "günü-gündən onsuz da ağırlaşmaqda olan" məişətin yükü altında əzilib ge-

dəcəgiz. Artıq vəqtdir.... Vəqtdir ki, biz Qafqasiya qadınları da özümüz üçün bir nöqtə ittixaz edərək ictimai işlərimizi islah və nə kibi bir məslək təqib edəcəgimizi müzakirəyə qoyaq. Madam ki, biz də insanız, kişilərin rəfiqəsi, həyat yoldaşı, evlərinin müdirəsi oluyoruz, o halda lazım gəlməzmi ki, kişilərə fikrən, felən, həqiqi yoldaş – işlərinə, zəhmətlərinə şərik olalım?!"

Qafqasiya qadınlarını həyat və məişət yolunu tutmağa çağıran alovlu publisist qadınları elmə, məarifə səsləyir və onlara işçiliyə və sənəti sevməyə alışmağı, bu yolda bir çox fədakarlıqlar göstərməyi məsləhət görür: "Buna da hər yerdə cəmiyyət idarələri himmət edib mövqe və ehtiyacımızın qeydinə qalmalıdırlar".

Ş. Əfəndizadə qəzetin 26 oktyabr 1917-ci il nömrəsində dərc olunan "Seçki və qadınlar" adlı məqaləsində o dövr üçün əhəmiyyətli rol oynayan digər bir məsələyə - qadınların savadsızlıq üzündən seçki hüquqlarını, seçkinin mahiyyətini dərk etməmələrindən, bunun nəticəsi olaraq da bu prosesdən kənarda qalmalarından yazır: "Həyatı sevmək, onu daha da gözəlləşdirmək lazımdır. İnkişaf qadınlıq və qadınlığın diriliyindədir. Qızların, qadınların səyi olmadan Vətənin, xalqın yüksəlişi qeyri-mümkündür. Başqa xalqların qadınları ictimai-siyasi həyatda kişilərlə bərabər fəaliyyət göstərərək, öz millətinin tərəqqisi üçün çalışan zaman Azərbaycan qadınları bu prosesdən kənarda qala bilməz". Həmin məqalədə qadınların seçkidə iştirakı zəruri məsələ kimi önə çəkilir və onların siyasi və vətəndaşlıq hüquqlarının kişilərlə bərabərliyi cəsarətlə qeyd edilir".

Bu yazılar göstərir ki, Ş. Əfəndizadə qadın məsələsini ictimai, mili və mədəni həyata təsir edən güclü amil kimi qiymətləndirir.

"Vətən bizim sevgili anamızdır" məqaləsində vətən aşiqi olan Ş. Əfəndizadə bu məmləkətin gələcəyini, millətin səadətini onun övladlarının qeyrətində və səyində görür. Qəlbində vətənə məhəbbət hiss edən hər bir insan, xüsusən hər bir qadın millətin tərəqqisi naminə övladlarının tərbiyəsi ilə, onların vətən segisi ruhunda böyümələri üçün çalışmalıdır: "Övladlarımız hənuz qucaqlarımızda ikən verəcəyimiz tərbiyeyi-ibtidaiyyələrini verəmədik, övladlarımızı vətənin səlamətinə xadim olacaq bir surətdə böyüdəmədik".

Vətənpərvər xanım vətəninin düçar olduğu ağır günlərdə hər bir qadının üzərinə böyük bir vəzifə düşdüyünü, vətənə sadiq, çevik, cəsur, igidlər yetişdirmək lazım olduğunu göstərir.

Vətənin ağrılı vaxtlarında qadınların fədakarlıq göstərməsi, kişilərlə bərabər vətənin dərdinə əlac tapmaqda köməklik etməsini qadınların başlıca vəzifəsi hesab edən Ş. Əfəndizadə yazır:

"Ərkəklərimiz vətənin səadət və səlaməti üçün əllərindən gələn səy və qeyrətdən geri durmuyorlar, ancaq biz qadınlar, bu fəlakətin səbəbi kəndimiz olduğumuz halda heç düşünmək də istəmiyoruz. Bu bizim xətamız, bizim günahımızdır".

"Zərərin yarısından qayıtmaq da xeyirdir" deyən Şəfiqə xanım vətənin qeydinə qalmaq üçün uşaqları milli ruh, milli tərbiyədə bəsləmək, onların beşiyi başında laylalarda qulaqlarına vətən şərqisini eşitdirmək, ürəklərinə vətən məhəbbətini, millət hissiyyatını doldurmaq lazım olduğunu hər bir qadının müqəddəs vəzifəsi olduğunu göstərir: "Halbuki millətimizə yanşıyan şanlı əskərlər bizim ağuşumuzdan doğmalıdır. Əskərlərimizi müharibəyə biz təşviq etməliyiz. Kəndimiz çalışmalı, onlara nümunə olmalıyız".

Sanki Şəfiqə xanım bu sözlərlə bir əsr keçməsinə baxmayaraq bu gün hər bir Azərbaycan qadınının qarşısına müqəddəs bir vəzifə qoyur: VƏTƏNƏ LAYİQLİ ÖVLAD YETİŞDİRMƏK!

Şəfiqə xanımın "Qardaş köməyi" dərgisində dərc etdirdiyi "Qadın səsi" publisistik hekayəsini bu mövzunun davamı kimi qiymətləndirmək olar. Bu əsər zamanında qaldırılan və bu gün də cəmiyyətin inkişafında, gənc nəslin vətəndaş kimi yetişməsində mühüm rol oynayan övlad tərbiyəsindən bəhs edilir. "Vətənlərini, millətlərini sevdirmək har bir atananın borcu və birinci vəzifəsidir" deyən Şəfiqə xanım qadınlığı elə bir aləminə bənzədir ki, " ailə, millət, vətən, cəmiyyət, mədəniyyət, insaniyyət, şəfqət, mərhəmət gibi müqəddəs şeylər həp o aləmdədir". Anaları müəllimlərin ən həqiqi köməkçisi adlandıran ədib millətin inkişafını da onlarla bağlayır: "Əgər bir qadın elm və maarif nurundan binəsib, kəndi vəzifəsindən bixəbər, milliyyətindən biganə olursa aşkardır ki, kəndisini tapşırılan vəzifələrin

heç birini layiqilə ifa edəməz. Öylələrinin yetişdirdiyi övladlarından milləti üçün zərərdən başqa bir şey görülməz".

Vətəndaş jurnalist, gözəl pedaqoq, qadın azadlığının mücahidi Şəfiqə xanımın milli təlim, milli tərbiyə, milli dil, milli adət və ənənələri özündə cəmləşdirən bu əsər bu gün də milli mənəvi dəyərlərimizin qorunmasında və təbliğində böyük rol oynayır.

"İslamların, türklərin" adlı digər məqaləsində qadınları kişilərlə müqayisədə geridə qalmış millətlər sırasında öz millətini görən Ş. Əfəndizadə millətin əsaslı bir mədəniyyət əldə etməsində hər iki tərəfin böyük rol oynadığını qeyd edir.

Azərbaycan Xalq Cümhuriyyətini yeni təməli qurulan bir binaya bənzədən xanım jurnalist gələcəkdə möhkəm bir binaya, əsaslı bir təşkilata, möhkəm bir hökumətə sahib olmaq üçün onun təməlinin möhkəm olmasına hamının əl birliyilə, dil birliyilə, ürək birliyilə, özü də bu yolda yalnız kişilərin deyil, qadınlarların da çalışmalı olduğunu jurnalist qətiyyətilə bildirir.

Yazının maraqlı cəhəti budur ki, o, sözünün həqiqət olduğunu, qadının da "cəmiyyəti-bəşəriyyədə" və "aləmi-səy və əməldə" bir mövqeyə malik olduğunu böyük dəlillər ilə sübut etməyə çalışır.

İslami dəyərlərə qiymət verən Şəfiqə xanım islamiyyətdə qadına hüqiq verilməsi, onun cəmiyyətə daxil olması, çalışmaq səlahiyyəti, haqqını, mövqeyini bildirməsi məsələlərinin öz əksini tapmasını əsaslı şəkildə iddia edir: "Əgər təhsil mükəmməl, əsas məcburi olub bir az qadınlarımız üçün çalışılsa, mədari-iftixarımız olacaq nə böyük qadınlar, nə şöhrətli ədibələr, nə müşfiq validələr, nə xeyirli mürəbbiyələr çıxar!...

Daha vəqtdir... Vəqtdir ki, ərkəklərimiz elədikləri zülmləri düşünüb o üzdən millətimizin çəkdiyi zərərləri görüb peşiman olsunlar. Və keçmiş zərərləri qapamaq üçün şimdi hər şeydən əvvəl, hər işdən lazımlı qadınların səlahiyyətini mülahizə ilə onların qeydinə qalsınlar. O xüsusda komissiyalar seçib, cəmiyyətlər təşkil etsinlər. Qadınlarımızın təalisi, millətimizin nicatı üçün nə lazımsa ona çalışsınlar".

Ş. Əfəndizadə Məclisi-Məbusanın təşəkkül etdiyi, cəmiyyətlərin çoxaldığı bir məqamda da qadınların yenə "əski tas – əski hamam" halında qaldıqlarını acı təəssüflə bildirir: " Bütün cəmiyyətlərin möhtərəm üzvlərinə üzümü tutub diyorum. Qadınları yetişdirəlim, tarixə, zəmanəyə, ictimaya hazırlayalım ki, hökumətimizin qəvi və mətinliyi üçün zikurən və ünasən əl birliyilə, dil birliyilə, ürək birliyilə çalışalım".

Azərbaycan qadınlarını maariflənməsi məsələsini önə çəkən Şəfiqə xanım Əfəndizadə onları təhsilli, savadlı, dünyagörüşlü görmək istəyini "Xanımlarımıza müjdə" sərlövhəli məqaləsində davam etdirir: "Xanım həmşərilərim! Gözünüz aydın olsun. Bir qaç aydan bəri yalvarıb xahiş etdiyiniz, acı-acı ifadələrlə anlatdığınız, sənələrcə yatmış-uyumuş dərdlərimizə dərman olacaqsa, elmdən-tərbiyədən olacağını düşünüb bir çarəsi varsa, o da xanımlar üçün kurslar açılması ilə yana-yakıla söylədiyinizin nəticəsidir ki, həmd olsun! Bu gün maarif nazirliyi tərəfindən qadınlara məxsus kurs üçün izn sadir oldu".

Məqalədə, habelə demokratikliyinə və mütərəqqi addımlarına görə fərqlənən yeni hökumətin söz, mətbuat, vicdan, mitinq azadlığı, fəhlələr üçün 8 saatlıq iş günü və normal iş şəraiti, istirahət hüququ, qanun qarşısında dinindən, milliyyətindən, cinsindən, partiya mənsubiyyətindən asılı olmayaraq, hamının bərabərliyi, azad və bərabər əsaslarda təhsil hüququ haqqında da geniş danışılır.

Göründüyü kimi "qadın azadlığı" bu böyük demokrat xanımın publisistikasında mücərrəd bir anlayış deyildi. Bu ifadə altında öz qadın hüquqları uğrunda mübarizə aparan zərif, məzlum, kölə cinsin azadlıq ideallarını görürdü. Şəfiqə xanım demək olar ki, əsərlərinin əksəriyyətində bu azadlığın hansı yolla əldə ediləcəyini və onun qarşısına çıxan ictimai maneələri cəmiyyətə catdırırdı.

"Yol əsnasında gördüklərim" yazısı vətənpərvər jurnalistin doğma diyarı Axisxaya səfəri zamanı yol qeydləridir. Şəfiqə xanımın bu yazısı tarixi faktlar baxımından da maraq doğurur. Belə ki, azərbaycanlı ziyalıların İstanbulda fəaliyyəti, "Əsirgəmə dərnəyi" adlanan

qadın cəmiyyəti-xeyriyyəsi ilə azərbaycanlıların sıx əməkdaşlığının, eləcə də o cəmiyyətdə fəaliyyət göstərən azərbaycanlıların fəaliyyətinin öyrənilməsi, Əlimərdan bəy Topçubaşov və Əhməd bəy Ağaoğlu ilə görüşləri mətbuat tarixinin fakt və hadisələrinə aydınlıq gətirmək baxımından da əhəmiyyətlidir.

Məqalədən aydın olur ki, Şəfiqə xanımın Bakıdan Azərbaycan heyəti ilə Axisxaya səfəri uzun çəkmir. Orada davam edən münaqişələr, yerli əhalinin qızğın bir hərəkatla müharibə tədarükü görməsi Bakıda baş verən qırğınların şahidi olmuş Şəfiqə xanım və onun yoldaşlarını İstanbula getmək məcburiyyətində qoyur.

Şəfiqə xanım bir neçə qadınla beş il bundan əvvəl üzv olduqları "Əsirgəmə dərnəyi" adlanan qadın cəmiyyəti-xeyriyyəsinə üzvlük haqlarını verib təzədən qeydiyyata alınırlar və həmçinin bir neçə iclaslarında da iştirak edirlər.

Bir faktı da qeyd edək ki, bu cəmiyyətə Əhməd bəy Ağaoğlunun həyat yoldaşı Sitarə xanım, həmçinin Ənvər Paşanın böyük həmşirəsi Hüsna xanım da daxildir.

Məqalədən aydın olur ki, bu cəmiyyətin vəzifəsi kimsəsiz uşaqları yığmaq, Balkan müharibəsində Anadolu hərbzədələrini toplamaq, onlar üçün iş evi açmaqdır. Burada dairəyə pambıq götürülür, orada hazır süfrələr, dəsmallar, işləmə pərdələr, qaryola taxmaları, geyim qumaşları, tikilmiş və tikilməmiş parçalar, hazır koftalar hazırlanır ki, pambığı əyirmək, bükmək, toxumaq, biçmək, tikmək, nəqş işləmək- bütün bu işlərlə oradakı qadınlar məşğul olurlar.

Bir çox məktəbləri gəzən Azərbaycan heyəti qız məktəblərini, o cümlədən Sultan Muradın hərəmi "Bizim aləm"in öz adına bina etdirmiş olduğu məktəbə də gedirlər. 1400 xanım qızın təhsil aldığı məktəbin yuxarı sinfində türk qızlarına türk müəlliməsinin fransız dərsi keşməsinin də şahidi olurlar.

Bakıda işlərin düzəldiyini xəbər alan nümayəndə heyəti son dərəcə şad olmaqla bərabər Bakıya dönmək istəyir. Şəfiqə xanım yazır ki, bu dəfə ingilislərdən izn almaq lazım gəlir ki, cənab Əlimərdan bəy Topçubaşov onlara azərbaycanlı olduqlarına dair bir vəsiqə verir.

Türkiyədə olduğu müddətdə Şəfiqə xanım Əfəndizadə Əhməd bəylə görüşdüyünü yazır, onun tutultb saxlanması, xəstəliyi barədə ətraflı məlumat verir: "Əhməd bəyin tovqifində də orada idim. Əhməd bəy hənuz səhhət tam kəsb etməmişdi... Mən orada ikən iki dəfə isticvab etmişdilər: nərədə dünyaya gəldiyini, nərədə təhsil gördüyünü, Türkiyəyə nə üçün getdiyini və orada İttihad və Tərəqqi firqəsinə nə vəqt daxil olduğunu təhqiq yoluyla bir takım suallar verdilər".

Burada Əhməd bəylə bağlı bir faktı qeyd etmək istərdim ki, həmin il Parisdə keçiriləcək Versal Sülh konfransında Azərbaycan nümayəndə heyətinin tərkibində Əhməd bəy Ağaoğlu da var idi. Azərbaycan nümayəndə heyəti İstanbula gələn günün səhərisi fransız dilində çıxan qəzetlərin çoxu və xüsusən ermənilərin fransız dilində nəşr etdiyi "Renaissanse" qəzeti Əhməd bəy Ağaoğlunu müttəfiqlərə qarşı qoymuş və türk parlamentində Antantaya qarşı mübarizə aparmış fəal jurnalist kimi təqdim edirdi. Əlimərdan bəy Topçubaşovun Bakıya göndərdiyi hesabatda qeyd edilirdi ki, "İttihad" və "Tərəqqi" partiyasının, xüsusilə "Tələt-Ənvər kabinetinin" bütün günahlarını Əhməd bəy Ağayevin adına yazırlar. Bununla kifayətlənməyən "Renaissanse" qəzeti bütün Azərbaycan və Gürcüstan nümayəndə heyətini "indiserable"-yəni "arzuolunmaz heyət" adlandırır.

Biz bu gün də dünyanın hər bir tərəfinə səpələnmiş ermənilərin analoji şəkildə Azərbaycana qarşı apardıqları kampaniyanın, çirkin əməllərinin şahidiyik.

Məqalənin sonunda da Azərbaycan nümayəndə heyəti barədə məlumat verilir: "Əhməd bəylə tovqif olunanlar 23 şəxs idi ki, bunlar əvvəlki tovqif olunmuşların yanına götürülməyib hərbiyyə nəzarəti nəzdində "Bekər ağa bölüyündə" ayrıca yaşıyordular.

Azərbaycan heyəti-mürəxxəsələri mən İstanbuldan çıxdığım aprelin 4-də hala İstanbulda idilər. Mən onlarla aprelin 3-də görüşdüm. O günü fransızlardan Məhəmmədhəsən bəy Hacınski, Ceyhun bəy Hacıbəyov və Məhərrəmov ismlərilə izn kağızı gəlmişdi! Heyət bir kaç dəfə təkrar müraciət etdiyi üçün bu dəfə artıq müraciətə lüzum görməyib yola düşmək fikrində idilər".

Batuma gəlib orada bir çox faciələrin şahidi olan Ş.Əfəndizadə Bakıya gəlir.

"Təşkilatın qadınlara təsiri" məqaləsində Şəfiqə xanım millətini yaşadan, qəlbini qürur hissi ilə dolduran yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin bir illiyini alqışlayır, müsəlman türk qadınlarının da təşkilatlanmasını arzulayır. Göstərir ki, bir millətin qadınları kişilərlə bərabər hüquq əldə etməmişsə, qadınlar hər hüquqdan mərhum qalırlarsa, o millət irəli gedə bilməz.

Qadın hüquqlarının müdafiəçisi Şəfiqə xanım Əfəndizadə bu məqaləsində "Şimdiyə qədər bütün günahlarımızı, qüsurlarımızı zalım istibdadın boynuna yükləməklə kəndimizi bir növ kəndi aramızda təmizləyə biliyorduq. ...Hürriyyət verildi. Istibdad zənciri qırıldı., Azərbaycan hökuməti təşkil olundu. Şimdi daha diyəcək bi sözümüz qaldımı?!" deyərək bu məsələdə qadınların passivliyini, avamlığını tənqid edərək onları inkişaf etmiş ölkələrin qadınlarının inkişaf tarixlərini öyrənməyə, nəticə çıxarmağa çağırır:

"Şimdilik çalışqan millətlərin qadınlarını iltaqən bir nəzərdən keçirəlim, tarixlərini oxuyalım. Nələr yapmışlar, nələr yapıyorlar və daha nələr yapacaqlardır. Heç olmazsa kəndimizi bir az da olsa onlara bənzədəlim. Onların iyi əməllərini qəbul, fəna əməllərini atmaqla milli adət, milli ənənəat, milli əsas daxilində kəndi qeydimizə qalalım...Artıq hümmət, qeyrət meydanıdır. Çalışan qazanır. Biz də çalışalım da, hər hüququmuza nail olalım".

İstiqlal, cümhuriyyət fədaisi Şəfiqə xanım Əfəndizadənin məqalələrində AXC mövzusu aparıcı rol oynayırdı. "Azərbaycan" qəzetinin 5 iyun 1919-cu il 196-cı sayında dərc olunmuş "Milli bayram və qadınlarımız" adlı məqaləsində isə Şəfiqə xanım mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan olunması, Şərqdə ilk dəfə Azərbaycanda Xalq Cümhuriyyətinin qurulmasından yazır: "Mayın 28-də Azərbaycan istiqlalı sənayi-dövriyyəsi münasibətilə milli bayram təşkil olundu. O günün şərəfindən, təsirindən hər kəs şən, hər kəs məğrur idi".

Istiqlal aşiqi, vətən fədaisi Ş. Əfəndizadə publisistikasında dövrünün problemlərinə əsl jurnalist mövqeyindən yanaşmış, vətənpərvər şəxsiyyət kimi münasibət bildirmişdir. Sovet dövründə də o, jurnalistlik fəaliyyətini davam etdirmiş, 1923-cü ildə "Şərq qadını" jurnalı fəal əməkdaşlıq etməyə başlamış, redaksiya heyətinin üzvü seçilmiş, jurnalın məsul katibi və bədii ədəbiyyat şöbəsinin müdiri olmuşdur. "Şərq qadını" jurnalı yazırdı "Şəfiqə xanım bütün Cənubi Qafqazda ilk Azərbaycan dili müəlliməsi, jurnalisti və yazıçısı olmuşdur" .

Ş. Əfəndizadə demək olar ki, ən az tədqiq olunmuş şəxsiyyətlərdəndir. Ələlxüsus onun cümhuriyyət dövrü publisistikasına az müraciət olunmuşdur. Inanırıq ki, yeni tədqiqatçılar bu irsi araşdırmaqla Azərbaycan mətbuatı tarixinin açılmamış səhifələrinə, tarixin kölgədə qalan fakt və hadisələrinə aydınlıq gətirəcəklər.

Ədəbiyyat

1. "Açıq söz" qəzeti. (1915-1917)
2. "Azərbaycan" qəzeti. (1918-1920)
3. "Dirilik" jurnalı (1914)

А.Г.Азимова

Первая женщина-журналист Шафига Эфендизадэ

Резюме

В статье затрагивается журналистская и публицистическая деятельность Шафиги ханум Эфендизадэ, которая сыграла огромную роль в просвещении и образовании женщин начала XX века, самоотверженно способствовала борьбе за свои права.

Также анализируется заслуги Шафиги ханум Эфендизадэ в просвещении женщин, в привлечении азербайджанских женщин к общественной жизни, к общественно-культурным проблемам того периода, процессам, протекающим в обществе. В статьях, опубликованных в периодических изданиях «Шарги-русс», «Дебистан», «Рахбар», «Мектеб», «Фюгара фюгарасы», «Шарг кадыны», «Дирилик», «Ачыг соз», «Азербайджан», на основе конкретных фактов показывается отношение Шафиги ханум к актуальным проблемам того периода, ее протест против сил, препятствующих развитию общества.

Влюбленная в родину, сторонница независимости Ш.Эфендизадэ в опубликованных статьях, подходила к проблемам того периода как истинный журналист и высказывала истинно патриотическое мнение к происходящим событиям.

A.G.Azimova

First woman journalist Shafiga Khanim Afandizadeh

Summary

This article is about journalist and publicist Shafiga Khanim Afandizadeh

Who worked hard for woman rights, to group them, for informing them to fight for their rights.

Along with Shafiga Khanim Afandizadeh`s effort to inspire women to have education and to be socialized, her attitude to social-cultural problems and other processes taken place in the society have been analyzed.

It is indicated that she protested with facts actual problems make community hard for women in media organizations like “Shergi Rus”, “Debistan”, “Rehber”, “School”, “Foogara Fewzatt”, “Sherg Gadini”, “Dirilik”, “Achig Soz”, “Azerbaijan”.

The patriotic and faithful daughter of her motherland, the brave fighter for freedom Sh. Afandizadeh approached to her articles from the real journalistic positions to her articles from the real journalistic position and evaluated the social problems as a patriotic person.

Rəyçi: filol.f.d., dos. Ə.Ç.Ağamirzəyev

Redaksiyaya daxil olub: 12.09.2017

S.S.MƏMMƏDOVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

MEDİADA KRİMİNAL HADİSƏLƏRİN İŞIQLANDIRILMASINDA ETİK PROBLEMLƏR

Açar sözlər: *KİV, etik kodeks, internet media, kriminal xəbərlər, jurnalist məsuliyyəti, etik problemlər*
Ключевые слова: *СМИ, этический кодекс, интернет медиа, криминальные новости, журналистская ответственность, этические проблемы*
Key words: *Media, ethical code, Internet media, criminal news, journalistic responsibility, ethical problems*

İnternetin meydana gəlməsi, İKT-nın inkişaf sürəti cəmiyyətin bütün sahələrinə, o cümlədən jurnalistikaya da təsirsiz ötüşmür. Şübhəsiz ki, bu gün ölkələrin uğurlu inkişafını elmi-texniki tərəqqi, texnologiyanın gücü və tətbiqi müəyyən edir. Qloballaşma şəraitində dünyaya inteqrasiya edən və ümumi inkişafın bir parçasına çevrilən Azərbaycan, 2013-cü ildə ilk telekommunikasiya peykini fəzaya qaldırmaqla bunu bir daha dünyaya sübut etdi. Bu gün Azərbaycanın informasiya siyasətinin əsasında milli təhlükəsizliyin qorunması, milli informasiya mühitinin yaradılması və idarə edilməsi dayanır. Bu isə medianın üzərinə ciddi və çox böyük məsuliyyət qoyur.

İnformasiya Kommunikasiya Texnologiyalarının inkişafının nəticəsi olaraq, ənənəvi jurnalistikadan yeni media mühitinə keçid, əldə olan imkanlardan maksimum istifadə etməklə cəmiyyətin davamlı informasiya təminatına nail olmaq, beynəlxalq aləmdə Azərbaycanın artmaqda olan nüfuzunun daha da möhkəmləndirilməsinə xidmət etmək və informasiya müharibəsində qalib gəlmək medianın öz qarşısına qoyduğu əsas şərtlərdəndir.

Sadaladığımız əsas meyarlarla yanaşı müasir KİV-in xəbər siyasəti həm də bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq maliyyə imkanları, reklam bazarına çıxış əldə etmək üçün reytinq dalınca qaçmaq məcburiyyəti yaradır. Nəticədə KİV bir qurum kimi yerinə yetirməli olduğu vəzifələri "unudaraq" kütlə psixologiyasına xidmət etmiş olur. Mediada kriminal hadisələrin işıqlandırılmasındakı problemlər də bu baxımdan çox aktualdır. Təəssüf ki, istər elektron, istərsə də çap mediası bu tip xəbərləri tirajlamağa, yəni reytinq və bazar əldə etməyə çalışır. Bir qayda olaraq televiziyalar, radiolar, xəbər portalları geniş kütlənin xüsusi marağını nəzərə alaraq belə xəbərlərin işıqlandırılmasına önəm verirlər. İnsan psixologiyasının neqativ xəbərə meylliliyi nəticədə KİV-in xəbər siyasətinin əsasını kriminal xəbərlərə istiqamətləndirib. Demək olar ki, hər səhər avtomobil idarə edən və ya evində işə getməyə hazırlaşan dinləyicinin radioda ilk eşidəcəyi xəbər, yol qəza hadisələri, yaxud da intihar hadisələri ilə bağlı olur. Amma nəzərə alınmır ki, bu tip xəbərlərin səhər saatlarında efirə verilməsi ümumiyyətlə etik baxımdan yolverilməzdir. Təəssüf ki, burada reytinq yığmaq, daha çox auditoriya toplamaq istəyi peşə etikasını kölgədə qoyur. Nəticədə isə səhər işə, orta və ali təhsil ocaqlarına gedən hər kəsin bu əhval-ruhiyyəyə köklənərək gününü necə başa vuracağı psixoloji nöqteyi-nəzərdən böyük sual doğurur. Bundan başqa, hesab edirik ki, televiziya kanallarında da kriminal xəbərlərə çox yer verilməsi, kriminal verilişlərdə baş vermiş cinayət hadisələrinin təfsilatını incəliyinədək vermək doğru yanaşma deyil. Çünki, əgər jurnalistin kriminal xəbərləri təqdim etməkdə məqsədi auditoriyanı belə neqativ situasiyalar barədə məlumatlandırmaq, bir növ onun gözünü açmaqdırsa, bu xəbərlərin onların psixologiyasına mənfi təsir edə biləcəyini də gərək əvvəlcən düşünsün. Lakin, son illərdə yazılı və elektron KİV-də kriminal xəbərlərə geniş yer ayrılması artıq insanların gözündə ölümü, eləcə də suiqəsd hallarını adi hala çevirib. Nəticədə insanlar gözləri qarşısında ölən

insanın onların yaxın qohumu, tanışı olmadığı üçün bu faciəyə tamamilə biganə yanaşırlar. Eyni zamanda, bu tip xəbərlər insanların şüuraltında özünə yer edərək istənilən konfliktli məqamlarda psixologiyası qeyri-sabit olan hər kəsin ağlına ilk gələn hər gün dönə-dönə eşitdiyi kriminal olayların iştirakçılarının hərəkətlərini təkrarlamaq ola bilər ki, bu da digər bir kriminal olayın baş verməsinə zəmin yaratmış olar.

Son zamanlar ucuz reytinq arxasınca qaçan bəzi xəbər saytları "MTN işi" kimi cəmiyyətə məlum olan mövzu ilə bağlı sensasiyalı məlumatlar yaymaqla peşəkarlıqdan uzaq olduqlarını sübut etdilər və hələ də etməkdə davam edirlər. Bundan əlavə, kriminal verilişlərin sayı artdıqca sanki cəmiyyətin qana olan marağı da artır. Hesab edirik ki, bunun əsas səbəbi kriminal mövzuda olan yazılarda və verilişlərdə günahlandırılan insanların bir növ "qəhrəman" kimi təqdim edilməsidir. Məsələn, ATV kanalının məhşur xəbər aparıcısının "Qardaş bacısını qətlə yetirib" xəbərini izləyiciyə təqdim etdikdən dərhal sonra "gərək bacı da özünü elə apararDı ki, sonda belə olmazdı" kimi münasibət bildirməsi cəmiyyətə, xüsusilə televiziya ekranı qarşısında əyləşən, hələ şəxsiyyət kimi tam formalaşmayan yeniyetmələrə hansı mesajı verir, görəsən. Bəlkə də elə bunun nəticəsidir ki, müasir gənclər içərisində onların dili ilə desək, "vor aləminə" olan maraq, digər sahələrlə müqayisədə daha qabarıq şəkildə gözə çarpır. Səbəb kimi həm də əvvəlki dövrə nisbətən son illər bu hadisələrin KİV tərəfindən daha çox işıqlandırılması ola bilər.

Bildiyimiz kimi sovet dövründə kriminal xəbərlərin (təkcə qəza, intihar hadisələri nəzərdə tutulmur) mətbuatda işıqlandırılması qadağan idi. Bunun bir səbəbi cəmiyyəti sağlam, qüsursuz təqdim etmək idisə, digər səbəb yetişməkdə olan gənc nəslin psixoloji sağlamlığının qeydinə qalmaq idi.

Xəbərə peşəkar yanaşma yoxsa, rertinq daha vacibdir? Əvvəlcə ondan başlayaq ki, hansı kriminal hadisələr xəbər materialı ola bilər? Hər gün ölkəmizdə və dünyada yüzlərcə kriminal olaylar baş verir: yol nəqliyyat hadisələri, oğurluq, intihar, qəsdən adamöldürmə, dələdüzlüq, adam oğurluğu, rüşvətxorluq və s. Bu hadisələr xəbər materialı kimi necə seçilməli və auditoriyaya hansı formada çatdırılmalıdır? Xəbərlərin mahiyyətinin fərqli olduğunu bildirən media eksperti Ələsgər Məmmədli hesab edir ki, hər hansı bir əsgərin zorakılığa məruz qalması və ya öldürülməsi faktı, xüsusilə komandir-əsgər münasibətindən doğan ölüm səbəbi varsa, bu, ictimai əhəmiyyət daşıyır və bu cür xəbərlərdən cəmiyyət xəbər tutmalıdır: "Ancaq davamlı olaraq hər hansı bir sayt yalnız ölüm xəbərlərini paylaşırsa, bu, cəmiyyətdəki real vəziyyəti əks etdirə bilməz. Normalda hər on min və ya yüz min nəfərə ölüm sayı bir nəfərdirsə, xəbərlərdə bu, bəzən 3-5 faizə gəlib çatırsa, demək burada disbalans var. Nəticə etibarı ilə biz elə etməliyik ki, bu xəbərlər cəmiyyətdəki bütün informasiyaları əhatə edən xəbərlər kateqoriyasında olsun və ictimai əhəmiyyət daşısın" (1).

Digər bir tanınmış televiziya mütəxəssisi Zeynal Məmmədli isə qeyd edir ki, "Cinayət verilişlərinin hazırlanması xüsusi hazırlıq tələb edir. Burada müəyyən etik sərhədlər olmalıdır. Əgər sən gənclərin törətdiyi cinayət hadisələri barədə veriliş hazırlayırsansa, o zaman bır sıra etik öhdəliklərə riayət etməlisən. Proqramda gənclərin mənəviyyatına toxunmamağa, onların ləyaqətini alcatmamağa diqqət etməlisən. Əgər məhkəmə prosesi olmayıbdırsa, onları hələ cinayətkar hesab etmək olmaz. Cinayətdə ittiham olunanların gənc və yaxud yeniyetmə olması nəzərə alınmalıdır. Çünki onlar gələcəkdə normal həyata qayıdıb, cəmiyyətin fəal üzvinə çevrilə bilərlər". Ekspert daha sonra bildirir ki, "Buna görə də, cinayət hadisələri efirdə elə təqdim olunmalıdır ki, tamaşaçıları zorakılığa həvəsləndirməsin. Verlişə baxanlara nəticəni yox, səbəbi göstərmək lazımdır ki, onlar cinayət hadisələrinin nəyin nəticəsində baş verdiyini bilsinlər" (2).

Təəssüf ki, sosial jurnalistikanın əsas qollarından hesab edilən kriminal jurnalistika sanki etik kodekslərdən xəbərsizdir və ya burada biznes marağı peşə etikasından daha vacib hesab olunur. Hər gün bu və ya digər dərəcədə onlarla qətl, oğurluq, xuliqanlıq hadisələri baş verir. Amma bütün bunların heç biri jurnalistə hadisələri etik normaları gözləmədən işıqlandırmaq haqqı vermir.

Bəzi verilişlərdə baş vermiş hadisə bütün təfsilatı ilə cinayət törətmiş şəxsin dilindən söylənilir, anbaan az qala nümunə olaraq göstərilir. Sözsüz ki, bu özü də cinayətə meylli insanlarda maraq oyadır. Jurnalistin məqsədi cinayət hadisəsini pisləmək olsa da, amma düzgün seçilməyən format və ya hadisəyə qeyri-peşəkar yanaşma əks effekt verərək cinayətin təbliğinə gətirib çıxarır.

Əlbəttə, yeni medianın insan və cəmiyyətin həyatında oynadığı müsbət rol danılmazdır. İnternetin meydana gəlməsi ilə ənənəvi jurnalistikada yeni mediaya keçid KİV-in operativliyi və insanların fasiləsiz informasiya əldəetmə ehtiyaclarını ödəmək baxımından çox dəyərlidir. Lakin internet medianın tənzimlənməsi xüsusi qanunlarla qorunmadığı üçün xəbərlərin verilməsində jurnalist məsuliyətindən qaçma halları çoxdur. Xüsusilə kriminal xəbərlərin verilməsi, "qışqıran başlıqlar", dəhşət və qan saçan şəkillər birbaşa zorakılıq hallarının təbliğinə xidmət edir.

Bİq.az saytında "Haqqında söz-söhbət gəzirdi..." 3-cü arvadının başını kəsdi" başlığı altında verilən xəbərdə başlıq və xəbərə verilən şəkil jurnalistikanın etik prinsiplərini pozur. Burada mozaikasız verilən qan dolu şəkillər ilk növbədə oxucunu sarsıdır və eyni zamanda, jurnalistin qeyri peşəkar olduğunu açıq şəkildə biruzə verir (3).

Digər bir xəbərdə, 17 sentyab, 2016-cı ildə milli.az saytında verilən "Bakıda maşınla qadını ikiyə bölən 17 yaşlı oğlanın kimliyi bilindi" adlı xəbərdə - "...ötən gecə Nobel prospektində yolu keçmək istəyən 1964-cü il təvəllüdlü Sevda Nəsirova piyada zolağının üzərində "Hyundai" markalı avtomobillə vurulub. Yüksək sürətlə hərəkət edən minik maşını qadını 100 metrə yaxın sürüyüb. Nəticədə qadının meyiti iki yerə parçalanıb" (4).

Başlığı düzgün seçilməyən bu xəbərə 3353 dəfə baxılıb ki, bu da bu qədər oxucunun bir çoxunda sarsıntılara səbəb olmamış deyil. Bundan başqa, bu xəbərdə hadisəni törədən şəxsin yetkinlik yaşına çatmadığı halda onun kimliyi - ad, soyad və ata adı şərti olaraq deyil, məhz olduğu kimi təqdim olunub. Bu isə yenə də jurnalistikanın etik prinsiplərinin pozulması deməkdir. Xəbərə verilən şəkildə qan görüntülənir, mozaikadan istifadə olunmayıb. Əvvəldə qeyd edək ki, 3353 oxucunun bu xəbərdən sonra psixikasında əmələ gələn problemləri və üstəlik nəzərə alsaq ki, onların ailə üzvləri, iş yoldaşları ümumiyyətlə sosial çevrələri var və xəbərin cəmiyyətə ötürdüyü mənfi yükün dərəcəsini təyin etmək çətin deyil (5).

Psixoloq Aysel Hüseynova hesab edir ki, müasir dövrdə çoxumuz mənfi enerjiyə malik olan kriminal xəbərləri hər gün eşitməyə oyrəşmişik: "Neqativ informasiyanın mənimsənilməsi səhhətimizə izsiz keçmir. Qəza, fövqaladə hadisə, terror aktları, qəsd barədə xəbərlərin təsirindən əsəb sistemimiz stress harmonları ifraz etməyə başlayır. Mənfi informasiyanın təsirinə çox məruz qalan insanlarda qərar vermək qabiliyyətinin və koqnitiv proseslərin aşağı düşməsi müşahidə olunur. Hətta az miqdarda olan neqativ də iş qabiliyyətini aşağı salır. İnsan bütün iş günü bu təsirə məruz qalırsa, ürəyində ciddi problemlər, əsəb sisteminin pozulması müşahidə olunur. Daim mənfi informasiya ilə yüklənmək həzm sisteminin pozulmasına, yuxusuzluğa, xroniki yorğunluğa da gətirib çıxarır" (6).

Bu kimi etik pozuntularla "qafqazinfo.az"da yayımlanan xəbərdə də sözügüdən şəxsin yetkinlik yaşına catmaması nəzərə alınmamış, adı, soyadı, ata adı, hətta şəkli verilmişdir. Hələ baş vermiş hadisə araşdırılaraq məhkəmə olmadığı halda, yəni faktın doğruluğu sübut edilmədiyi təqdirdə belə bir başlıq altında xəbərin verilməsi şübhəsiz ki, doğru deyil və etik prinsiplərə ziddir. Əgər baş vermiş hadisədə zəmin dəyişərsə, o zaman həmin yeniyetmə və bacısının, bütövlükdə ailənin aldığı mənəvi-psixoloji zərbənin hüdudunu təsəvvür etmək çətin deyil. Məlumat "Bacısının əri ilə qaçan qız" başlığı altında verilsə də xəbərdən aydın olur ki, fakt təsdiqini tapmayıb (7).

İnternet portallarda demək olar ki, rastlaşdığımız zorlama və ya "əzizləri tərəfindən zorlanma" xəbərlərini hər gün eşitmək, "qışqıran başlıqlar"la bu xəbərləri tirajlamaq təmsil etdikləri xalqı və onun dəyərlərini, müxtəlif yaş qrupunda olan auditoriyanı nəzərə almamaq qeyri-peşəkarlığın göstəricisidir.

Yuxarıda müraciət etdiyimiz nümunələr Azərbaycan mediasında yayımlanan bu tipli xəbərlərin çox az bir hissəsini əhatə edir. Amma xəbər saytlarının ümumi sayını nəzərə alsaq, ortaya çıxan mənzərəni təsəvvür etmək çətin olmaz. Təəssüf ki, hələ yaxşılığa doğru dəyişən heç nə yoxdur. Bu təhlükəli tendensiya davam edir, yenə də "ata qızını zorladı", "bacı qardaşından hamilə qaldı", "müəllim tələbə qızı zorladı" sərlövhəli yazılar Azərbaycan milli mentalitetinə xas olmadığından cəmiyyəti deqeradasiyaya doğru aparır.

Bütün baş verənlərə səbəb olaraq, müasir dünyada mətbuata biznes fəaliyyəti kimi baxılması dayanır - desək, yanılmarıq. Əgər mətbuat sovet dönəmindəki kimi dövlət tərəfindən maliyyələşdirilmirsə, özəl sektor kimi fəaliyyət göstərirsə, onda o, özünə maliyyə imkanları tapmaq üçün bazara işləməyə məcburdur. Beləliklə, bazarın (burada bazar dedikdə KİV məhsulunun alıcısı kimi izləyici, oxucu və s. auditoriyası nəzərdə tutulur) tələblərindən çıxış edərək fəaliyyət göstərir. Məlum məsələdir ki, reklamsız heç bir media qurumu iqtisadi durumunu formalaşdıra bilməz. Amma bütün bunlar ona əsas vermir ki, media etik məsuliyyətdən, ictimai məsuliyyətdən azaddır və peşə kodekslərinin tələbləri onun üçün deyil. Əksinə, mətbuatın üzərində cəmiyyətin informasiya təminatı məsələsi ilə yanaşı onun mənəvi tərbiyəsi, ictimai fikri düzgün yönəltmək vəzifəsi var. Hər bir media orqanı və jurnalist üzərinə düşən məsuliyyəti dərk edərək vicdanlılıq, qərəzsizlik prinsiplərinə əməl etməlidir. Bir çox media ekspertlərinin, Milli Məclis deputatlarının son dövrlərdə internet mediada özünütənzimləməni vacib hesab edərək "onlayn medianın etik davranış Kodeksi"nin yaradılması məsələsini qabartması təqdirəlayiqdir. Çünki cəmiyyətin mənəvi tərbiyəsi daha vacib məsələdir (8).

Sonda onu qeyd edək ki, yaxşı olardı KİV-lər cinayət hadisələrinin xronikasını tamaşaçıya təqdim etməkdənsə, həmin hadisələrin başvermə səbəblərini araşdırsın, ictimai rəyə təsir edə biləcək məqamları tamaşaçıya catdırsın. Bunun üçün psixoloqların, ictimai rəyə, geniş auditoriyaya təsir etmək gücü olan mütəxəssislərin, tanınmış şəxslərin fikirlərini bölüşmək, habelə cəmiyyətdə öncül mövqedə olan, təhsildə fərqlənən gənclərlə bu məsələlərin müzakirəsini təşkil etmək olar. Habelə, vaxtı ilə müxtəlif səbəblərdən hər hansı cinayət əməli törətmiş, lakin islah olunaraq yenidən cəmiyyətdə nümunəvi mövqeyə yiyələnmiş insanlarla geniş auditoriyanı görüşdürmək faydalı olardı.

Ədəbiyyat

1. http://kaspi.az/az/lum-qetl-zorakiliq-soru/
2. http://modern.az/az/news/9602#gsc.tab=0
3.http://big.az/264203-zerdabda_dehsetli_qetl_er_arvadinin_basini_kesdi.html
4. http://news.milli.az/country/470344.html
5. http://sonxeber.az/23780/bakida-masinla-qadini-ikiye-bolen-17-yasli-oglan-tutuldu
6. http://news.milli.az/society/322688.html
7.http://www.qafqazinfo.az/kriminal-5/bacisinin-eri-ile-qacan-qiz-tapildi-165027
8. http://modern.az/az/news/35122/#gsc.tab=0

С.С.Мамедова

Отражение этических проблем в криминальной хронике

Резюме

Роль, которую играет масс медиа в жизни человека и общества невосполнима. С внедрением интернета в медиасферу наблюдается переход с классической журналистики в новые медиа, что предоставляет бесценные возможности в непрерывном получении аудиторией информации.

Но по причине того, что интернет не регламентирован, нередки случаи нарушения журналистами кодекса профессиональной этики. Преимущественно это находит свое отражение в криминальной хронике.

В статье внимание акцентировано на проблеме уклонения журналистами от профессиональных обязанностей, связаное с реконструкцией классических медиа в новые.

S.S.Mamadova

Ethical mistakes in reflection of criminal incidensth

Summary

There is an irretrievable role of mass media for man and society. Introduction of Internet to classic journalism consructed a new level in mass media, like uninterrupted getting information, what is invaluable.

But the fact that professional code of ethics in web isn`t function fluently, there are many cases of journalists` evasion professional responsibilities. This reflects on criminal news the most.

The article mirrors the cases of avoiding professional code of ethics in Azerbaijan, which is due to reorganization of classic mass media in new media.

Rəyçi: filol.f.d., dos. T.S.Yusifov

Redaksiyaya daxil olub: 15.07.2017

M.H.NƏZƏROV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TƏHSİLİN QLOBALLAŞMASI VƏ QLOBAL TƏHSİLİN MAHİYYƏTİ

Açar sözlər: *təhsil, postindustrial cəmiyyət, qloballaşma, millətlərüstü təhsil, trans-milli təhsil, konergensiya, unifikasiya.*
Ключевые слова: *образование, постиндустриальное общество, глобализация, наднациональное образование, транснациональное образование, конвергенция, унификация.*
Key words: *education, post-industrial society, globalization, supranational education, transnational education, convergence, unification.*

Qloballaşma prosesinin gətirdiyi sürətli texnoloji inkişaf və sürət əsrində hadisələrin inkişaf axarının müəyyən edilməsi, onunla bağlı olan müasir təhsil sisteminin yaradılması çox vacib amillərdən biridir.

Qloballaşma şəraitində təhsil qloballaşma proseslərinin inikası, təhsildə gedən dəyişikliklər isə - təhsilin yeni şəraitə adaptasiya etmək cəhdləridir. Qloballaşmanın dövlətlərin təhsil sisteminə təsiri müxtəlif dərəcədə özünü büruzə verir və ölkənin sosiomədəni şəriatindən,texniki inkişaf səviyyəsindən, qloballaşma proseslərinə qatılma səviyyəsindən asılı olaraq müxtəlif nəticələrə səbəb olur. Təhsildə sferasında qloballaşma ilə əlaqədar çox geniş işlənən termin "beynəlmiləşmə" terminidir ki, bu da ilk növbədə dövlətlərin təhsil sistemlərinin bir-birinə yaxınlaşması, onların bir-birinə qarşılıqlı təsir-lərinin güclənməsi deməkdir.Məhz ümumi "oyun qaydaları"ndan istifadə edilməsi təhsil sistemlərinin beynəlmiləşməsini, onların bir-birinə yaxınlaşmasını tələb edir.

Tədqiqatçıların fikirlərinə görə, dünya təhsil məkanı üçün açıq olma təkcə dünya sivilizasiyasının dəyərlərinə qovuşma deyil, həm də yad mədəni dəyərlərin təzyiqi deməkdir. Bu zaman qeyri-ekvivalent təhsil mübadiləsinin neqativ nəticələri çox vaxt əldə edilən müsbət nəticələrdən qat-qat ciddi olur.Bununla əlaqədar hətta "təhsil ekspansiyası"termini də işlədilir.Buna görə də müxtəlif ölkələrin təhsil sistemlərinə birtərəfli şəkildə "sivil" adlanan dövlətlərin ideya və prinsiplərinin şamil edilməsi deyil, müxtəlif ölkələrin təhsil sistemlərinin konvergensiyasından ibarət çoxtərəfli təsirlər məqsədə müvafiq olar. Bu amillər "təhsilin qloballaşması" kimi yeni bir cərəyandan danışmağa əsas verir.Təhsilin qloballaşması beynəlmiləşmənin məkan, kəmiyyət deyil,ilk növbədə keyfiyyət göstəricilərini,müasir sivilizasiyanın təhsil həyatında ümumi cəhətlərin artmasını əks etdirir.

Qloballaşmanın gedişində tədricən "qlobal təhsil" formalaşır. Hazırda qlobal təhsilin iki modeli daha populyardır. Bu modellərin müəllifləri ABŞ filosofları R.Henvi və M.Botkindir. Henvinin fikirlərinə görə, qlobal təhsilin mahiyyəti aşağıdakılarda öz ifadəsni tapır:

- dünyaya qərəzsiz münasibət, yəni dünyaya baxışların müxtəlif olmasının etiraf edilməsi;
- planetin vəziyyətinin dərki;
- kross-mədəni savadlılıq (başqa xalqların mədəniyyətinin anlanması;
- qlobal dinamia haqqında biliklər;
- düşünülmüş seçim.

M.Botkinin modeli R.Henvinin modelini tamamlayır. Burada əsas diqqət fərdin dünyaya şüuraltı adaptasiyadan fəal adaptasiyaya keçid etməsi, hadisələri və onların nəticələrini qabaqcadan görə bilmə və fəal əməkdaşlıq, dialoq, qarşılıqlı anlama məsələləri üzərində cəmləşir. Qlobal təhislin bu modelləri ümumbəşəri ilə lokal aspektləri bir araya gətirməklə hər bir insanın rifahının yerdə qalanların rifahından birbaşa asılı olduğu dünyaya vahid bir tam kimi baxışların formalaşdırılması vəzifəsini qarşıda qoyur (4, s.260).

Postindustrial cəmiyyətlərin formalaşmaqda olan q1obal təhsil sistemində daha iki mühüm hadisə də özünü büruzə verir ki, onların da təbiəti barədə mübahisələr gedir. Söhbət transmilli təhsildən və millətlərüstü təhsildən gedir. Transmilli təhsil mənşə ölkəsinin hüdudlarından kənarda təhsil xidmətlərin təklifinin və onun istehlakçılarının sayının artması ilə səciyyələnən qlobal ali təhsil bazarının yaranması deməkdir. Bu gün müxtəlif dövlətlər tərəfindən tanınan ali məktəblərlə transmilli təhsilin xarici universitetlərin elektron kursları, sahəvi kampuslar, korporativ universitetlər, özəl kommersiya təşkilatları kimi provayderləri arasında kəskin rəqabət gedir. Millətlərüstü təhsilə gəlincə, tədqiqatçılar təhsilin gələcək inkişaf perspektivlərini dünya təhsil məkanının bu invariantı ilə əlaqələndirirlər. Millətlərüstü təhsil insanın dünya məkanından istifadə imkanlarını həyata keçirmək tələbatını ifadə edirsə və dünyada bu zaman kəsiyində qərarlaşmış dəyərlərə uyğun gəlirsə, milli təhsil ayrı-ayrı dövlətlərin tələbatlarını əks etdirir və milli xarakterli ənənəvi dəyərlərə uyğun gəlir (2, s.9).

Millətlərüstü təhsil milli təhsil sistemləri tərəfindən dünyaya təklif edilən elə bir təhsil xidmətlərindən ibarətdir ki,onlar öz məqsədləri, məzmunu və metodlarına görə dünya təsərrüfatçılığının müasir tələbatlarına cavab verdiyindən bütün dünyada tanınır və keyfiyyətli aktual təhsil nümunəsi kimi dünya boyunca yayılır. Millətlərüstü təhsil vətəni olan təhsil kimi inkişaf edir,lakin elə bir təhsil cəhətləri əldə edir ki, onlar əcnəbi tələbələr tərəfindən adaptasiya və ya əlavə hazırlığı tələb etmir. Millətlərüstü təhsilin mənbələrini beynəlxalq təşkilatların xalqlar arasında mədəniyyətlərarası dialoqun, qarşılıqlı yardımın və qarşılıqlı anlamanın inkişaf etdirilməsi ilə bağlı ideyaları təşkil edir (5). Realizm plüralizm xüsusiyyətlərini aldığı şəraitdə təhsilin əsas funksiyası sosiumun sağ qalmasını təmin edən həyata qabil modellərinin formalaşdırılması fəaliyyətidir. Fasiləsiz özünüyaratma prosesində artıq mövcud olan modellərdən istifadə etmək üçün təhsil yalnız öz tarixindən – özünüidentifikasiyadan yararlana bilər. İyerarxik olan ənənəvi təhsil sistemlərindən fərqli olaraq, informasiya cəmiyyətində təhsil sistemi “heterarxikdir”, çünki burada sərt müəyyən olunmuş qaydalar yoxdur. Onun nüvəsini təhsil kommunikasiyaları təşkil edir (6, s. 598).

Hər hansı qərar yalnız bu hal üçün (*ad hoc*) qəbul ediləcək və unikallığı qədər də unikal və təkrarolunmaz olacaq. Deməli, təhsil özinkişaf yoluna çıxacaq. Zənnimizcə, təhsilin özünüyaratma, özinkişaf yoluna qayıtması zəruri olaraq bu fenomenin əzəli məzmununun bərpa edilməsinə gətirib çıxaracaq. Bu məzmun da sosiomədəni reallığın xüsusiyyətləri ilə şərtlənmiş olacaqdır. Deyilənlər təhsilin plüralist xarakter aldığını iddia edə alimlərin (3) fikirlərini təsdiqləyir. Onun sərt unifikasiya edilməsi, pedaqoji konsepsiya və fəaliyyətin sərt standartladşrıılması, monostrateji idarəetmə,inzibatçılıq və s.kimi hallar keçmişdə qaldı. Bir-biri ilə kommunikasiyada olan pedaqoji konsepsiyaların sayı artır, təhsil müəssisələrinin, innovasiya praktikalarının, təlim proqramlarının, metodikaların yeni formaları meydana gəlmişdir. Bu gün təhsil sistemi çoxlu sayda təhsil müəssisələrinin, konsepsiya və strategiyalarının kommunikasiya etdiyi və dəyişkən sosiomədəni reallığa adaptasiya etmək üçün kommunikativ münasibətlərdə öz potensialını daima artıran açıq məkandır. Bu cür başa düşülən təhsil artıq yalnız şərti olaraq sistem adlandırıla bilməklə avtopoyetik (autopoietic) sistemə aid edilə bilər. Başqa sözlə, təhsildə sərt normativ göstərişlərin sayı azalır, nüfuzlu təşkilatların işlədiyi tövsiyələrin, standartların rolu artır. Təhsilin avtopoyetik sistem kimi nəzərdən keçirə biləcəyimiz tövsiyələrə misal olaraq Avropa Parlamenti və Avropa Birliyinin təhsil və hazırlıq məqsədləri üçün Birlik çərçivəsində transmilli mobillik haqqında tövsiyələrini göstərmək olar. Nüfuzlu təşkilatların işlədiyi tövsiyələrin tətbiq praktikası göstərir ki, onlar təhsil iştirakçıları tərəfindən könüllü istifadə üçün nəzərdə tutulan bir davranış qaydası kimi yaradılmışdır.

Bu sənədlər dövlət tərəfindən bəyənilməni tələb etmir və müəyyən müqavilə üzrə tətbiq olunması üçün nəzərdə tutulmuşdur, bir şərtlə ki, onun iştirakçıları öz münasibətlərini bu cür sənədlərə könüllü olaraq tabe etdirməyə razılaşmış olsunlar.Lakin təhsil iştirakçıları

tərəfindən həmin bu tövsiyələrə könüllü əməl edilməsi təhsilin məzmununun təhsil iştirakçısının təhsilin ideyaları haqqında təsəvvürlərinə uyğun gəlməsini nəzərdə tutur.

Deməli, təhsil dəyərləri arasında ziddiyyət də yalnız təhsilin, təhsil dəyərlərinin plürallığının hamılıqla tanınması şərtilə aradan qaldırıla bilər. O.Şpenqlerin, N.Danilevskinin, A.Toynbinin tarixi prosesin rəngarəngliyi ideyasından çıxış edərək biz təhsildə rəngarəngliyin zəruriliyi prinsipini dəstəkləyirik. Bizim fikrimizcə, təhsilin mütərəqqi inkişafı, dinamilkiyi təhsil sisteminin daxili rəngarəngliyinin artması ilə birbaşa əlaqəlidir. Bu,müxtəlif sistemlərin təkcə kənardan enerji, informasiya, maddə axınlarının daxil olması hesabına deyil, həm də öz daxili imkanlarından istifadə hesabına inkişafa qabil olmasını iddia edən konseptual-metodoloji özünütəşkil ideyası ilə səsləşir. Lakin həm fərdi, həm də mədəni özünəməxsusluğun qorunub saxlanması hamının bunun üçün bərabər hüquqlarının olub-olmayacağından, hamının başqasının hüquqlarına, rəngarəng həyat formalarına hörmətlə yanaşıb-yanaşmayacağından asılı olacaqdır. Təhsilşünaslığın mühüm trendrlərindən biri proqnostik fəaliyyət olacaqdır. Bu, təhsil sistemlərinə yeni şəraitə adaptasiya etmək imkanı verməlidir. Qloballaşma prosesləri təhsilşünaslıqdan təhsil sahəsində siyasət və strategiyanın formalaşdırılması məqsədilə təhsil-pedaqoji obyektlərin perspektivlərin haqqında önləyici informasiya əldə etmək üçün tədqiqatların həyata keçirilməsini tələb edir. Söhbət təhsil sahəsində proqnostik əsərlərə olan ehtiyacdan gedir. Söhbət həmçinin yeni, inteqrativ (təhsil+ pedaqogika+proqnostika) bilik sa-həsinin–təhsil-pedaqoji proqnostikanın inkişafından gedir (1, s.261).

Getdikcə mürəkkəbləşən dünyada cəmiyyətin onu bir neçə ildən sonra nələrin gözlədiyini bilmədiyi bir şəraitdə təhsil-pedaqoji proqnostikanın rolu daha da artır, təhsil sistemində proqnozlaşdırmanın yeni metodlarının işlənməsi zərurətini daha da kəskinləşdirir. Təhsil fəlsəfəsi üçün ənənəvi olan metodoloji və qismən də proqnostik funksiyanı hazırda sahəvi elmlər yerinə yetirir. Nəticədə təhsilşünaslıq həyatdan ayrı düşmüşdür. Aydındır ki, təhsil-pedaqoji proqnozlaşdırma müxtəlif elmlərin və metodların qovuşuğunda həyata keçiriləcək, təhsil antropologiyası, təhsil hermenevtikası,təhsil ontologiyası, təhsil semiotikası, təhsil sinergetikası kimi elmlərin nailiyyətləri ilə zənginləşəcəkdir. Bu elmlərdə əldə edilən məlumatlar təhsili təkcə keçmişin və indinin deyil, gələcəyin kateqoriyalarında dərk etmək imkanı verən zəngin empirik və faktoloji material verir. Hətta müasir mərhələdə aydın olmuşdur ki, iqtisadi qloballaşma nəticəsində təhsildə gedən unifikasiya proseslərinə baxmayaraq, heç bir təhsil sistemi dünyanın yerdə qalan hissəsi üçün yeganə təhsil sistemi kimi nəzərdən keçirilə bilməz. Bu fakt dərin bir ziddiyyət yaradır: bir tərəfdən, qloballaşma proseslərinin məntiqinə görə hansısa universal bir təhsil sistemi olmalıdır ki, onun əsasında vahid qaydalar işlənsin,digər tərəfdən də bu model hansısa bir mədəniyyətin məhsulu olmamalıdır, çünki əks təqdirdə o, digər mədəniyyət və cəmiyyətlər tərəfindən qəbul edilməyəcək. Bu modelin əsasında başqa mədəniyyətlərin nümayəndələrinə aydın olan, onlara yaxın olan "universal dəyərlər" də durmalıdır. Çox güman ki, qloballaşma proseslərinə cavab olaraq elə bir təhsil modeli qurulacaq ki, o, millətlərüstü və ya beynəlmiləl təhsildən çox universal bəşəri dəyərlərin təcəssümü olsun.

Deməli, təhsilşünaslıq üçün gələcək təhsilin təkcə məzmun və konseptual hissəsini deyil, həm də təhsilin sosiomədəni ölçüsünü öyrənmək vacib məsələ olacaq. Bu mənada təhsilin ideyasının cəmiyyətin sosial-psixoloji və mədəni-tarixi dayaqlarına uyğun gəlməli olduğunu iddia edən alimlər haqlıdırlar. Lakin təhsilin sosiomədəni şərtləndiyini iddia edən alimlər çox vaxt buna necə nail olmalı məsələsini açıq saxlayır. Mülahizələrində onlar təhsilin ideya və məzmunu məsələsinə toxunmurlar. Bir çıxış yolu qalır ki, bu da təhsilin formal anlamı çərçivələrindən kənara çıxıb fəlsəfi, mədəni-antropoloji, sosial-psixoloji metodları cəlb etməklə təhsili sosiomədəni fenomen kimi nəzərdən keçirmək və beləliklə də təhsili cəmiyyətin mənəvi mədəniyyəti ilə əlaqəsini bərpa etməklə onu dirçəltməkdir. Yalnız müxtəlif metodları inteqrasiya etməklə təhsil kimi mürəkkəb bir fenomenin dərinliklərinə varmaq olar.

Deyilənlərə yekun vuraraq, qeyd edək ki, birincisi, təhsildə baş verən transformasiyaları konseptuallaşdıran rəngarəng nəzəriyyələr ondan xəbər verir ki, sosial həyatın qeyri-səlisliyi, insanlar qarşısında duran problemlərin kəskin dərəcədə dəyişməsi yeni təhsil reallıqlarını izah edə bilən nəzəri və metodoloji konstruksiyaların axtarıb tapılması məsələsini kifayət qədər mürəkkəbləşdirir; ikincisi, qloballaşma dövründə təhsil qloballaşma proseslərinin inikası olmaqla unifikasiyaya uğrayır ki, nəticədə sosiomədəni amillərin nəzərə alınması prinsipial əhəmiyyət əldə edir; üçüncüsü, qloballaşma müxtəlif təhsil sistemlərinin bir-birinə yaxınlaşması zərurətini şərtləndirir; dördüncüsü, qlobal postindustrial dünyada təhsil sistemləri çoxtərəfli və millətlərüstü əlaqələrə keçid etmiş, nəticədə elə qlobal təhsil ilə milli təhsil sistemlərinin çoxpilləli "sahə" və təsisatlara çevrildiyi qlobal təhsil sistemi formalaşmışdır; beşincisi, qloballaşma təhsildə proqnozlaşdırmanın rolunu artırır, təhsil sferasında proqnozlaşdırmanın bir-birini qarşılıqlı tamamlayan yeni metod və prinsiplərin işlənməsi məsələsini aktuallaşdırır.

Ədəbiyyat

1. Баксанский О.Е. Современные стратегии и модели образования//Педагогика и просвещение № 3(15) 2014.
2. Мясников В.А., Найденова Н.Н., Тагунова И.А. Образование в глобальном измерении. М.: ИТИПРАО, 2009.
3. Подгорецкий Ю., Домбровска А. Социальная коммуникация: подходы к выявлению педагогического смысла понятия//Журнал Мир науки, культуры, образования. Выпуск № 5 / 2011.
4. Сластенин В.А. и др. Педагогика. Учеб. пособие для студ. высш. пед. учеб. заведений /Под ред.В.А.Сластенина. М.: Издательский центр "Академия", 2002. 576 с.
5. Тагунова И.А. Развитие наднационального образования в условиях глобализации мирового пространства // Новое в психолого-педагогических исследованиях. 2008. с. 75-84.
6. Шутенко А.И. Концепция самореализации студентов в условиях информатизации вузовского обучения // Современные исследования социальных проблем. Выпуск № 11 (55) / 2015. с. 595-604.

М.Г.Назаров

Глобализация образования и суть глобального образования

Резюме

В статье отмечается актуальность поиска теоретических и методологических конструкций, объясняющих новые реалии в сфере образования и перспективы развития постиндустриального образования в условиях нелинейности социальной жизни, коренной трансформации проблем, стоящих перед людьми. Исследование перспектив в развитии постиндустриального образования позволило автору сделать вывод о том, что в будущем учет социокультурных факторов, сближение систем образования обретет принципиальное значение. Автор обосновывает вывод о том, что в будущем будут актуальны конвергенция ценностей образования, вопросы прогнозирования и разработки новых, взаимодополняющих друг друга методов прогнозирования в сфере образования.

M.H.Nazarov

Education is the essence of globalization and global education

Summary

The article notes the relevance of search theoretical and methodological designs explaining the new realities in the field of education and prospects for the development of post-industrial education in the non-linearity of social life, a radical transformation of the problems facing the people. Study of post-industrial development perspektivv education allowed the author to the conclusion that in the future consideration of socio-cultural factors, the convergence of educational systems will find crucial. The

author substantiates the conclusion that in the future will be actual convergence of values education, forecasting and development of new issues, complementing each other forecasting methods in education.

Rəyçi: fəl.e.d. V.İ.İsmayılov

Redaksiyaya daxil olub: 22.05.2017

G.M.NƏZƏROVA,
G.P.MƏDƏDLİ

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

DİNİ MƏDƏNİYYƏTLƏR SİSTEMİNDƏ TOLERANTLIQ

Açar sözlər: *din, mədəniyyət, etnos, təhsil, dini dünyagörüş, dini inam, dini baxışlar, tolerantlıq*
Ключевые слова: *религия, культуры, этнос, образование, религиозное мировоззрение, религиозная вера, религиозные взгляды, толерантность*
Key words: *religions, the culture, ethnic group, the education, religious outlook religious faith, religious views, tolerance*

Dünya mədəniyyətinin inkişafının çox simalı sahəsində din xüsusi yer tutur. Yer üzərində dinlə tanış olmayan etnos, millət yoxdur. Tarix boyu ictimai-iqtisadi quruluşlar dəyişmiş, bir hakimi və ya dinastiyanı digərləri əvəz etmiş, əsrlərdən əsrlərə insanların ağlı daha da kamilləşmiş, elm və texnika inkişaf etmiş, təbiət qüvvələrini ram etmiş, ictimai dəyərlərə və dünyanı dərk etməyə baxışlar dəyişilmişdir, lakin bütün dövrlərdə həyat faktoru əsas amil olmuşdur. "Din" sözü həm inanlara, həm də inanmayanlara məlumdur.

Əgər biz kimdənsə "din"in nə olduğunu soruşsaq, çox adam belə cavab verəcək: din Allaha inamdır. Bəs onda dini inamların qədim formaları necə olmuşdur? Tarixdən məlumdur ki, ilk ibtidai inamlarda, məsələn, fetişizmdə (insanların ən adi əşyalara fövqəltəbii inamı), animizmdə (mələklərə və ölmüş insanların ruhuna inam), magiyada (fövqəltəbii qüvvələrin köməyi ilə istəklərin həyata keçirilməsi) Allahın varlığına inanmırlar. Tanrı olmayan dinlərə bir sıra şərq dinləri də, o cümlədən, buddizm, konfusiyalıq aiddir. Bundan əlavə, müxtəlif tarixi dövrlərdə müxtəlif xalqlarda Tanrı haqqında düşüncələr çoxobrazlı və çoxtərəflidir. Belə ki, Misir, Vavilon və Romanın qədim dinlərində (çoxallahlılıq – politeizm) "xeyir" və "şər" qüvvəli tanrılar mövcuddur. Qədim İuda mədəniyyətində yeganə Tanrı obrazı – Yaxve politeizmdən (çoxallahlılıq) monoteizmə (təkallahlılıq) keçidin başlanğıcını qoydu. E.ə.I əsrdə Romada yaranan xristianlıq dində vahid üç hissəyə ayrılan Allah obrazını yaratdı: Allah-ata, Allah-oğul, Allah-ruh.VII əsrin əvvəllərində Qərbi Ərəbistanda islam dini yarandı, onun yaradıcısı Məhəmməd peyğəmbər deyirdi ki, Allah birdir. Hələ xristianlıq və islamdan əvvəl e.ə.VI əsrdə Hindistanda buddizm dini yaranmışdı ki, onun üçün də vahid müqəddəsə inam əsas idi, buddizm dininin yaradıcısı Budda idi. Bu üç din–buddizim, xristianlıq, islam dünyəvi dinlər idi, çünki onlar irqindən və milli mənsubiyyətindən asılı olmayaraq insanlara münasibətdə yaranmışdır. Bundan əlavə milli dinlər də vardır ki, onlar da bu və ya digər millətin nümayəndələri tərəfindən təqdim olunmuşdur (iudaizm, induizm, sintoim və s.) (3, s.115-116).

Məlumdur ki, bir çox dinlər daxili mənalarına görə eyni deyildir. Onlar müxtəlif istiqamətlər üçün nəzərdə tutulmuşdur. Məsələn, xristianlıqda katoliklik, pravoslavlıq, protesantlıq, islamda şiəlik, sünnilik, buddizmdə xinayana, mayaxana, tantrizm buna aiddir. Hələ buna müasir dini təriqətlərin çoxobrazlılığını (qeyri-ənənəvi dinlər) da əlavə etsək, nəticədə mədəniyyətin ayrılmaz hissəsi olan dinlə bağlı mürəkkəb sosial təzahürləri müşahidə edə bilərik.

Bəs onda yuxarıda qeyd olunan çoxobrazlı dini forma və təzahürləri vahid, tam element şəklində mədəniyyətdə nə birləşdirir? Bir çoxları belə hesab edir ki, "din" termini latın sözü olan religiodan yaranmışdır və müqəddəslik, dindarlıq mənasını verir. Dindarların nöqteyinəzərindən yanaşsaq, din əlaqə kimi təfsir olunur,yəni ki, insanın fövqəltəbii qüvvələrlə, yaradanla xüsusi əlaqəsi kimi qəbul olunur. Onlar belə hesab edirlər ki, din insanın yarandığı gündən mövcuddur və bütün bəşər tarixi boyu onu müşayiət edir. Fəlsəfə öz elmi yanaşmaları ilə dinin yüzə yaxın müxtəlif növlərini təhlil etmişdir. Psixoanalitik Freyd məsələn, nevrozun

fərdi təzahürləri ilə dini birləşdirmişdir. Filosof Feyerbax hesab edirdi ki, din insanın öz mahiyyətinin yabançılaşdırılmasının (özgələşdirilməsinin) nəticəsidir; o yazırdı: "Hər tanrı təxəyyülün yaratdığı mahiyyətdir, insanın obrazıdır, lakin bu obrazı insan öz daxilində yaratmışdır və onu özündə müstəqil mahiyyət kimi təqdim edir" (1). Sosioloq Dyurkqeym üçün dinin əsas əlaməti müqəddəsliyin mövcudluğu ilə yaranır, bu zaman bizim oxuduğumuz predmet xüsusi mənəvi avtoritet ilə bəxş olunmuşdur.

Beləliklə, mühakimə və mülahizələrin aşkar çoxobrazlılığı təbiət qüvvələrinin və dini səbəblərin toqquşmasında təzahür edərək, bu gün bizə bu məsələdə birmənalı mövqe tutmağa imkan vermir. Din, onunla bağlı olanlardan asılı olmayaraq, dərin düşünməni tələb edir.

Dinin əsasən bir-biri ilə əlaqədə olan üç əsas elementi nəzərə çarpır: dini etiraf (dini inam, dini ideyalar, dünyagörüşlər, əhval-ruhiyyə, hisslər), dini baxışlar (dini hərəkətlər, ibadət, mərasimlər, rituallar, mövqelər, dualar, bayramlar və s.), dinə xidmət edənləri və inananları birləşdirən dini təşkilatlar (dini təşkilatlar, sektalar, kilsələr, icmalar və s.).

Bəs bu üç elementlərdən hansı əsasdır, fundamentaldır, mədəniyyətin tam təzahürü kimi dinin nə kimi özünəməxsusluqları vardır? Bu, əlbəttə ki, dini etirafdır, onda minimum dərəcədə dini axtarmaq lazımdır.

Bəs dini etirafı digər mənəvi formalardan nə fərqləndirir?

Birincisi, vahid olanların (mövcudluğun) ikiləşməsinə əminlik: yer üzərindəki həyat və o biri dünyadakı həyat;

İkincisi, yer üzünə münasibətdə o biri dünyaya inam və onun prioritet rolunun əhəmiyyətliliyinin qabardılmasıdır;

Üçüncüsü isə iki dünyanın münasibətlərinin, qarşılıqlı təsirlərinin, əlaqələrinin mümkünlüyünün etiraf olunmasıdır;

Bu üç əsas zəmin dini təfəkkürün fərqləndirici "özülünü" təşkil edir. Onun özünəməxsusluğu fövqəltəbii dünyanın spesifik xüsusiyyətləri ilə qavranılmasındadır və inananlar tərəfindən abstraksiya, yəni uydurmalar kimi deyil, canlı reallıq, mövcudluq və olanlar kimi qəbul olunur.

O, insana qarşı qoyulmur, lakin görünməz tellərlə onun daxilinə, ruhuna, hisslərinə, emosiyalarına daxil olur və vazkeçilməz reallıq kimi insanın öz daxili "mən"ində yaşayır və digər reallıqlardan daha vacib və mühümdür. O biri dünya hər bir insan tərəfindən özünəməxsus qəbul olunraq onun daxilində yaşayır ki, bu da fövqəltəbii dünya adlanır. O, ona görə fövqəltəbiidir ki, fiziki dünyanın qanunlarına tabe olmur və empirik, mövcudluğa əsaslanmanın xaricində yerləşir, adi hissi-rasional vasitələrlə anlanmağa qadir deyildir.

Çox zaman fövqəltəbii inamı dinin fərqləndirici xarakteri hesab edirlər. Əlbəttə ki, dini inam onu digər dini təzahürlərdən fərqləndirir. Təsadüfi deyildir ki, "dini" və "inanmaq", "inam" və "din" anlayışları qarşılıqlı əvəzolunanlar kimi tətbiq olunur.

İnam xüsusi intellektual hiss və dünyaya müəyyən psixoloji münasibət olub, dinin istisnasız tərəflərini əks etdirir. O, istisnasız şəkildə bütün insanlara, o cümlədən, həm inananlara, həm də inanmayanlara aiddir. İnsanlar elmə, ağıla, inkişafa, kommunizmə inanırlar, xoşbəxtliyə, məhəbbətə, ədalətə, ölümsüzlüyə inanırlar...

Bəs dini inamın özünəməxsusluğu nədən ibarətdir? Hər şeydən əvvəl, o digərlərindən adi insanın əqlinin əlçatmaz olduğu müqəddəs, sirli, o biri dünya haqqında dünyagörüşlərinə görə fərqlənir. İkincisi, dini inam –fövqəltəbii dünyanın real mövcudluğuna inam və onunla ikitərəfli münasibətlərin mümkünlüyünə inamdır. Üçüncüsü isə, fövqəltəbii dünyanın reallığına inam təfəkkürdə şəxsi-psixoloji keyfiyyətlər şəklində yaranır və dini dünyagörüşlərin tam və sözsüz şəkildə həqiqiliyinə əminlikdir (3). Beləliklə, dini inam özünəməxsus biliklərə malikdir və əlavə müzakirə olunan sübutlar tələb etmir.

Dini təfəkkür obrazlar, dünyagörüşlər, əhval-ruhiyyə, hisslər, həyəcanlar, vərdişlər, ənənələr və s. şəklində mövcuddur. Burada dini inamın rasional-hissi elementləri də iştirak edir, lakin prioritet rol emosional-hissi elementə məxsusdur.

Nəzəri səviyyədə dini təfəkkür sistematik imanlılıq formasında təqdim olunur. İmanın məzmunu dini kitablarda (Bibliya, Quran və s.) açıqlanmışdır, kanonlaşdırılmış formullarla (doqmat) dini təşkilatlarda təsdiq olunur. İnamın məzmunu dini biliklərin xüsusi bölmələrində - apologetika və doqmatikanı birləşdirən Allaha inamda və ya teologiyada inkişaf edir. İnam yaradan formullar və sənədlər adi təfəkkürün məzmununun işlənmələrinin nəticəsidir, lakin onlar öz növbəsində verilmiş dini təşkilatların istiqamətləri üzrə gündəlik dini dünyagörüşlərə güclü təsir edir.

Dünya sülhünün təmin olunması perspektivindən dini tolerantlığın gələcəyinə dair proqnozlar verilə bilməsi, onun beynəlxalq aləmdəki təşəkkül prosesini müxtəlif cəhətlərdən tədqiq və təhlil etmək, bu istiqamətdə doğru metodologiya və strategiya təyin etməklə mümkündür.Şübhə yoxdur ki, dinlərarası sülh, dini tolerantlıq ənənələri ilə zəngin olan bölgə və ölkələrin tarixi təcrübəsi din-inanc fərqliliklərinə dayanan təzyiq, qarşıdurma və münaqişələrin həlli üçün böyük əhəmiyyət daşıyır.

Xüsusilə son bir əsrdə hikmət və əxlaqi dəyər kimi tolerantlığı dünyanın itkisi adlandırmaq heç də mübaliğə olmaz. Dini, irqi, etnik fərqliliklərə qarşı anlayış və hörmətin universal dəyər olaraq təşviq edilməsi istiqamətində bir çox nüfuzlu beynəlxalq təşkilatın apardığı fəaliyyətlər bu boşluğun açıq göstəricisidir.

Bunu diqqətə aldıqda çoxsaylı millət, din və konfessiyaların sülh şəraitində birlikdə yaşamasına dair uzun tarixi təcrübəsinə əlavə olaraq hazırki siyasi-ictimai istiqaməti ilə özünəməxsus dini tolerantlıq modeli formalaşdırmış Azərbaycanın bu tarixi mirasının araşdırılması dünyada din, etnik kimlik və irq əsaslı münaqişələrin həllinə öz töhfəsini verə bilər. Azərbaycanın daxili və xarici siyasətində sülhün təmini və bərpası istiqamətində atılan mühüm addımlar, bununla bağlı olaraq millətlərarası və dinlərarası dialoqun inkişafına verilən böyük önəm sayəsində, son dövrlərdə beynəlxalq aləmdə Azərbaycanın dini tolerantlıq modelinin tədqiqinə, nümunə götürülməsinə və yayılmasına dair artan təkliflər müşahidə olunur.

Azərbaycanda dini tolerantlığa dair statistik göstəricilər həm əhalinin böyük əksəriyyətini meydana gətirən müsəlman məzhəbləri, həm də müsəlmanlarla digər din mənsubları arasındakı əlaqələrin qarşılıqlı hörmət üzərində qurulduğunu bariz şəkildə göstərir. Azərbaycanda müsəlman əhalinin digər din mənsublarına qarşı münasibətinin göstəriciləri də, ölkənin dini tolerantlıq modeli kimi qəbul edilməsinə əsas verəcək səviyyədədir.

Azərbaycan tarixən fərqli dövrlərdə müxtəlif dini ənənələrin və konfessiyaların mənsublarının yaşadığı və ya sığındığı bölgə olduğuna görə müxtəlif dinlər birlikdə yaşama təcrübəsini formalaşdırmaqla yanaşı, eyni zamanda xalqın düşüncə tərzinin və dünyagörüşünün təşəkkülündə də rol oynama imkanına sahib olmuşdur. İslamaqədərki tarixi dövründə müxtəlif bölgələrində xristianlığın və atəşpərəstliyin yayıldığı Azərbaycanda ilk dəfə İslamla birlikdə əhatəedici dini düşüncə yayılmağa başlamış, buna görə də keçən 14 əsrdə Azərbaycan xalqının milli-mədəni irsinin təşəkkülündə İslam digər dinlərlə müqayisə olunmaz şəkildə təsir etmişdir.

Quranın digər dinlərin müqəddəs və dəyərinə qarşı ümumi prinsipləri müsəlmanların qeyri-müsəlmanlara qarşı münasibətinin əsas çərçivəsini də təyin etmişdir. Bu mənada Quran bütün müsəlmanları qeyri-müsəlmanların etiqadlarına və müqəddəslərinə qarşı tolerant olmağa, mənfi münasibət göstərməməyə çağırmışdır. Dini kimliyinə İslamın rəng verdiyi dini tolerantlıq nümunəsi Heydər Əliyev Fondunun dəstəyi ilə ölkə daxilində olduğu kimi respublikadan kənarda da nümayiş etdirilir.

Milli-dini mənsubiyyətinin və siyasi təmayüllərinin vəhdəti kimi Azərbaycanın dini tolerantlıq modelinin əsas göstəricilərinin bayrağın üç rəngində kodlaşdırıldığını irəli sürmək yəqin ki, mübaliğə sayılmaz.

Nəhəyat göstərilənlərdən belə nəticəyə gəlmək olar:

1. Din–mədəniyyətin xüsusi təzahürü olub, reallığın dərk olunması və ona münasibətdə insan təxəyyülünün mühüm formalarındandır.

2. Dünyagörüş və dünyanı dərketmə dinin spesifikasını təşkil edir, həmçinin, insanın fövqəltəbii qüvvələrə inamının və onlara qarşı hisslərinin təzahürüdür.

3. Dinin inkişaf etmiş formalarında sosial təzahürlər özündə dini təfəkkürü, dini ibadəti və dini təşkilatları birləşdirir.

Ədəbiyyat

1. Дюркгейм Э. О разделении общественного труда. М.: Наука, 1991.
2. Nəzərov M.H., Şərifov T. Mədəniyyət və şəxsiyyətin mənəvi aləmi. Bakı, 2004.
3. Nəzərov M.H., Babayeva A.R. Mədəniyyət və təhsilin ümumi əsasları. Dərs vəsaiti. Baki: Mütərcim, 2016.
4. Məmmədov F.T. İdarəetmə mədəniyyəti: xarici ölkələrin təcrübəsi. Dərs vəsaiti. Bakı: Apostrof, 2013.
5. Məmmədov F.T. Kulturologiya, mədəniyyət, sivilizasiya. Bakı, 2016.
6. Əzizova E. "Azərbaycan tolerantlıq modelinə təsir edən dini-mədəni amillər". İlahiyyat fakültəsinin elmi məcmuəsi №24, Bakı, 2015. s.113

Г.М.Назарова, Г.П.Мададлы

Религиозная толерантность в системе культуры

Резюме

В статье испытания на национально-духовные ценности Азербайджанского народа, о единстве происхождения государство-общество прав человека на переднем плане, что находит свое отражение в урегулировании отношений людей и религий в будущем, на протяжении тысячелетий.

G.M.Nazarova, G.P.Madadli

Religious culture and tolerance

Summary

In the article, the origin of the state-society relations in the forefront of human rights is reflected on the national and spiritual values of the Azerbaijani people, the unity of the people and the religious test filter for thousands of years.

Rəyçi: prof. İ.N.İsayev

Redaksiyaya daxil olub: 02.06.2017

T.Ə.QULİYEVA

Mingəçevir Dövlət Universiteti
(Mingəçevir şəh., D.Əliyeva küç., 21)

ALBAN XRİSTİANLIĞI VƏ QARABAĞ: OĞURLANMIŞ TARİX VƏ MƏDƏNİ SƏRVƏTLƏR

Açar sözlər: *Alban Apostol Kilsəsi (AAK), Maarifçi Qriqori, Müqəddəs Qriqoris, Nerses Bakur*
Ключевые слова: *Албанская Апостольская Церковь (ААЦ), Григорий Просветитель, Святой Григорис, Нерсес Бакур*
Key words: *Albanian Apostolic Church (AAC), Gregory the Illuminator, St. Grigoris, Nerses Bakur*

Bu gün, tarixi falsifikasiyaya əsaslanan və "timsah göz yaşları ilə tərənnüm olunan" erməni təbliğatının Qərb təfəkküründə illüziya yaradaraq sağlam fikirlərə hakim kəsilməsinin əsas səbəbi ermənilərin "xristian" faktorundan, təxribat məqsədi ilə "bacarıqla" istifadə etməsidir. Müasir Azərbaycanda yaşayan, alban həvari kilsəsinin ənənəvi mənsubları olan və ümumi sayları 10 min nəfər təşkil edən udinləri (Azərbaycanda 4 min nəfər) nəzərə almasaq, bütövlükdə islam əhli olan azərbaycanlılar itirilmiş, daha doğrusu, oğurlanmış alban mədəniyyətini, alban-apostol arxivini, alban ruhunu dini təəssübkeşlik, dini heysiyyat və "etnik-dini renessans" baxımından deyil, Azərbaycan adlanan coğrafi məkanın qədim və erkən orta əsrlər tarixinə, faktiki olaraq sahib olmaq üçün arayır. Beləki, əbədi olaraq islamı tanrı həqiqətlərinə aparan ən möhtəşəm yol kimi qəbul etmiş müsəlman azərbaycanlıların kütləvi şəkildə alban-həvari qurbangahına (altar) qayıtması mümkün deyil. Lakin biz azərbaycanlılar müasir dinimizdən, dilimizdən və etnik mənsubiyyətimizdən asılı olmayaraq öz tariximizə sahib olmalıyıq, onu oğru ermənilərin "tarix zindanından" azad etməliyik. Bu tarixi vəzifənin ən vacib məqamları isə Alban kilsəsinin həqiqi mahiyyətini bütün dünya da nümayiş etdirməkdir.

VII-VIII əsrlərdə Qafqazda islam ideologiyasının bərqərar olması Yaxın Şərqdə xristian arealını qərb istiqamətində "daraltdı" və o vaxtdan xristianlığın sərhədləri regionda epizodik, yaxud anklav xarakteri kəsb etməyə başladı. 1453-cü ildə Konstantinopolun süqutundan sonra isə isavi areal regionda kilsələr, yepiskopatlıqlar, katalikosatlıqlar və məhdud dini icmalar miqyasına qədər kiçildi. Belə məhdud "dini anklavlardan" biri də Qarabağın dağlıq hissəsi idi. Burada isaviliyi təbliğ edən əhali qədim xristian-albanların nəsilləri idi. Kitab əhli, ibrahimi ideologiyanın daşıyıcıları kimi qiymətləndirilən və buna görə də yeni formalaşan tolerant ərəb sivilizasiyasından xüsusi imtiyazlar almış Alban Apostol, Erməni Qriqorian və Gürcü Pravoslav kilsələrinin simasında Cənubi Qafqazın xristian icmaları öz dini ənənələrini inkişaf etdirmək üçün tarixi imkan əldə etdilər. Erməni kilsəsi bu tarixi fürsətdən maksimum səmərəli istifadə etmək məqsədi ilə, ona üzvi şəkildə mənsub olan xüsusi canfəşanlıqla və sınaqdan çıxarılmış fitnə-fəsadla hərəkətə keçdi. Bu fitnə-fəsadın bu günə qədər davam edən tarixi senarisi ilə tanış olanda ermənilərin "tarixi faktlar" adlandırdıqları mif, hətta nağıl üslubunda saxta toxumalar bir-birini təkzib edir.

Əvvəlcə ermənilərin bütün dünyaya car çəkdikləri, az qala Roma imperiyasını belə kölgədə qoymuş üzdəniraq "Böyük Ermənistan" anlayışına aydınlıq gətirək. Əslində, tarixdə Armeniya, xüsusilə də "Böyük Armeniya" adlı tarixi, coğrafi məkan olmayıb. Ümumiyyətlə qədim tarixdə, tarixi, etnik-siyasi və coğrafi sərhədləri təyin edən xəritələr olmayıb. Yeganə belə xəritə "Peytinqer cədvəli" adlanan və e.ə. I əsrə aid olan 6,75 x 0,34 ölçüləri olan xəritədir. Burada əsasən 555 şəhər, onlara aparan yollar və 3500 görməli yerlərin adı qeyd olunub. Xəritədən çox o cədvəli, yaxud sxemi xatırladır və bu təbiidir. Yer kürəsinin ideal quruluşunu təsvir etmək üçün mütləq ona kosmik yüksəklikdən baxmaq lazım idi. Bu texniki bacarığa isə insanlar XX əsrdə yiyələniblər. Beləliklə, Peytinqer cədvəlində "Armeniya" adlı

tarixi, yaxud coğrafi bir anlayış yoxdur. Deməli, bu gün özlərini "erməni", daha doğrusu "hayk" adlandırıan bir "etnik müəyyənsizlik" özünü təsdiq etmək üçün belə bir adı "kəşf etməli idi". Beləliklə, dünya tarixşünaslığında istifadə olunan "Armeniya" ifadəsi qədim və orta əsrlərin qlobal tarixinə sonradan əlavə olunmuş qoşmadır. Ermənilər özlərini tarixdə ilk dəfə xristianlığı dövlət səviyyəsində qəbul etmiş xalq elan ediblər və bu hadisəni Parfiyalı Maarifçi Qriqorinin (252-326) adı ilə bağlayırlar. (5, 3, 20) Onun bütün dünyada "Parfiyalı maarifçi" kimi tanınmasına baxmayaraq, anadan olduğu və monaxlığı qəbul etdiyi yer "Böyük Armeniya" kimi göstərilir. Orijinal bir şey yaratmaq qabiliyyəti olmayan hayklar, o dövrdən təqlid etməyin ustaları kimi tanınmışlar. Xristianlığın, guya, Armeniyada qəbul edilməsini, az qala Qolqofa hadisələri kimi dramatikləşdirən ermənilər "Asroena ssenarisini" (V Abqar Ukkamanın – e.ə. 4-7 və e. 13-50 illərində Osroena hökmdarı olduğu dövrdə İsa Məsihlə yazışmaları, apostol Fomanın göndərdiyi 70 apostoldan biri olan Faddeyin onu sağalmaz xəstəlikdən qurtarması və buna görə xristianlığı Osroenada dövlət səviyyəsində qəbul etməsi) "rimeyk" etməyə başladılar. Onlar ssenariyə daha çox personajlar əlavə etdilər. Faddey rolunu Qriqoriyə, Abqar rolunu isə qondarma erməni çarı III Tiridata verdilər. Doğrudur, İsa Məsih canlı personaj kimi bu ssenaridə iştirak etməmişdi. Lakin sonra (302-ci ildə) Qriqoriyə nazil olaraq "guya ilk erməni kilsəsinin məhz Eçmiədzində inşa olunmasını işarə etmişdi". Ssenarini isə əslində mövcudluğu şübhə doğuran, guya IV, yaxud V əsrdə yaşamış, əlbəttə ki, erməni tarixçisi Aqafangel yazmışdır. Senaridə qeyd olnur ki, Qriqorinin bütün əsli-nəsli ermənilər tərəfindən məhv edilibmiş. Özü isə erməni çarı III Tiridat tərəfindən 15 il, ermənlilərin "Hor Virap" adlandırdığı quyuda saxlanmışdır. Guya, 15 ilin zülmündən sonra, birdən-birə azad edilmiş, erməni çarını sağalmaz xəstəlikdən qurtarmış və ona olmazın əzablarını verən bir xalqı maarifləndirməyə başlamışdı (1, s.132-137). Ermənilər Türkiyə ilə sərhəddə Ararat vadisində "Müqəddəs Qriqorini" 15 il qaranlıq quyuda saxlamları şərəfinə "Hor Virap" (Dərin quyu) adlı monastır qurmuşlar.

Beləliklə, Parfiyalı Qriqoriyə sahib olan erməni iştahası "yiyəsiz görünən hər şeyə sahib olmaq" strategiyasını sınaqdan çıxarmağa başladı. İndi Albaniyaya iddia etmək üçün nağıllar və miflər yaratmaq, Albaniya tarixini "özəlləşdirmək" vaxtı gəlib çatmışdı. Odur ki, "Erməni təqlidyamı" bütün gücü ilə işə düşdü.

Əslində Albaniya həvari kilsəsinin tarixi I əsrin II yarısından başlayır və Müqəddəs Yeliseyin (Yelişa) adı ilə bağlıdır. Erməni mənbələri isə guya Armeniyada xristianlığın 301-ci ildə, Albaniyada isə 12 il sonra, 313-cü ildə qəbul olunduğunu iddia edir. Albaniyada xristianlığın dövlət səviyyəsində qəbul edilməsi Urnayrın adı ilə bağlıdır. İ.M.Dyakonovun (1914-1999) redaktəsi ilə 1983-cü ildə dərc olunmuş "Qədim Dünya tarixi" kitabında Parfiya Arşakiləri nəslindən olan Urnayrın hakimiyyəti dövründə Albaniyada xristianlığın dövlət səviyyəsində qəbul edilməsi haqqında məlumat verilir, lakin Roma-Sasani müharibələrində iştirak etmiş və xristianlığı dövlət səviyyəsində qəbul etmiş bir hökmdarın, nədənsə dəqiq hakimiyyət illəri göstərilmir. Mücərrəd olaraq 370-ci illər qeyd olunur. Digər tərəfdən məlumat verilir ki, Urnayr Müqəddəs Qriqori tərəfindən 313-cü ildə xaçaçuran edilmiş və xristianlığı Albaniyada rəsmi dini ideologiya elan etmişdir (3, s.201-220). Amma nədənsə, guya Armeniyada xristianlığı dövlət səviyyəsində qəbul etmiş III Tiridatın hakimiyyət illəri (287-330) dəqiqliyi ilə göstərilib.

Əslində ermənilər xristianlığı albanlardan çox-çox sonra qəbul etmişlər, VIII əsrin əvvəllərində Alban tarixçisi Musa Kələnkətlinin "Alban tarixi" əsərini və Ərəb xəlifəsi Əbd əl-Malikin (685-705) qəzəbinə düçar olmuş Alban katalikosu Nerses Bakurun (689-706) arxivini ələ keçirdikdən, orada müvafiq dəyişikliklər apararaq, erməni dilinə tərcümə etdikdən, orijinalı isə Tərtər çayına atdıqdan sonra, ermənilərin əl qolu açıldı. Dövriyyəyə qondarma "Böyük Ermənistan", EAK (Erməni Apostol Kilsəsi), "erməni dini mərkəzləri", "erməni kilsələri" kimi anlayışlar buraxıldı (4, s.455-464). Professional erməni falsifikasiyaçıları Alban katalikosunu Ərəb xəlifəsinə satmış Erməni katalikosu İlyanın (703-717)

"xəbərçilik qabiliyyətinə" müqəddəslik donu geyindirmək məqsədi ilə Alban tarixçisi Musa Kələnkətlinin və əslən Gəncədən olan alban mütəfəkkiri və ilahiyyatçısı Muxtar Qoşun (1120-1213) dili ilə, guya Qafqazın kilsə ehkamlarına xəyanət etmiş alban katalikosuna qara yaxırlar və iddia edirlər ki, guya Xalkidon (ind. Kadıköy) məclisinin (451) müddəalarını (İsa Məsihdə həm ilahi, həm də insani mahiyyətin tanınmasını iddia edən kilsə prinsipi, İsanın yalnız ilahi mahiyyətini qəbul edən "monofizitin" ideoloji opponenti kimi çıxış edir) qəbul etmək bağışlanmaz bir günahdır. Əslində erməni kilsəsi dəfələrlə, siyasi məqsədlərə çatmaq üçün öz mahiyyətini dəyişib, gah monofiziti, gah da diofiziti dəstəkləyib.

Erməni saxtakarlığı ilk dəfə Dağlıq Qarbağa Alban Apostol Kilsəsinin (AAK) ilk katalikosu olmuş Qriqorisin adı ilə müdaxilə etməyə başladı. İeremonax Aleksiy Nikonorov "Pravoslav ensiklopediyasında" Müqəddəs Qriqoris haqda yazır: Müqəddəs Qriqoris Türkiyədə Kappadokiya Qeysəriyyəsində (müasir Kayseri – Türkiyə) anadan olmuş, Parfiyalı Maarifçi Qriqorinin nəvəsi, Vrtanesin oğludur. Albaniyada xristianlığın yayılmasında böyük xidmətlər göstərmişdir. Mübahisəli versiyalara görə, atəşpərəstlər tərəfindən öldürülmüşdür (2, s.7-8.). Nəşi Qarabağa gətirilmiş və indiki Xocavənd rayonu ərazisində dəfn edilmişdir. 389-cu ildə Alban hökmdarı III Mömin Vaçaqannın (487-510) göstərişi ilə Qriqorisin qəbri tapılmış və bu yerdə hökmdarın əmri ilə Amaras adlanan monastır inşa olunmuşdur (6, s.86-87). Göründüyü kimi, bir dənə də olsun erməni iştirakı yoxdur. Erməni mənbələri, həmçinin məlumat yayır ki, guya Qarabağda hərbi əməliyyatlar zamanı Amaras məbədi Azərbaycan hərbi birləşmələri tərəfindən dağıdılmışdır. Bu məlumatla ermənilər Amaras məbədinə qeyri-qanuni mənsubluqlarını təsdiq etməyə çalışırlar.

Vəng yaxınlığında yerləşən Qanzasar məbədi isə Albaniya knyazı, 1261-ci ildə Monqol şahzadəsi Arqun ağa tərəfindən Qəzvində edam olunmuş Həsən Cəlalüddövlə (1214-1261) tərəfindən 1216-1238-cı illərdə inşa etdirilmişdir. Erməni saxtakarlığı onu erməni knyazı adlandırır, lakin adının nə üçün Həsən Cəlal olmasını nədənsə izah etmir. İslam, yaxud "türk cilalı" adları orta əsrlərdən bəri yalnız Qafqaz albanlarının nəsillərinin nümayəndələri daşıyır (Məsələn, Cigərxanyan, Köçəriyan, Allahverdiyan, Qəndilyan, Babayan, Balayan və s.). Ərəb mənşəli adların qəbul edilməsi, ərəblər tərəfindən kitab əhli kimi imtiyazlar almış və öz dini inanclarını qoruyub saxlamış albanların ərəblərə göstərdiyi nəcib cavab hərəkəti idi.

Kəlbəcər rayonundan 29 km şərqdə yerləşən daha bir Orta əsr Alban abidəsi Xudavəng monastırıdır. VII əsrdə albanlar tərəfindən inşa olunmuş, XIII əsrdə Həsən Cəlalüddövlə tərəfindən restavrasiya edilmişdir. Eçmiədzin, yaxud Vaqaraşapat məbədinə gəldikdə isə, 303-cü ildə Parfiyalı Qriqori tərəfindən taxtadan inşa olunması, 303-484-cü illərdə erməni katalikosluğunun mərkəzi olması iddia olunsa da, burada mövcud olan bütün tikililər IX-XIX əsrlərdə, xüsusilə də erməni katalikosluğunun 1441-ci ildə, Qaraqoyunlu hökmdarı Cahanşahın (1435-1467) icazəsi ilə Adanadan Üçkilsəyə, yaxud "Üç müəzinə" köçürülməsindən sonra inşa olunmuşdur. Bu gün Qarbağda mövcud olan yeganə erməni məbədi 1887-ci ildə Şuşada inşa olunmuş və yalnız 33 il (1887-1920) fəaləyyət göstərmiş Xilaskar Məsih (Kazançetsots) kilsəsidir.

1836-cı ildə Alban Apostol Kilsəsi ləğv edildikdən sonra 1909-1910-cu illərdə Rus Pravoslav kilsəsinin Müqəddəs Sinodu Eçmiədzin Sinoduna və İrəvan erməni-qriqorian konsistoriyasına, onlara tabe olan eparxiyaların arxivlərini məhv etmək icazəsi verdi (7, 10, 89). Amma erməni kilsəsi artıq buna qədər bütün izləri məhv etmişdi. Alban tarixini, onun dini-mənəvi sərvətini, Qafqazı bəzəyən alban dini arxitekturasını tarixi saxtakarlıq zindanına salmışdı.

Bu gün xalqımızın qarşısında duran tarixi vəzifə, təkcə Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi və ərazi bütövlüyünün bərpa edilməsi ilə bitmir. Biz əsrlər boyu erməni əsrliyində qalmış xristian alban mədəniyyətini azad etməli və onu öz tarixi sahiblərinə qaytarmalıyıq.

Ədəbiyyat

1. Гаджиев М. С. Блеф о святом Георгии, или Христос — сын Тенгри-хана (об очередной фальсификации истории и культуры тюрков) // Этническая история тюркских народов Сибири и сопредельных регионов. Омск, 1998.

2. Геюшев Р. Б. О могиле Григориса, католикоса Кавказской Албании. Баку, 1970.

3. История Древнего мира / Под ред. И. М. Дьяконова, В. Д. Нероновой, И. С. Свенцицкой. 2-е изд. М., 1983. Т. 3.

4. Кавказская Албания // Православная энциклопедия. М., 2000. Т. 1.

5. Каланкатуаци М. История страны Алуанк. Кн. 3.

6. Никоноров А. Григорис Албанский // Православная энциклопедия. Т. XIII. М.: Церковно-научный центр «Православная энциклопедия», 2006. 752 с.

7. ЦГИА, фонд 821, опись № 10, дело 89.

Т.А.Гулиева

Албанское христианство и Карабах:
украденная история и культурные богатства

Резюме

Статья посвящена истории Албанской Апостольской Церкви (ААЦ), по воле исторических обстоятельств, попавшей под влияние армянского каталикосата. На основе реальных исторических источников раскрывается истинная сущность албанской культурно-религиозной традиции и разоблачается армянская историческая фальсификация, без стыда объявившая албанские культурно-традиционные ценности армянскими.

T.A.Guliyeva

Albanian Christianity and Karabakh:
stolen history and cultural wealth

Summary

The article is devoted to the history of the Albanian Apostolic Church (AAC), by the will of historical circumstances, which fell under the influence of the Armenian katalikosata. On the basis of real historical sources, the true essence of the Albanian cultural and religious tradition is revealed and Armenian historical falsification is unmasked, which without shame has declared the Albanian cultural and traditional values Armenian.

Rəyçi: siy.e.f.d., dos. E.Cəfərova

Redaksiyaya daxil olub: 11.05.2017

N.D.ZEYNALOV
tarix üzrə fəlsəfə doktoru
e-mail: nizami.zeynalov.77@mail.ru

R.K.MƏMMƏDOV

Mingəçevir Dövlət Universiteti
(Mingəçevir şəh., D.Əliyeva küç., 21)

AZƏRBAYCAN ALBANLARININ QRİQORİANLAŞDIRILMASI PROBLEMİNƏ DAİR

Açar sözlər: *Albaniya, qriqorianlaşdırma, Alban kilsəsi, Üçmüədzin*
Ключевые слова: *Албания, григорианизация, Албанская церковь, Эчмиадзин*
Key words: *Albania, gregoryanization, Albanian church, Uchmuadzin*

Azərbaycan Albaniyasının etno-mədəni irsi ilə bağlı problemlərin öyrənilməsi vətən tarix-şünaslığında böyük aktuallıq kəsb edir. Xüsusilə, hazırkı dövrdə üzdəniraq Ermənistan Respublikasının ərazimizin bir həssəsini faktiki işğal altında saxlaması, Azərbaycanın tarixi torpaqlarına iddiaları, xalqımızın əsrlər boyu yaratdığı tarixi-mədəni irsə sahib çıxmaq cəhdləri problemin aktuallığını daha da artırır. Bir neçə il bundan öncə erməni "alimlərinin" Ağdam ərazisində Tiqranokert axtarışları, yaxud 2007-ci ilin 3-5 sentyabrında "Qafaqz Albaniyasının etno-mədəni irsi" adlı ermənisayağı "beynəlxalq konfrans" təşkil etmələri ermənilərin Azərbaycanın tarixi-mədəni irsinə sahib çıxmaq cəhdlərinin bariz nümunələrindəndir. Bu mənada Azərbaycan Albaniyasına aid bu və ya digər problemin araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, 642-ci ildə Nahəvənd döyüşündən sonra ərəb ordularının Sasani imperiyasının şimal əyalətlərinə, o cümlədən Cənubi Qafqaza gedən yolu açılmış oldu. Ərəb istilası tarixi Azərbaycanın şimalında yerləşən Albaniya dövlətinn taleyində silinməz iz buraxdı. İstilalar ölkənin siyasi-iqtisadi həyatına təsir etdiyi kimi, onun dini və etnik vəziyyətindən da yan keçmədi. Bildiyimiz kimi, ərəblər işğal etdikləri ölkələrin yerli əhalisini dini vəziyyətinə görə iki qismə - "Kitab əhli" olanlara, yəni vahid Allaha inananlara və "Kitab əhli olmayan"lara, yəni çoxallahlılığa inananlara ayırır, onlara müxtəlif münasibət bəsləyirdilər. Məlum olduğu kimi, ərəb işğaları dövründə Arran (Albaniya) əhalisi "Kitab əhli" olanlara aid edilirdi. Albaniyada dövlət dini xristianlıq dini idi və ölkənin xeyli ərazisində bu din özünə yer tuta bilmişdi. Buna görə də işğalın ilkin mərhələsində Albaniyada yerli əhalinin dini görüşləri təqib olunmurdu. Azərbaycanın cənubu ilə müqayisədə onun şimalında islam dini çox zəif yayılırdı və əhalinin müsəlmanlaşdırılması prosesi burada uzun müddət davam etdi. Ümumiyyətlə, Cənubi Qafqaz vlayətlərində əhalinin dini görüşlərinin kəskin təqib edilməməsinin bir səbəbi də ərəblərin bu regiona mühüm strateji meydan kimi, yəni, özünün əsas rəqibi olan Bizansa qarşı hərbi əməliyyat meydanı kimi yanaşmasında idi (2, s. 87). Tədricən ərəb istilalarının daha çox nüfuz etdiyi düzənlik ərazilərində islam dini bütün əvvəlki dini təsəvvürləri sıxışdırıb aradan çıxarmağa nail oldu. Bu ərazilərdə yaşayan yerli Alban əhalisi müsəlmanlaşdırıldı. Albaniyanın dağlıq vilayətlərinə, xüsusilə, Yuxarı Qarabağ vilayətlərinə gəldikdə isə burada əhalinin dini-etnik və mədəni siması başqa yolla, qriqorianlaşdırma yolu ilə dəyişdirilməyə məruz qaldı. Burada ayrıca bir faktı qeyd etmək lazımdır ki, əgər müsəlmanlaşdırma prosesi təbii yolla baş verirdisə (yəni, ərəb istilalarının daha çox düzənlik ərazilərə nüfuz etməsi, ərəblərin yeritdiyi sosial-iqtisadi siyasətin təsiri və s.), qriqorianlaşdırılma siyasəti isə zorla, yəni Alban xristian abidələrinin məhv edilməsi və ya görkəminin dəyişdirilməsi, Alban yazılı abidələrinin ya tamamilə məhv edilməsi, ya da qədim erməni dilinə - qrabara çevrilməsi və s. kimi zorakı yolla aparılırdı. Orta əsrlərin başlanğıcından Alban kilsəsinin Cənubi Qafqazda böyük nüfuza malik olması erməni

qriqorian kilsəsini çox narahat edirdi. Erməni katolikosları Alban kilsəsinin Cənubi Qafqazdakı nüfuzunu sarsıtmaq və öz nüfuzuna tabe etmək üçün Ərəb xilafətinin silahlı qüvvələrinin köməyinə əl atdılar. Əslində, erməni kilsəsinin bu çirkin niyyəti, qriqorianlaşdırma siyasəti hələ Sasanilərin zamanından başlanmış və XX əsrin əvvəllərinədək davam etmişdir. Qriqorianlaşdırma siyasətini həyata keçirərkən Erməni katalikosluğunun əsas dayağı xarici qüvvələr olmuşdur. Erkən orta əsrlərdə bu proses, qeyd olunduğu kimi, sasanilərin və Ərəb xilafətinin köməyi ilə həyata keçirilmişdisə, XIX-XX əsrlərin əvvəllərində bu proses ermənilərin yeni havadarı olan çar Rusiyasının köməkliyi ilə həyata keçirilmişdir. Erməni müəllifi Maqaki Ormanyan da təsdiq edir ki, "erməni ruhaniləri ərəb hakimlərinin əli ilə alabanların bütün ədəbi abidələrini dağıdıb, Alban mədəniyyətini, heç olmazsa, azacıq xatırlada biləcək hər şeyi məhv etmişlər. Bütün bu işlər, təkrar edirik, əvvəlcə Xilafətin köməyi ilə, sonralar isə digər istilaçıların icazəsi və köməyi ilə görülmüşdür" [2, s. 95]. Bu uzun davam edən proses 1836-cı ildə çar hökumətinin köməkliyi ilə Alban Avtokefal kilsəsinin ləğv edilməsi, onun Erməni Üçmüədzin kilsəsinin tabeliyinə verilməsi və nəhayət, 1909-1910-cu illərdə bilavasitə çar hökumətinin dəstəyi ilə Alban Avtokefal kilsəsinə məxsus olan bütün arxiv sənədlərinin məhv edilməsi ilə başa çatdı (3, s. 81).

Erməni kilsəsinin qriqorianlaşdırma siyasətini özünün xarakterik xüsusiyyətləri ilə seçilən iki dövrə bölmək olar: 1. VII-VIII əsrlərdən – XIX əsrin 20-ci illərinədək; 2. XIX əsrin 20-ci illərindən – XX əsrin əvvəllərinədək. Qeyd etmək lazımdır ki, birinci mərhələdə qriqorianlaşdırma siyasəti sırf dini səciyyə daşayırdı. Belə ki, bu mərhələdə erməni qriqorian kilsəsi Alban Avtokefal kilsəsini öz təsiri altına almağa, kilsə ayinlərinin alban dilində icra olunmasını ləğv etməyə, alban ruhanilərinin nüfuzunu sarsıtmağa, alban xristian ədəbiyyatını və incəsənətini məhv etməyə və ya məzmununu dəyişdirərək qrabara çevirməyə çan atırdı. Qriqorianlaşdırma siyasətinin birinci mərhələsində dönüş nöqtəsi VIII əsrin əvvəllərində erməni katalikosu İlyanın xəlifə Əbd ül-Malikə ünvanladığı məktubla başlandı. Məktubda erməni katalikosu İlya Alban kilsəsinin Bizansa meyl etməsini, katalikos Nerses Bakurun öz dualarında Bizans imperatorunun adını çəkməsini və bunula da Alban Avtokefal kilsəsinin Cənubi Qafqazda ərəb ağalığı üçün böyük təhlükə mənbəyi olduğunu bildirirdi. Cavab məktubunda xəlifə Əbd ül-Malik Alban katalikosu Nersesin cəzalandırılmasını, Alabn kilsəsində erməni kilsəsinə, yəni qriqorian kilsəsinə uyğun dəyişiklik edilməsini vəd edirdi (2, s. 94). Xəlifə Əbd ül-Malikin göndərdiyi cəza dəstələri Albaniyanın bizanspərəst feodallarına və Alban kilsəsinə divan tutdu. Katalikos Nerses həbs edildi, Alban kilsəsi bir müddət erməni katalikosu İlyanın sərəncamına verildi. Katalikos Nersesin dövründə Alban kilsəsində toplanmış bütün xristian ədəbiyyatı Tərtər çayına atılaraq məhv edildi (1, s. 189). Bu hadisə tədricən erməni kilsəsinin Alban ruhanilərini tutduqları mövqelərdən sıxışdırmağa, alban əhalisinin möhkəm qriqorianlaşdırılması siyasətinə təkan vermiş oldu. Erməni tarixçisi Suren Yeremyan qeyd edir ki, "Qriqorian kilsə xadimləri Arran (Alban – R.M.) ədəbi abidələrini məhv edərkən, əvvəlcə bu abidələri qrabara çevirirdilər" (4, s. 327).

Lakin IX əsrdə Ərəb xilafətinin süqutundan sonra qriqorianlaşdırma prosesi bir qədər zəiflədi. Siyasi səhnədə, artıq, xilafət kimi erməni kilsəsinə dəstək verə biləcək qüvvə mövcud deyildi. Erməni kilsəsi qriqorianlaşdırma siyasətini həyata keçirmək üçün özünün əsas alətindən – xarici dəstəkdən məhrum olmuşdu. Digər tərəfdən bu siyasət yerli albanların da ciddi müqaviməti ilə üzləşmişdi. Lakin faktlar göstərir ki, qriqorianlaşdırma siyasəti tamamilə dayandırılmamışdı. XII-XIII əsrlərdə yaradılan alban yazılı abidələri – Mixitar Qoşun "Qanunnamə"si, Gəncəli Kirakosun "Tarix"i və digər alban abidələrinin dili dəyişdirilərək qrabara çevrilmişdir.

Qriqorianlaşdırma siyasətinin növbəti mərhələsi XIX əsrin 20-ci illərindən, Cənubi Qafqazın çar Rusiyası tərəfindən işğalından sonra intişar tapdı. Əslində, çar Rusiyasının simasında erməni kilsəsi yeni havadar tapmışdı. Bu, həm də çar Rusiyasının müstəmləkə siyasətinin xarakterinə uyğun idi. Lakin qeyd etmək lazımdır ki, XIX əsrin əvvəllərində yenidən intişar tapan qriqorianlaşdırma siyasətinə yeni bir qol – ermənilərşdirmə istiqaməti də əlavə edildi. Əslində, ermənilərşdirmə siyasətini qriqorianlaşdırma siyasətinin məntiqi nəticəsi

də hesab etmək olar. 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə sülh müqavilələrindən sonra minlərlə ermənininin Cənubi Qafqaza, əzəli Azərbaycan torpaqlarına, o cümlədən Qarabağın dağlıq hissələrinə köçürülməsi də məhz bu siyasətə, qriqorianlaşdırma və ermənilşdirmə siyasətinə xidmət edirdi. Çar hökümətinin Cənubi Qafqazda xristian dininə münasibətdə erməni kilsəsinin xeyrinə yeritdiyi siyasət də bunu sübut edir. Belə ki, 1811-1814-cü illərdən başlayaraq Gürcü Provaslav Kilsəsinin müstəqilliyinin ləğv edilməsi və Peterburq Müqəddəs Sinodunun tabeliyinə keçirilməsi istiqamətində bir sıra qərarların verilməsi (3, s. 57-58), 1836-cı ildə Alban Avtokefal Kilsəsinin ləğvi və onun birbaşa erməni Üçmüədzin kilsəsinin tabeliyinə verilməsi [3. s. 60] bu siyasətin bariz nümunəsidir. Heç şübhəsiz ki, çar hökumətinin Alban kilsələrinin tamamilə ləğv edilməsi, əksinə, əvvəllər hətta adi bir eparxiyaya malik olmayan erməni Üçmüədzin kilsəsinin mövqeyinin gücləndirilməsi siyasəti, I Nikolayın fərmanı ilə yaradılmış "Erməni vilayəti"i üçün, yəni konturları çızılmaqda olan gələcək erməni dövləti üşün ideoloji mərkəzin formalaşdırılması kimi bir strategiyaya hesablanmışdı.

Beləliklə, erməni kilsəsinin erkən orta əsrlərdən baışlayaraq Alban kilsəsinə qarşı yeritdiyi qriqorianlaşdırma siyasəti Alban etno-mədəni irsini dağıtmağa və özüननküləşdirməyə istiqamətlənmiş məkrli bir siyasət idi. XIX əsrin əvvəllərindən etibarən çar Rusiyasının xeyir-duası ilə istiqamət verilən bu siyasət erməni və çar hakim dairələrinin əlində həm də ermənilşdirmə istiqamətinə rəvac verən bir aləti kimi istifadə edilmişdir.

Ədəbiyyat

1. Moisey Kalankaytuklu. Albaniya tarixi / Müqəddimə, tərcümə, qeyd və şərhlər Z.M.Bünyadovundur. Təkrar nəşri. Bakı: Avrasiya-press, 2006.

2. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989.

3. Гаджиева У. Деэтнизация кавказских албан в XIX веке. Баку: Нурлан, 2004.

4. Еремян С.Т. Идеология и культура Албании III-VII вв. / Очерки истории СССР: Кризис рабовладельческий системы и зарождение феодализма на территории СССР III-IX вв. М.: Изд.-во АН СССР, 1958, с. 323-330

Н.Д.Зейналов, Р.К.Маммадов

К проблеме григорианизации азербайджанских албан

Резюме

Статья посвящается одной из важных проблем истории Азербайджана. Здесь разбирается суть политики григорианизации, исторические предпосылки осуществления время от времени данной политики с раннего средневековья до рубежа XIX-XX веков. В статье политика григорианизации Армянской церкви против Албанской автокефальной церкви начиная с раннего средневековья оценивается как уничтожение албанского этнокультурного наследия и политика её присвоения. Далее, данная политика, направленная царской Россией, использовалась как орудие «армянизации» коренных албан.

N.D.Zeynalov, R.K.Mammadov

On the problem of gregoryanization of the Azerbaijanian Albans

Summary

The article was devoted to one of the important problems of Azerbaijan historiography. The main point of gregoryanization policy, historical conditions creating that the results of this process were researched from the early Middle Ages to the beginning of XIX-XX centuries. The gregoryanization policy of the Armenian church against the Albanian church from the early Middle Ages was the insidious policy to destroy the Albanian ethnocultural heritage and privatize it. This policy directed with the blessing of tsarist Russia was used like a tool leading to Armenisizing and in the hands of tsarist authorities.

Rəyçi: t.f.d. Ş.N.İsmayılov
Redaksiyaya daxil olub: 26.07.2017

А.Ф.АГАЕВА

Азербайджанский государственный университет нефти и промышленности
(г. Баку, пр. Азадлыг, 20)

«АРМЯНСКИЙ ВОПРОС» И ЕГО ТРАНСФОРМАЦИЯ В «КАРАБАХСКУЮ ПРОБЛЕМУ»

Ключевые слова: *террор, кризис, война, резня, банда, национализм, пропаганда, депортация, конфликт, вооруженная борьба, геноцид, аннексия*

Açar sözlər: *terror, böhran, müharibə, qırğın, band, millətçilik, təbliğat, deportasiya, münaqişə, silahlı mübarizə, soyqırımı, ilhaq*

Key words: *terror, crisis, war, slaughter, gang, nationalism, propaganda, deportation, conflict, armed struggle, genocide, annexation*

Существует особый термин – «армянский вопрос». Впервые он прозвучал в 1878 году на конгрессе в Берлине. Что удивительно, он приобрел всемирный статус и стал предметом заботы великих государств. «Армянский вопрос» то тут, то там задевает интересы других народов, вовлекает их в конфликты и войны. Армяне используют этот вопрос при любом удобном случае. Даже землетрясение в 1988 году было использовано для решения «армянского вопроса» - под видом гуманитарной помощи в Армению поставляли оружие.

«Армянский вопрос» имеет периодический характер - то подъем, то спад. Если в стране, где живут армяне, ситуация стабильная, то они занимаются националистической пропагандой среди армян и других национальностей. Но если происходит какой-то общественный кризис, то вспыхивает огонь межнациональных конфликтов. Иначе говоря, «армянский вопрос» все время тлеет, не переставая существовать.

Но в чём суть «армянского вопроса»? Как утверждают их идеологи и их церковь, армянская нация – самая древняя, цивилизованная, талантливая, трудолюбивая и добрая. Но она же самая несчастная и многострадальная. Исторические земли «Великой Армении» отняли кочевники – варвары, а их самих изгнали и уничтожали. Поэтому армяне рассыпаны по всему миру. Необходимо «восстановить справедливость» и вернуть армянам их «исконные земли». Причем все мировое сообщество обязано помочь им изгнать захватчиков с «исконно армянских земель». Но, самое главное, помочь после всего этого армянскому народу воссоздать «Великую Армению» от моря до моря - от Средиземного до Черного и Каспийского, т.е. объединить «Западную Армению» (почти вся Турция и Сирия) с «Восточной Арменией» (Азербайджан, Грузия, часть Ирана) и с «Северной Арменией» (Кавказ, включая Ставрополье, Краснодарский край, Ростовскую область). Известный русский историк, дипломат, кавказовед В.Л.Величко писал: «Об армянах издревле сложилось плохое мнение, и это, само собою разумеется, не лишено основания, так как иначе они не могли бы возникнуть у целых народов и притом в разное время (1).

Для крупных держав «армянский вопрос» являлся, впрочем, как и сейчас, удобным средством, для обеспечения своих геополитических интересов и осуществления коварных, а порой и кровавых, целей по отношению к странам, «притесняющим» армян. Прикрывая свои истинные цели, эти государства поощряли и подталкивали армян к кровавым действиям, террору. Так этот пресловутый вопрос использовался неоднократно всеми великими державами в дипломатических, политических и военных играх в качестве «армянской карты». Когда заканчивается

эксплуатация «армянского вопроса», они бросают армян, как представительницу древней профессии, на произвол судьбы, забывая о своих обещаниях и посулах.

Таким образом, становится очевидным, что «армянский вопрос» имеет две стороны: внутреннюю и внешнюю. Внутреннее содержание предполагало борьбу армян за воссоздание «Великой Армении». Внешняя сторона – сводилась к стремлению великих держав разрушить государственную основу Османской империи, с целью раздела ее территории.

Предпосылки «армянского вопроса» сложились еще в XVIII веке. Армяне, жившие на территориях пяти восточных вилайетов Османской Турции, составляли меньшинство населения в каждой из них (от 20 до 40%). В 1897 году были опубликованы документы МИД Франции, в котором отмечалось, что «ни в одном вилайете Турецкой империи не представляют армяне большинства населения: … и поэтому о независимой Армении нечего и думать» [2]. Величко В.Л. указывал, что в Турции не было территории для создания армянского государства и она искусственно создается в Закавказье.

У армян очень рано сложилась торговая буржуазия, которая играла значительную роль в экономике Османской империи. Одновременно, буржуазия через церковь руководила жизнью армянского народа, разбросанного по всей территории Малой Азии Турции.

По мере развития капитализма, началось наступление западных стран на Ближний Восток. К этому времени слабеющая Османская империя вызывала стремление западных держав к захвату ее территорий. В этом деле, как Запад, так и Россия искали себе опору среди восточных христиан внутри Турции. Для этого, как никто другой, подходили армяне, буржуазия которой вынашивала план создания независимого армянского государства на территории Османской империи.

Ставка Запада и России на армянскую буржуазию укрепила её и дала толчок развитию национального революционного движения армян. Среди русских и турецких армян началась проповедь пробуждения национализма.

Генерал Маевский – русский дипломат в Эрзеруме (1893-1903 гг) писал: «Армянин, прошедший хотя бы начальную приходскую школу, приобретает в высшей степени высокое мнение о политическом значении армянской нации, вообще у него является… большое самомнение и какая-то особая уверенность в том, что освободившись испод ига Турции, в будущем армянская нация непременно возродится и займет подобающее для нее политическое положение» (3).

Все это было результатом пропаганды, особенно среди молодежи, в котором активное участие принимала григорианская церковь. Армянское духовенство не столько проповедовало Божье слово, сколько поддерживало смуты, резню, национальную рознь христиан и мусульман.

Просвещенные государства Запада, особенно Англия, были заинтересованы в создании армянских банд, кровавых продолжительных смут. Французский посол в Турции, Камбон сообщал в те годы своему правительству, что в Турции идет сильная пропаганда армянского восстания, которую искусственно готовила Англия вместе с дашнаками. Всеми силами Англия старалась раздуть и осложнить беспорядки в Османской империи. Армянских агитаторов и пропагандистов подготавливали в столицах Европы, а также в России (Закавказье). Агитаторы зажигали чувство злобы и ненависти к мусульманам и их власти в душах подростков-армян. Так за короткое время армянская молодежь становилась готовой на кровавые подвиги в защиту иллюзий. Генерал Маевский подчеркивал, что «в Турции кровавые дела везде начинались по инициативе именно самих же армян» (3). Вся их деятельность основывалась на лжи, клевете, неслыханных жестокостях. Это делалось для создания симпатий к армянам и ненависти к туркам. Величко указывал, что «армяне обладали

природной склонностью к шпионству, измене и террору». (1) Армянские банды вызывали смуты, резню, а затем скрывались. Смуты в Османской империи происходили не из-за притеснения армян со стороны правительства, а наоборот, из-за слишком либерального отношения его к национальным и религиозным вопросам.

До русско-турецкой войны 1877-1878 годов армяне жили в Османской империи спокойной, нормальной жизнью. Русские, захватив в этой войне район Карса-Ардагана, вытеснили оттуда мусульман и поселили там 70 тысяч армян. «Армянский вопрос» был трагически осложнен вмешательством «великих держав», особенно России и Англии. Стремление России захватить Черное море, проливы Босфор и Дарданеллы прикрывалось лозунгами «борьбы за освобождение христианства от ига мусульманской Турции». (4)

Поверив лицемерным обещаниям России, армянская буржуазия приняла

российскую ориентацию и начала борьбу против Османской империи. Это резко изменило отношение турецкого правительства к армянской буржуазии, представители которой даже занимали видные государственные должности в стране.

Эта попытка царской России утвердиться на армянском нагорье была отбита ее главной соперницей на Ближнем Востоке – Англией. А именно, на Берлинском Конгрессе (1878 г.) Англия добилась того, что контроль за проведением реформ в армянских вилайетах Турции должен был осуществляться не только Россией, а всеми великими державами – участницами Конгресса. Армяне отказались от русской ориентации и с еще большей радостью связали свои надежды с западными державами. Английская дипломатия всячески поддерживала иллюзии армян о создании «Великой Армении от моря до моря». Англия не позволила России использовать армян в ее ближневосточной политике. Тайно договорившись с Турцией, и получив от ее правительства остров Кипр, в обмен на защиту Турции от России, Англия отступила. Армяне оказались брошенными на произвол турецкого правительства. Турки, оценив ту отрицательную роль, которую могут сыграть армяне в сложной игре великих держав, учинило над армянами физическую расправу. Отчаявшись, армяне перешли к вооруженной борьбе. Были созданы националистические партии «Гнчак» (1887 г.) и «Дашнакцутюн» (1890 г.), обладавшая регулярной армией в 100.000 человек. Обе партии обосновались в русском Закавказье (в Тифлисе). Оттуда на территорию Турции посылали пропагандистов и бандитские отряды. Их деятельность была направлена на то, чтобы принудить западные державы вмешаться и выполнить обязательства Берлинского трактата о реформах в армянских вилайетах. Однако и Турция, и Западные державы забыли об этом.

